ƏLİ HƏSƏNOV

# Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

Azərbaycan Dövlət Nəşriyyatı

B a k ı - 1998

BBK 327(Az)
h 42

Ön sözün müəllifi və rə'yçi: *Yaqub Mahmudlu* tarix elmləri doktoru, professor

Elmi redaktoru: *Ərəstun Mehdiyev* tarix elmləri namizədi

**Ə.M.Həsənov**
h 42 Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, Azərnəşrin qrifi ilə çap olunub, 1998

315 s.

*Monoqrafiyada müstəqil Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin əsas istiqamətlərindən biri olan Avropa dövlətləri və ABŞ-la diplomatik münasibətlərin, qarşılıqlı əlaqələrin qurulması və inkişafı, bu ölkələrlə əməkdaşlığın möhkəmləndirilməsi və respublikamızın dünya birliyinə inteqrasiya olunmasında ATƏT və NATO kimi beynəlxalq təşkilatların rolu məsələləri araşdırılmış, Azərbaycanın düzgün və perspektivli xarici siyasətinin formalaşdırılması, dünyanın aparıcı dövlətləri ilə bərabərhüquqlu qarşılıqlı münasibətlərin yaradılması və inkişafı sahəsində Prezident Heydər Əliyevin məqsədyönlü, ardıcıl diplomatik fəaliyyəti və onun nəticələri işıqlandırılmışdır.*

*Kitabda, eyni zamanda, Azərbaycan dövlətinin xarici siyasətinin vəzifələri, prinsip və xüsusiyyətləri, əsas istiqamətlərinin elmi-nəzəri, konseptual məsələləri də şərh edilmişdir.*

*Kitab müstəqil Azərbaycan dövlətinin xarici siyasət məsələləri ilə məşğul olan elmi işçilər, aspirantlar, tələbələr, diplomatlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

h $\frac{0803020000}{M - 651/07/-98}$

© Həsənov Ə.

# ÖN SÖZ

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət sahəsində qazandığı böyük uğurlar göz qabağındadır. Azadlıq və demokratiya yoluna yenicə qədəm qoymuş gənc Azərbaycan Respublikası keçilməmiş yolları gedir, özünün bütün xarici siyasət sistemini, ilk dəfə olaraq, qabaqcıl dünya təcrübəsi əsasında qurur. Diplomatiyamızın dünya meydanında bir-birini əvəz edən uğurlu addımları, hər şeydən əvvəl, Prezident Heydər Əliyevin zəngin dövlət quruculuğu təcrübəsi, dünyanın siyasi tarixi və müasir durumu barədə dərin və hərtərəfli biliyə malik olması ilə, bu nadir tarixi şəxsiyyətimizin beynəlxalq aləmdəki böyük nüfuzu ilə sıx bağlıdır.

Diplomatiyamızın uğurları asanlıqla əldə olunmur. Bu bir həqiqətdir ki, çağdaş Azərbaycan, bütün xalqımız müasir mərhələdə öz tarixinin ən mürəkkəb və ən şərəfli dövrünü yaşayır. **Ən'ənəvi xarici düşmənlərimiz Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi yaşamasının qarşısını almaq üçün əllərindən gələni edirlər.** Avropa ilə Asiya, Rusiya ilə Yaxın və Orta Şərq ölkələri arasında Qızıl körpü rolu oynayan Azərbaycanın azad yaşaması bu qüvvələri heç cür tə'min etmir. Müasir Azərbaycan dünya miqyasında çox qüdrətli beynəlxalq qüvvələrin mənafelərinin çarpazlaşdığı ən qaynar bölgələrdən birinə çevrilmişdir. Zəngin yeraltı və yerüstü sərvətlərə malik olan müstəqil Azərbaycana qarşı siyasi, hərbi, iqtisadi, mə'nəvi təzyiqlər ara vermək bilmir...

**Azərbaycanımız heç zaman bu günkü qədər geniş miqyaslı mənafelərin, ziddiyyətlərin düyün məntəqəsinə çevrilməmişdi.**

**Son dərəcə məkrli düşmənlərin Azərbaycan xalqına qarşı yüzillərlə sınaqdan çıxarmış olduqları "erməni kartı"ndan heç zaman indiki qədər fəal və geniş miqyasda istifadə olunmamışdır.** Rusiya, Fransa, ABŞ kimi böyük dövlətlərdə, habelə başqa ölkələrdə fəaliyyət göstərən erməni lobbisi bu gün həmişəkindən daha güclüdür. Həmin dövlətlərin hərbi-siyasi idarəçiliyinə tə'sir göstərmək üçün güclü vasitələrə - geniş maliyyə imkanlarına və mühüm mövqelərə

malik olan erməni lobbisi yaşadıqları ölkələrin Azərbaycanla münasibətlərinin yaxşılaşdırılmasına ciddi əngəllər törədir.

**Tarixdə heç zaman xarici qüvvələr Azərbaycanı daxildən parçalamaq, xalq içərisində etnik və vətəndaş qarşıdurması yaratmaq taktikasından bu qədər sistemli şəkildə istifadə etməmişlər. Nəhayət, heç zaman Vətənin sərvətlərini talamağa və bunun üçün də Yurdun içərisində yüksək mövqelər ələ keçirməyə çalışan millət xainləri - "sapı özümüzdən olan baltalar" xarici düşmənlərlə indiki qədər əlbir olmamış, onlara indiki qədər canfəşanlıqla xidmət göstərməmişlər.**

Bütün yuxarıda göstərilənlərdən əlavə, **Azərbaycanın müstəqil bir dövlət kimi yaşaması çox zəngin və qədim tarixə, min illərlə müstəqil yaşamaq və qüdrətli dövlətçilik ən'ənələrinə malik olan böyük bir xalqın oyanışı deməkdir. Müxtəlif tarixi dövrlərdə Ata yurdundan qəlpə-qəlpə qoparılıb alınmış torpaqların qaytarılması uğrunda ədalətli mübarizənin başlanması - yeni Azərbaycan intibahının başlanması deməkdir. Azərbaycanın müstəqilliyinin getdikcə möhkəmlənməsi,** həm də, dünyanın müxtəlif ölkələrinə səpələnmiş **40 milyonluq Azərbaycan xalqının ayağa qalxması, birləşməsi və öz haqqını tələb etməsi üçün qüdrətli tə'minatdır. Məhz bu amillər vaxtı ilə tarixi Azərbaycan torpaqlarını öz aralarında bölüşdürmüş düşmənlərə rahatlıq vermir.**

Bütün bunlar nəzərə alınarsa, Azərbaycan Respublikasının xarici siyasət strategiyasının formalaşmaqda olduğu hazırkı mərhələdə diplomatiya tariximizin tədqiq olunması, xarici siyasətimizin ayrı-ayrı problemlərinin elmi əsaslarla təhlil olunması, ümumiləşdirmələr aparılması həm elmi, həm də praktiki baxımdan böyük əhəmiyyətə malikdir.

Fərəhli haldır ki, bu istiqamətdə ciddi bir addım atılmışdır. Müstəqil Azərbaycanımızın xarici siyasətinə dair "Azərbaycan və ATƏT", "Azərbaycan - ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru" kimi qiymətli kitabları, habelə müxtəlif vaxtlarda ölkə mətbuatında dərc olunmuş iri həcmli silsilə məqalələri ilə oxuculara yaxşı tanış olan tarix elmləri namizədi Ə.M.Həsənov özünün daha bir tədqiqat əsəri üzərində işi başa çatdırmışdır. Müəllif "Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)" adlı yeni tədqiqatını oxucu mühakiməsinə təqdim etmişdir.



Ə.M.Həsənovun yeni araşdırması uzun və gərgin elmi axtarışların səmərəli məhsuludur, müstəqil Azərbaycan Respublikasının xarici siyasətini hərtərəfli və dərindən əks etdirən ilk fundamental tədqiqat işidir.

Son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə öz müstəqilliyini qoruyub saxlamağa və möhkəmləndirməyə çalışan gənc Azərbaycan dövlətinin çoxşaxəli xarici siyasətinin başlıca istiqamətini - Avropa ölkələri və ABŞ-la qarşılıqlı əlaqələrini bütöv halda, vahid monoqrafiya çərçivəsində əhatə etmək təşəbbüsü tədqiqatçıdan böyük cəsarət, eyni zamanda çoxsaylı faktlar əsasında dərin elmi təhlil və ümumiləşdirmələr aparmaq bacarığı tələb edir. Bu baxımdan alim gənc Azərbaycan Respublikasının xarici siyasətini hələ formalaşmaqda olduğu bir dövrdə ikən qələmə almaqla tarixşünaslığımızda ilk dəfə olaraq hələ heç kəs tərəfindən keçilməmiş bir yola çıxmış və bu sahədə ilk cığır açmaq kimi şərəfli bir işə girişmişdir.

Tarix elmləri namizədi Ə.M.Həsənov dünya təcrübəsinə, xüsusilə keçid dövrünü yaşamış başqa ölkələrin diplomatiya tarixinə müraciət edərək, həm də bu sahədə nəşr olunmuş qiymətli tədqiqat işlərini dərindən təhlil edərək öz tədqiqatının elmi-nəzəri istiqamətini qabaqcadan düzgün müəyyən etmiş, ölçüb-biçmiş, onu Azərbaycan faktları əsasında elmi təhlil süzgəcindən keçirmiş, Azərbaycan Respublikası xarici siyasətinin özünəməxsus xüsusiyyətləri və prinsipləri barədə çox maraqlı ümumiləşdirmələr aparmışdır. Bu baxımdan monoqrafiyanın "Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri, prinsip və istiqamətləri" adlanan birinci fəsli xüsusi maraq doğurur. Göstərilən fəsil alimin qələmə aldığı problemin tədqiqi sahəsində yüksək peşəkarlıq səviyyəsinə yüksəldiyini göstərir.

Əsərin sonrakı fəsillərində Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Fransa, Almaniya, Belçika, Norveç, Bolqarıstan və Rumıniya ilə əlaqələrindən, Qərb dövlətləri ilə münasibətlərdə ATƏT-in və NATO-nun rolundan geniş bəhs edilir.

Alimin öz tədqiqatında Amerika Birləşmiş Ştatları ilə əlaqələrə xüsusi diqqət yetirməsi, dövlətimizin xarici siyasət strategiyasının müəyyənləşdirilməsi və ölkənin qarşısında duran bir çox problemlərin

həllində bu istiqamətin həlledici rolunu geniş işıqlandırması, incəliklərinə qədər aşkarlaması diqqətəlayiqdir.

Ə.M.Həsənovun yeni tədqiqatı ilə tanış olduqca yaxın keçmişdə regionda, habelə dünya birliyində təklənmiş, olan-qalan nüfuzunu da itirmiş olan Azərbaycan Respublikasının, Heydər Əliyev prezident seçildikdən sonra onun gecəli-gündüzlü yorulmaz fəaliyyəti sayəsində beynəlxalq meydanda əldə etdiyi böyük uğurlar oxucunun gözləri önündə canlanır.

Əsəri vərəqlədikcə əmin olursan ki, hazırki dövrdə Azərbaycan diplomatiyasının ən böyük uğurlarından biri bundan ibarətdir ki, artıq, bədnam "Böyük Ermənistan" yaratmaq siyasəti yeridən erməni millətçilərinin dünya ölkələrini, birinci növbədə böyük dövlətləri Azərbaycana qarşı qaldırmaq, ölkəmizi beynəlxalq meydanda təkləmək və bununla da Azərbaycan ərazisinin bir hissəsini zor gücünə qoparıb ələ keçirmək planı iflasa uğramışdır.

Heç kəsə sirr deyildir ki, demokratik ənənələrə sədaqət və yüksək sivilizasiyalılıq müasir diplomatiyada başlıca şərtlərdən biridir. Xarici siyasətdə uğur qazanmaq, dünya birliyində özünə layiqli yer tutmaq istəyən hər bir xalq, hər bir dövlət məhz bu yolla getməlidir. Azərbaycan Respublikası ayrı-ayrı dövlətlərlə bağladığı müqavilələr, sazişlər və bir çox başqa rəsmi sənədlərdə, beynəlxalq təşkilatlar və birliklərlə qarşılıqlı münasibətlərində hamı tərəfindən qəbul olunmuş beynəlxalq normalara tərəfdar olduğunu dəfələrlə bəyan etmiş, atdığı konkret addımları ilə bu mövqeyə sadiq olduğunu sübut etmişdir. Dövlətimiz bir sıra beynəlxalq təşkilat, birlik, assosiasiya və ittifaqların üzvüdür. Keçmiş SSRİ respublikaları ilə uzun tarixi dövr ərzində yaranmış iqtisadi əlaqələri bərpa etmək məqsədilə MDB-yə daxil olmuş Azərbaycan Respublikası, eyni zamanda, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına da qoşulmuşdur.

Müasir mərhələdə Azərbaycan xarici siyasətinin ən mühüm və fərqləndirici xüsusiyyəti bundan ibarətdir ki, o yaxın keçmişdəkindən fərqli olaraq, tamamilə və bütünlüklə Azərbaycan xalqının, Azərbaycan dövlətinin ümumi mənafeyinə xidmət edir. İndi Azərbaycan diplomatiyası tək-tək dövlət adamlarının subyektiv baxışları və emosional mövqeləri üzərində deyil, obyektiv reallıq üzərində qurulur, beynəlxalq meydandakı qüvvələr nisbətinin və mənafelərin qarşılıqlı surətdə nəzərə alınmasına əsaslanır.



Azərbaycanın xarici siyasət mənafeyi və dünya dövlətlərinin Azərbaycandakı mənafeyi arasında tarazılıq yaratmaq xətti müasir diplomatiyamızda nəzərə çarpan başlıca xüsusiyyətlərdən biridir. Xarici siyasət sahəsindəki bugünkü uğurlarımız ilk növbədə məhz bununla bağlıdır.

Təqdirəlayiq haldır ki, Azərbaycan dünyanın bütün ölkələri və xalqları üçün açıq ölkə e'lan olunmuşdur. Başqa sözlə, gənc Azərbaycan Respublikası, ona başçılıq edən Prezident Heydər Əliyev böyük müdriklik, uzaqgörənlik, həm də cəsarət nümayiş etdirərək "açıq qapı" siyasəti yeridir. Müəyyən keçici çətinliklərinə baxmayaraq, bu cür siyasət dünyanın bütün ölkələrində, nəticə e'tibarilə, uğurla nəticələnmişdir. Bu siyasətin əsasında qarşılıqlı mənafe prinsipi və Azərbaycanın, istisnasız olaraq, dünyanın bütün xalqlarına və ölkələrinə münasibətdə yeritdiyi dostluq siyasəti durur.

Xarici siyasətdə uğurlarımızın mühüm şərtlərindən biri də məqsədyönlülük və ardıcıllıqdır. Daha doğrusu, diplomatiya həm strateji, həm də taktiki baxımdan məqsədyönlü, ardıcıl olmalıdır. Bu baxımdan Prezident Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan Respublikasının xarici siyasətində əsaslı dönüş baş verdi. Bu amil sözsüz ki, fərəhləndirici haldır və xarici siyasətdəki müvəffəqiyyətlərimizdə mühüm rol oynayır.

Azərbaycan Respublikası Prezidentinin BMT Təhlükəsizlik Şurasının üzvü olan böyük dövlətlərə, habelə başqa ölkələrə çoxsaylı səfərləri, BMT-nin baş məclisində həmçinin, başqa beynəlxalq toplantılarda çıxışları, görüşləri müstəqil dövlətimizin xarici siyasət tarixində mühüm dönüş kimi qiymətləndirilməlidir. Bu səfərlərdə Azərbaycan xarici siyasətinin iki mühüm istiqaməti - BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan böyük dövlətlərlə, ümumiyyətlə qərb ölkələri və ABŞ-la qarşılıqlı münasibətləri genişləndirmək xətti və islam-türk dünyası ilə tarixən mövcud olmuş əlaqələri yenidən bərpa etmək siyasəti aydın nəzərə çarpır.

Prezident Heydər Əliyevin xarici siyasət sahəsində ən mühüm uğurlarından biri də budur ki, o, Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ən'ənəvi dostluq münasibətlərimiz bərpa olundu. Hazırda Azərbaycan Respublikası qardaş türk dövlətləri ailəsinin bərabərhüquqlu üzvüdür.

Müstəqil Azərbaycan dövlətinin islam dünyasındakı nüfuzu da getdikcə artmaqdadır.

Azərbaycan Respublikası bir çox beynəlxalq ittifaqlar və təşkilatların üzvüdür.

Heydər Əliyev dövründə xarici siyasətimizdə diqqəti cəlb edən daha bir müsbət dönüş bundan ibarətdir ki, Azərbaycanın xarici iqtisadi əlaqələri və daxildə həyata keçirilən iqtisadi islahatlar ölkənin mühüm xarici siyasət problemlərinin həllinə yönəldilmişdir. Bu baxımdan dünyanın iri neft şirkətləri birliyi ilə bağlanan Neft müqaviləsi ("Əsrin müqaviləsi"), bundan sonrakı müqavilələr və sazişlər Azərbaycanın xarici siyasət problemlərinin həllinə müsbət tə'sir göstərir.

Yeri gəlmişkən, belə bir cəhəti xüsusi qeyd etmək istərdik ki, Prezident Heydər Əliyev bütün tarixi dövrlərdə, ən'ənəvi düşmənlərimizin həmişə Azərbaycana qarşı istifadə etdikləri "erməni kartı"na qarşı neft siyasəti strategiyasını işləyib hazırladı. Və sübut etdi ki, Qafqaz problemlərinin həllində "erməni kartı" yeganə vasitə deyil, əksinə ondan daha güclü vasitələr vardır. Uzaqgörən siyasətçilər indi yaxşı başa düşürlər ki, neft siyasətinin "erməni kartı"na və xarici ölkələrdəki erməni lobbisinə qalib gələcəyi gün uzaqda deyil. Yaxın gələcəkdə müəllifi Heydər Əliyevin olduğu bu siyasətin nə qədər dərindən düşünülmüş və uzaqgörən bir siyasət olduğunu zaman özü göstərəcəkdir.

Azərbaycan Respublikası bu gün yeritdiyi xarici siyasətlə özünün min illər boyu davam etmiş olan bir tarixi ən'ənəsinə də sədaqətini nümayiş etdirir: dövlətimiz regionun bütün ölkələrinə münasibətdə mehriban qonşuluq siyasəti yeridir. Azərbaycan öz tarixinin heç bir dövründə qonşularına qarşı müharibə ocağı, zorakılıq mənbəyi olmamışdır. Əksinə, Azərbaycan xalqı özünün bütün tarixi boyunca müxtəlif istiqamətlərdə zor işlədilməsinə, ərazi iddialarına mə'ruz qalmış və bütün bu sınaqlardan qələbə ilə çıxmışdır.

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanmışdır. Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırır. Yurdumuzda hökmranlıq edən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət tə'sir göstərir. Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrilmişdir.

Heydər Əliyev Azərbaycan Respublikasını şimaldan və cənubdan məngənəyə salıb sıxan, onun xarici ölkələrlə ən'ənəvi əlaqələrini kəsən qüvvələrə qarşı Şərq-Qərb dəhlizini açdı. Böyük ipək yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün məharətlə istifadə etdi. Dünya bunun şahididir. Dünya siyasətçiləri bunu qiymətləndirirlər. Gizli deyil ki, ermənilər də bu siyasətin uğuru qarşısında təlaş keçirməyə başlamışlar...

Heydər Əliyevlə siyasi mükalimədə uduzan ənənəvi düşmənlərimiz, indi, Qafqazda itirilmiş mövqeləri qaytarmaq, neft siyasətini uduzmamaq üçün siyasi şantaja, hərbi təzyiq və terrora, bir sözlə, siyasət cığallığına əl atmağa başlamışlar. 1998-ci ilin əvvəllərində Ermənistanda rusiyapərəst davakarların hakimiyyətə gətirilməsi, Gürcüstan Prezidenti E.A.Şevardnadzeyə qarşı təşkil olunmuş sui-qəsd və s. bu baxımdan uduzmuş oyunçuların cığallığından başqa bir şey deyildir. Bir sözlə, **zəmanəmizin qüdrətli siyasətçisi Prezident Heydər Əliyev öz doğma xalqını dibi görünməyən yarğanların, uçurumların üzərindən böyük müdrikliklə, incə və çevik siyasətlə, nazik tellər üzərindən keçirib gələcəyə aparır.**

**Bu gün yaşadığımız regionda təkcə Azərbaycanda xarici dövlətlərin bir nəfər də olsun əsgəri və hərbi bazaları yoxdur.** Beynəlxalq mənafelərin, o cümlədən böyük dövlətlərin və qonşuların mənafelərinin düyünləşdiyi Azərbaycan kimi çox mühüm hərbi-strateji və zəngin sərvətli bir ölkədə buna nail olmaq nə qədər böyük uğurdur!? Bunu, hətta, təsəvvür etməyin özü də çətindir!

Azərbaycan Prezidenti özünün ölkə miqyaslı qəbullarından tutmuş beynəlxalq miqyaslı görüşlərə, yüksək səviyyəli danışıqlarınadək hər yerdə, hər an Azərbaycan həqiqətini dünyaya yayır. **İndi Azərbaycan vaxtı ilə ona qarşı yaradılmış beynəlxalq informasiya blokadasını yarmışdır. Dünya Azərbaycan həqiqətini qəbul etməyə başlamışdır.**

Ermənistanın və onun havadarlarının Azərbaycana qarşı təcavüzkar siyasət yeritdiyi, ərazimizin bir hissəsinin işğal olunduğu

indiki dövrdə, təbiidir ki, Azərbaycanın xarici siyasətinin ağırlıq mərkəzi bu mühüm problem üzərinə düşür. Ə.M.Həsənovun araşdırmaları ilə tanış olduqca Azərbaycan dövlətinin, onun başçısı Heydər Əliyevin 1993-cü ildən bəri bu istiqamətdə apardığı son dərəcə gərgin mübarizənin, məqsədyönlü işin təkcə elə həcmi, miqyası insanı heyrətə salır. Tarixən o qədər də böyük olmayan bir zaman parçasında - 1993-cü ildən sonra - bu qədər geniş miqyaslı işləri görmək necə mümkün olmuşdur?!

"Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)" adlı monoqrafiyanı oxuduqca bütün bu həqiqətlər gözlərin önündə canlanır və əmin olursan ki, tarix elmləri namizədi Ə.M.Həsənovun gərgin əməyinin, uğurlu axtarışlarının nəticəsi olan bu tədqiqat əsəri **diplomatiya tariximizə sanballı töhfədir.** İnanırsan ki, Azərbaycan dövlətinin ərazi bütövlüyü tə'min olunduqdan sonra, Şərqlə Qərb, Şimalla Cənub arasında qızıl körpü rolu oynayan Azərbaycanımızın xarici ölkələrlə qarşılıqlı əlaqələri daha da genişlənəcək, indiki ilə müqayisə olunmayacaq dərəcədə çoxşaxəli və çoxplanlı xarakter alacaq, Azərbaycan Respublikası dünyanın ən tərəqqi etmiş dövlətlərindən birinə çevriləcək, Azərbaycan xalqı isə firavan yaşayan xalqlardan biri olacaq...

Vaxtı ilə hazırlıq (rabfak) fakültəsindən Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olan, məşəqqətli həyatın hər üzünü görən, dərs ə'laçısı kimi Moskva Dövlət Universitetinin Tarix fakültəsinə göndərilən və həmin Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra aspiranturada saxlanılan, nəhayət, Vətənə elmlər namizədi kimi qayıdan gənc alimi - keçmiş tələbəmi bu uğuru münasibəti ilə ürəkdən təbrik edirəm.

**YAQUB MAHMUDLU**
**BDU-nun professoru,**
**əməkdar elm xadimi**



## I fəsil

# Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri, prinsip və istiqamətləri

Hər bir müstəqil dövlət özünəməxsus prinsip və xüsusiyyətlərilə fərqlənən, müxtəlif istiqamətli daxili və xarici siyasət yeridir. Dövlətin daxili siyasəti xalqın ümumi rə'yi ilə yaradılmış və qəbul olunmuş Konstitusiya əsasında onun tam bir varlıq kimi yaşamasına, fəaliyyətinə, ictimai-siyasi, iqtisadi və mə'nəvi həyatın bütün sahələrində təmsil etdiyi vətəndaşların maddi və mə'nəvi tələbatının fasiləsiz tə'min edilməsinə yönəldilirsə, xarici siyasət bu vəzifələrin, o cümlədən kənardan müdaxilə edilmədən öz ərazisində qanunverici, icraedici və məhkəmə hakimiyyətinin həyata keçirilməsinə dinc, təhlükəsiz və əlverişli beynəlxalq şərait yaradılmasına, eyni vəzifələri yerinə yetirən ayrı-ayrı dövlətlərlə qarşılıqlı-faydalı əməkdaşlığa, iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələrində əldə edilmiş təcrübələrin bölüşdürülməsinə, qarşıya çıxan problemlərin aradan qaldırılması üçün dövlətlərin sə"ylərinin birləşdirilməsinə və s. xidmət edir. Başqa sözlə ifadə etsək, ölkə daxilində gedən proseslər, qarşıda duran vəzifələr və yeridilən siyasət dövlətin beynəlxalq münasibətlər sahəsində tutduğu mövqeni, atdığı addımları, yeritdiyi xarici siyasətin istiqamətlərini, xarakterini, prinsiplərini müəyyənləşdirir və şərtləndirir. Bu mə'nada xarici siyasəti dövlətin daxili inkişafının əsas vəzifələrindən irəli gələn, xalqın özəl dövlət mənafe ləri ilə xarici aləmin maraq və mənafeləri arasında sivilizasiyalı birgəyaşayış qaydaları və normaları əsasında uyğunlaşdırılmış, uzlaşdırılmış münasibətlər sistemi yaratmağa xidmət edən məqsədyönlü fəaliyyət növü kimi xarakterizə etmək

olar.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət tarixini öyrənmək, onun əsas vəzifələrini, prinsip və xüsusiyyətlərini, həyata keçirilməsi metodlarını araşdırmaq indiki şəraitdə mühüm elmi və praktiki əhəmiyyətə malikdir. Belə ki, bu problemin tədqiqi bir tərəfdən, xarici siyasət konsepsiyasının yaranması, təkmilləşdirilməsi və həyata keçirilməsi mərhələsini yaşayan müstəqil Azərbaycan dövlətinin gələcək diplomatik addımlarının atılmasında indiyə qədər buraxılan səhvlərin aradan qaldırılması, digər tərəfdən isə yeni istiqamətlərin və taktiki gedişlərin müəyyən edilməsi üçün zəruri elmi nəzəri bazanın yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin məqsədi, prinsipləri və əsas xüsusiyyətləri respublika Prezidenti Heydər Əliyevin ayrı-ayrı çıxışlarında və Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan Prezidenti 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir ki, "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini tə'min etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".(1)

Azərbaycan dövlətinin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələri aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

*-ölkənin müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə sıx bağlamaq;*

*-bütün beynəlxalq və regional təşkilatlara üzv olmaq, sivilizasiyalı birgəyaşayış qaydaları ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq, dünyanın siyasi xəritəsində layiqli yer tutmaq, beynəlxalq və regional münasibətlərin həllində layiqincə təmsil olunmaq;*

*-dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən respublikanın iqtisadiyyatını, elmini və mədəniyyətini inkişaf etdirmək üçün istifadə etmək;*

*-mənafeyi Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn, üst-üstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək;*

*-ölkəmizin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, müstəqil daxili və xarici siyasət aparılması, kənardan müdaxilə edilmədən dövlət quruculuğunun həyata keçirilməsi üçün dinc beynəlxalq şəraitin bərqərar olmasına çalışmaq;*

*-əhalinin əsas hüquq və azadlıqlarının qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaratmaq;*

*-regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına sə'y göstərmək;*

*-xarici dövlətlərin respublikamıza göstərdiyi təzyiqlərin qarşısını almaq üçün beynəlxalq himayəyə nail olmaq;*

*-dövlətimizin bütün beynəlxalq, regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirakına çalışmaq;*

*-düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə etmək;*

*-xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr və geniş informasiya mübadiləsi mexanizmləri yaratmaq və s.*

Bütün bu vəzifələr həm Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ayrı-ayrı çıxışlarında, həm də beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində Azərbaycan dövlətinin atdığı praktiki addımlarda, bağlanan müqavilələrdə öz əksini tapmışdır.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasəti özünəməxsus xüsusiyyətləri ilə də seçilir. Azərbaycanın xarici siyasətinin mahiyyətinə və xüsusiyyətlərinə toxunan Prezident Heydər Əliyev qeyd etmişdir ki, "...bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi

güdmürük. Lakin eyni zamanda respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə tə'min etməyə çalışacağıq".(2)

**Siyasi sahədə** Azərbaycan dövlətinin xarici siyasətinin əsas mahiyyəti beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən sivilizasiyalı dövlətlərarası münasibətlərə hörmət etməkdən, beynəlxalq, regional və dövlətlərarası münaqişəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan;

**iqtisadi sahədə** - qarşılıqlı- faydalı iqtisadi əməkdaşlıq yaratmaqdan, dünya ölkələrinin imkanlarından Azərbaycan iqtisadiyyatının, Azərbaycanın imkanlarından isə dünya dövlətlərinin mənafelərinin tə'min olunması üçün səmərəli istifadə etməkdən, iqtisadi maraqların uzlaşdırılmasından, uyğunlaşdırılmasından, qarşılıqlı tə'minat və onun qorunmasından;

**mədəni sahədə** - dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan, mə'nəvi sərvətlərin maneəsiz, azad və demokratik mübadiləsindən və s. ibarətdir.

Respublikamızın xarici siyasətinə xas olan xüsusiyyətlərdən bəhs edərkən Azərbaycan Prezidenti beynəlxalq, regional və dövlətlərarası münasibətlərin inkişaf tendensiyasına uyğun çevik, praqmatik və tarazlı siyasət yeridilməsini, qonşu ölkələrlə münasibətlərə üstün yer verilməsini, dünya siyasətinə əhəmiyyətli tə'sir göstərən böyük dövlətlərlə xüsusi iş aparılmasını, onların maraqları ilə Azərbaycanın strateji inkişaf mənafelərinin uzlaşdırılması zəruriyyətini və s. mühüm amilləri də xüsusi vurğulamışdır.

Azərbaycan demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğundan onun xarici siyasəti də dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə əks etdirir və hər cür etnik və dini məhdudiyyətləri inkar edir. Azərbaycanın müasir xarici siyasəti açıq və demokratik prinsiplər əsasında qurulmuş, xalqımızın və dövlətimizin mənafelərinə, mentalitetinə zidd olmayan bütün beynəlxalq normaları özündə birləşdirmişdir.

Müstəqilliyinin ilk illərində Azərbaycanın xarici siyasətini etnik və dini təəssübkeşlik üzərində qurmağa cəhd edən ayrı-ayrı siyasi



dairələr və dövlət rəhbərləri zamanın sınağından çıxa bilmədilər. Çünki beynəlxalq aləmin yüzillərlə yaranmış və formalaşmış sivilizasiyalı münasibətlər sistemi dövlətlərarası əlaqələrin etnik və milli birlik amili üzərində deyil, tərəflərin mənafelərinin tarazlığı, qarşılıqlı tə'minatı üzərində qurulmasını tələb edirdi. Heç şübhəsiz dövlətlərin etnik və dini təəssübkeşlik üzərində qurulmuş əlaqə və münasibətlərinin çoxəsrlik tarixi var və bu amili tamamilə inkar etmək mümkün deyil. Bu amil hər zaman dövlətlərarası münasibətlərin qurulması və inkişafına öz ciddi tə'sirini göstərmiş və bundan sonra da göstərəcəkdir. Lakin dövlətlərarası münasibətlərin sırf etnik və dini mənsubiyyət əsasında qurulması, bir qayda olaraq, beynəlxalq münasibətlərin inkişaf tendensiyası ilə ziddiyyət təşkil edir və dövləti beynəlxalq təcridolunmaya məhkum edərək faciəvi sonluqla bitir. Eyni dinə və soykökə malik xalqlar və dövlətlər arasında əlaqələrin qurulması, mədəni, humanitar və s. əlaqələrin gücləndirilməsi ifrat millətçi və dini meyllərin yaranması istiqamətində deyil, bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq, dünya inteqrasiyası istiqamətində inkişaf etdirilməlidir.

1993-cü ilin ikinci yarısından Azərbaycanın xarici siyasət sahəsində tutduğu yolun mahiyyəti məhz bu amillərlə xarakterizə olunur. Ölkə Konstitusiyasının 7-ci maddəsində göstərilir ki, Azərbaycan dövləti *demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.*(3) Deməli, onun xarici siyasəti də bu prinsipləri özündə əks etdirməli, beynəlxalq münasibətlərin sivil və demokratik əsaslar üzərində qurulmasına istiqamətlənməlidir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətini səciyyələndirən əsas cəhətlərdən biri də onun beynəlxalq hüquq normalarına, beynəlxalq prinsiplərə uyğun şəkildə qurulmasıdır. Respublika *Prezidenti Heydər Əliyevin həyata keçirdiyi xarici siyasət* xəttində, beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində diplomatiyamızın gördüyü bütün işlərdə bu norma və prinsiplər daim qorunur və nəzərə alınır. Bu mövqedən çıxış edən Azərbaycanın xarici siyasəti xalqın və dövlətin strateji maraqlarını, xarici siyasət qarşısında duran əsas vəzifələri tam əks etdirməklə bərabər, həm də beynəlxalq hüquq normalarına, beynəlxalq təşkilatların əsas

prinsiplərinə, sivil birgəyaşayış qaydalarına tam uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur"(4). Beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər Azərbaycanın da üzv olduğu BMT-nin nizamnaməsində, ATƏT-in "Helsinki aktı"nda və "Paris xartiyasında" öz əksini tapmışdır. (5)

**Azərbaycan dövlətinin beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində əsaslandığı əsas prinsiplər aşağıdakılardan ibarətdir:**

-Hər bir dövlətin suveren hüquqlarına hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, ölkələrin dövlət quruculuğu və sosial-siyasi inkişaf modelləri arasındakı fərqlərdən asılı olmayaraq seçdiyi inkişaf yoluna hörmətlə yanaşmaq, dövlətlərarası münasibətlərdə beynəlxalq normaları və öhdəlikləri vicdanla yerinə yetirmək;

-beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun olaraq dövlətlərin ərazi bütövlüyünün pozulmasına, sərhədlərinin zorla dəyişdirilməsinə və dövlət müstəqilliyinin təhlükə altına alınmasına yol verməmək, mübahisəli məsələləri dinc yolla həll etmək;

-ictimai-siyasi, iqtisadi və mədəni əlaqələrdə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq, ortaq maraq və mənafeləri qorumaq, qarşılıqlı təhlükəsizliyə can atmaq, dinc və faydalı əməkdaşlıq üçün perspektivli addımlar axtarmaq və həyata keçirmək;

-ikitərəfli əlaqələrdə beynəlxalq hüquq normalarını və sivilizasiyalı birgəyaşayış qaydalarını, başqa dövlətlərin, regional və beynəlxalq birliklərin mənafelərini nəzərə almaq;

xalqların və millətlərin öz müqəddəratlarını tə'yin etməsinə hörmət etmək, insan hüquqlarını və haqqlarını qorumaq;

-separatizmə, terrorçuluğa, dövlətlərin və xalqların təhlükəsizliyinə, maddi və mə'nəvi həyatına ziyan verə biləcək digər neqativ hallara qarşı birgə mübarizə aparmaq;

-bəşəriyyəti və ayrı-ayrı dövlətlərin xalqlarını narahat edən qlobal problemlərin həllinə birgə çalışmaq, bütün sə'yləri birləşdirmək və sair.



Beynəlxalq prinsiplər BMT, ATƏT və digər beynəlxalq təşkilatların üzvü olmuş bütün dövlətlər üçün məcburi xarakter daşıyır. Bəşər cəmiyyəti bəhs etdiyimiz prinsipləri beynəlxalq münasibətlər sisteminin və sivilizasiyalı birgəyaşayışın əsas hüquq normasına çevirmək üçün yüzillərlə qanlı müharibə və dağıntılarla müşayiət olunan tarixi bir dövr keçmişdir.

Hazırda bütün dünya dövlətləri, regional və məhəlli təşkilatlar istər ayrı-ayrılıqda, istərsə də birgə bağladığı müqavilələrdə, həyata keçirilən tədbirlərdə, BMT-nin nizamnaməsində, ATƏT-in 1975-ci ildə imzalanmış "Helsinki aktı"nda və 1990-cı il "Paris Xartiyasında" öz əksini tapmış prinsip və normaları qorumağa, onlara əməl etməyə borcludurlar.

Beynəlxalq hüquq normaları və prinsipləri hazırda beynəlxalq münasibətlər praktikasında hamının qəbul edə biləcəyi, sivilizasiyalı dövlətlərarası münasibətlərin inkişafına və möhkəmlənməsinə bu və ya digər dərəcədə müsbət tə'sir göstərə biləcək yeni-yeni kollektiv sənədlərlə, müqavilə və maddələrlə zənginləşdirilir. Azərbaycan son üç ildə otuza qədər belə birgə sənədə imza atmış, özünün hüquqi fəaliyyət və öhdəlik dairəsini genişləndirmişdir.

Müstəqil Azərbaycan diplomatiyası bəhs olunan sivil məcraya və normal inkişaf istiqamətinə düşmək üçün 1991-ci ilin sonundan günümüzə qədər mürəkkəb və ziddiyyətli bir yol keçmişdir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət tarixinə nəzər saldıqda aydın olur ki, 1991-ci ildə və 1992-ci ilin birinci yarısında Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Rusiya-Azərbaycan əlaqələri və bütövlükdə yalnız Rusiyaya meyllilik strategiyası təşkil edirdi. A.Mütəllibov hökuməti SSRİ-nin dağılması ərəfəsində dünyada və SSRİ-də gedən ictimai-siyasi proseslərə, beynəlxalq və regional hadisələrin inkişaf tendensiyasına zidd siyasət yeridərək, bütün mümkün vasitələrlə imperiyanı qoruyub saxlamağa və Azərbaycanın bu qurum tərkibindən ayrılmasına yol verməməyə çalışırdı. Bu məqsədlə hətta o, SSRİ-nin dağılmasına cəmi bir neçə ay qalmış Sovetlər İttifaqının saxlanılması haqqında Moskvanın təşkil etdiyi referendumun (mart 1991-ci il) Azərbaycanda da keçirilməsinə nail olmuş, səsvermədə iştirak edənlərin guya 93,3%-nin SSRİ-nin



KİTABXANASI

saxlanılmasına tərəfdar olması haqqında mərkəzə saxta mə'lumat vermişdi. O zaman Naxçıvan Muxtar Respublikasının Ali Məclisi SSRİ-nin saxlanılması haqqında Naxçıvan ərazisində referendum keçirməkdən imtina etmiş, beləliklə də əhalinin müstəqillik əzmini və arzularını nümayiş etdirmişdir.(6)

Əslində xalqın təzyiqi və o zamankı ictimai-siyasi proseslərin tə'siri ilə A.Mütəllibov hakimiyyəti dövründə qəbul edilmiş 30 avqust 1991-ci il "Müstəqillik haqqında bəyannamə" və 18 oktyabr 1991-ci il "Müstəqillik haqqında Konstitusiya Aktı" da SSRİ-nin tam dağılmasını təsdiqləyən 8 dekabr 1991-ci il Belovejsk sazişinə qədər hüquqi sənəd qüvvəsinə mindirilmədi. Onun hüquqi sənəd kimi qüvvəyə malik olmasını tə'min edəcək "Müstəqillik haqqında " referendum yalnız 1991-ci il dekabrın 29-da keçirildi və SSRİ-nin saxlanılması haqqında 1991-ci il mart referendumunun nəticələri qüvvədən salındı. (7) Bütün bunlar göstərir ki, Azərbaycan hökuməti o dövrdə nəinki müstəqil siyasət yeritmirdi, əksinə respublikanın o zamankı müstəqillik imkanlarına hər vasitə ilə mane olmağa çalışırdı.

SSRİ dağıldıqdan və Azərbaycan müstəqil dövlət statusu aldıqdan sonra belə A.Mütəllibov hökuməti xarici siyasətdə yalnız Rusiyaya birtərəfli üstün meyllilik və beynəlxalq münasibətlərə Moskvanın mövqeyinə uyğun yanaşma kursu götürdü. Bu da sözsüz ki, həmin dövr üçün nə Azərbaycanın iqtisadi, siyasi maraqlarını əks etdirir, nə də onun müstəqilliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının qorunması və beynəlxalq tə'minatına cavab verirdi. Buna görə də həmin mərhələdə yeridilən siyasət Azərbaycanın dövlət mənafelərini bütövlükdə nə dövlətlərarası, nə də regional və beynəlxalq münasibətlərin əsas inkişaf tendensiyası ilə uzlaşdırmağa imkan vermədi və verə də bilməzdi. Çünki A.Mütəllibov hökuməti müstəqil dövlətçilik mənafelərini əks etdirən ardıcıl və prinsipial xarici siyasət yeritmirdi. Bu da belə bir nəticə çıxarmağa əsas verir ki, Azərbaycanın bəhs etdiyimiz dövrdə bütövlükdə Rusiya prizması və mövqeyi üzərində qurulan xarici siyasəti çətin ki, müstəqil dövlətin xarici siyasət kursu kimi qiymətləndirilsin.

Azərbaycanın siyasi hakimiyyətində dəyişiklik baş verdikdən



sonra, yə'ni 1992-ci ilin mart ayından 1993-cü ilin iyun ayına qədərki dövrdə də yeni hakimiyyət xarici siyasət sahəsində dövlətin qarşısında duran strateji məqsədlərə nail olmaq baxımından A.Mütəllibov dövründən uzağa gedə bilmədi. Əgər birinci mərhələdə məqsəd və məramı bilinməyən xarici siyasət birbaşa Moskvadan diqtə olunurdusa və hər şey Rusiyaya, onun rəhbərlərinin mövqeyinə bağlı idisə, ikinci mərhələdə bunun əksinə, lakin yenə də birtərəfli qaydada, obyektiv gerçəklik, dövlətin real vəziyyəti və mənafeləri nəzərə alınmadan yalnız Türkiyə ilə münasibətlərə üstünlük verilməsi, başqa dövlətlərlə əsassız gərginliyin yaradılmasına səbəb olan addımların atılması və s.kimi ziyanlı hallar açıq müşahidə olunan ən'ənə halını alırdı. Bunu isə Azərbaycanın dövlətçilik mənafeyinə cavab verməyən, düşünülməmiş, təhlükəli, ağır və gözlənilməz nəticələr doğuran xarici siyasət xətti kimi qiymətləndirmək olar.

Qeyd olunan dövrdə Azərbaycan hökumətinin xarici siyasətini xarakterizə edən əsas cəhətlərdən biri vahid xətt üzrə aparılan ardıcıl və prinsipial xarici siyasət kursunun olmaması idi. Ə.Elçibəy hökumətinin xarici siyasət kursu və beynəlxalq münasibətlər sahəsində həyata keçirdiyi tədbirlər bütövlükdə vahid bir konsepsiya və sistem əsasında deyil, ayrı-ayrı məs"ul vəzifə sahiblərinin təsadüfi bəyanatları, çox vaxt bir-birini təkzib edən, ziddiyyətli və emosional çıxışları üzərində qurulmuşdu. Xarici siyasət və diplomatik missiya qarşısında duran əsas vəzifələri, Azərbaycan dövlətinin strateji mənafelərini, regional və beynəlxalq münasibətlər sahəsində dövlət siyasətinin əsas mahiyyətini müxtəlif səviyyəli dövlət rəhbərləri fərqli şəkildə izah edərək, bir-biri ilə uzlaşmayan addımlar atırdılar.

Cənubi və Şimali Azərbaycanın tə'cili birləşdirilməsinə dair çağırışlar, Ermənistanı atom bombası ilə dağıtmaq, Rusiya və keçmiş sovet respublikaları ilə haqq-hesab çəkməyə hazırlıq haqqında bəyanatlar, bütün türkdilli və türkəsilli dövlətləri dərhal "birləşdirməyə", "Çinə türk bayrağı sancmağa" dair yüksək səviyyələrdə səslənən müraciətlər Azərbaycanın xarici siyasətinin ali məqsədi və vəzifələri, əsas prinsip və istiqamətləri haqqında beynəlxalq aləmdə yanlış rə'y yaradır, respublikamızın beynəlxalq

imicinə zərbə vururdu. Bütövlükdə təsadüfi bəyanatlar, məs"uliyyətsiz və ziddiyyətli çıxışlar üzərində qurulmuş xarici siyasət Azərbaycanın bir ilin içərisində regionda və beynəlxalq aləmdə tam təklənməsinə və respublika ətrafında antiazərbaycan koalisiyasının yaranmasına səbəb oldu.

Ə.Elçibəy hökumətinin xarici siyasət sahəsindəki əsas səhvlərindən biri də respublikamız ətrafında yaranmış regional və beynəlxalq münasibətlərin xarakterini, əsas tendensiyasını və axarını düzgün müəyyən edə bilməməsi idi.

Mə'lum olduğu kimi, bəhs edilən dövrdə Azərbaycan dövlətinin xarici siyasəti o zaman müvəffəqiyyət qazanana bilərdi ki, mövcud geosiyasi məkan, şərait, qüvvələr nisbəti və dövlətlərin mövcud məqamda tə'sir dairəsi tam aydınlaşdırılsın, zaman, məkan, şərait və obyektiv reallığa əsaslanan xüsusi tədbirlər proqramı hazırlansın və həyata keçirilsin. Xarici siyasətin uğurlu nəticələrinə nail olmaq üçün ən azı **Avropa - Rusiya, Amerika - Rusiya, Avropa - İran - Amerika, Rusiya - İran, Rusiya - Türkiyə, Türkiyə - İran, Avropa-Azərbaycan-Ermənistan, Amerika - Azərbaycan - Ermənistan, Türkiyə - Azərbaycan - Rusiya** və s. dövlətlərarası münasibətlərdə respublikamızın yeri, rolu, geosiyasi əhəmiyyəti haqqında geniş informasiya mübadiləsi və analitik təhlilə əsaslanan aydın və ardıcıl strateji kursun müəyyənləşdirilməsi, dövlətlərarası münasibətlərdən, onların toqquşan və kəsişən maraqlarından Azərbaycanın strateji inkişaf və müstəqillik maraqlarını tə'min etmək məqsədi ilə məharətlə istifadə olunması, çevik və düşünülmüş manevrlərin həyata keçirilməsi zəruri idi. Lakin qeyd olunan dövrdə bütün bu amillər Azərbaycan hökumətinin diqqət mərkəzindən tamamilə kənarda qalmış, birtərəfli xarici siyasət xətti seçilmiş, beynəlxalq münasibətlər sisteminin ağırlıq mərkəzləri düzgün müəyyən edilməmişdi.

1992-1993-cü ilin birinci yarısında Azərbaycanda yeridilən xarici siyasətin əsas səciyyəvi cəhətlərindən biri ayrı-ayrı region dövlətlərinin bölgədə kəsişən və toqquşan tə'sir və nüfuz dairələrinin düzgün qiymətləndirilməməsi və real şəraitlə uyğunlaşmayan diplomatik addımların atılması idi. Reallıq ondan ibarət idi ki,



Azərbaycan və bütövlükdə Qafqaz regionu həmin vaxt tamamilə Rusiyanın tə"sir və nüfuz dairəsində idi. Buna baxmayaraq, Azərbaycanda 1992-ci ildə həyata keçirilən hakimiyyət dəyişikliyinin Moskvada sakit qarşılanmasından və Rusiyanın regionda gedən proseslərə münasibətdə müvəqqəti passivlik nümayiş etdirməsindən doğan eyforiya respublika rəhbərliyində guya Azərbaycanın artıq özünün xarici siyasəti, beynəlxalq və regional əlaqələri sahəsində mövcud beynəlxalq qüvvələr nisbətini, qonşu dövlətlərin mənafelərini nəzərə almadan yalnız öz maraqlarını ön plana çəkərək, sərbəst addımlar atmaq imkanı əldə etməsi haqqında yanlış təsəvvürlər yaratmışdı.

Regional məsələlərin həllində Rusiya amilini, bu bölgədə onun tə"sir dərəcəsini qiymətləndirməmək, onunla bütün əlaqələri rəqiblik münasibətləri üzərində qurmaq Ə.Elçibəy hökumətinin yeritdiyi xarici siyasətin sadəlövh stereotiplərdən azad ola bilməməsinin və primitivliyinin nəticəsi idi. Ümumiyyətlə, Rusiya ilə qarşıdurma xəttinə üstünlük verilməsi Azərbaycanda nəinki müstəqilliyə heç bir xeyir gətirməmiş, əksinə, respublikanın ictimai -siyasi və iqtisadi vəziyyətini gərginləşdirmiş, Dağlıq Qarabağ və təhlükəsizlik problemlərini daha da mürəkkəbləşdirmiş, Azərbaycanın dövlətçiliyini məhv olmaq təhlükəsi qarşısında qoymuşdu. Rusiyanın regionda nüfuz dairəsini və tə'sir gücünü qiymətləndirməmək, Azərbaycanın müstəqil dövlətçilik taleyində iki dövlət arasındakı münasibətlərin oynadığı rola obyektiv yanaşmamaq respublikamızın müstəqillik və dövlətçilik maraqları ilə kəskin ziddiyyət təşkil edirdi. Əslində, Azərbaycanın dövlətçilik mənafeləri bu böyük şimal qonşusu ilə əlaqələrin bütün mümkün vasitələrindən bəhrələnməyi, hərtərəfli düşünülmüş siyasət yeritməyi və çevik manevrlər etməyi tələb edirdi.

Ə.Elçibəy hökumətinin xarici siyasəti nə onun diplomatlarının düşündüyü kimi, "Rusiyanı beynəlxalq aləmin tə"siri ilə Qafqaz regionunda baş verən hadisələrə müdaxilədən təcrid edə bildi", nə "Azərbaycan-Ermənistan sərhədlərini bağlayaraq separatçı erməniləri ərazisində yaşadığı dövlətin qayda-qanununa riayət etməyə çağırmaqla" Dağlıq Qarabağ problemini həll etdi, nə Ermənistan

tərəfindən beynəlxalq hüquq normalarına əməl edilməsinə nail oldu, nə də ki, İran dövlətini "tarixi zərurəti dərk edərək Cənubi Azərbaycanı dinc yolla öz tərkibindən buraxmayacağı təqdirdə Azərbaycanın qəzəbinə düçar olacağına" inandırıb, ona əməli tə"sir göstərə bildi. Əksinə, səthi və düşünülməmiş xarici siyasət, real vəziyyəti qiymətləndirməmək, şəraitə uyğun gəlməyən addımlar atmaq həm Dağlıq Qarabağ problemini öz məhvərindən çıxardı, Ermənistana təcavüzkarlığını genişlən dirməyə və buna görə cəzasız qalmağa şərait yaratdı, həm də Rusiya və İranla münasibətləri xeyli kəskinləşdirdi, region hadisələrinə onların antiazərbaycan mövqedən yeni müdaxiləsinə təkan verdi. Azərbaycanın bu dövrdə həyata keçirdiyi xarici siyasətin ən acınacaqlı sonluğu isə onun regionda və beynəlxalq aləmdə tam təklənməsi və böyük qüvvələrlə mübarizədə məğlubiyyəti oldu.

Azərbaycan Respublikası xarici siyasətinin əsas səciyyəvi cəhətlərindən biri də həmin dövr üçün Azərbaycanın geostrateji əhəmiyyətinin və dünya dövlətlərinin mənafe müstəvisində yerinin düzgün qiymətləndirilməməsi idi. Hakimiyyət dairələrində heç bir siyasi məntiqə və elmi- analitik təfəkkürə söykənməyən belə bir fikir formalaşmışdı ki, guya Azərbaycan Respublikasının müstəqillik mənafeləri, ərazi bütövlüyü və təhlükəsizlik məsələləri ABŞ, Avropa dövlətləri, Türkiyə və b. ölkələr üçün böyük əhəmiyyət kəsb etdiyinə görə onlar Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə və təhlükəsizliyinə qəsd edən digər dövlətlərə tə'sirli təzyiq göstərəcək, hətta, lazımi anda müharibə belə e'lan edəcəklər. Soyuq müharibə dövründə dünyanın SSRİ və ABŞ arasında nüfuz və tə'sir dairəsinə bölünməsi uğrunda mübarizə haqqındakı köhnə stereotiplər zamanın siyasi mübarizə metodlarının dəyişməsini, region və dünya dövlətlərinin ideoloji qarşıdurmadan iqtisadi mənafe mübarizəsinə keçmələrini dərk etməyə mane olmuş, **Rusiya - Avropa, Rusiya-ABŞ, Avropa - ABŞ - yeni müstəqillik qazanmış dövlətlər və Rusiya** münasibətlərinin mahiyyətini, əsas istiqamət və vəzifələrini, hər bir dövlətin ayrılıqda strateji və beynəlxalq təhlükəsizliyə tə'siretmə qabiliyyətini obyektiv qiymətləndirməyə imkan verməmişdir. Unutmaq olmazdı ki, dünya ölkələri strateji və



iqtisadi baxımdan Azərbaycanın əhəmiyyətini axıra qədər dərk etməyincə, onunla yaradılacaq münasibətlərin regionda və beynəlxalq aləmdə doğura biləcəyi nəticələri hərtərəfli araşdırmayınca, Azərbaycanın beynəlxalq prinsiplərə uyğun ardıcıl daxili və xarici siyasət yeridəcəyinə əmin olmayınca ABŞ-ın və Avropanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların himayəsini və dəstəyini qazanmaq mümkün olmayacaq.

Qərb ölkələrini və ABŞ-ı Azərbaycanda və regionda baş verən ictimai-siyasi proseslərə, onunla bağlı beynəlxalq məsələlərə fəal cəlb etmək, Qafqazda xüsusi tə"siri olan Rusiyaya qarşı daha ardıcıl fəaliyyət göstərməyə sövq etmək üçün çox gərgin və məqsədyönlü diplomatik iş aparılması tələb olunurdu.

Azərbaycanın geostrateji əhəmiyyəti, onun beynəlxalq aləmdə yeri və rolu dünya dövlətlərinə sübut edilməli, respublikanın müstəqil dövlət mənafelərinin beynəlxalq himayəsinə nail olmaq üçün xüsusi tə'sir gücünə malik olan dövlətlərin və beynəlxalq qurumların siyasi, iqtisadi və ideoloji maraqları Azərbaycanda hərtərəfli tə'min olunmalı idi.

1992-ci və 1993-cü ilin birinci yarısında Azərbaycan diplomatiyasının ölkənin geosiyasi mövqeyini və beynəlxalq aləm üçün kəsb etdiyi əh əmiyyətini şişirtməsi nəticə e'tibarilə respublikanı ağır vəziyyətə saldı. Bir tərəfdən, region dövlətləri ilə münasibətlər kəskinləşdi, digər tərəfdən isə Azərbaycanın beynəlxalq mövqeyinin zəif olduğu özünü büruzə verdi, ölkə ictimaiyyətinin beynəlxalq himayəyə olan inamı sarsıldı. Nəticədə Azərbaycan bu vəziyyətdən irəli gələn problemlər qarşısında təkbaşına qaldı. Əslində Türkiyə və ABŞ-a həddən artıq güvənmək və başqa heç bir region dövlətinin mövqeyini və mənafelərini (Rusiya, İran və b.) nəzərə almamaq, onlarla xüsusi diplomatik işə ehtiyac duymamaq yanlış siyasi xətt idi. Azərbaycanın geosiyasi əhəmiyyətinin, beynəlxalq və regional münasibətlər sistemində tutduğu yerin düzgün qiymətləndirilməməsinin nəticəsi idi ki, Rusiya - Azərbaycan - Ermənistan münasibətlərində yaranmış problemlərin həllinə nə Qərbi Avropa, ABŞ və Türkiyə əhəmiyyətli tə"sir göstərdi, nə irticaya qarşı dünya demokratiyasının kəsərli səsi və təzyiqi yüksəldi, nə də ki,

Azərbaycanın özünün imkanlarından lazımi səviyyədə istifadə olundu. Azərbaycan yenə də Rusiya, Ermənistan, İran kimi dövlətlərlə kəskin münasibətlər şəraitində öz problemləri ilə təkbətək və üzbəüz qaldı.

Beləliklə, Ə.Elçibəy hökumətinin xarici siyasət xətti Azərbaycan dövlətini beynəlxalq aləmdən tamamilə təcrid etməklə bərabər, həm də respublikaya xüsusi marağı olan bə"zi dövlətləri narahat edərək müəyyən addımlar atmağa sövq etdi. Bütün bunlar Azərbaycanda dövlət quruculuğu sahəsində baş alıb gedən hərc-mərclik, özbaşınalıq, ayrı-ayrı dövlətlər və siyasi dairələr tərəfindən dəstəklənən silahlı qüvvələrin hakimiyyət uğrunda mübarizəsi ilə müşayiət olunurdu. Nəticədə 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi qaçılmaz böhran və məhvolma təhlükəsi qarşısında qaldı.

1993-cü ilin yayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyi onun xarici siyasət fəaliyyətinin də yeniləşməsinə və ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk növbədə keçmiş sələflərinin xarici siyasət sahəsində buraxdığı səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış son dərəcə kəskin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq, ölkənin strateji maraqlarını əks etdirən yetkin xarici siyasət konsepsiyası hazırlamaq zərurəti ilə üzləşdi.

Eyni zamanda, Azərbaycan dövlətinin strateji maraqlarını respublikamızda kəsişən beynəlxalq mənafelərlə, region dövlətlərinin və Qafqazda xüsusi tə'siri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmaq üçün silsilə tədbirlər düşünülüb həyata keçirilməli, respublikamızın maraqlarını qorumaq və reallaşdırmaq üçün hərtərəfli ölçülüb-biçilmiş addımlar atılmalı idi. Bu işin ən çətin tərəfi müxtəlif dövlətlərin bütövlükdə Qafqaz regionu və bilavasitə Azərbaycan Respublikası üzərində köklənmiş imperiya ambisiyaları, ərazi iddiaları, iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizəsinin reallıqlarını, onların kəsişən və toqquşan maraqlarını dəqiq müəyyənləşdirmək, çevik manevrlər və xüsusi taktiki gedişlərlə Azərbaycanın dövlətçilik mənafelərini maksimum qorumaq idi.



Digər tərəfdən, geniş elmi və analitik təhlil əsasında Azərbaycanın geosiyasi vəziyyəti və dövlətin ona tə'sir etmək üçün real imkanları öyrənilməli, bütün diplomatik imkanlar və vasitələr səfərbər edilməli, müvafiq tədbirlər proqramı işlənib hazırlanmalı idi. 1993-cü ilin ikinci yarısına qədər Azərbaycanın beynəlxalq aləmdə uğursuzluğa düçar olması əsasən məhz bu amillərin nəzərə alınmaması nəticəsində baş vermişdir.

Planetimizdə yaranmış bugünkü reallıq ondan ibarətdir ki, beynəlxalq və regional məsələlərin həllinə və yönümünə tə'sir etmək imkanına görə dövlətlər bir neçə qrupa ayrılır:

*-Tam müstəqil və aparıcı siyasət yeridən, beynəlxalq münasibətlərin yönümünü müəyyən edən fövqəldövlətlər;*

*-Bitərəf siyasət yeridən, planetin qlobal problemlərinə və münaqişəli məsələlərə əsasən müdaxilə etməyən dövlətlər (bu qrupa, başlıca olaraq, sabit iqtisadi, siyasi və sosial vəziyyətə malik olan, heç bir regional və beynəlxalq konfliktə cəlb olunmayan və təhlükəyə mə'ruz qalmayan, təhlükəsizlik maraqları bitərəflik tələb edən ölkələr daxildir);*

*-Beynəlxalq münasibətlərin yönümünü müəyyən edən ayrı-ayrı ölkələrin siyasətini dəstəkləyən, bu qəbildən olan dövlətlərarası və regional münasibətlərə uyğun siyasət quran və çevik manevr edən, bununla da öz dövlətçilik mənafelərini qoruyan dövlətlər.*

İlk dəfə məhz 1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq münasibətələrə tə'sir etmə imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər müstəvisində yeri, Avropa ölkələri və ABŞ-la, keçmiş ittifaq respublikaları və Rusiya ilə, müsəlman dünyası və İranla, türkdilli dövlətlər və Türkiyə ilə, Cənubi Asiya dövlətləri və başqa ölkələrlə əlaqələrinin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi, hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, bütün amilləri nəzərə alan sistemi yaradıldı.

Azərbaycanın müstəqil dövlət quruculuğu maraqları, o cümlədən

müstəqilliyin möhkəmləndirilməsi, təhlükəsizliyin, ərazi bütövlüyünün və iqtisadi maraqların tə'min olunması özünəməxsus xüsusiyyətlərlə, vəzifə və taktiki gedişlərlə fərqlənən müxtəlif istiqamətli xarici siyasət yeridilməsini tələb edirdi. Ona görə də Prezident Heydər Əliyev Azərbaycanın müstəqilliyinin dönməzliyinə nail olmaq, ölkəni tədricən ən'ənəvi siyasi tə'sir dairəsindən çıxarmaq, tarixən formalaşmış iqtisadi, siyasi və mədəni əlaqələrdən onun müstəqillik mənafeləri üçün daha səmərəli istifadə olunmasını və Şərqlə Qərb arasındakı münasibətlər sistemində Azərbaycanın özünəməxsus yer tutmasını tə'min etmək üçün region dövlətlərinin köklü mənafelərinə və maraqlarına toxunmamaq şərti ilə tarazlı siyasət mexanizmlərini həyata keçirməyə başladı.

İlk növbədə regionda böyük tə'sir gücünə malik olan Rusiya ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan, ikitərəfli və çoxtərəfli münasibətlər sistem inin yaradılması işi başlandı. İki ölkə arasındakı münasibətlərin kəskinləşməsinin qarşısı alındı, hər iki tərəfin mənafeyinə cavab verən iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı üçün bir sıra addımlar atıldı.

Rusiyanın tə'sir və nüfuz dairəsindən çıxmaq, müstəqil dövlət quruculuğu prosesində bu dövlətlə əlaqələrdən bəhrələnmək, bə'zi imperiyapərəst qurumları bitərəfləşdirmək məsələsi Azərbaycanın xarici siyasət kursunda müstəqil bir istiqamət kimi həyata keçirilməyə başlandı. 1993-cü ilin sentyabrın 6-da Heydər Əliyev Moskvada Rusiya Prezidenti Boris Yeltsin və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması məsələlərini müzakirə etmiş, sentyabrın 24-də isə Azərbaycanın MDB-yə daxil olması haqqında sənədləri imza lamışdır. (8)

Rusiya-Azərbaycan münasibətlərini normallaşdırmaq üçün bütün incəlikləri nəzərə alan yollar, vasitələr araşdırıldı, çevik manevrlər və xüsusi taktiki gedişlər edildi. Xüsusən Avropa ölkələri və ABŞ-ın tə'sir mexanizmlərindən düzgün bəhrələnmək, onların Rusiya dövləti ilə Qafqaz regionunda kəsişən maraqlarından, bu maraqların reallaşması uğrunda aparılan mübarizədən Azərbaycanın mənafeyi naminə istifadə etmək məqsədilə tə'sirli diplomatik tədbirlər həyata keçirildi.



Rusiyanın Azərbaycana təzyiq mexanizmlərinin tə'sirini tədricən aradan qaldırmaq üçün Qərb ölkələri, MDB və regionun digər dövlətləri ilə iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində məqsədyönlü və ardıcıl siyasətin yeridilməsi ön plana çəkildi. Azərbaycan kimi Rusiyanın iqtisadi və nəqliyyat təzyiqlərinə mə"ruz qalan Gürcüstan, Ukrayna, Qazaxıstan və Orta Asiya respublikaları ilə sıx əlaqələr yaradıldı, Rusiyanın regionda təzyiqini və xüsusi çəkisini azaltmaq, Avropa və ABŞ-ın tə'sir gücünü artırmaq üçün mövcud disbalans yavaş-yavaş aradan qaldırılmağa başlandı.

Eyni zamanda, müstəqil dövlətçilik problemlərini həll etmək, bu yolda düçar olduqları təzyiqlərə birgə sinə gərmək, yeni iqtisadi və dövlətlərarası münasibətlərə uyğun ikitərəfli və çoxtərəfli əlaqələr yaratmaq məqsədilə digər MDB dövlətləri, xüsusən 1993 -cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Orta Asiya respublikaları və Qazaxıstanla əlaqələrin köklü şəkildə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi.

Həmin dövr üçün Azərbaycanın xarici siyasət fəaliyyətində mühüm əhəmiyyət kəsb edən istiqamətlərdən biri də Qafqaz bölgəsinin dövlətləri və xalqları ilə mehriban qonşuluq münasibətlərinin yaranması idi. Çünki tarix boyu bu regionda baş verən ictimai-siyasi hadisələr bu xalqların və dövlətlərin bir-birinə qarşı qoyulması yolu ilə gərginləşdirilmiş, Qafqaz dövlətlərinin ümumi təhlükəsizlik sisteminin yaradılmasının qarşısı hər vəchlə alınmışdır. Təhlükəsizlik problemlərinin və strateji dövlətçilik *mənafelərinin* eyniliyi, dövlətlərin qarşı-qarşıya qoyulması imkanlarının aradan qaldırılması zərurəti bu regionda xüsusi xarici siyasət yeridilməsini və region dövlətləri arasındakı əlaqələri hərtərəfli tənzimləyən münasibətlər sisteminin yaradılmasını tələb edirdi. 1993-cü ilin sonundan başlayaraq Azərbaycanın xarici siyasətində bu istiqamətə xüsusi yer ayrıldı. 1994-cü ildə Ermənistan-Azərbaycan cəbhəsində atəşkəsin əldə olunması, 1996-cı il martın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı "Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan - Gürcüstan Bəyannaməsinin imzalanması respublikamızın Qafqazda həyata

keçirdiyi xarici siyasətin mühüm uğuru idi. Tbilisidə iki dövlət başçısının imzaladığı birgə Bəyannamə "Ümumi Qafqaz evi" ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcını qoydu. (9)

Azərbaycan dövləti özünün bütün inkişaf tarixi boyu İran və Türkiyə kimi böyük, nüfuzlu və regionda xüsusi tə"sir gücü olan dövlətlərlə qarşılıqlı münasibətlərdə olmuşdur. İstər Azərbaycanın hər iki dövlətlə ayrı-ayrılıqda, istər birgə, istərsə də bu iki dövlətin öz aralarında mövcud olan əlaqələri hər zaman respublikamızın həm daxili həyatı, həm də beynəlxalq vəziyyətinə öz tə"sirini göstərmişdir. Ona görə də, müstəqil Azərbaycan diplomatiyası hər iki dövlətlə öz əlaqələrini elə qurmalı idi ki, bir tərəfdən, onların imkanlarından və bölgədə kəsişən maraqlarından Azərbaycan dövlətçiliyinin mühüm problemlərinin həll edilməsində istifadə etsin, digər tərəfdən, respublikanın inkişafını və maraqlarını bu iki dövlət arasındakı münasibətlərin tə"sirindən azad etsin.

Lakin Azərbaycan hökuməti 1993-cü ildə özünün xarici siyasətini cənub qonşusu olan İranla kəskin siyasi-ideoloji qarşıdurma şəraitində h əyata keçirmək məcburiyyəti ilə üzləşdi.

İran- Azərbaycan münasibətləri xarakterinin bütün dövrlərdə yalnız Azərbaycanın beynəlxalq vəziyyətinə deyil, hətta respublikanın daxili həyatına da əhəmiyyətli dərəcədə tə'sir göstərmək imkanlarını nəzərə alan Azərbaycan diplomatiyası İranla kəskinləşdirilmiş siyasi-ideoloji qarşıdurmanı dayandırmaq, münasibətləri mehriban qonşuluq və əməkdaşlıq üzərində yenidən qurmaq, iki ölkə arasındakı əlaqələri bütün mümkün yollar və vasitələrlə yaxşılaşdırmaq üçün 1993-cü ilin ortalarından başlayaraq gərgin və səmərəli iş apardı. Bunun nəticəsində artıq 1993-cü ilin sonu- 1994-cü ilin əvvəlində bu qonşu dövlətlə əlaqələrdə dönüş yaratmaq mümkün oldu.

1993-cü ilin yayından başlayaraq Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi. 1992-1993-cü illərdə Azərbaycan-Türkiyə əlaqələrində etnik birlik amili ön plana çəkilmişdi. Bu isə həm respublikada müxtəlif etnik problemlərin meydana çıxmasına, arzuolunmaz proseslərin güclənməsinə təkan vermiş, həm də bütün dünyada Azərbaycanın və Türkiyənin nüfuzuna xələl gətirmiş, qərəzli və ziyanlı antitürk və antiazərbaycan



təbliğatının genişlənməsinə şərait yaratmışdır. Əslində həyata keçirilməsi üçün heç bir real şərait olmayan, ayrı-ayrı qonşu dövlətləri və Azərbaycanda yaşayan bə'zi azsaylı xalqları qıcıqlandırmağa xidmət edən "türk birliyi" ideyasının Ə.Elçibəy hökuməti tərəfindən dövlət siyasəti səviyyəsinə qaldırılması, bir çox dövlətləri Azərbaycana qarşı arzuolunmaz tədbirlər həyata keçirməyə sövq etməklə 1992-1993-cü illərdə həm regionda, həm də beynəlxalq aləmdə respublikamızın mövqelərinə güclü zərbə vurmuşdur.

Bu siyasət Azərbaycan və Türkiyə ilə bə'zi qonşu dövlətlər (Yunanıstan, İran, Rusiya və s.) arasında münasibətlərin pisləşməsinə və hətta kəskinləşməsinə səbəb olmuşdu. Azərbaycan hökuməti nümayəndələrinin mövcud beynəlxalq münasibətlər sisteminin reallıqlarına əsaslanmayan bəyanatları həm Azərbaycanı, həm də onun tarixi müttəfiqi olan Türkiyəni çətin vəziyyətə salmış, nəticə e'tibarı ilə onların beynəlxalq aləmdə təklənməsinə gətirib çıxarmışdı. Beləliklə, bütün regionda antitürk əhvali-ruhiyyəsini daha da gücləndirən açıqlamalar nəinki türk dövlətlərinin birliyinə nail olmaq üçün əhəmiyyətli addımların atılmasına kömək etmiş, əksinə bu birliyə daha ağır zərbə endirmişdi. Buna görə də Heydər Əliyev hökuməti tam etnik birlik üzərində qurulmuş Azərbaycan-Türkiyə münasibətlərini normal, sivilizasiyalı, qarşılıqlı faydalı iqtisadi-siyasi əməkdaşlıq və tərəfdaşlıq münasibətləri üzərinə keçirmək üçün uzun müddət işləmək zərurəti qarşısında qaldı. Eyni zamanda, region dövlətlərini və beynəlxalq qurumları iki ölkə arasındakı münasibətlərin sivil əlaqələr və iki müstəqil dövlətin beynəlxalq birgəyaşayış normalarına söykənən qarşılıqlı mənafeyi üzərində qurulduğuna inandırmaq üçün, təbii ki, bir neçə il ardıcıl iş aparmaq lazım gəldi.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin qarşısında duran ən mühüm məsələlərindən biri də Avropa ölkələri və ABŞ-la münasibətlərin tənzimlənməsindən, Azərbaycan ilə həmin ölkələr arasında əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı münasibətlərin qurulmasından ibarət idi. Bunun üçün ilk növbədə Azərbaycanın geosiyasi əhəmiyyəti və iqtisadi tərəfdaş olmaq imkanları obyektiv qiymətləndirilməli, Azərbaycanın və Qərbin

iqtisadi və siyasi maraqları uzlaşdırılmalı, onların həyati mənafeləri respublikamızda maddiləşdirilməli idi. Digər tərəfdən, bütövlükdə Rusiyanın tə'sir və nüfuzu, Qərbin isə maraq dairəsində olan Azərbaycan dövləti elə siyasət yeritməli idi ki, respublikamızın geosiyasi və iqtisadi əhəmiyyətindən onun dövlətçilik, müstəqillik və təhlükəsizlik maraqlarının qorunmasında maksimum istifadə edilsin.

1993-cü ilin axırlarından başlayaraq Azərbaycanın həm Şərq, həm də Qərb ölkələri ilə münasibətləri ayrı-ayrı təsadüfi əlaqələr səviyyəsindən sistemli bir kurs səviyyəsinə qaldırıldı. Bunun üçün Şərq və Qərb anlayışını vahid geosiyasi məkan kimi qəbul etmək taktikasından, dövlətlərin ayrı-ayrı və birgə maraqlar sistemi üzərində qurulmuş yeni taktikaya keçmək istiqamətində mühüm işlər görüldü.

Uzun müddət Azərbaycanın xarici siyasət idarəsində Avropa və Asiya ölkələrinə "Qərb" və "Şərq" adı altında vahid geosiyasi məkan kimi baxılmış, onların iqtisadi və siyasi maraqları bir tam kimi, eyni qəlibə sığan yeknəsək bir maraq kimi qəbul edilmişdir. Bu da həmin dövlətlərlə münasibətlərin sistemsiz, ölkəmizin maraqlarını vəhdət surətdə əks etdirən müəyyən prinsiplərə söykənmədən, kortəbii olaraq qurulmasına gətirib çıxarmışdır. Halbuki, Azərbaycanın müstəqil dövlətçilik mənafeləri ayrı-ayrı dövlətlərin maraqlarını, onların regional və beynəlxalq qurumlarda birləşdirilmiş maraqlarından seçməyi, hər ölkə ilə, o cümlədən regional və beynəlxalq təşkilatların hər biri ilə ayrı-ayrılıqda əlaqələr yaratmağı, bu əlaqələrin əsas vəzifələrini, istiqamət və prinsiplərini dəqiqləşdirməyi, müvafiq taktiki addımlar atmağı tələb edirdi. Beynəlxalq və regional birliklər daxilində də dayaq və müttəfiq axtarmaq tələb olunurdu. Çünki ayrı-ayrı birlik ölkələrinin strateji maraqları Azərbaycanda eynilik təşkil etmirdi.

Bə'zi dövlətlərin Azərbaycanla uyğun mənafelərə, digərlərinin isə ziddiyyət təşkil edən maraqlara malik olduğunu nəzərə alaraq, 1993-1996-cı illərdə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri, vəzifələri, başlıca me'yar və prinsipləri, mövcud beynəlxalq münasibətlər sistemində onların həyata keçirilməsinin daha səmərəli yolları və vasitələri ətraflı nəzərdən keçirildi, dərin elmi-nəzəri təhlil aparıldı. Geniş informasiya şəbəkəsi və strateji



araşdırmalar əsasında regional birliklərlə və ayrı-ayrı ölkələrlə diplomatik işin tam mükəmməl bir sistemi yaradıldı.

1993-cü ilin sonundan başlayaraq respublikamız üçün strateji əhəmiyyət kəsb edən, ayrı-ayrı nüfuzlu və inkişaf etmiş, planetin qlobal məsələlərinin həllində xüsusi tə'sir gücünə malik dövlətlərin diqqətini Azərbaycana cəlb etmək üçün də çox böyük işlər görülmüşdür.

İlk əvvəl onların regional və beynəlxalq maraqlar sistemi öyrənilmiş, bu maraqların Azərbaycanda maddiləşdirilməsi və respublikamızın maraqları ilə uzlaşdırılması işi xüsusi düşünülmüş və bununla da Azərbaycana münasibətdə həmin dövlətləri gözləmə taktikasından region hadisələrinə fəal müdaxilə və Azərbaycanın ədalətli tələblərini müdafiə mövqeyinə keçirmək üçün ardıcıl diplomatik gedişlər edilmişdir. Bir sözlə, Azərbaycanın yeni xarici siyasət kursu respublikamızın strateji mənafeyinə uyğun olaraq, dünyanın aparıcı dövlətlərini Azərbaycanın müstəqil və qüdrətli dövlət olacağı zamanı gözləmədən, onun müstəqil və inkişaf etmiş ölkələr sırasında layiqli yer tutmasına hər cür şərait yaratmasına xidmət edən faydalı əməkdaşlıq yoluna sövq etdi. Heydər Əliyevin siyasi xətti qısa bir vaxtda nəinki Azərbaycanı bu ölkələrin əsas maraq dairəsinin fəal obyektinə çevirmiş, həm də respublikamız üçün həyati əhəmiyyət kəsb edən müstəqil dövlətçilik mənafelərini onların iqtisadi və siyasi maraqları ilə hərtərəfli uzlaşdıra bilmişdir. Bir sözlə, bəhs edilən dövrdə bu dövlətlərin maraqlarının Azərbaycan adlanan təbii-coğrafi və hüquqi-siyasi məkanda maddiləşməsi üçün hərtərəfli daxili və beynəlxalq şərait yaradılmışdır.

İndi dünyanın aparıcı dövlətlərinin iqtisadi və siyasi maraqlar sisteminə daxil olan müstəqil Azərbaycan dövləti öz təhlükəsizliyi və digər dövlətlər ilə sivilizasiyalı birgəyaşayış əlaqələri yaradılması üçün tam beynəlxalq tə'minat qazanmışdır. Nəzərə alsaq ki, müstəqil dövlət quruculuğunun həyata keçirilməsinə və onun təhlükəsizliyinə nail olmağın daxili amili əhalinin müstəqillik iradəsi və əzmi, xarici amili isə beynəlxalq tə'minat hesab olunur, onda bu gün inamla söyləmək olar ki, müstəqil Azərbaycan dövlətinin qorunması və inkişafını şərtləndirən hər iki amilin tə'min edilməsi və

möhkəmləndirilməsi 1993-1996-cı illərdə müstəqil Azərbaycan diplomatiyasının qazandığı ən böyük uğuru kimi qiymətləndirilə bilər.

Müstəqillik və dövlətçilik mənafelərini qorumaq, bu sahədə qarşıya çıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün Azərbaycan diplomatiyası bəhs etdiyimiz dövrdə beynəlxalq və məhəlli təşkilatlarla da sıx əlaqələr yaratmaq, beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində də mühüm işlər gördü.Xüsusən BMT, Avropa Birliyi, Avropa Şurası, ATƏT, MDB, İslam dünyası ölkələrini birləşdirən İKT, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO, Qara dəniz ətrafı dövlətləri birləşdirən Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatlarla sıx inteqrasiyanın, onlarla hərtərəfli münasibətlər qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirildi və həyata keçirildi.

Müstəqil dövlət quruculuğunun bütün dövrlərində, Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifələrdən biri də Ermənistanın təcavüzünün dəf edilməsi, respublikamızın pozulmuş ərazi bütövlüyünün bərpa olunması və işğalçıların ölkə ərazisindən çıxarılmasından, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyini qazanmaqdan ibarət olmuşdur. Dağlıq Qarabağ ətrafında yaranmış münaqişənin səkkiz illik qanlı tarixi göstərdi ki, beynəlxalq rə'yi nəzərə almadan, ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin dəstəyinə nail olmadan, gərgin və hərtərəfli düşünülmüş diplomatik iş aparmadan güc tətbiq etməklə bu məsələnin həllinə yönələn hər bir cəhd əvvəlcədən acı nəticəyə və uğursuzluğa məhkumdur.

Ona görə də Azərbaycanın diplomatiyası bu dövrdə bütün gücünü, bir tərəfdən, müstəqil dövlətimizin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, dünyanın ən qabaqcıl və inkişaf etmiş ölkələri ilə ictimai-siyasi, iqtisadi və mə'nəvi həyatın bütün sahələrində inteqrasiya olunmasına, digər tərəfdən isə Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ və respublikamızın ərazi bütövlüyü problemlərinin həllinə yönəltməli idi. Bunun üçün bu problemin dünya səviyyəsinə çıxarılması və həlli



ilə bağlı xüsusi bir konsepsiya hazırlanmalı və ardıcıl siyasi kurs yeridilməli idi.

**Əvvəla,** Ermənistanı və Dağlıq Qarabağ probleminin ermənisayaq həllini dəstəkləyən ölkələri bitərəfləşdirmək, bu məsələdə əvvəlcədən bitərəf qalan dövlətləri tərəfimizə çəkmək, Azərbaycanın müstəqil dövlətçiliyində marağı olan və onu müdafiə edən dövlətləri və beynəlxalq təşkilatları Azərbaycanla daha sıx bağlamaq, onların Ermənistana təzyiq etməsi üçün hərtərəfli düşünülmüş müvafiq diplomatik və siyasi iş aparmaq;

**İkincisi,** Dağlıq Qarabağın və bu bölgə ətrafında yaranmış problemlərin tarixini, mahiyyətini və köklərini hərtərəfli açıqlamaq, Azərbaycanın haqq səsini bütün dünya ictimaiyyətinə çatdırmaq, mövcud olan informasiya boşluğunu doldurmaq və dünyada ictimai rə'yi respublikamızın xeyrinə formalaşdırmaq məqsədilə qeyd olunan problemin milli zəmin əsasında baş verən etnik münaqişə və ya insan hüquqlarının pozulması ilə meydana çıxan qarşıdurma deyil, Azərbaycanın istiqlaliyyəti yolunda sün'i yaradılmış maneə, onun müstəqilliyinin qarşısını almaq üçün ayrı-ayrı dövlətlər tərəfindən düşünülmüş siyasi məsələ və Ermənistanın Azərbaycana olan ərazi iddiasının bilavasitə nəticəsi olduğunu inandırıcı şəkildə bütün dünyaya bəyan etmək;

**Üçüncüsü,** Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan dövlətinə qarşı yönəlmiş çıxışlarının beynəlxalq separatizmin tərkib hissəsi kimi ziyanlı, ağır nəticələr törədən və digər dövlətlərin də ərazisində oxşar problemlərin alovlanmasına təkan verən təhlükəli bir hərəkət olduğunu sübut etmək, dünya ictimaiyyətini belə təhlükənin qarşısını almağın vacibliyinə inandırmaq;

**Dördüncüsü,** bu problemin Azərbaycanın Avropaya və ABŞ-a meyl göstərməsinin, sıx inteqrasiya olunmasının qarşısını almağa, onun əvvəlki kimi ayrı-ayrı region dövlətlərinin tə'sir və nüfuz dairəsində saxlanılmasına yönəldilən xüsusi məqsədlə ortaya atılmış bir məsələ olduğunu sübut etmək və beynəlxalq aləmdə bu istiqamətdə geniş təbliğat aparmaq və s. kimi mühüm işlər görmək tələb olunurdu.

Lakin qeyd edilən məsələlər 1991-1993-cü illərdə Azərbaycanın

xarici siyasətində nəzərdən qaçırılmış, onların aktuallığına və praktiki əhəmiyyətinə ciddi fikir verilməmiş, nizamsız atılan müəyyən addımlar isə səmərəsiz olmuşdur. Azərbaycan diplomatiyası yalnız 1993-cü ilin ortalarından başlayaraq Dağlıq Qarabağ probleminin həlli ilə bağlı bəhs edilən məsələlər üzərində gərgin işləmiş, hərtərəfli düşünülmüş konsepsiya hazırlamış və real praktiki addımlar ataraq onu ardıcıl surətdə həyata keçirməyə başlamışdır.

Beləliklə, müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin beş illik tarixinin qısa analizi göstərir ki, ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın, konkret vəzifə və istiqamətləri, prinsipləri ilə seçilən, bitkin, ardıcıl və prinsipial xarici siyasət xətti yalnız 1993-cü ilin ikinci yarısından yeridilməyə başlanmışdır. Prezident Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin tə'min edilməsinə yönəlmiş çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünəlayiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində tə'sirli və əhəmiyyətli mövqe qazanmışdır. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Respublikamızın daxilində gedən demokratik proseslər və iqtisadi dəyişikliklər də əlavə olunmaqla, uğurlu xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.



# II fəsil

# Azərbaycanın xarici siyasəti və Avropa dövlətləri

## §1 Azərbaycan və Qərbi Avropa dövlətləri

### *a) Böyük Britaniya ilə münasibətlər*

Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətli həlli onun beynəlxalq aləmdə qazana biləcəyi mövqeyi, milli dövlət mənafelərinə cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiya olunması ilə sıx bağlıdır. Beynəlxalq əlaqələr sistemində layiqli yer tutmaq üçün dünya siyasətini formalaşdıran aparıcı dövlətlərlə, o cümlədən BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri olan Böyük Britaniya ilə qarşılıqlı münasibətlərin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir.

Dünya dövlətləri arasında özünün uzaq tarixi köklərə malik demokratik dövlətçilik ən'ənələri ilə seçilən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının qədim tarixi əsasən şimali alman tayfaları olan anqllar, sakslar, yutlar və frizlərlə bağlıdır. Onlar hələ V-VII əsrlərdə kelt tayfalarından olan britlərin yaşadıqları Britaniyanı işğal etmiş və burada özlərinin yeddi ayrı-ayrı krallıqlarını yaratmışlar. IX əsrdə bu krallıqların əraziləri birləşdirilmiş və sonralar İngiltərə adı ilə tanınan vahid dövlət yaradılmışdır.

İngiltərənin dövlət idarəçiliyində demokratik dəyərlərin əsasının qoyulmasında və inkişafında 1215-ci ildə kral Torpaqsız İohan

tərəfindən qəbul edilən "Böyük azadlıqlar xartiyası"nın və 1265- ci ildə yaranan İngiltərə parlamentinin xüsusi rolu olmuşdur. Digər Avropa dövlətlərindən fərqli olaraq İngiltərədə hələ XV-XVI əsrlərdə aqrar çevriliş baş vermiş, klassik formada həyata keçirilən ilkin kapital yığımı prosesi nəticəsində kapitalist münasibətlərinin yaranması və inkişafı üçün əlverişli şərait yaranmışdı. Kapitalist münasibətlərinin sür'ətli inkişafı nəticəsində İngiltərə XVII-XVIII əsrlərdə Avropanın ən inkişaf etmiş dövlətinə çevrilmişdir. (10)

İqtisadi sahədə baş vermiş dəyişikliklər tezliklə siyasi sahədə də burjua dəyişikliyi tələb edirdi. Nəticədə 1640-1660-cı illərdə baş vermiş dünyada ilk qalibiyyətli burjua inqilabı İngiltərənin kapitalistcəsinə inkişafı üçün daha geniş imkanlar açdı.

İngiltərənin malik olduğu güclü donanma ölkənin həm dənizdən müdafiəsini, həm də fəal ticarət əlaqələrinin yaradılmasını və müstəmləkəçilik siyasətinin həyata keçirilməsini tə'min edirdi. XVII əsrdən geniş müstəmləkəçilik fəaliyyətinə başlayan İngiltərə dövləti artıq XIX əsrin ortalarında dünyada ən iri müstəmləkə imperiyasına çevrildi. Sənaye çevrilişinin digər ölkələrə nisbətən daha tez baş verməsi (XVIII əsrin 70-ci illərində başlamış, XIX əsrin 30-cu illərində başa çatmışdır) nəticəsində və müstəmləkələrdən əldə olunan gəlir hesabına Böyük Britaniya sənayenin inkişaf səviyyəsinə və sür'ətinə görə dünyada birinci yerə çıxmışdır. Dünyanın " Sənaye e'malatxanası" adlandırılan bu ölkə XIX əsrin sonundan e'tibarən dünya dövlətləri arasında birinciliyini itirməyə başlasa da, hazırda iqtisadi cəhətdən ən çox inkişaf etmiş yeddi ölkədən biri kimi tanınır və beynəlxalq aləmdə fəal rol oynayır.

Böyük Britaniya Birləşmiş Krallığı hazırda Şimal Qərbi Avropanın Britaniya adalarında İngiltərə, Şotlandiya, Şimali İrlandiya və Uels torpaqlarını birləşdirməklə 242,5 kv.km ərazini əhatə edir. Əhalisi 58 milyon nəfərdən çoxdur. (11)

Siyasi sisteminə görə Böyük Britaniya parlamentli monarxiyadır. Bu ölkədə monarx nominal şəkildə dövlətin başçısı hesab olunsa da, bütövlükdə faktiki hakimiyyət Nazirlər Kabinetinin əlində cəmləşir. Ali qanunverici hakimiyyət beş il müddətinə seçilmiş icmalar palatası və monarxın tə'yinatı ilə dövlət qarşısında xüsusi xidməti olan



şəxslərdən təşkil edilmiş lordlar palatasından ibarət parlamentə məxsusdur.

Böyük Britaniyanın siyasi həyatında üç böyük partiya- XIX əsrin ortalarında yaranmış Liberallar və Mühafizəkarlar, 1900-cü ildən fəaliyyətə başlayan Leyboristlər partiyaları əsas rol oynayırlar.

Beynəlxalq münasibətlərə tə'siretmə gücünə görə bu dövlət dünya siyasətinin yönümünü müəyyən edən və beynəlxalq aləmin ən ümdə problemlərinin həllində xüsusi çəkisi olan ölkələr sırasına daxildir. Dünya siyasətini müəyyən edən BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olmaqla, Böyük Britaniya Avropa qitəsinin də üç aparıcı dövləti sırasındadır.

Böyük Britaniya özünün bütün parametrləri ilə-dövlətçilik tarixi, qabaqcıl ictimai-siyasi və iqtisadi quruluşu, yüksək mədəni inkişafı və bir qayda olaraq sabit sosial sistemi ilə həm Avropada, həm də bütün dünyada nümunəvi ölkələrdən biri hesab olunur.

Böyük Britaniya ilə ikitərəfli münasibətlərin zərurətindən bəhs edərkən qeyd etmək lazımdır ki, müstəqillik yolu tutmuş Azərbaycan Respublikası üçün dünyanın bütün dövlətləri, o cümlədən Avropa qitəsinin ən böyük və nüfuzlu dövlətlərindən hesab olunan İngiltərə ilə qarşılıqlı faydalı əməkdaşlıq və dostluq əlaqələrinə malik olmaq çox böyük siyasi və beynəlxalq əhəmiyyət kəsb edir. Beynəlxalq aləmdə və regionda gedən proseslərə əhəmiyyətli dərəcədə tə'sir etmək gücünə malik olan bu dövlətlə dostluq münasibəti yaratmaq, onun beynəlxalq himayəsinə və iqtisadi dəstəyinə nail olmaq yenicə müstəqillik qazanmış hər bir dövlətin yaşaması və möhkəmlənməsi üçün həyati əhəmiyyətə malikdir.

Böyük Britaniya ilə əlaqələrin siyasi əhəmiyyəti onunla şərtlənir ki, bu dövlət üzv olduğu bütün beynəlxalq və regional təşkilatlarda Azərbaycanın fəaliyyəti üçün şərait yaratmaq, dünya dövlətlərinin beynəlxalq təhlükəsizlik və iqtisadi inteqrasiya sisteminə, Avropanın müxtəlif struktur və institutlarına qatılmasına hərtərəfli əməli yardım göstərmək imkanına malikdir. Eyni zamanda, Böyük Britaniya özünün xarici ölkələrdə fəaliyyət göstərən geniş diplomatik nümayəndəlikləri vasitəsilə Azərbaycanın dünya ictimaiyyətinə tanıdılmasında, onun geosiyasi və iqtisadi əhəmiyyəti haqqında

dünyada müsbət rə'yin formalaşdırılmasında mühüm rol oynaya bilər. Digər tərəfdən, Böyük Britaniya Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı ATƏT-in prinsip və qərarlarının həyata keçirilməsinə, Qafqaz bölgəsində sülhün və təhlükəsizliyin bərqərar olmasına da çox mühüm müsbət tə'sir göstərmək imkanına malikdir. Nəhayət, Xəzərin Azərbaycan sektorunun dünyanın əsas enerji ehtiyatları ilə zəngin bir bölgəsi kimi müstəqil Azərbaycanın əsas taleyüklü məsələlərinin həllində həyati əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, İngiltərə dövləti ilə bu sahədə səmərəli iqtisadi əməkdaşlıq Azərbaycan üçün çox böyük siyasi və iqtisadi dəstək rolu oynaya bilər. Xüsusən, Xəzərin statusu ətrafında son zamanlar ayrı-ayrı dövlətlərin əsassız iddiası və münaqişə törətmək cəhdlərinin aradan qaldırılmasında, Xəzərin ədalətli sektor bölgüsünün bütün dünyada dəstəklənməsində Böyük Britaniyanın rolu əvəzolunmazdır.

Azərbaycan-Böyük Britaniya qarşılıqlı faydalı əməkdaşlığı və dostluğu həm də çox mühüm iqtisadi amillərlə şərtlənir. Bu baxımdan, əvvəla, Böyük Britaniya Azərbaycanın təbii- coğrafi ehtiyatlarının işlənməsində və bununla respublika iqtisadiyyatının sür'ətlə yüksəlməsində çox geniş potensiala malik bir ölkədir. Bu ölkə həm böyük maliyyə imkanlarına, qabaqcıl texnologiyaya, həm də bütün dünyada mühüm iqtisadi və dövlətlərarası siyasi əlaqələrə malikdir. Bu dövlət nəinki təkcə Azərbaycanın neft ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması sahəsində ölkəmizə yardım etmək, həmçinin, neft kimyası, neft maşınqayırması, metallurgiya, e'mal sənayesi və s. mühüm əhəmiyyət kəsb edən sahələri yenidən qurmaq, dünya iqtisadiyyatı ilə inteqrasiya olunmasını sür'ətləndirmək imkanına malikdir. Bütün bu siyasi və iqtisadi amillər müstəqillik qazanmış Azərbaycan dövləti ilə Böyük Britaniya arasında fəal və səmərəli qarşılıqlı münasibətlər yaradılmasını zəruri edir.

Azərbaycan - Böyük Britaniya əlaqələrini xarakterizə edən və şərtləndirən cəhətlərdən biri də Böyük Britaniya rəsmi dairələrinin və iş adamlarının özlərinin bu əlaqələrə və qarşılıqlı əməkdaşlığa can atmaları olmuşdur. Ümumiyyətlə götürsək, qeyd edilməlidir ki, bu dövlətin Azərbaycanla bağlı yeritdiyi siyasət əsrin əvvəlində də



(ADR-in fəaliyyəti dövrü), indi də özünün bir çox xüsusiyyətləri ilə fərqlənir.

Hər şeydən əvvəl qeyd edilməlidir ki, dünyanın bütün böyük, inkişaf etmiş və nüfuzlu dövlətləri kimi Böyük Britaniya da Qafqazda, o cümlədən Azərbaycanda özünün xüsusi siyasi və iqtisadi maraqlarına malikdir. Özü də bu dövlət bütün dövrlərdə öz marağını qorumağa cəhd göstərən ölkələr sırasında həmişə fəallığı ilə seçilmişdir. Qafqazın geosiyasi əhəmiyyəti, Azərbaycanın bu regiondakı yeri və rolu, onun zəngin neft və qaz yataqları ingilis siyasətçilərini və iş adamlarını əsrin əvvəlində də, sonunda da eyni dərəcədə özünə cəlb edən əsas amil olmuşdur.

İkincisi, Böyük Britaniya hökuməti Azərbaycanın potensial iqtisadi imkanlarını layiqincə dərk edərək, öz maliyyə və texnoloji vəsaitlərini həvəslə tətbiq edir və bunun yaxın gələcəkdə hər iki dövlətə verə biləcəyi faydanı düzgün qiymətləndirir. Bu mə'nada Azərbaycanda istehsal olunan sənaye və kənd təsərrüfatı məhsullarının İngiltərənin qabaqcıl sənayesi üçün böyük əhəmiyyət kəsb etdiyini, o cümlədən Azərbaycanın bu ölkənin sənaye məhsullarını realizə etmək üçün xüsusi bazar və ötürücü məntəqə ola biləcəyi imkanı da Britaniya dairələrinin diqqətindən yayınmamışdır.

Böyük Britaniya dövlətini Azərbaycanla dostluğa və əməkdaşlığa sövq edən bir sıra siyasi amillər də mövcuddur.

Əvvəla, Azərbaycanın əlverişli və əhəmiyyətli geosiyasi vəziyyəti və onun Avropa-Asiya nəqliyyat-kommunikasiya əlaqələrinin mərkəzində yerləşməsi; ikincisi, MDB respublikaları arasında tam müstəqil siyasət yeritməsi, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu tutması; üçüncüsü, xarici siyasətində Qərbə, xüsusən də Avropaya meyl göstərməsi, regionda Avropanın əsas nüfuz və maraq dairəsinə çevrilməsi; dördüncüsü, əsasən Fransa və Almaniya ilə sıx iqtisadi və siyasi əlaqə saxlayan İrana qarşı bu bölgədə alternativ geosiyasi əhəmiyyətli dövlət olmaq imkanı və s. bu amillər sırasındadır.

Beləliklə, yuxarıda qeyd edilən bütün siyasi, iqtisadi və digər amillər Azərbaycan-Böyük Britaniya əlaqələrinin dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq münasbətləri üzərində qurulmasını

şərtləndirmiş və zəruri etmişdir. Bu zəruriyyəti dərk edən və qarşılıqlı əlaqələrin hər iki dövlət üçün verdiyi və verə biləcəyi faydanı yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Böyük Britaniyanın dövlət və hökumət rəhbərləri 1993-1996-cı illərdə iki ölkə arasındakı əlaqələrin yüksələn xətlə inkişaf etməsi üçün bütün imkanlardan istifadə etmişlər. Məhz elə bunun nəticəsidir ki, bu gün iki ölkə arasındakı münasibətlər strateji tərəfdaşlıq istiqamətində inkişaf edir.

İki ölkə arasındakı mövcud əlaqələrin qısa tarixinə nəzər salsaq, deyilənlərin bir daha şahidi olarıq.

İngiltərə ilə Azərbaycan arasında iqtisadi-siyasi əlaqələrin kökü XVI əsrə təsadüf edir. Həmin dövrdə yenicə formalaşmaqda olan ingilis burjuaziyası ucuz xammal mənbələri və satış bazarları uğrunda mübarizə aparırdı. XVI əsrdə Avropa və Hindistana gedən quru və dəniz yollarını öz nəzarəti altında saxlayan Osmanlı imperiyasına qarşı hərbi-siyasi rəqabətə girməyə qadir olmayan gənc ingilis burjuaziyası, nəhayət, Rusiya ərazisindən keçib Volqa-Xəzər yolu, Azərbaycan və İran vasitəsi ilə Hindistanla birbaşa əlaqə yaratmaq qərarına gəldi. (12) Bununla da İngiltərənin "Moskva" şirkəti XVI əsrin 60-80-ci illərində Səfəvi dövlətinə altı ekspedisiya göndərdi. Bu ekspedisiyalar vasitəsi ilə ingilis kraliçası Yelizaveta Tüdor Səfəvi dövləti ərazisindən sərfəli satış bazarı və ucuz xammal mənbəyi kimi istifadə etmək istəyirdi. Səfəvi dövləti ilə əlaqə yaradarkən "Moskva" şirkətinin ən mühüm məqsədlərindən biri də Səfəvi dövləti ilə Avropa ölkələri arasında ipək ticarətində vasitəçiliyi ələ keçirmək idi. İngiltərə ilə iqtisadi əlaqələrin genişlənməsində Səfəvi dövləti də maraqlı idi. Çünki həmin dövrdə Osmanlı imperiyası tərəfindən Aralıq dənizi ticarətindən məhrum edilən və Portuqaliyanın Görmüzü ələ keçirməsi nəticəsində Hind okeanına çıxış yolunu itirən Səfəvi dövlətinin xarici ticarət əlaqələrində Xəzər-Volqa yolunun əhəmiyyəti artmışdı. (13) Səfəvi şahı I Təhmasib ingilis tacirlərinə bir sıra imtiyazlar da vermişdi. İngilis ticarət şirkətinin nümayəndəsi Antoni Cenkinson Azərbaycanda olmuş (1558 - 59, 1562), Şirvan bəylərbəyi Abdulla Ustaclının köməyi ilə Şamaxıda ingilis ticarət faktoriyasının əsasını qoymuşdur.



XVI əsrin 80-ci illərindən e'tibarən Səfəvi-İngiltərə əlaqələri kəsilməyə başladı. Bunun əsas səbəbi rus çarı IV İvanın ingilis tacirlərinə Rusiya ərazisindən keçib Volqa-Xəzər yolu ilə Şərqə ticarətə getməyi qadağan etməsi idi.

XIX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda neft sənayesinin inkişafı nəticəsində İngiltərə ilə Azərbaycan arasındakı əlaqələr yenidən canlandı. İngiltərə kapitalistləri neft sənayesinə kapital qoyuluşunda yaxından iştirak edirdilər. Birinci dünya müharibəsində İngiltərə Bakı neftinə sahib olmaq üçün ciddi mübarizə aparırdı. General Denstervilin başçılığı altında ingilis qoşunları ilk dəfə Bakıya 1918-ci ilin iyul ayında çıxarılmış və həmin ilin sentyabrın əvvəllərində türk qoşunlarının təzyiqi altında ölkədən qovulmuşlar. 1918-ci il oktyabrın 30-da Türkiyə ilə İngiltərə arasında bağlanmış Mudros müqaviləsinə görə Azərbaycan İngiltərənin nüfuz dairəsi e'lan olunduqdan sonra, noyabrın ortalarında ingilis qoşunları general Tomsonun başçılığı altında yenidən Bakıya daxil oldular. Əvvəllər Azərbaycana Rusiyanın tərkib hissəsi kimi baxan ingilislər tezliklə Azərbaycan hökumətini tanıdılar və Biçeraxovun başçılığı altında ağqvardiyaçı rus qoşunlarını Bakıdan çıxardılar. O zaman Bakının Rusiyadan ayrılmasını, Bakı neftinin müstəqil Azərbaycan hökumətinin əlində olmasını Böyük Britaniya hökuməti öz mənafeyinə cavab verdiyi üçün dəstəkləyirdi.

1919-cu ilin avqustunda ingilis qoşunları Azərbaycan ərazisini tərk etdilər.

SSRİ dağıldıqdan və Azərbaycan Respublikası öz müstəqilliyini yenidən bərpa etdikdən sonra da Böyük Britaniya Avropa dövlətləri sıra sında onun müstəqilliyini tanıyan və fəal diplomatik əlaqələrə can atan birinci ölkələrdən sayılır.

Azərbaycan xalqının öz müstəqillik arzusunu referendum yolu ilə təsdiq etməsindən cəmi iki gün sonra-1991-ci il dekabrın 31-də Böyük Britaniya krallığı Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdığını və onunla hər cür əlaqələrə hazır olduğunu bəyan etdi.(14)

Az sonra, 1992-ci il mart ayının 11-də Böyük Britaniyanın xarici işlər naziri Duqlas Hoqq və bu ölkənin Moskvadakı səfiri

R.Breytveyt Bakıya səfər etdi. Səfər zamanı Azərbaycanın dövlət və hökumət rəhbərləri ilə apardığı danışıqlarda Britaniya nümayəndə hey'əti səfərin əsas məqsədinin iki ölkə arasında diplomatik münasibətlər yaratmaqdan, Dağlıq Qarabağ problemini yerində öyrənməkdən və onun dinc yolla həllinə çalışmaqdan ibarət olduğunu bildirmişdir. Dağlıq Qarabağ problemi ilə bağlı öz ölkəsinin fikrini açıqlayan nazir qeyd etmişdir ki, indi əsas məsələ münaqişənin genişlənməsinin qarşısını almaq üçün hər iki tərəfdən atəşin dayandırılması, danışıqlara başlanması və Azərbaycan tərkibində bu bölgə ilə münasibətlərin tənzimlənməsinin müxtəlif variantlarının araşdırılmasıdır. (15)

Sonra Azərbaycan və Böyük Britaniya arasında diplomatik münasibətlərin yaradılması haqqında razılıq protokolu imzalanmışdır. Hər iki tərəf bu görüşü və imzalanmış sənədi iki ölkə arasında iqtisadi, siyasi, mədəni və humanitar əlaqələrin başlanğıcı kimi qiymətləndirmiş və gələcəkdə daha da inkişaf edəcəyinə əmin olduqlarını bildirmişlər (16).

1992-ci il iyulun 15-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycana tə'yin olunmuş səfiri Brayn Foll öz e'timadnaməsini Azərbaycan Prezidenti Əbülfəz Elçibəyə təqdim etmiş və beləliklə, bu ölkənin diplomatik missiyası Bakıda işə başlamışdır. (17)

1992-1993-cü illərdə İngiltərənin rəsmi dövlət və hökumət rəhbərləri öz ölkələrinin Azərbaycanla hərtərəfli əlaqələr qurmağa maraqlı olduğunu dəfələrlə bəyan etmiş və bir çox praktiki addımlar atmışlar. 1992-ci ilin sentyabrında bu ölkənin keçmiş baş naziri Marqaret Tetçerin, sənaye və ticarət naziri Maykl Hezltaynın, "Britiş Petroleum" neft şirkəti rəhbərlərinin Bakıya səfəri və Böyük Britaniya baş naziri Con Meycorun Azərbaycan Prezidentinə rəsmi məktubu bu ölkənin Azərbaycana göstərdiyi hədsiz marağın əyani təzahürü hesab oluna bilər. (18) Lakin təəssüf hissi ilə qeyd edilməlidir ki, Avropanın böyük, nüfuzlu və qüdrətli dövləti hesab olunan İngiltərənin bu illərdə Azərbaycana təklif etdiyi sıx və hərtərəfli əlaqələr qurmaq təşəbbüsü bir növ cavabsız qalmışdır. Daha doğrusu, o zamankı Azərbaycan rəhbərləri İngiltərə ilə əlaqələrin



yaxşılaşması və daha da inkişaf etdirilməsi üçün heç bir əməli iş görməmişlər.

Böyük Britaniya-Azərbaycan əlaqələrinin daha da inkişaf etdirilməsi və dərinləşməsi 1993-cü ilin ikinci yarısından başlanmışdır. Bu illərdə baş vermiş ictimai-siyasi hadisələr və Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan-İngiltərə əlaqələrinin daha da intensivləşməsinə və inkişafına təkan vermişdir. Britaniyanın rəsmi dairələri qısa müddətdə Azərbaycanda gedən ictimai-siyasi proseslərin mahiyyətini və axarını, yeni rəhbərliyin daxili və xarici siyasət kursunu diqqətlə öyrənmişdir. Azərbaycanın başda Heydər Əliyev olmaqla sülh və demokratiya yolu ilə Avropaya inteqrasiya kursu götürdüyünə, tam müstəqil siyasət yeritdiyinə yə'qinlik hasil etdikdən sonra Böyük Britaniyanın müxtəlif səviyyəli dövlət və hökumət nümayəndələri yenidən Azərbaycana üz tutmuşlar.

1993-cü il iyunun 22-də, Azərbaycanın vətəndaş müharibəsi astanasında durduğu, anarxiyanın tüğyan etdiyi, dövlətçiliyin süqutu ərəfəsində olduğu, Prezidentin Bakını tərk edib ucqar bir kəndə getdiyi vaxtda İngiltərənin Rusiya və Azərbaycandakı səfiri Brayn Foll Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevlə görüşmüş, yaranmış vəziyyətdən İngiltərə hökumətinin həddən ziyadə narahatlıq keçirdiyini, çıxış yolları tapılmasında və hakimiyyət böhranının aradan qaldırılmasında hər cür kömək göstərməyə hazır olduğunu bəyan etmişdir. Heydər Əliyev və Brayn Foll Azərbaycanın tezliklə belə ağır böhrandan çıxarılması üçün bütün vasitələrdən istifadə ediləcəyinə və iki ölkə arasında gələcəkdə hərtərəfli əlaqələr yaradılacağına tam əmin olduqlarını bildirmişlər. (19)

1993-cü ilin oktyabr ayında Heydər Əliyevin Prezident kürsüsündə qəbul etdiyi ilk rəsmi xarici nümayəndə də məhz Böyük Britaniyanın xarici işlər naziri Duqlas Hoqq olmuşdur. Görüşdə Britaniya nümayəndələri Azərbaycan Prezidenti Heydər Əliyevin yeritdiyi daxili və xarici siyasətin İngiltərənin maraqlarına tam uyğun gəldiyini qeyd etməklə yanaşı, öz ölkələrinin Azərbaycanla hərtərəfli əməkdaşlığa, yenicə müstəqillik yoluna qədəm qoymuş bu dövlətə hərtərəfli yardım etməyə hazır olduğunu bildirmişlər. Britaniya naziri və onu müşayiət edən nümayəndə hey'əti iki gün müddətində

respublika rəhbərliyi ilə Azərbaycan-İngiltərə münasibətlərinin müxtəlif istiqamətlərini müzakirə etmiş və gələcəkdə iki dövlət arasında hərtərəfli əlaqələri inkişaf etdirməyə maraqlı olduqlarını söyləmişlər. (20) Böyük Britaniya hökumətinin qəti mövqeyini ifadə edən D.Hoqq bildirmişdir ki, "biz Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi hesab edirik". (21)

Azərbaycan-İngiltərə əlaqələrinin qurulması və möhkəmlənməsinə təkan verən amillərdən biri də 1993-cü il noyabrın 10-da Bakıda Prezident Heydər Əliyevlə Böyük Britaniya parlamentində çoxluq təşkil edən Mühafizəkarlar Partiyası nümayəndələrinin görüşü və aparılan danışıqlar hesab oluna bilər. Görüşdə iki ölkə arasında parlament əlaqələrinin yaradılması, beynəlxalq parlament təşkilatlarında eyni mövqe lərdən çıxış edilməsi, Azərbaycanda İngiltərənin parlament təcrübəsinin öyrənilməsi və s. məsələlər müzakirə olunmuş və bu məsələlərlə bağlı hər iki tərəfin mövqelərinin üst-üstə düşdüyü vurğulanmışdır. Azərbaycan Prezidenti görüşdə əmin olduğunu bildirmişdir ki, Britaniya parlamenti ilə yaradılan yaxşı əlaqələr müstəqil dövlətimizin beynəlxalq aləmdə dəstəklənməsinə, onun mövqelərinin və haqq işinin müdafiə olunmasına şərait yaradacaqdır. (22)

1993-cü ilin ikinci yarısında Azərbaycan Prezidenti Heydər Əliyevin yeritdiyi daxili və xarici siyasət, məqsədyönlü diplomatik iş tezliklə öz nəticələrini vermişdir. Çox keçmədən, 1993-cü ilin sonunda İngiltərənin baş naziri Con Meycor Azərbaycan Prezidenti Heydər Əliyevə məktub göndərmiş və 1994-cü ilin əvvəlində müstəqil Azərbaycan dövlətinin başçısını Avropaya rəsmi səfər edəcəyi anda ilk dəfə məhz Böyük Britaniyada görmək, onunla iki ölkə arasında qurulacaq siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin bütün sahələri üzrə hərtərəfli geniş müzakirələr keçirmək arzusunda olduğunu bildirmişdir. (23) Məktubda qeyd edilmişdir ki, Azərbaycan və Böyük Britaniya arasında ikitərəfli münasibətlərin möhkəmlənməsinə və coşqun inkişafına, qarşılıqlı faydalı iqtisadi əməkdaşlığa onun ölkəsi çox böyük maraq göstərir.

Azərbaycan-İngiltərə münasibətlərinin tənzimlənməsi və normal



inkişaf məcrasına yönəlməsi yolunda Britaniyanın baş naziri Con Meycorun də'vəti ilə Azərbaycan Prezidenti Heydər Əliyevin başçılıq etdiyi *nümayəndə hey'ətinin* 1994-cü il fevralın 22-25-də bu ölkəyə rəsmi səfəri çox mühüm əhəmiyyət kəsb etmişdir. Londona yola düşərkən Azərbaycan Prezidenti jurnalistlərə verdiyi müsahibədə qeyd etmişdir ki, səfər "respublikamızla Böyük Britaniya arasında *əlaqələrin yaranması* və *inkişaf etdirilməsi* məqsədi daşıyır. Çünki Azərbaycan müstəqillik əldə e tdikdən sonra Böyük Britaniya kimi nüfuzlu və böyük bir ölkə ilə dövlətlərarası əlaqələr yarada bilməmişdir". (24) Dövlət başçısı qeyd etmişdir ki, cəmi bir neçə ay əvvəl iki ölkə arasında diplomatik əlaqələr qurulmuş, İngiltərənin Azərbaycanda, Azərbaycanın isə İngiltərədə səfirlikləri işə başlamışdır. Lakin o, bildirmişdir ki, iki dövlət arasında geniş əlaqə hələ yenicə yaradılır və Azərbaycanın buna çox böyük ehtiyacı vardır.

İngiltərənin müstəqil Azərbaycan dövləti üçün əhəmiyyətinə toxunan Prezident göstərmişdir ki, İngiltərə dünyanın ən böyük dövlətlərindəndir, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən, dünyanın inkişaf etmiş yeddi ölkəsindən biridir. Bu ölkə həm keçmişdə, həm də indi dünya siyasətinə və iqtisadiyyatına göstərdiyi mühüm tə'sirə görə seçilmiş və planetin qlobal məsələlərinin həllində həmişə mühüm rol oynamışdır. "Ona görə də Azərbaycan Respublikası ilə İngiltərə *arasında sıx əlaqələr yaranması ilk növbədə* bizim ölkəmizin milli mənafeyi üçün olduqca əhəmiyyətlidir". (25)

Böyük Britaniyanın Azərbaycana münasibətindən bəhs edərkən Azərbaycan Prezidenti bildirmişdir ki, İngiltərə Azərbaycana çox *maraq göstərir və hərtərəfli iqtisadi* əlaqələr yaratmaq istəyir. Ümumiyyətlə bu ölkənin Qafqaza, o cümlədən Azərbaycana tarixi marağına toxunan ölkə başçısı, indiki mərhələdə, yə'ni XX əsrin sonunda İngiltərənin Azərbaycanla yeni bir keyfiyyətdə əlaqə qurmağa çalışmasını çox yüksək qiymətləndirmiş və bu əməkdaşlığın respublikamızın maraqlarına tam uyğun gəldiyini vurğulamışdır. (26)

Azərbaycan Prezidentinin Böyük Britaniyaya səfərinin başlıca yekunu ilk dəfə olaraq ən yüksək səviyyədə İngiltərə kimi böyük və nüfuzlu Avropa dövləti ilə yaradılacaq əlaqələrin əsas prinsiplərinin,

istiqamət və vəzifələrinin müəyyənləşdirilməsi, qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin əsasının qoyulması hesab oluna bilər. Bu səfər iki dövlət arasındakı əlaqələrdə mövcud boşluğu doldurmaqdan əlavə, həm də hər iki tərəfin iqtisadi inkişaf mənafelərinin tam üst-üstə düşdüyünü aşkarlamışdır.

Üç günlük səfər zamanı Azərbaycan Prezidentinin Böyük Britaniyanın dövlət, hökumət və iş adamları ilə apardığı danışıqlarda, işgüzar görüşlərdə iki ölkə arasında əməkdaşlığın qurulması və genişləndirilməsi imkanları hərtərəfli nəzərdən keçirilmiş, bu ölkənin *Azərbaycana göstərə biləcəyi texniki və maliyyə* yardımlarının müxtəlif variant və layihələri müzakirə edilmişdir.

İngiltərədəki çoxsaylı görüş və çıxışlarından istifadə edən Azərbaycan Prezidenti müstəqil dövlətimizdə gedən demokratik proseslər, yüksək sivilizasiyalı cəmiyyət qurulması yolunda atılan addımlar, altı ildən artıq davam edən Dağlıq Qarabağ problemi və Ermənistan- Azərbaycan münaqişəsi, bu münaqişənin səbəb və mahiyyəti, Ermənistanın təcavüzü nəticəsində Azərbaycana dəyən maddi və mə'nəvi ziyan haqqında geniş mə'lumat vermişdir.(27) Bütün bunlar Böyük Britaniyanın həm dövlət və hökumət rəhbərlərinə, həm də ictimaiyyətinə ilk dəfə olaraq Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi haqqında səhih obyektiv mə'lumat almaq imkanı vermiş, respublikamız ətrafında formalaşmış qeyri-obyektiv və qərəzli erməni təbliğatının nəticələrinə güclü zərbə endirmişdir.

Böyük Britaniyanın nüfuzlu firma və şirkətlərindən "Cİ-Pİ-Tİ", "Kayzer İnciniring", "Britiş Petroleum", "Con Braun" və b. rəhbərləri ilə aparılan danışıqlar zamanı Azərbaycanın potensial iqtisadi imkanları, neft məhsullarının istehsalı və e'malı, neft kimyası, neft maşınqayırması,elektronika, elektrotexnika, yüngül sənaye və kənd təsərrüfatı məhsullarının e'malı sahəsində əməkdaşlığın yolları, metod və vasitələrinin müəyyənləşdirilməsi üçün hər iki tərəfin ortaq maraqları açıqlanmışdır.

Böyük Britaniyanın baş naziri Con Meycor, xarici işlər naziri Duqlas Hoqq, keçmiş baş nazir Marqaret Tetçer və energetika naziri Timm Eqqarla aparılan danışıqların nəticəsi olaraq 1994-cü il fevralın



23-də Azərbaycan və İngiltərə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə və iqtisadi, siyasi, mədəni, humanitar sahələr üzrə daha altı mühüm sənəd imzalanmışdır. (28)

Azərbaycan Prezidenti İngiltərənin maliyyə işçiləri ilə, xüsusən Avropa Yenidənqurma və İnkişaf Bankında çox mühüm bir görüş keçirmiş, respublikamızla Böyük Britaniya arasında imzalanmış bir sıra müqavilələrin maliyyə vəsaiti ilə tə'min edilməsi üçün mühüm danışıqlar aparmışdır. İngiltərənin və dünyanın maliyyə imkanlarından istifadə edərək Azərbaycan iqtisadiyyatını yenidən qurmaq, neft istehsalını artırmaq və s. üçün görüləcək zəruri tədbirlər haqqında fikir mübadiləsi etmişdir. Böyük Britaniyanın maliyyə dairələri Azərbaycanda həyata keçirilməsi nəzərdə tutulmuş bir sıra irimiqyaslı layihələrin maliyyələşdirilməsinə, bu sahədə sərmayə qoyuluşu üçün konkret planlar hazırlanmasına və ümumiyyətlə, həyata keçiriləcək iqtisadi islahatlara yardım göstərməyə hazır olduqlarını bəyan etmişlər. (29)

Azərbaycan Prezidentinin Böyük Britaniyaya səfərinin ən əhəmiyyətli yekunlarından biri də İngiltərə parlamentində keçirdiyi görüşlər və apardığı danışıqlar olmuşdur.

Parlamentdə aparılan danışıqlar nəticəsində Azərbaycanla bağlı Böyük Britaniya parlamenti üzvlərindən ibarət xüsusi qrup formalaşdırılması razılaşdırılmış və onun tərkibi təsdiq edilmişdir. Həmin qrupla aparılan danışıqlarda Azərbaycan Prezidenti iki ölkə arasında parlament əlaqələrinin zəruriliyi və əhəmiyyətindən, Azərbaycanda mövcud olan ictimai-siyasi, iqtisadi vəziyyətdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəb və mahiyyətindən, Avropanın təhlükəsizliyinə və regional münasibətlərə vurduğu zərbədən və s. geniş söz açmışdır. (30)

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük Britaniyaya üç günlük səfəri və bu üç gündə aparılan danışıqlar nəticəsində bağlanmış müqavilələr iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin əsasını qoymaqla bərabər, həm də bu münasibətlərin hüquqi-normativ əsaslarını yaratmışdır. Səfərin *yekununu Azərbaycan Prezidenti Londonda* keçirdiyi mətbuat konfransında belə qiymətləndirmişdir: "... səfərimizin proqramı,

demək olar, yerinə yetirilmişdir. Ona görə də Sizə deyə bilərəm ki, mən səfərin yekunlarından razıyam. Ən əvvəl, baş nazir cənab Con Meycor ilə görüşün və danışıqların böyük əhəmiyyəti var. Ondan əvvəl biz nazirlərlə, bir sıra iri şirkətlərin prezidentləri ilə görüşdük. Baş nazir ilə söhbət zamanı bir çox məsələlər-istər Azərbaycan ilə Birləşmiş Krallıq arasında münasibətlərlə bağlı, istərsə də bizim bölgədə, Zaqafqaziya bölgəsində vəziyyətə aid, habelə müasir beynəlxalq vəziyyətlə əlaqədar məsələlər barəsində fikir mübadiləsi etməyə imkanımız oldu ... Danışıqlarımız qarşılıqlı anlaşma, səmimilik və olduqca əlverişli şəraitdə keçmişdir. Bu şəraiti İngiltərə rəhbərliyi yaratmışdır. Başlıcası budur ki, biz Azərbaycan və Birləşmiş Krallıq arasında əlaqələrin daha da intensiv inkişaf etdirilməsi sahəsində görüləcək tədbirlər barədə razılığa gəldik. Söhbət dövlətlərarası münasibətlərdən, iqtisadi əməkdaşlıqdan, elm, texnika, mədəniyyət sahəsində və bə'zi digər sahələrdə əmək daşlıqdan gedir..." (31). İmzalanmış sənədlərə qiymət verən Heydər Əliyev bildirmişdir ki, ölkələrimiz arasında münasibətlərin qurulması və inkişafı üçün onlar çox mühüm əhəmiyyət kəsb edir. Bunlar ən əvvəl,Birləşmiş Krallıqla Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında bəyannamə, energetika, o cümlədən neft sənayesi sahəsində ölkələrimiz arasında əməkdaşlığa dair və bir sıra digər sənədlərdir.

İki dövlət arasında imzalanmış sənədlərin və razılaşdırılmış mövqelərin Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlərin inkişafı üçün yaxşı perspektivlər açdığına istinad edən Azərbaycan Prezidenti bu səfəri iki ölkə arasında əməkdaşlığın bünövrəsini qoyan səfər kimi qiymətləndirmişdir. (32)

1994-1995-ci illər Azərbaycan-Britaniya münasibətlərinin qurulması və inkişafında xüsusi bir mərhələ təşkil edir. Çünki həm iki ölkənin dövlət və hökumət rəhbərlərinin intensiv görüşlərinə, həm də dövlətlərarası münasibətlərin ayrı-ayrı sahələrini tənzimləyən mühüm sənədlərin imzalanmasına görə bu iki il Azərbaycanın xarici siyasətində ən müvəffəqiyyətli və uğurlu illər kimi nəzərə çarpır.

1994-cü il ərzində Azərbaycan Prezidenti Heydər Əliyev və respublikanın digər hökumət rəhbərləri dəfələrlə Böyük



Britaniyanın müxtəlif yüksək rütbəli dövlət və hökumət nümayəndələri ilə görüşmüş, iki dövlət arasındakı münasibətlərin inkişaf aspektlərini müzakirə etmiş, mövcud və qarşıya çıxa biləcək problemlərin aradan qaldırılması üçün birgə tədbirlər həyata keçirmişlər. İyunun 9-da İstanbulda Böyük Britaniyanın xarici işlər naziri Duqlas Herdlə, iyulun 28-də Bakıda Britaniya parlamenti lordlar palatasının üzvü, "Secvik Marin" şirkətinin direktoru lord Nikolas Con Albert Feyrfaksla və onun başçılıq etdiyi nümayəndə hey'əti ilə, sentyabrın 13-də Böyük Britaniya parlamentinin üzvü Harold Elletsonla və b. ilə Azərbaycan Prezidentinin və respublikanın digər hökumət rəhbərlərinin görüşü məhz bu qəbildəndir. Bu görüşlərdə iki ölkə arasında mövcud olan siyasi, iqtisadi, mədəni, beynəlxalq və s. münasibətlərin daha da yaxşılaşması və inkişaf etdirilməsinin müxtəlif *metod və vasitələri* müzakirə olunmuş, qarşılıqlı anlaşma əldə edilmişdir. (33)

Azərbaycan-İngiltərə münasibətlərinin yaxşılaşmasına və bu iki dövlətin bir-birinə daha da yaxınlaşmasına təkan verən əsas amillərdən biri də 1994-cü il sentyabrın 20-də Xəzərdəki neft yataqlarının istismarına dair Bakıda imzalanmış "Əsrin müqaviləsi"ndə Böyük Britaniyanın çox nüfuzlu neft şirkətlərinin iştirakı hesab oluna bilər. (34) Həmin il noyabrın 8-də Böyük Britaniyanın Azərbaycandakı səfiri Tomas Yanq Prezident Heydər Əliyevlə görüşündə qeyd etmişdir ki, "Əsrin müqaviləsi"nin imzalanması və İngiltərənin bu müqavilədə iştirakı iki dövlət arasındakı münasibətləri daha da yaxşılaşdıracaq, Böyük Britaniyanı beynəlxalq aləmdə Azərbaycanın əsas tərəfdaş və əməkdaşlarından birinə çevirəcəkdir. Səfir öz ölkəsinin Azərbaycana demokratik inkişaf yolu seçmiş, beynəlxalq aləmdə siyasi cəhətdən sabit və iqtisadi-siyasi partnyorluq üçün arzu olunan və e'tibarlı tərəfdaş kimi baxmasını və Britaniya şirkətlərinin bu ölkədə iş aparmasına rəsmi Londonun maliyyə tə'minatı verməyə hazır olduğunu bir daha bəyan etmişdir. (35)

Görüşdə Azərbaycanın demokratiya, bazar iqtisadiyyatı, Avropaya inteqrasiya yolundan heç bir vəchlə dönməyəcəyini bir daha xüsusi vurğulayan Prezident Heydər Əliyev qeyd etmişdir ki, neft müqaviləsi

bağlandıqdan sonra Azərbaycana xaricdən bir sıra təzyiqlər olmuş və bu indi də davam edir. Lakin heç bir qüvvənin Azərbaycanı öz müstəqillik yolundan daşındırmağa, onun xalqının müstəqillik ir adəsi və əzmini qırmağa müyəssər olmayacağını qətiyyətlə bildirən Prezident, tezliklə neft müqavilələrinin reallaşacağına tam inandığını söyləmişdir. (36)

Azərbaycan-Böyük Britaniya ikitərəfli əlaqələrinin intensivləşməsi və inkişafı sahəsində Azərbaycan diplomatiyası 1995-ci ildə daha mühüm nailiyyətlər əldə etmişdir. Həmin ildə Azərbaycan Prezidenti Heydər Əliyevin İngiltərəyə iki səfəri xüsusi əhəmiyyətə malik olmuşdur.

İkinci dünya müharibəsinin başa çatmasının 50 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün 1995-ci ilin mayında Londona səfər etmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu ölkənin rəhbərləri ilə çox mühüm görüşlər keçirmiş və intensiv danışıqlar aparmışdır. Mayın 6-da Böyük Britaniyanın baş naziri Con Meycor və xarici işlər naziri Duqlas Herdlə, mayın 7-də Böyük Britaniya Kraliçası II Yelizaveta və onun ailə üzvləri ilə, sənaye və energetika naziri Timm Eqqar, ticarət naziri Maykl Hezltayn, "Britiş Petroleum" Şirkətinin prezidenti Con Braun və b.ilə keçirilən görüşlərdə iki ölkə arasındakı münasibətlərə dair geniş fikir mübadiləsi aparılmışdır. (37)

Bu görüşlərdə dünyada və Qafqaz regionunda baş verən hadisələr və proseslər, Azərbaycan və Böyük Britaniya arasında siyasi, iqtisadi, sosial və mədəni əlaqələr, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi, müstəqil Azərbaycan dövlətinin ümumavropa təhlükəsizliyi və Avropa Birliyinə qatılmasının aktual məsələləri və s. beynəlxalq, regional, dövlətlərarası məsələlər geniş müzakirə olunmuş, iki ölkənin üst-üstə düşən mövqe və maraqları bir daha təsdiqlənmişdir.

Böyük Britaniyanın rəsmi dairələri Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəklədiklərini və bundan sonra da dəstəkləyəcəklərini, Xəzərin statusunun müəyyənləşməsinə, Azərbaycanın beynəlxalq aləmdə himayə olunmasına və s. məsələlərə fəal yardım göstərəcəklərini bir daha qətiyyətlə bildirmişlər. İngiltərənin baş naziri Con Meycor təsdiqləmişdir ki, İngiltərə Qafqazda sülhün tə'min edilməsində, Azərbaycanın müstəqil və güclü dövlət kimi inkişafında, bu ölkənin Avropaya hərtərəfli inteqrasiya olunmasında maraqlıdır və bu işdə ona hər cür yardım göstərməyə hazırdır. Bu görüşlərdə hər iki ölkənin strateji maraqlarının tam üst-üstə düşdüyü və onların qorunması, həyata keçməsi üçün hər iki tərəfin bundan sonra da öz sə'yini əsirgəməyəcəyi bir daha təsdiq edilmişdir.(38)

Səfər dövründə Londonda Azərbaycan Mədəniyyət Mərkəzi də açılmışdır. Bu Mərkəzin gələcəkdə Azərbaycanın Böyük Britaniyadakı səfirliyi ilə birgə respublikamızın, onun mədəni və mə'nəvi nailiyyətlərinin Avropada təbliğində mühüm işlər görəcəyi iştirakçılar tərəfindən yekdilliklə vurğulandı.(39)

1995-ci il oktyabrın 23-də Nyu-York şəhərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə Böyük Britaniyanın baş naziri Con Meycor arasında görüşdə də iki ölkə arasında mövcud əlaqələr və münasibətlər bir daha müzakirə olunmuş, bu əlaqələrin möhkəmləndirilməsi üçün hər iki tərəfin sə'ylərinin bundan sonra da davam etdiriləcəyi təsdiqlənmişdir.(40)

Azərbaycan Prezidentinin 1995-ci ildə Böyük Britaniyaya növbəti səfəri noyabr ayının 28-dən dekabrın 3-dək davam etmişdir. Bu səfərin əsas məqsədi Azərbaycanı Böyük Britaniyanın işgüzar dairələrinə tanıtmaq, onların maliyyə və investisiya imkanlarını Azərbaycan iqtisadiyyatının yenidən qurulmasına yönəltmək, respublikada neft, neft-kimya, metallurgiya, yüngül və e'mal sənayesinin inkişafına dair mühüm layihələrin hazırlanması və həyata keçirilməsi işinə Böyük Britaniya iş adamlarının cəlb edilməsini təşkil etmək idi. Eyni zamanda iki ölkə arasında mövcud olan iqtisadi əlaqələrin daha da gücləndirilməsi, İngiltərə hökumətinin Azərbaycana investisiya qoyan iş adamlarına maliyyə tə'minatı verməsi ilə bağlı danışıqların aparılması və s. tədbirlər də bu səfərin iş planında xüsusi yer tutmuşdu.(41)

Səfər ərzində Azərbaycan Prezidenti Londonda keçirilən beynəlxalq konfransda "Azərbaycanda investisiya imkanları"

mövzusunda çıxış etmiş, Böyük Britaniyanın xarici işlər naziri Malkolm Rifkind, ticarət və sənaye naziri Yan Lanq, baş nazirin I müavini, dövlət naziri Maykl Hezeltayn, energetika naziri Timm Eqqarla və b. rəsmi dairələrlə görüşmüş, Azərbaycana investisiya qoyulması və həyata keçirilən iqtisadi islahatlara yardım göstərilməsi ilə bağlı İngiltərə hökumətinin hərtərəfli köməyinə zəmanət almışdır.

Noyabrın 29-da Azərbaycan Prezidentin Böyük Britaniyanın ticarət və sənaye naziri Yan Lanqla görüşündə Azərbaycan-Böyük Britaniya Ticarət-Sənaye Palatasının yaradılması və ticarət əlaqələrinin inkişaf etdirilməsi haqqında razılıq əldə olunmuş və bu barədə xüsusi memorandum imzalanmışdır. Görüşdə hər iki tərəf Palata vasitəsilə Azərbaycana investisiya qoyuluşunu sür'ətləndirmək,iki dövlət arasında ticarət əlaqələrini daha da inkişaf etdirmək üçün öz imkanlarını əsirgəməyəcəklərini bəyan etmişlər.(42)

Səfər zamanı İngiltərənin dövlət, hökumət və iş adamları ilə keçirilən görüşlərdə və aparılan danışıqlarda iki ölkə arasında mövcud olan iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi, Azərbaycan iqtisadiyyatına Britaniya kapitalı və texnologiyasının cəlb edilməsi, Azərbaycanın beynəlxalq aləmdə himayə edilməsi və dəstəklənməsi, Ermənistan-Azərbaycan münaqişəsinin ATƏT prinsiplərinə uyğun tənzimlənməsi ilə bağlı geniş fikir mübadilələri aparılmış, iki dövlət arasında qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsi perspektivləri nəzərdən keçirilmişdir. Böyük Britaniyanın xarici işlər naziri M.Rifkind bir daha bəyan etdi ki, "biz dövlətlərin ərazi bütövlüyünün qorunub saxlanması prinsipini daim müdafiə edəcəyik". (43)

Beləliklə, 1994-1995-ci illərdə Azərbaycan-İngiltərə münasibətləri yüksələn xətlə, intensiv şəkildə inkişaf etmişdir. Bu əlaqələrin inkişaf etməsi üçün hər iki dövlətin Xarici İşlər Nazirliyi, Bakıda və Londonda fəaliyyət göstərən səfirlikləri də çox mühüm işlər görmüş və yüksək nailiyyətlər əldə etmişlər.

1996-cı ildə Azərbaycan- İngiltərə münasibətləri Böyük Britaniyanın dövlət, hökumət və iş adamlarının respublikamıza



çoxsaylı səfərləri, onun iqtisadi həyatına fəal daxil olmaları, iqtisadiyyatın mühüm sahələrinə investisiya qoyuluşu, birgə müəssisələr yaradılması, birgə layihələr hazırlayıb həyata keçirmələri və s.tədbirlərlə xarakterizə olunmuşdur. Təkcə bu bir il ərzində Bakıda və respublikanın başqa şəhərlərində Böyük Britaniyaya məxsus 40-dan çox ofisin açılması, bu və ya digər layihələrdə, o cümlədən neft istehsalı ilə bağlı bütün müqavilələrdə ingilis iş adamlarının iştirakı faktı 1994-1995-ci illərdə bu ölkə ilə aparılan xüsusi diplomatik və siyasi işin nə qədər yüksək səmərə verdiyini bir daha təsdiqləyir. (44)

1996-cı ilin martında Böyük Britaniya parlamentinin üzvləri Kennet Beyker və lord Nikolas Betl, iyunda energetika və sənaye naziri Timm Eqqarın başçılıq etdiyi nümayəndə hey'əti, avqustda Britaniya Yaxın Şərq Bankının sədri U.Pervis, sentyabrda nəqliyyat naziri lord Çarlz Qoşenin başçılıq etdiyi nümayəndə hey'əti, oktyabrda Britaniya "Secvik qrup" broker sığorta şirkəti və digər dövlət, hökumət və iş adamlarının təmsil olunduğu nümayəndə hey'ətləri respublikamıza səfər etmişlər.

Böyük Britaniyanın dövlət və hökumət rəhbərlərinin, iş adamlarının Azərbaycan Prezidenti Heydər Əliyevlə, respublikanın dövlət və hökumət rəhbərləri ilə görüşlərində, aparılan danışıqlarda iki dövlət arasındakı münasibətlərin bütün sahələri intensiv müzakirə olunmuş, qarşılıqlı faydalı əməkdaşlığın yeni-yeni perspektivləri aşkarlanmış və həyata keçirilmişdir. Bütün 1996-cı il ərzində hər iki tərəf həm qarşılıqlı əlaqələrdə, həm regional, həm də beynəlxalq münasibətlər sahəsində hər iki ölkənin mənafeyini nəzərə almış, strateji əməkdaşlığın və tərəfdaşlığın inkişaf etdirilməsinə çalışmışdır.

1996-cı il mart ayının 26-da Azərbaycan Prezidentinin Böyük Britaniyanın Bakıda səfərdə olan parlament üzvləri ilə görüşündə iki ölkənin parlamentləri arasında əlaqələrin gücləndirilməsi, İngiltərənin parlament təcrübəsinin Azərbaycanda öyrənilməsi və tətbiq edilməsi, beynəlxalq parlament iclaslarında Azərbaycan parlamentarları ilə əməkdaşlıq və s. məsələlər barəsində razılıq əldə olunmuş və onların həyata keçirilməsi üçün zəruri tədbirlər

görülməsi qərara alınmışdır. (45)

İyunun 5-də respublikamıza səfərə gəlmiş Böyük Britaniyanın energetika və sənaye naziri Timm Eqqarın başçılıq etdiyi nümayəndə hey'əti ilə iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi, İngiltərənin iş adamlarının Azərbaycanda işləməsinə və investisiya qoymasına hər iki tərəfin zəmanət verməsi, Azərbaycanın Avropaya inteqrasiya olunmasına İngiltərə hökumətinin hərtərəfli yardım etməyə hazır olması və s. məsələlər ətrafında geniş fikir mübadiləsi keçirilmiş və razılıq əldə edilmişdir. (46) İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın əlaqələndirilməsi və onun səmərəliliyinin artırılması məqsədilə 1995-ci il noyabrın 29-da Londonda imzalanmış Azərbaycan-Britaniya Ticarət-Sənaye Şurasının tə'sis edilməsi haqqında Anlaşma Memorandumu 1996-cı il iyunun 15-də Prezident Heydər Əliyevin sərəncamı ilə təsdiq edildi. (47)

Sentyabrın 30-da respublika Prezidenti ilə Bakıda rəsmi səfərdə olan Böyük Britaniya nəqliyyat naziri lord Çarlz Qoşenin başçılıq etdiyi nümayəndə hey'ətinin görüşündə iki ölkə arasında nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə edilmiş, dəmiryolu, hava və avtomobil nəqliyyatı sahəsində ikitərəfli və çoxtərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi haqqında razılıq əldə olunmuşdur. Görüşdə Avropa-Asiya nəqliyyat-kommunikasiya sisteminin yaranmasına İngiltərə hökumətinin razılığı qeyd olunmuş və bu layihənin həyata keçirilməsinə hərtərəfli yardım etməyə hazır olduğu vurğulanmışdır. (48)

1996-cı ilin oktyabrında Azərbaycanda Britaniya Yaxın Şərq Bankının "Secvik qrupp" broker-sığorta şirkətinin açılması ilə bağlı keçiril ən tədbirlərdə iştirak edən hər iki tərəfin rəsmi dairələri Böyük Britaniyanın Azərbaycanda fəaliyyət göstərən 50-yə yaxın böyük şirkət və firmasına hərt ərəfli maliyyə yardımı və hüquqi tə'minat verdiyinə görə Böyük Britaniya hökumətinə, onlara Azərbaycanda hərtərəfli şərait yaratdığına görə Respublika Prezidenti Heydər Əliyevə böyük minnətdarlıq hissi bildirmişlər. (49)

Azərbaycan-İngiltərə münasibətlərinə müsbət tə'sir göstərən və



onlar arasındakı əlaqələri yaxşılaşdıran görüşlər sırasına 1996-cı ilin aprelində Lüksemburqda, dekabrında isə Lissabonda Azərbaycan Prezidenti Heydər Əliyevlə Böyük Britaniya xarici işlər naziri Malkolm Rifkind arasında keçirilən görüşləri də aid etmək zəruridir.

Hər iki görüşdə Azərbaycanda gedən ictimai, siyasi və iqtisadi proseslərdən, mühüm dəyişikliklərdən, Azərbaycan- İngiltərə əlaqələrinin inkişaf etdirilməsindən geniş söhbət açılmış, Azərbaycanın Avropaya inteqrasiyası, beynəlxalq təhlükəsizlik sisteminə qatılması ilə bağlı Böyük Britaniyanın göstərə biləcəyi yardımdan bəhs edilmişdir. Malkolm Rifkind bir daha qeyd etmişdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin həllində onun ölkəsi ATƏT-in prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu sahədə ölkəmizə əməli yardım göstərməyə hazırdır. (50)

Beləliklə, Azərbaycan müstəqillik əldə etdikdən sonra Böyük Britaniya ilə qarşılıqlı münasibətlərin qurulması istiqamətində bir sıra addımlar atılsa da, həyata keçirilən tədbirlər ardıcıl olmamış, epizodik xarakter daşımış və münasibətlərin səviyyəsi hər iki ölkənin potensial imkanlarından çox geri qalmışdır. Lakin 1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycan- İngiltərə əlaqələrinin inkişaf etdirilməsi sahəsində həyata keçirilən məqsədyönlü siyasət tədricən öz bəhrəsini vermiş və hazırda iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətləri arzu olunan yüksək şəkildə qurulmuşdur.

Bu illərdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əlaqələri tənzimləyən, strateji əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini dərinləşdirən və inkişaf etdirən möhkəm hüquqi-siyasi baza yaradılmışdır ki, bu da Azərbaycanın müstəqil bir dövlət kimi yaşamasına, beynəlxalq aləmdə öz maraqlarını və təhlükəsizliyini qorumasına tam imkan yaradır.

Böyük Britaniyanın rəsmi dairələri Azərbaycanla siyasi, iqtisadi və mə'nəvi əlaqələrə xüsusi diqqət yetirdiyindən 1996-cı ilin yanvar ayında Azərbaycan Respublikası hökuməti ilə İngiltərə hökuməti arasında investisiyaların təşviqi və qorunması haqqında saziş imzalanmışdır. Böyük Britaniya ilk Qərb dövlətidir ki, Azərbaycana

qoyulacaq maliyyə vəsaitlərinə dövlət zəmanəti verir və bu ölkəyə hər cür investisiya qoyuluşunu rəsmi alqışlayır. (51) Bu da öz növbəsində həmin ölkənin iş adamlarının Azərbaycana investisiya qoymasına, birgə layihələrin həyata keçirilməsində iştirak etməsinə hərtərəfli zəmin və şərait yaradır. Məhz elə bunun nəticəsidir ki, 1996-cı ilin payızına qədər Böyük Britaniyaya məxsus 50-yə yaxın müxtəlif şirkət və kompaniyalar Azərbaycanda neft, qaz, metallurgiya, maşınqayırma, rabitə, e'mal və b. sənaye sahələrində böyük layihələrin reallaşmasında yaxından iştirak etmişlər və bu gün onların sayı artmaqda davam edir. Bunların içərisində nəinki təkcə Böyük Britaniyada, hətta bütün Avropada və dünyada məşhur olan "Britiş Petroleum","Con Braun", "Kayzer İnciniring","Ci-Pi-Ti", "Yordlayd" kimi böyük və nüfuzlu kompaniyalar xüsusi fərqlənir.

Azərbaycanın iqtisadi və ticarət dövriyyəsində Böyük Britaniyanın payı günü-gündən artır. İki ölkə arasında neft, kimya və neft-kimyası, metallurgiya və əlvan metalların istehsalı, ərzaq və xalq tələbatı mallarının istehsalı və satışı ilə bağlı 17 müştərək müəssisə məşğul olur.

Böyük Britaniyanın Azərbaycanla siyasi və diplomatik əlaqələri də 1996-cı ildə nəzərə çarpacaq dərəcədə güclənmişdir. Bu fəallıq bir tərəfdən, Azərbaycanda gedən ictimai-siyasi proseslərdə, demokratik dövlət quruculuğu prosesində İngiltərənin fəal iştirakı və yardımı, digər tərəfdən, Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrinin yaranmasına, bu qurumlara inteqrasiya olunmasına Böyük Britaniyanın köməyi və dəstəyi şəklində özünü büruzə verir. Bundan başqa, region hadisələrinə, Ermənistan- Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin sülh yolu ilə, beynəlxalq hüquq normalarına və prinsiplərinə uyğun həll olunması işinə müdaxilə etmək baxımından son zamanlar İngiltərə hökuməti öz prinsipial mövqeyi ilə seçilən ölkələr sırasında olmuşdur. Bu ölkənin rəsmi dairələri dəfələrlə bəyan etmişlər ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir, erməni qoşunları Azərbaycanın işğal edilmiş torpaqlarını tərk etməlidir, Dağlıq Qarabağa veriləcək muxtariyyətin hansı statusa malik olmasını yalnız Azərbaycan müəyyən etməlidir. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon



zirvə görüşündə də Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ilə bağlı Böyük Britaniya dövləti dəyişməz və prinsipial mövqedə durduğunu, bu problemin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə biləcəyini bir daha təsdiq etdi. (52)

İngiltərə hökuməti eyni zamanda 1995-1996-cı illərdə üzvü olduğu BMT Təhlükəsizlik Şurasında, ATƏT, NATO, Avropa Birliyi, Avropa Şurası və b. beynəlxalq və məhəlli təşkilatlarda Azərbaycanın müstəqil dövlətçilik mənafelərinin və təhlükəsizlik problemlərinin əsas himayədarı və müdafiəçilərindən biri kimi çıxış etmişdir. Xüsusən, Azərbaycanın bu qurumlara inteqrasiya olunması və onlarla əməkdaşlıq münasibətləri yaratmasına Böyük Britaniyanın nümayəndələri fəal kömək göstərirlər. Eyni zamanda, Böyük Britaniyanın bütün dünya ölkələrindəki səfirliklərinin, bütün beynəlxalq və məhəlli təşkilatlardakı nümayəndəliklərinin və İngiltərəyə məxsus kütləvi informasiya vasitələrinin də imkanlarından Azərbaycanın beynəlxalq problemlərinin həllində fəal istifadə olunmasına mühüm şərait yaradılmışdır. Bu sahədə Azərbaycanın Böyük Britaniyadakı səfirliyi və böyük elçi M.Məmmədquliyevin fəaliyyəti xüsusi nəzərə çarpmışdır.

Beləliklə, 1994-cü ilin fevral ayında təməli qoyulmuş Azərbaycan-Böyük Britaniya dostluq və əməkdaşlıq münasibətləri keçən üç ildə yüksələn xətlə inkişaf etmiş və ikitərəfli əlaqələrdə hər iki dövlətin strateji maraqlarının tə'min edilməsinə real zəmin yaratmışdır. Dostluq və əməkdaşlıq prinsipləri üzərində qurulmuş Azərbaycan-Böyük Britaniya münasibətlərinin strateji tərəfdaşlıq istiqamətində inkişafı gələcəkdə hər iki dövlətə və onların təmsil etdiyi xalqlara böyük fayda verə bilər. Hər iki dövlətin qarşısında duran ali vəzifələrin həyata keçirilməsində bu münasibətlərin və əlaqələrin oynaya biləcəyi rolu görən Azərbaycan Prezidenti və İngiltərə rəhbərləri bəhs olunan dövrdə bütün diplomatik və siyasi vasitələrdən istifadə etmiş, strateji tərəfdaşlığın möhkəm özülünü qoymuşlar.

Böyük Britaniya ilə yaradılan dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri, xüsusən, müstəqillik yolu ilə öz kövrək

addımlarını atan Azərbaycan üçün lazımdır. Müstəqil dövlət qurmaq nə qədər çətindirsə, onun beynəlxalq mənafelərini, təhlükəsizliyini qorumaq, dünyanın təhlükəsizlik və sivil maraqlar sisteminə qoşulmaq, müstəqilliyə tuşlanmış təzyiqlərə, təhlükələrə sinə gərmək, bu yolda qarşıya çıxan qlobal problemləri aradan qaldırmaq daha çətindir. Xəzər dənizinin XXI əsrin əsas enerji bazalarından birinə çevrilməsi, Azərbaycanın yerləşdiyi geosiyasi region,onun Qərb-Şərq nəqliyyat-kommunikasiya sisteminin kəsişməsində yerləşməsi və s. amillər Azərbaycanı beynəlxalq aləmdə qlobal maraqlar dairəsinə daxil etdiyi üçün Böyük Britaniya kimi güclü, nüfuzlu bir Avropa dövləti ilə dostluq münasibətlərinin əhəmiyyəti dərhal diqqəti cəlb edir.



## *b) Fransa ilə münasibətlər*

Müasir dövrdə Azərbaycan Respublikasının dövlətçilik mənafeləri beynəlxalq münasibətlər sistemində mühüm yer tutan Fransa ilə əlaqələrin inkişaf etdirilməsini tə'xirəsalınmaz vəzifə kimi irəli sürür.

Qərbi Avropada Belçika, AFR, İtaliya, İsveçrə, İspaniya və b. dövlətlərin əhatəsində yerləşən, 547 min kv.kilometr ərazisi, 58 milyondan çox əhalisi (53) olan Fransa Respublikası özünün tarixi inkişaf təcrübəsi ilə yeni müstəqillik qazanmış, demokratik inkişaf və dünya birliyinə inteqrasiya kursu götürmüş hər bir dövlət üçün əsl örnək və təcrübə məktəbi ola bilər. Bu dövlət çox zəngin tarixə, özünəməxsus ictimai-siyasi quruluşa və inkişaf etmiş iqtisadiyyata malikdir.

Siyasi sisteminə görə güclü Prezident hakimiyyətinə malik olan, lakin konstitusiya ilə parlamentli respublika hesab edilən Fransada dünyada çox az təsadüf olunan bir idarəetmə sistemi mövcuddur. Dövlət-idarəetmə mexanizmlərinin əsas sükanı 7 il müddətinə seçilən Prezidentə məxsusdur. Prezident parlamentin təsdiqi olmadan baş naziri və nazirləri tə"yin edir, dövləti ehtiyac yarandıqda parlamenti buraxır, yeni seçkilər keçirir və şəraitin tələb etdiyi digər fövqəl'adə tədbirlərin tətbiqi üçün özünün geniş səlahiyyətlərindən istifadə edir.

Bugünkü azad və demokratik quruluşu yaratmaq üçün fransız xalqı min illərlə mübarizə aparmışdır. VI əsrin ortalarına qədər Frank dövlətinin tərkibinə daxil olan Fransa əraziləri 843-cü ildə Karolinqlər imperiyasının süqutundan sonra müstəqil dövlətə çevrilmiş və X əsrdən Fransa adlanmağa başlamışdır. XVI əsrdə bərqərar olmuş mütləq monarxiya idarə üsulu 1789-cu il 14 iyul Böyük Fransa burjua inqilabı nəticəsində devrilmiş və ölkədə respublika idarə üsulu yaradılaraq ilk konstitusiya qəbul

olunmuşdur.(54)

Fransada demokratik dəyərlərin başlanması bu dövrdən hesab olunsa da ölkədə respublika idarəetmə üsulu bir neçə dəfə devrilmiş, lakin nəticədə xalqın azad yaşamaq istəyi, demokratiyaya göstərdiyi meyl qalib gəlmişdir.

Tarixi təfərrüata varmadan onu qeyd etmək lazımdır ki, Fransanın hazırkı 5-ci respublikasının banisi general Şarl de Qoldur. 1958-ci il iyunun 1-də hakimiyyətə gəlmiş de Qoll yeni konstitusiya ilə Fransanı respublika e"lan etdi. Həmin vaxtdan müstəqil xarici siyasət yeritməyə başlayan Fransa Afrikadakı bir sıra müstəmləkələrinə müstəqillik vermiş və 1966-cı ildə isə NATO-nun hərbi təşkilatından çıxaraq öz ərazilərində Amerika hərbi bazalarını ləğv etmişdir. Fransa özünün strateji və taktiki nüvə qüvvələrini yaratmaq xəttini davam etdirərək nüvə silahı sınaqlarının qadağan olunması (1963) və nüvə silahının yayılmaması haqqında (1968) müqavilələri imzalamaqdan imtina etmiş və yalnız uzun fasilədən sonra, 1992-ci il avqustun 3-də həmin müqavilələrə qoşulmuşdur.

1969-cu ildə de Qoll iste'fa verdikdən sonra hakimiyyətə gəlmiş yeni Prezident J.Pompidu da de Qoll hökumətinin siyasi xəttini davam etdirdi. Onun varisi Prezident V.Jiskar d"Esten ölkədə siyasi vəziyyəti nizama salmaq üçün bir sıra tədbirlər həyata keçirdi. O, xarici siyasət sahəsində ABŞ-la münasibətləri daha da yaxşılaşdırmaq və NATO ilə əməkdaşlığı genişləndirmək xəttinə üstünlük verirdi.(55)

1981-ci ildə hakimiyyətə gəlmiş sosialist F.Mitteranın 14 illlik hakimiyyəti müddətində əlverişli daxili və xarici siyasət nəticəsində Fransa Avropada özünəlayiq yerlərdən birini tutdu. Ölkədə aparılan milliləşdirmə tədbirləri cəmiyyətdə sosial gərginliyi azaltdı. F.Mitteran hökuməti NATO-nun siyasi doktrinasına daha çox meyl göstərdi.

Fransa əhalisinin tərkibinə görə çoxmillətli bir dövlətdir. Ölkənin daxili siyasi həyatında milli məsələ həmişə nəzərə çarpır.Uzun tarixi dövrlərdə milli azlığın nümayəndələri olan basklar, bretanlar, korsikalılar, katalonlar, elzaslılar özlərinin etnik və mədəni mövcudluğunun tanınması məsələsini qaldırmışlar. Lakin onların bu tələbi 1789-cu ildə əsası qoyulan və 5-ci Respublika Konstitusiyası



ilə daha da möhkəmləndirilən "Fransanın vahid və bölünməz" dövlət olması prinsipinə zidd olduğu üçün müdafiə olunmayıb.

Hazırda Korsika millətçiləri adaya böyük müstəqillik verilməsi və Fransadan ayrılmaq tələbi ilə çıxış edirlər. Əgər 70-80-ci illərdə separatçılara qarşı ciddi repressiya tədbirləri tətbiq edilirdisə, 90-cı illərdən başlayaraq mərkəzi hakimiyyət belə qüvvələrlə, bir qayda olaraq, danışıqlar və dialoq aparmağa meyl göstərir. 1991-ci ildə ölkənin Konstitusiya Şurası ada əhalisini ayrıca xalq kimi tanımaqdan imtina etdi. Lakin Konstitusiya Şurası "respublikanın maraqlarını" nəzərə almaqla xüsusi idarəetmə hüququnun tanınması ilə bağlı adanın statusuna müəyyən əlavələr etməyi lazım bildi.

Eyni zamanda, qeyd etmək lazımdır ki, Fransa etnik və regional icmaların və onların ərazilərinin hüquq və maraqları ilə bağlı beynəlxalq sənədlərə də həddindən artıq ehtiyatla yanaşır. Misal üçün göstərmək olar ki, "Milli azlıqların dil və mədəniyyətləri haqqında" 1992-ci il Avropa xartiyasına Fransa imza atmayıb.

Öz daxili və xarici siyasətinin yeni konsepsiyasına əsasən Fransa dünya siyasətində daha mühüm rol oynamağa cəhd edir. Onun Yaxın və Orta Şərq, Mərkəzi və Şərqi Avropa və MDB ölkələri, Afrika və Asiya kontinentinə daxil olan ölkələrlə siyasətində son zamanlar mühüm bir aktivlik müşahidə edilir. 1996-cı il oktyabrın 11-də Bakıda olarkən Fransanın xarici işlər naziri Erve de Şarett bəyan etmişdir ki, "Avropa Atlantikdən başlayıb Xəzərdə qurtarır. Fransa öz üzünü ayrı-ayrı xalqların qüvvələri nisbətində xüsusi yer tutan strateji bir ölkə kimi Azərbaycana çevirir" (56).

Tarixi keçmişə nəzər salsaq, hələ XII-XIV əsrdən başlayaraq Azərbaycanla Fransa arasında müxtəlif mədəni-siyasi və ticarət əlaqələrinin mövcud olduğunu görərik. Orta əsrlərdə bu münasibətlər pərakəndə və qeyri-müntəzəm xarakter daşısa da (57) XIX əsrin əvvəllərindən başlay araq hər iki xalqın ziyalı təbəqəsi və siyasətçiləri bu münasibətləri şüurlu şəkildə inkişaf etdirməyə sə"y göstərmişlər. Hələ XVII əsrdə fransız din xadimi və maarifçisi Rafael de Man Azərbaycan dilinin qrammatikasına maraq göstərmiş, bu mövzuda mühüm elmi araşdırmalar aparmışdır. Fransa mətbuatında çıxış edən ilk azərbaycanlı müəllif isə 1894-cü

ildə Paris şəhərində nüfuzlu kolleclərdən birini bitirmiş Əhməd bəy Ağaoğlu olmuşdur. Bundan əvvəl isə böyük fransız yazıçısı Aleksandr Düma Qafqaza səfəri zamanı Azərbaycanda olmuş və həmin səfərdən bəhs edən eyni adlı əsərində Azərbaycanla bağlı xatirələrinə xüsusi yer vermişdir.(58) 1859- cu ildə Parisdə, 1861-ci ildə Tiflisdə, 1962-ci ildə Nyu-Yorkda nəşr edilən bu əsərdə müəllifin Azərbaycan xalqına, onun dilinə, adət-ən"ənəsinə və məğrurluğuna rəğbəti aydın duyulur. Bundan başqa, XIX əsrin sonlarında M.F.Axundov və A.A.Bakıxanov kimi ədiblər Fransa mətbu orqanlarında vaxtaşırı çap olunmuşlar. M.F.Axundovun yazdığı "Müsyö Jordan və dərviş Məstəli şah" əsərində Azərbaycan-Fransa mədəni və siyasi əlaqələrinin m üəyyən yer tutması o dövrdə həmin əlaqələrin inkişaf səviyyəsi haqqında təsəvvür yaradır.

Əsrimizin 20-ci illərində mühacirət etmək məcburiyyətində qalan Azərbaycan milli burjuaziyası və ziyalılarının bir qisminin məhz Fransaya üz tutması da onların bu ölkə ilə sıx əlaqələrinin olması ilə izah edilə bilər. Hələ tədqiq edilməmiş Azərbaycan mühacir ədəbiyyatının görkəmli siması, milyonçu Şəmsi Əsədullayevin nəvəsi Ümbül-Banu Əsədullayevanın yazdığı gözəl əsərlər də məhz Parisdə yaranmış və dünya ədəbiyyatı xəzin əsinə daxil olmuşdur.

Bütün bunlara 1918-ci ildə yaradılmış AXC-nin müstəqilliyinin ilk dəfə beynəlxalq ictimaiyyət tərəfindən Parisdə tanındığı faktı da əlavə etsək, bu gün Azərbaycan-Fransa münasibətlərinin inkişaf etdirilməsi üçün kifayət qədər əsaslı tarixi bazanın olduğunu görərik.

1991-ci il oktyabr ayının 18-də respublikamızda dövlət müstəqilliyinin bərpa edilməsi e'lan olunduqdan sonra Azərbaycanı dünya dövlətləri arasında ilk tanıyan ölkələrdən biri də məhz Fransa oldu.

1992-ci il yanvar ayının 3-də Azərbaycanın müstəqilliyini rəsmən tanıdığını e'lan edən bu Qərbi Avropa dövləti, tezliklə diplomatik əlaqələrin qurulması üçün konkret addımlar atdı.(59) İki ölkə arasında səfirliklər səviyyəsində diplomatik münasibətlər yaradılması məqsədilə Fransa hökuməti fevral ayının 20-də humanitar məsələlər üzrə dövlət katibi Bernar Kuşnerin rəhbərlik etdiyi nümayəndə hey'ətini Bakıya rəsmi səfərə göndərdi.(60) Qısa müddət ərzində Bakıda öz səfirliyini açmış Fransa hökumətinin Azərbaycandakı səfiri Jak Perren artıq martın 26-da e'timadnaməsini respublika rəhbərliyinə təqdim etdi. (61) İlk zamanlar Azərbaycan haqqında məhdud mə'lumatlara malik olan Fransa tərəfi gənc respublikaya böyük maraq göstərir, iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın geniş surətdə inkişaf etdirilməsinə və Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılmasında vasitəçi rolunu yerinə yetirməyə hazır olduğunu bildirirdi.(62) Beynəlxalq hüquq normalarına söykənən Fransa hökuməti Qarabağ probleminin həllində Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərini əsas götürürdü.(63)

SSRİ dövründə Azərbaycan ilə zəif qarşılıqlı əlaqələrə malik olan Fransa müstəqillik əldə etmiş respublikalarla, o cümlədən Azərbaycanla geniş iqtisadi əməkdaşlıq etmək xəttinə üstünlük verirdi. Təsadüfi deyil ki, 1992-ci ilin noyabr ayında Fransanın Bakıdakı səfiri Jan Perren Azərbaycan hökumətinə inzibati, hüquq, hərbi, tibb, ekologiya, mədəni-maarif və elm sahələrində, maliyyə və bank fəaliyyətində, ticarət, kənd təsərrüfatı, maşınqayırma və xalq təsərrüfatının başqa sahələrində əməkdaşlıq təklifi ilə müraciət etdi. Azərbaycan hökuməti Fransa investisiyalarına maraq göstərdiyini ifadə edərək, qarşı tərəfin təkliflərini diqqətlə öyrənəcəyini və'd etdi. (64) Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, Azərbaycan tərəfi bu təkliflərin həyata keçirilməsi üçün heç bir ciddi əməli tədbir görmədi.

1993-cü ilin mayında Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi bir dövrdə Fransa Respublikasının Prezidenti F.Mitteran Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəyə göndərdiyi məktubda "Dağlıq Qarabağ ətrafında hərbi əməliyyatların genişlənməsindən Fransanın çox narahat olduğunu" bildirir və qeyd edirdi ki, "Fransa hökuməti erməni qüvvələrinin Kəlbəcərdən çıxması tələbi ilə müxtəlif səviyyələrdə çıxış etmişdir".(65) F.Mitteran öz məktubunda Azərbaycan rəhbərliyini münaqişəni ATƏM-in Minsk qrupu çərçivəsində nizamlamaq yollarının axtarışını davam etdirməyə çağırırdı. Məktubu təqdim edən Fransa *səfiri Jan Perren* "Fransada Azərbaycana marağın artmaqda

olduğunu və öz ölkəsinin Azərbaycanla sıx iqtisadi əlaqələr yaratmaq istədiyini" bildirmişdir.(66) Lakin əməkdaşlığın genişləndirilməsində maraqlı olan Fransa kimi nüfuzlu bir dövlətin sə'yləri və əməli təklifləri həmin dövrdə Azərbaycan tərəfindən layiqincə qiymətləndirilmədi.

1993-cü ilin yayına qədər Azərbaycanın yeritdiyi birtərəfli xarici siyasət nəticəsində Fransa ilə əlaqələrə heç bir cəhd göstərilməmiş və yüksək dövlət rəhbərləri səviyyəsində bu məqsədlə heç bir addım atılmamışdır. Məhz həmin dövr Azərbaycan-Fransa münasibətlərində soyuq dövr kimi qiymətləndirilir. Fransanın xarici işlər naziri Erve de Şarett 1996-cı ilin oktyabrında Bakıya səfəri zamanı iki dövlət arasındakı münasibətlərdə həmin illərdə yaranmış boşluğun və qarşılıqlı e'timadsızlığın hər iki tərəfə, xüsusən Azərbaycana vurduğu zərbəni xüsusi qeyd etməklə, qısa müddətdə bu münasibətlərin normal məcraya salınmasında Azərbaycan Prezidenti Heydər Əliyevin xidmətlərini ayrıca vurğuladı.

Fransa ilə Azərbaycan arasında həmin vaxt münasibətlərin lazımi səviyyədə olmamasının səbəblərini araşdırmağa çalışsaq əsasən aşağıdakı aparıcı amilləri qeyd etmək olar: əvvəla, Azərbaycanda siyasi hakimiyyətdə olan ali dövlət rəhbərlərinin BMT Təhlükəsizlik Şurasının daimi üzvü və inkişaf etmiş Qərb ölkəsi kimi beynəlxalq aləmdə aparıcı mövqeyə malik Fransa dövlətinin dünya siyasətində tutduğu yeri, oynadığı rolu və Azərbaycan-Ermənistan konfliktinə göstərə biləcəyi tə"siri lazımınca qiymətləndirə bilməməsi və müvafiq olaraq bu ölkə ilə diplomatik iş aparmaması; ikincisi, Fransa-Azərbaycan münasibətlərində qarşılıqlı e"timadsızlığın və soyuqluğun formalaşmasında maraqlı olan Ermənistan dövlətinin təbliğat maşını və erməni diasporunun bu istiqamətdə gördüyü məqsədyönlü işlər; üçüncüsü, erməni lobbissinin güclü nüfuza malik olduğu Fransanın ayrı-ayrı məs"ul işçilərinin Azərbaycana münasibətdə bu dövlətin ali maraqlarından deyil, ermənilərin məhdud etnik maraqlarından çıxış etmələri.

Göründüyü kimi, belə şəraitdə normal diplomatik münasibətlərin və sivilizasiyalı əməkdaşlığın baş tutması qeyri-mümkün idi. Sağlam münasibətlərin qurulması, dostluq və əməkdaşlıq əlaqələrinin



yaradılması üçün tərəflərin hər ikisi, xüsusən buna daha çox ehtiyacı olan Azərbaycan dövləti ardıcıl və düşünülmüş diplomatik addımlar atmalı, xüsusi sə'ylə və təşəbbüslə çıxış etməli idi. Lakin təəssüflər olsun ki, Fransa ilə xüsusi iş aparmaq, onu Ermənistanın və bu ölkədə çox güclü tə"sir mexanizmlərinə malik olan erməni lobbisinin tə"sirindən xilas etmək əvəzinə, Azərbaycan diplomatları öz çıxış və bəyanatları ilə bütün dünyaya car çəkərək bu güclü və nüfuzlu Avropa dövlətinə "soyuq müharibə" e"lan etdilər. Əməli fəaliyyətində isə rəsmi Bakı bu dövləti Azərbaycanın düşməni, Ermənistanın isə dostu kimi qələmə vermək və təlqin etməkdən uzağa getmədi. Fransızlar isə əksinə, bütün beynəlxalq və rəsmi tədbirlərdə Ermənistana dost ölkə kimi öz hüsn-rəğbətini gizlətmədən, azərbaycanlıları da özlərinə düşmən hesab etmədiklərini bəyan edirdilər.

Yeni Avropanın əsas siyasi istiqamətini müəyyən edən ölkələr içərisində öz gücü, tə"siri və nüfuz dairəsi ilə seçilən, insan hüquqlarının qorunması, sivil dövlət quruculuğu sahəsində xüsusi imicə malik, dünyanın dinc birgəyaşayış qaydalarının qorunmasında həmişə mövqeyi nəzərə alınan Fransa kimi bir dövlətə, müstəqillik yolunda hələ yeni-yeni addımlar atmağa başlayan Azərbaycanın belə münasibəti sözsüz ki, bağışlanılmaz səhv idi. Ərazisində iki yüzdən çox beynəlxalq və regional təşkilatın fəaliyyət göstərdiyi, inkişaf etmiş iqtisadi-hərbi potensialı olan, Azərbaycanın müstəqilliyi, iqtisadi yüksəlişi və beynəlxalq təhlükəsizliyi üçün mühüm töhvə verə biləcək Fransa ilə konfliktə və qarşıdurmaya meyl etmək, diplomatik və siyasi cəhalət kimi qiymətləndirilməlidir.

Yalnız Prezident Heydər Əliyevin respublika rəhbərliyinə yenidən qayıtmasından sonra Azərbaycanın xarici siyasətində, o cümlədən Fransa ilə münasibətlərdə dönüş baş verdi. 1993-cü il avqustun 13-də Fransanın Bakıdakı səfiri Jan Perreni qəbul edərkən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev "iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin daim möhkəmlənəcəyini söyləmişdir". (67) Artıq bu istiqamətdə atılan addımlardan biri kimi Fransa nümayəndəsinin Avropa bankının sədri seçilməsində Azərbaycanın da xüsusi təşəbbüs göstərməsinə görə səfir Fransanın baş nazirinin təşəkkür məktubunu

Heydər Əliyevə təqdim etmişdir.

Azərbaycanın dövlət mənafeyinə zidd olan iqtisadi və informasiya blokadasının, diplomatik təcridolunmanın aradan qaldırılması istiqamətində qətiyyətli addımlar atan Prezident Heydər Əliyevin ilk rəsmi səfəri və müstəqil Azərbaycan dövlətinin Avropaya çıxışı 1993-cü ilin dekabrında məhz Fransadan başlandı.(68) Bu səfər təkcə Fransa ilə qarşılıqlı əlaqələrin və münasibətlərin yeni mərhələsi deyil, bütövlükdə gənc dövlətin xarici siyasətinin Avropa istiqaməti adlanan, özünün mühüm prinsip və xüsusiyyətləri ilə seçilən yeni xarici siyasət strategiyasının başlanğıcı idi. 1993-cü ilin dekabrında Azərbaycan dövləti öz xarici siyasətinin ana xəttini bütün dünyaya bəyan etdi: beynəlxalq hüquq normaları və sivilizasiyalı birgəyaşayış qaydaları ilə tənzimlənən böyük dünya birliyinə inteqrasiya olunmaq; dövlətlərlə hüquq bərabərliyinə, qarşılıqlı faydalı əməkdaşlığa, qarşılıqlı təhlükəsizliyə və bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə əsaslanan ikitərəfli və çoxtərəfli əlaqələr yaratmaq; demokratiyaya, bazar iqtisadiyyatına və sülhsevər siyasətə yön almaq və s.

Təcrübəli siyasi xadim və incə diplomat Heydər Əliyev keçmiş iqtidar başçılarından fərqli olaraq Fransa dövlətinin dünyada və Avropada oynadığı rolu, malik olduğu gücü, nüfuzu və tə"sir dairəsini yaxşı bildiyindən, ilk növbədə o vaxta kimi Azərbaycanda yalnız "düşmən" kimi təlqin olunmuş Fransa ilə əlaqələri sahmana salmağı qərarlaşdırdı. Məhz bu məqsədlə də onun ilk rəsmi xarici səfəri Fransadan başladı.

Yüksək səviyyədə qarşılanan Azərbaycan Prezidenti ilk öncə respublika haqqında Fransada formalaşmış ictimai rə"yin dəyişdirilməsi istiqamətində bir sıra mühüm işlər görə bildi. Üç günlük çoxsaylı görüş və söhbətlərdə, danışıqlarda, mətbuat konfranslarında Azərbaycan həqiqətləri ilk dəfə olaraq Fransa hakimiyyət dairələrinə və ictimaiyyətinə təhrif olunmadan təqdim edildi. Ermənistan-Azərbaycan müharibəsinin səbəbləri, Qarabağ münaqişəsinin mahiyyəti, separatçıların məqsədləri Fransanın ali rəhbərliyinə və diplomatik korpusuna izah edildi. Yüksək dairələrdə ilk dəfə olaraq əslində məsələnin nə yerdə olması haqqında dolğun



təəssürat yaradıldı və e"tibarlı mənbədən alınmış mə"lumat əldə edildi.Beləliklə, Fransada Azərbaycan məhz o vaxtdan ilk dəfə bütün həqiqət və problemləri ilə dərk olundu.

İki dövlət başçısının Yelisey sarayında görüşü nəinki təkcə Azərbaycan-Fransa münasibətlərində əsl dönüş anı, həmçinin bütövlükdə müstəqil Azərbaycan dövlətinin Qərb siyasətinin başlanğıcı oldu. Protokol normasından üç dəfə çox davam edən bu görüşdə dünyanın iki nəhəng siyasətçisi-Fransua Mitteran və Heydər Əliyev nəinki təkcə Fransa-Azərbaycan münasibətlərinin əsas istiqamət və prinsiplərini, Qafqaz regionunda baş verən hadisələrin mahiyyətini, Dağlıq Qarabağ və Azərbaycan-Ermənistan konfliktinin mahiyyəti və həlli yollarını müzakirə etdilər, həmçinin planetin qlobal məsələlrinin əsas axarını, dünya ölkələrinin və xalqlarının inkişaf tendensiyalarını, dövlətlərarası və beynəlxalq münasibətlərin yönüm və xüsusiyyətlərini hərtərəfli təhlil etdilər və fikir süzgəcindən keçirdilər. Görüşdə mə"lum oldu ki, Fransa dövləti və xalqı heç də Azərbaycanda deyildiyi kimi "bizim düşmənimiz, erməninin dostu" deyil. Fransua Mitteranın " Biz sülh və təhlükəsizlik prinsiplərinə əsasən sərhədlərin silah və zor gücünə dəyişdirilməsinə yol verməyərik. Biz müstəqillik və suverenliyin qanunla qorunmasını istəyirik" (69)-söyləməsi nəinki təkcə səfəri diqqətlə izləyən Ermənistanı və bu ölkədə çox güclü mövqe tutmuş erməni lobbisini dəhşətli dərəcədə sarsıtdı, həmçinin bütün dünyanı və Azərbaycanın nümayəndə hey'ətinin özünü də belə gözlənilməz dərəcədə heyrətləndirdi. Bütün dünyanın nəzərində hər şey bircə anın içində dəyişdi. Bu, Azərbaycan dövlətinin öz müstəqilliyini e"lan etdiyi 1991-ci ildən bəri xarici siyasət sahəsində əldə etdiyi ilk böyük və əsaslı qələbə idi.

Yelisey sarayında iki ölkə prezidentləri Fransa və Azərbaycan arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzaladılar. Bu andan iki dövlətin qarşılıqlı münasibətləri tarixinə yeni bir söz-"dost" sözü əlavə olundu. Bu müqavilə iqtisadiyyat, siyasət, elm, texnika, təhsil sahəsində,təhlükəsizlik sisteminin yaradılmasında iki ölkə arasındakı mövcud əməkdaşlığın və tərəfdaşlığın prinsiplərini, xüsusiyyətlərini müəyyən etməklə

bərabər, həm də hər iki dövlətin mənafelərinin üst-üstə düşdüyünü, onlar arasındakı əlaqələrin əhatə dairəsinin və çərçivəsinin tərəflərdən heç birini qane etmədiyini təsdiqlədi. Müqavilədə hər iki xalqın istək və arzularının, qarşılıqlı mənafe və təhlükəsizlik məsələlərinin üst-üstə düşməsi qeyd olunur və onlar arasındakı münasibətlərin bundan sonra yeni miqyas alacağı açıqlanır.(70)

Beləliklə, 1993-cü ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ilk rəsmi xarici səfəri Azərbaycan üçün çox uğurlu sonluqla başa çatdı. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının beş əsas üzvündən, "Yeddilər" deyilən dünyanın aparıcı dövlətlərindən biri olan Fransa ilə dostluq haqqında müqavilə bağlaması, Dağlıq Qarabağ probleminin Azərbaycanın sərhədlərinin və ərazi bütövlüyünün pozulması yolu ilə həllinə Fransanın razı olmayacağı haqqında Fransua Mitteran kimi nüfuzlu və təcrübəli dövlət başçısının bəyanatı bütün dünyada sensasiya yaratdı. Bu göstərdi ki, Fransa kimi güclü və demokratik bir dövlət erməni lobbisinin tə"siri ilə formalaşmış birtərəfli siyasətin köləsi olmayacaq. Bu ölkə öz milli-dövlətçilik mənafelərini hər hansı bir kənar tə"sirlə formalaşmış siyasətdən üstün tutmaqla, əslində başqa dünya ölkələrinə də bir xəbərdarlıq etdi. Fransanın Azərbaycana və onun problemlərinə diqqətlə yanaşması, onunla dostluq münasibətləri yaratması Azərbaycanın sonrakı mövqeyinə, onun Qərblə əlaqələrinə, bütövlükdə beynəlxalq vəziyyətinə çox böyük müsbət tə"sir göstərdi. Heydər Əliyevin ilk müvəffəqiyyətli rəsmi xarici səfəri göstərdi ki, xarici siyasət strategiyası düzgün qurulmuş və başlanğıc uğurlu olmuşdur.

Bu səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev daha bir mühüm sənədə imza atdı. Bu sənəd yeni Avropa üçün "Paris Xartiyası" adlanır.(71) Bu sənədə qoşulmaqla Azərbaycan rəsmi şəkildə BMT nizamnaməsinə, təhlükəsizlik və əməkdaşlıq haqqında beynəlxalq normalara və prinsiplərə dönmədən əməl edəcəyini təsdiqləməklə bərabər, həm də öz təhlükəsizlik və ərazi problemlərini dünyanın ümumi təhlükəsizliyi ilə sıx bağlamışdır. Məhz bu sənədə qoşulmaqla Azərbaycan Avropanın ümumi təhlükəsizlik sisteminə doğru ilk böyük addım atdı.



Fransa səfəri zamanı Prezident Heydər Əliyev yalnız rəsmi dairələrlə keçirilən görüşlərlə kifayətlənməyib, iki ölkə arasında iqtisadi və mədəni əlaqələrin inkişafına daha geniş imkanlar açan bir sıra başqa görüşlər də keçirdi. Bu baxımdan Fransa sahibkarlarının milli mərkəzində ölkənin qabaqcıl şirkətlərinin nümayəndələri ilə keçirilən görüş Azərbaycan- Fransa iqtisadi əməkdaşlığının daha dolğun məzmun kəsb etməsi üçün böyük əhəmiyyətə malikdir.(72) Fransanın işgüzar dairələri bilavasitə Azərbaycan Prezidentindən respublikanın zəngin iqtisadi potensialı, aparılan islahatlar, iqtisadiyyatın müxtəlif sahələrinə xarici investisiyaların qoyuluşu haqqında ətraflı mə'lumatlar aldılar. Fransa sahibkarlarının Azərbaycan ilə sıx iqtisadi əməkdaşlığa böyük maraq göstərmələrini təsdiqləyən bu görüş həmin günlərdə iki ölkə arasında imzalanmış müqavilənin həyata keçirilməsinin ilk mərhələsini təşkil edirdi.

Azərbaycan haqqında obyektiv mə'lumatın yayılması, respublikada baş verən hadisələr barədə Qərb ölkələrində formalaşmış yanlış ictimai fikrin aradan qaldırılması üçün Prezident Heydər Əliyevin verdiyi çoxsaylı müsahibələr və mətbuat konfransı mühüm əhəmiyyət kəsb edir. (73)

Səfərin nəticələrinə yüksək qiymət verən Prezident Heydər Əliyev qeyd etdi ki, Azərbaycan-Fransa münasibətlərinin inkişafı üçün "indi yaradılmış imkanlardan maksimum səmərə ilə istifadə olunmasından ötrü gələcəkdə də hər şey edəcəyik" (74).

Beləliklə, Prezident Heydər Əliyevin 1993-cü il dekabrın 19-dan 21-dək davam edən Fransaya ilk rəsmi səfəri iki ölkə arasında yeni və dinamik inkişaf edən münasibətlərin təməlini qoymaqla yanaşı, beynəlxalq aləmdə Azərbaycanın daha dolğun və obyektiv imicinin formalaşmasına böyük tə'sir göstərdi. Səfərin nəticələri Fransa tərəfindən də yüksək qiymətləndirildi. Bu ölkənin Bakıdakı səfiri J.Perren müsahibələrinin birində təəssüflə qeyd edirdi ki, Azərbaycanın əvvəlki rəhbərliyi "qara ləkələri olan axtarışlara daha çox vaxt ayırırdı. Bizim hansısa əməllərimizdən şübhələnir və fəal əməkdaşlıqdan yayınırdı". O haqlı olaraq bildirirdi ki, "əslində ideoloji mübarizə gərək imiş. Sizin Prezidentin ölkəmizə səfərindən sonra hadisələr öz axarına düşdü. Onun çıxışları, verdiyi bəyanatlar

Azərbaycanın siyasətini və regionda siyasi vəziyyəti müəyyən etməyə imkan yaratdı. Siz daha anlaşıqlı, daha yaxın oldunuz". (75) Beləliklə, Fransa rəhbərləri ilə aparılan çoxsaylı və gərgin danışıqlar nəticə e'tibarı ilə bu ölkəyə özünün əsl dövlət maraqlarını erməni lobbisinin prizmasından təqdim edilən "maraqlardan" fərqləndirmək imkanı yaradaraq, onun Ermənistan-Azərbaycan konfliktinə münasibətində obyektiv dəyişikliyə təkan verdi.(76)

Azərbaycan-Fransa münasibətlərinin sonrakı dövrü daha intensiv və çoxşaxəli əlaqələrlə səciyyələnir. 1994-cü ilin iyun ayında Bakıda səfərdə olan Fransanın "Spi-Batinyol" sənaye şirkətinin prezidenti Bernar Renye iki ölkə arasında əməkdaşlığa təkan vermək məqsədilə Fransa-Azərbaycan Sənaye Ticarət Palatasının və Fransa sahibkarlarının milli mərkəzi çərçivəsində Azərbaycanı dəstəkləmə qrupunun yaradılması planlarının həyata keçirilməsində Azərbaycan Prezidentindən dəstək istədi. Prezident Heydər Əliyev bu təklifi çox yüksək qiymətləndirdi.(77)

1994-cü ilin iyul-avqust aylarında Fransa parlamentinin xarici işlər komissiyası üzvlərinin və bir sıra işgüzar adamların Bakıya səfərləri Azərbaycan haqqında obyektiv mə'lumatın toplanması, siyasi və iqtisadi əlaqələrin daha sıx inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malik idi. (78)

Azərbaycanın xarici siyasətinin fəallaşması, dünya siyasətini müəyyən edən dövlətlərlə, o cümlədən Fransa ilə sıx diplomatik əməkdaşlığın qurulması beynəlxalq aləmdə Azərbaycanın mövqeyini möhkəmləndirir və daha qətiyyətli addımlar atmasına imkan yaradırdı. ATƏT-in Budapeşt Zirvə toplantısında müzakirə olunan məsələlər barədə, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinə dair sənədlərin qəbul edilməsində Fransanın prinsipial mövqe tutması toplantının öz işini uğurla başa vurmasında mühüm rol oynadı. Bakıya səfərə gəlmiş Fransa Xarici İşlər Nazirliyinin baş katibi Bertran Düfurqu qəbul edərkən Prezident Heydər Əliyev Budapeşt Zirvə toplantısının işinin gedişində Fransanın xarici işlər naziri Alen Jüpe ilə sıx əməkdaşlıq etdiklərini söyləyərək, onun prinsipial və obyektiv mövqeyini yüksək qiymətləndirdi. (79) Bakıya Azərbaycan-Fransa əlaqələrinin gələcək istiqamətlərini



müəyyənləşdirmək üçün gəldiyini qeyd edən B.Düfurq öz ölkəsinin "dövlətlərin ərazilərinin bölünməzliyi prinsipini müdafiə etdiyini" və Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə ATƏT çərçivəsində aradan qaldırılması üçün bütün imkanlardan istifadə edəcəyini bildirdi.

Sonrakı dövrdə hər iki ölkənin yüksək dövlət orqanları rəhbərlərinin qarşılıqlı səfərləri müntəzəm xarakter aldı. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 1995- 1996- cı illərdə Heydər Əliyev üç dəfə Fransa Respublikasında müxtəlif səfərlərdə oldu. 1995-ci ilin may ayında faşizm üzərində qələbənin 50 illik yubiley tədbirlərində (80), həmin ilin dekabr ayında "Parisdə Ümumdünya Bankının təşkil etdiyi "Azərbaycan üçün investisiyalar" mövzusunda beynəlxalq konfransda (81) və 1996-cı ildə Fransa Prezidenti Fransua Mitteranın vəfatı ilə bağlı mərasimdə iştirak edən Azərbaycan Prezidentinin keçirdiyi görüşlərdə (82) iki ölkə arasındakı ictimai, siyasi və mədəni əlaqələrin inkişafına yeni təkan verilməsi ilə yanaşı, Fransanın "Elf-Akiten" kompaniyasının Xəzər dənizində neft yataqlarının istismarında Azərbaycanla əməkdaşlıq etməsi barədə də razılıq əldə edildi. Müzakirələr zamanı Fransanın xarici işlər naziri Erve de Şarettin Xəzərin statusu məsələsində Azərbaycanın mövqeyinin Fransa tərəfindən dəstəkləndiyini bəyan etməsi, Fransanın dövlət rəhbərlərinin Qarabağ münaqişəsinin həllində dövlətlərin ərazi bütövlüyü prinsipini əsas tutaraq Minsk qrupunda öz sə'ylərini artıracaqlarını bildirmələri Azərbaycan üçün həyati əhəmiyyətə malik məsələlərdə iki ölkənin eyni mövqedə durduğunu nümayiş etdirdi. Bu səfərlərdə Fransanın yeni Prezidenti Jak Şirakla Azərbaycan Prezidenti Heydər Əliyev arasında səmimi münasibətlərin yaranması, ikitərəfli siyasi münasibətlərin inkişaf perspektivinin müzakirə edilməsi və eləcə də Ermənistan — Azərbaycan münaqişəsinin nizamlanması, bir sıra kompleks iqtisadi məsələlərin həlli və müştərək istehsal müəssisələrinin yaradılması ilə bağlı birgə maraqların ifadə edilməsi iki dövlət arasında münasibətlərin geniş perspektivə malik olduğunu bir daha təsdiqlədi.

Fəal diplomatik sə"y və məqsədyönlü fəaliyyət nəticəsində iki dövlət arasında qarşılıqlı e"timad və inam yaranmağa başladıqca hər

iki tərəf bir-birinin maraqlarının həyata keçirilməsinə yardımçı olmağı zəruri hesab edirdi.

Əgər Fransanın iqtisadi maraqlarının reallaşmasını Azərbaycan hökuməti "Elf-Akiten" neft şirkətini 1996-cı il iyunun 4-də "Şahdəniz" neft müqaviləsinin imzalanması nəticəsində yaranmış beynəlxalq konsorsiuma cəlb etməklə gerçəkləşdirdisə (83),mərkəzi Fransanın Strasburq şəhərində yerləşən Avropa Şurasına Azərbaycanın "xüsusi qonaq statusu" ilə qəbul edilməsində və Avropada mövcud olan digər birliklərə inteqrasiya olunmasında Fransanın əhəmiyyətli rolu oldu. Atılmış bu addımların ardınca Fransanın xarici işlər naziri Erve de Şarettin Azərbaycana səfəri, Prezident Heydər Əliyevin yenidən Fransaya rəsmi səfərə də'vət edilməsi iki ölkə arasında qarşılıqlı e'timad və inamın mövcud olmasından xəbər verir.

1996-cı il oktyabrın 11-də Fransa xarici işlər nazirinin Bakıya səfərinin əsas məqsədi 1997-ci ilin yanvar ayında Parisdə keçiriləcək yüksək səviyyəli görüşə hazırlıq kimi qiymətləndirilsə də Erve de Şarett Azərbaycan hökuməti ilə qarşılıqlı maraq doğuran bir sıra məsələlərin nizamlanması haqqında da əsaslı anlaşmaya gələ bildi. Xarici siyasət idarəsinin başçısı Qafqazda siyasi durum, Qarabağ problemi, Azərbaycanın Avropaya inteqrasiya olunması və s. məsələlərlə bağlı öz ölkəsinin rəsmi Bakının strateji kursu ilə üst-üstə düşən mövqeyini açıqladı.

Diplomat cəmi bir neçə ildə Azərbaycanda demokratiya istiqamətində həyata keçirilən tədbirləri və müsbət dəyişiklikləri çox yüksək qiymətləndirdiyini söylədi və əlavə etdi ki, məhz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan qısa müddətdə bir çoxlarına heyrətli görüləcək addımlar ata bilib.Onun fikrinə görə, qısa müddətdə böyük inkişaf yolu keçmiş "Azərbaycan bu gün azad, müstəqil, demokratik və gələcəyi olan bir Avropa ölkəsidir. Bu ölkə həm regionda, həm də bütün dünyada mühüm geostrateji əhəmiyyətə malikdir." (84)

Fransa tərəfi Azərbaycanın çox böyük perspektivli inkişafını və bu müstəvidə hər iki dövlətin maraqlarını və gələcək mənafelərini nəzərə alaraq iki ölkə arasında münasibətlərin yalnız dostluq və



əməkdaşlıq əsasında qurulması zərurətini xüsusi vurğuladı və öz tərəfindən bu işdə heç bir manеənin olmamasını qeyd etdi. Daha sonra Azərbaycanı Avropa ölkəsi adlandıran diplomat hətta Azərbaycan və fransız xalqlarının ümumi dünyagörüşə malik olduğunu söyləməklə, Azərbaycan xalqının yüksək intellektual bazaya və yetkin siyasi təfəkkürə malik olmasına bələd olduğunu xüsusi nəzərə çatdırmağa çalışdı.

Qarabağ məsələsi ilə bağlı fikirlərini söyləyən Fransa diplomatı öz dövlətinin beynəlxalq prinsiplərə uyğun olaraq ölkələrin ərazi bütövlüyünün qorunması, separatizmin hər cür təzahürlərinin qarşısının alınması, səciyyəvi vəziyyətlərdə ayrı-ayrı milli azlıqların deyil, dövlətlərin mənafelərinin qorunması və onların beynəlxalq səviyyədə nəzərə alınması, problemlərin zor gücü ilə həllinə yol verilməməsi, onların danışıqlar yolu ilə nizamlanması prinsiplərinə əməl edilməsi və nəhayət, qaçqınların əvvəlki yaşayış yerlərinə qayıtmasının vacibliyi kimi məsələlərdə Azərbaycanla həmfikir olmasını bildirməklə (85), mövcud vəziyyətdə Fransanın erməni diasporunun deyil öz dövlət maraqlarından çıxış etdiyini göstərdi.

Azərbaycanın son dövrdə imzaladığı "Şahdəniz" konsorsiumunda Fransanın da iştirak etməsi və bu ölkənin iş adamlarının bazar iqtisad iyyatı yoluna yenicə qədəm qoymuş Azərbaycanın iqtisadiyyatına kapital qoymaq sahəsində digər Avropa dövlətlərindən və ABŞ-dan geri qalmaq istəməməsini xüsusi qeyd edən Erve de Şarett bildirmişdir ki, Fransa keçən illərdə bu sahədə buraxdığı geriliyi tezliklə aradan qaldıracaq və Azərbaycan iqtisadiyyatına kapital qoyuluşunda heç bir dövlətdən geridə qalmayacaq.

Beləliklə, Fransanın siyasi və iqtisadi maraqlarının Azərbaycanda tə"min edilməsi, adekvat formada Azərbaycanın Avropa ilə inteqrasiyasına Fransanın kömək etməsi və Qarabağ probleminin həllində beynəlxalq qanunların tələblərini ədalətli müdafiə etməsi iki dövlətin dostluq münasibətlərinin formalaşmasını şərtləndirən əsas amillər hesab oluna bilər.

Xarici işlər naziri Erve de Şarettin Azərbaycana səfəri də böyük dostluğun möhkəmləndirilməsi istiqamətində atılan növbəti addımlardan biri oldu.

1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə toplantısında Qarabağ münaqişəsinin həllinə dair sənədin qəbul olunmasında Fransanın prinsipial mövqe tutaraq Azərbaycanın mövqeyini dəstəkləməsi Prezident Heydər Əliyevin yeritdiyi xarici siyasətin uğurlu nəticələrindən biri kimi qiymətləndirilməlidir.

1993-1996-cı illərdə möhkəm təməl üzərində qurulmuş Azərbaycan-Fransa münasibətləri gələcəkdə hər iki ölkənin mənafeyinə cavab verən sıx əməkdaşlığı inkişaf etdirmək üçün geniş perspektivlər açır. Təsadüfi deyil, ki 1997-ci ilin yanvar ayında Prezident Heydər Əliyevin Fransaya növbəti rəsmi səfəri zamanı aparılan müzakirələr və hər iki ölkə arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafına yeni təkan verən sənədlərin imzalanması (86) müstəqil Azərbaycan Respublikasının 1993-1996-cı illərdə gərgin diplomatik sə'yləri nəticəsində yaradılmış mövcud bazaya əsaslanırdı.



## v) Almaniya ilə münasibətlər

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət konsepsiyasında dünya siyasətində xüsusi tə"sir gücünə malik, nüfuzlu dövlətlərdən biri olan Almaniya Federativ Respublikası ilə münasibətlər geniş yer tutur.

Dünyanın, o cümlədən Avropanın ən böyük və inkişaf etmiş dövlətlərindən biri kimi Almaniya Federativ Respublikası beynəlxalq aləmdə getdikcə yüksələn aparıcı rolu ilə seçilir. İkinci dünya müharibəsindən sonra iki yerə parçalanmış və müxtəlif ictimai-siyasi quruluşa malik alman dövlətləri müasir dünyada gedən ictimai-siyasi və beynəlxalq proseslərin məntiqi nəticəsi kimi 1990-cı ildə birləşdi. Bu birləşmə nəticəsində Almaniya bütövlükdə Avropa qitəsində 357 min kvadrat kilometr əraziyə, 82 milyon nəfərə yaxın əhaliyə, böyük iqtisadi və siyasi potensiala malik ən böyük dövlətlərdən birinə çevrildi. (87) Hazırda 16 federal torpağı (bölgəni) öz tərkibində birləşdirən Almaniya Federativ Respublikası özünün təkmil və demokratik siyasi, iqtisadi quruluşu sayəsində cəmiyyətin sosial problemlərinin həllində yüksək nəticələrə nail olmuşdur.

AFR-də dövlətə federal məclisin xüsusi iclası tərəfindən beş il müddətinə seçilən federal prezident rəhbərlik edir. Qanunverici hakimiyyət iki palatalı, mojaritar və proporsional sistemlə seçilmiş parlamentə məxsusdur. İcra hakimiyyətinə prezidentin təklifi ilə Bundestaq tərəfindən (iki palatadan biridir, ölkə əhalisi tərəfindən seçilmiş 662 deputata malikdir) səs çoxluğu əsasında təsdiq edilən federal kansler rəhbərlik edir. Nazirlər kanslerin təklifi və təqdimatı ilə prezident tərəfindən tə"yin olunur. Hər torpaq (bölgə) özünün Konstitusiyasına, parlament və hökumətinə malikdir (88).

Ölkənin siyasi həyatında üzvlərinin sayına, əhali arasında nüfuzuna

və ictimai müdafiə bazasına görə dörd əsas partiya seçilir. Bunlar 1946-cı ildə AFR-də yaranmış, bir milyona yaxın üzvü olan Alman Sosial-demokrat partiyası (ASDP), Xristian-demokratik ittifaqı (XDİP) (750 minə yaxın üzvü var), Azad demokrat partiyası (Liberal partiya), Demokratik sosializm partiyasından (DSP) ibarətdir. Bundan əlavə, "90-lar ittifaqı" adlı Yaşıllar partiyası da AFR-in həyatında öz sözü və səsi ilə daim seçilən bir partiya kimi fəaliyyət göstərir.

Ən kütləvi ictimai təşkilat Alman həmkarlar birliyidir ki, onun tərkibində təxminən 11 milyona yaxın həmkarlar üzvü və 16 sahə-həmkarlar təşkilatı birləşir (89).

AFR dünyanın böyük və inkişaf etmiş dövlətlərindən biri və BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi hazırda BMT-nin fəaliyyətində xüsusi yerə və rola malikdir. Eyni zamanda, Almaniya Avropa İttifaqının, onun daimi komissiyasının, Nazirlər Şurasının, Avropa Parlamentinin, Avropa Məhkəməsinin, Avropa Valyuta İttifaqının və qitədə mövcud olan bütün başqa regional qurumların əsas yaradıcılarından və aparıcı üzvlərindən biridir.

Almaniya dünyanın bütün aparıcı iqtisadi, siyasi və sosial istiqamətli beynəlxalq və regional təşkilat və birliklərində olduğu kimi, planetin təhlükəsizlik sistemində də çox böyük və tə"sirli yer tutur. Hazırda beynəlxalq təhlükəsizlik sisteminin əsas qarantı olan BMT-də və onun Təhlükəsizlik Şurasında, NATO-da Almaniyanın mövqeyi və tə"sir gücü ən qüdrətli dövlətlərlə bir sıradadır.

Almaniya-Azərbaycan münasibətlərinin və əlaqələrinin çox zəngin və qədim tarixi var. Azərbaycan ərazisində təşəkkül tapmış və öz qüdrəti ilə Şərqdə mühüm rol oynamış Ağqoyunlu dövləti hələ XV əsrdə bir sıra Avropa dövlətləri ilə, o cümlədən Almaniya ilə geniş diplomatik əlaqələr yaratmışdı. Azərbaycan Səfəvilər dövlətinin meydana gəlməsi ilə bu münasibətlər daha intensiv xarakter almışdı (90). Qafqaz regionunda çox zəngin təbii ehtiyatlara və əhəmiyyətli geostrateji əraziyə malik olan Azərbaycan artıq keçən əsrin əvvəllərində məşhur alman səyyahlarını, alim və tacirlərini özünə cəlb etmişdir. Xüsusən XIX əsrin əvvəllərində Avropa xalqlarının kütləvi miqrasiyaya mə"ruz qaldığı zaman Almaniya sakinləri Azərbaycana gəlmiş və Gəncəbasar zonasının bə"zi regionlarında



məskunlaşmışlar. O zamanlar Azərbaycan ərazisində Yelenendorf (indiki Xanlar rayonu), Annenfeld (Şəmkir rayonu), Qrinfeld (yenə həmin ərazidə), Alekseyevka (Qazax rayonu) və başqa bu kimi alman məskənləri yaranmışdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti e"lan olunandan sonra iki ölkə arasında münasibətlər daha da genişlənir və almanlar bir çox sənaye sahələri yaratmaq üçün Azərbaycana xüsusi kapital qoyurlar. Həmin vaxt Azərbaycanda təxminən altı minə yaxın almanın yaşaması haqqında mə"lumatlar var (91). O dövrdə indi məşhur olan "Simens", "Krupp", "Benkendorf" kimi şirkət və müəssisələr Azərbaycanda ilk kapitalist müəssisələri yaradan və buraya ilk qərb kapitalı və texnologiyası gətirən müəssisələrdən olmuşlar.

Alman-Azərbaycan əlaqələri əsrimizin 30-cu illərində Sovet hökuməti rəhbərləri tərəfindən məhdudlaşdırılır, İkinci dünya *müharibəsi illərində isə tamamilə dayandırılır*. Həmin vaxt demək olar Azərbaycanda yaşayan bütün alman mənşəli əhali Qazaxıstan çöllərinə köçürülür.

Əlbəttə, bütün bu neqativ hallar alman və Azərbaycan xalqının yaddaşından onların tarixi əlaqələrinin xoş təəssüratlarını və zəngin səhifələrini tamamilə silə bilməzdi. Buna görə də Azərbaycan 1991-ci ildə öz müstəqilliyini yenidən e'lan edəndən sonra dekabrın 12-də Almaniya ilk Qərb ölkəsi olaraq gənc dövlətin *müstəqilliyini* tanıdığını və onunla hər cür əməkdaşlığa hazır olduğunu bəyan etdi.(92)

1992-ci il fevralın 20-də Azərbaycan və Almaniya arasında rəsmi diplomatik münasibətlər yaradıldı və qısa müddət ərzində hər iki dövlət qarşılıqlı surətdə səfirliklərin açılışını həyata keçirdi. 1992-ci ilin iyun ayında Bonn şəhərində Azərbaycan Respublikasının səfirliyi fəaliyyətə başladı (93). Lakin sonrakı dövrdə bu ölkə ilə münasibətlərə Azərbaycanda ciddi əhəmiyyət verilmədi. Onun nüfuzundan, beynəlxalq münasibətlərə tə"sir gücündən, iqtisadi və maliyyə imkanlarından respublikanın mənafeyi naminə istifadə etmək, bu dövləti yenicə müstəqillik qazanmış Azərbaycanın əsas himayədar və dayaqlarından birinə çevirmək işində heç bir əməli addım atılmadı. Halbuki Almaniyanın Azərbaycan xalqına və

dövlətinə xoş münasibəti və onun geniş imkanları buna tam əsas verirdi. Azərbaycan tərəfinin biganəliyi və fəal əlaqələrin yaradılmasına can atmaması Almaniyanı gənc respublikaya münasibətdə passiv mövqe tutmağa sövq etdi. Almaniya Azərbaycanda öz müstəqil səfirini (əvvəl Azərbaycandakı səfirliyə rəhbərlik Almaniyanın Gürcüstan Respublikasındakı səlahiyyətli səfiri tərəfindən həyata keçirilirdi) yalnız 1993-cü ildə burada baş verən ictimai-siyasi dəyişikliklərdən sonra tə'yin etdi (94). Almaniyanın siyasi rəhbərliyi 1993-cü ildən sonra Azərbaycanda gedən prosesləri çox diqqətlə izləmiş, respublikanın öz müstəqilliyindən dönməzliyinə tam əmin olmuş, demokratiya və hüquqi dövlət quruculuğu istiqamətində, xarici siyasət sahəsində yeritdiyi xətti və atdığı mühüm addımları və s. layiqincə qiymətləndirmiş və Azərbaycanla əlaqələrə çox ciddi yer ayırmışdır.

1993-cü ilin ikinci yarısından başlayaraq Avropa dövlətləri ilə, xüsusən AFR kimi böyük, inkişaf etmiş və nüfuzlu ölkələrlə yeni əlaqələr və münasibətlər sisteminin yaradılması sahəsində aparılan məqsədyönlü işlər müstəqil Azərbaycan diplomatiyasının fəaliyyətində mühüm bir istiqamət kimi diqqəti cəlb edir. Planetin qlobal problemlərinin həllində mühüm tə"sir gücünə malik olan, beynəlxalq və regional məsələlərdə rə"yi və mövqeyi hər zaman nəzərə alınan Almaniya Federativ Respublikası İkinci dünya müharibəsindən sonra, qısa bir zaman çərçivəsində iqtisadi, siyasi, sosial və mədəni inkişaf sahəsində dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksələ bilmişdir.Belə bir dövlətlə dostluq və əməkdaşlıq etmək üçün yollar aramaq, onunla qarşılıqlı faydalı münasibətlər yaratmaq müstəqillik yolu tutmuş gənc Azərbaycan Respublikası üçün həyati zərurətdən doğan bir tələbat idi. Məhz bu zərurəti dərk edən respublika rəhbərliyi bu ölkə ilə ikitərəfli, regional, həm də beynəlxalq münasibətlər sahəsində əməkdaşlığa xüsusi yer ayırmışdır. 1993–1996-cı illərdə bu ölkələr arasında münasibətlər yaratmaq məqsədilə atılan addımlar, keçirilən görüşlər, aparılan danışıqlar, fəal diplomatik gedişlər bunu bir daha sübut edir. Bütün bu tədbirlər iki ölkə arasında dostluq münasibətlərinin yaranmasına öz müsbət tə'sirini göstərmiş, əlaqələrin genişlənməsinə və



yaxşılaşmasına şərait yaratmışdır.

İkitərəfli görüşlərin müntəzəm xarakter almasında və qarşılıqlı əlaqələrin genişlənməsində 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyevin Azərbaycanda prezident seçkilərində müşahidəçi kimi iştirak etməyə gəlmiş AFR Bundestaqının deputatı Ditrix Şperlinqlə görüşü mühüm yer tutur. Azərbaycandakı prezident seçkilərinin nəinki respublikada, eləcə də bütün Zaqafqaziyada həmrə'yliyin, stabilliyin bərqərar olmasına tə'sir göstərəcəyinə ümid bəslədiyini qeyd edən D.Şperlinq Azərbaycan-Almaniya əlaqələrinin gələcək inkişafına böyük əhəmiyyət verdiyini vurğulayaraq, Bundestaqın Azərbaycan parlamentinin üç üzvünü Almaniyaya də'vət etdiyini bildirmişdi (95).

Azərbaycanda sabitliyin möhkəmlənməsi və respublika Prezidenti Heydər Əliyevin fəal xarici siyasəti Almaniyanın siyasi dairələrinin Azərbaycan Respublikasına olan marağının daha da artmasına səbəb olurdu. 1993-cü ilin dekabrında Heydər Əliyev AFR Bundestaqının Qafqaz üzrə komissiyasının sədri Villi Vimmeri qəbul etmiş və qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etmişdir.(96)

Görüş zamanı Prezident Heydər Əliyev Azərbaycanın Almaniya ilə əlaqələrinin genişlənməsinə böyük əhəmiyyət verdiyini xüsusi qeyd etmiş və bildirmişdir ki, Almaniya nüfuzlu bir dövlət kimi Ermənistanın təcavüzkar siyasəti ilə əlaqədar "öz sözünü deyib səsini qaldırmalıdır".

Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların və dünya dövlətlərinin rolu məsələsinin əsas müzakirə obyektlərindən biri olan görüşdə Prezident Heydər Əliyev "ATƏM-in sərhəd və ərazilərin toxunulmazlığı prinsiplərinə Azərbaycanın həmişə tərəfdar olduğunu" qeyd etmiş və təəssüflə ifadə etmişdi ki, beynəlxalq təşkilatlar, dünya siyasətində böyük nüfuza malik olan dövlətlər Ermənistanın işğalçılıq siyasətinin qarşısını almaq üçün tə'sirli tədbirlər görmürlər.

Almaniyanın mövqeyini açıqlayan V.Vimmer bildirmişdi ki, onun ölkəsi ATƏM-in sərhədlərin toxunulmazlığı prinsipini əsas tutur və münaqişənin həlli üçün öz qüvvələrini bu təşkilat çərçivəsində

əsirgəməyəcəkdir. V.Vimmerin "sərhədləri zorla dəyişmək istəyənlər bilməlidir ki, Almaniya onları dəstəkləmir" (97) fikrini vurğulaması Azərbaycan və Almaniya dövlətlərinin mövqelərinin üst-üstə düşdüyünü və gələcək qarşılıqlı əlaqələr üçün əlverişli zəmin olduğunu nümayiş etdirdi.

Sonrakı dövrdə Azərbaycan-Almaniya münasibətləri yüksələn xətt üzrə inkişaf etməyə başladı.Azərbaycan tərəfinin Almaniya ilə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə maraq göstərməsinə diqqət yetirən Almaniya Azərbaycanın iqtisadi potensialına və regiondakı siyasi-strateji roluna yüksək qiymət verərək, iki ölkə arasında əməkdaşlığın inkişafı istiqamətində konkret addımlar atmağa başladı.

1995-ci il yanvarın 11-də Almaniyanın Bakıdakı müvəqqəti işlər vəkili Mixael Şmunku qəbul edən Prezident Heydər Əliyev Azərbayc anın Almaniya ilə əməkdaşlığa böyük əhəmiyyət verməsini bir daha vurğulamışdır. Alman diplomatı öz ölkəsinin mövqeyini ifadə edərək bildirmişdir ki, "Almaniya Azərbaycana tərəfdaşlıq təklif edir" və səfir qarşısında iki ölkə arasında əlaqələrin yeni mərhələsini başlamaq vəzifəsi qoyulmuşdur.(98)

Görüşdə ölkələr arasında iqtisadi, siyasi və mədəni sahədə əməkdaşlıq məsələləri müzakirə edilmiş və belə bir fikir ifadə olunmuşdur ki, "Almaniya Azərbaycanın problemlərinin həll edilməsi üçün əlindən gələni əsirgəməyəcəkdir".

Siyasi dialoqun intensiv xarakter alması iqtisadi əməkdaşlıq sahəsində praktiki addımların atılmasına və humanitar əlaqələrin genişlənm əsinə şərait yaradırdı. Belə ki, 1994-cü ilin sonlarında Bonn şəhərində Əli Fərivarın təşəbbüsü ilə Azərbaycana humanitar yardım cəmiyyəti tə'sis edilmişdir.(99) Ağır sosial-iqtisadi problemlərlə üzləşən Azərbaycan üçün bu addımın mə'nəvi əlaqələrin yaradılması və inkişaf etdirilməsi baxımından da müəyyən əhəmiyyəti vardır. Bir qədər sonra, yə'ni 1995-ci il yanvarın 21-də "Doyçazmebel" Azərbaycan–Almaniya birgə müəssisəsinin açılması iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına zəmin yaradan addımlardan biri idi. (100)

Almaniya-Azərbaycan münasibətlərinin yaranması və inkişafı ilə



bağlı Azərbaycan Prezidenti Heydər Əliyevin Almaniya rəhbərləri ilə görüşləri mühüm əhəmiyyət kəsb edir. Bu görüşlər içərisində onun 1995-ci ilin yanvarında Davosda Federal Prezident R.Hersoqla, 1995-ci ilin may ayında Moskvada faşizm üzərində qələbənin 50 illiyi münasibəti ilə keçirilən tədbir zamanı Almaniyanın federal kansleri H.Kol ilə, 1995-ci ilin mayında Londonda, oktyabrında Nyu-Yorkda və 1996-cı ilin aprelində Lüksemburqda xarici işlər naziri K.Kinkellə olan görüşləri xüsusi vurğulanmalıdır. İki ölkə arasında münasibətlərin bugünkü dinamik inkişafının əsası məhz bu görüşlərdə müəyyən edilmişdir. Həmin görüşlərdə iki ölkə rəhbərləri həmçinin regional və beynəlxalq münasibətlərin də aktual problemlərini müzakirə etmiş, bu problemlərin həlli ilə bağlı iki ölkənin ortaq və uyğun mövqelərini və bu əsasda da dövlətlərimizin beynəlxalq baxışlarının əsas istiqamətlərini müəyyən etmişlər.

1995-ci il yanvarın 28-də İsveçrənin Davos şəhərində Prezident Heydər Əliyevlə AFR Prezidenti Roman Hersoqun görüşü maraq doğuran məsələlərin ilk dəfə yüksək səviyyədə müzakirə edilməsi və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi üçün əlverişli zəmin hazırlanması baxımından qiymətlidir. Görüş zamanı Azərbaycan Prezidenti Heydər Əliyev respublikada baş verən hadisələr haqqında dəyərli mə'lumat vermiş, Ermənistanın təcavüzü, Çeçenistanda gedən hərbi əməliyyatlarla əlaqədar meydana gəlmiş blokadanın ağır nəticələrindən bəhs etmiş və beynəlxalq hüquq normalarına hörmət əsasında qarşılıqlı münasibətlərin qurulmasına tərəfdar olduğunu bildirmişdir.

AFR-in Federal Prezidenti Roman Hersoq da iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin yaradılıb inkişaf etdirilməsinin hər iki ölkə xalqlarının mənafeyinə uyğun gəldiyini qeyd etmişdir (101).

Beləliklə, bu görüş Azərbaycan-Almaniya münasibətlərinin ümumi durumunun və istiqamətlərinin müəyyənləşməsinə böyük tə'sir göstərmişdir.

Təsadüfi deyil ki, Azərbaycan Prezidenti Heydər Əliyevin Almaniyanın kansleri Helmut Kol ilə 1995-ci il mayın 9-da Moskvada keçən görüşündə də tərəflər qarşılıqlı əlaqələrin daha da

dərinləşməsinin zəruriliyini bəyan etdilər. ATƏT-in Minsk qrupunda Almaniyanın prinsipial mövqeyindən razı qaldığını bildirən Heydər Əliyev qeyd etdi ki, Azərbaycan Almaniyaya "böyük tərəfdaş kimi baxır" və daha geniş siyasi-iqtisadi əməkdaşlığa maraq göstərir (102).

H.Kol Almaniyanın Azərbaycan ilə fəal əməkdaşlıq etmək arzusunda olduğunu qeyd etmiş və bildirmişdir ki, AFR Qarabağ münaqişəsinin ATƏT çərçivəsində sülh yolu ilə həllini bundan sonra da dəstəkləyəcəkdir.

Həmin il mayın 7-də Prezident Heydər Əliyevin Almaniyanın xarici işlər naziri K.Kinkel ilə Londonda apardığı fikir mübadiləsi zamanı bu ölkələr arasında əlaqələrin perspektiv inkişafının geniş potensiala malik olduğu vurğulandı və başlıca istiqamətlər bir daha müəyyənləşdirildi. ATƏT-in Budapeşt zirvə toplantısının tarixi əhəmiyyətli qətnaməsinin qəbul edilməsində Almaniyanın prinsipial mövqe tutmasını yüksək qiymətləndirən Prezident H.Əliyev "Azərbaycana sərmayə qoymaq istəyən xarici şirkətlər arasında Almaniyanın şirkətlərini görmək istədiyini vurğuladı" (103).

Qeyd olunan yüksək səviyyəli bu görüşlər Azərbaycan-Almaniya əlaqələrinin praktiki müstəvi üzərinə keçirilməsinə, iqtisadi, siyasi və mədəni əməkdaşlıq sahəsində konkret addımlar atılmasına əlverişli şərait yaratdı.

İnkişaf etməkdə olan Almaniya-Azərbaycan əlaqələrinin əsas istiqamətləri və perspektiv inkişafı məsələləri bundan sonra da dəfələrlə Bakıda rəsmi səfərdə olmuş AFR-in bu və ya digər rəhbərləri ilə müzakirə olunmuş və müvafiq nəticələr əldə edilmişdir. Bu görüşlərdən ən əhəmiyyətliləri 1995-ci ildə mayın 26-dan 28-dək iqtisadi əməkdaşlıq və inkişaf üzrə federal nazir K.Şprangerin, həmin ilin dekabrında AFR-in vitse-kansleri və xarici işlər naziri K.Kinkelin və b. rəsmi nümayəndələrin Bakıya rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə apardığı danışıqlar hesab oluna bilər. Bu danışıqların gedişində iki ölkə arasındakı münasibətlər sistemi, hər iki ölkənin xarici siyasətinin əsas istiqamətləri, qarşıda duran vəzifələr və problemlər müzakirə olunmuş qarşılıqlı əlaqələrin perspektivləri müəyyənləşdirilmişdir.



Azərbaycan müstəqillik əldə etdikdən sonra Almaniyanın yüksək səviyyəli ilk rəsmi nümayəndə hey'ətinin bu respublikaya səfəri kimi böyük əhəmiyyət kəsb edən AFR-in iqtisadi əməkdaşlıq və inkişaf üzrə federal naziri K.Şprangerin başçılıq etdiyi nümayəndə hey'ətinin 1995-ci ilin mayında Bakıya gəlişi iki ölkə arasında əməkdaşlığın geniş vüs'ət almasına yeni təkan verdi.

Qarabağ münaqişəsinin həlli məsələsində Almaniyanın prinsipial mövqeyini bir daha təsdiqləyən K.Şpranger bəyan etdi ki, AFR "beynəlxalq təşkilatlar çərçivəsində aparılan danışıqlarda Azərbaycanın mövqeyini dəstəkləyir" və onun "ərazi bütövlüyünün tə'min edilməsi üçün öz sə'ylərini əsirgəməyəcəkdir" (104).

Almaniya hökuməti tərəfindən azərbaycanlı qaçqınlara yardım üçün 5 milyon alman markasının ayrıldığını bildirən K.Şpranger qeyd etdi ki, Azərbaycanda aparılan demokratik islahatlara kömək etmək *məqsədilə onun ölkəsi 1,8 milyon marka,* Almaniya-Azərbaycan əməkdaşlığı çərçivəsində həyata keçiriləcək digər layihələrin maliyyələşdirilməsi üçün isə 13 milyon marka vəsait ayrılmasını planlaşdırır (105).

Beləliklə, Azərbaycan Prezidenti Heydər Əliyevin məqsədyönlü xarici siyasəti, Almaniya kimi nüfuzlu dövlət ilə fəal qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi xətt özünü doğruldur və respublikanın beynəlxalq siyasi və iqtisadi əlaqələrinin möhkəmlənməsinə geniş imkanlar açırdı.

1995-ci il mayın 27-də Bakının Binə hava limanında beynəlxalq səviyyəyə uyğun ilk uçuş-enmə zolağının açılışı Almaniya-Azərbaycan səmərəli iqtisadi əməkdaşlığının təzahürü idi. Azərbaycan inşaatçıları ilə yanaşı Almaniyanın "Virtgen" və "Simens" şirkətlərinin də yaxından iştirakı ilə tikilmiş bu zolaq ən müasir avadanlıqlarla təchiz edilmişdir (106). Bundan əlavə, "Virtgen" şirkəti Bakıda köhnə asfalt örtüyündən tam şəkildə yenidən istifadə etməklə şosse yollarının bərpası sahəsində işlər aparır ki, bu da Azərbaycanın xeyli vəsaitə qənaət etməsinə imkan yaradır.

1995-ci ilin iyun ayında Almaniyanın "Lüfthanza" şirkətinin Bakı ilə Frankfurt arasında yeni hava xətti açması iki ölkənin əlaqələrinin möhkəmlənməsi istiqamətində atılmış mühüm addım idi (107).

Şirkətin nümayəndəsi bildirmişdir ki, "Lüfthanza" Almaniyanın digər iri firmalarının da Azərbaycana cəlb edilməsi sahəsində fəaliyyət göstərəcəkdir. Bu isə Azərbaycan iqtisadiyyatının dirçəldilməsi və beynəlxalq inteqrasiyası baxımından əhəmiyyətli rol oynaya bilər.

Ümumiyyətlə, 1995-ci il Azərbaycan-Almaniya münasibətlərinin intensiv şəkildə inkişafı ilə səciyyələnir. Müxtəlif səviyyəli çoxsaylı görüşlərdə maraq doğuran siyasi və iqtisadi xarakterli məsələlər ətraflı müzakirə edilmiş və qarşılıqlı əməkdaşlıq üçün yeni perspektivlər açan bir sıra iqtisadi və siyasi problemlər üzrə fikir birliyi əldə olunmuşdur.

Ermənistan-Azərbaycan münaqişəsi bu görüşlərdə həmişə diqqət mərkəzində durmuş və onun həlli yolları üzrə tərəflər əsasən prinsipial mövqe birliyi nümayiş etdirmişlər. Avqustun 21-də Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupundakı AFR nümayəndəsi səfir F.Lambaxı (108), avqustun 22-də isə AFR Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT-in Parlament Məclisinin vitse-prezidenti V.Vimmerin başçılıq etdiyi nümayəndə hey'ətini qəbul etmişdir (109). Bu görüşlər zamanı Almaniya nümayəndələri Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının zəruriliyini xüsusi qeyd etmişlər. Villi Vimmer Ermənistanın təcavüzünü "beynəlxalq normaların və ATƏT prinsiplərinin pozulması" (110) kimi qiymətləndirmişdir.

Azərbaycanda daxili sabitliyin və demokratik quruluşun tam bərqərar olması yolunda atılan inamlı addımlar onun beynəlxalq nüfuzunun yüksəlməsinə, dünya dövlətləri, o cümlədən Almaniya tərəfindən Azərbaycan Respublikasının mövqeyinin getdikcə daha çox qətiyyətlə dəstəkləməsinə kömək etmişdir. Digər tərəfdən, Azərbaycan Almaniya ilə qarşılıqlı əlaqələrin möhkəmlənməsinə çalışaraq beynəlxalq səviyyədə AFR-lə bağlı bütün problemlərdə onun mövqeyini ardıcıl surətdə müdafiə etmiş, BMT TŞ-in genişlənməsi və Almaniyanın bu orqana daimi üzv seçilməsi məsələsində onun namizədliyini dəstəkləmiş və indi də bu mövqeyindən kənara çəkilməmişdir (111). BMT TŞ-in 1995-1996-cı illər müddətinə qeyri-daimi üzvlərin seçkisində



Azərbaycan Almaniyanı dəstəkləmişdir. Həmin seçkilərdə Almaniya TŞ-in qeyri-daimi üzvlərindən biri seçilmişdir (112). Bundan başqa, 1995-ci ilin noyabrında BMT Baş Assambleyasının 50-ci sessiyasında İnzibati və büdcə məsələləri üzrə məsləhət komitəsinə seçkilər zamanı Azərbaycan Almaniyanın təmsilçisi V.Ştekelin namizədliyini müdafiə etmiş və səsvermə nəticəsində o, yenidən üç il müddətinə bu komitəyə seçilmişdir (113).

Almaniya və Azərbaycan arasındakı münasibətlərin inkişafında ən yüksək mərhələ *məhz Azərbaycan Respublikasının Prezidenti* Heydər Əliyevin *Almaniyaya rəsmi səfəri nəticəsində yaranmış* əlaqələr hesab olunur. Bu səfər ərəfəsində iqtisadi, siyasi, humanitar və *beynəlxalq münasibətlər* sahəsində iki ölkə arasında gələcək *münasibətlərin əsas istiqamətləri* və perspektivləri müzakirə edilmiş və bütün məsələlər üzrə hər iki dövlətin ümumi mövqe birliyinə nail olunmuşdur.

1993-1996-cı illərdə iki ölkə münasibətlərinin yaranması və inkişafını tənzimləyən çoxlu müqavilələr bağlanmış, qarşılıqlı münasibətlərin hüquqi bazası yaradılmışdır. Bu baxımdan 1995-ci ilin dekabrında AFR-in xarici işlər naziri K.Kinkelin Bakıya səfəri daha məhsuldar olmuş və iki ölkə arasında əlaqələrin yeni səviyyəyə qaldırılması üçün konkret və səmərəli addımlar atılmışdır. Hələ bir qədər əvvəl, oktyabrın 23-də Nyu-Yorkdakı görüş zamanı Azərbaycan Prezidenti Heydər Əliyev və AFR-in xarici işlər naziri Klaus Kinkel Azərbaycan-Almaniya əlaqələrinin genişlənməsi perspektivləri haqqında ətraflı fikir mübadiləsi etmişlər (114). K.Kinkelin Bakı səfərində bu dialoq davam etdirilmiş və bir sıra mühüm sənədlərin imzalanması ilə başa çatmışdır. Bunların sırasında "Azərbaycan-Almaniya qarşılıqlı münasibətlərinin əsaslarına dair birgə bəyanat", "Azərbaycan və AFR hökumətləri arasında mədəni əməkdaşlıq haqqında saziş", "Azərbaycan və AFR hökumətləri arasında hərbi qəbirlərin yaxşı vəziyyətdə saxlanılması haqqında saziş", "Azərbaycan Respublikası və AFR arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında müqavilə", "Azərbaycan və AFR hökumətləri arasında maliyyə əməkdaşlığı haqqında memorandum" və s. daha çox əhəmiyyət kəsb edir (115). İmzalanmış

həmin sənədlər 1996-cı ilin iyununda Prezident Heydər Əliyevin sərəncamı ilə təsdiq olunaraq hüquqi qüvvəyə mindi. (116) Bununla yanaşı, Almaniya Azərbaycanın qədim tarixini əks etdirən Qobusta ndakı qayaüstü rəsmləri ilə məşhur olan açıq səma altındakı muzeyi bərpa etmək təşəbbüsü ilə çıxış etmişdir (117).

İki dövlət arasında yaradılmış dostluq və qarşılıqlı əməkdaşlıq münasibətlərinin, bağlanmış müqavilələrin müstəqil Azərbaycan dövləti üçün çox böyük iqtisadi, siyasi, mədəni və beynəlxalq əhəmiyyəti vardır.

Zaqafqaziyanın bütün Avropa və həmsərhəd region dövlətlərinin sabitliyi üçün mühüm əhəmiyyətə malik olduğunu qeyd edən K.Kinkel bildirmişdir ki, Almaniya Qarabağ münaqişəsinin həllində Azərbaycana yaxından kömək etmək və "Qafqaz dövlətləri arasında münasibətləri dinc gələcək şəraitində möhkəm özül üzərində qoymaq" üçün fəal sə'y göstərəcəkdir. "Siz Almaniyanın simasında dosta və tərəfdaşa maliksiniz" (118) fikrinin K.Kinkel tərəfindən xüsusi olaraq vurğulanması iki ölkə arasında qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi və e'timadın yüksəlməsinin təzahürü idi.

Almaniya dünyanın iqtisadi cəhətdən inkişaf etmiş, böyük maliyyə və texnoloji imkanı olan ölkələrindən biridir. Yaradılmış münasibətlər bu ölkənin iqtisadi, maliyyə və texnoloji bazasından zəngin təbii ehtiyatlara, elmi-texniki potensiala malik müstəqil Azərbaycanın iqtisadiyyatının yenidən qurulması və qərbin qabaqcıl iqtisadi məkanı ilə inteqrasiya edilməsi sahəsində istifadə etmək imkanı verir.

Almaniya hazırda Azərbaycana ən fəal humanitar və texniki yardım göstərən ölkələrdən biridir. Alman hökumətinin təşəbbüsü ilə son iki-üç ildə öz yaşayış məskənlərini müvəqqəti tərk etmiş məcburi köçkünlərə ərzaq, paltar, tibbi ləvazimatdan ibarət milyonlarla manatlıq humanitar yardım göstərilmiş, Bərdə, İmişli və Naftalan ərazisində onlar üçün xüsusi binalardan ibarət bir neçə şəhərcik tikilib istifadəyə verilmişdir (119). Almaniya, həmçinin, Azərbaycanda beynəlxalq aeroportun tikintisinin başa çatdırılması və uçuşların təhlükəsizliyinin e'tibarlı sisteminin yaradılması üçün 40 il müddətinə 10 milyon alman markası məbləğində güzəştli kredit, müvafiq



kadrların hazırlanması məqsədilə isə Azərbaycana əvəzsiz 11,4 mln. alman markası ayırmışdır (120). Bundan başqa, AFR hökuməti Avropa İttifaqı, o cümlədən TASİS proqramı çərçivəsində də Azərbaycan Respublikasına humanitar yardım göstərilməsi məqsədilə konkret layihələrin və texniki yeniləşmələrin həyata keçirilməsi üçün daha 20 mln. alman markası ayırmışdır (121).

1993-96-cı illərdə rəsmi hökumət təşkilatları və nazirliklərindən başqa Almaniyanın 40-a yaxın özəl şirkətləri, o cümlədən birgə müəssisələri də Azərbaycan iqtisadiyyatının dirçəldilməsi və yenidən qurulması işində iştirak etmişdir (122). Lakin bütün bunlar hər iki ölkənin potensial imkanlarından qat-qat aşağı səviyyədə idi və bu nə Azərbaycan, nə də Almaniya rəhbərlərini qane etmirdi.

Təsadüfi deyil ki, 1996-cı il fevralın 6-da Almaniyanın Bakıdakı səfiri M.Şmunku qəbul edən Azərbaycan Prezidenti Heydər Əliyev iki ölkə arasında "əlaqələrin inkişaf etdirilməsinə, xüsusilə iqtisadi sahədə əməkdaşlığın daha da genişlənməsinə böyük ehtiyac olduğunu" (123) qeyd etmişdi. Alman diplomatı imzalanmış ikitərəfli sazişlərdən, iki ölkənin ali qanunverici orqanları arasında, eləcə də iqtisadi və mədəni sahələrdə əlaqələrin ardıcıl surətdə inkişafından bəhs edərək, Azərbaycana Almaniyanın işgüzar adamlarından ibarət geniş tərkibli nümayəndə hey'ətinin gələcəyi barədə mə'lumat vermişdi. Bu görüşün mühüm cəhətlərindən biri də Azərbaycan Prezidenti Heydər Əliyevin Almaniyaya rəsmi səfər etməsi barədə AFR-in federal kansleri H.Kolun də'vətinin alman səfiri tərəfindən təqdim edilməsi idi (124). Bu faktın özü Azərbaycan dövlətinin həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində respublikanın beynəlxalq nüfuzunun artdığını, Qərbin böyük dövlətlərinin Azərbaycanla əlaqələrin genişlənməsinə daha artıq maraq göstərdiklərini nümayiş etdirirdi.

Azərbaycan Prezidentinin bu ölkəyə rəsmi səfəri ərəfəsində aparılan danışıqlar, qəbul olunmuş qərarlar və bağlanmış müqavilələr iki ölkənin iqtisadi əlaqələrini genişləndirmək, qabaqcıl alman texnologiyasından və bu ölkənin geniş maliyyə imkanlarından Azərbaycan respublikasının energetika, e"mal, maşınqayırma sənayelərinin, nəqliyyat-kommunikasiya sisteminin yenidən

qurulması işində istifadə etməyə tam şərait yaradırdı.

Demokratiya və sivilizasiyalı inkişaf, müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının siyasi həyatında mühüm hadisələrdən biri də 1996-cı il iyulun 1-4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və onun başçılıq etdiyi nümayəndə hey"ətinin Almaniya Federativ Respublikasına rəsmi səfəri oldu. Gərgin proqram daxilində davam edən dörd günlük səfər çox məhsuldar bir sonluqla başa çatmış, əlverişli və əhəmiyyətli müqavilələrin imzalanması ilə nəticələnmişdi. Səfər zamanı Almaniyanın ali rəhbəri ilə iki ölkənin iqtisadi, siyasi və beynəlxalq münasibətlər sahəsində əməkdaşlığının bu günü və perspektivləri hərtərəfli müzakirə edilmiş, iki dövlət arasında gələcək əməkdaşlığın əsas istiqamətlərini və prinsiplərini müəyyən edən müxtəlif səpkili sənədlər imzalanmışdır. İmzalanmış sənədlər və iki ölkə arasındakı münasibətlər müstəqillik və demokratiya yolu tutmuş Azərbaycanın tədricən Qərb inkişaf yolu ilə irəliləyərək dünya sivilizasiyasına qovuşması, müstəqilliyinin möhkəmlənməsi, təhlükəsizliyinin tə"min olunması, beynəlxalq nüfuzunun yüksəlməsi, daxili iqtisadi, siyasi və sosial problemlərinin həllinə öz müsbət tə"sirini göstərməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

İyulun 2-də Bonnda aparılmış danışıqlardın sonra Azərbaycan Respublikasının hökuməti ilə Almaniya Federativ Respublikasının hökuməti arasında "Tədqiqatlar və mütəxəssislər fondu yaradılması haqqında" saziş, "SSRİ ilə AFR arasında bağlanmış müqavilələrin qüvvədə qalması haqqında" protokol, "Tə'cili yardım-Bakı hava limanı" layihəsi üzrə maliyyə əməkdaşlığı haqqında" saziş imzalandı (125). Bununla yanaşı, iyulun 3-də iki ölkənin iqtisadi əməkdaşlığının real məzmun kəsb etməsi üçün əlverişli zəmin yaradan Azərbaycan Milli Bankı ilə "Doyçe Bank" arasında maliyyə əməkdaşlığı sahəsində qarşılıqlı anlaşma haqqında memorandum və Azərbaycan Beynəlxalq Bankı ilə AQ Banklar Konsorsiumu arasında kredit xətti açılması haqqında saziş imzalandı (126).

Almaniya hökuməti Azərbaycana öz kredit kanalını açmaqla həm gənc respublikaya güzəştli kreditlər almaq üçün geniş imkanlar verdi, həm də bu ölkənin iri dövlət və özəl şirkətlərini, firma və konsernlərini Azərbaycanda iri iqtisadi layihələrin həyata keçirilməsində, qarantiyalı kapital qoyuluşunda öz işlərini sür"ətləndirmək və bütövlükdə iqtisadi əlaqələrə cəlb olunmaq imkanı yaratdı. Almaniyanın "Simens", "Mannesmann", "ABB", "Alkotel" və başqa bu kimi iri birliklərinin xüsusi layihələrlə Azərbaycanın kimya, energetika, maşınqayırma və metallurgiya sənayesinə kapital qoymaq və bu sahələri Avropanın qabaqcıl texnologiyası əsasında yenidən qurmaq işinə cəlb olun ması gözlənilir. Almaniyanın kənd təsərrüfatı sənayesi, avtomobil, dəmiryolu və hava nəqliyyatı sahəsindəki təcrübəsi və qabaqcıl texnoloji imkanlarından Azərbaycanın bəhrələnməsi üçün hər cür imkan yaranmışdır. Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyev yuxarıda qeyd olunan firmalarla yanaşı Almaniyanın "Ferrostal", "Tissen", "Şolts", "Qrünvald", və "Mersedes-Bents" kimi iri firmaların rəhbərləri ilə görüşmüş və iqtisadi əməkdaşlığın perspektivləri ilə bağlı müxtəlif məsələləri müzakirə etmişdir (127). Aparılan söhbətlər alman şirkətlərinin Azərbaycanla iqtisadi əlaqələrin genişlənməsinə böyük maraq göstərmələrini nümayiş etdirdi.

Bağlanmış müqavilələr və yaradılmış əlaqələr ilk növbədə Azərbaycan Respublikasının iqtisadiyyatının böhrandan çıxarılmasına və tədricən Qərbin qabaqcıl texnologiyaya əsaslanan iqtisadi strukturlarına inteqrasiya edilməsinə hərtərəfli şərait yaradır.

İki ölkə arasında yaradılmış münasibətlərin həm də böyük siyasi əhəmiyyəti vardır.Çünki bu əlaqələr iki ölkə arasında siyasi və humanitar sahədə keyfiyyətcə yeni münasibətlərin yaranmasına və əməkdaşlığın inkişafına da zəmin yaradır.

Azərbaycan demokratiya və hüquqi dövlət quruculuğu sahəsində böyük uğurlar qazanmış Almaniyanın təcrübəsindən istifadə etməkdən əlavə, həm də bu ölkənin təmsil olunduğu Avropa İttifaqının insanlar və dövlətlər arasında sivilizasiyalı münasibətlər, əməkdaşlıq və tərəfdaşlıq prinsipinə əsaslanan regional və beynəlxalq münasibətlər sisteminə qatılır.

Azərbaycan-Almaniya əlaqələrinin ən əhəmiyyətli və zəruri

tərəflərindən biri məhz beynəlxalq və regional münasibətlər sahəsində əməkdaşlıqdan ibarət olmalıdır. Avropada və bütövlükdə bütün planetdə böyük nüfuza , gücə və tə"sir dairəsinə malik olan AFR-i özünə əməkdaş və tərəfdaş etməklə Azərbaycan dövləti çox mühüm beynəlxalq problemlərin həllinə nail ola bilər. Əvvəla, Almaniya təmsil olunduğu bütün beynəlxalq və regional təşkilatlarda, xüsusən NATO-da, Avropa İttifaqında, Avropa Şurasında və b. regional birliklərdə Azərbaycanla əməkdaşlıq üçün xüsusi şərait yaratmaq və Avropa ölkələrində onun mövqeyinin müdafiəçisi rolunu öz üzərinə götürmək imkanına malikdir. Bonnda Almaniyanın dövlət və hökumət başçıları ilə keçirilən görüşlər zamanı bir daha təsdiq edildiyi kimi bir sıra beynəlxalq və regional problemlərin, xüsusən də Azərbaycan-Ermənistan konfliktinin nizamlanmasında, Qarabağ probleminin həllində Almaniya ilə Azərbaycanın mövqelərinin üst-üstə düşməsi və Azərbaycan Respublikasının ədalətli mövqeyinin beynəlxalq hüquq normalarına tam uyğun gəlməsi (128) həm rəsmi Bonn üçün bu məsələlərə fəal müdaxilə etməyə şərait yaradır, həm də onun Qafqaz regionunuda nüfuzunu, tə'sir gücünü bir az da artırır. Beynəlxalq təhlükəsizlik sistemi tələblərinin və iqtisadi maraqlarının Azərbaycanın sabitliyi, müharibə vəziyyətindən çıxarılması, region dövlətlərinin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünün qorunması ilə üst-üstə düşdüyü Almaniya, Azərbaycanın mövqeyini müdafiə etməklə həm qarşılıqlı təhlükəsizlik haqqında beynəlxalq normaları, həm də öz xarici siyasət prinsiplərini, iqtisadi-siyasi maraqlarını müdafiə etmiş olur. Belə ki, Qafqazda və Azərbaycanda vəziyyətin mürəkkəbliyi, Azərbaycan torpaqlarının işğal altında olması, ərazi bütövlüyünün pozulması, bu regiondakı respublikalarda Rusiya hərbi bazalarının və qoşun hissələrinin mövcudluğu (Azərbaycan istisna olmaqla) və bunlardan Azərbaycanın müstəqilliyinə qarşı təzyiq vasitəsi kimi istifadə edilməsi bilavasitə başqa Avropa dövlətləri kimi həm də Almaniyanın Azərbaycanda təmsil olunan maraqlarına uyğun deyil və iki ölkə arasında sıx münasibətlərin yaranmasını zəruri edir. Çünki Almaniya kimi böyük və nüfuzlu bir dövlət Qafqaz kimi əlverişli geosiyasi mövqeyə malik bir regionda gedən proseslərə biganə



qalaraq, bu məkandakı özünün iqtisadi, siyasi və regional maraqlarını taleyin hökmünə buraxa bilməz. Bu mə"nada, əvvəla, Azərbaycan Qafqaz regionunun ən əlverişli geostrateji əhəmiyyətə malik bir məkanında yerləşmiş, həm Qərb və Şərqin, həm də Rusiyanın mənafelərinin kəsişdiyi bir dövlətdir. Buna görə nəinki təkcə Almaniya, eləcə də bütün Avropa ölkələri üçün belə bir dövlətlə əlaqə yaratmaq, onu özünün geostrateji tərəfdaşı etmək hazırkı beynəlxalq münasibətlər fonunda çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın Avropa ölkələri və Almaniya üçün əhəmiyyəti bir də onunla ölçülür ki, bu respublika hazırda keçmiş SSRİ-dən ayrılmış dövlətlər içərisində Pribaltika dövlətlərindən sonra ən müstəqil siyasət yeridən ölkədir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bu sahədə apardığı qətiyyətli və ardıcıl siyasət Azərbaycanın həm Qərbdə nüfuzunu artırmış, həm də ona Qafqazda əsas strateji tərəfdaş olmaq mövqeyi qazandırmışdır. Qərb o ölkə ilə fəal qarşılıqlı münasibətlər yaradır ki, o, gələcəkdə bərabərhüquqlu və müstəqil bir dövlət kimi Avropa birliyinə tam inteqrasiya olunsun, öz taleyini, mənafelərini, sərvət və potensialını birlik dövlətləri ilə bağlaya bilsin.Almaniyanı Azərbaycanla strateji tərəfdaşlıq münasibətləri yaratmağa sövq edən əsas amillərdən biri də müstəqilllik əldə etmiş respublikanın demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu tutmasıdır. Bu gün müxtəlif sahələrlə məşğul olan, o cümlədən Almaniyaya mənsub beynəlxalq müşahidəçilər Azərbaycanda gedən ictimai-siyasi və iqtisadi prosesləri diqqətlə izləyir və onunla bağlı öz strateji və taktiki planlarını baş verən dəyişikliklərə müvafiq qururlar. Bu mə"nada ölkədə başlamış və davam edən demokratik dövlət quruculuğu və yeni iqtisadi münasibətlərə keçid prosesinin dönməzliyinə əminlik Almaniyanı və bütövlükdə dünyanın bütün tərəqqipərvər ölkələrini Azərbaycanla əməkdaşlığa sövq edən əsas amillərdən biridir. Azərbaycan Respublikası Prezidentinin bu sahədəki qətiyyətli addımları Almaniyanın Azərbaycana olan inamını bir daha gücləndirdi və iki ölkə arasında əlaqələrin daha da genişlənməsi üçün əlverişli zəmin yaratdı.

Bu fikri AFR-in Federal Prezidenti Roman Hersoqun dediyi sözlər

də təsdiq edir. İyulun 2-də Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə verilən ziyafət zamanı R.Hersoq qeyd etdi ki, "Biz islahatların həyata keçirilməsinə yönəldilmiş sə'ylərinizi bundan sonra da dəstəkləyəcəyik. Federal hökumət iqtisadi əməkdaşlıq üçün xeyli vəsait verir. O, sizin ölkənizi Avropa Birliyi İttifaqı və beynəlxalq maliyyə təşkilatları çərçivəsində də dəstəkləyir. Almaniyanın simasında Azərbaycanın dostu və vəkili vardır" (129).

Beləliklə, bütün yuxarıda göstərilən amillər və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nüfuzuna və qətiyyətli siyasətinə hörmət Almaniya rəhbərlərini bu gün Azərbaycanın iqtisadi, siyasi, humanitar və beynəlxalq münasibətlər sahəsində qarşılaşdığı bütün problemləri həll etmək üçün hər cür yardım və köməklik göstərməyə sövq edir ki, bu da iki ölkə arasında yaranmış əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin yaxın illərdə strateji müttəfiqlik səviyyəsinə qədər yüksələcəyinə tam zəmanət verir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin AFR-ə rəsmi səfəri və bu səfər nəticəsində iki ölkə arasında əsası qoyulmuş yeni münasibətlər böyük iqtisadi və siyasi imkanları olan Almaniyanın qapılarını Azərbaycanın üzünə açdı, onun qabaqcıl təcrübəsindən və imkanlarından istifadə etməyə, qabaqcıl texnologiya əsasında iqtisadiyyatı yenidən qurmağa və bu dövlət ilə sıx iqtisadi inteqrasiyaya girməyə imkan yaratdı. Digər tərəfdən, bu səfər müstəqil Azərbaycan dövlətinə respublika ətrafında formalaşmaqda olan beynəlxalq münasibətlərin düzgün, xalqın mənafelərinə uyğun məcraya yönəldilməsində, ölkənin təhlükəsizliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, beynəlxalq hüquq normaları və prinsiplərinin Qafqaz regionunun münaqişəli məsələlərinin həllinə tətbiq edilməsində Almaniyanın Azərbaycan mənafeyinə uyğun, sabit və prinsipial mövqelərindən istifadə etmək imkanı verir.

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin düşünülmüş, uzaqgörən xarici siyasətinin nəticəsidir. İki ölkə arasındakı əlaqələrin yaranması və müttəfiqlik münasibətləri istiqamətində inkişaf etdirilməsi Azərbaycan dövlətinin və bütün xalqın strateji inkişaf maraqlarına və perspektivlərinə tam uyğun gəlir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin



Almaniyaya səfəri iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin inkişafına yeni bir təkan verdi. Təsadüfi deyil ki, səfərdən sonra Almaniyanın siyasi və işgüzar dairələrinin Azərbaycana olan diqqəti xeyli artdı. Artıq iyulu n 22-də Almaniyanın tanınmış şirkətlərindən biri, Azərbaycan ilə uzun tarixi əlaqələrə malik olan "Simens" Səhmdar Cəmiyyətinin prezidenti Haynrix Fon Piererin başçılıq etdiyi nümayəndə hey'əti Bakıya gəldi. Elektrik stansiyalarının tikilməsi və bir sıra başqa sahələrdə Azərbaycan ilə əməkdaşlığın perspektivlərini müzakirə edən nümayəndə hey'ətinin başçısı Prezident Heydər Əliyevlə görüş zamanı bildirdi ki, Azərbaycanın dövlət başçısının Almaniya səfərindən sonra "federal kansler Helmut Kol Azərbaycan ilə Almaniya arasındakı əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirir" (130).

Sentyabr ayında Almaniyanın "Daymler-Bents" konserninin vitse-prezidentləri Klaus Oberlender və Ulrix Fişer başda olmaqla həmin konsernin nümayəndə hey'ətinin Bakıya səfəri alman kapitalının Azərbaycana artan marağının yeni bir göstəricisidir. Sentyabrın 12-də Azərbaycan Prezidenti ilə görüşən nümayəndə hey'ətinin başçısı iki ölkə arasında əməkdaşlıq üçün geniş imkanlar olduğunu qeyd edərək, avtomobil nəqliyyatı və aviasiya sahəsində işgüzar əlaqələrin qurulmasında maraqlı olmalarını bildirmişdir (131).

1996-cı ilin oktyabrında yeni Azərbaycan-Almaniya birgə müəssisəsi -"Azərbaycan-Almaniya Ticarət evi" yaradılmışdır. Müəssisə iki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi və yeyinti sənayesi sahəsində e'mal müəssisələrinin tikilməsi istiqamətində fəaliyyət göstərəcəkdir (132).

Almaniya ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi yollarının araşdırılması iki ölkə arasında siyasi münasibətlərin daha intensiv xarakter alması ilə müşayiət olunmuşdur. Noyabrın 14-də Azərbaycan Prezidenti Heydər Əliyev Almaniya Xarici İşlər Nazirliyinin Cənubi və Orta Avropa və MDB məsələləri üzrə siyasi direktoru K.Noyberti, Almaniyanın Azərbaycandakı səfiri M.Şmunku, Almaniyanın Gürcüstandakı səfiri N.Baası, Almaniyanın Ermənistandakı səfiri K.Müller-Holtkemperi, habelə Almaniyanın iqtisadiyyat, siyasət və mədəniyyət məsələləri üzrə ekspertlərini

qəbul etmişdir. Görüş zamanı belə bir fikir ifadə edilmişdir ki, "Prezident Heydər Əliyevin Almaniya səfəri bu ölkənin Zaqafqaziya respublikalarındakı səfirləri arasında münasibətləri intensivləşdirmək üçün böyük addım olmuşdur və Almaniya hökuməti regionun inkişafına daim nəzər yetirir" (133). Görüşdə bölgədə mövcud olan problemlər müzakirə edilmiş, Almaniya-Azərbaycan münasibətlərinin daha da genişləndirilməsi məsələləri araşdırılmışdır.

Beləliklə, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra qısa müddət ərzində AFR ilə diplomatik münasibətlərin yaradılmasına və Bonnda Azərbaycan səfirliyinin açılmasına baxmayaraq, Azərbaycan Respublikasının o dövrdəki passiv xarici siyasəti və beynəlxalq aləmdə aparıcı rol oynayan Almaniya kimi qüdrətli dövlətlə geniş qarşılıqlı əlaqələrin yaradılması zəruriliyini *lazımınca qiymətləndirməməsi nəticəsində iki ölkə arasında* münasibətlər inkişaf etdirilməmiş, mürəkkəb beynəlxalq vəziyyətlə və ağır iqtisadi böhranla üzləşən Azərbaycan Respublikası AFR ilə münasibətlərin potensial imkanlarından bəhrələnə bilməmişdir.

1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra həyata keçirilən məqsədyönlü, fəal xarici siyasət AFR ilə də münasibətləri dinamik inkişaf yoluna çıxartdı. Azərbaycan Prezidenti Heydər Əliyevin sə'yləri nəticəsində 1993-1996-cı illərdə iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələr sür'ətlə inkişaf etdirilmiş, bir sıra mühüm müqavilələr imzalanmış, bir çox beynəlxalq və regional problemlər üzrə fikir birliyi əldə edilmiş, beynəlxalq səviyyəli yüksək məclislərdə Azərbaycanla bağlı bir sıra məsələlərdə, o cümlədən Qarabağ münaqişəsinin nizamlanmasında AFR Azərbaycanın mövqeyini müdafiə etmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyevin Almaniya səfərindən sonra Azərbaycan-Almaniya münasibətləri daha intensiv xarakter almış və bu inkişaf özünü siyasi, iqtisadi və mədəni sahələrdə qabarıq şəkildə büruzə vermişdir.



## *q) Belçika ilə münasibətlər*

Qərbi Avropanın inkişaf etmiş dövlətlərindən biri olan Belçika Krallığı (ərazisi 30,5 min kv.km, əhalisi 10 milyon nəfərdən çoxdur) (134) beynəlxalq münasibətlər sistemində mühüm rol oynayır.

Siyasi quruluşuna görə konstitusiyalı monarxiya hesab olunan Belçikada dövlət başçısı geniş səlahiyyətlərə malik kral olsa da, əslində bütün icraedici hakimiyyət hökumətin əlində cəmlənmişdir. Qanunverici hakimiyyət isə krala və iki palatalı parlamentə məxsusdur.

Əhalisi əsasən flamandlardan (50,4%) və vallonlardan (39,3%) ibarətdir. (135)

1830-cu ildə Hollandiya əsarətinin devrilməsi nəticəsində siyasi müstəqilliyə nail olmuş Belçika həmin il noyabrın 10-da öz istiqlaliyyətini e'lan etmişdir. 1830-cu il dekabrın 20-də beş böyük dövlətin (Rusiya,Böyük Britaniya,Fransa, Avstriya və Prussiya) London konfransı Belçikanın suverenliyini tanımış və 1831-ci ilin yanvarından isə onu daimi bitərəf dövlət e'lan etmişdir. (136)

Belçikanın müstəqil dövlət kimi möhkəmlənməsi və inkişafı əsasən XIX əsrin ortalarına təsadüf edir.

İkinci dünya müharibəsi illərində Belçika da digər Avropa dövlətləri kimi Almaniyanın işğalına mə'ruz qalmış, müharibədən sonra isə "Marşall planı" əsasında ABŞ yardımından bəhrələnərək öz iqtisadiyyatını yenidən bərpa etmişdir.

Belçika 1943-cü ildə Benilüksün yaradılması təşəbbüsçülərindən biri olmuş, 1945-ci ildən BMT-yə, 1949-cu ildən isə NATO-ya üzv qəbul edilmişdir. Hazırda Belçika bütün bu qurumların və eyni zamanda Avropa Birliyinin fəal üzvüdür.

Ölkənin siyasi həyatında Sosial-xristian, Liberal və Sosialist

partiyaları əsas yer tuturlar.

Ərazisinə və əhalisinin sayına görə o qədər də böyük olmayan Belçika Krallığı əlverişli geosiyasi və iqtisadi bir məkanda yerləşməsi ilə dünyada və xüsusən də Avropa qitəsində baş verən bütün ictimai, siyasi və beynəlxalq proseslərin əsas mərkəzlərindən biri kimi mühüm əhəmiyyətə malikdir.

İnkişaf etmiş iqtisadiyyata, ən qabaqcıl texnologiyaya, sabit siyasi və sosial vəziyyətə, güclü bank-maliyyə sisteminə malik olması da Belçikanın Avropa qitəsində nüfuzlu və qlobal proseslərə tə'sir etmək imkanı olan dövlətlərdən birinə çevrilməsini şərtləndirən əsas amillərdir.

Bir sıra mühüm beynəlxalq və regional təşkilatların mənzil qərargahının məhz Belçikada yerləşməsi müstəqil dövlətçilik yolu tutmuş gənc ölkələr üçün bu dövlətlə geniş qarşılıqlı əlaqələr qurulmasının əhəmiyyətini daha da artırır. Xüsusən NATO və Avropa Birliyi kimi nüfuzlu beynəlxalq təşkilatların mənzil qərargahlarının Brüsseldə yerləşməsi bu ölkəyə planetin qlobal məsələlərinin və dünya siyasətinin müəyyənləşdiyi, istiqamətləndiyi mərkəzlərdən biri rolunu oynamağa şərait yaradır.Eyni zamanda,Brüsseldə dünyanın ən nüfuzlu iqtisadi və ticarət təşkilatlarının, bank-maliyyə qurumlarının filialları, ən məşhur iş adamlarının ofisləri fəaliyyət göstərir. Bu qurumlarla əlaqə yaratmaq və iqtisadi mənafe naminə onlarla əməkdaşlıq etmək istəyən hər bir dövlətin Belçika ilə normal münasibətlər qurması zəruridir.

Belçikanın bütün dünyaya geniş informasiya çıxışına malik olması da müstəqil dövlət quruculuğu yolunda müxtəlif problemlər ilə üzləşmiş ölkələrin bu dövlətlə qarşılıqlı faydalı əlaqələr qurmasını şərtləndirən əsas amillərdən biridir. Həm Belçikanın özünün geniş mətbuat-informasiya kanalları, həm də Brüsseldə fəaliyyət göstərən beynəlxalq informasiya mərkəzləri zəruri mə'lumatın çevik surətdə bütün dünya ictimaiyyətinə birbaşa çıxışını tə'min edir.

Beləliklə, Belçika Krallığının əlverişli geosiyasi əhəmiyyəti, qabaqcıl iqtisadi, texnoloji və maliyyə imkanları, beynəlxalq və regional təşkilatlarda fəal mövqeyi, Avropada və beynəlxalq aləmdə oynadığı xüsusi rolu və s. mühüm amillər Azərbaycan Prezidenti



Heydər Əliyev tərəfindən obyektiv surətdə qiymətləndirilmiş və bu ölkə ilə fəal siyasi, iqtisadi və mədəni əməkdaşlıq qurmaq xətti 1993-cü ilin sonundan başlayaraq Azərbaycanın xarici siyasətində mühüm yer tutmuşdur.

Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında birbaşa diplomatik əlaqələr yaradılması üçün ilk təşəbbüs 1992-ci ilin fevralında göstərilmişdir. 1992-ci il fevralın 19-da Azərbaycan Respublikasının baş naziri Belçikaya səfəri gedişində bu ölkənin hökumət başçısı ilə görüşmüş və iki ölkə arasında birbaşa əməkdaşlığın inkişafına dair məsələləri müzakirə etmişdir. Səfər zamanı Belçika ilə Azərbaycan arasında diplomatik və konsul münasibətləri yaratmaq haqqında saziş imzalanmışdır. Tərəflər bir-birinə diplomatik nümayəndələr göndərməyi qərara almışlar. (137)

Azərbaycan MDB-yə daxil olan respublikalar arasında Belçika ilə diplomatik münasibətlər yaradan ilk dövlət idi. İmzalanmış sənəddə hər iki tərəf SSRİ ilə Belçika Krallığı arasında hələ də qüvvədə olan ikitərəfli sənədləri tanıdıqlarını və iki ölkə arasında qarşılıqlı münasibətləri tənzimləyən yeni hüquqi-normativ sənədlər imzalanana qədər onları tanıyacaqlarını qeyd edirdilər. (138) İmzalanmış sənədlər iki ölkə arasında yeni münasibətlərin yaradılması yolunda atılmış ilk addım idi. Müstəqil Azərbaycan Respublikası ilə Belçika arasındakı siyasi, iqtisadi və mədəni əlaqələrin yüksək səviyyəyə qaldırılmasına, Azərbaycanın Avropa ölkələri ilə inteqrasiyasının sür'ətlənməsinə təkan verən yeni sənədlərin imzalanması zamanın tələbi idi. Azərbaycanın xarici siyasəti bu sahədə daha çevik və məhsuldar fəaliyyət göstərməli idi.

Azərbaycan-Belçika əlaqələrinin sonrakı tarixi göstərdi ki, imzalanmış saziş formal bir sənəd olaraq qalmış, iki dövlət arasında diplomatik əlaqələrin yaranmasına və inkişafına dair heç bir konkret tədbir həyata keçirilməmişdir. 1992-1993-cü illərdə iki dövlət arasında nəinki heç bir əlaqə olmamış, bağlanmış sazişin icrası belə tə'min edilməmiş, hətta Belçika adlı Avropa dövləti Azərbaycan diplomatiyasının yaddaşından demək olar ki, silinmişdir.

Bütün Avropa dövlətləri ilə olduğu kimi Belçika Krallığı ilə də

normal diplomatik münasibətlər və ikitərəfli əlaqələr 1993-cü ilin ikinci yarısından başlamış, 1994-1995-ci illərdə həyata keçirilən ardıcıl diplomatik sə'ylər nəticəsində Azərbaycanın müstəqil dövlətçilik mənafelərinə cavab verən keyfiyyətcə yeni səciyyə kəsb etmişdir.

İki dövlət arasında münasibətlərin yaranması və inkişafında ən mühüm mərhələ 1994-cü il may ayının 3-5-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Belçikaya səfəri hesab oluna bilər. Brüsseldə ümumavropa regionunun mərkəzi Belçika Krallığı ilə ümumqafqaz regionunun və Avropa-Asiya qitələrinin kəsişmə mərkəzinin əsas ölkəsi rolunu oynayan Azərbaycan dövləti arasında ikitərəfli və çoxtərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni və beynəlxalq aspektləri geniş müzakirə olunmuş, gələcək əlaqələrin prinsip və yönümləri aşkarlanmış və mühüm qərarlar qəbul edilmişdir. (139)

May ayının 4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Belçika Krallığının baş naziri Jan Lük Dean ilə görüşmüş və iki öl kə arasındakı əlaqələrin bütün sahələrini əhatə edən məsələləri müzakirə etmişdir. Görüşün sonunda jurnalistlərə müsahibə verən Azərbaycan Respublikasının Prezidenti bu görüşdən çox razı qaldığını bildirmiş və göstərmişdir ki, "Azərbaycanla Belçika arasında daha sıx münasibətlər yaradılmasının zəruriliyi məsələsində baxışlarımızın bir-birinə tamamilə uyğun gəlməsi aşkar oldu." (140)

Azərbaycan Respublikasının Prezidenti görüşdə iki ölkə arasında dövlətlərarası münasibətləri müəyyənləşdirən bə'zi sənədlərin, o cümlədən Azərbaycanla Belçika arasında dostluq və əməkdaşlıq haqqında sazişin, ticarət-iqtisadi münasibətləri, turizm sahəsində əlaqələri və s. müəyyənləşdirən sazişlərin layihələrinin Belçika tərəfinə təqdim olunduğunu, Ermənistan-Azərbaycan münaqişəsinin hərtərəfli müzakirə edildiyini, tərəflərin bu məsələyə münasibəti və mövqeyindən geniş söhbət açıldığını da jurnalistlərə çatdırdı. (141)

İki dövlət arasındakı əlaqələrə qiymət verən Belçikanın baş naziri Jan Lük Dean Belçika-Azərbaycan münasibətlərinin vəziyyətindən razılıqla bəhs etdi və gələcəkdə bir sıra sənədlər, o cümlədən Belçika ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında saziş



imzalandıqdan sonra bu münasibətlərin daha da inkişaf edəcəyinə əmin olduğunu bildirdi. (142)

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə toxunan Jan Lük Dean qeyd etmişdir ki, "biz regiondakı münaqişənin danışıqlar yolu ilə aradan qaldırılmasına yönəldilmiş bütün sə'ylərə tərəfdarıq". Dövlətlərarası sərhədlərin zor gücünə dəyişdirilməsinin əleyhinə çıxış edən baş nazir eyni zamanda qeyd etdi ki, Belçika Krallığı ATƏM-in, onun Minsk qrupunun çərçivəsində aparılan danışıqları müdafiə edir və ümidvar olduğunu bildirdi ki, münaqişənin sülh yolu ilə aradan qaldırılması məhz diplomatik sə'ylər və gərgin danışıqlar nəticəsində mümkün olacaqdır. (143)

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Brüsseldə Beynəlxalq Mətbuat Mərkəzində geniş mətbuat konfransı keçirdi. Konfransda Azərbaycan – Belçika əlaqələrinin əhəmiyyətindən, ikitərəfli münasibətlərin müxtəlif sahələrindən bəhs edən Azərbaycan Prezidenti, eyni zamanda, Ermənistan- Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi haqqında da mətbuat nümayəndələrinə geniş mə'lumat verdi. Azərbaycanın təcavüzə mə'ruz qalması, onun torpaqlarının işğalı, əhalisinin zorla öz ata-baba yurdlarından qovulması, bölgədə Ermənistan dövlətinin işğalçı siyasəti və onun ümumavropa təhlükəsizliyinə vurduğu zərbə, Azərbaycanın sülh siyasəti və s. haqqında dünya ictimaiyyəti Azərbaycan Prezidentinin dilindən geniş informasiya əldə etdi. (144)

Belçikaya səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Avropa ölkələrində yaşayan soydaşlarımızla da görüşdü. Görüşdə Azərbaycanda gedən ictimai, siyasi, iqtisadi dəyişikliklərdən, müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətindən, xaricdə yaşayan soydaşlarımıza münasibətdən, onların dövlətçiliyimizə və dövlətimizin onlara göstərə biləcəyi kömək və yardımdan geniş bəhs olundu. Soydaşlarımızın müstəq il Azərbaycan dövlətinin Avropaya inteqrasiya olunmasına və onun beynəlxalq maraqlarının qorunmasına göstərə biləcəyi xidmət və verə biləcəkləri töhfə xüsusi qeyd edildi. (145)

Azərbaycan Respublikası Prezidentinin Belçikaya səfərinin əhəmiyyəti təkcə bu ölkə ilə ikitərəfli münasibətlər yaratmaq və

dövlətlərarası əlaqələri inkişaf etdirməklə bitmir. Səfər müddətində Azərbaycan Prezidenti bu ölkədə fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri ilə görüşmüş, bu ölkələrlə Azərbaycan Respublikasının gələcək əlaqələrinin və əməkdaşlığının müxtəlif aspektlərini müzakirə etmişdir.

1994-cü il mayın 4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və onu müşayiət edən nümayəndə hey'əti Brüsseldə NATO-nun baş qərargahında olmuş, Atlantika bloku baş katibinin müavini Serco Balantsino ilə görüşmüş və Azərbaycanın NATO ilə əməkdaşlıq proqramının müxtəlif məsələlərini geniş müzakirə etmişdir. Görüşdə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycanla Şimali Atlantika bloku arasında əlaqələrin perspektivləri müzakirə olunmuş, Azərbaycanın bu proqrama qoşulması razılaşdırılmışdır. Tərəflər yekdil rə'yə gəlmişlər ki, odlu nöqtələrdə silahlı münaqişələrin dayandırılmasında və sülhün bərqərar olmasında NATO bloku çox böyük rol oynaya bilər. Azərbaycan tərəfi "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması haqqında sənədi imzaladı və beləliklə,NATO ilə əməkdaşlıq sahəsində özünün ilk siyasi və hüquqi addımını atdı. (146)

NATO baş katibinin müavini Serco Balantsino bu addımı "öz müstəqilliyini möhkəmləndirmək uğrunda mübarizə aparan Azərbaycan dövləti üçün çox böyük müvəffəqiyyət hesab etdiyini. "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan hər bir dövlətin, o cümlədən Azərbaycanın dövlət mənafeyinə, müstəqillik sə'ylərinə NATO-nun və beynəlxalq aləmin əlavə qarant rolunu oynayacağını bildirdi. O, Azərbaycanın beynəlxalq aləmdə baş verən siyasi proseslərə fəal qoşulması cəhdlərini yüksək qiymətləndirdi və əmin olduğunu bildirdi ki, NATO ilə əməkdaşlıq və "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində iştirakı Azərbaycanın dövlət mənafeyinə xidmət edəcəkdir. (147)

NATO-nun fəaliyyəti və Azərbaycanın bu təşkilatla əlaqələrinin əhəmiyyəti Prezident Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. "Sülh naminə tərəfdaşlıq" proqramının imzalanmasından sonra Azərbaycan Prezidenti jurnalistlər üçün verdiyi bəyanatında qeyd etmişdir ki, Azərbaycan Respublikası Şimali



Atlantika İttifaqına dərin hörmətlə yanaşır, son onilliklər ərzində onun Avropada sülhü, sabitliyi və ardıcıl inkişafı tə'min etmiş olan fəaliyyətini səmərəli hesab edir. (148) NATO-nu dünyada kollektiv təhlükəsizliyin, sülhün, demokratik dəyərlərin real müdafiəçisi, Şərqi Avropada və keçmiş SSRİ ərazisində bu dəyərlərin yayılmasının və tətbiq edilməsinin əsas tə'minatçısı kimi qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti əmin olduğunu bildirmişdir ki, bu nüfuzlu qurum Azərbaycanın, eləcə də digər yeni Avropa dövlətlərinin müstəqilliyinin möhkəmlənməsi yolunda öz mühüm töhfəsini verəcək ki, bu da NATO-nun fəaliyyətinin əsasını təşkil edən beynəlxalq prinsiplərin sarsılmazlığının real təsdiqi olacaqdır.

1994-cü ilin yanvarında NATO Şurasının bəyannaməsində Cənubi Qafqazdakı münaqişəli vəziyyətdən narahatlıq ifadə olunması, dövlətlərin ərazi bütövlüyünə,müstəqilliyinə və suverenliyinə hörmət nümayiş etdirilməsi Şimali Atlantika bloku rəhbərliyinin və blok üzvü olan dövlətlərin beynəlxalq hüquq normalarına əsaslanmalarının təzahürü idi. (149)

Şimali Atlantika İttifaqının fəaliyyət prinsipləri Cənubi Qafqazda və digər bölgələrdə sülh və sabitlik yolunda mövcud olan əngəllərin əməli surətdə aradan qaldırılmasına, bütün xalqların tərəqqi və inkişafı naminə müvəffəqiyyətli əməkdaşlığa inam aşılayır. Azərbaycan Respublikasının "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması isə Avropada kollektiv təhlükəsizliyin e'tibarlı sisteminin yaradılmasında onun fəal iştirakına şərait yaradır. Bu təşkilatın fəal üzvlərindən biri olan Belçika ilə Azərbaycan arasında sıx əlaqələrin yaradılması NATO ilə əməkdaşlığın daha səmərəli və məqsədyönlü xarakter almasına kömək edəcəkdir.

Azərbaycan Prezidentinin Belçikaya ilk rəsmi səfəri iki ölkə arasında münasibətlərin əsasını qoymaqla bərabər, əlaqələrin daha da güclənməsinə, Azərbaycana qarşı marağın artmasına tə'sir göstərdi. Məhz elə bu istiqamətdə fəallaşan siyasətin nəticəsi olaraq 1995-ci ilin fevralında Belçika Krallığı Azərbaycana özünün fövqəl'adə və səlahiyyətli səfirini tə'yin etmişdir.

1995-ci il fevralın 23-də Krallığın yeni tə'yin olunmuş səfiri Mişel

Adam öz e'timadnaməsini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə təqdim etdi və ölkələrimiz arasında əlaqələrin hərtərəfli inkişafına çalışacağını vurğuladı. (150) O, bildirdi ki, zəngin təbii sərvətlərə malik Azərbaycanla qabaqcıl texnoloji və güclü maliyyə imkanı olan Belçika Krallığı arasında yaranan və inkişaf etməyə başlayan əlaqələr hər iki dövlətin maraqlarına tam cavab verir.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan-Belçika əlaqələrinin əhəmiyyətindən, yaxın zamanlarda Brüsseldə Azərbaycan səfirliyinin açılacağından, Belçikada səfərdə olduğu zaman bu dövlətin başçıları ilə və Brüsseldə yerləşən bir çox beynəlxalq təşkilatlarda keçirdikləri görüşlərdən bəhs etdi. Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT-in Minsk qrupunun fəaliyyətini və Qafqaz münaqişələrinin həllinin beynəlxalq prinsiplər əsasında tənzimlənməsini dəstəkləyən Belçika Krallığına minnətdarlığını bildirən Heydər Əliyev Belçika ilə Azərbaycanın gələcəkdə bir-birinə yaxın tərəfdaş olacaqlarına inamını ifadə etdi. (151)

1995-ci ilin mart ayında Azərbaycan Respublikasının Belçika Krallığında (Brüsseldə) səfirliyinin açılması haqqında Prezidentin fərmanı verilmişdir.(152) Bu səfirliyin yaradılması həm Belçika-Azərbaycan əlaqələrinin inkişafına, həm də Brüsseldə mənzil-qərargahı olan beynəlxalq siyasi, iqtisadi və maliyyə qurumları ilə əməkdaşlığın güclənməsinə təkan verdi.

1995-ci il ərzində Belçika Krallığı Avropa Birliyinin üzvü kimi Azərbaycana humanitar yardım göstərilməsində fəal iştirak etməklə bərabər bütün beynəlxalq və regional toplantılarda Qafqazda davam edən münaqişədən narahat olduğunu, Ermənistan- Azərbaycan münaqişəsinin beynəlxalq prinsiplər əsasında tezliklə aradan qaldırılmasının zəruriliyini bəyan etmişdir. Azərbaycanla iqtisadi əməkdaşlığın dərinləşməsinə sə'y göstərən Belçika müxtəlif sahələrdə-metallurgiya sənayesi və energetika, kənd təsərrüfatı və ərzaq məhsullarının e'malı və saxlanılması ilə bağlı bir çox mühüm layihələr təklif etmiş, bə'zilərinin maliyyələşməsində yaxından iştirak etməyə hazır olduğunu bildirmişdir.(153)

Azərbaycan-Belçika əlaqələrinin genişlənməsi və inkişafı



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bu ölkəyə növbəti səfəri ilə yeni vüs'ət aldı. 1995-ci il aprelin 17-də Avropa Birliyi ölkələrinin rəhbərləri ilə növbəti görüşlər keçirmək üçün Brüsselə gələn Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 18-də Belçika Krallığının baş naziri Jan Lük Deanla görüşdü. Görüşdə baş nazir Azərbaycan Prezidenti ilə bundan əvvəl Brüsseldə, Budapeştdə, Davosda, Kopenhagendə keçirdikləri görüşləri bir daha xatırlamış və qeyd etmişdir ki, bütün bu görüşlər iki ölkə arasındakı münasibətləri daha da sür'ətləndirmək, iqtisadi, siyasi və mədəni əlaqələrin müxtəlif tərəflərini müzakirə etmək və mühüm qərarlar qəbul etmək baxımından çox əhəmiyyətli olmuşdur. (154)

Belçika Krallığının bütün beynəlxalq tədbirlərdə Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı beynəlxalq prinsipləri rəhbər tutaraq Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə baş nazirə öz minnətdarlığını bildirən Azərbaycan Respublikasının Prezidenti iki ölkə arasındakı qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsi zərurətini bir daha təsdiq etdi və öz ölkəsinin bu sahədə maraqlı olduğunu bildirdi. (155)

Görüşdə Azərbaycan-Belçika münasibətlərinin mövcud vəziyyəti və perspektivləri, Avropa Birliyi tərkibində Belçikanın Azərbaycana göstərdiyi humanitar yardım məsələləri, Belçikanın dövlət və özəl şirkətlərinin, maliyyə qurumlarının Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşuna cəlb edilməsi, Azərbaycanda xarici iş adamlarının fəaliyyəti ilə bağlı mövcud ictimai-siyasi vəziyyət və qanunverici baza və s. məsələlər geniş müzakirə edilmişdir.

Müzakirələr zamanı Azərbaycanda xarici ölkələrin dövlət şirkətləri və iş adamları üçün hər cür şəraitin mövcud olduğunu yəqinləşdirən baş nazir yaxın zamanlarda Belçika şirkətlərinin bu işə başlayacağına əmin olduğunu vurğulamış, qarşılıqlı əlaqələrin hərtərəfli müzakirə olunması və müvafiq hüquqi sənədlərin imzalanması məqsədilə Azərbaycan Respublikasının Prezidentini Belçika Krallığına rəsmi səfərə də'vət etmişdir. (156)

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin əsas vəzifələrindən biri də bütün dünya ölkələrində yaşayan soydaşlarımızın problemlərinin həllinə köməklik göstərmək, onların

vətəndaşlıq hüquqlarını müdafiə etməkdən ibarətdir. Bütün dünya azərbaycanlılarını Azərbaycan dövləti ilə, onun ümummilli maraqları və mənafelərinin qorunması ilə yaxından bağlamaq, soydaşlarımızın imkanlarını dövlətçiliyimizin güclənməsi və beynəlxalq aləmdə onun maraqlarının qorunmasına cəlb etmək vəzifəsi də xarici siyasət konsepsiyasının əsas müddəalarından birini təşkil edir. Məhz buna görə də Belçikaya səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Brüsselə toplaşan Avropa ölkələrində yaşayan soydaşlarımızla da geniş bir görüş keçirmişdir. (157)

Görüşdə Heydər Əliyev Azərbaycanda gedən ictimai-siyasi proseslər, həyata keçirilən iqtisadi dəyişikliklər, aparılan islahatlar, xarici siyasət sahəsində dövlətin qarşısında duran vəzifələr və görülən işlər haqqında geniş mə'lumat vermiş, soydaşlarımızın qaygı və problemləri ilə yaxından tanış olmuşdur. Xaricdə yaşayan soydaşlarımızla bağlı Azərbaycanın müvafiq dövlət orqanları qarşısında xüsusi vəzifələr qoyan Prezident, soydaşlarımıza da öz tövsiyyələrini bildirmişdir. O, qeyd etmişdir ki, indi Azərbaycanın müstəqil bir dövlət kimi xarici ölkələrdə güclü diasporlara ehtiyacı var. Çünki hər bir dövlətin inkişafı onun nümayəndələrinin bir ölkənin çərçivəsinə qapanıb yaşaması ilə deyil, bütün dünyada həmin ölkəni təbliğ və təmsil etməsi, onun maraqlarını qoruması ilə sıx surətdə bağlıdır. Prezident xaricdə yaşayan soydaşlarımızı fəallığa, Azərbaycan dövləti ilə sıx bağlılığa çağırmış və bu barədə onlara əhəmiyyətli məsləhətlər vermişdir. (158)

Azərbaycan-Belçika əlaqələrinin genişlənməsi və inkişaf etməsinə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996-cı il aprelin 22-23-də həyata keçirilmiş növbəti səfəri xüsusi tə'sir göstərmişdir. Səfər zamanı Azərbaycan Prezidenti Brüsseldə yerləşən NATO və Avropa Birliyinin qərargahında olmuş, Şimali Atlantika blokunun sədri Havyer Solana, Avropa Birliyinin komissiya sədri Jak Santerlə, təşkilatın komissarı Van den Brukla və başqa rəsmi şəxslərlə görüşmüşdür. Görüş zamanı Azərbaycan-NATO, Azərbaycan-Avropa Birliyi əlaqələrinin müxtəlif aspektləri müzakirə edilmiş, Azərbaycanın Atlantika bloku ilə əməkdaşlığını hüquqi cəhətdən tənzimləyən prezentasiya sənədi Havyer Solanaya təqdim



olunmuşdur.

Brüssel səfərindən səmərəli istifadə edən Azərbaycan Respublikasının Prezidenti Ümumdünya Ticarət Mərkəzində Belçikanın Xarici Ticarət Şurasının üzvləri və işgüzar dairələrin nümayəndələri ilə görüş keçirmiş, Azərbaycanın iqtisadi həyatı və potensialı haqqında geniş mə'ruzə ilə çıxış etmişdir. Görüşdə Azərbaycanın Belçika işgüzar və hökumət dairələri ilə iqtisadi əlaqələrinin mühüm məsələləri, qarşılıqlı münasibətlərin tənzimlənməsinin müxtəlif variantları müzakirə olunmuşdur.(159)

Beləliklə, 1996-cı ilin sonuna qədər Azərbaycan diplomatiyası Avropanın mühüm siyasi və iqtisadi mərkəzlərindən biri hesab olunan Belçika Krallığı ilə siyasi, iqtisadi, mədəni və beynəlxalq münasibətlər sahəsində ikitərəfli əlaqələrin geniş müzakirəsini keçirmiş, iki dövlətin qarşılıqlı mənafelərinin ortaq nöqtəsini müəyyən etmiş və bu əsasda da Azərbaycan-Belçika əlaqələrinin hüquqi əsasını qoymuşdur. Bu istiqamətdə ilk addımlar 1992-ci ildə atılsa da, iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə söykənən münasibətlərin yaradılması və inkişaf etdirilməsi sahəsində konkret praktiki tədbirlərin həyata keçirilməsi yalnız 1993-cü ilin ikinci yarısından başlayaraq Prezident Heydər Əliyevin çoxşaxəli fəal xarici siyasət xətti yeritməsi sayəsində mümkün olmuşdur. Azərbaycan diplomatiyasının çevik və daha məqsədyönlü fəaliyyəti nəticəsində bu gün Avropa Birliyinin, NATO-nun, ATƏT-in və başqa beynəlxalq və regional qurumların fəal üzvü olan Belçika Krallığı Azərbaycanı bütün sahələrdə xüsusən Ermənistan Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin aradan qaldırılması, Qafqaz regionunda geosiyasi maraqların qorunması və münaqişələrin beynəlxalq prinsiplərə uyğun həlli, Azərbaycana Avropa Birliyinin və ayrı-ayrı dövlət və beynəlxalq təşkilatların hərtərəfli yardım göstərməsi, onun Avropa təhlükəsizlik sisteminə və Avropanın vahid iqtisadi məkanına inteqrasiya olunması və s. məsələlərdə dəstəkləyir və fəal yardım göstərir.

## d) Norveç ilə münasibətlər

Azərbaycan Respublikasının Norveç ilə münasibətləri ilk növbədə iqtisadi mənafe, xüsusən də neft sənayesində əməkdaşlıq üzərində qurulsa da, müstəqil dövlət quruculuğunun yeni-yeni səhifələrini yazan,demokratiya və tərəqqi yolu ilə irəliləməkdə olan gənc respublikamızla Avropanın qabaqcıl dövlətlərindən biri olan Norveç arasında qarşılıqlı əlaqələrin yaradılıb inkişaf etdirilməsi ölkəmizin dünya birliyinə siyasi və iqtisadi inteqrasiyasını sür'ətləndirən amil kimi diqqəti cəlb edir.

Şimali Avropada, Skandinaviya yarımadasının qərb və şimal hissəsində yerləşən Norveç dövlət quruluşuna görə konstitusiyalı monarxiyadır. Ətraf adalarla birlikdə 387 min kv. km. ərazisi olan, əlverişli geosiyasi regionda, mühüm dəniz yollarının kəsişdiyi yerdə yerləşən bu dövlətin ərazisində 4,3 milyon nəfər əhali yaşayır.(160) Zəngin tarixə, qədim mədəniyyətə malik olan Norveç dünyada özünün tükənməz enerji ehtiyatları, yüksək texnologiyalı naviqasiya sənayesi, tanınmış igid adamları və əməksevər, qonaqpərvər xalqı ilə tanınır. Bütün dünyada məşhur olan Norveç səyyahları Fritof Nansen, Reyal Amundsen, Tur Heyerdal bu ölkənin naviqasiya və səyyahlıq tarixinə böyük nüfuz qazandırmışlar.

Bir dövlət kimi Norveç öz müstəqilliyini 1905-ci il sentyabrın 23-də yenidən əldə etmiş və heç bir inqilabi proseslər keçirmədən, tədrici inkişafla bugünkü sivilizasiyalı dövlət quruculuğuna nail olmuşdur. Avropanın əksər ölkələrini burjua inqilabları dalğası bürüdüyü bir vaxtda Norveçin hakim dairələri yuxarıdan keçirilən islahatlar vasitəsilə siyasi və iqtisadi prosesləri tənzimləyə bilmişdir. İkinci dünya müharibəsindən sonra da ölkənin müxtəlif siyasi təşkilat və cəmiyyətləri ümummilli vəzifələrin birgə həllinin zəruriliyini dərk



edərək, kompromis və vətəndaş həmrə'yliyi prinsipləri əsasında birləşmiş və ölkədə vətəndaş sülhü əldə etmişlər. Norveçin tarixi inkişafında neytral mövqe və müharibələrdə iştirak etməmək ən'ənəsi də mühüm rol oynamışdır.

Bu dövlətin iqtisadi inkişafı üçün özünütənzimləmə, yeniləşmə, iqtisadi çeviklik xarakterikdir. 1929-33-cü illər dünya iqtisadi böhranı Norveçin iqtisadi həyatını 1930-cu ilin payızında əhatə etdi. İkinci dünya müharibəsi illərində Hitler Almaniyası tərəfindən işğal olunmuş Norveç müharibədən sonra "Marşall planı" əsasında ABŞ-dan aldığı 250 milyon dollarlıq maliyyə yardımı ilə öz iqtisadiyyatını tam bərpa edib inkişaf relsinə sala bildi.

1949-cu ildə NATO yaranan zaman müqaviləyə qoşulan ilk ölkələrdən biri də Norveç oldu.

Hazırda Norveç dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən biridir. Onun iqtisadiyyatında enerji ehtiyatı sahələri, neft- qazçıxarma, neft-kimya sənayesi, hidroenergetika, həmçinin neft-kimya maşınqayırması, gəmiqayırma və gəmiçilik, balıqçılıq və başqa sənaye sahələri üstünlük təşkil edir. Gəmi tonnajına görə dünyada beş böyük dövlət arasında 3-cü yeri tutan Norveç balıq məhsulları istehsalına görə iki güclü dövlətdən biri hesab olunur. Dünyanın yeddi iri aviasiya kompaniyası arasında bu ölkəyə məxsus kompaniya 2-ci yerdə durur. Müasir Norveçin iqtisadiyyatında hegemon sahə enerji istehsalına məxsusdur. 1964-cü ildən neft istehsalı və e"malına başlayan Norveç, 1995-ci ildə neft istehsalını 140 milyon tona çatdırmışdır ki, bu da ölkəni Avropada ən güclü neft istehsalçılarınd an birinə çevirmişdir. 1972-ci ildə əsası qoyulmuş "Statoyl" Dövlət Neft Kompaniyası, beynəlxalq "Statoyl" neft-qaz konserni dünyanın demək olar ki, neftlə zəngin bütün ölkələrində fəaliyyət göstərir və yaxud onlarla əməkdaşlıq edir.

Norveçin neft və qaz kompaniyaları müasir texnologiyadan və elmi-texniki nailiyyətlərdən səmərəli istifadə edərək, bu gün dünyanın enerji ehtiyatları ilə çox zəngin Yaxın Şərq, Cənub-Şərqi Asiya, Afrika kimi regionlarında öz mövqelərini möhkəmləndirmiş və bu sahədə mühüm rol oynamaqda davam edirlər.

Azərbaycan müstəqillik qazandıqdan sonra Norveç ilə diplomatik

münasibətlər yaransa da, qarşılıqlı əlaqələr çox zəif olub hələ uzun müddət mövcud imkanlardan geri qalırdı.

Norveç ilə iqtisadi əməkdaşlığın qurulması iki ölkə arasında siyasi əlaqələrin də inkişaf etməsinə zəmin yaradır. Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının müştərək istismarına söykənən Azərbaycan-Norveç iqtisadi əməkdaşlığı öz növbəsində getdikcə daha geniş və çoxşaxəli xarakter alır. Hələ 1990-cı illərin əvvəlindən Azərbaycan neftinə böyük maraq göstərən Norveçin "Statoyl" Dövlət Neft Şirkətinin 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi"ndə təmsil olunması qarşılıqlı faydalı əməkdaşlığın möhkəm təməlini qoymuşdur. Müqavilənin imzalanması mərasimində iştirak edən Norveçin sənaye və energetika nazirinin birinci müavini Qunnar Murvanq başda olmaqla həmin ölkənin nümayəndə hey'əti Azərbaycan rəhbərliyi ilə bir sıra görüşlər keçirmiş və ikitərəfli əlaqələrin perspektivləri haqqında fikir mübadiləsi aparmışdır. Görüş zamanı Q. Murvanq bildirmişdir ki, "Statoyl" şirkəti ilə yaradılmış əlaqələr iki dövlət arasında münasibətlərin genişlənməsinə və keyfiyyətcə yeni səviyyəyə qalxmasına kömək edəcəkdir". (161)

1994-cü ilin oktyabrında Azərbaycan parlamenti nümayəndə hey'ətinin Norveçə, noyabr ayında isə həmin ölkənin sənaye və energetika *nazirinin birinci müavini* Q.Murvanqın başçılıq etdiyi nümayəndə hey'ətinin Bakıya səfərləri ölkələrimiz arasında siyasi-iqtisadi, elmi və mədəni əlaqələrin inkişafına böyük tə'sir göstərdi. "Statoyl" şirkətinin prezidenti Harold Norvinq, alim-səyyah Tur Heyerdal və digər şəxslərin daxil olduğu nümayəndə hey'ətini qəbul edən Azərbaycan Prezidenti Heydər Əliyev qeyd etdi ki, enerji ehtiyatlarının mənimsənilməsi ilə yanaşı ekologiya, balıqçılıq və gəmiçilik sahəsində də əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. (162) Norveç hökumətinin "Statoyl" şirkətinin fəaliyyətini dəstəkləməsi və ona dayaq durması haqqında Q.Murvanqın söylədiyi fikir həmin ölkənin yüksək səviyyəli rəsmi dairələrinin Azərbaycan ilə sıx əməkdaşlığa maraq göstərmələrini təsdiq edir.

Norveç nümayəndə hey'ətinin Azərbaycan hökuməti ilə apardığı danışıqlardan sonra iki ölkə arasında energetika sahəsində



əməkdaşlıq haqqında memorandum imzalandı. (163) Bununla yanaşı, ölkədə elmi axtarışların strateji orqanı və siyasi araşdırmalar üzrə hökumətin məsləhətçisi funksiyasını yerinə yetirən Norveç Elmi Tədqiqat Şurasının nümayəndələri Azərbaycan EA Rə'yasət Hey'ətinin üzvləri ilə görüşmüş və ətraflı fikir mübadiləsindən sonra elmi sahədə qarşılıqlı anlaşma və əməkdaşlığa dair memorandum imzalamışlar. (164)

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Norveç ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına yeni yollar açır, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək edirdi. *Təsadüfi deyil ki*, 1995-ci il mayın 9-da Moskvada Norveçin baş naziri Harlem Brundtland ilə *görüşən zaman Prezident Heydər Əliyev "Norveç dövlətindən və hökumətindən Azərbaycanın güclü dəstək və yardım gözlədiyini"* vurğulamışdı.(165) Ermənistan- Azərbaycan münaqişəsinin aradan qaldırılmasında Norveçin ATƏT çərçivəsində fəaliyyətini gücləndirməsini xahiş edən Azərbaycan Prezidenti ATƏT-in sülhü mühafizə qüvvələrinin yaradılmasında bu ölkənin silahlı qüvvələrinin də iştirak etməsini arzu etdiyini bildirmişdi. Əlbəttə, iki ölkə arasında *inkişaf etməkdə olan* əməkdaşlıq Azərbaycan tərəfinə üzləşdiyi problemlərin ədalətli həllinə nail olmaqda Norveçin yardımına ümid bəsləməyə əsas verirdi. Digər tərəfdən, Prezident Heydər Əliyevin qəti və aydın mövqeyi, ardıcıl xarici siyasət xətti Azərbaycan həqiqətlərinin getdikcə daha çox anlaşılmasına və dəstək qazanmasına səbəb olurdu.

Azərbaycanın iqtisadi potensialı və respublika daxilində bazar iqtisadiyyatının bərqərar olması istiqamətində həyata keçirilən siyasət Norveç şirkətlərinin geniş iqtisadi əməkdaşlığa olan maraqlarını artırırdı. Belə ki, 1995-ci ilin mayında Bakıya gəlmiş Norveç energetika naziri Yens Stoltenberqin başçılıq etdiyi nümayəndə hey'ətinin tərkibinə "Statoyl" şirkəti ilə yanaşı "Kverner", "Haytek" və "Smedvik" şirkətlərinin rəhbərləri də daxil idilər. (166)

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996-cı il

aprelin 24-dən 26-dək davam edən Norveç səfəri iki ölkə arasında əlaqələrin inkişafına yeni təkan verdi. Prezident Heydər Əliyev Norveç dövlətinin başçısı kral V Herald, baş nazir xanım Qru Harlem Brundtland və ölkə parlamenti-Stortinqin sədri ilə görüşərək, ikitərəfli əlaqələrin inkişafına dair məsələləri müzakirə etmişdir. (167)

Norveçin baş naziri ilə aparılan danışıqlardan sonra iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinə dair Birgə Bəyannamə (168), ikiqat vergiyə cəlbetməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında konvensiya və iki ölkə arasında enerjiyə dair saziş imzalandı. (169)

Baş nazir Qru Harlem Brundtlandın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və Ermənistan-Azərbaycan münaqişəsinin ATƏT çərçivəsində həll olunmasına tərəfdar olduğunu bəyan etməsi Azərbaycan üçün mühüm siyasi əhəmiyyət kəsb edirdi. ATƏT-in sülhməramlı qüvvələri yaradılacağı təqdirdə Norveçin öz qoşun hissələrini onların tərkibinə verməyə hazır olmasını bildirməsi Prezident Heydər Əliyevin sə'ylərinin uğurla nəticələndiyini nümayiş etdirirdi.

Aprelin 25-də Prezident Heydər Əliyev Norveçin Stavanger şəhərində ADNŞ ilə "Statoyl" şirkəti arasında saziş imzalanması mərasimində iştirak etdi. (170) Bu saziş Azərbaycanın neft ehtiyatlarının birgə işlənməsində "Statoyl" ilə əməkdaşlığın imkanlarını daha da genişləndirir.

1996-cı il iyunun 4-də "Şahdəniz" neft yatağının işlənməsi üzrə yeni müqavilə imzalandı. Norveçin "Statoyl" şirkəti bu müqavilədə geniş pay aldı. (171)

1996-cı il sentyabrın 25-də Bakıya növbəti səfərə gəlmiş Norveçin energetika və sənaye naziri Y.Stoltenberq yeni təkliflərlə çıxış etdi. Prezident Heydər Əliyev Norveç nazirinin sement istehsalı, telekommunikasiya, nəqliyyat sahəsindəki təkliflərini yüksək qiymətləndirdi. Görüşdə qeyd edildiyi kimi, Azərbaycanda Norveçin 45 şirkətinin fəaliyyət göstərməsi ikitərəfli əməkdaşlığın normal əsaslar üzərində qurulduğunu və geniş imkanlara malik olduğunu təsdiq edir. (172).



1996-cı ilin noyabrında Böyük Britaniya və Şimali İrlandiya Krallığında Azərbaycan Respublikasının Fövqəl'adə və Səlahiyyətli səfiri M.Məmmədquliyevin eyni zamanda Norveç Krallığında Azərbaycanın səfiri tə'yin edilməsi iki ölkə arasında qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsinə xidmət edən mühüm addım idi. (173)

Beləliklə, Norveçin bir dövlət kimi NATO-nun fəal yaradıcılarından biri olması, Avropa Şurasının bütün işlərində xüsusi rol oynaması, onun qabaqcıl iqtisadi inkişaf səviyyəsi və perspektivləri, müasir, sivilizasiyalı, rəngarəng siyasi idarəetmə sistemi və mədəni həyat tərzi Azərbaycanı, onun uzaqgörən rəhbərliyini 1993-cü ildən başlayaraq Norveçlə fəal iqtisadi, siyasi və mədəni əməkdaşlığa sövq etmiş, 1996-cı ildə isə ardıcıl siyasət nəticəsində bu ölkə ilə normal əməkdaşlıq münasibətləri yaratmaq mümkün olmuşdur. Əlbəttə, bunun üçün Azərbaycan Respublikasının başçısı Heydər Əliyev və respublikamızın diplomatik missiyası düz üç il gərgin və ardıcıl iş aparmış, fəal diplomatik gedişlər etmişlər. Bunu beynəlxalq və regional tədbirlərdə Azərbaycan Respublikası Prezidentinin Norveçin başçıları ilə görüş və danışıqları, iki ölkə diplomatik nümayəndələrinin intensiv işi, Norveçin aparıcı dövlət və özəl şirkətlərinin Azərbaycanın iqtisadiyyatına cəlb edilməsi və s. bir daha sübut edir.

Azərbaycan - Norveç əlaqələrinin yaranması və iki ölkə arasında qarşılıqlı əməkdaşlığın bünövrəsinin qoyulması həm siyasi, iqtisadi, həm də beynəlxalq münasibətlər sahəsində Norveçin potensial imkanlarından respublikamızın qarşılaşdığı problemlərin həlli üçün istifadə etmək imkanı verir. Bağlanmış müqavilələr və yaradılmış münasibətlər ilk növbədə respublikamızın iqtisadiyyatının böhrandan çıxarılmasına, Qərbin qabaqcıl sənayesi ilə inteqrasiya edilməsinə şərait yaradır. Həm Azərbaycan, həm də Norveç çox böyük neft və qaz potensialına malikdirlər. Eyni zamanda, Norveçin bu sahədə çox qabaqcıl texnologiyası və güclü maliyyə-iqtisadi imkanları vardır. Həmin imkanlardan respublikamızın enerji ehtiyatlarının mənimsənilməsində, sənayenin qabaqcıl texnologiya əsasında yenidən qurulmasında və b. sahələrdə istifadə ediləcək. Bundan

başqa, ayrı-ayrı Norveç şirkətləri respublikamızda su elektrik stansiyalarının tikintisində və yenidən qurulmasında yaxından iştirak edəcəklər.

İki ölkə arasındakı münasibətlərin həm də böyük siyasi əhəmiyyəti var. Demokratik dövlət quruculuğu sahəsində böyük uğur qazanmış Norveç Azərbaycan üçün təcrübə məktəbi ola bilər. Norveç bu gün bütün dünyada vətəndaş həmrə'yliyi və siyasi kompromis yolu ilə tərəqqiyə nail olan, sosial ədalət prinsiplərinə söykənən dövlət quruculuğunu nümayiş etdirən, siyasi plüralizm və demokratik dəyərləri ümumxalq mənafeləri ilə uzla şdırmaqda ən təkmil bir dövlət strukturuna malik olan ölkə imici qazanmışdır. Onun təcrübəsi müstəqil və hüquqi dövlət quruculuğu prosesini yaşayan Azərbaycan üçün çox böyük əhəmiyyətə malikdir.

Azərbaycan — Norveç əlaqələrinin ən əhəmiyyətli və zəruri tərəflərindən biri beynəlxalq münasibətlər sahəsində əməkdaşlıqdan ibarət olmalıdır. Avropada və bütövlükdə dünyada böyük nüfuza, strateji məsələlərin həllində xüsusi tə'sir gücünə malik olan Norveçlə əməkdaşlıq və tərəfdaşlıq münasibətləri yaratmaqla Azərbaycan çox mühüm beynəlxalq problemlərin həllinə nail ola bilər. Əvvəla, Norveç təmsil olunduğu bütün beynəlxalq təşkilatlarda, xüsusən NATO-da Azərbaycanla əməkdaşlıq üçün xüsusi şərait yaratmaq və respublikamızın mövqeyinin müdafiəçisi rolunu öz üzərinə götürmək imkanına malikdir. Xüsusən də Azərbaycan — Ermənistan konfliktinin nizamlanmasında, Qarabağ probleminin həllində Azərbaycanın ədalətli mövqeyini müdafiə etmək Norveç üçün heç bir problem yaratmır, əksinə regionda onun həm nüfuzunu, həm də gücünü bir az da artırır. İqtisadi maraqları Zaqafqaziyanın və Azərbaycanın sabitliyi, müharibə vəziyyətindən çıxarılması ilə üst-üstə düşən Norveç Azərbaycanın mövqeyini müdafiə etməklə həm qarşılıqlı təhlükəsizlik haqqında beynəlxalq normaları, həm də öz iqtisadi maraqlarını müdafiə etmiş olur. Əslində Qafqazda və Azərbaycanda vəziyyətin mürəkkəbliyi, Azərbaycanın torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması, bu region ətrafındakı respublikalarda Rusiya hərbi bazalarının gücləndirilməsi və Azərbaycanın müstəqilliyinə qarşı təzyiq vasitəsi



kimi istifadə edilməsi bilavasitə Norveçin respublikamızda təmsil olunan maraqlarına ziddiyyət təşkil edir və iki ölkə arasında müttəfiqlik münasibətlərinin yaranmasını tələb edir.

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" adlanan neft kontraktında Norveçin "Statoyl" şirkətinə aparıcı mövqe verilməsi və bu dövlət ilə aparılan fəal, ardıcıl və məqsədyönlü diplomatik işin strateji əhəmiyyəti və uzaqgörənliyi indi-indi özünü büruzə verməyə başlayır. Tarix Norveçlə münasibətlərin və əlaqələrin incəliklərini öncədən görən və duyan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin diplomatiya və dövlətlərarası münasibətlərin strateji çalarlarını nə qədər dərindən anladığını, necə məharətli diplomat olduğunu bir daha sübuta yetirdi. Məsələ burasındadır ki, Norveç özü 30-40 il əvvəl Azərbaycanın bu gün qarşılaşdığı problemləri yaşamışdır. Xəzər dənizinin statusu ətrafında bu gün cərəyan edən siyasi proseslər hazırda Norveç iqtisadiyyatının "ürəyi" hesab olunan Şimal dənizi ətrafında hələ 60-cı illərdə baş verirdi. Norveçin bütün beynəlxalq təşkilatlarda qaldırdığı Şimal dənizinin sektor bölgüsünün beynəlxalq aləmdə tanınması məsələsi o zaman BMT-nin müvafiq qətnaməsinin qəbul edilməsi ilə nəticələnmişdir. Norveçin Şimal dənizinin sektor bölgüsü ilə bağlı o zamankı tələbləri və nail olduğu BMT qətnaməsi Azərbaycanın Xəzərlə əlaqədar bugünkü mövqeyi ilə tam üst-üstə düşür. Bir sıra məsələlərdə iki ölkənin mövqe birliyi ilə yanaşı Xəzərin statusuna dair Azərbaycanın mövqeyinin Norveçin iqtisadi maraqları ilə uzlaşdırılması bu ölkəni respublikamızın beynəlxalq mənafelərini qorumaqda əslində həm maraqlı tərəfə çevirir, həm də buna bilavasitə sövq edir. Digər tərəfdən, Azərbaycanın neft ehtiyatlarının mənimsənilməsinə külli miqdarda kapital qoyan Norveç müqavilənin tezliklə bəhrə verməsində, bu prosesə mane olan məsələlərin aradan qaldırılmasında hamıdan çox maraqlıdır. Beləliklə, istər Azərbaycanın müstəqillik və təhlükəsizlik maraqlarının qorunmasın da, istərsə də neft kəmərlərinin və neftin ixracı ilə bağlı başqa mübahisəli məsələlərin tezliklə, təhlükəsiz və maneəsiz həll edilməsində Norveç Azərbaycanın özü qədər marağı olan tərəfdaşa çevrilir .

Bundan başqa, həm Qafqazda, həm də bütövlükdə MDB çərçivəsində hadisələrin axarı, regional münasibətlərin qurulması və inkişafı Azərbaycanın maraqlarını qorumaq mövqeyindən Norveçi bu məkanda baş verən hadisələrə fəal müdaxilə etməyə məcbur edir. Azərbaycan MDB ölkələri arasında ən müstəqil siyasət yeridən, Rusiyanın ümumi təhlükəsizlik sisteminə qoşulmayan, qonşu dövlətlərlə, o cümlədən MDB qurumu ilə münasibətlərini müstəqil dövlətçilik , qarşılıqlı mənafe və mehriban qonşuluq prinsipləri əsasında qurmağa çalışan bir dövlət kimi Norveçi daha çox özünə cəlb edir. Çünki Norveçin iqtisadi və siyasi maraqları yarımmüstəqil, kimdənsə asılı Azərbaycanda deyil, müstəqil, öz sərvətlərinin sahibi olan və maraqlarını azad ifadə etmək imkanına malik Azərbaycanda təmsil olunur. Ona görə də, Norveç həm Avropada və beynəlxalq aləmdə, həm də Rusiya ilə münasibətlərdə Azərbaycanın müstəqillik maraqlarını müdafiə edəcək dövlətlərdən biri rolunu oynamalıdır. Bütün bunlar göstərir ki, Azərbaycan- Norveç əlaqələrinin yaranması və müttəfiqlik münasibətləri istiqamətində inkişaf etdirilməsi respublika Prezidenti Heydər Əliyevin düşünülmüş, uzaqgörən və zərgər dəqiqliyi ilə qurulmuş xarici siyasətinin nəticəsidir.

Beləliklə, 1993-1996-cı illərdə atılmış konkret diplomatik addımlar və həyata keçirilmiş əməli tədbirlər hər iki ölkənin mənafeyinə cavab verən, iqtisadi-siyasi əlaqələrin inkişafı üçün geniş perspektivlər açan, respublikamızın Avropada mövqelərinin möhkəmlənməsinə xidmət edən Azərbaycan-Norveç münasibətlərinin qurulması və inkişafında mühüm bir mərhələ olmuşdur.



## §2 Azərbaycan və Şərqi Avropa dövlətləri

Sosializm düşərgəsinin süqutu uğraması beynəlxalq aləmdə, o cümlədən Avropada siyasi mənzərənin kəskin şəkildə dəyişməsinə səbəb oldu. Yeni siyasi-iqtisadi durumun müəyyənləşməsində Şərqi Avropa ölkələrinin mövqeyi və fəal xarici siyasəti əsas amillərdən biri kimi ön plana çıxdı. Avropa qitəsinin başqa ölkələrindən fərqli olaraq, sosializm düşərgəsinə daxil olan bu dövlətlərlə Azərbaycan hələ SSRİ tərkibində olarkən müəyyən iqtisadi və mədəni əlaqələrə malik idi. XX əsrin sonunda SSRİ-nin dağılması, onun tərkibinə daxil olan respublikaların müstəqillik qazanması və eyni zamanda, Şərqi Avropa dövlətlərinin sosializm düşərgəsini tərk edərək Qərbə üz tutmaları, bu ölkələrlə əlaqələri daha da aktuallaşdırmış və müstəqil dövlət quruculuğu yolu tutmuş Azərbaycan üçün həyati zərurətə çevirmişdir. Bu gün Şərqi Avropanın Polşa, Macarıstan, Çexiya, Slovakiya, Bolqarıstan, Rumıniya kimi dövlətlərinin iqtisadi, siyasi və sosial-mədəni həyatının bütün sahələrində dünyanın inkişaf etmiş ölkələrinin əldə etdiyi qabaqcıl nailiyyətlərə əsaslanan dəyişikliklər baş verməkdədir. Bu dövlətlər regional, dövlətlərarası və beynəlxalq münasibətlər sahəsində özlərinin xarici siyasət prioritetlərini müəyyən edərək, planetin sivilizasiyalı birgəyaşayış müstəvisində özünəməxsus layiqli yerlərini tuturlar.

Şərqi Avropa Azərbaycanın Transqafqaz nəqliyyat kommunikasiya sistemi vasitəsilə Qərbi Avropaya çıxışını tə'min etmək sahəsində əsas rol oynayan əhəmiyyətli geosiyasi məkandır. Təbii coğrafi mövqeyinə, zəngin təbii ehtiyatlarına, geosiyasi əhəmiyyətinə və b. cəhətlərinə görə bu regionda yerləşən dövlətlər həmişə dünya siyasətinin mərkəzində dayanmış və bu gün də dayanmaqdadır. Hazırda bu dövlətlər dünyada və Avropada mövcud olan bütün

nüfuzlu beynəlxalq və regional qurumlarla sıx əlaqələr yaratmış və bir sıra təşkilatlara üzv qəbul edilmişlər. SSRİ dağıldıqdan və sosializm düşərgəsini tərk etdikdən sonra bu dövlətlərin mövqeyi və rolu həm Avropada, həm də dünyada əhəmiyyətli dərəcədə yüksəlmiş, regionun siyasi, iqtisadi, dövlətlərarası və regional təhlükəsizlik sistemində mühüm tə'sir gücünə malik olmuşdur.

1990-cı ildən başlayaraq Şərqi Avropa dövlətləri aktiv şəkildə dünya birliyinə inteqrasiya olunurlar. Xüsusən sosializm düşərgəsi dağıldıqdan sonra bu dövlətlər dərhal Avropanın siyasi, iqtisadi, hərbi və təhlükəsizlik sistemlərinə qoşulmaq və inteqrasiya olunmaq, dövlət həyatının bütün sahələrində qabaqcıl Qərb dövlətlərinin təcrübəsinə uyğun dəyişikliklər etmək yolu tutmuş və bu sahədə ABŞ və onun NATO üzrə Avropa müttəfiqlərinin dəstəyinə nail olmuşlar.

Sosialist düşərgəsinin süqutu ilə Şərqi Avropa dövlətləri sosializm dəyərlərindən imtina etmiş, özlərinin yeni strateji inkişaf istiqamətlərini müəyyənləşdirmiş və bunu qəbul etdikləri yeni Konstitusiyalarında bir daha möhkəmləndirmişlər. Əksər ölkələrdə keçən qısa dövr yeni dövlət quruculuğu məsələlərinin həlli ilə xarakterizə olunmuş, hüquqi, demokratik dövlət quruculuğu, yeni iqtisadi və siyasi münasibətlərə keçid, iqtisadi islahatlar, özəlləşdirmə və siyasi plüralizm onların daxili siyasətində aparıcı yer tutmuşdur.

Yaxın keçmişdə sosializm sisteminə və SSRİ məkanına daxil olmuş bir sıra respublikalar kimi Şərqi Avropa dövlətlərinin bə'ziləri də kəskin milli münaqişə və separatizm meyllərindən qaça bilməmişlər. Xüsusən bu proses milli tərkibinə görə çox mürəkkəb və rəngarəng olan böyük millətçilik şovinizminin dərin kök saldığı Yuqoslaviyada daha qabarıq, Çexoslovakiya, Bolqarıstan, Macarıstan və b. dövlətlərdə bir az zəif şəkildə özünü büruzə vermişdir. Əgər Çexoslavakiya, Macarıstan və Bolqarıstanda bu prosesləri sülh yolu ilə və sivilizasiyalı metod və vasitələr lə tənzimləmək mümkün olmuşdursa, Yuqoslaviyada qanlı toqquşmalardan və üzücü müharibələrdən yan keçmək mümkün olmamışdır. Millətlərarası həmrə'yliyi və siyasi sabitliyi qoruya bilən ölkələrdə ictimai-siyasi,



iqtisadi islahatlar, dünya birliyinə inteqrasiya olunmaq və b. proseslər daha sür'ətlə getmiş və mühüm nəticələr əldə edilmişdir. Bu ölkələr sırasına Polşa, Rumıniya, Macarıstan, Çexiya və b. aid etmək olar.

Bu gün keçmiş Yuqoslaviyaya daxil olan dövlətlər istisna olmaqla, qalan əksər Şərqi Avropa dövlətlərində iqtisadi və siyasi islahatlar müvəffəqiyyətlə başa çatdırılmış, dünya birliyinə inteqrasiya olmaq sahəsində çox böyük işlər görülmüşdür.

Azərbaycanın Şərqi Avropa dövlətləri ilə dostluq və əməkdaşlıq münasibətlərini zəruri edən əsas amillərdən biri qarşılıqlı-faydalı iqtisadi münasibətlərin qurulmasına tələbat hesab oluna bilər. Keçmişdə SSRİ də daxil olmaqla sosializm düşərgəsinin üzvü olan bu ölkələrin ümumi bir iqtisadi sistem çərçivəsində yerləşməsi onların hər birində oxşar iqtisadiyyatın təşəkkül tapmasına və sıx inteqrasiya edilməsinə səbəb olmuşdur. Azərbaycan da SSRİ-nin bir respublikası kimi həmin iqtisadi sistem daxilində bu dövlətlərlə sıx inteqrasiya olunmuş və bu gün də onun tə'sirindən tam xilas ola bilməmişdir. Xüsusən neft istehsalı və e'malı sənayesi, neft kimyası və maşınqayırma, dağ-mə'dən və metallurgiya sənayesi, nəqliyyat-kommunikasiya avadanlığı, kənd təsərrüfatı maşınları və aqrar-sənaye e'malı sahəsində Azərbaycan bu ölkələrin hər biri ilə sıx iqtisadi-ticarət əlaqələrinə malik olmuşdur. Bu əlaqələrin pozulması hər bir ölkənin, o cümlədən Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurmuşdur. Hazırda bu dövlətlərlə yeni iqtisadi əlaqələrin qurulmasının zəruriliyi və sənaye müəssisələrinin qarşılıqlı ehtiyacı dövlətlərarası ikitərəfli və çoxtərəfli münasibətlərin yaradılmasını və inkişafını tələb edir.

Azərbaycanın Şərqi Avropa dövlətləri ilə səmərəli münasibətlər yaratmasını zəruri edən digər amil xarici siyasət sahəsində bu dövlətlərlə üst-üstə düşən strateji mənafe birliyi və beynəlxalq durumlarındakı oxşar vəziyyət hesab oluna bilər. Əgər bu gün Azərbaycan sülh şəraitində yaşayan, xalqları və dövlətləri arasında qarşılıqlı faydalı əməkdaşlıq və dostluq münasibətləri olan inkişaf etmiş Şərqi Avropa ölkələrinə maraq göstərirsə, Şərqi Avropa dövlətləri də eyni xüsusiyyətlərin Qafqazda bərqərar olmasında maraqlıdırlar. Ona görə də həm Şərqi Avropa dövlətləri, həm də

Azərbaycan bütün beynəlxalq təşkilatlarda, birgə təmsil olunduqları ATƏT, Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Şurası və b. qurumlarda bir-birinə qətiyyən ziddiyyət təşkil etməyən, əksinə bir-birini tamamlayan və gücləndirən xarici siyasət yeridir, regional və beynəlxalq münasibətlərdə oxşar mövqe nümayiş etdirirlər. Bunu birgə təmsil olunduqları bütün regional və beynəlxalq tədbirlərdə Şərqi Avropa dövlətlərinin və Azərbaycanın tutduğu mövqedən aydın müşahidə etmək olur. Şərqi Avropa dövlətlərinin başçıları da bütün bu tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti kimi beynəlxalq və regional təşkilatların imkanlarından, ikitərəfli və çoxtərəfli əlaqələrdən öz ölkələrinin dövlət mənafelərinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün qorunması, xalqlarının rifah halının yaxşılaşdırılması və iqtisadi inkişafının tə'min olunması üçün maksimum istifadə etməyə çalışırlar.

Azərbaycanın Şərqi Avropa dövlətləri ilə yaxınlaşmasını və səmərəli münasibətlərə malik olmasını zəruri edən əsas amillərdən biri də bu ölkələrin vahid nəqliyyat-kommunikasiya problemi ilə üzləşmələrindən ibarətdir. Mə'lum olduğu kimi bütün Şərqi Avropa dövlətləri Asiya ölkələri ilə xarici-iqtisadi və kommunikasiya əlaqələrini bir qayda olaraq SSRİ (hazırda Rusiya) vasitəsilə həyata keçirirdilər. Azərbaycan da özünün Avropa ilə nəqliyyat-n kommunikasiya əlaqələrində eyni məkandan istifadə edirdi. Rusiya həmin xidmət müqabilində həm bu ölkələri istədiyi maliyyə-tarif ödənişini qəbul etməyə məcbur edir, həm də istədiyi anda yolları bağlayaraq onları çətin nəqliyyat-kommunikasiya problemi qarşısında qoyur, bu imkandan siyasi təzyiq vasitəsi kimi istifadə edir. Eyni problemlərlə Azərbaycan kimi bu ölkələr də dəfələrlə rastlaşmış və Rusiyanın təzyiqlərini dəf etmək zərurəti qarşısında qalmışlar. Rusiyanın iqtisadi amillərdən daha çox siyasi təzyiq və tə'sir vasitəsi kimi istifadə etdiyi alternativsiz nəqliyyat dəhlizindən xilas olmaq cəhdləri, nəqliyyat-kommunikasiya problemləri oxşar olan və bir-biri ilə bərabərhüquqlu, eyni səviyyəli və qarşılıqlı maraqları nəzərə alan alternativ nəqliyyat- kommunikasiya əlaqələri yaratmaq istəyi son illər Şərqi Avropanın, Qafqaz və Asiyanın bir neçə dövlətini obyektiv şəkildə yaxınlaşmaq zərurəti qarşısında qoymuşdur. Mərkəzi və Orta



Asiya dövlətlərinin, Azərbaycan və Gürcüstanın Qərbə, Avropa dövlətlərinin isə Mərkəzi və Orta Asiyaya çıxış üçün əlverişli və e'tibarlı nəqliyyat dəhlizinə olan ehtiyacı bu dövlətləri Transqafqaz ideyası ətrafında birləşməyə sövq etmişdir.

Azərbaycanın Şərqi Avropa dövlətləri ilə əlaqələrini zəruri edən əsas amillərdən biri də bu dövlətlərin oxşar daxili problemləri həll etmələri ilə bağlıdır. Ümumiyyətlə, keçmişdə sosializm quruluşuna mənsub olan Şərqi Avropa dövlətlərinin bir çoxunda 1980-ci illərin sonu-1990-cı illərin əvvəlində həyata keçirilən daxili siyasət və iqtisadi islahatlar özünün bir çox xüsusiyyətləri və prinsipləri ilə 90-cı illərdə Azərbaycanda görülən işlərlə çox oxşardır. Əsas strateji xətti demokratik, hüquqi dövlət quruculuğu, bazar iqtisadiyyatı mexanizmlərinə əsaslanan yeni iqtisadi münasibətlərə keçid olan Polşa, Macarıstan, Rumıniya, Bolqarıstan, Çexiya, Slovakiya və b. Şərqi Avropa dövlətlərinin həyata keçirdiyi islahatların əsas prinsipləri və taktiki gedişləri Azərbaycan üçün həm nümunə, həm də təcrübə rolunu oynayır. Bu ölkələrdə yeridilən daxili siyasət və islahatlar prosesində nəzərə alınan və rəhbər tutulan əsas amil və prinsiplər bu və ya digər şəkildə Azərbaycanda da öz əksini tapır. Bu da, fikrimizcə, həm bu dövlətlərin keçmişdə mövcud olduqları iqtisadi məkanın, inkişaf yönümlərinin və me'yarlarının, həm də bu gün tutduqları strateji inkişaf istiqamətlərinin və meyllərinin oxşarlığı və yaxınlığının nəticəsidir.

Yuxarıda göstərilən amillər və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qətiyyətli və ardıcıl siyasətinin doğurduğu inam və rəğbət son illərdə Şərqi Avropa dövlətlərinin Azərbaycana artan marağını və ölkələrimiz arasında xoş münasibətlər yaradılmasını şərtləndirmişdir.

Şərqi Avropa dövlətləri ilə bütün sahələrdə ikitərəfli və çoxtərəfli iqtisadi, siyasi və mədəni əlaqələr yaratmaq, qarşılıqlı faydalı və strateji münasibətlərə malik olmaq müstəqillik yolu tutmuş Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb edir. Lakin 1991-1993-cü illərdə bu dövlətlərlə qarşılıqlı münasibətlərin yaradılmasına və beynəlxalq hüquq normalarına uyğun surətdə inkişaf etdirilməsinə Azərbaycanda lazımi əhəmiyyət verilməmiş,

ölkələrimiz arasında keçmiş dövrlərdə formalaşmış əlaqələrin yeni prinsiplər əsasında bərpasına heç bir sə'y göstərilməmişdir.

Şərqi Avropa dövlətləri ilə münasibətlərin, ikitərəfli və çoxtərəfli əməkdaşlığın əhəmiyyəti və gələcək perspektivləri Azərbaycanda ilk dəfə 1993-cü ilin yayında baş verən ictimai-siyasi dəyişikliklərdən sonra dərk edilmiş və respublikamızın xarici siyasət kursuna xüsusi bir istiqamət kimi daxil edilmişdir. Polşa, Bolqarıstan, Macarıstan, Rumıniya, Çexiya, Slovakiya və b. Şərqi Avropa dövlətləri kimi mühüm geostrateji, iqtisadi, siyasi və mədəni əhəmiyyət kəsb edən ölkələrlə əməkdaşlığın perspektivlərini, onlarla əlaqələrin Azərbaycan dövlətinin mənafelərinə uyğun gəldiyini obyektiv qiymətləndirən Azərbaycan Prezidenti Heydər Əliyev son dövrdə bütün beynəlxalq və regional tədbirlərdə, görüş və forumlarda onların mövqelərini, yeritdikləri siyasəti diqqət mərkəzində saxlamış, qarşılıqlı münasibətlərin yaradılması üçün əməli addımlar atmışdır. Əksər Şərqi Avropa dövlətlərinin öz ölkələrinin strateji maraqlarını tə'min etmək, xalqlarını və dövlətlərini beynəlxalq hüquq normaları ilə tənzimlənən böyük dünya sivilizasiyasına qovuşdurmaq uğrunda apardıqları aydın, ardıcıl və prinsipial xarici siyasət xətti və bu siyasətin Azərbaycanın strateji maraqlarına tam uyğun gəlməsi son dörd ildə respublikamızın bu dövlətlərlə yaxınlaşmasını və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinə can atmasını şərtləndirən əsas amil olmuşdur.

Azərbaycanın Şərqi Avropa dövlətləri ilə əlaqələri bir neçə formada həyata keçirilir. Bu formalardan birincisi və ən əsası ikitərəfli qarşılıqlı münasibətlərin yaradılması, rəsmi dövlətlərarası müqavilələrin imzalanması və bu müqavilələrdən irəli gələn vəzifələrin həyata keçirilməsi hesab olunur.

Şərqi Avropa dövlətləri ilə əlaqələrin digər forması həm onların, həm də Azərbaycanın üzv olduqları BMT, ATƏT, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində yaradılmış münasibətlərdən ibarətdir. Əksər hallarda bu qurumlardakı çoxtərəfli əlaqələrlə yanaşı, Azərbaycan rəhbərliyi ikitərəfli əlaqələrin, xüsusən dövlətçilik mənafeləri və maraqları ölkəmizin ali mənafeləri ilə uyğun gələn dövlətlərlə tərəfdaşlıq münasibətlərinin



yaradılmasına xüsusi diqqət verir.

Azərbaycanın bəhs edilən dövlətlərlə əlaqələrinin digər forması bu dövlətlərin hər birinin ortaq marağını ifadə edən Avropa Şurası, Avropa Birliyi, NATO və b. beynəlxalq qurumların müxtəlif proqramları çərçivəsində yaradılmış ikitərəfli və çoxtərəfli münasibətlərdən ibarətdir.

Azərbaycanın bu gün Şərqi Avropa dövlətlərindən Bolqarıstan, Rumıniya və Polşa ilə rəsmi hüquqi-normativ bazaya malik ikitərəfli dövlətlərarası münasibətləri mövcuddur. Macarıstan, Çexiya, Slovakiya, Yuqoslaviya və digər dövlətlərlə rəsmi diplomatik münasibətlər yaradılsa da, ikitərəfli əməkdaşlıq, hələlik, bir qayda olaraq əsasən beynəlxalq qurumlar çərçivəsindəki əlaqələrdən ibarətdir. Polşa ilə münasibətlərin geniş hüquqi-normativ əsasları isə 1997-ci ildə yaradıldığından işıqlandırılan mövzunun xronoloji çərçivəsindən kənara çıxır və bu səbəbdən tədqiqat obyektinə çevrilməyib. Ona görə də bu fəsildə əsas diqqət Bolqarıstan və Rumıniya ilə əlaqələrin araşdırılmasına yönəldilmişdir.

## a) Bolqarıstan ilə münasibətlər

Azərbaycanın sıx əlaqələr yaratdığı Şərqi Avropa dövlətlərindən biri Bolqarıstan Respublikasıdır. Balkan yarımadasının cənub-şərq hissəsində və Qara dəniz hövzəsində yerləşən bu dövlətin ərazisi 110,9 min kv. km., əhalisi isə doqquz milyon nəfərə yaxındır. Ölkə əhalisinin əsas hissəsini təşkil edən bolqarlarla bərabər orada yaşayan türklər, yunanlar, qaraçılar, ruslar, ermənilər və digər milli azlıqlar bu günə qədər öz mədəniyyətlərini, dillərini və digər milli-etnik əlamətlərini qoruyub saxlaya bilmişlər. Ərazi-inzibati quruluşu səkkiz vilayət vahidi daxilində idarə olunan icmalardan (obşina) ibarətdir. Əsas sənaye obyektləri Sofiya, Plovdiv, Varna, Burqas və digər iri şəhərlərdə cəmlənmişdir. (174) Sosializm düşərgəsini tərk edəndən sonra Bolqarıstan Şərqi Avropa dövlətləri sırasında öz yeni Konsitusiyasını qəbul edən və demokratik inkişaf yolu seçən ilk ölkələrdəndir. 1991-ci ildə qəbul edilmiş yeni Konstitusiyaya görə Bolqarıstan parlament idarə üsuluna əsaslanan respublikadır.Ali qanunverici orqan daimi fəaliyyət göstərən birpalatalı Xalq Məclisidir. Dövlətin başçısı prezident, ali dövlət icra orqanı isə Nazirlər Şurasıdır. (175) Bolqarıstanın siyasi həyatı keçmişdə sosializm düşərgəsinə daxil olan digər Şərqi Avropa dövlətlərində olduğu kimi özünün rəngarəngliyi və çoxsaylı partiyaları ilə seçilir. Bu ölkədə 80-ə yaxın partiya və siyasi hərəkat fəaliyyət göstərir. Ölkənin siyasi həyatında aparıcı mövqe 1989-cu ildən o zamankı sosialist rejiminə müxalif olan partiya və ictimai təşkilatları birləşdirən "Demokratik qüvvələr ittifaqı"na mənsubdur. İttifaqa daxil olan ən böyük partiyalar-Demokrat Partiyası, Radikal Demokrat Partiyası, Birləşmiş Demokratik Mərkəz, Respublika Partiyası, Bolqarıstan Sosialist Partiyası və s. öz çoxsaylı tərəfdarları ilə daim



ölkənin siyasi həyatında fəal iştirak edirlər. (176) Bolqarıstanın demokratiyaya, bazar iqtisadiyyatına keçmək, Avropanın siyasi və iqtisadi strukturlarına inteqrasiya olunmaq sahəsində yeni kursu 1991-ci ildən Demokratik Qüvvələr İttifaqının hakimiyyətə gəlişi ilə başlamışdır. Yeni hakimiyyət həmin ildən başlayaraq dünyanın qabaqcıl, inkişaf etmiş dövlətləri, beynəlxalq və regional təşkilatları ilə inteqrasiyaya girmək üçün ikitərəfli və çoxtərəfli müqavilə bazalarının möhkəmləndirilməsi, səmərəli əməkdaşlığın genişləndirilməsi və s. sahələrdə mühüm addımlar atmış və əhəmiyyətli nəticələrə nail olmuşdur. Hazırda Bolqarıstan Avropanın və dünyanın aparıcı regional və beynəlxalq qurumlarının fəal üzvüdür. Bolqarıstan iqtisadi cəhətdən həmişə öz qonşuları olan Avropa dövlətləri və keçmiş SSRİ respublikaları üçün açıq və cəlbedici dövlət hesab olunmuşdur. İstər keçmişdə, istərsə bu gün Bolqarıstan öz milli gəlirinin xeyli hissəsini xarici ticarət hesabına formalaşdırır. Ölkə iqtisadiyyatı maşınqayırma məhsullarının, müxtəlif kübrələrin, dərman, tütün və digər yeyinti-yüngül sənaye məhsullarının ixracı, enerji daşıyıcıları, metallurgiya və kimya sənayesi üçün xammal idxalı üzrə ixtisaslaşmışdır. Şərqi Avropa ölkələri içərisində Bolqarıstan turizmdən əldə etdiyi gəlirə görə də öncül mövqeyə malikdir. Bolqarıstanın güclü elmi və mədəni potensialı, qabaqcıl elm, təhsil və mədəniyyət mərkəzləri vardır. Azərbaycan-Bolqarıstan əlaqələri, iki dövlət arasında iqtisadi və mədəni əməkdaşlıq sovet hakimiyyəti illərində, xüsusən 70-80-ci illərdə mövcud olsa da, bu əlaqələr keçmiş SSRİ-nin dost sosialist ölkələri ilə münasibətləri çərçivəsindən kənara çıxmamışdır. İki ölkə arasındakı müstəqil dövlətlərarası münasibətlərin tarixi nisbətən gec-Azərbaycanın müstəqillik əldə etməsindən və sosialist düşərgəsinin iflası ilə Bolqarıstanın siyasi-ideoloji buxovlardan azad olmasından sonra başlanmışdır. Bolqarıstan Azərbaycanın müstəqilliyini 1992-ci ildən tanımış və hər iki ölkə arasında rəsmi diplomatik əlaqələr yaradılmışdır.(177) 1993-cü ilin payızına qədər iki ölkə arasında münasibətlərin inkişafı üçün demək olar ki, heç bir əməli addım atılmamışdır. 1993-cü ilin iyun ayından sonra respublikamıza maraq göstərən Bolqarıstan hökumət nümayəndələrinin həmin ilin

sentyabr ayında Azərbaycana səfəri zamanı iki ölkə arasında əlaqələrin tənzimlənməsi istiqamətində ilk sə'y göstərilmişdir. Sentyabrın 16-da Bolqarıstan Nazirlər Soveti sədrinin müavini, iqtisadiyyat və sənaye naziri Raço Petrovun başçılıq etdiyi nümayəndə hey'əti Azərbaycana gəlmiş və respublika rəhbərliyi ilə iki ölkə arasındakı münasibətlərin yaradılması ilə bağlı müzakirələr keçirmişdir. Həmin gün Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev nümayəndə hey'ətini qəbul etmiş və Azərbaycan-Bolqarıstan münasibətlərinin qurulması yollarını və gələcək perspektivlərini geniş müzakirə etmişdir. Tərəflər iki ölkə arasında iqtisadi və mədəni əlaqələr yaratmağın zəruriliyini vurğulamaqla bu əlaqələrin hər iki ölkəyə gətirə biləcəyi faydanı xüsusi qeyd etmişlər. (178)

Azərbaycan-Bolqarıstan münasibətlərinin yaranması və inkişafı ilə bağlı məsələlər 1994-cü il dekabrın 6-da iki ölkə başçılarının Budapeştdə keçirilən görüşündə də geniş müzakirə olunmuşdur. Həmin gün ATƏT-in zirvə görüşündə iştirak etmək üçün Budapeştə gələn Azərbaycan Prezidenti Heydər Əliyev və Bolqarıstan Prezidenti Jelyu Jelev iki ölkə arasında əlaqələrin yaradılması və inkişafının aktual məsələlərini hərtərəfli müzakirə etmişlər. Bundan başqa, ölkə rəhbərləri iki ölkə arasında iqtisadi, siyasi və mədəni əlaqələrin daha da genişlənməsi üçün nəzərdə tutulan qarşılıqlı-faydalı əməkdaşlığın həyata keçirilməsinin yollarını, metod və vasitələrini, əsas istiqamətlərini araşdırmış və bütün bu əlaqələrin çox geniş perspektivləri barədə yekdil fikirdə olduqlarını bildirmişlər. (179) Azərbaycan və Bolqarıstan prezidentlərinin növbəti görüşü 1995-ci il martın 11-də Kopenhagendə olmuşdur. Həmin gün Kopenhagendə keçirilən "Sosial inkişaf naminə" ümumdünya konfransında iştirak edən Heydər Əliyev və Jelyu Jelev təkbətək görüşmüş və Azərbaycan Prezidentinin Bolqarıstana planlaşdırılan rəsmi səfəri ilə bağlı bir çox məsələləri müzakirə etmişlər. Prezidentlər səfər zamanı imzalanacaq sazişlərin layihələri ilə bağlı fikir mübadiləsi etmiş, iki ölkə arasında nəzərdə tutulan qarşılıqlı faydalı əlaqələrin həyata keçirilməsi məsələləri ilə bağlı öz yekdil fikirlərini bildirmişlər. (180) 1995-ci ilin may ayında Parisdə Azərbaycan Prezidenti Heydər



Əliyev və Bolqarıstan Prezidenti Jelyu Jelev arasında keçirilmiş görüş iki ölkə arasında əlaqələrin qurulması və rəsmi dövlətlərarası münasibətlərin yaranması sahəsində əhəmiyyətli hadisə olmuşdur. *İkinci dünya müharibəsində* faşizm üzərində qələbənin 50 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmək məqsədilə Parisə gəlmiş dövlət başçıları imkan tapıb görüşmüş və Azərbaycan-Bolqarıstan dövlətlərarası münasibətlərin mövcud vəziyyətini müzakirə etmişlər. Bolqarıstan Prezidenti bundan əvvəl Azərbaycanın dövlət başçısı ilə Budapeştdə, Davosda, Kopenhagendə keçirdiyi görüşlərdən razı *qaldığını. Heydər Əliyevin* Bolqarıstana nəzərdə tutulan rəsmi səfərinin baş tutmadığından təəssüfləndiyini bildirmiş və Azərbaycan rəhbərinin öz ölkəsində səbirsizliklə gözlənildiyini bir daha təsdiqləmişdir.

Azərbaycan Respublikasının Prezidenti öz növbəsində Bolqarıstana bundan əvvəl nəzərdə tutulan səfərə gələ bilmədiyindən təəssüfləndiyini qeyd edərək, iki ölkə arasında əlaqələrin gələcək inkişafı baxımından bu səfərin oynayacağı roldan, bağlanacaq dostluq və əməkdaşlıq haqqında müqavilənin əhəmiyyətindən bəhs etmiş və belə səfərin yaxın zamanlarda baş tutacağına əmin olduğunu bildirmişdir.(181)

*Azərbaycan-Bolqarıstan* dövlətlərarası ikitərəfli əlaqələrin qurulması və inkişafı sahəsində ən mühüm addım 1995-ci il iyunun 29-da Azərbaycan Prezidenti Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə hey'ətinin bu ölkəyə rəsmi səfəri zamanı atılmışdır. Həmin gün Heydər Əliyevlə görüşən Bolqarıstan Prezidenti Jelyu Jelev bildirdi ki, onun ölkəsi yeni müstəqillik qazanmış Azərbaycan ilə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməyə xüsusi maraq göstərir. O, qeyd etdi ki, Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin möhkəmləndirilməsi üçün istər iqtisadi-ticarət, istərsə də mədəniyyət və digər sahələrdə mövcud olan geniş imkanlardan hərtərəfli istifadə olunmalıdır. Bolqarıstan Prezidenti bir sıra sahələrdə birgə müəssisələr yaratmağın böyük əhəmiyyətə malik olduğunu söyləmiş və bə'zi konkret təkliflər irəli sürmüşdür. O, Bolqarıstanda istehsal olunan "Çovdar" markalı avtobusların Azərbaycanda yığılmasının təşkil edilməsini iki ölkə

arasında əməkdaşlığın inkişaf yollarından biri kimi qeyd etdi. Jelyu Jelev Azərbaycan neftinin ixracı üçün çəkiləcək kəmərin Bolqarıstandan keçərək Adriatik dənizinə çıxması mövzusu ətrafında da Bolqarıstanın danışıqlar aparmağa hazır olduğunu bildirdi. (182)

Görüşdə Azərbaycan Prezidenti keçmişdə, Sovet hakimiyyəti illərində Bolqarıstanla mövcud olan iqtisadi, siyasi, mədəni əlaqələrdən bəhs edərək, bu gün iki ölkə arasında yeni şəraitə uyğun, yeni əsaslarla və yeni istiqamətdə bu münasibətləri qurmağın zəruriliyini bildirdi. Azərbaycanın ikitərəfli əlaqələri hər iki ölkənin mənafelərinə cavab verən, bərabərhüquqlu tərəfdaşlıq zəminində qurmağa hazır olduğunu bəyan edən Heydər Əliyev, Qara Dəniz Hövzəsi Ölkələrinin İqtisadi Əməkdaşlıq Təşkilatına daxil olan dövlətlər, o cümlədən Azərbaycanla Bolqarıstan arasında bütün sahələrdə əlaqələrin müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilməsi üçün yeni nəqliyyat və kommunikasiya xəttinin yaradılmasının vacibliyini xüsusi qeyd etdi. (183) Görüşdə hər iki tərəfi maraqlandıran bir sıra mühüm məsələlər haqqında geniş fikir mübadiləsi aparıldı. Xüsusən Qafqaz regionunda və Azərbaycanda baş verən ictimai-siyasi və iqtisadi proseslər, region dövlətləri arasında münasibətlər, Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü və s. məsələlər dövlət başçılarının geniş fikir mübadiləsinin əsas mövzularını təşkil etmişdir. Səfər zamanı bütün məsələlər üzrə dövlət başçılarının fikir ortaqlığı müəyyən olunmuş və bu əsasda da iki ölkə arasında dostluq və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri haqqında bir sıra mühüm sənədlər imzalanmışdır. (184) Xüsusən iki ölkə arasında dövlət və hökumət başçıları tərəfindən imzalanmış "Dostluq münasibətləri və əməkdaşlıq barədə müqavilə", "Ticarət-iqtisadi və elmi-texniki yardım haqqında saziş", hava əlaqələri, hüquqi yardım və b. sahədə müqavilə və sazişlər böyük siyasi, iqtisadi və mədəni əhəmiyyət kəsb edir. (185) İyunun 29-da Azərbaycan Prezidenti Heydər Əliyev Bolqarıstan Xalq Məclisinin sədri Blaqovest Sendovla görüşmüş, iki ölkə arasında qanunvericilik və parlament fəaliyyəti sahəsində əməkdaşlığın bir çox tərəflərini müzakirə etmişdir. Hər iki tərəf ölkələrimiz arasında parlament əlaqələrinin genişlənməsi zərurətini xüsusi vurğulamış və müvafiq



razılığa gəlmişlər. (186) Azərbaycan Prezidenti Bolqarıstan parlamentində çıxış edərək, iki ölkə arasında əlaqələrin "keyfiyyətcə yeni səviyyəyə" qaldırılmasının əhəmiyyətini qeyd etmişdir (187). Sofiyada Azərbaycan Prezidenti Bolqarıstan respublikasının baş naziri Jan Videnov ilə də görüşmüşdür. Görüşdə iqtisadi əməkdaşlığın bir çox konkret tərəfləri ilə bağlı xüsusi razılıq əldə edilmişdir. Xüsusən kənd təsərrüfatı, maşınqayırma, e'mal sənayesi və b. sahələrdə mövcud olan imkanlar müzakirə edilmiş, müştərək müəssisələrin yaradılması, gələcək əlaqələrin konkret hüquqi və iqtisadi tərəfləri ilə bağlı atılacaq digər addımlar haqqında mühüm qərarlar qəbul edilmişdir. (188) Rəsmi görüşlərdə Bolqarıstan Prezidenti və digər hökumət rəhbərləri Azərbaycanın ərazi bütövlüyü və sülh siyasətini dəstəklədiklərini, bu ölkə ilə bütün sahələrdə dostluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri yaratmağa çalışacaqlarını, Dağlıq Qarabağda sülhyaratma prosesində ATƏT-in tərkibində yaxından iştirak edəcəklərini və bütün digər məsələlərlə bağlı Azərbaycanın sə'ylərini dəstəkləyəcəklərini qətiyyətlə bəyan etmişlər. Eyni zamanda Azərbaycan tərəfi Bolqarıstanla dostluq əlaqələrinin yaranmasını, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Bolqarıstan rəhbərlərinin sə'yini, xüsusən bu məsələyə dair ATƏT-in Budapeşt zirvə görüşündə müvafiq qətnamənin qəbul olunmasına yardımını yüksək qiymətləndirmişdir.(189)1995-ci ildə iki ölkə başçılarının daha bir mühüm görüşü oktyabr ayının 24-də Nyu-Yorkda olmuşdur. Həmin görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Bolqarıstan Prezidenti Jelyu Jelev iyulda Sofiyada keçirdikləri görüşdən, imzaladıqları müqavilələrdən və keçən müddətdə iki ölkə arasında inkişaf edən münasibətlərdən məmnunluq hissi ilə bəhs etmişlər. Hər iki prezident yaranmış dostluq münasibətlərindən razı qaldıqlarını bildirməklə yanaşı, gələcəkdə də iki ölkə arasında həm iqtisadi-ticarət, həm də elm, mədəniyyət sahələrində əlaqələrin yeni, daha əlverişli formalarının axtarılıb tapılmasına, ayrı-ayrı müəssisələrin, şirkətlərin, iş adamlarının qarşılıqlı əməkdaşlığının möhkəmlənməsinə çalışacaqlarını təsdiq etmişlər. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər, Ermənistan- Azərbaycan münaqişəsi, Minsk qrupu çərçivəsində sülh

danışıqlarının gedişi və s. haqqında da fikir mübadiləsi aparılmışdır. (190) 1996-cı ildə Azərbaycan və Bolqarıstan əlaqələri hər iki ölkənin üzv olduqları beynəlxalq və regional təşkilatlar çərçivəsində inkişaf etdirilmişdir. Bu tədbirlərdə həm hər iki dövlətin ali rəhbərləri, həm də diplomatik hey'ətləri müxtəlif görüşlər keçirmiş və geniş əməkdaşlıq etmişlər. Oktyabr ayında Moskvada Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı ölkə başçılarının zirvə görüşündə iştirak edən Azərbaycan və Bolqarıstan prezidentləri xüsusi görüş keçirmiş və iki ölkə arasında yaradılmış münasibətlərin mövcud vəziyyəti və perspektivləri haqqında fikir mübadiləsi etmişlər. Görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli münasibətləri, iqtisadi, siyasi və mədəni əlaqələri, o cümlədən enerji ehtiyatlarının Azərbaycandan Avropaya nəqli olunması sahəsində əməkdaşlığı genişləndirməyə dair məsələlər müzakirə edilmişdir. Dövlət başçıları bundan sonra da Balkan yarımadası və Qafqazda həm dövlətlərarası iqtisadi və siyasi əlaqələrin inkişaf etdirilməsində, həm də müxtəlif münaqişələrin aradan qaldırılmasında bir-biri ilə məsləhətləşmə aparacaqlarını, birgə sə'ylərini əsirgəməyəcəklərini bir daha təsdiq etmişlər. (191) Beləliklə, göründüyü kimi, Azərbaycan Bolqarıstan əlaqələri Avropanın başqa dövlətləri ilə əlaqələrə nisbətən gec yaransa da, 1996-cı ilin sonuna qədər dövlətlərarası münasibətlərdə arzu olunan dostluq və tərəfdaşlıq səviyyəsinə qədər yüksələ bilmişdir. İki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətləri həm üzv olduqları beynəlxalq təşkilatlar çərçivəsində (BMT, ATƏT), həm regonal qurumlarda (Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz Ölkələri Parlament Assambleyası) , həm də bilavasitə iki dövlətin siyasi, iqtisadi, mədəni və digər strukturları arasında qurulmuşdur. Bundan başqa, Azərbaycan və Bolqarıstan ABŞ və Qərbi Avropa dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsində ortaq marağa malik olduqlarından NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində də əməkdaşlıq edirlər. Hər iki dövlət öz təhlükəsizliyinin tə'min edilməsi və Avropa təhlükəsizlik sisteminə inteqrasiya olunması yolunda NATO ilə xüsusi əlaqlər yaratmağa çalışır. Qara dəniz hövzəsində və Qafqaz regionunda mühüm geosiyasi, iqtisadi və strateji mövqeyə malik olmaları, qarşılıqlı



maraqlarının üst-üstə düşməsi Azərbaycan -Bolqarıstan münasibətlərinin möhkəmlənməsini şərtləndirən və ikitərəfli əlaqələrin istiqamətinin müəyyənləşməsinə tə'sir göstərən vacib amillərdəndir. Azərbaycanın Şərqi Avropanın slavyan dövlətləri ilə, Bolqarıstanın isə Cənub-Şərqi Asiyanın islam və türkdilli dövlətləri ilə sıx münasibətlərə olan ehtiyacını reallaşdırmaq baxımından hər iki dövlət geniş imkanlara malikdir. İki ölkə arasında yaradılmış münasibətlər mövcud potensialdan səmərəli istifadə etmək üçün əlverişli şərait yaradır.

## b) Rumıniya ilə münasibətlər

Şərqi Avropanın mühüm coğrafi-siyasi və iqtisadi əhəmiyyətə malik dövlətlərindən biri olan Rumıniya Mərkəzi Avropanın cənub-şərqində, 237,5 min kv.km-lik böyük bir ərazidə yerləşir. Çoxmillətli əhali tərkibinin (rumınlar, macarlar, qaraçılar, almanlar və s.) 89,4%-ni rumınlar təşkil edir.Əhalisinin ümumi sayı 23 milyon nəfərdən çoxdur. (192) Hazırda Rumıniyanın siyasi sistemi 1991-ci ildə qəbul olunmuş Konstitusiya ilə tənzimlənir. Konstitusiyaya görə Rumıniya unitar, hüquqi, demokratik və sosial istiqamətli dövlət hesab olunur. Dövlətin əsas hakimiyyət qolları dörd il müddətinə birbaşa seçki ilə seçilən prezident və həmin müddətə seçilən ikipalatalı qanunverici orqan-parlamentdən ibarətdir. Ali icra orqanı - hökumət parlament tərəfindən təsdiq olunur və ona hesabat verir.Rumıniyanın siyasi həyatında yüzdən artıq siyasi partiya və təşkilat fəaliyyət göstərir. Onlardan ən çoxsaylıları Milli qurtuluş cəbhəsi, Demokratik milli qurtuluş cəbhəsi, Rumınların milli birlik partiyası və b. hesab olunur. (193)

1989-cu ildə ölkədə Çauşesku rejimi devrildikdən sonra hakimiyyəti ələ alan Milli qurtuluş cəbhəsi qərb demokratiyasının əsas prinsiplərinin Rumıniya cəmiyyətinin siyasi sistemində dönmədən tətbiq edilməsi yolunu tutmuşdur. Ölkənin xarici siyasəti demokratik cəmiyyət və bazar iqtisadiyyatı prinsiplərinə söykənən Qərbi Avropa birliyinə inteqrasiyaya yönəlmişdir. Bu sahədə əsas üstünlük ABŞ və onun NATO üzrə Avropa müttəfiqlərinə verilir. Hazırda Rumıniya BMT və ATƏT kimi beynəlxalq, Qara Dəniz Hövzəsi Ölkələrinin İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz Ölkələri Parlament Assambleyası kimi regional təşkilatların üzvü, Avropa Şurasında xüsusi qonaq, Avropa Birliyinin assosiativ üzvü



kimi beynəlxalq məsələlərin həllində fəal iştirak edir. NATO ilə "Sülh naminə tərəfdaşlıq proqramı vasitəsilə əməkdaşlıq edən Rumıniya yaxın illərdə ona üzv olmaq üçün öz mövqeyini bildirmişdir. Keçmiş SSRİ respublikalarından Moldova, Rusiya, Ukrayna, Gürcüstan və Azərbaycanla əlaqələrə daha böyük əhəmiyyət verir.

Azərbaycanın Rumıniya ilə münasibətləri keçmiş SSRİ və sosialist ölkələrinin əlaqələri çərçivəsində geniş olmuşdur. Xüsusən neft, qaz və digər enerji daşıyıcıları, kimya və kənd təsərrüfatı maşınqayırması sahəsində iki dövlət arasında xüsusi əlaqələr mövcud idi. Lakin bu münasibətlər iki müstəqil dövlətin xarici əlaqələri səviyyəsində deyil, yalnız SSRİ-nin subyektlərindən biri olan respublikanın dost sosialist ölkəsi ilə əməkdaşlığı kimi məhdud çərçivədə qurulmuşdu. Azərbaycan öz müstəqilliyini e'lan edəndən sonra 1991-ci il dekabrın 11-də onun dövlət müstəqilliyini tanıyan ilk Avropa ölkəsi Rumıniya olmuşdur. (194) Lakin təəssüf hissi ilə qeyd edilməlidir ki, 1994-cü ilə qədər iki ölkə arasında rəsmi dövlətlərarası münasibətlər yaradılmamışdır. Halbuki Rumıniya Azərbaycanın müstəqilliyini tanıdığı ilk gündən onunla hər cür qarşılıqlı-faydalı əlaqələr yaratmağa, əməkdaşlıq etməyə hazır olduğunu dəfələrlə bəyan etmişdir. İki ölkə başçıları arasında ilk rəsmi görüş 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt zirvə toplantısında olmuşdur. Görüşdə ölkə başçıları Azərbaycan və Rumıniya arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın möhkəmləndirilməsi zərurətindən bəhs etmiş, diplomatik münasibətlərin yaradılması məsələlərini araşdırmışlar. Rumıniya Prezidenti İon İliyesku Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü dəstəklədiyini bildirmiş, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Azərbaycanın ədalətli tələblərinin Rumıniya tərəfindən müdafiə ediləcəyinə ölkəmizin başçısını əmin etmişdir. (195) Azərbaycan və Rumıniya prezidentlərinin ikinci görüşü 1995-ci il martın 12-də Kopenhagendə olmuşdur. Prezidentlər görüşdə ATƏT-in Budapeşt zirvə toplantısında keçirdikləri görüşün nəticələrindən razılıqla söhbət açmış və iki ölkə arasındakı əməkdaşlığın inkişaf etdirilməsi üçün belə görüşlərin böyük əhəmiyyət kəsb etdiyini bir daha təsdiq etmişlər. Görüşdə qeyd

edilmişdir ki, qarşılıqlı surətdə faydalı əlaqələr üçün yaranan imkanlardan maksimum səmərə ilə istifadə edilməli və bunun üçün lazım olan hüquqi-normativ sənədlərin hazırlanmasına diqqət artırılmalıdır. Rumıniya Prezidenti Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü qarşısının alınması, işğal edilmiş ərazilərin azad edilməsi məqsədi ilə Budapeşt zirvə toplantısında qəbul olunmuş qətnamənin həyata keçirilməsinə öz ölkəsinin bundan sonra da bütün diplomatik vasitələrlə çalışacağına söz vermişdir. (196) Kopenhagen görüşündə iki ölkə arasında qarşılıqlı əlaqələrin yaranması və inkişafının aktual məsələləri müzakirə olunmuş və bu işlə bağlı prezidentlər iki ölkənin müvafiq qurumlarına rəsmi mövqeləri razılaşdırmaq, hüquqi-normativ sənədlər hazırlamaq üçün lazımi tapşırıqlar vermişlər. Bir ay sonra 1995-ci ilin aprelində Rumıniyanın xarici işlər naziri Teodor Meleşkanunun Bakıya rəsmi səfəri də məhz Kopenhagen görüşündə başlanmış dialoqun davamı kimi qiymətləndirilə bilər. Aprelin 27-də Azərbaycan Prezidenti ilə görüşdə Teodor Meleşkanu öz ölkəsinin Azərbaycanla qarşılıqlı əməkdaşlıq yaratmaq və ikitərəfli əlaqələri inkişaf etdirmək əzmini və niyyətini bir daha təsdiqləmişdir. Xarici işlər naziri Rumıniya Prezidenti adından Azərbaycan Prezidentini Qara dəniz regionu ölkələri dövlət başçılarının 1995-ci ilin iyununda Buxarestdə keçiriləcək müşavirəsinə də'vət etmiş və Heydər Əliyevin həmin görüşdə iştirakını Rumıniyaya rəsmi səfərlə əlaqələndirməsinin arzu olunduğunu bildirmişdir. (197)

Teodor Melaşkanu Azərbaycan Prezidentinin Buxarestə səfəri zamanı Rumıniya tərəfinin iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq haqqında hüquqi-normativ sənədlər imzalamağa hazır olduğunu bəyan etmiş və ikitərəfli münasibətləri intensivləşdirmək məqsədilə Bakıda Rumıniya səfirliyinin açılmasını arzu etdiyini bildirmişdir. (198) Görüşdə Azərbaycan Prezidenti Heydər Əliyev iki ölkə arasında siyasi, iqtisadi, mədəni və beynəlxalq məsələlərdə əmkdaşlığın imkanlarından, əhəmiyyətindən və perspektivlərindən danışmış, bu əlaqələri tənzimləyəcək hüquqi-normativ sənədlərin hazırlanması haqqında müvafiq qurumlara tapşırıq verdiyini bildirmişdir. O, söyləmişdir ki, Azərbaycan və Rumıniya iki müstəqil



dövlət kimi hərtərəfli əməkdaşlıq və əlaqələr üçün geniş imkanlara malikdirlər və buna hər ikisinin böyük ehtiyacı var. (199) Görüşdə iki dövlətin həm dövlətlərarası, həm də beynəlxalq məsələlər üzrə mövqeləri və gələcək birgə addımları haqqında fikir mübadiləsi edilmişdir. Azərbaycan-Rumıniya dövlətlərarası əlaqələrinin qurulması və inkişaf etdirilməsi 1995-ci ilin may ayında Parisdə alman faşizmi üzərində qələbənin bayram edilməsi mərasimində iştirak edən Heydər Əliyev və İon İliyesku arasındakı görüşdə də geniş müzakirə edilmişdir. Görüşdə Rumıniya Prezidenti Azərbaycana və onun Prezidenti Heydər Əliyevə şəxsi bağlılığını və dostluğunu dövlətlərimiz və xalqlarımız arasında bağlılığa, dostluğa və qarşılıqlı münasibətlərin inkişafına çevirmək arzusunda olduğunu söyləmiş və bu məqsədlə də Azərbaycan Prezidentinin Buxarestdə səbirsizliklə gözləndiyini bir daha yada salmışdır (200). Öz növbəsində Rumıniya Prezidentini Azərbaycana də'vət edən Heydər Əliyev iki dövlət arasında münasibətlərin daha da inkişaf etdirilməsinin zəruriliyini, beynəlxalq məclislərdə hər iki dövlətin bir-birinin mövqeyini dəstəkləməsinin vacib olduğunu vurğulamış və bu münasibətləri inkişaf etdirmək üçün Azərbaycan tərəfinin bundan sonra da hərtərəfli sə'y göstərəcəyini bildirmişdir. (201) Görüş zamanı ikitərəfli və çoxtərəfli münasibətlərdə qarşılıqlı maraq doğuran məsələlər, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması üzrə sülh danışıqlarının indiki vəziyyəti və perspektivləri barədə geniş fikir mübadiləsi edilmiş, tərəflərin bu məsələlərdə tutacağı mövqe aydınlaşdırılmışdır.

Dövlətlərarası münasibətlərin və əlaqələrin ən yüksək məqamı dövlət başçılarının rəsmi səfəri və bu səfər zamanı imzalanan mühüm sənədlərlə şərtlənir. Bu mə'nada Azərbaycan- Rumıniya münasibətlərinin tarixində 30 iyun 1995-ci il yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev onu müşayiət edən rəsmi nümayəndə hey'əti ilə Rumıniyanın paytaxtı Buxarestə gəlmişdir. Əvvəlcədən razılaşdırıldığı kimi, həmin gün Azərbaycan Prezidenti Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkə başçılarının zirvə toplantısında iştirak etmiş, iyulun 1-dən isə

Rumınıyaya rəsmi səfər proqramı başlamışdır. Rumınıya Prezidenti İon İliyesku ilə görüşdə iki dövlət arasında iqtisadi, siyasi, mədəni və beynəlxalq münasibətlər sahəsində mövcud və gələcək əlaqələrin geniş aspektləri müzakirə olunmuş, qarşılıqlı münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq və dostluq əsasında inkişaf etdirilməsinin zərurəti vurğulanmışdır. Xüsusən iki ölkə arasında metallurgiya, neftçıxarma, neft-maşınqayırma və kimya sənayesi sahəsində əvvəllər mövcud olmuş əlaqələrin yeni şəraitə uyğun olaraq inkişaf etdirilməsi, ticarət əlaqələrinin genişlənməsi, ümumi nəqliyyat-kommunikasiya ehtiyaclarının ödənilməsi baxımından Transqafqaz Avropa-Asiya nəqliyyat-kommunikasiya sisteminin yaradılması və iqtisadi əməkdaşlıq üzrə bir sıra digər məsələlərdə hər iki tərəfin maraqlarının üst-üstə düşdüyü qeyd edilmişdir (202). Rumınıya Prezidenti Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, beynəlxalq təhlükəsizliyinin Rumınıya tərəfindən bundan sonra da tam dəstəklənəcəyini, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin ədalətli həllinə çalışacaqlarını bir daha təsdiqləmiş, iki ölkə arasında əsası qoyulan dostluq və tərəfdaşlıq münasibətlərinə Rumınıyanın daim sadiq qalacağını bəyan etmişdir. Görüşdə Azərbaycan Respublikasının Prezidenti iki ölkə arasında iqtisadiyyat, mədəniyyət, elm, təhsil və digər sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmlənməsinin xüsusi əhəmiyyəti olduğunu qeyd etmiş, Azərbaycanın beynəlxalq təhlükəsizliyini, ərazi bütövlüyünü və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı ədalətli mövqeyini dəstəklədiyinə görə Rumınıyanın mövqeyindən razı qaldığını bildirmişdir (203). İyulun 1-də Azərbaycan Prezidenti Rumınıyanın baş naziri Nikolay Vakaroyu və senatın sədri German Oliviyu ilə keçirdiyi görüşlərdə də iki ölkənin hökumət və parlamentləri arasında əməkdaşlığın mühüm as- pektlərini müzakirə etmiş və bu qurumlar arasında əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini vurğulamışdır. (204) İyulun 2-də ölkə prezidentlərinin təkbətək görüşündən sonra iki ölkə arasında rəsmi dövlətlərarası müqavilə və sazişlər imzalanmışdır. Bu sənədlər- "Azərbaycan və Rumınıya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında bəyannamə".



hökumətlərarası "Ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında saziş", "Elm, təhsil, mədəniyyət və idman sahəsində əməkdaşlıq haqqında saziş" və digər hüquqi-normativ sənədlər iki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin əsasını qoymuşdur (205). Azərbaycan Prezidentinin şərəfinə verilmiş naharda Rumınıya Prezidenti İon İliyesku iki müstəqil dövlət arasında möhkəm fundamenti qoyulan dostluq və tərəfdaşlıq münasibətlərini bundan sonra da inkişaf etdirmək və daha yüksək pillələrə qaldırmaq əzmini bir daha təsdiq etdi. (206) Dövlət başçılarının mətbuat konfransında imzalanmış sənədlərin hər iki ölkənin mənafeyinə tam cavab verdiyi və yaradılmış münasibətlərin daha yüksək səviyyəyə qaldırılması üçün sə'ylərin davam etdirilməsinin zəruriliyi qeyd edildi (207). Beləliklə, 1995-ci ildə Azərbaycan ilə Rumınıya arasında hərtərəfli dostluq və əməkdaşlıq münasibətləri qurulmuş, dövlətlərarası əlaqələrin hüquqi-normativ əsasları yaradılmışdır.

1996-cı il də iki dövlət arasındakı münasibətlərin intensiv şəkildə inkişafı ilə xarakterizə olunmuşdur. Həmin ilin mart ayında Azərbaycan Prezidentinin də'vəti ilə Rumınıya Prezidenti İon İliyesku Bakıya rəsmi səfərə gəlmişdir. (208) Martın 27-də Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdə İon İliyesku Azərbaycanın Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı ölkə başçılarının görüşündə iştirakını xatırlayaraq bildirmişdir ki, Rumınıya Azərbaycanın bu qurumda iştirakını və ona daxil olan ölkələrlə əməkdaşlığını bundan sonra da dəstəkləyəcək. Rumınıya Prezidenti Heydər Əliyevin Buxarestdə olarkən Qara dəniz və Xəzərətrafı ölkələrin sıx əlaqələrinin yaradılması haqqında irəli sürdüyü təklifi dəstəklədiyini, iki dəniz arasında xüsusi nəqliyyat dəhlizinin yaradılması və Avropa-Asiya ölkələri əməkdaşlığının genişlənməsi ilə bağlı Rumınıya mövqelərinin Azərbaycanın mövqeyi ilə üst-üstə düşdüyünü bir daha təsdiqlədi. O, güman etdiyini bildirmişdir ki, Qafqazda xüsusi mövqeyə malik olan Azərbaycan və Qara dəniz-Dunay hövzəsində mühüm mövqeyə malik Rumınıya bütün bu məsələlərin reallaşmasında fəal rol oynayacaqdır. İon İliyesku çox mühüm strateji əhəmiyyəti olan iki bölgə və həmin bölgələrin əsas ölkələri arasında əməkdaşlığın yaradılmasında beynəlxalq aləmin,

xüsusən Avropa dövlətlərinin də maraqlı olduğunu bildirmiş, ona görə də bu layihənin həyata keçirilməsinə beynəlxalq qurumların da kömək göstərəcəyinə inandığını qeyd etmişdir. Onun sözlərinə görə, bu ideyanın reallaşması "beynəlxalq əməkdaşlığa xidmət edəcək və Avropa-Asiya nəqliyyat-kommunikasiya əlaqələrinin genişlənməsinə hərtərəfli şərait yaradacaqdır".(209) Rumıniya Prezidenti Azərbaycanın işgüzar dairələrinin nümayəndələri ilə, qaçqınlarla da bir sıra görüşlər keçirmiş, iki ölkə arasında iqtisadi, siyasi, sosial əlaqələrin genişlənməsi ilə bağlı öz ölkəsinin imkan və mövqelərini açıqlamışdır. Martın 27-də Rumıniya və Azərbaycan nümayəndə hey'ətlərinin geniş görüş və danışıqlarından sonra bir çox rəsmi dövlətlərarası müqavilə və sazişlər imzalanmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Rumıniya Prezidenti İon İliyesku "Azərbaycan və Rumıniya dövlətləri arasında dostluq və əməkdaşlıq haqqında" dövlətlərarası müqavilə imzalamışlar. Sonra iki ölkənin rəsmi dövlət və hökumət rəhbərləri, "Beynəlxalq avtomobil nəqliyyatı haqqında", "Dəniz ticarət gəmiçiliyi haqqında", "Hava nəqliyyatı haqqında", "Turizm sahəsində əməkdaşlıq" və s. haqqında müxtəlif hökumətlərarası sazişlər və konvensiyalar imzalamışlar. Bundan başqa iki ölkənin Səhiyyə Nazirlikləri, Elm və Texnika Komitələri arasında 1996-2000-ci illərdə əməkdaşlıq haqqında sazişlər də imzalanmışdır.(210) Rəsmi görüş və dövlətlərarası sənədlərin imzalanmasından sonra dövlət başçıları iki ölkə arasında möhkəm fundamenti qoyulan dostluq və tərəfdaşlıq münasibətlərinin bundan sonra da inkişaf etdirilməsinə bütün vasitələrlə dəstək verəcəklərinə söz vermişlər. (211) Eyni zamanda, dövlət başçıları dünyada baş verən hadisə və proseslərlə bağlı, beynəlxalq təşkilat və qurumların işində birgə fəaliyyətə dair və s. məsələlərdə də hər iki tərəfin baxışlarının uyğun gəldiyini aşkarlamışlar. Prezidentlər aparılan danışıqlar zamanı və təkbətək söhbətlərində Rumıniya və Azərbaycanda dövlət quruculuğu təcrübəsi barədə, hər iki ölkədə gedən demokratikləşmə və islahatlar, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi ilə bağlı geniş fikir mübadiləsi keçirdiklərini və ortaq mövqeyə malik olduqlarını bildirdilər. Səfər zamanı aparılan danışıqlarda dövlətlərin ərazi bütövlüyü və



suverenliyinin qorunması, mübahisəli məsələlərin danışıqlar yolu və beynəlxalq prinsiplərə uyğun həll edilməsi, bir-birinə qarşı güc işlədilməsinin, sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyi və digər beynəlxalq hüquq normalarına hər iki dövlət tərəfindən istər ikitərəfli, istərsə də çoxtərəfli münasibətlərdə riayət olunacağına əminlik bildirildi. (212) Beləliklə, 1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin Buxarestə, 1996-cı ildə isə İon İliyeskunun Bakıya rəsmi səfərləri nəticəsində ötən üç ildə dövlətlərarası münasibətlər yaratmaq sahəsində aparılan gərgin işlərə bir növ yekun vurulmuşdur. Səfərlər zamanı və bütövlükdə keçən üç ildə iki dövlət başçılarının ayrı-ayrı beynəlxalq tədbirlərdə keçirdikləri görüşlərdə, o cümlədən Azərbaycan və Rumıniyanın qanunverici, icra hakimiyyəti orqanları, xarici işlər idarələri arasında aparılan danışıqlar və həyata keçirilən tədbirlər nəticəsində hər iki tərəfin ortaq maraqları üzərində dostluq münasibətləri yaradılmışdır. İki ölkənin müvafiq rəhbərlikləri arasında keçirilən bütün söhbətlər, danışıqlar dostluq və qarşılıqlı anlaşma şəraitində baş vermiş və 10-dan çox müxtəlif dövlətlərarası müqavilələr, hökumətlərarası sazişlər və digər sənədlər imzalanmışdır. Bütün bu sənədlər iki dövlət arasında kompleks əməkdaşlığı tə'min etməklə bərabər ictimai, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrini əhatə edir. Azərbaycan-Rumıniya diplomatik münasibətlərinin əsası 1991-ci ilin sonunda qoyulsa da, iki dövlət arasında sıx əlaqələr 1994-cü ildən yaradılmağa başlamış və 1995-1996-cı illərdə ilk dəfə yüksək səviyyədə rəsmi səfərlər, rəsmi danışıqlar nəticəsində mühüm dövlətlərarası sənədlər imzalanmış və iki dövlət arasında dostluq və əməkdaşlıq münasibətlərinin hüquqi-normativ bazası yaradılmışdır. Azərbaycan - Rumıniya münasibətləri hazırda həm ikitərəfli (dövlətlərarası), həm də çoxtərəfli əlaqələr çərçivəsində uğurla davam etdirilir. Xüsusən BMT, ATƏT, Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Şurası, Qara Dəniz Ölkələri Parlament Assambleyası, NATO-nun "Sülh naminə əməkdaşlıq" proqramı çərçivəsində keçirilən tədbir və görüşlərdə hər iki dövlət öz mənafeyinə uyğun və bir-birini tamamlayan xarici siyasət yeridir. İki dövlət arasında mövcud olan "Dostluq və əməkdaşlıq haqqında" müqavilə həm ikitərəfli

münasibətlər, həm də beynəlxalq məsələlərdə Azərbaycan və Rumıniyanın birgə mövqelərini, hər iki dövlətin strateji maraqlarını əks etdirir. Həmin sənəddə dövlətlərin ərazi bütövlüyü, separatizmə, terrorizmə qarşı birgə mübarizə, hər bir ölkənin suveren hüquqlarının qorunması və s. kimi beynəlxalq hüquq normalarına uyğun maddələr də öz əksini tapmışdır ki, bu da dostluq və bərabərhüquqlu əməkdaşlıq münasibətlərinin təzahürüdür.

Beləliklə, bu gün inamla bildirmək olar ki, Azərbaycanın xarici siyasətində Şərqi Avropa dövlətləri ilə aparılan gərgin iş öz müsbət nəticələrini verməkdədir.



# III fəsil

# Azərbaycanın xarici siyasəti və Amerika Birləşmiş Ştatları

Tədqiq olunan dövrdə müstəqil Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin əsas istiqamətlərindən birini dünyanın fövqəldövlətlərindən olan ABŞ-la münasibətləri təşkil edir.

Amerika Birləşmiş Ştatları özünün Şimali Atlantika Blokundakı müttəfiqləri ilə birgə bu gün dünya siyasətini müəyyən edən bir neçə dövlətdən biri olmaqla yanaşı, həm də böyük nüfuza və aparıcı mövqeyə malik olması ilə ön sırada durur. Şimali Amerikanın 9364 min kvadrat kilometr ərazisini əhatə edən ABŞ dövləti Alyaska və Havay adaları da daxil olmaqla 263 milyondan çox "yeni dünya" sakininin maraqlarını beynəlxalq aləmdə məharətlə təmsil edir. Ölkənin ərazi inzibati quruluşu 50 ştat və Kolumbiya Federal mahalından ibarətdir.

1787-ci ildə qəbul edilmiş Konstitusiyaya əsasən federativ respublika olan ABŞ-da dövlət və hökumət başçısı əhalinin 4 il müddətinə seçdiyi Prezidentdir. O, eyni zamanda, ölkənin silahlı qüvvələrinin ali baş komandanı hesab olunur. Ali qanunverici hakimiyyət funksiyası nümayəndələr palatası və hər ştatdan 2 nəfər senatorun seçildiyi senatdan ibarət Konqresə məxsusdur. Hər ştatın federal sistemə uyğun qubernatoru, Konstitusiyası və qanunverici orqanı mövcuddur. Məhkəmə sistemi federal və yerli məhkəmə orqanlarından ibarətdir.

ABŞ-da bir-birini hakimiyyətdə əvəz edən Demokratlar (1828) və Respublikaçılar (1854) Partiyaları ölkənin siyasi həyatında əsas yer tuturlar (213).

ABŞ ərazisində avropalılara məxsus ilk koloniyanın əsasını 1607-ci

ildə indiki Virginiya ərazisində qoymuş ingilislər XVII-XVIII əsrlərdə Hollandiya, Fransa, İspaniya kolonistlərinə məxsus torpaqları da ələ keçirərək Şimali Amerikanın böyük bir hissəsini özlərinə tabe etmişlər.(214)

Kapitalizmin inkişafı ilə tədricən Şimali Amerika milləti də formalaşmış, kilsə qayda-qanunları, dini fanatizm və mövhumatla mübarizədə qabaqcıl burjua ideologiyası özünə yol açmışdır. Müstəmləkə zülmünün ağırlığı XVIII əsrin 60-cı illərində Şimali Amerikada metropoliyaya qarşı kütləvi hərəkatın meydana gəlməsinə təkan verdi. 1775-1783-cü illərdə aparılan istiqlaliyyət mübarizəsi İngiltərənin hökmranlığına son qoydu və ABŞ-ın yaranması ilə nəticələndi. 1783-cü ildə İngiltərə ABŞ-ın müstəqilliyini tanıdı.(215) Yenicə müstəqillik əldə etmiş ABŞ iqtisadi-siyasi inkişaf cəhətdən Avropa dövlətlərindən geri qaldığı üçün ilk dövrlərdə özünün xarici siyasət kursunda siyasi əlaqələrdən daha çox iqtisadi əlaqələrə üstün yer verirdi. ABŞ-ın ilk Prezidenti C.Vaşinqtonun 1796-cı ilin 19 sentyabr tarixli vida müraciətində deyilirdi: "Xarici dövlətlərlə münas ibətlərdə bizim davranışımızın əsas qaydası ticarət əlaqələrini genişləndirməklə, onlarla mümkün qədər az siyasi əlaqələr saxlamaqdır... Avropanın mühüm maraqlar sistemi mövcuddur, lakin onlar bizim üçün heç bir əhəmiyyət kəsb etmir və ya çox az əhəmiyyətə malikdir" (216). Beləliklə, C.Vaşinqton öz həmvətənlilərini Avropa konfliktlərinə qoşulmamağa çağırırdı.

XIX əsrin 20-30-cu illərində başlanan sənaye çevrilişi və kapitalizmin inkişafı ABŞ-da cənubun quldarları ilə şimalın burjuaziyası arasında vətəndaş müharibəsinə gətirib çıxartdı. Vətəndaş müharibəsində burjuaziyanın qələbəsi ABŞ-da sənayenin inkişafını daha da sür'ətləndirdi və XIX əsrin sonunda onu dünyanın ən inkişaf etmiş və qüdrətli dövlətinə çevirdi.

I Dünya müharibəsindən sonra ABŞ-ın iqtisadi qüdrəti daha da artdı və o, tədricən Amerika qitəsindəki dövlətləri öz tə'siri altına aldı. 20-30-cu illərdə artıq ABŞ dünya iqtisadi və siyasi hökmranlığına nail olmağa başlayır. 1929-1933-cü illər dünya iqtisadi böhranının ABŞ iqtisadiyyatına ağır zərbə vurmasına baxmayaraq, 1932-ci ildə prezident sükanı arxasına keçən F.Ruzveltin həm daxili, həm də xarici



siyasətdə liberal islahatalar keçirməsi ölkənin gələcək inkişafı üçün daha əlverişli şərait yaratdı. 1933-cü ildə F.Ruzvelt SSRİ ilə diplomatik münasibətlər yaratmış, Latın Amerikası ölkələri ilə mehriban qonşuluq əlaqələri qurmaq üçün bir çox tədbirlər həyata keçirmişdir. Bundan başqa, ABŞ II Dünya müharibəsində Avropa müttəfiqləri və SSRİ ilə birgə faşist Almaniyasına qarşı müharibəyə qoşulmuşdu.(217)

II Dünya müharibəsindən iqtisadi cəhətdən daha da qüvvətli çıxmış ABŞ müharibənin dağıntılarına mə'ruz qalmamış yeganə iri kapitalist dövləti olmuşdur. Müharibənin qurtarmasından sonra artıq bütün kapitalist dövlətləri ABŞ-dan borclu vəziyyətə düşmüş və öz iqtisadiyyatlarını bərpa etmək üçün 1947-ci ildə qəbul edilmiş, Avropa ölkələrinə ABŞ yardımını nəzərdə tutan "Marşall planı" adlı layihədə iştiraka cəlb edilmişlər. Qərbi Avropanın, Latın Amerikasının, Asiya və Afrika ölkələrinin əksəriyyətinə göstərilən yardım bir tərəfdən onları ABŞ-dan asılı vəziyyətə salmış, digər tərəfdən isə onun ətrafında cəmləşməyə sövq etmişdir. 1948- ci ildə ABŞ-ın təklifi ilə Amerika Dövlətləri Təşkilatı, 1949-cu ildə isə Şimali Atlantika Bloku (NATO) yaradılmışdır. Bununla da ABŞ hərbi kontingentinin həmin vaxtdan "soyuq müharibə" e'lan edilmiş SSRİ və onun sosialist müttəfiqlərinin ətrafındakı ölkələrin ərazilərinə yerləşdirilməsi başlanmışdır.

ABŞ ətrafında yaranmış Şimali Atlantika Bloku ilə SSRİ-nin təşkil etdiyi Varşava Müqaviləsi Təşkilatı ölkələri arasındakı "soyuq müharibə" 80-ci illərin sonu-90-cı illərin əvvəllərində NATO ölkələrinin qələbəsi ilə qurtarmış və dünya siyasətinin yeni düzümü meydana gəlmişdir.

ABŞ bu gün planetimizdə mövcud olan bütün nüfuzlu və böyük tə'sir gücünə malik olan beynəlxalq və regional təşkilatların aparıcı üzvüdür. BMT və onun Təhlükəsizlik Şurası, NATO, ATƏT kimi qurumlar ABŞ-ın fəal təşəbbüsü ilə yaranmış və bu gün də bu təşkilatların əsas maliyyə və təşkilati sistemləri Amerika büdcəsinin üzərində qurulmuşdur.

ABŞ dünyanın istənilən regionuna, istənilən dövlət və dövlətlərarası təşkilatlara, onların qəbul etdiyi qərarlara və

yeritdikləri siyasətə əhəmiyyətli tə'sir etmək iqtidarına malikdir. Buna həm onun iqtisadi, siyasi, hərbi gücü, həm də beynəlxalq nüfuzu imkan verir. Baxmayaraq ki, bu gün dünyanın bə'zi dövlətləri ABŞ-ın xarici siyasətini və beynəlxalq münasibətlər sahəsində fəaliyyətini hər zaman dəstəkləmir (Çin, İran, Rusiya və ABŞ-ın Atlantika Blokundakı bə'zi Avropa müttəfiqləri buna misal ola bilər), lakin bu heç də onlara bu fövqəldövlətə qarşı əsaslı rəqabət yaratmaq və qlobal məsələlərin həllini onun iştirakı olmadan həll etmək imkanı vermir. Onlar son anda planetin taleyüklü beynəlxalq və regional məsələlərinin həlli ilə bağlı ABŞ-ın rə'yini mütləq nəzərə alır və onunla hesablaşmaq məcburiyyətində qalırlar.

Bu gün ABŞ dünya siyasətini müəyyən edən, onun düzümünü və yönümünü dəyişməyə qadir olan, planetin qlobal məsələlərinin həllində rə'yi birinci nəzərə alınan fövqəldövlətlərdəndir.

ABŞ-ın xarici siyasət konsepsiyasının əsasını dünyada Amerika maraqlarının, demokratiyanın, insan hüquqları və azadlığının qorun ması təşkil edir. Lakin Vaşinqtonun rəsmi siyasəti heç də hər zaman yalnız bu prinsiplərlə məhdudlaşmır. Bə'zən bütün dünya ölkələrində olduğu kimi, ABŞ-da da xarici siyasət idarəsi bə'zi subyektiv amillərin tə'siri ilə demokratiyanın, insan hüquqları və azadlıqlarının pozulmasına qarşı ciddi tə'sir göstərmək, əsl Amerika maraqlarını "Amerikanın marağı" kimi təqdim olunan ayrı-ayrı dövlət və qurumların mənafeyindən ayırmaq və qorumaq imkanından məhrum olur. Məhz elə həmin subyektiv amillərin əhəmiyyətli tə'siri nəticəsində bə'zən bu ölkənin də xarici siyasəti vahid yanaşma və me'yar üzrə deyil, özünün bütün xüsusiyyət və əlamətləri ilə bir-birindən fərqlənən konkret region və bölgələrə müxtəlif münasibət üzrə qurulur. Bu mə'nada ABŞ-ın xarici siyasətində dörd qrup region, dövlət və dövlətlər qrupu aydın seçilir:

- *ABŞ-ın maraqlarına zidd siyasət yeridən dövlət və regionlar;*
- *ABŞ-ın maraqlarına heç bir tə'siri olmayan dövlətlər;*
- *ABŞ-ın mənafeləri dairəsində olan və dolayısı ilə onun maraqlarını təmsil edən dövlətlər qrupu;*
- *ABŞ-ın maraqlarının bilavasitə təmsil olunduğu ölkələr.*

Sözsüz ki, Vaşinqton bu ölkə və bölgələrə qarşı münasibətdə heç də hər zaman eyni prinsiplərdən çıxış etmir və məşhur "Amerika maraqları, demokratiya, insan hüquq və azadlıqları" ideyası bütün ölkələrə münasibətdə eyni standart üzrə tətbiq edilmir. Bunun əyani sübutu İraq-Küveyt, Ermənistan-Azərbaycan, keçmiş Yuqoslaviya münaqişəsi və s. problemlərə münasibətdə ABŞ-ın tutduğu mövqe və gördüyü tədbirlər hesab oluna bilər. Məsələ burasındadır ki, Vaşinqton "Amerika maraqlarını, insan hüquq və azadlıqlarını və demokratiyanı müdafiə" prinsipini yuxarıda qeyd olunan dörd qrup ölkələrin ayrı-ayrılıqda hər birinə münasibətdə müxtəlif cür tətbiq edir və buna müvafiq də tədbirlər həyata keçirir. Bəhs olunan prinsiplər əgər birinci qrup ölkələrdə pozulmuşsa, Vaşinqton bütün dünya ölkələrini, beynəlxalq və regional qrupları bu ölkəyə qarşı mübarizəyə qaldırır, ona qarşı mövcud olan bütün tə'sir və təzyiq vasitələrindən istifadə edir. İkinci qrupa daxil olan ölkələrdə baş ve rən hadisələrə ABŞ yalnız zəruri hesab etdikdə öz münasibətini bildirir (bu əgər onun beynəlxalq vəziyyətinə tə'sir göstərirsə), digər hallarda isə seyrçi mövqe tutmaqla kifayətlənir. Üçüncü qrup ölkələri Vaşinqton himayə edir, onların inkişafına və beynəlxalq aləmdə layiqli yer almalarına şərait yaradır, beynəlxalq və regional qurumlarda dəstəkləyir. Əgər bu ölkələrə qarşı hər hansı kənar müdaxilə və yaxud təhlükə yaranarsa, dərhal beynəlxalq aləmi buna e'tiraz və tə'sir aksiyasının keçirilməsinə qaldırır. Dördüncü qrup ölkələr isə daim ABŞ-ın himayəsi altında olur və Vaşinqton bu dövlətlərin mənafeyi naminə ABŞ-ın özünün maraqlarını qorumaq üçün məqbul olan bütün vasitələrdən istifadə edir. Bir qayda olaraq ABŞ-ın "insan hüquqları, demokratiya" anlamının pozulmasına və yaxud bu prinsiplərə əməl edilməsi baxımından hər dörd qrup ölkəyə münasibətdə fərqli me'yarlardan çıxış etməsi bugünkü dünyanın və ABŞ-ın xarici siyasətinin reallıqlarıdır. Birləşmiş Ştatların fövqəl'adə dövlət statusuna malik olması da elə məhz bununla şərtlənir ki, bu reallıqlar beynəlxalq aləmdə əsasən hamı tərəfindən qəbul edilir və anlaşılır.

Dünyanın bu fövqəldövləti ilə Azərbaycan arasındakı münasibətləri şərtləndirən əsas amillər ölkəmiz üçün ABŞ-ın hər bir müstəqil dövlətin beynəlxalq təhlükəsizliyinə və müstəqilliyinə tə'minat vermək, qarant durmaq, bu dövlətin ayaq üstə dayanmasına

ilkin iqtisadi və siyasi dəstək vermək, sivilizasiyalı dövlətlərarası münasibətlər sisteminə inteqrasiya olunmaq imkanı ilə əlaqəlidirsə, ABŞ üçün Azərbaycanın əlverişli geosiyasi ərazidə yerləşməsi, zəngin təbii ehtiyatlara, xüsusən neft yataqlarına malik olması və beynəlxalq prinsiplərə uyğun, sivil və müstəqil siyasət yeritməsi ilə bağlıdır.

Azərbaycan-ABŞ münasibətlərinin tarixi keçən əsrdən başlanır. Hələ XIX əsrin 70-80-ci illərində Bakı neft sənayesinin yaranması və formalaşması dövründə ABŞ-ın iri kompaniyaları və şirkətləri Azərbaycan neftinə maraq göstəriblər. Bu illərdə Rusiya bazarında neft məhsullarının satışı məşhur iş adamı Rokfellerin "Standart oyl" kompaniyasının tam nəzarəti altında idi. Tədricən Nobelin təzyiqi ilə Rusiya bazarından sıxışdırılıb çıxarılan Rokfeller bir qədər sonra öz nümayəndəsini Bakıya göndərərək, o zaman burada möhkəm mövqe qazanmış olan İngiltərə və digər Avropa dövlətlərinin şirkətləri ilə danışıqlar aparmış və müəyyən işlər görmüşlər. Lakin Avropa dövlətləri ilə ABŞ arasında mövcud olan ziddiyyət və həmin vaxt üçün Amerikanın nisbətən zəifliyi onlara Bakıda daimi möhkəmlənməyə imkan verməmişdir.

Sonrakı illərdə də İngiltərənin Azərbaycandakı güclü mövqeyi və ingilis-amerikan ziddiyyətləri ABŞ-ın Azərbaycana fəal müdaxiləsinə və onunla normal iqtisadi münasibətlər yaratmasına mane olmuşdur.

Çar Rusiyası dağıldıqdan və Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra iki dövlət arasında siyasi və diplomatik əlaqələrin qurulmasına ilk təşəbbüs 1919-cu il mayın 28-də Parisdə olmuşdur. Azərbaycan parlamentinin sədri Ə.M. Topçubaşovun rəhbərliyi ilə nümayəndə hey'əti Parisdə ABŞ Prezidenti V.Vilsonla görüşmüşdür. Görüşdə müstəqil Azərbaycan dövlətinin tanınması, onun Millətlər Cəmiyyətinə qəbul edilməsi, ABŞ-la diplomatik münasibətlərin yaradılması və s. haqqında Azərbaycan hökumətinin rəsmi memorandumu ABŞ Prezidentinə təqdim edilmişdir.

1919-cu ilin noyabrında ABŞ-ın Qafqaz missiyasının rəhbərinin vasitəçiliyi ilə Tbilisidə Azərbaycan və Ermənistan nümayəndələri bütün münaqişəli məsələləri dinc yolla, danışıqlar vasitəsilə həll



etmək haqqında saziş imzalamışlar. Lakin Prezident Vilsonun bütövlükdə ermənipərəst siyasət yeritməsi, tərəflər arasında kəskin ziddiyyətlərin mövcud olması və s. bu sazişin ermənilər tərəfindən pozulmasına gətirib çıxartdı. (218)

1920-ci ilin yanvarında Avropanın müttəfiq dövlətlərinin Ali Şurası Azərbaycanın müstəqilliyini tanıdı. Lakin həmin vaxt Avropa dövlətləri ilə, xüsusən də Bakıda daha əlverişli mövqe tutan İngiltərə ilə ziddiyyətlərə görə ABŞ Azərbaycanın müstəqilliyini tanımaqdan imtina etdi. Buna baxmayaraq, Azərbaycanla iqtisadi və siyasi əlaqələr yaratmaq sahəsində Birləşmiş Ştatlar heç də Avropa dövlətlərindən geri qalmırdı. Bunun əyani nümunəsi Bakıda ABŞ konsulluğunun yaradılması və bir çox iqtisadi müqavilələrin bağlanması hesab edilə bilər.

Sonrakı dövrdə iki ölkə arasındakı əlaqələr Azərbaycanda Sovet rejiminin yaranması ilə kəsilmiş və SSRİ dağılana qədər heç bir rəsmi münasibət olmamışdır.

1991-ci il oktyabrın 18-də Azərbaycanda müstəqillik haqqında Konstitusiya aktı qəbul edildəndən sonra onun müstəqilliyini ilk tanıyan dünya dövlətlərindən biri də ABŞ oldu. Həmin il dekabrın 25-də Vaşinqton öz müstəqilliyini e'lan etmiş müstəqil Azərbaycan dövlətini rəsmi tanıdığını bəyan etdi və tezliklə iki dövlət arasında diplomatik münasibətlər yaratmaq üçün müəyyən addımlar atdı.(219) 1992-ci il fevralın 12-də ABŞ-ın dövlət katibi Ceyms Beyker iki ölkə arasında rəsmi münasibətlər yaratmaq məqsədilə Bakıya əməli səfərə gəldi.(220) O, Azərbaycanda həyata keçirilən daxili və xarici siyasət, iqtisadi islahatlar, Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsi haqqında rəsmi Bakıdan geniş mə'lumat almış, ABŞ-ın bu dövlətlə gələcək əlaqələrinin mühüm aspektlərini müzakirə etmişdir. Səfərdən bir az sonra 1992-ci il martın 18-də iki dövlət arasında rəsmi diplomatik münasibətlər yaradıldı.(221) Bunun ardınca 1992-ci ilin aprelində Vaşinqton hökuməti Senatın ATƏM üzrə komissiyasının sədri senator Dennis de Konsini başda olmaqla ABŞ Konqresinin nümayəndə hey'ətini Bakıya göndərdi.(222)

Sözsüz ki, bütün bu nümayəndə hey'ətləri SSRİ-dən ayrılmış

müstəqil Azərbaycanı hərtərəfli öyrənir, bu dövlətə münasibətdə ABŞ-ın gələcək xarici siyasətinin konturlarını müəyyənləşdirir, Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsinin, Azərbaycan-Rusiya, Azərbaycan-İran münasibətlərinin xarakterini, mahiyyətini və perspektivlərini, Birləşmiş Ştatların Qafqazda maraq, nüfuz və tə'sir mexanizmlərinin dayaqlarını araşdırır, strateji planlar hazırlamaq üçün Dövlət departamentinə bələdçilik və mə'lumat toplusu hazırlayırdılar. Məhz bu mərhələdə Azərbaycan ABŞ üçün özünün prinsipial, ardıcıl, dəyişməz müstəqil xarici siyasətini, strateji əməkdaş olmaq əhəmiyyətini anlatmalı, demokratiyaya, sülhə, insan hüquq və azadlıqlarının qorunması prinsipinə əsaslanan hüquqi dövlət qurmaq əzmini və istəyini sübut etməli idi. Məhz bu mərhələdə Azərbaycan ABŞ-ın xarici siyasətində Vaşinqtonun maraq dairəsinə daxil olmayan ölkələr sırasından, onu maraqlandıran, onun müdafiə etdiyi dövlətlər sırasına çıxmağa can atmalı və çalışmalı idi.

Əslində ABŞ-ın xarici siyasət idarəsi də Qafqazda əlverişli geosiyasi vəziyyətə malik, bölgənin ən iri, varlı və perspektiv inkişaf imkanları olan Azərbaycana tam müstəqil siyasət yeridəcək, gələcəkdə Birləşmiş Ştatların əsl tərəfdaşı və müttəfiqi ola biləcək bir dövlət kimi baxırdı. Hesab edil irdi ki, Azərbaycan müvəffəqiyyətlə ayrı-ayrı dövlətlərin imperiya ambisiyalarından xilas olacaq, tam müstəqil və qərbyönlü siyasət yeridəcək, Qafqazda ABŞ-ın və Avropa Birliyinin strateji partnyoruna, sülhün, demokratiyanın, insan hüquq və azadlıqlarının bu bölgədə əsas tə'minatçısına çevriləcək, sivilizasiyalı, hüquqi dövlət quracaq.

Azərbaycanın rastlaşdığı Dağlıq Qarabağ problemi və erməni təcavüzü də həmin vaxt ABŞ-ın rəsmi dairələrinin diqqətindən kənarda qalmamışdır. 1992-ci il mayın 19-da Dövlət Departamentinin rəsmi nümayəndəsi bildirmişdir ki, onun ölkəsi Dağlıq Qarabağda və Naxçıvanda döyüş əməliyyatlarının gücləndirilməsini qətiyyətlə pisləyir və hər hansı ərazinin statusunun zorakılıq əsasında birtərəfli şəkildə dəyişdirilməsi ilə razılaşmayacaq.(223)

Münaqişənin aradan qaldırılmasının ATƏM prinsipləri əsasında, danışıqlar yolu ilə həll edilməsinə işarə edən Vaşinqton, əslində



Azərbaycanın rəsmi dairələrinə öz xarici siyasətinin əsas prioritetlərini və istiqamətlərini müəyyənləşdirməyin, aydın, ardıcıl və prinsipial mövqe tutmağın vaxtı çatdığını anlatmağa çalışırdı. Lakin təəssüflər olsun ki, o zaman hər addımını Moskva ilə razılaşdıran A. Mütəllibov-Y.Məmmədov hakimiyyəti bu bəyanatdan heç bir əməli nəticə çıxarmadı. Nəticədə ABŞ-ın bölgədəki iqtisadi və siyasi maraqları üzərində ardıcıllıqla qurulmalı, Azərbaycanın müstəqil dövlətçilik və təhlükəsizlik problemlərinin həllini ABŞ və Avropa dövlətlərinin bu böyük geostrateji məkanda təmsil olunan maraqları ilə uzlaşdırılmalı olan xarici siyasət əvəzinə, o zamankı hakimiyyət Azərbaycanın tam təklənməsinə və beynəlxalq rə'yin sür'ətlə onun əleyhinə çevrilməsinə şərait yaradan siyasət yeritdi.

1992-ci ilin may ayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyindən sonra ABŞ-ın rəsmi dairələri bir daha bu böyük geostrateji əhəmiyyəti olan dövlətlə geniş əlaqələr yaratmağa, bölgədə gedən ictimai-siyasi və hərbi problemlərə fəal müdaxilə etməyə cəhd göstərdilər. Məhz elə bu məqsədlə 1992-ci ilin iyul ayında ATƏM-in Helsinki sammiti ərəfəsində ABŞ Prezidenti Corc Buş Azərbaycan Prezidentinə məktubla müraciət etdi və öz ölkəsinin Azərbaycanla bütün sahələrdə əlaqələr yaratmağa və münasibətləri inkişaf etdirməyə hazır olduğunu bildirdi.(224) Təəssüflər olsun ki, respublikanın o vaxtkı rəhbərləri də öz əvvəlki sələflərindən uzağa gedə və ABŞ-ın bu təşəbbüsünə lazımi qiymət verə bilmədilər. Ölkənin siyasi dairələri o zaman hesab edirdilər ki, guya Azərbaycanın müstəqil dövlətçilik maraqları və Rusiyanın bu bölgədəki tə'sirini zəiflətmək istəyi ABŞ üçün elə bir həyati əhəmiyyət kəsb edir ki, Azərbaycanın bütün problemlərini ABŞ və Avropa dövlətləri (xüsusən Türkiyə) özləri həll edəcək. Onlar düşünürdülər ki, Azərbaycan Rusiya ilə hesablaşmamaq və ona qarşı "mübarizə" e'lan etməklə öz işini bitmiş saymalıdır. Guya qalan bütün məsələlər, o cümlədən Ermənistanın təcavüzü və Dağlıq Qarabağ probleminin həlli ABŞ-ın, Avropa dövlətlərinin və beynəlxalq təşkilatların öz problemi imiş. Odur ki, Azərbaycan hökumətinin yeritdiyi xarici siyasət nəinki 1992-ci ilin iyulunda, erməni təcavüzünün tüğyan etdiyi bir vaxtda keçirilən ATƏM-in

Helsinki sammitində ABŞ-ın dəstəyindən lazımi səviyyədə istifadə edə bilmədi, heç Dağlıq Qarabağ problemini və Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü məsələsini sammitin gündəliyinə belə salmağa nail olmadı.(225)

1992-ci ilin iyul-dekabr aylarında Ə.Elçibəy hakimiyyətinin xarici siyasət sahəsində yarıtmaz fəaliyyəti ABŞ-da Azərbaycana qarşı nəinki olub qalan marağı da, Azərbaycanın Qafqazda və bütövlükdə regionda kəsb etdiyi əhəmiyyəti də heçə endirdi, hətta rəsmi Vaşinqtonun respublikamıza qarşı ciddi cəza tətbiq etməsinə şərait yaratdı. Məhz elə bu yarıtmaz siyasətin nəticəsi və ABŞ-da güclü erməni diasporunun tə'siri ilə 1992-ci ilin dekabrında ABŞ Konqresi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "907-ci düzəliş" deyilən sənəd qəbul etdi.(226) Bu müstəqil dövlət quruculuğu yolunu tutmuş və zorla müharibəyə cəlb edilmiş dövlət üçün çox ağır bir zərbə idi.

Beləliklə, Ə.Elçibəy iqtidarının bir tərəfdən Azərbaycanın ABŞ üçün kəsb etdiyi əhəmiyyəti düzgün qiymətləndirməməsi, bu fövqəldövlətin "Azərbaycan maraqları" anlayışının hələlik adi mülahizədən ibarət olmasını dərk etməməsi, digər tərəfdən ABŞ-da mövcud olan, e'tibarlı dayaq və güclü tə'sir mexanizmlərinə və təşkilati strukturlara malik erməni lobbisinin fəaliyyətinə lazımi əhəmiyyət verməməsi Azərbaycanı 1992-ci ilin sonunda çox ağır vəziyyətə saldı. Hərtərəfli iqtisadi və siyasi yardıma ehtiyacı olan Azərbaycan, yarıtmaz xarici siyasət nəticəsində təkcə ABŞ-ın deyil, eyni zamanda Vaşinqton ilə bağlı olan və bütün beynəlxalq məsələlərdə onun rə'yini nəzərə alan digər ölkələrin də dəstəyindən məhrum oldu. Bununla da Azərbaycan nəinki təkcə bölgədə, eyni zamanda beynəlxalq aləmdə təkləndi, haqq işi uğrunda apardığı mübarizədə bütün dünya dövlətlərinin dəstəyini qazanmış irticaçı erməni qüvvələri ilə üz-üzə qaldı. Həmin vaxt Türkiyə istisna olmaqla Azərbaycanın regionun bütün dövlətləri ilə gərgin dövlətlərarası münasibətləri, bə'zi dövlətlərin müstəqil respublikamıza qarşı yönəlmiş təzyiq və təxribatları, eyni zamanda daxildə baş alıb gedən özbaşınalıq və hərc-mərclik də nəzərə alınsa, Ə.Elçibəy hakimiyyətinin Azərbaycanı hansı təhlükə ilə üz-üzə



qoyduğu bir daha aşkarlanır.

1993-cü ilin yanvarında Bill Klintonun ABŞ-da yeni prezident vəzifəsinə başlaması dövründə Azərbaycan-Amerika münasibətləri çox gərgin və kəskin qarşıdurma vəziyyətində idi. Çünki ABŞ-da Azərbaycana islam fanatizminə yuvarlanan, erməniləri və digər xristianları soyqırımına mə'ruz qoyan, insanları vəhşicəsinə məhv edən, insan hüquqları və demokratiya pozulan, rəsmi dövlət adamlarının nə etdikləri və hansı siyasət yeritdikləri bəlli olmayan, qonşu dövlətlərə qarşı ədalətsiz addımlar atan bir dövlət kimi baxır, onun müstəqil siyasət yeritdiyinə, sülh və demokratiyaya can atmasına şübhə ilə yanaşırdılar. Elə Azərbaycanda da ABŞ-ın nə vaxtsa haqq-ədaləti müdafiə edəcəyinə, respublikamızda müstəqil dövlət quruculuğuna, sülhə və demokratiyaya əməli yardım göstərəcəyinə xalq artıq şübhə ilə yanaşırdı. Nəticədə əhalinin keçmiş imperiyaya və yeni-yeni baş qaldıran dini fanatizmə, müxtəlif arzuolunmayan dövlət və qüvvələrə üz tutmasına, meyl göstərməsinə şərait yaranırdı ki, bu da müstəqil Azərbaycan dövləti üçün məhvə məhkum olmaya bərabər idi. Belə vəziyyətin daha da kəskinləşməsinə imkan verməmək olmazdı.

Həmin vaxt ABŞ-ın Azərbaycan dövlətçiliyi üçün əhəmiyyətini, müstəqilliyimizin və təhlükəsizliyimizin tə'min olunmasında rolunu və yaranmış gərginliyin doğura biləcəyi təhlükəli vəziyyəti obyektiv qiymətləndirən Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev 1993-cü ilin yanvarında ABŞ Prezidenti Bill Klintona məktub göndərdi. Məktubda yenicə prezidentlik fəaliyyətinə başlayan Bill Klintonu təbrik edən Heydər Əliyev ümidvar olduğunu bildirirdi ki, o, müstəqil Azərbaycan Respublikasına xoş və xeyirxah münasibət bəsləyəcək, dünyanın bir çox regionlarında baş verən silahlı konfliktlərin həllinə nail olmaq, Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasını aradan qaldırmaq üçün Amerika dövlətinin bütün imkanlarından istifadə edəcəkdir.(227)

Naxçıvan MR Ali Məclisinin sədri, tanınmış siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyevin məktubu Ağ evdə dərhal reaksiya verdi. 1993-cü ilin yanvar ayında ABŞ və Rusiya prezidentləri Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı

birgə bəyanat verərək, münaqişəni nizama salmaq üçün tezliklə ATƏM-in Minsk konfransının çağrılmasına tərəfdar olduqlarını bəyan etdilər.

Bunun ardınca 1993-cü il fevral ayının 4-də ABŞ-ın Azərbaycandakı səfiri Riçard Mayls Naxçıvana yola düşdü. O. Ali Məclisin sədri Heydər Əliyevlə görüş zamanı ABŞ Prezidenti Bill Klintonun bölgədə yaranmış vəziyyətlə bağlı narahatlığını çatdırmaqla bərabər, Naxçıvana tə'cili humanitar yardım göstərilməsi haqqında Prezidentin qərarı barədə dövlət departamentinin humanitar yardımlar üçün Proqramının rəhbəri Riçard Armintaj tərəfindən göndərilən məktubu təqdim etdi. (228)

Görüşdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi, Naxçıvanın blokadası və onun ağır nəticələri haqqında geniş fikir mübadiləsi edilmiş, bütün bu problemlərin həlli yolları aranmışdır.

Az keçmədən Azərbaycana qarşı hər cür yardımı qadağan edən "907-ci düzəlişə" baxmayaraq Amerikanın humanitar yardımla yüklənmiş təyyarəsi Naxçıvana enir.(229) Bu, Azərbaycan-ABŞ əlaqələrində gərginliyin yumşaldılmasına və aradan qaldırılmasına yönələn ilk addım kimi gələcək münasibətlərə də öz müsbət tə'sirini göstərdi.

1993-cü ilin aprel-may aylarında Bakıda və Vaşinqtonda iki ölkənin səfirlikləri fəaliyyətə başladı. Bunun ardınca konqresmen Qreq Laflinin başçılıq etdiyi nümayəndə hey'ətinin və Demokrat partiyasından Konqresin üzvü Riçard Lemanın rəhbərliyi ilə bir qrup konqresmenin Azərbaycana səfərləri oldu.(230) Kəlbəcərin Ermənistan tərəfindən işğalı ilə bağlı ABŞ Prezidenti Bill Klinton Azərbaycan Prezidentinə məktub göndərərək ermənilərin Kəlbəcəri işğal etməsini pislədi.(231) Elə həmin vaxt ABŞ Türkiyə və Rusiya ilə birlikdə erməni silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxarılması və münaqişənin ATƏM çərçivəsində danışıqlar yolu ilə aradan qaldırılmasının hazırlanmasında fəal iştirak etmiş və onun həyata keçirilməsinə sə'y göstərmişdir.(232) 1993-cü ilin may-iyun aylarında ABŞ-ın dövlət departamentinin Dağlıq Qarabağ problemi üzrə danışıqlarda nümayəndəsi Con Mareska və yeni müstəqil



dövlətlərlə əlaqələr üzrə müşaviri Stroub Talbott Bakıya səfər etmişlər.(233) Lakin bütün bunlar ABŞ-ın münaqişəyə tam fəallıqla yanaşması, Ermənistan-Azərbaycan münaqişəsinə düzgün qiymət verməsi və Dağlıq Qarabağ problemini aradan qaldırmaq üçün malik olduğu imkanlardan maksimum istifadə etməsi demək deyildir. Hələlik ABŞ-ın rəsmi dairələri Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin mahiyyəti, təcavüzkar və təcavüzə mə'ruz qalmış tərəflər, münaqişənin həllinin prinsipləri və yolları haqqında tam obyektiv və prinsipial mövqedən çıxış etmirdilər.

Bir tərəfdən, Ə.Elçibəy hökumətinin yarıtmaz xarici siyasəti, digər tərəfdən Ermənistanın və Amerikada yaşayan erməni lobbisinin antiazərbaycan təbliğatı və tədbirləri rəsmi Vaşinqtonu Azərbaycandan çox uzaq bir qütbə salmışdı. Məhz elə bunun nəticəsi idi ki, Vaşinqton Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ilə bağlı 1993-cü ilin sonuna qədər dəfələrlə Ermənistanın mövqeyini əks etdirən, onu münaqişədə haqlı hesab edən bəyanatlar yaymış, bu ölkəyə həm mə'nəvi, siyasi, həm də maddi yardım göstərmişdir. Azərbaycana münasibətdə isə, əksinə, müxtəlif cəza tədbirləri görmüş, haqq işi uğrunda ədalətli mübarizə apardığı halda onu günahlandırmışdır. Ermənilər bu dövrdə istədiklərinə qismən nail olsalar da, Azərbaycanda 1993-cü ilin yayında baş verən ictimai-siyasi dəyişikliklər və bunun nəticəsində Heydər Əliyevin yenidən rəhbərliyə qayıtması onların çirkin əməllərinin qarşısına sipər çəkdi. Ermənistanın antiazərbaycan siyasətinə qarşı Azərbaycan rəhbərliyinin daha uzaqgörən və məharətli siyasəti qoyuldu. Belə ki, ermənilərin Azərbaycana qarşı həyata keçirdikləri beynəlxalq təcridetmə və beynəlxalq cəza siyasəti Heydər Əliyevin uzaqgörən və zərgər dəqiqliyi ilə qurulmuş diplomatiyası ilə qarşılaşdı.

Heydər Əliyev hələ Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işləyərkən dəfələrlə o zamankı Azərbaycan rəhbərliyini xəbərdar etmişdir ki, ermənilərin 1988-ci ildən beynəlxalq aləmdə Azərbaycana qarşı yeritdikləri təbliğat və informasiya müharibəsi çox təhlükəlidir və bu ağır nəticələrə gətirə bilər.

Onun uzaqgörənliyi 1992-ci ilin sonunda tam təsdiqləndi. Mə'lum

oldu ki: **əvvəla,** keçən dörd ildə ermənilər bütün dünyada Azərbaycan xalqını qaniçən, fundamentalist, sivil dünya dəyərlərindən çox uzaq, erməniləri, xristianları soyqırımına mə'ruz qoyan, məhv edən vəhşi bir millət kimi tanıtmış; **ikincisi,** öz irticaçı və işğalçı sifətlərini məharətlə gizlədərək və dünya ictimai rə'yində müsəlmanların əhatəsində məhv olan, yazıq erməni siması yaradaraq, Azərbaycan dövlətinə və xalqına qarşı əsl nifrət oyada bilmiş; **üçüncüsü,** formalaşmış antiazərbaycan beynəlxalq rə'yindən məharətlə istifadə edərək, bir tərəfdən, Azərbaycan torpaqlarını işğal etmiş, yüz minlərlə əhalini öz torpağından didərgin salmış, digər tərəfdən isə ABŞ və başqa böyük dövlətlərin beynəlxalq himayəsinə və güclü yardımına nail olmuş; **dördüncüsü,** aparılmış təbliğat və formalaşmış beynəlxalq rə'yə əsaslanaraq ABŞ-da və onun Avropa müttəfiqlərində Azərbaycana nifrət hissi oyatmış, onun tam təcrid olunmasına və müxtəlif dövlətlərin ona qarşı cəza tədbirlərinin tətbiq edilməsinə nail ola bilmişdir.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlanan Azərbaycan-Amerika dialoqu və müstəqil dövlətimizin okeanın əks qütbünə yönələn xarici siyasət xətti nəinki bu çirkin erməni siyasətinə öz məqsədlərinə tam nail olmağa imkan vermədi, əksinə tezliklə iki ölkə arasındakı münasibətlərin yaxşılaşmasına öz müsbət tə'sirini göstərdi.

1993-cü ilin iyun ayında Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə qayıtmasından sonra respublikamızın xarici siyasəti, o cümlədən ABŞ ilə münasibətləri yeni mərhələyə qədəm qoyaraq daha məqsədyönlü xarakter aldı və daha ardıcıl surətdə həyata keçirilməyə başladı. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev 1993-cü ilin sentyabr ayında ABŞ Prezidenti Bill Klinton, vitse-prezident Albert Qor və Konqresin spikeri Tomas Foliyə məktub göndərərək, ABŞ Konqresi tərəfindən qəbul edilmiş 907-ci düzəlişin qeyri-obyektiv olduğunu əsaslandırmış və Azərbaycan barəsində ayrı-seçkilik bəndinin ləğv olunması üçün tədbirlərin görülməsini xahiş etmişdir.(234) Vaşinqton dərhal bu məktuba reaksiya vermiş və öz nümayəndəsini Bakıya göndərmişdir.



1993-cü ilin sentyabr ayında Heydər Əliyev tərəfindən qəbul edilən ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Stroub Talbott Prezident Bill Klintonun cavab məktubunu Azərbaycan rəhbərinə təqdim etmişdir. ABŞ Prezidenti məktubda Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemindən narahatçılıq keçirdiyini bildirməklə bərabər, Azərbaycana edilən son hücumları və bunun nəticəsində bir çox Azərbaycan torpaqlarının işğalını qətiyyətlə pislədiyini qeyd etmiş, münaqişənin aradan qaldırılması üçün Dağlıq Qarabağ ermənilərinə və Yerevan hökumətinə ciddi təzyiqlər göstərilməsi haqqında mə'lumat vermişdir. Məktubda həmçinin, Amerikanın Azərbaycana bundan sonra 907-ci düzəliş qüvvədə qalmaqla, qeyri-hökumət təşkilatları xətti ilə ciddi kömək göstərəcəyinə söz verilirdi.(235)

Həmin ilin oktyabrında Azərbaycanın cənub-qərbində erməni silahlı qüvvələrinin hücumu ilə əlaqədar ABŞ dövlət departamentinin dərhal bəyanatla çıxış etməsi və işğal olunmuş bütün ərazilərdən hərbi qüvvələrin çıxarılmasını tə'kidlə tələb etməsi də başlanmış dialoqun və iki ölkə arasındakı yeni münasibətlərin ilkin müsbət əlamətlərinin nəticəsi hesab oluna bilər. Dövlət departamentinin bəyanatında ABŞ hökumətinin ciddi narahatlığı ifadə olunmaqla bərabər, bu ölkənin, Konqresin qəbul etdiyi 907-ci düzəlişə baxmayaraq, qeyri-dövlət xətti ilə bundan sonra da Azərbaycana mühüm yardımlar göstərəcəyi bildirilmiş, Azərbaycana müvafiq humanitar yardım göstərilməsi çağırışı ilə bütün dünya dövlətlərinə müraciət əksini tapmışdır. (236).

Bütün bunlar göstərir ki, ermənilərin 4 il müddətində məqsədyönlü şəkildə Azərbaycana qarşı apardıqları xarici siyasətin respublikamız üçün törətdiyi ağır nəticələri Heydər Əliyevin uzaqgörən və məharətli diplomatik fəaliyyəti nəticəsində 1994-cü ilin birinci yarısında artıq aradan qalxmağa başlamışdır. Azərbaycana qarşı hər cür yardımı qadağan edən 907-ci düzəlişə baxmayaraq, bir tərəfdən, Vaşinqtonun qeyri-hökumət təşkilatları xətti ilə Azərbaycana yardım göstərməyə başlaması, digər tərəfdən isə bütün dövlətləri Azərbaycana humanitar yardım göstərməyə çağırması ermənilərin planlarının baş tutmamasına əyani sübut idi. Azərbaycan cəmi bir ildə nəinki təkcə ABŞ-ın Qafqaz siyasətinə ciddi

tə'sir göstərə bildi, həmçinin əvvəllər əsasən Ermənistanı dəstəkləyən, Azərbaycanla heç bir əlaqəsi olmayan nüfuzlu Avropa dövlətləri ilə də ikitərəfli münasibətlər yarada bildi.

Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan-Amerika münasibətlərində başlanan isinişmə Azərbaycan diplomatiyasının ilk fəal addımlarının nəticəsi hesab olunsa da, onun qarşısında bu istiqamətdə çox ciddi vəzifələr qoyurdu. İlk növbədə iki ölkə arasında yenicə yaranan normal münasibətlərin genişlənməsi və inkişafı bütün diplomatik vasitələrlə tə'min edilməli və rəsmi Vaşinqtonun beynəlxalq dəstəyinə nail olmağın yolları aranmalı, Azərbaycanın müstəqil dövlətçilik və təhlükəsizlik problemlərinə bu fövqəldövlətin cəlb edilməsinin forma və metodları düşünülməli idi.

1994-1996-cı illərdə Azərbaycanın xarici siyasətində ABŞ-la münasibətlər əsas vəzifələrdən biri səviyyəsinə qaldırıldı. Əvvəla, əvvəlki illərdə bu ölkə ilə münasibətlər sahəsində yeridilən siyasət və buraxılan səhvlər öyrənildi və onların aradan qaldırılması yolları təhlil edildi. Mə'lum oldu ki, Azərbaycanın geostrateji əhəmiyyətini və dünya dövlətlərinin mənafe müstəvisində yerini düzgün qiymətləndirə bilməyən xarici siyasət idarəsi 1992-1993-cü illərdə ABŞ-ın Qafqaz regionunda və Azərbaycanın müstəqil dövlətçilik taleyində oynayacağı rolu tamamilə nəzərdən qaçırmış və bu sahədə heç bir əməli iş görməmişdir.

Eyni zamanda, bu iqtidar Rusiya-ABŞ-Avropa, ABŞ-yeni müstəqillik qazanmış dövlətlər və Rusiya münasibətlərinin mahiyyətini, əsas istiqamət və vəzifələrini, hər bir dövlətin ayrılıqda strateji və beynəlxalq təhlükəsizliyə tə'sir etmə imkanlarının əhəmiyyətini və qiymətini dərk edə bilməmişdir. Düşünməmişdir ki, strateji və iqtisadi mənafe baxımından Azərbaycanın əhəmiyyətini ABŞ-da axıra qədər dərk etməyincə, bu dövləti müdafiə etməyin mənfi və müsbət nəticələrini tam aydınlaşdırmayınca, regionda və beynəlxalq aləmdə bu ölkə ilə əlaqələrin yarada biləcəyi problemləri, gətirə biləcəyi xeyiri dəfələrlə götür-qoy etməyincə onu ABŞ-ın və beynəlxalq təşkilatların himayəsi altına almayacaqlar. Rusiya ilə münasibətləri və erməni diasporasının Amerika üçün kəsb etdiyi əhəmiyyəti düzgün qiymətləndirə bilməyən o zamankı hakimiyyət dairələrində geniş yayılmış guya "Rusiyanın Qafqazdakı tə'sir dairəsini zəiflətmək istəyi bizim dövlətin fəaliyyətindən asılı olmayaraq ABŞ-ı respublikamız ətrafında gedən proseslərə fəal müdaxilə etməyə sövq edəcək"-fikri tamamilə yanlış idi. Bu fövqəldövləti Azərbaycana, onun düçar olduğu problemlərə, regionda baş verən siyasi və münaqişəli məsələlərə fəal cəlb etməyin, Qafqazda xüsusi tə'siri olan Rusiyaya qarşı qoymağın nə qədər gərgin və düşünülmüş iş tələb etdiyini sonrakı dövr bir daha sübut etdi. Öz addımını yüz dəfə ölçüb-biçib atan, güclü erməni diasporasına malik bu ölkəni müvafiq qərara gəlməyə sövq etmək üçün Heydər Əliyev diplomatiyasına, onun hərtərəfli düşünülmüş, uzaqgörən siyasətinə ciddi ehtiyac duyulduğu bir daha qabarıq şəkildə sübut olundu.

1994-cü ildə Azərbaycan-ABŞ münasibətləri yüksələn xətlə inkişaf etmiş, hər iki tərəfin bir-biri ilə bağlı maraq və mövqeləri müəyyənləşmiş və qarşılıqlı siyasətin əsas konturları aydınlaşmağa başlamışdır. Həmin ildə iki ölkə rəhbərlərinin keçirdikləri görüş və müzakirələr sırasında iyun ayının 10-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə işgüzar səfəri zamanı ABŞ-ın dövlət katibi U.Kristofer ilə görüşü xüsusi əhəmiyyət kəsb etmişdir. Görüşdə Azərbaycan-Amerika münasibətlərinin bir sıra strateji və taktiki məsələləri müzakirə edilmiş, ikitərəfli, regional və beynəlxalq məsələlərin bu və ya digər aktual problemlərinə dair tərəflərin mövqeləri aydınlaşdırılmışdır. İkitərəfli münasibətlərlə bağlı hər iki tərəf qarşılıqlı faydalı əməkdaşlığa, regional və beynəlxalq münasibətlərdə sivil prinsiplərə, Dağlıq Qarabağ probleminin həlli üzrə beynəlxalq hüquq normalarına uyğun qərarlar qəbul etməyə və münasibətlər qurmağa hazır olduqlarını bəyan etmişlər.(237)

İki ölkə arasındakı münasibətlər həmin ilin sentyabrın 3-də Bakıda Azərbaycan Prezidenti Heydər Əliyevlə ABŞ Prezidentinin şəxsi nümayəndəsi, ABŞ-ın BMT-dəki daimi təmsilçisi Madlen Olbrayt arasında keçirilən görüşdə də geniş müzakirə edilmişdir. Dövlətlərarası münasibətlər sahəsində indiyə qədər əldə edilmiş razılaşmalar qüvvədə qalmaqla bərabər bu görüşdə ABŞ Prezidentinin Azərbaycan və Qafqazla bağlı yeni təklif və təşəbbüsləri də müzakirə edilmiş və tərəflər ortaq fikrə gəlmişlər.(238)

Mə'lum olmuşdur ki, ABŞ hökuməti Azərbaycanda baş verən bütün müsbət dəyişiklikləri yüksək qiymətləndirməklə, ona bundan sonra da qeyri-hökumət xətti ilə humanitar yardımlar göstərilməsini gücləndirəcək, 907-ci düzəlişin ləğv edilməsi imkanlarını arayacaq və buna çalışacaq, Dağlıq Qarabağ probleminin həlli məsələsində başlıca rolun Rusiyadan ATƏM-ə keçməsinə hər cür yardım göstərəcəkdir.

İki ölkə arasındakı münasibətlərin inkişafı və əlaqələrin güclənməsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il sentyabrın 6-da Qahirədə ABŞ-ın vitse-prezidenti Albert Qor ilə, sentyabrın 27-də isə Nyu-Yorkda Prezident Bill Klintonla görüşləri çox böyük əhəmiyyət kəsb etmişdir.(239) Görüşdə Ermənistan-Azərbaycan münaqişəsi zonasında yaranmış atəşkəs rejimini razılıqla qarşılayan ABŞ Prezidenti Dağlıq Qarabağ problemi yaranan gündən bəri ilk dəfə olaraq bu məsələdə rəsmi Yerevanın deyil, Azərbaycanın mövqeyini müdafiə etdiyini bildirmiş və Azərbaycanın Amerika üçün arzu edilən, əhəmiyyətli ölkə olduğunu bəyan etmişdir. Əgər bu görüşə qədər rəsmi Vaşinqtonda Dağlıq Qarabağ problemi deyiləndə yalnız bir qrup daxili erməni qüvvələrinin adı çəkilirdisə, indi artıq münaqişənin tərəfi kimi Ermənistanın adı çəkilməyə başlayır.

1993-cü ilin ikinci yarısından başlayaraq aparılan gərgin diplomatik iş nəinki təkcə ABŞ Prezidentinin və rəsmi dövlət nümayəndələrinin Azərbaycana münasibətini xeyli dəyişdi, həmçinin bütün Amerika ictimaiyyətini və tanınmış siyasi xadimləri də iki ölkə arasındakı münasibətləri inkişaf etdirmək üçün konkret addımlar atmağa sövq etdi. 1994-cü ilin ortalarından başlayaraq həyata keçirilən tədbirlər nəticəsində ABŞ-da erməni təbliğatı iflasa uğramağa, Dağlıq Qarabağ mifi sındırılmağa və Azərbaycan haqqında əsl həqiqətlər geniş ictimaiyyət tərəfindən dərk edilməyə başlanmışdır. Bütün bunlar Amerikanın qanunverici orqanlarının üzvlərinə və geniş ictimai-siyasi dairələrə də dərhal öz müsbət tə'sirini göstərmişdir.

Təkcə 1994-cü ilin may-oktyabr aylarında Azərbaycana qarşı həyata keçirilən ədalətsiz siyasətə yenidən baxılması, 907-ci düzəlişin ləğv edilməsi ilə bağlı Vaşinqtonda müxtəlif səviyyələrdə



hökumətə, Senata və Konqresə bir neçə müraciət olmuşdur. Bunların içərisində may ayında senatorlar P.Saymons və Q.Reydin təklifləri, iyul ayında D.Konsini və Lixinin müraciətləri və başqaları daha böyük əhəmiyyət kəsb etmişdir.(240) Ən maraqlısı isə ilk dəfə bu sənədlərdə Dağlıq Qarabağ ermənilərindən deyil, Ermənistan-Azərbaycan münaqişəsindən, ABŞ-ın əsl maraqları və erməni diasporasının təqdim etdiyi "Amerika maraqlarından söhbət açılır və ədalətli qərarlar qəbul edilməsi tələb edilirdi. Bu o deməkdir ki, Azərbaycan diplomatiyası bir ilin içərisində dörd illik erməni təbliğatını alt-üst etmiş, Dağlıq Qarabağ probleminin və Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini aça bilmiş, amerikalılara öz həqiqi maraqlarını ermənilərin təqdim etdiyi maraqlardan ayırmaqda köməklik göstərmişdir.

1994-cü ilin ikinci yarısında politoloq Z.Bjezinski, ABŞ konqresmeni C.Kennedi, T.Penni və b. həm Prezident Bill Klintona, həm də Konqresə müraciətlər etmiş, Azərbaycanla hərtərəfli əlaqələrin əhəmiyyətini anlatmış, bu ölkəyə qarşı Konqresin qəbul etdiyi 907-ci düzəlişi aradan götürməyə çağırmışlar.(241) Bütün bunlar 1994-cü ilin dekabrında ATƏM-in Budapeşt sammiti zamanı öz müsbət nəticələrini göstərdi.

Budapeşt sammitində ABŞ-ın BMT-dəki daimi nümayəndəsi M.Olbrayt və dövlət departamentinin yeni müstəqil dövlətlərlə baş əlaqələndiricisi C.Kollinzin təşəbbüsü ilə Azərbaycan və Ermənistan Prezidentlərinin görüşü təşkil edilmişdir. Bundan başqa, Amerika nümayəndələrinin yaxından köməyi ilə sammitdə ATƏM-in bütün fəaliyyəti dövründə, xüsusən də Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olan Minsk qrupunun yarandığı 1992-ci ildən bəri ilk dəfə olaraq Azərbaycanı tamamilə tə'min edən mühüm bir qətnamə qəbul edilmişdir.(242)

Bu qətnaməyə görə Avropanın müxtəlif bölgələrində baş verən münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi ayrı-ayrı dövlətlərin inhisarından çıxarılıb, birbaşa ATƏT-in ixtiyarına verilir. Eyni zamanda, münaqişə zonalarında, o cümlədən Dağlıq Qarabağ ətrafında baş verən problemin həllində hansısa bir ölkənin deyil, ATƏT-in sülhməramlı qüvvələri

yerləşdirilməlidir.(243)

Beləliklə, 1993-cü ilin ikinci yarısından başlanan məqsədyönlü xarici siyasət artıq 1994-cü ilin sonunda öz müsbət nəticələrini göstərdi və mə'lum oldu ki, 1988-1993-cü illərdə Azərbaycanın hakimiyyət dairələrinin görə bilmədiyi işlər Prezident Heydər Əliyevin rəhbərliyi altında cəmi bir ilə həyata keçirildi. **Bu hansı işlər idi?**

**-Əvvəla,** erməni təbliğatı və onun yaratdığı mif darmadağın edildi, Qafqazda əsl vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin mahiyyəti, Azərbaycan haqqında həqiqətlər bütün dünyada açıqlandı və beynəlxalq ictimai rə'y Azərbaycanın xeyirinə dəyişdirildi;

**-İkincisi,** atəşkəs əldə edildi və münaqişənin nəticələrini aradan qaldırmaq üçün xüsusi diplomatik iş quruldu. Bunun nəticəsində bir tərəfdən, Azərbaycan öz siyasəti ilə bütün dünyada sülhsevər, sivilizasiyalı ölkə kimi tanıdıldı, Avropanın və dünyanın ən böyük və nüfuzlu ölkələri ilə qarşılıqlı və ikitərəfli münasibətlər yaratmaq üçün ciddi iş aparıldı, digər tərəfdən, Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsi ümumavropa təhlükəsizliyi müstəvisinə çıxarıldı;

**-Üçüncüsü,** ABŞ-ın və digər Qərb ölkələrinin iqtisadi və strateji maraqları, onları Azərbaycanla yaxından bağlamağın yolları öyrənildi və bu sahədə mühüm nailiyyətlər əldə edildi. Azərbaycanın strateji neft siyasəti ABŞ-ı və aparıcı Avropa dövlətlərini respublikamızla sıx bağladı, onların iqtisadi maraqlarını bizim milli dövlətçilik mənafelərimizlə tam uzlaşdırdı, Azərbaycanın bütün əlverişli şəraiti və əhəmiyyəti bu ölkələrin dövlət və iş adamlarına sübut edildi. Azərbaycan mövzusu ABŞ və Avropa dövlətlərinin ictimai təbliğat və kütləvi informasiya vasitələrində daimi müzakirə obyektinə çevrildi.

**-Dördüncüsü,** dünya siyasətinə önəmli tə'sir göstərən ABŞ-la qarşılıqlı faydalı münasibətlər qurmaq sahəsində xüsusi iş aparıldı və bu sahədə qarşıya qoyulan məqsədlərə əsasən nail olundu.

1995-1996-cı illərdə iki ölkə arasında siyasi və iqtisadi əlaqələr yüksələn xətlə inkişaf etmişdir. 1995-ci il mayın 4-də Prezident Heydər Əliyevin iştirakı ilə ABŞ-ın Bakıdakı səfirliyinin yeni binasının rəsmi açılışı oldu. May ayında alman faşizmi üzərində qələbənin 50 illiyinə həsr edilmiş mərasimlərdə iştirak edən Prezident Heydər Əliyev Moskvada ABŞ Prezidenti Bill Klintonla, Londonda isə ABŞ-ın vitse-prezidenti Albert Qor ilə görüşmüşdür.(244) Görüşlərdə qarşılıqlı maraq doğuran bir çox məsələlər müzakirə edilmişdir. Azərbaycan Prezidenti Heydər Əliyevin bölgədə tam müstəqil siyasət yeritdiyindən razı qaldığını qeyd edən Prezident B.Klinton Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ABŞ-ın öz sə'ylərinin bundan sonra daha da gücləndirəcəyini, ATƏT-in Minsk qrupunun fəaliyyətinə yardım edəcəyini bəyan etmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupuna səfir statusu ilə özünün şəxsi nümayəndəsini tə'yin etmək niyyətinə görə Prezident Bill Klintona öz minnətdarlığını bildirmişdir.

1995-ci ilin oktyabr ayında BMT-nin 50 illik yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak etmək üçün Nyu-Yorka gəlmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev burada ABŞ Prezidenti Bill Klintonla görüşmüş və iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi, Ermənistan Azərbaycan münaqişəsinin aradan qaldırılması və s. məsələləri müzakirə etmişdir. Prezident Heydər Əliyev, eyni zamanda, Nyu-Yorkda ABŞ-ın energetika naziri xanım O'Liri, ABŞ-ın BMT-dəki daimi nümayəndəsi xanım M.Olbrayt, keçmiş dövlət katibi Henri Kissincer, senator Qudman, konqresmen Qreq Laflin, ABŞ-ın yəhudi icmasının rəhbəri Şnayder və b. şəxslərlə görüşmüşdür.(245)

Bundan başqa, 1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Amerikanın bir sıra görkəmli ictimai və siyasi xadimləri ilə çoxsaylı görüşlər də keçirmişdir. Azərbaycan Prezidenti Bakıda konqresmen Qreq Laflini, senator Riçard Şelbini, Zbiqnev Bjezinskini qəbul etmiş, iki ölkə arasındakı əlaqələrin inkişaf perspektivlərini müzakirə etmişdir.(246) Bu görüşlərdə əsas məqsədlərdən biri Azərbaycan haqqında həqiqətin dünyaya, xüsusən də ABŞ-da yayılması idi. Azərbaycan Prezidenti Heydər Əliyev 1995-ci il oktyabrın 7-də Bakıda işgüzar səfərdə olan ABŞ-ın "Amerikares" humanitar təşkilatının fəxri sədri, görkəmli siyasi xadim

Z.Bjezinskini qəbul edərkən demişdir: "Biz istəyirik ki, Azərbaycan haqqında həqiqət hər yerdə, xüsusən də ABŞ-da və ölkənizin beynəlxalq əlaqələrlə, siyasətlə məşğul olan dairələrdə bilinsin" (247)

1995-ci il ərzində keçirilən bütün görüşlər, Azərbaycan Prezidentinin fəal sə'yi və məqsədyönlü siyasəti iki ölkə arasındakı münasibətlərin inkişafına və dərinləşməsinə mühüm tə'sir göstərdi. Getdikcə Azərbaycan-Amerika münasibətlərində həlledici amilə çevrilən 907-ci düzəlişin ləğvi, Ermənistan-Azərbaycan münaqişəsinə prinsipial qiymət verilməsi, Qafqaz siyasətinin əsas prioritetlərinin müəyyənləşməsi və bu siyasətə aydın münasibət bildirilməsi, bu regionun hər bir dövlətinə münasibət və s. strateji məsələlər Amerika ictimai-siyasi dairələrinin, kütləvi informasiya vasitələrinin, Konqresin, Senatın, hökumət dairələrinin və beynəlxalq qurumların əsas müzakirə mövzusuna çevrilməyə başladı. 1995-ci ilin may ayında Bakıda keçirilən "Xəzərneftqaz-95" Beynəlxalq sərgisində ABŞ-ın energetika naziri xanım Hozl O'Liri bu barədə demişdir: "Belə bir faktdan son dərəcə məmnunam ki, cənab B.Klinton Azərbaycan Respublikasına ən əlverişli şərait statusu verməyi qərara almışdır". (248)

Təkcə 1995-ci il ərzində Azərbaycan-Amerika münasibətlərinin bu və ya digər məsələləri üzrə yuxarıda bəhs etdiyimiz müxtəlif qurumlarda onlarla xüsusi müzakirələr keçirilmiş, müxtəlif təkliflər verilmiş və ayrı-ayrı məsələlər üzrə ümumi razılıq əldə edilmişdir. Lakin 907-ci maddənin ləğvi, Azərbaycana müxtəlif yardımlar göstərməyin yolları, vasitələri və qanuni tərəfləri, Dağlıq Qarabağ probleminin həlli, Azərbaycan dövlətinin yeritdiyi tam müstəqil və dünya birliyinə inteqrasiya olunmaq siyasətinə yardım və s. məsələlərlə bağlı həm Konqresdə, Senatda, həm də ayrı-ayrı hökumət qurumlarında müntəzəm müzakirələr getsə də, erməni lobbisinin güclü tə'siri və müdaxiləsi nəticəsində irəli sürülən vəzifələrin həlli yolunda əsaslı nəticələr əldə etmək mümkün olmamışdır. 1995-ci ilin mayında Azərbaycana müxtəlif humanitar yardımların verilməsini nəzərdə tutan "Xelms layihəsi" deyilən sənəd də məhz Konqresdə erməni diasporasının ciddi müqaviməti ilə rastlaşmış və tə'xirə salınmışdır.(249)



1996-cı ildə Azərbaycan-Amerika münasibətlərində daha ciddi addımlar atılmışdır. Həmin il beynəlxalq tədqiqatçılar və iki ölkənin diplomatik missiyaları tərəfindən həlledici dönüş ili kimi qiymətləndirilmişdir.

İl ərzində ən yüksək səviyyələrdə intensiv əlaqələr davam etdirilmiş və iki ölkə arasındakı münasibətlər strateji əməkdaşlıq və tərəfdaşlıq istiqamətində inkişaf etmişdir. Yanvar ayında Parisdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-ın vitse-prezidenti Albert Qorla görüşü də, mart ayında Bakıda Stroub Talbottun başçılıq etdiyi nümayəndə hey'əti ilə aparılan danışıqlar da iki ölkə arasındakı münasibətlərin əməkdaşlıq və tərəfdaşlığa doğru sür'ətlə irəliləməsini bir daha təsdiqləmişdir.(250) Yaranmış münasibətlərin və getdikcə dərinləşən strateji əməkdaşlığın müsbət tə'siri 1996-cı ilin yanvarında konqresmen C.Vilsonun təşəbbüsü və bir çox digər Amerika rəsmi dairələrinin dəstəyi ilə Konqresin 1995-ci ilin mayında qəbul edə bilmədiyi "Azərbaycana birbaşa humanitar yardım göstərilməsi haqqında" qanun layihəsi bu dəfə bəyənildi və erməni lobbisinin ciddi müqavimətinə baxmayaraq təsdiq edildi. Elə həmin gün bu qanun Prezident Bill Klinton tərəfindən imzalandı.(251)

Bunun ardınca Azərbaycana, onun yeritdiyi daxili və xarici siyasətə, regionda tutduğu mövqeyə və atdığı addımlara bütün ABŞ-da, onun ayrı-ayrı qurumlarında münasibət əsaslı surətdə dəyişməyə başladı. Bütün bunlar göstərdi ki, Heydər Əliyevin üç ilə yaxın yeritdiyi fəal, ardıcıl və məqsədyönlü siyasət, keçirdiyi görüşlər, bu ölkəyə etdiyi səfərlər, ABŞ-ın nüfuzlu senatorları, konqresmenləri, siyasi və hökumət xadimləri ilə apardığı danışıqlar, Amerika neft kompaniyaları ilə yaratdığı konsorsiumlar bu ölkənin Azərbaycana münasibətinin müsbət istiqamətdə tam dəyişməsinə gətirib çıxarmışdır. Uzaqgörən siyasət Azərbaycanı artıq ABŞ-ın xarici siyasətindəki "Amerikaya zidd siyasət yeridən" dövlətlər qrupundan "Amerikanın tərəfdaşı olan" dövlətlər qrupuna çıxara bilmişdir. Azərbaycana yardım haqqında Konqresin qəbul etdiyi sənədin B.Klinton tərəfindən dərhal imzalanmasını iki ölkə arasındakı əlaqələri məhdudlaşdıran 907-ci düzəlişin aradan qaldırılmasına və

Azərbaycan-Amerika münasibətlərinin əhəmiyyətli dərəcədə dəyişməsinə doğru atılan böyük addım hesab etmək olar.

Əvvəllər Azərbaycana yalnız qeyri-hökumət təşkilatlarının xətti ilə yardım göstərməyə imkan verən 907-ci düzəlişə əlavə olan bu yeni qanun rəsmi dövlət qurumlarına da Azərbaycan hökumətinə humanitar yardım göstərmək imkanı verirdi. Qanuna görə, əgər Prezident müəyyən etsə ki, qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göndərilən yardım qaçqınların və məcburi köçkünlərin ehtiyaclarını lazımi dərəcədə ödəmir, onda hökumət təşkilatları bu işə qoşula bilər. Azərbaycanın mənafeyinə uyğun olan bu qanunun qəbul edilməsi həm Amerikada, həm də Azərbaycanda böyük razılıqla qarşılanmışdır.

Lakin ABŞ-ın erməni diasporasının güclü tə'siri və xüsusi sə'yi ilə 1996-cı ilin iyun ayında ABŞ Konqresinin Nümayəndələr palatasında ölkələrimiz arasında münasibətlərin inkişafına ziyan vuran "Porter əlavəsi" deyilən yeni bir sənəd qəbul edildi ki, bu da Azərbaycanda ciddi narazılıq doğurdu.(252) "Porter əlavəsi" müasir beynəlxalq münasibətlər üçün qeyri-normal şərait yaratmağı, müstəqil dövlətin suverenliyini və ərazi bütövlüyünü pozmağı, təcavüzkarı şirnikləndirməyi, müasir beynəlxalq münasibətlər sisteminin ABŞ tərəfindən pozulmasını, Ermənistanın təcavüzkar kimi tanınmasını çətinləşdirməyi, təcavüzkarı "Böyük Ermənistan" kimi uydurma planlarını reallaşdırmağa dəstəkləməyi güdürdü". (253)

Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı və görülən digər ciddi tədbirlər nəticəsində 1996-cı ilin iyulunda ABŞ Senatı xarici dövlətlərə yardım haqqında qanun qəbul edərkən "Porter layihəsi"ni müzakirə etmiş və Amerikanın prinsiplərinə zidd layihə kimi rədd etmişdir.(254) Azərbaycan Prezidenti Heydər Əliyevin qəti mövqeyi və həyata keçirdiyi tədbirlər, ABŞ konqresmenləri Ç.Vilson, Q.Laflin, Ç.Çapmen və B.Bryuster kimi siyasi xadimlərin fəaliyyəti və eyni zamanda Azərbaycanla münasibətlərin əhəmiyyətini dərk edən ABŞ Prezidentinin ədalətli mövqeyi ermənilərin xüsusi sə'yi ilə ortaya atılan bu layihənin ləğv edilməsində öz müsbət nəticəsini verdi. ABŞ Konqresi yekun qərar qəbul edərkən büdcənin xarici ölkələrə yardım bölməsində Azərbaycana humanitar yardım məsələsi uzlaşdırıcı



komissiyasının verdiyi təklif şəklində qəbul edildi. Beləliklə, ABŞ Konqresi erməni lobbisinin təzyiqinə baxmayaraq Azərbaycanın mənafeyinə uyğun gələn sənəd qəbul etdi. Bu qanuna görə ABŞ-ın Azərbaycana humanitar yardım göstərməsi üçün daha əlverişli şərait yaranır.

Bundan başqa, 1996-cı ilin oktyabrında ABŞ dövlət departamenti xüsusi bəyanat verərək, ABŞ-ın Dağlıq Qarabağda "prezident" seçkiləri keçirilməsi haqqındakı xəbərlərdən çox narahat olduğunu bildirmiş və qeyd etmişdir ki, ABŞ hökuməti Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir.(255)

Bu bəyanat indiyə qədər Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ilə bağlı, bir qayda olaraq, ümumi ifadələr işlədən, insan hüquqları və beynəlxalq prinsiplərdən çıxış edən rəsmi Vaşinqtonun Azərbaycanın ərazi bütövlüyü və suveren dövlət hüquqlarını dəstəkləyən mövqeyini ilk dəfə aydın və prinsipial şəkildə açıqlayırdı. Bəyanat bir daha sübut etdi ki, ermənilərin güclü tə'sirinə baxmayaraq, ABŞ artıq Azərbaycana münasibətdə obyektiv və beynəlxalq hüquq normalarına tam uyğun bir mövqedə dayanır. Bu mövqeyə nail olmaq üçün Heydər Əliyev diplomatiyası 1993-cü ilin ortalarından başlayaraq çox mühüm, ardıcıl və müvəffəqiyyətli bir xarici siyasət yeritmişdir.

1996-cı ilin noyabr ayında Bakıda ABŞ-ın yeni müstəqil dövlətlər üzrə xüsusi müşaviri, səfir C.Kollinzin başçılıq etdiyi nümayəndə hey'əti ilə Azərbaycan Prezidenti Heydər Əliyevin görüşü bu fikirləri bir daha sübut etdi. Görüşdə ABŞ Prezidenti Bill Klintonun Azərbaycan Prezidenti Heydər Əliyevə məktubu təqdim edildi.(256) 1992-1993-cü illərdə Azərbaycan ətrafında baş verən hadisələrə tam biganəlik nümayiş etdirən, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həllində, bir qayda olaraq, Ermənistanı müdafiə edən, Azərbaycana qarşı müxtəlif cəza tətbiq edən Vaşinqton indi ABŞ Prezidentinin dili ilə Azərbaycanı Amerikanın maraq və mənafe dairəsində olan dövlət və mühüm tərəfdaş kimi qiymətləndirirdi. Bu, ABŞ və Qərb dövlətləri ilə münasibətlər sahəsində Azərbaycanın xarici siyasətinin böyük uğuru idi. Məhz bu siyasətin nəticəsində 1994-cü ilin dekabrında ATƏM-in Budapeşt

sammitində Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həlli yolları ciddi aranmış və mühüm qərarlar qəbul edilmişdir. Lissabon sammitində isə bu problemin nizamlanmasının əsas prinsipləri müəyyənləşdirilmişdir.(257) Hər iki sammit məhz ABŞ-ın ciddi sə'yi və köməkliyi ilə Azərbaycanın mənafeyinə və beynəlxalq hüquq normalarına tam uyğun gələn mühüm qərarların qəbul edilməsi ilə başa çatmışdır.

Beləliklə, 1996-cı ildə Azərbaycan-Amerika münasibətləri tərəfdaşlıq və əməkdaşlıq istiqamətində yüksələn xətlə inkişaf etmiş və Lissabon samm itində Azərbaycan üçün taleyüklü məsələ hesab olunan Dağlıq Qarabağ probleminin həlli prinsiplərini müəyyən edən qərarın qəbul edilməsində ABŞ bir daha öz prinsipial mövqeyini bildirmişdir. Bundan başqa, məhz 1996-cı ildə ABŞ Senatının bütövlükdə Azərbaycanın dövlətçilik maraqlarına qarşı çevrilmiş "Porter əlavəsini" rədd etməsi, Konqresi, ABŞ hökumətini Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin pozulmasına yönəlmiş tədbirlərə qarşı çıxmağa çağırması, Amerikanın əksər ictimai-siyasi və dövlət xadimlərinin 907-ci düzəlişə qarşı çıxması və s. Azərbaycan diplomatiyasının qələbəsi olmaqla bərabər, həm də iki ölkənin bütün sahələr üzrə dövlətçilik maraqlarının üst-üstə düşdüyünü bir daha sübut etmişdir.

1996-cı ildə Azərbaycan dövləti artıq təkcə ABŞ-ın icra strukturları ilə deyil, həm də qanunverici hakimiyyət orqanları, kütləvi informasiya vasitələri, ictimai-siyasi dairələri, maliyyə-iqtisadi qurumları, ayrı-ayrı iş adamları ilə də xüsusi diplomatik iş aparmış və bu sahədə çox böyük uğurlar qazanmışdır.

İki ölkə arasındakı münasibətlərin yaxşılaşması və yüksələn xətlə inkişafı 1997-ci ildə də intensiv yolla davam etdirilmişdir. Azərbaycanla münasibətlərdə əsl Amerika maraqlarını erməni lobbisinin təqdim etdiyi "Amerika maraqlarından" fərqləndirən Vaşinqton hökuməti bu ölkə ilə münasibətlərin yaxşılaşması və inkişaf etməsi üçün bir sıra konkret addımlar atmışdır. Dövlət katibi Madlen Olbrayt fevral ayında bildirmişdir ki, "Klinton hökuməti Azərbaycana göstərilən yardımın məhdudlaşdırılması əleyhinədir və 907-ci düzəlişi ləğv etmək üçün Konqresdə göstərilən bütün cəhdləri



dəstəkləyir".(258)

May ayında demokrat B.Şermanın Amerikanın erməni lobbisinin tə'siri ilə Dağlıq Qarabağa birbaşa humanitar yardım edilməsi ilə bağlı təklifi ABŞ-ın qanunverici orqanında rədd edilmişdir.(259)

Mayın 10-da Bakıda Heydər Əliyev tərəfindən qəbul edilən ABŞ səfiri R.Kozlariç B.Klintonun məktubunu Azərbaycan Prezidentinə təqdim etdi. Görüşdə mə'lumat verildi ki, Prezident B.Klinton öz məktubunda Prezident Heydər Əliyevi bu ilin iyul-avqust aylarında ABŞ-a rəsmi səfərə də'vət edir.(260)

Bundan başqa, 1997-ci ilin may ayında "Avropada adi silahların məhdudlaşdırılması haqqında müqavilənin cinah sənədinin təsdiqlənməsi haqqında qətnamə"də ABŞ Senatının xüsusi bir fəsil qəbul etməsi də regionda sür'ətlə silahlanma ilə əlaqədar ABŞ-Azərbaycan qarşılıqlı narahatlığının bilavasitə nəticəsi olmuşdur. Bu fəsildə deyilir: "1997-ci il avqustun 1-dən gec olmayaraq Prezident Senatın Xarici Münasibətlər Komitəsinə və Nümayəndələr Palatasının spikerinə aşağıdakılar barəsində tam və mükəmməl mə'ruzə, o cümlədən məxfi və qeyri-məxfi informasiya təqdim etməlidir.

**1.** Ermənistan müqavilə ilə məhdudlaşdırılan adi silahların və texnikanın Ermənistan ərazisi ilə Azərbaycandakı separatçı hərəkata göndərilməsinə yol verərkən müqaviləyə uyğun hərəkət etmişdirmi;

**2.** Qafqaz regionunda yerləşən digər iştirakçı dövlətlərin hərbi hissələri müqaviləyə uyğundurlarmı;

**3.** Əgər Ermənistanın 1-ci bənd üzrə müqaviləyə uyğun olmadığı aşkara çıxarılıbsa və ya əgər hər hansı digər iştirakçı dövlət 2-ci bənd üzrə müqaviləyə uyğun deyildirsə, onda xarici yardım haqqında (keçmiş Sovet İttifaqının müstəqil dövlətlərinə yardım barəsində) 1961-ci il tarixli qanunun birinci hissəsinin ikinci fəslində və ya qanunun digər müddəalarında tələb edildiyi kimi prezident sanksiyalar tətbiq olunması üçün hansı tədbirləri görmüşdür".

Senatorlar həmin sənədi yekdilliklə qəbul etmişlər.(261)ABŞ-da Azərbaycan həqiqətlərinin daha dərindən dərk edilməsini belə bir fakt da təsdiqləyir ki, may ayında Bakıda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilən ABŞ senatoru S.Braunbək bildirmişdir ki, 907-ci maddə mütləq dəyişdirilməlidir.

O, əmin olduğunu qeyd etmişdir ki, hər iki tərəfin səʼyi ilə bu sahədə tərəqqi əldə olunacaq.(262)

1997-ci ildən ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi fəaliyyət göstərən ABŞ Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün daha məqsədyönlü iş aparmağa başlayıb. İyunun 1-də Minsk qrupunun həmsədrlərini qəbul edən Prezident Heydər Əliyev qeyd etmişdir ki, "ATƏT-in Minsk qrupunun indiki tərkibi, yəʼni Rusiya, ABŞ və Fransa münaqişənin həllinə nail ola biləcək səviyyədədir."(263)

1993-cü ilin sonundan başlayaraq iki ölkə arasında iqtisadi və mədəni əlaqələr də getdikcə genişlənməyə başlamışdır. Bu müddətdə Azərbaycan diplomatiyasında belə bir siyasi reallıq və məntiq əsas götürülmüşdür ki, dünyada artıq çoxdan "mücərrəd siyasi maraq" və soyuq müharibə dövrünün ideoloji qarşıdurması öz yerini iqtisadi maraqlara vermişdir. Odur ki, Heydər Əliyev başda olmaqla Azərbaycan diplomatiyası ölkəmizə ayaq üstə dayanmağa və müstəqil addımlamağa kömək göstərmək üçün ABŞ və Qərb dövlətlərinə bu ölkənin gələcək siyasi, regional və beynəlxalq əhəmiyyəti ilə yanaşı, iqtisadi sahədə də verə biləcəyi xeyiri anlatmaq məqsədilə çox gərgin və məhsuldar iş aparmışdır. İlk növbədə Azərbaycanın strateji inkişaf mənafelərini ayrı-ayrı dövlətlərin, o cümlədən ABŞ-ın iqtisadi maraqları ilə uzlaşdırmaq üçün silsilə tədbirlər düşünülüb həyata keçirilmişdir. Bu işin ən çətin tərəfi müxtəlif dövlətlərin bütövlükdə Qafqaz regionu və bilavasitə Azərbaycan, onun iqtisadi varidatı və potensialı üzərində köklənmiş imperiya ambisiyalarını, ərazi iddialarını və iqtisadi maraq dairəsi uğrunda apardıqları mübarizənin reallıqlarını, onların kəsişən və toqquşan maraqlarını dəqiq müəyyənləşdirmək, çevik manevrlər və xüsusi taktiki gedişlərlə dövlətçilik mənafelərimizi maksimum qorumaq idi. Bundan başqa, ABŞ-ı və Qərb dövlətlərini Azərbaycana iqtisadi əməkdaş və tərəfdaş etmək üçün respublikamızın iqtisadi potensialı, bu ölkələrlə qarşılıqlı faydalı iqtisadi əməkdaşlığa və tərəfdaşlığa hazır olması sübut olunmalı, onların iqtisadi maraqları respublikamızın mənafeləri ilə uyğunlaşdırılaraq maddiləşdirilməli idi. Azərbaycan elə xarici-iqtisadi siyasət yeritməli idi ki, Qərb və



ABŞ onun güclü və qüdrətli dövlət olacağı dövrü gözləmədən bu işdə yaxından köməklik göstərsin, respublikamızın iqtisadi potensialından müstəqil dövlətimizin möhkəmlənməsi işində maksimum istifadə edilsin.

Bununla bağlı 1993-cü ilin sonundan başlanan ardıcıl xarici-iqtisadi siyasət nəhayət ki, ilk dəfə olaraq 1994-cü il avqustun 10-da Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyevlə Amerikanın Yunayted BMB Qrup Şirkəti ilə çox mühüm bir müqavil onin bağlanması ilə nəticələndi. Həmin müqavilə 20 il müddətinə bir neçə yüz milyon barel gücündə olan iki neft yatağının birgə işlənməsini və istismarını nəzərdə tuturdu.(264)

Bunun ardınca 1994-cü ilin sentyabr ayının 20-də bağlanan "Əsrin müqaviləsi"adlanan neft kontraktlarına ABŞ-ın "Amoko", "Pennzoyl", "Yunokal", "Eksson" kimi iri neft şirkətləri də cəlb edilmişdir.(265) "Əsrin müqaviləsi"ndə investisiya payının 47 %-nin ABŞ şirkətlərinə məxsus olması təsadüfi deyildi. İqtisadi əməkdaşlığın siyasətlə sıx bağlı olduğunu bildirən Prezident Heydər Əliyev ABŞ şirkətlərinin Azərbaycanda fəaliyyəti nəticəsində Amerikanın bu bölgədə strateji məqsədlərinin möhkəmlənməsi üçün əsas yarandığını xüsusi qeyd edirdi. (266)

1995-ci ildə iki ölkə arasındakı iqtisadi əməkdaşlıq daha da genişlənmişdir. Yanvar ayında iki ölkə hökumətləri arasında bağlanmış "Kapital qoyuluşuna kömək haqqında" Saziş Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edilmişdir.(267)

Bundan başqa, 1995-ci ildə ABŞ-ın "Pennzoyl" şirkəti Xəzər dənizinin neft yataqlarından çıxarılan qazın utilizasiya edilməsi layihəsini həyata keçirməyə başlamışdır. Təkcə bu layihənin həyata keçirilməsi nəticəsində Azərbaycanın ildə 90 milyon ABŞ dolları miqdarında gəlir götürəcəyi gözlənilir.(268)

Noyabrın 10-da Bakıda imzalanmış "Qarabağ" strukturu üzrə yeni neft müqaviləsinə ABŞ-ın "Pennzoyl" şirkəti də cəlb edilmişdir.(269)

Respublika hökuməti Azərbaycanın dünya standartlarına uyğun yüksək ixtisaslı mütəxəssislərə ehtiyacını nəzərə alaraq Bakıda ABŞ ali məktəblərinin professor-müəllim heyʼəti cəlb olunmaqla, tədrisi ingilis dilində aparılan "Amerika Universiteti" adlı qeyri-dövlət təhsil

müəssisəsinin açılmasını məqsədəuyğun hesab etmiş və onun fəaliyyəti üçün lazımi şərait yaratmışdır.(270)

1996-cı ildə iki dövlət arasındakı iqtisadi əlaqələr yüksələn xətlə inkişaf etmiş, ABŞ-ın Azərbaycana sərmayə qoyan şirkət və digər müəssisələrinin sayı artmış, Azərbaycana göstərilən maliyyə və humanitar yardımların həcmi bir neçə dəfə genişlənmişdir. Həmin ildə Azərbaycan Prezidentinin ABŞ-ın iri neft şirkətlərinin -"Mobil", "Şevron", "Konoko" və b. rəhbərləri ilə keçirdiyi görüşlərdə iki ölkə arasında iqtisadi əməkdaşlığın müxtəlif sahələri geniş müzakirə olunmuş, Amerikanın iri şirkətlərinin Azərbaycan iqtisadiyyatına kapital qoyması haqqında mühüm qərarlar qəbul edilmişdir.

1996-cı ilin oktyabr ayında ABŞ Prezidenti Bill Klintonun MDB dövlətləri ilə energetika və ticarət əlaqələri üzrə rəsmi nümayəndəsi Yan Kalitskinin başçılıq etdiyi nümayəndə hey'ətinin Bakıya səfəri və Azərbaycan Prezidenti ilə apardıqları danışıqlar ABŞ-Azərbaycan iqtisadi əməkdaşlığının inkişafına mühüm təkan vermişdir.

Azərbaycan ilə ABŞ arasında mövcud ticarət və iqtisadi əlaqələri yüksək qiymətləndirən Yan Kalitski qeyd etmişdir ki, əgər bu əlaqələr bundan sonra da belə sür'ətlə davam edərsə, Azərbaycan 1997-ci ilin birinci yarısında Dünya Ticarət Təşkilatının tam bərabər hüquqlu üzvü ola bilər.(271)

1996-cı ilin dekabrında Azərbaycanda ABŞ Ticarət Palatasının rəsmi açılışı oldu.(272) Bu Palatanın açılması Azərbaycanda fəaliyyət göstərən onlarla ABŞ şirkət və birliklərinin, iş adamlarının fəaliyyətini tənzimləmək, vahid bir mərkəzdən onlara istiqamət vermək baxımından çox böyük əhəmiyyət kəsb etmişdir. Açılışda iştirak edən Azərbaycan Prezidenti Ticarət Palatasının iki ölkə arasındakı əlaqələrdə oynayacağı müsbət rolu xüsusi qiymətləndirmiş, Palatanın Azərbaycan iqtisadiyyatına ABŞ-ın iqtisadi, maliyyə və ticarət təşkilatlarının daxil olmasını sür'ətləndirəcəyinə və bunun üçün mühüm şərait yaradacağına əmin olduğunu bildirmişdir.

1996-cı ilin dekabrında Azərbaycanın "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istismarı üzrə imzalanmış növbəti konsorsiumda ABŞ ın daha iki nüfuzlu və aparıcı neft şirkətləri hesab olunan



"Amoko" və "Yunokal" 55,5 faiz payla iştirak etmişdir. Bu Azərbaycanda neft yataqlarının istismarı sahəsində ABŞ şirkətlərinin payının çoxluq təşkil etdiyi ilk müqavilə idi.(273)

Bütün bunlar və digər iqtisadi əlaqələr göstərir ki, keçən üç ildə Azərbaycan-Amerika münasibətləri iqtisadi, siyasi, mədəni və beynəlxalq əlaqələr sahəsində möhkəmlənmiş və yüksələn xətlə inkişaf etmişdir. Bütün bu əlaqələr hər iki tərəfin, xüsusən də müstəqil dövlətçilik yolu tutmuş Azərbaycanın maraqlarına tam uyğun gəlir və onun bütün sahələrdə mövqelərinin möhkəmlənməsinə xidmət edir.

Keçən üç ildə ABŞ-ın neft şirkətləri Azərbaycanda müxtəlif sərgilər keçirmiş, çoxsaylı azərbaycanlı tələbə və mütəxəssislərin Amerikada təhsil alması üçün geniş tədbirlər görmüş, Azərbaycanın sosial problemlərinin həllinə çox böyük yardımlar göstərmişlər. Ümumiyyətlə, Azərbaycanın öz torpaqlarını müvəqqəti itirmiş əhalisinə, humanitar və sosial müdafiəyə ehtiyacı olanlara ABŞ-ın müxtəlif humanitar və donor təşkilatları yüz milyonlarla dollarlıq yardım göstərmiş, beynəlxalq humanitar təşkilatları respublikamıza yardım üçün səfərbər etmişlər.

ABŞ-ın Qafqaz siyasətində və Azərbaycana münasibətdə artıq özünü açıq-aşkar büruzə verən dəyişikliklər ilk növbədə Azərbaycan Prezidenti Heydər Əliyevin məqsədəyönlü və uzaqgörən xarici siyasətinin, xüsusən neft siyasətinin nəticəsidir. Xəzər dənizinin neft yataqlarının istismarına ABŞ-ın ən iri şirkət və kompaniyalarının cəlb edilməsi Azərbaycan dövləti üçün mühüm və həyati əhəmiyyət kəsb edən və çox zəruri vəzifələrin yerinə yetirilməsinə yardım etməklə bərabər, həm də iki ölkə arasındakı münasibətlərin strateji əməkdaşlıq və tərəfdaşlıq istiqamətində inkişafını sür'ətləndirdi. ABŞ-ın neft kompaniyalarının Azərbaycana çox böyük miqdarda investisiya qoyması respublikamızı Amerikanın iqtisadi tərəfdaşına çevirdi.

1997-ci ilin fevral ayında Vaşinqtonda ABŞ-ın iqtisadi, siyasi və ictimai dairələrinin yaxından iştirakı ilə "Azərbaycan Kommersiyadan Demokratiyaya, neft istehsalının artmasına doğru" mövzusunda keçirilən geniş elmi-praktiki konfrans iki ölkə arasındakı

əlaqələrin nə qədər dərinləşdiyini, strateji tərəfdaşlığa doğru necə sür'ətlə inkişaf etdiyini bir daha sübuta yetirdi. ABŞ-ın Ticarət Palatası, "Britiş eyrueyz", "Oksidental", "Eksson", "Şevron", "Boinq", "Yunokal" və b. şirkət və birliklərinin rəhbərlərinin, o cümlədən görkəmli siyasi və dövlət xadimlərinin iştirakı ilə keçirilən bu konfransda Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyevin geniş mə'ruzəsi ətrafında iki ölkə arasındakı iqtisadi və siyasi əlaqələrini mühüm aspektləri müzakirə edilmiş və tərəflərin qarşılıqlı maraqlarını əks etdirən məsələlər açıqlanmışdır. Konfransda Azərbaycan-Amerika iqtisadi əlaqələrinin əsas amilləri, mahiyyəti, tərəflərin maraqları və perspektivləri ilə bağlı geniş müzakirə açılmış, İlham Əliyevin çıxışında qaldırılan Azərbaycan-Amerika iqtisadi əlaqələrin əsas istiqamətləri və perspektivləri, Azərbaycanın yeritdiyi xarici iqtisadi siyasət, neft və Azərbaycanın xarici iqtisadi əlaqələrinin perspektivləri və s. ilə bağlı məsələlər ABŞ-ın nəinki təkcə iş adamlarının, həmçinin böyük ictimai-siyasi xadimlərin geniş marağına səbəb olmuşdur.(274)

Konfransın gedişində ABŞ və ayrı-ayrı beynəlxalq qurumlara məxsus kütləvi informasiya vasitələrində iki ölkə arasındakı münasibətlərin mövcud durumu və perspektivləri, Qafqaz regionunda Azərbaycanın malik olduğu geosiyasi və iqtisadi durum və s. mühüm problemlərlə bağlı Amerikanın görkəmli siyasi və dövlət xadimlərinin mövqeyini əks etdirən yazıların dərc edilməsi, Azərbaycanın yeritdiyi daxili və xarici siyasətə qiymət verilməsi ölkəmizə artan marağın nə qədər güclü olduğunu əyani şəkildə sübut edir. Bu yazılarda nəinki təkcə iki ölkə arasındakı münasibətlər təhlil olunmuş və öz obyektiv qiymətini almışdır, həmçinin Amerika hökumətinə əhəmiyyətli və vacib tövsiyyələr də verilmişdir. Həmin günlər ABŞ Konqresinin üzvü, Demokratlar partiyasının nümayəndəsi L.Berdin imzası ilə yazılan bəyanatda göstərilir ki, ABŞ hökumətinin indiyə qədər Azərbaycana qarşı yeritdiyi siyasət bütövlükdə Amerikanın deyil, burada yaşayan etnik ermənilərin mənafeyinə xidmət etmiş, onların tə'siri altında formalaşmışdır ki, bu da Amerikanın xarici siyasət prinsiplərinə, üzərinə götürdüyü öhdəliklərə daban-dabana ziddiyyət təşkil edir. Bəyanatda ABŞ



Konqresindən və Prezidentdən tələb olunur ki, Qafqaz siyasətinə yenidən baxılsın, Azərbaycana münasibətdə xarici siyasət xətti tam dəyişsin, iki ölkə arasındakı münasibətlərə mane olan 907-ci düzəliş ləğv edilsin, Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyü Amerikanın himayəsi altına alınsın.

Bütün bunlar göstərir ki, Azərbaycan Prezidenti öz xarici siyasətində 1993-cü ildən başlayaraq nəinki iki ölkə arasında mövcud olan ziddiyyətləri aradan qaldırıb, Amerika ilə normal münasibətlər yarada bilmiş, həm də Azərbaycan və Amerikanın bütün sahələr üzrə əsas dövlət maraqlarını uzlaşdırmış və bir-birinə əsl strateji tərəfdaş etmişdir.

Azərbaycan-Amerika münasibətlərinin və əlaqələrinin zirvəsi ABŞ Prezidenti Bill Klintonun də'vəti ilə Azərbaycan Prezidenti Heydər Əliye vin 1997-ci il iyulun 27-dən avqustun 7-dək davam edən Amerikaya rəsmi səfəri hesab olunmalıdır. Bu səfər özünün bütün əlamətləri və cəhətlərinə görə tarixi əhəmiyyət kəsb etmiş və Azərbaycan-ABŞ münasibətləri tarixində yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

Səfər ərəfəsində ABŞ-ın və dünyanın bir çox aparıcı kütləvi informasiya və dövlət xadimləri Amerika-Azərbaycan münasibətlərinin mövcud vəziyyəti və perspektivləri, Amerikanın Qafqaz və Şərq siyasətində Azərbaycanın yeri, Azərbaycanın xarici siyasətində Qərb dövlətləri və ABŞ-ın yeri və rolu kimi strateji məsələlərə toxunmuş, bütün bu məsələlərə geniş təhlil və qiymət verməklə bərabər, həm də öz tövsiyyə və təkliflərini açıqlamışlar.

Amerikanın görkəmli dövlət və siyasi xadimi Z.Bjezinski Azərbaycan Prezidentinin ABŞ-a rəsmi səfərini Amerikanın Qafqazda yeritdiyi regional siyasətdə yeni mərhələnin başlandığını sübut edən, epoxal və tarixi bir hadisə hesab etmişdir. Onun fikrinə görə, belə bir səfərin baş tutması üçün dörd illik kecəli-gündüzlü diplomatik sə'y göstərilib və gərgin iş aparılıb.(275)

Konqresmen Li Hamilton 25 iyul 1997-ci ildə Vaşinqtonun kütləvi informasiya vasitələrinə vaxtilə Azərbaycana hər cür yardımı qadağan edən 907-ci düzəlişə səs verdiyinə görə peşmançılıq hissi keçirdiyini, Azərbaycanı hərtərəfli müdafiə etməyin, Qafqazda qeyri-səmimi

siyasəti dayandırmağın və 907-ci düzəlişi ləğv etməyin vaxtı çatdığını və zəruriliyini bəyan etmişdir.(276)

Bunun ardınca, elə həmin günlər ABŞ Senatının xarici əlaqələr komitəsinin üzvləri senatorlar Sem Braunbək və Smit "ABŞ-ın Cənubi Qafqaz, Mərkəzi Asiya üzrə xarici siyasəti" mövzusunda Senatda xüsusi dinləmələr təşkil etmişlər. Bütün çıxış edənlər ABŞ-ın rəsmi dövlət orqanlarını Qafqaz və Mərkəzi Asiyada, xüsusən Azərbaycana münasibətdə öz xarici siyasətində əsaslı dəyişikliklər etməyə, bu ölkəni ABŞ-ın tam beynəlxalq himayəsi altına almağa, onun dünya birliyinə inteqrasiya olunmasına, öz dövlət müstəqilliyini möhkəmlətməsinə və dünyada özünəməxsus yer tutmasına hərtərəfli yardım göstərməyə çağırmış və iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıq üzərində qurulmasının zəruriliyini təsdiq etmişlər.(277)

Dinləmələrdə iştirak edən ABŞ dövlət katibinin müavini S.Ayzenştadt bəyan etmişdir ki, Klinton hökuməti Azərbaycana Amerika yardımını və iki dövlət arasındakı əlaqələri məhdudlaşdıran 907-ci düzəlişi ləğv etməyə hazırdır və bunun tezliklə aradan qaldırılmasının yollarını arayır. O, bildirmişdir ki, Amerika ATƏT-in Minsk qrupunun həmsədri kimi Dağlıq Qarabağ probleminin həllinə çalışır və bu məsələdə bitərəf mövqeyi nümayiş etdirmək üçün də 907-ci düzəlişi ləğv etməlidir.

Səfər ərəfəsində iki ölkə arasındakı münasibətlərə dair ABŞ hökumətinin mövqeyini dövlət katibinin müavini S.Talbott daha açıq şəkildə nümayiş etdirmişdir. O, bildirmişdir ki, 907-ci düzəliş iki ölkə arasındakı münasibətlərə xələl gətirir və Amerikanın bölgədəki mənafeyinə uyğun deyil. Azərbaycana və bölgədəki digər dövlətlərə münasibətdə ABŞ-ın rəsmi siyasətinin məqsədini açıqlayan S.Talbott bildirmişdir ki, bu ölkələrd demokratiyanı, bazar iqtisadiyyatını irəlilətmək, dövlətlərdaxili və dövlətlərarası sülhü və əməkdaşlığı dəstəkləmək, onların dünya birliyinə inteqrasiyasına çalışmaq ABŞ-ın Qafqazda və Mərkəzi Asiyada yeritdiyi siyasətin əsas məqsədidir. S.Talbott bu mə'nada Azərbaycanın yeritdiyi siyasətin ABŞ ın me'yarlarına tam uyğun gəldiyini vurğulamışdır.(278)

Səfər ərəfəsində daha bir konqresmen-Konqresin Asiya və Sakit Okean ölkələri ilə əlaqələr üzrə komitəsinin sədr müavini P.Kinq 907-ci maddənin aradan qaldırılması ilə bağlı qanun layihəsi hazırladığını və Konqresə təqdim etdiyini bəyan etmişdir.(279) Azərbaycanı dünyanın ən yeni enerji regionu adlandıran P.Kinq bildirmişdir ki, "Qafqazda bizim hazırkı siyasətimiz Amerikanın milli maraqlarına düzgün xidmət etmir. ABŞ Dağlıq Qarabağ probleminin həllinə daha ədalətlə yanaşmalı, bütün vasitələrdən daha düzgün istifadə etməli və münaqişəyə qatılmış bütün tərəflərlə səmərəli iş aparmalıdır". ABŞ ın Azərbaycana münasibətinə və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı mövqeyinə toxunan konqresmen təəssüfləndiyini bildirmişdir ki, bu günədək onun ölkəsi dünyanın strateji cəhətdən mühüm bölgəsi hesab olunan Azərbaycana qarşı birtərəfli mövqe tutmuş, bir milyondan çox qaçqını olan, demokratiyaya doğru inkişaf edən, bazar iqtisadiyyatı yolu ilə gedən, regionda sülh və sabit siyasət yeridən belə bir ölkəyə heç bir yardım etməmişdir.

İki ölkə arasındakı əlaqələrin perspektivlərinə toxunan P.Kinq əmin olduğunu bildirmişdir ki, bu əlaqələr hər iki tərəfin maraqlarına uyğun olmaqla bərabər, Azərbaycanda demokratiyanı, bazar iqtisadiyyatını daha da inkişaf etdirəcək ki, bu da ABŞ-ın milli maraqlarına tam cavab verir.

Beləliklə, göründüyü kimi Prezident Heydər Əliyev Vaşinqtona yola düşməzdən əvvəl ABŞ-ın bütün ictimai-siyasi dairələri bu səfərin əhəmiyyətindən, ikitərəfli əlaqələri genişləndirmək və inkişaf etdirmək baxımından tarixi bir mərhələ olacağından, Azərbaycan-ABŞ münasibətlərində mövcud olan bütün problemlərin həll olunması və maneələrin aradan qalxması imkanlarından, qarşılıqlı faydalı əlaqələrin perspektivlərindən və s. mühüm məsələlərdən bəhs edir və mətbuatda geniş çıxış edirdilər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a səfəri ərəfəsində ABŞ və dünya mətbuatında daha bir təbliğat kompaniyası geniş vüs'ət almışdı. Lakin bu ABŞ-Azərbaycan münasibətlərinin inkişaf etməsi və perspektivlərinin xeyirinə deyil, əksinə, əleyhinə yönəlmiş və ümumdünya erməni milli assambleyası tərəfindən başlanmış qatı antiazərbaycan təbliğatı idi. Azərbaycan

Prezidentinin ABŞ-a də'vət olunmasından, Azərbaycan-Amerika əlaqələrinin son dörd ildə yüksələn xətlə, strateji əməkdaşlıq istiqamətində sür'ətlə inkişaf etməsindən və Heydər Əliyev diplomatiyasının gücündən, Amerikanın ictimai-siyasi dairələrinə, rəsmi Vaşinqtona göstərə biləcəyi mühüm tə'sirdən qorxuya düşmüş erməni diasporası çox ciddi antiazərbaycan işi aparır, Azərbaycanın dövlət başçısının bu mö'təbər səfərinə bütün gücü ilə mane olmağa çalışırdı. Bu məqsədlə ABŞ və dünyanın başqa ölkələrində yaşayan bütün ermənilərə müraciət edərək, Ağ evə Bill Klintonu Heydər Əliyevlə görüşdən imtina etməyə çağıran məktublar göndərmək haqqında qərar qəbul edən erməni milli assambleyası həmin günlər bütün gücünü və imkanlarını səfərbər etmişdi. Lakin ABŞ-ın erməni diasporasının bu sahədə bütün sə'yləri iflasa uğradı. Artıq Vaşinqton hökuməti ABŞ-ın milli maraqlarının erməni diasporasının maraqlarından üstün olması xəttini götürmüşdü.

Rəsmi səfərə əsas hazırlıq, sözsüz ki, iki ölkənin Prezidentləri səviyyəsində gedirdi. Dünyanın ən qüdrətli, güclü və nüfuzlu dövləti hesab olunan ABŞ-ın rəsmi nümayəndələri və ictimai-siyasi xadimləri, ayrı-ayrı dövlət və ictimai-siyasi strukturları ilə görüşə, iki dövlət arasındakı münasibətlərin mövcud durumunun və yaxın, uzaq gələcəyinin müzakirəsinə daha çox və daha ciddi hazırlaşan Azərbaycan Prezidenti bu səfərdən çox mühüm nəticələr gözləyirdi.

ABŞ-a yola düşməzdən əvvəl hava limanında jurnalistlərə verdiyi müsahibədə Azərbaycan Prezidenti qeyd etmişdir ki, "mən ABŞ-da BMT-nin baş məclisində iştirakımla bağlı səfərdə olmuşam, Amerika Prezidenti Bill Klintonla Nyu-Yorkda, başqa ölkələrdə görüşlərim olub, amma bu səfər Bill Klintonun də'vəti ilə müstəqil Azərbaycan Respublikası Prezidentinin ABŞ-a ilk rəsmi səfəridir və şübhə etmirəm ki, səfər iki ölkə arasındakı əlaqələrdə yeni mərhələnin başlanğıcı olacaqdır".(280)

Prezident Heydər Əliyev səfərin qarşısında duran əsas vəzifələr kimi aşağıdakıları göstərmişdir:

- *İki ölkə arasındakı əlaqələri nizama salmaq və genişləndirmək üçün hüquqi-normativ əsas olacaq sənədlərin imzalanması;*
- *ABŞ-da respublikamıza artan rəğbətdən və yaranmış əlverişli*



*şəraitdən istifadə edərək, Azərbaycan-Amerika münasibətlərinin daha da möhkəmləndirilməsi;*
- *İctimai-siyasi dairələrin Azərbaycana münasibətində artıq başlanmış müsbət dəyişikliklərin inkişaf etdirilməsi və Azərbaycan həqiqətlərinin daha geniş təbliği;*
- *Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı ABŞ-ın mövqeyinin daha da fəallaşdırılması və Minsk qrupunun səmərəli və məhsuldar fəaliyyətinə təkan verilməsi;*
- *İki ölkə arasındakı əlaqələri genişləndirərək, strateji tərəfdaşlıq istiqamətində inkişaf etdirmək üçün vaxtilə qəbul edilmiş 907-ci düzəlişin aradan götürülməsinə sə'y göstərilməsi.*

Qarşıda duran məqsəd və vəzifələrin bu qədər genişliyi və əhatəliyi bu səfərin çox gərgin keçəcəyindən, proqramın çoxsaylı görüşlər, danışıqlar, çıxışlar, mətbuat konfransları və s. ilə həddən artıq zəngin və sıx olacağından xəbər verirdi. Bütün işlər müxtəlif bloklar- hüquqi - normativ sənədlər üzərində iş və rəsmi sənədlərin imzalanması, rəsmi görüşlər və danışıqlar, mətbuat və informasiya vasitələri və ictimai-siyasi dairələrlə iş, iş adamları ilə görüşlər, qəbullar və s. üzrə bölünmüş, səfərin hər günü, saatı və dəqiqələri gərgin iş üçün səfərbər edilmişdi.

Azərbaycan Prezidentinin gərgin səfəri iyulun 28-də Nyu-Yorkda keçirilən görüşlərlə başlanmışdır. Həmin gün Prezident Heydər Əliyev onun üçün ayrılmış iqamətgahda "Uoll Strit Cornel" qəzetinin müxbirlərinə müsahibə verdi. Bu müsahibə Azərbaycan həqiqətlərini geniş Amerika ictimaiyyətinə yaymaq, iki ölkə arasındakı münasibətlərin mövcud vəziyyəti və gələcək perspektivləri ilə bağlı Azərbaycan tərəfinin mövqeyini ABŞ-ın həm ictimai-siyasi dairələrinə, həm də Vaşinqtonda onu səbirsizliklə gözləyən B.Klinton hökumətinə çatdırmaq blokuna daxil olan tədbirlərin başlanğıcı idi. Heydər Əliyev Qafqaz regionunda, MDB məkanında və Azərbaycanda baş verən hadisələr və proseslər, Azərbaycanın müstəqil dövlət qurulucuğu yolu və çətinliklər, ölkədə, regionda və beynəlxalq aləmdə baş verən hadisələrlə bağlı Azərbaycanın mövqeyi, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin mahiyyəti, regional və beynəlxalq

təhlükəsizliyə tə'siri, Azərbaycan-Amerika münasibətlərinin mövcud vəziyyəti, perspektivləri, əlaqələri çətinləşdirən məsələlər və s. haqqında geniş mə'lumat verərək, səfəri diqqətlə izləyən ABŞ-ın rəsmi və qeyri-rəsmi dairələrinə bu məsələlər ətrafında düşünmək və öz mövqelərini müəyyənləşdirmək imkanı verdi. Eyni zamanda, bu müsahibədən sonra Amerika ictimaiyyəti Azərbaycan Prezidentinin səfərinin əsas məqsəd və vəzifələri, keçirəcəyi görüşlər, danışıqlar və müzakirə olunacaq əsas məsələlər barədə də lazımi mə'lumat aldı.(281)

Həmin gün Azərbaycan Respublikasının Prezidenti öz iqamətgahında ABŞ-ın BMT yanında daimi nümayəndəsi Uilyam Riçardson ilə görüşmüşdür.

Azərbaycanın dövlət başçısını "Amerikanın dostu və böyük islahatçı prezident" adlandıran U.Riçardson Azərbaycanda həyata keçirilən islahat və dəyişikliklərin, Qafqaz bölgəsində onun yeritdiyi sülh siyasətinin və müstəqillik yolu ilə uğurlu gələcəyə inamla irəliləməsinin Amerikada diqqətlə izlənməsini, bu işdə ona hər cür yardım göstərməyə hazır olduqlarını və Heydər Əliyevin Vaşinqtonda səbirsizliklə gözləndiyini bildirdi.(282)

İyulun 28-də Heydər Əliyev ABŞ-ın "Britiş Petroleum" neft şirkətinin vitse-prezidenti ilə görüşmüş, sonra BMT-nin iqamətgahına gedərək "Nüvə silahlarının tamamilə qadağan olunması haqqında" beynəlxalq müqaviləyə imza atmış, BMT baş katibi Kofi Annanla, "Nyu-York Tayms" qəzeti redaksiya hey'ətinin üzvləri ilə görüşmüş, BMT-də akkreditə olunmuş xarici jurnalistlər üçün mətbuat konfransı keçirmişdir.(283) Bütün bu görüşlərdə Prezident Heydər Əliyev ABŞ-a rəsmi səfərinin proqramı, məqsəd və vəzifələri, dünya birliyi ilə geniş inteqrasiya əlaqələrinə girmiş Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatı, Qafqaz bölgəsində vəziyyət, Ermənistanın təcavüzkar siyasəti və regional sabitliyi pozması, münaqişələrin dinc yolla aradan qaldırılması sahəsində Azərbaycanın mövqeyi və fəaliyyəti haqqında geniş mə'lumat vermiş, müstəqil Azərbaycan dövləti haqqında dünya ictimaiyyətində geniş təəssürat yaratmaq üçün kütləvi informasiya vasitələrinin imkanlarından məharətlə istifadə etmişdir.

Nyu-York görüşləri içərisində Azərbaycan Respublikası



Prezidentinin BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin bu təşkilatdakı səfirləri, BMT üzvü olan digər ölkələrin akkreditə olunmuş nümayəndələri və yəhudi icması başçıları ilə keçirdiyi görüşlər daha çox siyasi xarakter daşıyırdı. Bu görüşlərdə Azərbaycan Prezidenti geniş çıxış etmiş, BMT üzvü olan dövlətləri Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı BMT-nin nizamnaməsinə, ATƏT və digər beynəlxalq təşkilatların ümumi prinsiplərinə və ümumavropa təhlükəsizliyi şərtlərinə uyğun təcavüzkara tə'sir etmək, Azərbaycanın haqq işini müdafiə etmək, BMT Təhlükəsizlik Şurasının bu məsələ ilə bağlı qəbul etdiyi qətnamələrin həyata keçirilməsinə və s. mühüm tədbirlərə yardımçı olmaq üçün öz sə'ylərini əsirgəməməyə çağırmışdır.(284)

Səfərin Nyu-York proqramı çərçivəsində siyasi, informasiya yayımı və təbliğat xarakterli görüşlərlə yanaşı iki ölkə arasında iqtisadi münasibətlərin genişlənməsinə xidmət edən digər görüşlər də keçirilmişdir. İyulun 29-da Amerika-Azərbaycan Ticarət Palatası və Beynəlxalq anlaşma təşk ilatı işgüzar şurasının üzvləri ilə keçirilən görüş səfərin iqtisadiyyat və işgüzar əlaqələr blokunun ilk böyük tədbiri idi.(285) Görüşdə Beynəlxalq anlaşma təşkilatının həmsədri Don Steysi, Amerikanın "C.P. Morqan" Bankının Prezidenti çıxış edərək Azərbaycanda həyata keçirilən iqtisadi və maliyyə islahatlarını, dünya birliyinə inteqrasiya olunmaq, bazar iqtisadiyyatını inkişaf etdirmək sahəsində Azərbaycan dövlətinin fəaliyyətini ABŞ-da diqqətlə izlədiklərini bildirmiş, bu sahədə Heydər Əliyevin xidmətlərinə yüksək qiymət vermişlər. Amerika-Azərbaycan münasibətlərinin inkişafı, ikitərəfli əlaqələrin genişlənməsi, mövcud problemlərin həlli yollarının aranması görüşün əsas müzakirə mövzusu olmuşdur. Azərbaycan Prezidenti görüşdə respublikamızda həyata keçirilən iqtisadi islahatlar və Azərbaycanın iqtisadi siyasətinin əsas istiqamətləri haqqında geniş mə'ruzə etmişdir. Həm bu görüşdə, həm də həmin gün Amerikanın Azərbaycanda fəaliyyət göstərən humanitar təşkilatlarının nümayəndələri ilə keçirilən görüşdə iki ölkə arasındakı münasibətlərin inkişafı və əlaqələrin genişləndirilməsi məsələsi

bütün çıxışların əsas qayəsini təşkil etmişdir.

Səfərin əsas proqramı və zirvə tədbirləri ABŞ paytaxtı Vaşinqtonda həyata keçirilmişdir. Azərbaycan Prezidenti Nyu-York-Vaşinqton uçuşuna ayrılmış 50 dəqiqəni də Amerikanın "Filadelfiya İnkuayrer" və "Cornel of Kommers" qəzetlərinin müxbirlərinə müsahibə verməyə və Azərbaycan həqiqətlərini bu ölkədə yaymağa həsr etmişdir.(286)

İyulun 29-da Vaşinqtona gələn Azərbaycan Prezidenti "Villard otel" də məşhur diplomatların, rəsmi şəxslərin və Azərbaycan icması nümayəndələrinin toplandığı qəbulda iştirak etmiş, iyulun 30-da ABŞ-ın tanınmış ictimai-siyasi xadimləri və jurnalistlərlə, Corctaun Universitetinin professor-müəllim və tələbə hey'əti ilə, ABŞ-ın qanunverici orqanının nümayəndələri ilə bir çox görüşlər keçirmişdir.(287)

Bu görüş və diskussiyalarda Heydər Əliyev Azərbaycanda, Qafqazda və bütövlükdə MDB məkanında gedən proseslərdən, dövlətimizin daxili və xarici siyasətindən, rastlaşdığı problemlərdən, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin mahiyyətindən, ABŞ-Azərbaycan münasibətlərinin mövcud vəziyyəti və perspektivlərindən, ABŞ-a rəsmi səfərin məqsəd və vəzifələrindən bəhs edən geniş nitq söyləmiş, jurnalistləri maraqlandıran suallara ətraflı cavablar vermişdir. Əsasən Azərbaycanla tanışlıq, isinişmə, informasiya və Azərbaycan həqiqətlərinin təbliği xarakteri daşıyan bu görüşlərdə ABŞ-ın həm rəsmi, həm də tanınmış ictimai-siyasi xadimləri, nüfuzlu KİV nümayəndələri iştirak edirdilər. Bu da bu proqramın reallaşması və məqsədlərə nail olmaq üçün gözəl zəmin yaradırdı.

Vaşinqtonda olduğu ikinci günü Azərbaycan Prezidenti səfərin iqtisadi və rəsmi dövlətlərarası tədbirlər proqramı çərçivəsində nəzərdə tutulmuş görüşlərə həsr etdi. Həmin gün Azərbaycan Prezidenti Pentaqonda ABŞ-ın müdafiə naziri Uilyam Kohen, energetika naziri Federiko Penya, Dünya Bankının Prezidenti Ceyms Vulfinqson və b. ilə görüşmüş, ABŞ Ticarət Nazirliyində ticarət və iş adamları qarşısında çıxış etmiş, Müdafiə Nazirliyi ilə müdafiə sahəsində əməkdaşlıq haqqında sənəd imzalamışdır. Eyni zamanda,



Prezident Heydər Əliyev Azərbaycanın Maliyyə Nazirliyi, Milli Bankı və Amerikanın "Eksimbankı" arasında əməkdaşlıq müqaviləsinin imzalanması mərasimində iştirak etmişdir.(288)

Görüşlərdə iki ölkə arasında hərbi, iqtisadi, maliyyə və ticarət sahəsində əməkdaşlığın çox mühüm aspektləri müzakirə olunmuş, qarşılıqlı faydalı müqavilələr bağlanmışdır. Görüş iştirakçıları Azərbaycanda həyata keçirilən iqtisadi islahatları, demokratik dəyişiklikləri və ABŞ-Azərbaycan əlaqələrinin tərəfdaşlıq istiqamətində inkişafını yüksək qiymətləndirmiş, bu işlərin sonrakı perspektivləri haqqında fikir mübadiləsi keçirmişlər.

Azərbaycan Prezidentinin ABŞ səfərinin zirvəsi hesab olunan Ağ ev görüşləri 1 avqust 1997-ci ildə olmuşdur. Həmin gün Amerika Prezidenti Bill Klinton, vitse-prezidenti Albert Qor, dövlət katibi Madlen Olbrayt və digər rəsmi şəxslər Prezident Heydər Əliyevi Ağ evdə böyük hörmət və ehtiramla qarşıladılar. Sonra Prezidentlər arasında təkbətək görüş oldu.

Səfər zamanı Prezidentlər iki ölkə arasındakı münasibətlərin əsas strategiyasını, prinsiplərini, xarakterini və perspektiv istiqamətlərini müəyyən edən "Amerika-Azərbaycan münasibətləri haqqında" birgə bəyanat imzaladılar. (289) Bu bəyanat çox böyük tarixi və siyasi əhəmiyyət kəsb edir. Cəmi dörd il əvvəl 1992-ci ilin dekabrında Azərbaycanı beynəlxalq prinsiplərə, ABŞ və dünya mənafelərinə zidd siyasət yeridən , qeyri-demokratik və arzu olunmayan ölkə kimi qəbul edən, ona qarşı hər cür cəza və sanksiyalar tətbiq etməyə hazır olan Ağ ev, bu gün onu siyasətdə, təhlükəsizlik və regional məsələlərdə, iqtisadiyyat və ticarət əlaqələrində Birləşmiş Ştatların strateji tərəfdaşı e'lan edirdi.

Amerika Birləşmiş Ştatlarının Azərbaycanla strateji tərəfdaşlıq əlaqələrini Qafqaz regionunda sülhün, sabitliyin və xalqların ümumi rifahının tə'min olunması yolunda həlledici amil kimi qiymətləndirən Bill Klinton öz ölkəsinin bundan sonra da:

- *Azərbaycanın dövlət müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, regional və beynəlxalq təhlükəsizliyini, demokratik inkişafını dəstəkləyəcəyini;*
- *Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə və ATƏT*

*prinsipləri əsasında həll olunmasına ciddi sə'y göstərəcəyini;*

*- Azərbaycanla əlaqələri məhdudlaşdıran, qaçqın və köçkünlərə humanitar yardımı çətinləşdirən "Azadlığı müdafiə aktının" 907-ci maddəsinin ləğv olunmasına bütün gücü ilə çalışacağını;*

*-Azərbaycanın bir dövlət kimi möhkəmlənməsinə, iqtisadi islahatların müvəffəqiyyətlə sona çatdırılmasına və ümummilli inkişafın əldə olunmasına, bazar iqtisadiyyatının dərinləşməsinə hərtərəfli kömək göstərəcəyini;*

*- İkitərəfli ticarət, iqtisadi və kommersiya əlaqələrinin genişlənməsinə, Xəzər dənizinin enerji ehtiyatlarının e'malı və nəqlində ABŞ şirkətlərinin iştirakına, enerji siyasəti və kommersiya məsələləri üzrə iki dövlət arasında rəsmi dialoq yaradılmasına dəstək verəcəyini;*

*- Azərbaycanın da daxil olduğu Avropa-Asiya nəqliyyat-kommunikasiya dəhlizinin fəaliyyət göstərməsinə, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olunmasına, Ümumdünya Ticarət Təşkilatına üzv olmasına və s. məsələlərdə Azərbaycana daim dəstək verəcəyini həm yazılı, həm də şifahi şəkildə bəyan etdi.*

Azərbaycanın və Qafqaz regionunun təhlükəsizlik və sabitlik problemləri, ABŞ və Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq ölkə başçılarının apardığı danışıqların, imzaladıqları sənədlərin və verdikləri bəyanatların mərkəzi mövzusu kimi diqqəti xüsusi cəlb edir.

Azərbaycan Respublikası Prezidentinin ABŞ-a rəsmi səfərinin və iki ölkə arasındakı münasibətlərin də əsas məğzini təşkil edən bu məsələlərlə bağlı ABŞ Prezidenti:

*- Azərbaycanın milli təhlükəsizliyinin tə'min olunması ilə bağlı qarşılaşdığı problemlərin aradan qaldırılmasına, Avropa təhlükəsizlik sisteminə, xüsusən NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına və Avro-Atlantik Tərəfdaşlıq Şurasına fəal inteqrasiya olunmasına hərtərəfli yardım göstərəcəyini;*

*- 1997-ci il may ayının 15-də Avropada adi silahlı qüvvələr barədə müqavilənin cinah məhdudiyyətləri haqqında sazişin qüvvəyə minməsi və həyata keçirilməsi, Qafqazda buna əməl olunması, bununla əlaqədar qəbul olunmuş ABŞ-Azərbaycan birgə bəyanatının əsas müddəalarının tə'min olunması, o cümlədən iyulun 23-də Vyanada qəbul edilmiş Avropada adi silahlı qüvvələr*



*haqqında müqavilənin əsas elementlərinin həyata keçməsi və adaptasiyasına ABŞ-ın nəzarətini və yardımını gücləndirəcəyini, bununla da Qafqazın sabitliyini və təhlükəsizliyini pozan kütləvi silahlardan təmizlənməsinə sə'y göstərəcəyini və silahlanmaya çalışan ölkələrin qarşısına ciddi sədd çəkəcəyini;*

*- Azərbaycanın iştirak etdiyi Avropa-Asiya nəqliyyat-kommunikasiya dəhlizinin inkişafı və təhlükəsizliyinə, enerji daşıyıcıları sisteminin təhlükəsiz fəaliyyətinə ABŞ-ın yardımını tə'min edəcəyini;*

*- Beynəlxalq terrorizm, narkotik maddələrin qaçaqmalçılığı, beynəlxalq cinayətkarlıq, təcavüz və s. məsələlərə qarşı barışmaz olacağını, 1997-ci ilin mart ayında başlanmış Azərbaycan-Amerika dialoqunu, təhlükəsizlik sahəsində əsası qoyulmuş qarşılıqlı əməkdaşlığı genişləndirəcəyini və inkişaf etdirəcəyini bir daha bə'yan etmişdir.(290)*

Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlıq münasibətlərinin əsas bazasını təşkil edən və şərtləndirən enerji sahəsində əməkdaşlıq avqustun 1-də Ağ evdə imzalanan bir neçə mühüm sənəd ilə daha da inkişaf etdirilmişdir. Həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və ABŞ-ın vitse-prezidenti Albert Qorun başçılığı ilə keçirilən mərasimdə iki dövlət arasında energetika sahəsində dövlətlərarası dialoqun yaradılmasına dair saziş, ABŞ-ın "Şevron", "Eksson", "Mobil" və "Amoko" şirkətləri ilə ARDNŞ arasında Xəzər dənizinin Azərbaycan sektorunun "Abşeron", "Naxçıvan", "Oğuz" və "İnam" neft yatağında birgə iş haqqında ümumi müqavilə imzalanmışdır.(291)

Amerikanın dörd aparıcı neft şirkəti ilə ARDNŞ arasında Ağ evdə, ABŞ rəhbərlərinin iştirakı ilə səkkiz milyard ABŞ dolları dəyərində müqavilələrin imzalanmasını bütün dünya analitikləri çox yüksək qiymətləndirmiş, bunun həm siyasi, iqtisadi, həm də regional və böyük beynəlxalq strateji əhəmiyyətini qeyd etmişlər.

Beləliklə, dörd illik xüsusi diplomatik gedişlər və düşünülmüş xarici siyasət Azərbaycanı ABŞ-ın strateji tərəfdaşına çevirdi və çox mürəkkəb regionda, xüsusi qısqanclıq şəraitində öz müstəqil dövlətini quran 7 milyonluq Azərbaycan xalqını Amerikanın beynəlxalq himayəsi altına aldı.

Avqustun 1-də Azərbaycan Prezidenti ABŞ-ın dövlət katibi M.Olbrayt, "Vaşinqton tayms" qəzetinin redaksiya hey'əti və digər kütləvi informasiya vasitələri ilə keçirdiyi bir neçə görüşdən sonra Vaşinqtondan Hyuston şəhərinə yola düşdü.(292)

Birləşmiş Ştatların neft biznesinin mərkəzi sayılan bu şəhərdə Azərbaycan Prezidenti avqustun 2-də Hyustonun meri Robert Lanyer, Amerikanın "Şevron", "Pennzoyl", "Yunokal" kimi böyük neft kompaniyalarının rəhbərləri, Hyuston-Bakı assosiasiyasının üzvləri ilə görüşmüş, iki ölkə arasında mövcud iqtisadi əlaqələrin genişlənməsi və inkişaf imkanlarını müzakirə etmişdir.

Azərbaycan Prezidentinin ABŞ-a rəsmi səfərinə olan böyük marağı və Azərbaycan haqqında həqiqətlərin Amerika ictimaiyyətinə çatdırılmasının zəruri əhəmiyyətini nəzərə alaraq, Heydər Əliyev Hyustonun "Hyuston xronikal" qəzetinin və "Oyl ənd qəs" jurnalının müxbirlərinə geniş müsahibə vermişdir.(293)

Hyuston görüşlərini müvəffəqiyyətlə başa vuran Azərbaycan Prezidenti avqustun 4-də ABŞ-ın böyük sənaye, maliyyə və ticarət mərkəzi hesab olunan Çikaqoya yola düşdü. Bu şəhərdə Azərbaycanın dövlət başçısı "AMOKO"neft korporasiyasının rəhbərləri, "Motorolla" şirkətinin nümayəndələri və digər iş adamları ilə bir neçə işgüzar görüş keçirmiş, Amerika-Avropa-Asiya Ticarət Palatası tərəfindən təşkil olunmuş, Birləşmiş Ştatların neft şirkətləri, maliyyə qurumları, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etdiyi ziyafətdə geniş nitq söyləmişdir.(294) Azərbaycan Prezidenti respublikamıza artan marağı nəzərə alaraq, çıxışında ABŞ-a ilk rəsmi səfərinin gedişi, Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatı, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin mahiyyəti, bölgədə sabitliyə və sülhə göstərdiyi tə'sir, bu məsələnin sülh yolu ilə həllinə dair Azərbaycanın mövqeyi və gördüyü tədbirlər haqqında geniş mə'lumat verdi.

Azərbaycan Prezidenti Heydər Əliyevin iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəm təməlini qoyan ABŞ-a tarixi səfəri bir daha aydın göstərdi ki, 1993-cü ildən ABŞ-la münasibətlər sahəsində Azərbaycanın xarici siyasəti qarşısında qoyulmuş bütün strateji və taktiki vəzifələr müvəffəqiyyətlə həyata keçirilib və bu



sahədə nəzərdə tutulan bütün məqsədlərə nail olunub. **Bu illərdə:**

-*Birincisi, dünyanın fövqəldövləti hesab olunan ABŞ-la münasibətlərdəki kəskin qarşıdurma vəziyyəti aradan qalxmış, Azərbaycan Amerika maraqlarına və prinsiplərinə zidd siyasət yeridən, arzuolunmaz dövlətlər qrupundan, sivil və beynəlxalq prinsiplərə uyğun siyasət yeridən, sülhü, demokratiyanı, insan hüquq və azadlıqlarını qoruyan,dünya birliyinə və beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya olunmağa sə'y göstərən, Amerikanın Qafqaz bölgəsində əsas siyasi, iqtisadi partnyoru və arzuolunan dövlətlər qrupuna müvəffəqiyyətlə daxil olmuşdur.*

-*İkincisi, Azərbaycanın müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq təhlükəsizlik problemləri ABŞ-ın bölgədəki siyasi və strateji maraqları ilə tam uzlaşdırılmış və onun beynəlxalq himayəsi qazanılmışdır.*

-*Üçüncüsü, müstəqil Azərbaycan dövlətinin və xalqının iqtisadi mənafeləri ABŞ və onun "Atlantika Şurası" üzrə müttəfiqlərinin maraqları ilə uyğunlaşdırılmış, bu dövlətlərin güclü iqtisadi, maliyyə və qabaqcıl texnoloji imkanları məharətlə milli iqtisadiyyatımızın yüksəlməsi və inkişafına cəlb edilmişdir.*

-*Dördüncüsü, Azərbaycanın həm dünya birliyinə, həm də Avropa və məhəlli təhlükəsizlik sisteminə inteqrasiya olunması yolunda rastlaşdığı müxtəlif problemlərin aradan qaldırılması, planetin sivilizasiyalı dövlətlərarası münasibətlər sistemində özünəməxsus yer tutması ilə bağlı ABŞ-ın hərtərəfli dəstəyi və himayəsi əldə olunmuşdur.*

Əgər bütün bunlar Azərbaycanın dörd ildə yeritdiyi xarici siyasətin yekunu və nəticəsidirsə, Prezident Heydər Əliyevin ABŞ-a rəsmi səfərinin yekunu və nəticəsi aşağıdakı kimi qiymətləndirilə bilər:

*1.Bu səfər nəticəsində iki ölkə arasındakı münasibətlər daha yüksək səviyyəyə qalxdı və yeni mərhələyə - strateji partnyorluq mərhələsinə qədəm qoydu. İki dövlətin rəsmi qurumları qarşılıqlı iqtisadi, siyasi, ictimai, mədəni əlaqələr və təhlükəsizlik sahəsində strateji tərəfdaşlıq münasibətləri yaratmaq və möhkəmlətmək məqsədilə əldə olunmuş birgə bəyanat əsasında hərtərəfli dialoqa başladılar.*

*2.İki dövlət arasındakı strateji tərəfdaşlıq əlaqələrini tənzimləyən beş mühüm siyasi və hüquqi sənəd imzalandı.*

*3.Dövlətlərarası münasibətlərdə ölkə rəhbərlərinin və həmin*

*ölkələri təmsil edən ayrı-ayrı yüksək səviyyəli rəhbərlərin şəxsi əlaqələri, yaxşı münasibətləri böyük rol oynayır. Bu mə'nada səfər ərəfəsində Azərbaycan Prezidentinin ABŞ Prezidenti Bill Klintonla, vitse-prezidenti Albert Qor, dövlət katibi Madlen Olbrayt, Dövlət departamentinin rəhbər işçiləri, energetika naziri Federiko Penya, ticarət naziri U.Deyli, senatorlar, konqresmenlər, iri maliyyə, energetika kompaniyalarının, şirkət və birliklərinin rəhbərləri, ABŞ siyasətinə önəmli tə'sir göstərən ictimai-siyasi xadimləri və b. ilə çox səmimi və yaxşı əlaqələri yarandı. Bu da 1992-93-cü illərlə müqayisədə Amerikanın icra strukturlarında, Senat və Konqresdə, iş adamları və maliyyəçilər, ayrı-ayrı siyasi və dövlət xadimləri arasında, kütləvi informasiya vasitələrində Azərbaycana münasibətin dəyişməsinə çox güclü təkan verdi.*

***4.****İqtisadi əməkdaşlıq gücləndi və Ağ evdə imzalanan dörd böyük kontrakt hər iki dövləti möhkəm iqtisadi tellərlə bir-birinə daimi bağladı.*

***5.****Konqreslə iş lazımi səviyyəyə qaldırıldı, 40-a qədər konqresmenlə ayrı-ayrılıqda və birgə görüşlər keçirildi ki, bu da Azərbaycan dövləti ilə ABŞ Konqresi arasında bundan sonrakı münasibətlərin və əlaqələrin inkişafına yaxşı imkan verəcək.*

***6.****BMT-nin baş katibi, BMT aparatı və onun humanitar qurumları, Təhlükəsizlik Şurası, BMT üzvü olan 120-dən çox dövlətin səfirləri ilə keçirilən görüşlər, aparılan danışıqlar və s. bu təşkilatla Azərbaycan arasında əlaqələrin möhkəmlənməsinə və inkişafına xüsusi təkan verdi.*

*7. Ermənistanın və erməni lobbisinin Amerika ictimai-siyasi fikrində malik olduqları informasiya və təbliğat üstünlüyünə, rəsmi dövlət qurumlarına, qanunverici orqanlara, humanitar və digər təşkilatlara şəriksiz tə'sir etmə imkanlarına son qoyuldu. Yalnız etnik erməni ünsürlərindən təşkil edilmiş və əsasən Ermənistan marağı üzərində qurulmuş lobbiyə qarşı Amerikanın görkəmli dövlət və ictimai-siyasi xadimləri, imkanlı kompaniya, birlik və şirkət rəhbərlərindən təşkil edilmiş, ABŞ-ın və Azərbaycanın qlobal maraqlarını, beynəlxalq hüquq normaları və prinsiplərini,sülh və sabitliyi, sivilizasiyalı dövlətlərarası münasibətləri ehtiva edən Azərbaycan lobbisi yaradıldı.*

***8.****ABŞ-ın Azərbaycana meyl göstərən neft şirkət və birliklərinə həm də imkanlı maliyyə-kredit qurumlarının qoşulmasına ciddi təkan verdi. Bir qayda olaraq bu ölkənin maliyyə-kredit idarələri ABŞ-ın*



*tam siyasi və beynəlxalq himayəsi altında olmayan, Amerikada dəstəklənməyən və onun strateji tərəfdaşı hesab olunmayan ölkələrə sərmayə qoymağa çalışmırlar. Bu səfər nəticəsində ABŞ-ın Azərbaycana meyl edən neft kompaniyalarına güclü maliyyə-kredit strukturlarının qoşulması müşahidə olundu və bu sahədə işlərin gücləndirilməsi qərarlaşdırıldı.*

***9.****"Azadlığı müdafiə aktı"na 907-ci düzəlişin aradan qaldırılması ətrafında tam yekdil fikir formalaşdı.*

ABŞ-ın Azərbaycanla strateji tərəfdaşlığa meyl etməsini şərtləndirən əsas amillər isə aşağıdakılardan ibarətdir:

**İlk növbədə,** Azərbaycan dövlətinin ABŞ-ın xarici siyasət prinsiplərinə və beynəlxalq hüquq normalarına uyğun daxili və xarici siyasət yeritməsi. Səfər zamanı keçirilən bütün görüşlərdə ABŞ-ın Prezidentindən tutmuş maliyyə və iş adamlarına qədər bütün dairələrdə Azərbaycan Prezidentinin 1993-cü ildən başlayaraq yeritdiyi daxili siyasət, həyata keçirilən demokratik dövlət quruculuğu prosesləri, hüquqi və iqtisadi islahatlar, ictimai-siyasi həyatın demokratikləşdirilməsi, bazar iqtisadiyyatı və dünya birliyinə inteqrasiya istiqamətində atılan mühüm addımlar və bunun Azərbaycanın mövcud vəziyyətində əks olunması çox yüksək qiymətləndirildi və dəstəkləndi.

**İkincisi,** Azərbaycanın bölgədə və beynəlxalq aləmdə tutduğu mövqe-region və MDB dövlətləri, Rusiya, Türkiyə və İranla bağlı yeritdiyi özünəməxsus siyasət, MDB çərçivəsində Ukrayna, Gürcüstan, Moldova, Orta Asiya dövlətlərinə xüsusi münasibəti və onları öz arxasınca aparması, bölgə dövlətlərinin bütün təzyiq və təxribatlarına, müstəqilliyə və Qərbə meylliyə qarşı çevrilmiş hərəkətlərinə mətanətlə sinə gərməsi, ayrı-ayrı dövlətlərin imperiya siyasətinə qarşı sipər çəkməsi, tam müstəqil siyasət yeritməsi və bu yolda inamla addımlaması Amerikada tam dəstək aldı və respublikamızın bu dövlətin strateji tərəfdaşına çevrilməsi işini sür'ətləndirdi.

Beləliklə, Prezident Heydər Əliyevin yeritdiyi daxili və xarici siyasət, bu siyasətin həm Azərbaycan, həm də Qərbin və ABŞ-ın maraq və prinsiplərinə tam cavab verməsi, Azərbaycanın Qafqaz regionunda və Xəzərətrafı bölgədə malik olduğu geostrateji mövqe

və iqtisadi əhəmiyyət də əlavə olunmaqla, ABŞ-ın strateji tərəfdaşları sırasına daxil edilməsini şərtləndirən əsas amillər hesab olunmalıdır.

Azərbaycan-Amerika münasibətlərində yaranmış strateji tərəfdaşlıq əlaqələri təkcə respublikamız üçün deyil, bütün Qafqaz və Mərkəzi Asiya regionu üçün də çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan Prezidentinin ABŞ-a rəsmi səfəri ərəfəsində, bilavasitə Heydər Əliyev xarici siyasətinin və Azərbaycanla yaranmış strateji mənafe birliyinin əhəmiyyətli tə'siri ilə formalaşmış "Mərkəzi Asiya və Qafqaz bölgəsində ABŞ siyasətinin əsas prinsipləri" adlanan strateji kursun Vaşinqtonda açıqlanması bunun əyani sübutudur.

Qafqaz və Mərkəzi Asiya regionu tarix boyu bu bölgədə marağı olan ayrı-ayrı dövlətlərin mübarizə meydanı olmuşdur. Bu dövlətlərin bir çoxu bölgəyə nəzarəti əldə saxlamaq, öz tə'sir mexanizmlərini itirməmək üçün region dövlətlərini və xalqlarını bir-birinə qarşı qoymuş, müxtəlif təxr ibat və tədbirlərlə onlar arasında sülh və birlik yaranmasına həmişə mane olmuşlar. Əsas maraqları münaqişəli və qeyri-sabit bölgədə təmsil olunan bu dövlətlər həmin məqsədə xidmət edə bilən ayrı-ayrı Ermənistan tipli dövlətləri, Dağlıq Qarabağ və xüsusi məqsədlə yaradılmış buna oxşar regional separatçı qüvvələri öz əllərində alətə çevirmiş, sülhün, birliyin və qarşılıqlı təhlükəsizliyin bərqərar olmasına hər vəchlə mane olmuşlar. İndi Azərbaycanla və digər Mərkəzi Asiya ölkələri ilə yaranmış strateji əlaqələr və münasibətlər nəticəsində bu bölgəni özünün "strateji maraqları" cərgəsinə qoşan ABŞ bölgədə öz xarici siyasətinin əsas prinsiplərini e'lan etmişdir. Ermənistanı öz əlində alətə çevirən ayrı-ayrı dövlətlərdən fərqli olaraq, ABŞ-ın "sabit, münaqişəsiz, dövlət və xalqlar arasında möhkəm sülh olan regionda" maraqlı olduğunu bəyan etməsi bütün bölgə üçün çox böyük əhəmiyyət kəsb edir. Bu, o deməkdir ki, ABŞ bundan sonra sabit, müharibəsiz, dövlət və xalqlar arasında möhkəm sülh mövcud olan region uğrunda mübarizə aparacaq ki, bu da regionun bütün dövlət və xalqları üçün tarixi əhəmiyyət kəsb edir.

Bundan başqa, Qafqazın təbii ehtiyatlarının istismarı, ixracı, regiona investisiya qoyuluşu, qabaqcıl texnologiya gətirilməsi, sənaye infrastrukturlarının inkişaf etdirilməsi, bölgə ölkələrinin



dünya birliyinə inteqrasiya olunması təkcə Azərbaycan üçün deyil, bütün bölgə dövlətləri üçün böyük əhəmiyyətə malikdir.

Əslində Azərbaycan-Amerika əlaqələrinin strateji əməkdaşlıq və tərəfdaşlıq üzərində qurulması və bu zəmində yaranan bütün müsbət amillər həm də Avropa və bütün dünya üçün böyük əhəmiyyət kəsb edir. İstər bu bölgədə sülhün yaranması, istərsə ayrı-ayrı bölgə dövlətlərinin və bütöv regionun iqtisadi yüksəlişi, Avropanın və dünyanın iqtisadi, siyasi və təhlükəsizlik sisteminə inteqrasiyası, bütün hallarda bəşəriyyəti, insanlığı narahat edən müxtəlif problemlərin azalmasına səbəb olacaq. Bu gün Avropa və beynəlxalq aləm münaqişələrdə tələf olan insan həyatından, müharibələrin aradan qaldırılmasına sərf olunan milyonlarla vəsaitdən, insan əməyindən, iqtisadi dağıntıların və b. böhranların qarşısını almaq üçün sərf olunan maddi və mə'nəvi vəsaitdən xilas olmaq üçün atılan hər addımı alqışlayır, arzu və müdafiə edir. Bu mə'nada Azərbaycanda, Qafqaz və Mərkəzi Asiyada baş verən bütün neqativ hadisələrə nüfuzlu dövlətlərin müsbət müdaxiləsi hamı üçün sərfəlidir.

Səfərin gedişində dünyanın aparıcı kütləvi informasiya vasitələrində dərc olunan çoxsaylı yazılar, şərhlər və icmallar göstərdi ki, Azərbaycan-Amerika əlaqələrində yaranmış yenilik, iki ölkə münasibətlərinin strateji tərəfdaşlıq üzərində qurulması yalnız bu iki dövlətin daxili və xarici siyasət məsələsi deyildir. Bu, eyni zamanda, Qafqaz və onun ətrafında mövcud olan MDB məkanındakı bütün dövlətlərin, Avropa və Asiya qitəsi ölkələrinin həm daxili, həm də xarici siyasətinə önəmli tə'sir göstərə biləcək, dünya siyasətinin yeni istiqamətdə, yeni prioritetlər əsasında qurulmasına əsaslı təkan verəcək strateji bir yenilikdir.

Həmin günlər ABŞ-ın ən nüfuzlu qəzetlərindən sayılan "Vaşinqton post" özünün baş yazılarından birində qeyd edirdi ki, Bill Klintonun Heydər Əliyevin tələblərinə əməl etməsi bu ölkənin düşməni olan Ermənistana və qonşusu olan digər dövlətlərə neftin və neft siyasətinin gücünü bir daha göstərdi. Qəzet yazır ki, Prezident Əliyev Amerika hökumətində, ABŞ-ın ictimai-siyasi dairələrində və iş adamları arasında öz ölkəsinin və Qafqaz regionunun sabitliyi üçün zəruri olan böyük nüfuz qazanmış, Amerikaya səfər nəticəsində

Azərbaycana hər cür siyasi, iqtisadi, beynəlxalq və humanitar yardım etmək üçün ABŞ hökumətinin hərtərəfli dəstəyini əldə etmişdir.

1997-ci il iyulun 31-də Vaşinqtonda çıxan "Cornel of kommers ənd kommerşl" qəzeti Azərbaycan Prezidentinin ABŞ-a səfəri ilə bağlı böyük bir yazı vermişdir. Məqalədə Qafqaz regionunun geosiyasi vəziyyəti, Ermənistan - Azərbaycan münaqişəsi, Azərbaycan diplomatiyasının ABŞ-ı bu məsələlərə cəlb etməsi, Amerikadakı güclü erməni lobbisinin ciddi sə'yinə baxmayaraq, ABŞ-ın ictimai-siyasi dairələrinin və iri neft korporasiyalarının Azərbaycanın müdafiəsinə qalxması və s. məsələlər haqqında oxuculara geniş mə'lumat verilmişdir. Yazı müəllifi qeyd edir ki, Azərbaycan Prezidenti Heydər Əliyevin uzaqgörən və parlaq siyasəti nəticəsində ABŞ-da iri neft kompaniyaları ilə erməni lobbisi arasında çox gərgin mübarizə başlanmışdır. Bu mübarizədə Amerikanın görkəmli siyasi xadimləri, prezidentin administrasiyası və bir çox qanunverici nümayəndələr Azərbaycanı dəstəkləmək üçün ciddi sə'y göstərirlər.

Londonda çıxan "Faynenşl tayms" qəzeti də 31 iyul tarixli sayında Azərbaycan Prezidentinin ABŞ-a səfərini, səfərin məqsəd və *vəzifələrin i, mümkün nəticələrini geniş şərh etmişdir. Qəzet yazır ki,* Amerikanın siyasi rəhbərliyi və iş adamları erməni lobbisinin ciddi sə'yinə baxmayaraq, Azərbaycan Prezidentini yüksək səviyyədə qarşılamağa və bu ölkəni ABŞ-ın geosiyasi və iqtisadi maraqları dairəsinə qoşmağa hazırlaşırlar.(295)

Nüfuzlu mətbuat orqanlarından sayılan "Uoll strit cornel" qəzeti 8-9 avqust tarixli sayında dərc etdiyi yazıda Prezident Heydər Əliyevin ABŞ səfəri və səfər qarşısında duran vəzifələr, Azərbaycanın hazırkı durumu və üzləşdiyi problemlər haqqında geniş mə'lumat verir. Azərbaycan Prezidentinin ABŞ-da yüksək nüfuza malik olmasını vurğulayan müəllif qeyd edir ki, "vaxtilə soyuq müharibə dövründə Sovet İttifaqının əsas fiqurlarından hesab olunan bu şəxsi Amerika-Azərbaycan Ticarət Palatasında iştirakçılar ayaqüstə, görünməmiş alqışlarla qarşılamışlar".

Qəzet yazır ki, Prezident Heydər Əliyevin Amerikada yüksək ehtiramla qarşılanması və səfərin gedişində imzalanan sənədlər ABŞ-ın Azərbaycana, eləcə də bütün Qafqaza münasibətdə həyata



keçirdiyi "xarici siyasətdə edilən böyük dəyişikliklərin kulminasiya nöqtəsidir". Müəllif Azərbaycanda baş verən yenilikləri yüksək qiymətləndirir, respublikamızla münasibətlərin möhkəmləndirilməsinin ABŞ-ın mənafelərinə tam cavab verdiyini və ədalətsiz 907-ci maddənin ləğv edilməsinin zəruriliyini qeyd edir. Yazının müəllifi Birləşmiş Ştatların siyasi dairələrində baş verən köklü dəyişiklikləri nəzərə alaraq bildirir ki, "əgər Ermənistan Amerika siyasətində böyük dəyişikliyi vaxtında dərk etməsə, özünü kənara atılmış bir ölkə vəziyyətində qoymuş olacaq". (296)

Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ səfəri bu ölkədə Azərbaycan haqqında obyektiv mə'lumatların geniş yayılmasına, respublikamıza münasibətdə müsbət ictimai fikrin formalaşmasına güclü təkan verdi. "Çikaqo tribyun" qəzetinin 6 avqust tarixli sayında verilmiş yazıda Azərbaycan ərazilərinin beşdə bir hissəsinin Ermənistan tərəfindən işğal edilməsi, 907-ci maddənin ədalətsizliyi və ABŞ-ın bölgədəki mənafelərinə zidd olması, zəngin neft sərvətlərinə malik Azərbaycanın regiona Rusiya və İran müdaxiləsini məhdudlaşdırmağa çalışaraq, ABŞ ilə sıx münasibətlər yaratmağa sə'y göstərməsi vurğulanır. Müəllif Prezident Heydər Əliyevin Azərbaycana ABŞ tərəfindən humanitar yardım göstərilməsi üzərində qadağanın götürülməsi barəsindəki mövqeyini haqlı hesab edir.

Çikaqoda nəşr edilən digər qəzet "Çikaqo san tayms" avqustun 5-də Azərbaycan Prezidentinin Amerika səfərinə həsr etdiyi yazıda Prezident Heydər Əliyevin səfər zamanı qarşıya qoyduğu vəzifələr, Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycanın bugünkü vəziyyəti və böyük iqtisadi potensialı haqqında ətraflı mə'lumat vermişdir. ABŞ *şirkətlərinin Azərbaycanda geniş təmsil olunduğunu* qeyd edən qəzet bildirir ki, Prezident Heydər Əliyev 907-ci maddənin aradan götürülməsi üçün "aparıcı biznesmenləri Konqresə təzyiq göstərməyə sövq etmişdir". Qəzet yazır ki, Amerika-Azərbaycan münasibətlərinin inkişaf perspektivləri Vaşinqtonun sanksiyalarının aradan qaldırılmasını zəruri edir.(297)

ABŞ-da çıxan "Krisçen sayens monitor" qəzetində dərc edilmiş konqresmen, Nümayəndələr Palatasının Beynəlxalq Münasibətlər Komitəsinin üzvü Li Hamiltonun ABŞ-ın Qafqazdakı mənafelərinə

həsr edilmiş məqaləsində qeyd edilir ki, Birləşmiş Ştatların Qafqaz bölgəsində "mühüm maraqları" var. Azərbaycanın təbii sərvətləri və geostrateji əhəmiyyəti, Ermənistan-Azərbaycan müharibəsi nəticəsində Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi haqqında oxucuya mə'lumat verən konqresmen bildirir ki, vaxtı ilə onun özünün də səs verməsi nəticəsində qəbul edilmiş 907-ci maddə aradan götürülməlidir.Amerika diplomatiyasının bölgədə daha ardıcıl fəaliyyətini tə'min etmək məqsədilə Azərbaycana yardım üzərindəki embarqonun ləğv edilməsinin zəruriliyini göstərən Li Hamilton belə nəticəyə gəlir ki, "Azərbaycanla münasibətlərin yaxşılaşdırılması Amerikanın milli mənafelərinə, sülhü möhkəmlətmək mənafelərinə, habelə Ermənistanın uzunmüddətli mənafelərinə xidmət edəcəkdir". (298)

"Boston-Qlob" qəzeti Prezident Heydər Əliyevin Vaşinqtonda apardığı danışıqların və səfər gedişində imzalanmış mühüm müqavilələrin Qərb mətbuatında böyük əks-səda doğurduğunu qeyd edir. Müəllif yazır ki, Azərbaycanın zəngin neft yataqları və geostrateji mövqeyi Rusiya və Qərb dövlətləri arasında bölgədə nüfuz üstünlüyü qazanmaq uğrunda tarixən davam edən mübarizəni bu gün daha da kəskinləşdirmişdir. Məqalədə Prezident Heydər Əliyevin Amerika səfərinin qarşısında duran vəzifələr, ABŞ siyasətində baş verən dəyişikliklər, Rusiyanın bölgədə yeritdiyi siyasət işıqlandırılır. Müəllifin fikrincə, gələcəkdə Xəzərin neft yataqları kimin əlində olacaqsa, Qafqazın açarına da o sahib duracaqdır. (299)

Fransada çıxan məşhur "Le Mond" qəzeti yazır ki, Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri və imzaladığı 8 milyard dollarlıq kontraktlar ABŞ-ın Qafqaz siyasətini tamamilə dəyişir. Qəzet qeyd edir ki, Azərbaycan Prezidentinin uğurlu səfəri Ermənistanı və ABŞ-dakı erməni lobbisini böyük təşvişə salmışdır.(300)

"Frans-Press" Agentliyi Azərbaycan Prezidentinin Ağ evin Oval ofisində Bill Klintonla nəzərdə tutulduğundan çox-çox uzun çəkən görüşünün iki ölkə arasında strateji əməkdaşlıq əlaqələrinin yaranması və ABŞ-ın Qafqaz bölgəsinə göstərdiyi güclü maraqla bağlı olduğunu vurğulayır.(301)



Moskvada çıxan "İzvestiya" qəzeti isə Azərbaycan Prezidentinin ABŞ-a rəsmi səfərini Qafqaz regionuna sülh, Azərbaycana böyük investisiya gətirmək baxımından çox yüksək qiymətləndirmişdir. Qəzet yazır ki, bu səfərdən sonra ABŞ-ın Qafqaz bölgəsində baş verən hadisələrə tə'siri və təzyiqi daha da artacaq, Azərbaycanı müharibə və münaqişədən çıxarmaq, Xəzərin təbii ehtiyatlarının mənimsənilməsinə dinc şərait yaratmaq üçün ABŞ şirkətlərinin rəsmi Klinton administrasiyasına göstərdiyi təzyiqlər daha da güclənəcəkdir.

"İzvestiya" qəzetinin başqa bir yazısında göstərilir ki, Heydər Əliyevin üç illik hakimiyyəti dövründə Azərbaycanın iqtisadi-siyasi və maliyyə vəziyyətində yaranmış sabitlik və qismən yüksəliş, o cümlədən məşhur ABŞ şirkətlərinin Azərbaycanın iqtisadiyyatı ilə yaxından bağlanması Azərbaycana Beynəlxalq Valyuta Fondu və Dünya Bankı rəhbərləri ilə aparılan danışıqlarda əvvəlcədən müvəffəqiyyət və'd edirdi. Bu qurumların Azərbaycanda iqtisadiyyatın və idarəetmənin strukturunun təkmilləşdirilməsi ilə bağlı ayırdığı 70 milyon yeni kredit Azərbaycan Prezidenti Heydər Əliyevin dünya səviyyəli, nüfuzlu siyasətçi olmasına bir daha dəlalət edir (302). "Pravda" qəzeti Prezident Heydər Əliyevin ABŞ-da "yaxşı dostların və ya ən mühüm tərəfdaşların layiq olduğu diqqət və nadir təntənə ilə qarşılandığını" qeyd edir. Azərbaycanı "qara siyahıya" salmış Amerikada Prezident Heydər Əliyevin səfəri gedişində Azərbaycana münasibətin ciddi surətdə dəyişdiyi, zəngin neft sərvətlərinə və mühüm strateji mövqeyə malik Azərbaycanın dövlət başçısının həyata keçirdiyi siyasət nəticəsində ABŞ-da erməni lobbisinə üstün gəlməyə qadir olan görkəmli siyasi xadimlərdən ibarət nüfuzlu Azərbaycan lobbisinin formalaşdığı vurğulanır. Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika səfərinə mane olmağa böyük sə'y göstərən erməni lobbisinin ABŞ-da ilk dəfə olaraq uğursuzluğa düçar olması, Vaşinqtonun Qafqaz siyasətinin öz istiqamətini Yerevandan Bakıya dəyişməsi müəllif tərəfindən xüsusi olaraq nəzərə çatdırılır. Qəzet yazır ki, ekspertlərin fikrincə, Prezident Heydər Əliyevin Amerika səfəri Birləşmiş Ştatların "keçmiş sovet respublikaları ilə münasibətində Rusiya amilinin getdikcə daha az rol

oynacacağı ilə səciyyələnən yeni dövrün başlanğıcını qoyur". (303)

"Pravda" qəzeti 16 avqust tarixli sayında dərc etdiyi Vaşinqtonun Qafqaz siyasətinə həsr edilmiş məqalədə ABŞ-ın rəsmi dairələrinin Azərbaycana münasibətində əsaslı dəyişikliklərin baş verdiyini, C.Beyker, B.Skoukroft, Z.Bjezinski kimi diplomat və siyasi xadimlərin Azərbaycanla daha sıx münasibətlərin yaradılmasına tərəfdar olduqlarını qeyd edir, Konqresin 907-ci maddəni ləğv edəcəyi ilə bağlı narahatlığını açıqca büruzə verir. (304)

Rusiyanın nüfuzlu qəzetlərindən biri olan "Rossiyskaya qazeta" Azərbaycan Prezidentinin Amerika səfərinin yekunlarını yüksək qiymətləndirərək, onun böyük uğurla nəticələnməsində Prezident Heydər Əliyevin xüsusi xidməti olduğunu yazır. Qəzet qeyd edir ki, ABŞ administrasiyasını Azərbaycanla iqtisadi əməkdaşlığın yüksək dərəcədə səmərəli olduğuna inandıran Prezident Heydər Əliyev öz ölkəsinin problemlərinin həll edilməsində Amerikanın neft şirkətlərinin, bir sıra nüfuzlu siyasətçilərin, habelə ABŞ Prezidenti Bill Klintonun dəstəyini qazanmışdır. (305)

"Moskovski komsomolets" qəzeti Azərbaycan Prezidentinin ABŞ səfərinə daha çox maraq göstərmiş və 20 avqust tarixli sayında Azərbaycan mövzusuna, Prezident Heydər Əliyevin siyasi xəttinin işıqlandırılmasına geniş yer vermişdir. Müəllif Amerika səfərinin uğurla keçdiyini, ABŞ-ın işgüzar dairələrinin və siyasi xadimlərinin Azərbaycana böyük maraq göstərdiklərini, Vaşinqtonun Qafqaz siyasətində əsaslı dəyişikliklərin baş verdiyini qeyd etmişdir. Azərbaycanın dövlət başçısının xidmətlərini xüsusi vurğulayan müəllif yazır ki, "Əliyev bu səfər zamanı özünü professional kimi göstərdi".

Müəllifin fikrincə, Rusiya mücərrəd maraqlardan əl çəkməli və işə praqmatik yanaşmaqla regiondakı mövqedən mənfəət götürmək naminə Azərbaycanla daha sıx münasibətlər yaratmalıdır. (306)

Azərbaycan Prezidentinin ABŞ-a rəsmi səfəri ABŞ, Avropa, Rusiya mətbuatı ilə yanaşı Türkiyənin kütləvi- informasiya vasitələrində də diqqətlə izlənilmiş və yüksək qiymətləndirilmişdir. "Milliyyət" qəzetinin həmin günlərdə dərc etdiyi yazıda göstərilir ki, Ağ ev "Heydər Əliyevin Qarabağ siyasətinə yaşıl işıq yandırdı" və bu ilin içərisində bu problemə son qoyacağına söz verdi.



"Milliyyət"in başqa bir yazısında qeyd edilir ki, "amerikalılar son beş ildə azəriləri incidən siyasətlərini dəyişdirir və Heydər Əliyevi başlarının tacı edirlər..." Qəzet yazır ki, "Amerika strateji kursunu Bakıya tərəf döndərir. Amerika birdən-birə Azərbaycanın iş, hətta strateji partnyoru olur."

"Sabah" qəzeti Bill Klintonun Heydər Əliyevin apardığı demokratik və iqtisadi islahatlardan heyranlıqla danışdığından və Amerika Prezidentinin Azərbaycanı hər zaman dəstəkləyəcəyi haqqında verdiyi sözdən bəhs edir və qeyd edir ki, "erməni lobbisinin bütün manevrlərinə baxmayaraq, Heydər Əliyev Bill Klintonla görüşdü və onun hərtərəfli dəstəyini qazandı. Bu erməniləri çaş-baş saldı".

Başqa bir yazıda "Sabah" Heydər Əliyevin çox az dünya liderinə nəsib olan "kral kimi qarşılanmasından" bəhs edərək, onun ABŞ səfərini geniş işıqlandırır.(307)

Türkiyənin kütləvi informasiya vasitələri Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika səfərinin gedişinə və yekunlarına səfər başa çatdıqdan sonra da böyük diqqət yetirmişdir. Qonşu ölkədə çıxan "Hürriyyət", "Radikal", "Cumhuriyyət", "Türkiş deyli nyus" və "Türkiyə" qəzetləri bu mövzunu diqqət mərkəzində saxlamış, Prezident Heydər Əliyevin ABŞ-da olarkən Azərbaycan-Türkiyə dostluğunu xüsusi qiymətləndirməsi, Bakı-Ceyhan neft kəmərinə tərəfdar olması haqqında fikirlər söyləməsini vurğulamışlar.

ABŞ-ın Corctaun Universitetində Azərbaycan Araşdırmaları İnstitutu açılmasını Azərbaycan və bütün türk dünyası üçün mühüm hadisə hesab edən qəzetlər, bu qərarı Prezident Heydər Əliyevin yüksək nüfuzu və fəaliyyəti ilə əlaqələndirirlər. Səfərin başlıca nəticələrindən biri kimi Amerikanın güclü yəhudi lobbisinin də Azərbaycan lehinə kampaniyaya başlaması qeyd edilir. (308)

"Zaman" qəzeti Amerika səfəri gedişində imzalanmış müqavilələri çox yüksək qiymətləndirərək, Azərbaycan-ABŞ münasibətlərinin strateji əməkdaşlıq xarakteri almasını bildirir.

"Türkiyə" qəzeti Prezident Heydər Əliyevin neft diplomatiyasından uğurla istifadə etməsindən bəhs edərək, ABŞ şirkətləri ilə imzalanmış sazişlərin Azərbaycanın bir çox

problemlərinin həllinə şərait yaradacağını qeyd edir.

Türkiyənin "Axşam" qəzeti yazır ki, Prezident Heydər Əliyevin görkəmli siyasi xadim və mahir diplomat kimi ABŞ səfəri zamanı atdığı məqsədyönlü addımlar qarşısında erməni lobbisi aciz qalmış, Azərbaycanın başçısı ustalıqla öz məqsədinə nail olmuşdur.(309)

Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri Gürcüstan mətbuatında da geniş şərh edilmişdir. "Sakartvelo", "Svobodnaya Qruziya", "Droni", "Rezonansi" və digər qəzetlər səfərlə bağlı ətraflı mə'lumatlar vermiş, məqalələr dərc etmişlər.

Gürcüstan mətbuatı ABŞ-da aparılan danışıqları, imzalanan sənədləri və onların Qafqazdakı vəziyyətin nizamlanmasında oynaya biləcəyi rolu ətraflı təhlil etmiş və yüksək qiymət vermişdir.

"Sakartvelo" qəzeti yazır ki, Azərbaycan Prezidentinin Amerika səfəri yalnız Ermənistan-Azərbaycan münaqişəsinin deyil, həm də Abxaziya probleminin həlli üçün perspektivlər açacağına görə bütün Qafqazdakı vəziyyətə mühüm tə'sir göstərəcək hadisə kimi qiymətləndirilməlidir.

"Droni" qəzeti isə yazır ki, Azərbaycan nümayəndə hey'ətinin apardığı işin nəticəsində "artıq Amerikada neft şirkətlərinin timsalında erməni lobbisini zərərsizləşdirməyə qadir olan Azərbaycan lobbisi formalaşmışdır". (310)

Azərbaycan Prezidenti Heydər Əliyevin Birləşmiş Ştatlara səfəri ərəb ölkələrində də diqqət mərkəzində olmuş və mətbuat səhifələrində geniş işıqlandırılmışdır. Səudiyyə Ərəbistanında ingilis dilində çıxan "Arab nyuz" qəzeti Ağ evdə imzalanmış neft müqavilələrinin iqtisadi və siyasi əhəmiyyətindən, aparılan danışıqların və imzalanan sənədlərin Qafqazda və Mərkəzi Asiyada təhlükəsizliyin bərqərar edilməsində mühüm rolundan bəhs etmiş, erməni təcavüzü, Azərbaycanın indiki durumu və zəngin neft yataqları haqqında ətraflı mə'lumat vermişdir.

"Ər-Riyad" qəzeti Azərbaycan-ABŞ arasında imzalanmış sənədləri şərh etmiş, 907-ci düzəlişin ləğv edilməsi üçün Bill Klintonun böyük sə'y göstərəcəyinə söz verdiyini bildirmişdir.

Londonda çıxan beynəlxalq ərəb qəzeti "Aş-şərq Əl-ausat" erməni lobbisinin sə'ylərinin əbəs olduğu, Azərbaycan Prezidentinin yüksək



səviyyədə qarşılandığı, məhsuldar görüşlərin keçirildiyi haqqında mə'lumat vermiş və qeyd etmişdir ki, Bill Klinton Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasında ABŞ-ın fəaliyyətinin gücləndirilməsi və Azərbaycanla münasibətlərin möhkəmləndirilməsinin zəruriliyini göstərmişdir.

"Əl-həyat", "Əl-Mədinə", "Riyad-Deyli" və s. qəzetlər də Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika səfərinin gedişini və yekunlarını öz səhifələrində işıqlandırmış və yüksək qiymət vermişlər.(311)

Göründüyü kimi, Azərbaycan Prezidenti Heydər Əliyevin Amerikaya rəsmi səfəri bütün dünya politoloqlarının, kütləvi-informasiya vasitələrinin diqqət mərkəzində olmuş və səfərin hər iki tərəf, xüsusən Azərbaycan üçün çox böyük müvəffəqiyyətli sonluqla bitməsi birmə'nalı şəkildə müsbət qiymətləndirilmişdir.

Beləliklə, müstəqil Azərbaycan diplomatiyasının başda Prezident Heydər Əliyev olmaqla 1993-cü ilin ortalarından götürdüyü məqsəd yönlü xarici siyasət kursu dünyanın ən nüfuzlu ölkəsi, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan ABŞ-a rəsmi səfər zamanı ölkəm iz və xalqımız üçün çox böyük uğur gətirəcək nəticələrin əldə olunması ilə özünü bir daha doğrultdu.

## IV fəsil

# Azərbaycanın Qərb dövlətləri ilə əlaqələrində beynəlxalq təşkilatların rolu

XX əsrin sonunda sosializm sisteminin iflası və "soyuq müharibə"nin tədricən aradan qaldırılması beynəlxalq və məhəlli təşkilatların fəaliyyətində keyfiyyətcə yeni mərhələnin başlanmasına imkan verdi. İdeoloji qarşıdurmanın dəf olunması və qarşılıqlı e'timadın güclənməsi ilə dünyada siyasi iqlimin ümumən mülayimləşməsi,beynəlxalq təşkilatların, xüsusən də BMT, NATO və ATƏT-in yaxından iştirakı ilə 90-cı illərin əvvəllində yaranmış bir sıra hərbi münaqişələrin, o cümlədən İraqın Küveytə qarşı hərbi təcavüzünün aradan qaldırılması və Bosniya probleminin həll olunması beynəlxalq aləmdə bu təşkilatların rolunu əhəmiyyətli dərəcədə yüksəltdi.

Beynəlxalq və regional mübahisələrin dinc yolla nizamlanması üçün geniş tədbirlər sistemini nəzərdə tutan hüquqi-normativ bazaya malik olmaları, dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün qorunmasında beynəlxalq hüquq normalarına söykənən tə'minatçı rolunu yerinə yetirmələri həmin təşkilatlarla sıx əlaqələrin yaradılması zəruriliyini təsdiq edir.

Bununla yanaşı, bu təşkilatlarla qarşılıqlı münasibətlərin intensiv inkişaf etdirilməsi həm digər dövlətlərlə çoxşaxəli siyasi, iqtisadi, elmi-mədəni və humanitar əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə, həm də ölkədə baş verən proseslər haqqında obyektiv beynəlxalq ictimai rə'yin formalaşmasına əsaslı tə'sir göstərmək imkanlarını genişləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, beynəlxalq və regional qurumlarda bilavasitə təmsil

olunmaqla, onların potensial imkanlarından daha geniş surətdə istifadə etmək mümkündür.

İstiqlaliyyət əldə etmiş hər bir dövlət özünün suveren hüquqlarını qorumaq, dövlət müstəqilliyini möhkəmləndirmək, beynəlxalq münasibətlər sistemində layiqli yer tutmaq və meydana çıxmış münaqişələri həll etmək üçün ardıcıl və prinsipial xarici siyasət yeridərək qonşu ölkələr və dünyanın nüfuzlu dövlətləri ilə yanaşı, onların təmsil olunduğu bütün beynəlxalq və məhəlli təşkilatlarla da geniş əməkdaşlıq əlaqələri qurmalıdır. Məhz buna görə də dünya birliyinə tamhüquqlu üzv kimi daxil olmağa çalışan, müstəqilliyinin ilk kövrək addımlarını atan və Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində beynəlxalq və məhəlli təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi başlıca istiqamətlərdən birini təşkil edir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan dövləti qarşıya çıxan bir sıra mühüm problemlərin, ilk növbədə dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması, bazar iqtisadiyyatı istiqamətində islahatların həyata keçirilməsi və dünya inteqrasiya prosesinə sıx cəlb olunmasında beynəlxalq təşkilatların rolundan istifadə etmək məqsədi ilə qısa müddət ərzində BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İslam Konfransı Təşkilatı (İKT), Türk Dövlətləri Birliyi, Müstəqil Dövlətlər Birliyi (MDB), Beynəlxalq Valyuta Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Bərpa və İnkişaf Bankı və İslam İnkişaf Bankının üzvü oldu, Parlamentlərarası İttifaq, Avropa Birliyi, Avropa Şurası, Avropa Parlamenti, NATO və b. beynəlxalq və regional qurumlarla qarşılıqlı faydalı əlaqələr yaratdı.

Bu gün Azərbaycan Respublikası müstəqil dövlət quruculuğu prosesində üzləşdiyi problemlərin həll edilməsində bu təşkilatların da siyasi və iqtisadi potensialından istifadə etməyə sə'y göstərir. Bu istiqamətdə ardıcıl xarici siyasət xəttini həyata keçirən Prezident Heydər Əliyev qeyd etmişdir ki, "indi dünyanın bütün beynəlxalq təşkilatları bizim problemlərlə məşğuldur. Biz öz problemlərimizi



beynəlxalq təşkilatların müzakirə mövzusuna, müzakirə obyektinə çevirə bilmişik və onların imkanlarından istifadə etməyə çalışırıq" (312).

Hazırda Azərbaycanın Avropa ölkələri və ABŞ-la əlaqələrinin inkişafında ATƏT və NATO mühüm rol oynayır.

Dünya dövlətləri tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normalarına, BMT Nizamnaməsinə, ATƏT prinsiplərinə əsaslanan Azərbaycan Respublikası müasir dövrdə üzləşdiyi Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemini həll etmək üçün nüfuzlu beynəlxalq təşkilatlardan biri olan ATƏT ilə fəal və genişmiqyaslı əməkdaşlıq edir. ATƏT öz fəaliyyəti dövründə ümumavropa təhlükəsizlik sisteminin bərqərar olmasına, dövlətlərarası münasibətlərin qarşılıqlı faydalı əməkdaşlıq və dövlətlərin suveren hüquqlarına hörmət əsasında tənzimlənməsinə, demokratiyanın və insan haqlarının qorunmasına mühüm töhfə vermişdir.

1992-ci ildə ATƏT-ə üzv olmuş Azərbaycan bu təşkilatla və onun Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin tənzimlənməsilə məşğul olan Minsk qrupu ilə fəal və səmərəli əməkdaşlığa üstünlük verir. Eyni zamanda, ATƏT üzvü olan dövlətlərlə qarşılıqlı əlaqələr in inkişaf etdirilməsinə, müntəzəm dialoqun və məsləhətləşmələrin aparılmasına böyük əhəmiyyət verilir.

Əgər ATƏT ilə münasibətlər əsasən Azərbaycanın dünya birliyinə siyasi inteqrasiyasını sür'ətləndirməyə xidmət edirsə, nüfuzlu beynəlxalq təşkilatlardan biri olan NATO ilə əməkdaşlıq isə bu əlaqələrin hərbi-siyasi müstəvi üzərinə keçirilməsinə şərait yaradır. NATO üzvü olan dövlətlərin ATƏT-də təmsil olunduqlarını nəzərə alsaq, mə'lum olar ki, NATO ilə sıx əlaqələrin yaradılması ATƏT çərçivəsindəki mövcud siyasi münasibətlər halqasının tamamlanması və respublikamızın ümumavropa təhlükəsizlik sisteminə qovuşması baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycanın coğrafi-siyasi və strateji mövqeyi, regionda öz mənafeyi naminə hegemon mövqe tutmağa çalışan bir sıra dövlətlər tərəfindən müxtəlif təzyiqlərə mə'ruz qalması, müstəqil dövlət

quruculuğu yolunda mürəkkəb hərbi-siyasi problemlərlə üzləşməsi NATO ilə əməkdaşlığın dərinləşməsini zəruri edir.

1992-ci ildə Şimali Atlantika bloku ilə ilk əlaqələrini yaratmış Azərbaycan Respublikası sonrakı dövrdə bu istiqamətdə bir sıra mühüm əməli addımlar atmış və qarşılıqlı münasibətlərin hüquqi-normativ bazasını yaradaraq, onların daha intensiv və praktiki xarakter kəsb etməsində maraqlı olduğunu təsdiq etmişdir.

Bu gün Azərbaycanın dünya birliyinə inteqrasiya olunmasında, onun təhlükəsizlik problemlərinin həll edilməsində, beynəlxalq ictimai rə'yin formalaşmasında, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsində və s. ATƏT və NATO kimi nüfuzlu beynəlxalq təşkilatların böyük rolu vardır. Buna görə də qeyd olunan məsələlərin araşdırılması mühüm elmi, siyasi və praktiki əhəmiyyət kəsb edir.



## § 1. Azərbaycanın ümumavropa təhlükəsizlik sisteminə qoşulmasında ATƏT-in rolu

Hazırda ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) adlanan qurum 70-ci illərdə keçmiş Sovet İttifaqının və sosializm düşərgəsinə daxil olan digər ölkələrin təşəbbüsü ilə yaranmışdır. 1966-ci ildə SSRİ və Varşava müqaviləsinə daxil olan Avropa dövlətlərinin təşəbbüsü ilə "Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri" üzrə ümumavropa müşavirəsinin keçirilməsi ideyası irəli sürülmüş və bu ideya 30-a qədər dövlət tərəfindən müdafiə olunmuşdur.

O zaman SSRİ bu müşavirədə Avropada İkinci dünya müharibəsindən sonra yaranmış geosiyasi mühiti, dövlətlərarası münasibətlər sistemini, iki əks qütblü siyasi düşərgə üzərində köklənmiş ideoloji sistemi öz xeyrinə dəyişmək, bütün Avropa məkanında sosializmin tə'sir dairəsini qorumaq və artırmaq məqsədi güdürdüsə, ayrı-ayrı Qərbi Avropa dövlətləri SSRİ-də və Şərqi Avropada insan hüquqlarının vəziyyəti və digər demokratik tə'sisatlarla bağlı məsələləri müzakirə obyektinə çevirmək, beləliklə də bu dövlətlərin ideoloji və siyasi həyatına öz tə'sirini göstərmək və onlardakı totalitar rejimi zəiflətmək istəyirdi. Sözsüz ki, o zaman ATƏT indiki kimi təşkilat funksiyası deyil, forum, yaxud müşavirə xarakteri daşıyırdı.

ATƏT-in tarixində ən mühüm mərhələlərdən biri 1975-ci ilin payına düşür. Həmin il avqust ayının 1-də ilk dəfə dünyanın 35 ölkəsi Finlandiyanın paytaxtı Helsinkidə Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair iki günlük geniş müzakirələrdən sonra yekun sənədi imzaladılar. Sonralar Avropa tarixində mühüm rol oynayan və "Helsinki bəyannaməsi" adlanan bu sənəd Avropada ilk

dəfə müxtəlif sistemli dövlətlərin razılığı əsasında qarşılıqlı əməkdaşlığın və təhlükəsiz birgəyaşayışın əsas prinsiplərini müəyyən etdi. Suveren bərabərlik, güc tətbiq etmənin və hədələmənin yol verilməzliyi, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, mübahisəli məsələlərin sülh yolu ilə həll edilməsi və sairədən ibarət olan bu prinsiplər sənədi imzalayan hər bir dövlətə eyni dərəcədə şamil edilirdi.

Helsinkidən keçən 20 ildən artıq vaxtda ATƏT özünün mütəmadi keçirilən zirvə toplantılarında (Belqrad 1977, Madrid 1980, Vyana 1986, Paris 1990, Helsinki 1992, Budapeşt 1994) Avropada dövlətlərarası və regional münasibətlərin tənzimlənməsinə dair mühüm qərarlar qəbul etmiş və həyata keçirmişdir.

1975-ci ildə qəbul olunan prinsipləri rəhbər tutaraq, bu təşkilat Avropada totalitar sistemin dağılması, demokratik dövlət və cəmiyyətlərin formalaşması, insan hüquq və azadlıqlarının qorunması, dövlətlərarası, regional və beynəlxalq münasibətlərin sivil birgəyaşayış normalarına uyğunlaşdırılması, regionun qlobal məsələlərinin birgə həll edilməsi, dövlətlərin ictimai, siyasi və mədəni həyatının bir-birinə yaxınlaşdırılması və inteqrasiya edilməsi sahəsində tarixi bir yol keçmişdir.

ATƏT-in tarixində daha bir önəmli mərhələnin başlanması "Paris xartiyası" adlanan 1 sentyabr 1990-cı il sənədinin imzalanması ilə əlaqədardır. Bu sənəd "Helsinki aktı"ndan sonra ATƏT-in fəaliyyətinə real məzmun gətirdi və "Avropada sivilizasiyalı münasibətlər sistemi" adlanan qeyri-müəyyən anlayışı "dövlətlərarası", "dövlətdaxili", "dövlətlər və insanlar", "dövlətlər və insan birlikləri "kimi real və dolğun məzmun kəsb edən anlayış və ifadələrlə tə'min etdi.

ATƏT-in tarixində Budapeşt zirvə toplantısı da çox mühüm yer tutur. Əgər "Paris Xartiyası" bu təşkilatın fəaliyyətinə yeni məzmun verdisə və Avropada soyuq müharibəyə son qoydusa, Budapeşt sammiti həmin yeni məzmunu reallaşdırdı. Budapeştə qədər ATƏT-Avropa təhlükəsizlik və əməkdaşlıq müşavirəsi adlanırdısa və onun fəaliyyəti məsləhətləşmə üzərində qurulurdusa, Budapeştdə o, əsl ümumavropa təşkilatına (Avropada Təhlükəsizlik və Əməkdaşlıq



Təşkilatı -ATƏT) çevrildi.

Bu gün dünyanın və Avropanın nüfuzlu beynəlxalq və regional təşkilatları hesab olunan BMT, NATO, Avropa Şurası, Qərbi Avropa İttifaqı və s. ilə bir sırada ATƏT-in də adı çəkilir. ATƏT bu təşkilatlarla əlaqədə dünyanın və regionun mühüm və qlobal problemlərinin həlli ilə fəal məşğul olur və onun ilk müvəffəqiyyətləri göz önündədir ( keçmiş Yuqoslaviyadakı böhranın aradan qaldırılmasında ATƏT əvəzolunmaz rol oynamışdır).

ATƏT əslində ABŞ, Kanada və Rusiyanın qalan bütün Avropa dövlətləri ilə birgə təşkilatı olmaq e'tibarilə yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, ümumavropa təhlükəsizliyi mexanizmlərini yaradan və ümumdünya təhlükəsizliyi ilə əlaqələndirən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını daşıyır. Getdikcə dövlətlərin ən nüfuzlu və nümayəndəli forumuna çevrilən bu beynəlxalq qurum yeni Avropada demokratiya və insan hüquqlarının, regional təhlükəsizlik və qarşılıqlı əməkdaşlığın əsas müdafiəçisinə və qurucusuna çevrilir.

Helsinki müşavirəsindən keçən dövr ərzində ATƏT öz tərkibini Albaniya, keçmiş SSRİ və Yuqoslaviya respublikaları hesabına 35-dən 54-ə çatdırıb. Hazırda ATƏT-in təşkilati strukturu Konfliktlərin Həlli Mərkəzindən, İnsan Hüquqları və Demokratik Seçki İnstitutu idarəsindən və Katiblikdən ibarətdir. ATƏT öz fəaliyyətini, həmçinin ona məxsus üç siyasi orqan vasitəsilə həyata keçirir. Bunlar ATƏT-in Nazirlər Sovetindən (üzv ölkələrin xarici işlər nazirlərindən ibarət), Ali Dövlət Rəhbərləri Komitəsindən və öz görüşlərini mütəmadi keçirən siyasi liderlərin Sammitindən ibarətdir. 1992-ci ildə ATƏT-in tərkibində daha iki orqan - Milli Azlıqların işi üzrə Ali Komissarlıq, sülhü qorumaq, ATƏT-in missiya və əməliyyatlarına nəzarət, başqa regional təşkilatlarla əməkdaşlıq üzrə Baş Katiblik yaradıldı. ATƏT-in eyni zamanda Parlament Assambleyası və onun bütün işlərinə rəhbərlik edən Sədri də mövcuddur.

Azərbaycan 1992-ci il yanvarın 20-də bu qurumun üzvülüyünə qəbul edilib və həmin ilin iyul ayının 10-da onun sənədlərini

imzalayıb. (313)

Hazırkı dövrdə ATƏT-in Azərbaycan üçün ən əhəmiyyətli və vacib strukturu 1992-ci ilin martında yaradılmış Minsk qrupudur. Minsk qrupunun əsas vəzifəsi Ermənistan-Azərbaycan konfliktini nizama salmaq və Dağlıq Qarabağ problemini dinc vasitələrlə həll etmək üçün müvafiq sənəd hazırlamaq və xüsusi Minsk Konfransı çağırmaqla bu konflikti birdəfəlik aradan qaldırmaqdır. Qrupun tərkibinə 11 dövlət- Almaniya, ABŞ, Fransa, İtaliya, İsveç, Çexiya, Türkiyə, Belarus, Rusiya, Azərbaycan və Ermənistan daxildir. Onun həmsədrlik funksiyası 1994-cü ilin dekabrından iki dövlətin-Rusiya və Finlandiyanın, 1997-ci ildən isə üç dövlətin — Rusiya, ABŞ və Fransanın nümayəndəsi tərəfindən həyata keçirilir. Eyni zamanda ATƏT-in Minsk Konfransının da müvafiq olaraq həmsədrləri mövcuddur.

Azərbaycanın 1992-ci ilin yanvarından ATƏT-ə üzv qəbul olunmasına baxmayaraq, onun bu təşkilatla münasibətlərində xalqımızın strateji maraqları üzərində qurulmuş, hərtərəfli düşünülmüş, aydın, ardıcıl və prinsipial kurs yalnız 1993-cü ilin ikinci yarısından başlanmışdır. Məhz bu dövrdən başlayaraq Azərbaycan Prezidenti Heydər Əliyev respublikamızın müstəqillik və təhlükəsizlik problemlərini beynəlxalq təşkilatlar vasitəsilə ümumavropa təhlükəsizliyi fonuna çıxararaq, regionda sülhün bərqərar olmasına onların tə'sir etməsini sür'ətləndirmişdir. Xüsusən Azərbaycanın cəlb olunduğu münaqişə və Dağlıq Qarabağ probleminin həlli məsələsində dövlət başçısı özünün əsas diqqət və sə'ylərini beynəlxalq və məhəlli təşkilatlarda münaqişə haqqında əsl həqiqətlərin dünyanın siyasi dairələrinə və dünya ictimaiyyətinə çatdırılmasına, Ermənistanın təcavüzkar kimi tanıdılmasına, Azərbaycanı dəstəkləyən ölkələrin sayının artırılmasına və bu təşkilatların yığıncaqlarında münaqişənin həlli yolları haqqında tə'sirli qərarlar çıxarılmasına yönəltmişdir. Digər tərəfdən, 1993-cü ildən başlayaraq Azərbaycan rəhbərliyi Qafqazda sülh və təhlükəsizlik problemlərinin həllində ATƏT-in rolunun artırılmasına, onun səmərəli fəaliyyət mexanizmlərinin qurulmasına, münaqişəli məsələlərin həllində beynəlxalq prinsiplərin dönmədən və ardıcıl



tətbiq edilməsinə də xüsusi diqqət göstərmişdir. Bütün bu işlər tezliklə özünün müsbət n əticələrini büruzə verməyə başlamışdır.

1993-cü il oktyabrın 25-də ATƏM-in o zamankı sədri Marqaret af Uqlas Azərbaycana səfər edərək, Prezident Heydər Əliyevlə görüşmüşdür.(314). Onun səfəri Azərbaycana qarşı Ermənistan təcavüzkarlığının genişlənməsi ilə eyni vaxta təsadüf edirdi. Odur ki, respublika rəhbərlərinin ciddi tələbi ilə o, hərbi əməliyyatların genişlənməsinin yolverilməzliyi haqqında dərhal Ermənistan hökumətinə bəyanat verdi. Bunun ardınca 1993-cü ilin noyabrında ATƏT-in Minsk qrupunun üzvləri Almaniya, ABŞ, Belarus, Fransa, İtaliya, Rusiya, İsveç, Çexiya və Türkiyə bu məsələ ilə bağlı, o cümlədən Dağlıq Qarabağ probleminin həlli haqqında bəyanat verdilər. Bu bəyanatlarda döyüş əməliyyatları və yeni ərazilərin ələ keçirilməsi pislənir və ATƏT prinsiplərinin pozulması kimi qiymətləndirilirdi. Ərazi tutulmasından beynəlxalq aləmdə tanınmaq, status qazanmaq və s. məqsədlərlə istifadə olunmanın yolverilməzliyi göstərilir, işğalçıların Horadiz və Zəngilandan birtərəfli qaydada çıxması, atəşin dayandırılması, işğal olunmuş ərazilərin boşaldılması, münaqişə bölgəsində beynəlxalq müşahidəçilərin yerləşdirilməsi və BMT Təhlükəsizlik Şurası qətnamələrinin yerinə yetirilməsi tələb olunur, qüvvə tətbiq etməkdən imtina edilməsi irəli sürülür, qaçqınlara yardım etmək zərurəti vurğulanır və sazişi pozan tərəfin məs'uliyyət daşıdığı göstərilirdi (315).

1993-cü il dekabrın əvvəllərində Azərbaycanın xarici işlər naziri ATƏM-in Nazirlər Şurasının Romada keçirilən iclasında Ermənistanın Azərbaycana hərbi təcavüzü və onun nəticələri haqqında mə'ruzə etdi (316). Mə'ruzə münaqişə haqqında əsl həqiqətin ATƏT ölkələrinə çatdırılmasında mühüm rol oynadı.

1994-cü ildə, xüsusən may ayında atəşkəs əldə olunduqdan sonra, ATƏT-in Budapeşt sammitinin yaxınlaşması ilə əlaqədar olaraq, Azərbaycan diplomatiyası öz fəallığını daha da artırdı. 1994-cü ilin iyulunda Moskvada Azərbaycan və Ermənistan Prezidentlərinin görüşü keçirildi və atəşkəsin qorunub saxlanması haqqında ümumi razılıq əldə edildi. Azərbaycan Prezidenti Heydər Əliyev bu görüşün əhəmiyyətindən bəhs edərək demişdir: "Mühüm haldır ki, hər iki

tərəf atəşkəsin saxlanmasının labüdlüyünü ilk dəfə bildirmişdir. Bu görüş həmçinin göstərmişdir ki, nizamasalma prosesində ən mürəkkəb məsələlər barəsində də razılığa gəlmək mümkündür" (317).

Azərbaycan nümayəndə hey'əti 1994-cü ilin iyulunda ATƏM-in Parlamentlərarası Assambleyasının Vyana sessiyasında fəal iştirak etmişdir. Sessiyada çıxış edən Almaniya Bundestaqının prezidenti xanım Rita Zismut beynəlxalq münaqişələrin həllində ATƏT-in müəyyən təcrübə topladığını vurğulayaraq qeyd etmişdir ki, regionda əmin-amanlığın bərpası üçün bu beynəlxalq təşkilatın imkanlarından daha səmərəli istifadə olunmalıdır. Sessiya xüsusi vurğulamışdır ki, artıq ATƏM bir təşkilat kimi yeniləşməli, funksiyasını və səlahiyyətlərini təkmilləşdirməlidir. ATƏM-in Minsk qrupunun rəhbəri Yan Eliassonun Dağlıq Qarabağ ətrafında gedən münaqişədə sülh prosesinin tərəqqisi mövzusunda çıxışı xüsusi razılıqla qarşılandı. Sessiyada ilk dəfə Yan Eliasson "Azərbaycanın işğal edilmiş torpaqları" ifadəsini işlətmişdir. İclaslararası fasilələr zamanı aparılan danışıqlar göstərmişdir ki, Azərbaycan tərəfi Vyanada qarşıya qoyduğu məqsədə nail ola bilmiş, ölkəmiz barədə həqiqəti ATƏM üzvü olan ölkələrin nümayəndələrinə çatdırmışdır (318).

ATƏM-in Parlamentlərarası Assambleyasının sessiyası "Vyana bəyannaməsi" adlanan sənəd qəbul etdi. Sənəddə qeyd olunur ki, Dağlıq Qarabağ ətrafında gedən münaqişədə minlərlə insan zərər çəkmiş, bir milyondan çox qaçqın ordusu yaranmışdır. 1992-ci ilin martında təşkil olunmuş ATƏM-in Minsk qrupu atəşkəsə nail olmaq və münaqişəni siyasi yolla həll etmək üçün səmərəli iş görmüş, məqsədyönlü fəaliyyət göstərmişdir. Assambleya münaqişənin danışıqlar yolu ilə, ATƏM-in prinsiplərinə müvafiq qaydada həll olunması planlarını və cəhdlərini müdafiə edir.(319)

Azərbaycan rəhbərliyinin fəal diplomatik sə'yləri, müntəzəm təbliğat və izahat işi nəticəsində 1993-cü ilin yayından keçən qısa bir vaxtda aparıcı dünya dövlətlərinin, onların ayrı-ayrı nüfuzlu nümayəndələrinin mövqelərində, problemə yanaşmasında əsaslı dəyişikliklər baş verdi. Amerika konqresmeni Cozef Kennedi 1994-cü ilin avqustunda Ağ evə müraciət edərək, Rusiya və ATƏM-in irəli



sürdükləri çox ümidverici təklifləri Dağlıq Qarabağ ətrafında böhranlı vəziyyəti aradan qaldırmağın real yolu adlandırmışdı. Həmin təkliflərdə atəşin həmişəlik dayandırılması, vuruşan tərəflərin qüvvələrinin aralaşdırılması, döyüşlərin gedişində qəsb olunmuş ərazilərin qaytarılması, hər cür blokadadan imtina edilməsi və bu rayonun siyasi statusu haqqında danışıqlar aparılması nəzərdə tutulurdu. C.Kennedinin fikrincə, Vaşinqton Dağlıq Qarabağda sülhyaratma qüvvələrinin yerləşdirilməsinə nail olmalıdır. Bu qüvvələr təkcə Rusiya qoşunlarından deyil, həm də digər ölkələrin qoşun hissələrindən təşkil olunmalıdır (320).

Elə həmin vaxtda "Vaşinqton tayms" qəzetində Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyini müdafiə edən mühüm bir məqalə dərc olunmuşdu. Məqalədə deyilirdi ki, Klinton hökuməti onun Qafqazdakı diplomatiyasının taleyini Amerikadakı erməni lobbisinin həll etməsini rəva bilməməlidir. 15 min nəfər öldükdən və bir milyon nəfər didərgin düşdükdən sonra ABŞ-ın bu problemə ədalətlə yanaşmasının vaxtı çatmışdır (321).

1994-cü il sentyabrın əvvəllərində ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Madlen Olbrayt Bakıya rəsmi səfər etdi. Prezident Heydər Əliyevlə görüş zamanı o bildirmişdi ki, "ATƏM-də Dağlıq Qarabağ haqqında məsələyə bütün beynəlxalq birlik üçün sınaq kimi yanaşırlar" və o, əmindir ki, bu sınaq həmin qəbildən olan regional və millətlərarası münaqişələrin yayılmasının qarşısını almalıdır" (322). Görüşdə Heydər Əliyev mühüm dəlillərlə göstərmişdir ki, son vaxtlar Azərbaycan tərəfi Minsk qrupunun fəaliyyətini genişləndirmək üçün az iş görməmişdir.

Azərbaycan rəhbərliyi bu illərdə, eyni zamanda, münaqişənin həllində ən böyük beynəlxalq təşkilat olan BMT-nin imkanlarından da istifadə olunması, BMT və ATƏM-in sə'ylərinin əlaqələndirilməsi üçün məqsədyönlü fəaliyyət göstərmişdir. Hələ 1993-cü ilin avqustunda Ermənistan ordu hissələrinin Füzuli rayonuna şiddətli hücumları ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən, Ali Sovetin sədri Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrindən tə'cili olaraq Şuranın iclasını çağırmağı və Ermənistanın Azərbaycana təcavüzünü dayandırmağı

xahiş etmişdi. 1993-cü il avqustun 18-də BMT Təhlükəsizlik Şurası adından ABŞ-ın BMT-dəki daimi nümayəndəsi xanım Madlen Olbrayt bəyanat verdi. Bəyanatda deyilirdi ki, Şura Azərbaycan Respublikasının və regionun bütün başqa dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, habelə onların sərhədlərinin pozulmazlığını bir daha təsdiq edir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail olmağa dair ATƏM-in Minsk qrupunun sə'ylərinə döyüş əməliyyatlarının göstərdiyi tə'sirdən dərin narahatlıq keçirdiyini bildirir. Şura ATƏM-in sülh missiyasını tamamilə müdafiə etdiyini qeyd edir və Minsk qrupundakı danışıqların indiki mərhələsində öz baxışlarını və mövqelərini bilavasitə ifadə etmək üçün münaqişədə iştirak edən tərəflərə verilmiş imkanı xüsusilə nəzərə çatdırır. Bu baxımdan Şura bütün tərəfləri avqustun 13-də Minsk qrupunun təqdim etdiyi "BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnaməsinin yerinə yetirilməsinə dair tə'xirəsalınmaz tədbirlər cədvəlinin" dəqiqləşdirilmiş variantına razılaşdırılmış müsbət cavab verməyə və məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırır. (323)

Bəyanatda Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, Dağlıq Qarabağın Azərbaycan ərazisi olması təsdiq olunurdu. Məsələlərin ATƏM-in Minsk konfransı çərçivəsində həllinə üstünlük verilirdi. Dövlətlərə müraciət edilirdi ki, Azərbaycan Respublikasının ərazilərinin işğalının davam etdirilməsinə və münaqişənin güclənməsinə səbəb olan regiona silah göndərilməsindən imtina etsinlər.

Dağlıq Qarabağ probleminin həllində BMT ilə ATƏM-in sə'ylərinin əlaqələndirilməsində, bir sıra prinsipial məsələlərə aydınlıq gətirilməsində BMT-nin o zamankı Baş katibi Butros Butros-Qalinin Azərbaycana səfəri mühüm rol oynadı. Butros-Qali ilə görüşündə Heydər Əliyev bildirdi ki, Azərbaycan tərəfi Minsk qrupu və ATƏM təşkilatı ilə daim əməkdaşlıq edir, Minsk qrupunun bu sahədə ciddi fəaliyyət göstərməsi üçün lazımi şəraiti yaratmağa çalışır. Heydər Əliyev onu da qeyd etdi ki, öz yerlərinə qayıda bilən qaçqınların hamısı qayıtmalıdır, Azərbaycan vətəndaşlarının hamısının təhlükəsizliyi tə'min edilməli və Dağlıq Qarabağda olan



demoqrafik mənzərə bərpa olunmalıdır. Bu məsələlərin həlli ATƏM təşkilatı ilə bağlı olduğuna və ATƏM-in tərkibində bu məsələlərin həlli ilə əlaqədar xüsusi Minsk qrupu yarandığına görə Azərbaycan bu məsələlərin ATƏM çərçivəsində, Minsk qrupu vasitəsi ilə həll edilməsinə üstünlük verir. Butros Butros-Qali BMT-nin bu məsələdə prinsipial mövqeyini qeyd edərək demişdir ki, **BMT-nin bu problemə münasibəti, onun qəbul etdiyi qətnamələr dörd əsas prinsip üzərində qurulmuşdur: birincisi,** Azərbaycan Respublikasının ərazi bütövlüyü; **ikincisi,** Azərbaycan sərhədlərinin toxunulmazlığı; **üçüncüsü,** torpaq zəbt etmək üçün güc işlədilməsinin yolverilməzliyi; **dördüncüsü,** işğal edilmiş bütün torpaqlardan qoşunların heç bir qeyd-şərt qoyulmadan və tə'cili olaraq çıxarılması. Butros Butros-Qali bildirdi ki, BMT Təhlükəsizlik Şurası ATƏM-in bölgədə sülhün bərqərar olması üçün bütün fəaliyyətində iştirak etməyə hazırdır.

Butros-Qali onu da qeyd etdi ki, təşəbbüslərin sayının çox olması sülhün bərqərar edilməsində müəyyən çətinliklər yaradır. BMT bu təşəbbüs lər arasında əlaqələndirici rolunu oynamağa hazırdır və belə bir rolu oynamaqla təşəbbüslərin təkrarlanmasının qarşısını almaq niyyətindədir. Onun fikrinə görə, bütün müvafiq münaqişələrdə olduğu kimi, Ermənistan-Azərbaycan konfliktinin həllində də BMT üç əsas məsələnin bərqərar olması üçün əlindən gələni edəcək: BMT Təhlükəsizlik Şurasında qəbul olunmuş qətnamələrin yerinə yetirilməsini tə'min etmək, ATƏM-in regionda sülhsevər əməliyyatları həyata keçirməsini maksimum dəstəkləmək və sülhün, təhlükəsizliyin bərqərar olması naminə müharibə təşəbbüslərinin təkrarlanmasına yol verməmək üçün sülh təşəbbüsləri arasında əlaqələndirici rolu oynamaq.

Butros-Qali keçirdiyi mətbuat konfransında regiona sülhyaratma qüvvələri yeridilməsinin üç mümkün variantı olduğunu bildirdi:

1) *Tamamilə BMT qoşunlarından ibarət qüvvələrin bu regiona göndərilməsi;*
2) *MDB qoşunlarının göndərilməsi;*
3) *MDB qoşunlarının və BMT müşahidəçilərinin birgə sə'yləri(324).*

Beləliklə, 1993-1994-cü illərdə başda Prezident Heydər Əliyev

olmaqla Azərbaycan diplomatiyasının fəal işi nəticəsində Azərbaycan ətrafında informasiya blokadası yarılmış, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ayrı-ayrı dövlətlərin, regional və beynəlxalq təşkilatların mövqelərində mühüm prinsipial dəyişikliklərə nail olunmuş və nəhayət, respublikamız öz təhlükəsizliyini ümumavropa təhlükəsizlik sistemi ilə sıx bağlaya bilmişdir.

1994-cü ilin dekabr ayında keçirilmiş Budapeşt sammiti ATƏM-in tarixində mühüm bir dövrün başlanğıcını qoydu. Budapeşt zirvə toplantısına qədər əsas vəzifəsi Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə məsləhətləşmələr aparmaq olan ATƏM, 1994-cü il dekabrın 6-dan başlayaraq yeni Avropanın sivilizasiyalı birgəyaşayış qaydalarını müəyyən edən, sülhün, demokratiyanın və insan hüquqlarının qorunmasını tə'min edən, regionun təhlükəsizlik və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini həyata keçirən bir təşkilata- özünüidarə mexanizml əri olan ümumavropa institutuna çevrildi. Məhz Budapeştdə ilk dəfə Avropanın ümumtəhlükəsizlik tədbirlərində iştirak edə biləcək ATƏM-in sülhməramlı qüvvələrinin yaradılması və münaqişəli ərazilərə göndərilməsi qərara alındı. Azərbaycan diplomatiyasının gücü ilə Minsk qrupu yanında ATƏM-in ilk sülhməramlı, üç min nəfərlik çoxmillətli hərbi hissəsinin yaradılması və Qarabağa göndərilməsi razılaşdırıldı.

Beləliklə, bir vaxtlar Avropanın bu və ya digər qlobal problemləri ilə bağlı dövlətlərarası məsləhətləşmə forumu hesab olunan ATƏM, dünyanın siyasi və təhlükəsizlik sistemində mühüm rol oynayan, yeni Avropada sivil birgəyaşayış qaydalarını müəyyən edən, ümumavropa təhlükəsizliyi ilə bütün dünyada sülhün və beynəlxalq təhlükəsizliyin qorunması arasında qarşılıqlı əlaqə yarada biləcək bir təşkilata (ATƏT) çevrildi.

Sammitin gündəliyinə ATƏM-in möhkəmləndirilməsi, Avropa problemlərinin həllində və qitədə təhlükəsizliyin tə'min olunmasında, o cümlədən sülhyaratma sə'ylərinin genişləndirilməsində ATƏM-in rolunun artırılması və başqa məsələlər daxil edilmişdi. Zirvə toplantısında müzakirə və qəbul olunmaq üçün bir sıra sənədlər, o cümlədən siyasi bəyannamə, İkinci dünya



müharibəsinin qurtarmasının 50 illiyinə həsr edilmiş xüsusi bəyannamə, habelə hərbi-siyasi məsələlərə dair sənədlər hazırlanmışdı (325). Azərbaycan Prezidenti Heydər Əliyev səfər ərəfəsində ATƏM-in rolunun artırılması ilə bağlı sammitdə mühüm addımların atılması zəruriliyini bildirmişdir: "Əsas məsələlər bu təşkilatın, ATƏM-in işini gücləndirmək və fəallaşdırmaqdan ibarətdir....Yeni Avropanın yaranması üçün, yeni Avropanın inkişafı üçün bu təşkilatın fəaliyyəti bundan sonra daha da artıq olmalıdır. Biz bir Avropa dövləti kimi və Avropa birliyinə daxil olan dövlət kimi ATƏM təşkilatının güclənməsinin tərəfdarıyıq" (326).

Budapeşt sammitində ilk dəfə olaraq, Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salındı və müzakirə olundu. Dağlıq Qarabağ problemi ətrafında müzakirələrdə dünyanın aparıcı dövlət başçıları və siyasi xadimləri B.Klinton, B.Butros-Qali, T.Çillər və b. çıxış etdilər. B.Klinton öz çıxışında qeyd etdi ki, ATƏM Dağlıq Qarabağa sülhməramlı çoxmilli qüvvələr göndərmək barədə razılığa gəlmək yolundadır. O, belə bir cəhəti xüsusi vurğulamışdı ki, münaqişə zonasında atəşin e'tibarlı bir şəkildə dayandırılmasını tə'min etmək üçün hər şeyi etmək lazımdır. Sülhməramlı qüvvələr Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında sınaqdan keçirilməlidir. Atəşkəs daimi olmalı və münaqişə aparan tərəflərin hər ikisinin təhlükəsizliyi tə'min edilməlidir. B. Butros-Qali qeyd etdi ki, münaqişənin aradan qaldırılmasında ATƏM xüsusi rol oynamalıdır. Qarabağ məsələsi ATƏM üçün başlıca məsələdir və BMT bu problemin həll edilməsində onun sə'ylərini müdafiə etdiyini dəfələrlə bildirmişdir. O, əmin olduğunu bildirdi ki, beynəlxalq və regional təşkilatların əməkdaşlığı sülh və təhlükəsizlik perspektivlərinin genişlənməsinin başlıca şərtlərindən biridir.

Ermənistan Prezidenti L.Ter-Petrosyan isə özünü dünya birliyinə qarşı qoyaraq, xalqların öz müqəddəratını tə'yin etməsi prinsipini bu münaqişəyə tətbiq etməyə, Dağlıq Qarabağın erməni icmasını münaqişədə iştirak edən tərəflərdən biri kimi qələmə verməyə cəhd göstərdi. (327)

Budapeşt sammitində başda Prezident Heydər Əliyev olmaqla Azərbaycan nümayəndə hey'ətinin xüsusi diplomatik gedişləri,

ayrı-ayrı dövlət başçıları ilə fəal görüşləri, Avropada və Qafqaz regionunda təhlükəsizlik və əməkdaşlıq məsələləri ilə bağlı konkret təkliflərlə çıxış etməsi zirvə toplantısının işinə xüsusi konstruktivlik və mütəşəkkillik verdi.

Budapeşt zirvə toplantısının işinin ilk mərhələsində Azərbaycan Prezidenti Heydər Əliyev nüfuzlu Avropa və dünya rəhbərləri ilə görüşərək, ATƏM-in himayəsi altında çoxmillətli sülhməramlı qüvvələrin köməyi ilə münaqişəni nizamlamaq qərarına Azərbaycanın sadiq olduğuna onları inandırmaq, Dağlıq Qarabağda sülhyaratma prosesinin intensivləşdirilməsi üzrə qətnamənin qəbul edilməsində konsensusa nail olmaq və sülhməramlı qüvvələr kontingentinin formalaşdırılmasına kömək haqqında dövlət başçıları ilə dərhal danışıqlara başlamaq kimi vəzifələri yerinə yetirirdi. Bu məqsədlə Heydər Əliyev Çexiya Prezidenti V.Qavel, Portuqaliyanın baş naziri A.Kovaku Silvo, Finlandiya Prezidenti M.Ahtisaari, İsveçrə Prezidenti O.Ştix, Norveçin baş naziri Q. Brutland, Bolqarıstan Prezidenti J.Jelev, Rumın iya Prezidenti İ.İliyesku və başqaları ilə görüşlər keçirdi. Görüşlər zamanı Heydər Əliyev dövlət başçılarına Ermənistanın Azərbaycana təcavüzü, xalqın başına gətirilən müsibətlər, Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması yolunda göstərilən sə'ylər, ATƏM-in güclənməsi zərurəti haqqında danışmış, Minsk qupunun fəaliyyətini müsbət qiymətləndirmişdir (328). Bu görüşlər zamanı Heydər Əliyev Qarabağ probleminin həllinə dair öz prinsipial mövqeyini bildirərək, Böyük Siyasi Sazişin imzalanması zərurətini qeyd etmiş və göstərmişdir ki, "Biz Dağlıq Qarabağ ermənilərinin iddialarına güzəştə gedərək, onlara dövlət müstəqilliyi verə bilmərik. Tarixdə oxşar presedentlər olmamışdır. Söhbət muxtariyyətdən, onun daha geniş formalarından gedə bilər. Ermənilər güc mövqeyindən çıxış edirlər. Bizim mövqeyimiz başqadır-biz problemin siyasi həllinə tərəfdarıq"(329).

Budapeştdə Ermənistan Prezidenti L.Ter-Petrosyanın xahişi ilə Azərbaycan Prezidenti ilə keçirilən görüşdə Heydər Əliyev Qarabağ münaqişəsinin mahiyyətini təşkil edən məsələlərin müzakirəsi zamanı hamı üçün ədalətli sülh tə'min olunması, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqınların öz doğma ocaqlarına



qaytarılması şərtlərini irəli sürmüşdür. L.Ter-Petrosyan isə blokada, millətlərin öz müqəddəratını tə'yin etməsi hüququ, Dağlıq Qarabağın statusu haqqında ümumi sözlərlə əsas diqqəti böhranın nizamlanmasından yayındırmağa təşəbbüs göstərmişdir. Bütün bunlara baxmayaraq, münaqişənin aradan qaldırılması işində bu görüşün mə'nasını və əhəmiyyətini Heydər Əliyev belə qiymətləndirmişdi: "...biz ABŞ-ın yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə Azərbaycanın bundan sonra da atəşkəsə sadiq qalacağını bəyan etdik və münaqişəyə ATƏM çərçivəsində sülh yolu ilə son qoyulması üçün yeni bir sazişin hazırlanıb imzalanması barədə öz mövqeyimizi bildirdik" (330).

Azərbaycan Prezidentinin keçirdiyi görüşlərdə, beləliklə, Azərbaycan həqiqətləri Avropa dövlətlərinin başçılarına çatdırılmış, tərəfdarlar və yeni müttəfiqlər qazanmaq üçün fəal axtarışlar aparılmışdır.

Müşahidəçilərin fikrinə görə, Budapeştdə beynəlxalq, regional, dövlətlərarası və etnik konfliktlərin tənzimlənməsi sahəsində Azərbaycan Prezidenti Heydər Əliyevin konkret və konstruktiv təkliflərlə çıxış etməsi, Ermənistan-Azərbaycan konfliktinin həllində ATƏM-ə və onun Minsk qrupuna üstünlük verməsi və sivilizasiyalı birgəyaşayış normaları ilə tənzimlənən yeni Avropanın bərqərar olması işində bu təşkilatın oynaya biləcəyi xüsusi rolu özünün məntiqli çıxışı ilə sübüt etməsi sammitin işinə konstruktivlik, işgüzarlıq və dinamizm gətirmiş, həmçinin ATƏM-i və onun Minsk qrupunu passivlikdən, fəaliyyətsizlikdən, onun rolunu heçə endirməyə çalışan qüvvələrin qeyri-sağlam münasibətindən xilas etmişdir.

Dekabrın 6-da Budapeşt sammitində Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı ən mühüm hadisələrdən biri oldu. Heydər Əliyev öz çıxışında ATƏT-in Avropada oynadığı rola, onun təkmilləşdirilməsi zərurətinə böyük diqqət yetirdi. O, qeyd etdi ki, müasir şəraitdə ATƏM-in rolu və əhəmiyyəti getdikcə artır. Yeni Avropaya, ayırıcı xətlərin və tə'sir dairələrinin olmadığı Avropaya təkmilləşdirilmiş ATƏM lazımdır.

Prezident Heydər Əliyev bildirdi ki, ATƏM-in fəallığının

artırılması, onun demokratikləşmə və insan hüquqlarının müdafiəsi proseslərinə tə'sirli kömək göstərməyə, gənc, hələ möhkəmlənməmiş dövlətlərin azadlıq və müstəqilliyinə ziyan vuran təcavüzkar hərəkətlərin və planların qarşısını qətiyyətlə almağa, qitənin qaynar nöqtələrində sabitliyin bərpasına kömək etməyə, "soyuq müharibənin" qurtarmasından sonra Avropa təhlükəsizliyinin yeni binasının əsaslarından biri olmağa qabil səmərəli vasitəyə çevrilməsi son dərəcə zəruridir.

Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuşdur, tərksilah və silahlara nəzarət sahəsində, xüsusən, Avropada adi Silahlı Qüvvələr haqqında müqavilə üzrə beynəlxalq-hüquqi təəhhüdlərin yerinə yetirilməsi xəttinə ciddi surətdə əməl edir.

Heydər Əliyev çıxışında erməni təcavüzünün ölkəmizə vurduğu dəhşətli nəticələri də təsvir etdi. O, göstərdi ki, təcavüz nəticəsində Azərbaycan ərazilərinin 20 %- dən çoxu işğal olunmuşdur. 20 min nəfərdən artıq insan həlak olmuş, 100 mindən artıq yaralanmış və əlil olmuş, 6 min əsir düşmüş, bir milyondan artıq azərbaycanlı, respublika əhalisinin 15%-ə yaxını öz doğma ocaqlarından qovulmuşlar və çadır şəhərciklərdə yaşamağa məcburdurlar. İşğal edilmiş Azərbaycan ərazilərində 700-dən çox şəhər və kənd dağıdılmış, bütün evlər, məktəblər, xəstəxanalar yandırılmış və qarət edilmiş, ən qədim mədəniyyət abidələri məhv edilmişdir (331).

Atəşkəs əldə olunmasında Rusiya Federasiyasının və ATƏM-in rolunu qeyd edərək H.Əliyev bildirdi ki, atəşkəs "hələ sülh demək deyildir. Tərəflərin mənafeyini və beynəlxalq hüquq normalarını nəzərə alan siyasi saziş imzalanmadan möhkəm və ədalətli sülh ola bilməz. Atəşkəsdən istifadə etməklə, biz bu sənədin razılaşdırılmasına və qəbul edilməsinə intensiv çalışırıq" (332).

H.Əliyev sammit iştirakçılarını əmin etdi ki, Azərbaycan Respublikası bu prosesdə yalnız sülhsevər və konstruktiv mövqe tutur və təcavüzün ağır nəticələrinə baxmayaraq, erməni tərəfinə ədalət və humanizm, ATƏM prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında sülh təklif edir. Prezident qeyd etdi ki, Azərbaycan Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə zəmanət verməyə və münaqişə zonasına sülhməramlı ATƏM



qüvvələrinin yerləşdirilməsinə razıdır. Erməni milli azlığının hüquqlarının həyata keçirilməsi üçün Azərbaycan Respublikası tərkibində Dağlıq Qarabağın statusunu müzakirə etməyə hazır olduğunu bildirən Azərbaycanın dövlət başçısı bəyan etdi ki, bununla yanaşı, sərhədlərin toxunulmazlığı, Azərbaycanın ərazi bütövlüyü, erməni silahlı dəstələrinin bütün işğal olunmuş ərazilərdən çıxarılması, qaçqınların doğma yerlərinə qaytarılması kimi norma və prinsiplər müzakirə predmeti ola bilməz.

Azərbaycan Prezidenti bu faktı bir daha vurğuladı ki, bu gün məhz təcavüzkarın BMT Təhlükəsizlik Şurasının qərarlarını yerinə yetirməkdən və işğal olunmuş bütün Azərbaycan ərazilərindən öz silahlı birləşmələrini mərhələ ilə çıxarmağa razılıq verməkdən imtina etməsi siyasi sazişin əldə edilməsini pozur.

Heydər Əliyev çıxışında Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması üçün nəzərdə tutulmuş beynəlxalq sülhməramlı qüvvələrin təşkili üzrə ATƏM sədrinin sə'ylərini yüksək qiymətləndirdi. O, qeyd etdi ki, münaqişənin nizamlanmasında irəliləyiş əldə etmək üçün Budapeşt görüşündə əlverişli imkan yaranmışdır və dövlət başçılarına müraciət edərək, ATƏM üzvlərini bu işdə fəal iştirak etməyə çağırdı (333).

Azərbaycan Prezidentinin çıxışı, beləliklə, təkcə münaqişənin həlli yollarını göstərmirdi, həm də ATƏM ölkələrinin əməkdaşlıq perspektivləri haqqında əsaslandırılmış təkliflərlə zəngin idi.

Analitiklərin fikrinə görə, Azərbaycan Prezidentinin sammitdəki çıxışı bu təşkilatın gələcək fəaliyyəti ilə bağlı qəbul olunan qərarların əsasını təşkil etməklə bərabər, ATƏM-in yeni Avropanın siyasi həyatındakı rolunu da əhəmiyyətli dərəcədə yüksəltmişdir.

Eyni zamanda, ATƏM-in məsləhət forumundan Avropanın və bütövlükdə dünya həyatının mühüm problemlərinin həlli ilə məşğul olan, effektiv fəaliyyət göstərən bir təşkilata çevrilməsi zərurətini əsaslandıran Azərbaycan Prezidenti bəhs olunan sammitdə bu təşkilatın ayrı-ayrı struktur və missiyalarının vahid və işlək bir mexanizm əsasında yenidən qurulmasının yollarını da göstərmişdir.

Budapeşt zirvə görüşündə ATƏM-in taleyində tarixi əhəmiyyətə malik bir hadisə baş verdi: ATƏM Avropa dövlətlərinin danışıqlar

və məsləhətləşmə forumundan Avropada sülhü qorumağın, təhlükəsizliyin tə'min olunmasının, demokratiyanın möhkəmlənməsinin və insan hüquqlarının əsas alətinə çevrildi. ATƏM-də islahatlar prosesinin başlanması onun sülhü qoruma potensialının artırılması sahəsində konkret addımlarla, xüsusən çoxmillətli sülhməramlı qüvvələrin formalaşması ilə birbaşa bağlıdır. Buna görə də cəsarətlə demək olar ki, dünya siyasi sistemində ATƏM-in rolunun güclənməsi bir çox cəhətdən Minsk qrupunun fəaliyyəti nəticəsində mümkün olmuşdur. Məhz ATƏM-in bu struktur bölməsi Avropa və bütün dünya təhlükəsizliyi arasında qarşılıqlı əlaqəni tə'min etmək kimi böyük vəzifəni həll etməli olan yeniləşmiş Avropa təşkilatı üçün yol açmalı oldu.

Bu baxımdan Azərbaycan Prezidenti Heydər Əliyevin təhlükəsizliyin möhkəmləndirilməsi, millətlərarası, dövlətlərarası, dövlətlərdaxili, regional və qlobal münaqişələrin nizamlanmasının e'tibarlı mexanizmlərinin axtarışı işinə köməyi və fəal iştirakı böyük maraq kəsb edir. Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında ATƏM prinsiplərini və ATƏM-in prioritetlərini daim müdafiə edir və Minsk qrupu rəhbərlərindən böyük dinamizm, münaqişəyə daha fəal müdaxilə etməyi tələb edirdi, onun yeniləşməsi, ATƏM-in bütün struktur və missiyalarının səmərəli işləyən mexanizmə çevrilməsi üçün daim çalışırdı.

Budapeşt sammitində konsensus əsasında ATƏM-in təşkilati islahatı -ATƏT-ə çevrilməsi ilə bağlı mühüm bir qətnamə qəbul edildi. Bu sənəd ATƏM-in təşkilati cəhətdən yeniləşməsi, onun nüfuzunun artması prosesinin başlanğıcı demək idi. Sammitdə qeyd edildiyi kimi, ATƏM-in təşkilati cəhətdən möhkəmləndirilməsinin, onun rolunun və nüfuzunun artırılmasının başlıca şərtlərindən biri münaqişələrin nizamlanması, cinayətkarlıqla mübarizə, humanitar yardım göstərilməsi kimi məsələlərdə iştirakçı dövlətlərin iqtisadi və siyasi potensialından fəal istifadə edilməsidir.

ATƏM-in rolunun artması digər məhəlli və beynəlxalq təşkilatların rolunun azaldılması və sıxışdırılması demək deyildir. BMT, NATO, Avropa İttifaqı ilə ahəngdar münasibətlərin qurulması, iştirakçı dövlətlərin fikrincə, ATƏM-in işinin



səmərəliliyinin mühüm şərtidir.

Azərbaycan rəhbəri Qarabağ münaqişəsinin aradan qaldırılmasında BMT ilə ATƏM arasında münasibətlərin düzgün qurulmasına mühüm əhəmiyyət verirdi. Azərbaycan rəhbəri heç zaman məsələni belə qoymurdu: Ya ATƏM ya da BMT. Lap əvvəldən Qarabağ məsələsinin həllində ATƏM-ə üstünlük verən Azərbaycan rəhbəri belə hesab edirdi ki, bu proses ATƏM-də də sona çatdırılmalıdır. ATƏM münaqişə zonasında müəyyən iş təcrübəsi qazanmışdır, münaqişəyə cəlb olunmuş tərəflərlə təmaslar qurmuşdur, sülhə nail olmaq üçün onun öz mövqeyi vardır.

ATƏM-in yeni keyfiyyətə keçməsi, onun bundan sonra strukturlaşması iştirakçı dövlətlərin ərazisində münaqişə və böhranların nizamlanmasında onun imkanlarını daha da artırır. Eyni zamanda, BMT ilə ATƏM arasındakı münasibətləri heç bir zaman rəqabət, mübarizə kimi qəbul etmək düzgün deyil. Məhəlli təşkilat kimi ATƏM-in fəaliyyəti BMT nizamnaməsinin səkkizinci fəslinə uyğun olaraq qurulmuşdur. Bu iki təşkilat, beynəlxalq və məhəlli qurum kimi bir-birini tamamlayır və müdafiə edir. ATƏM ona daxil olan ölkələrin ərazisində münaqişələrin nizamlanmasında üstünlüyə malikdir. Lakin böhran ATƏM-in səlahiyyətlərini aşan mərhələyə çatdıqda, o, kömək üçün BMT Təhlükəsizlik Şurasına müraciət edə bilər. Bu halda BMT və ya digər səlahiyyətli təşkilatlar nizamlama prosesinə müdaxilə edə bilərlər. Bu cəhətə diqqət verən Heydər Əliyev BMT və ATƏM-in səlahiyyət dairələrinin kəskin bölünməsindən imtina etməyə çağırır və qeyd edirdi ki, məsələ belə qoyulmalıdır: ATƏM və BMT.

Budapeştdə Ermənistan nümayəndə hey'əti münaqişənin aradan qaldırılmasında ATƏM-in rolunu başqa cür qiymətləndirirdi. Ermənistan nümayəndə hey'əti BMT ilə ATƏM arasında səlahiyyətlərin bölünməsinə dair qətnamədən guya Qarabağ əleyhinə istifadə edilə biləcək maddənin çıxarılması üçün çalışırdı. Azərbaycan həmin maddənin çıxarılması ilə razılaşmamış və sənədi rəhbər vəzifəli şəxslər komitəsinə verməyi təklif etmişdi. Bu təklif qəbul edilmişdi.

ATƏM-in bir təşkilat kimi güclənməsi, Avropanın münaqişəli

bölgələrində sabitliyin bərqərar olunması işinə fəal müdaxilə etməsi, sülh və təhlükəsizlik məsələləri üzrə bütün Avropa dövlətlərinin sə'ylərinin birləşdirilməsi, sözsüz ki, müstəqillik və demokratik dövlət quruculuğu yolu tutmuş, lakin Ermənistan və onu himayə edən dövlətlərin təcavüzünə mə'ruz qalmış Azərbaycan üçün çox böyük tarixi əhəmiyyət kəsb etmişdir. Məhz bu sammitdə Azərbaycan Prezidenti Avropanın bu və ya digər bölgələrində münaqişəli məsələlərin həll edilməsinin ayrı-ayrı dövlətlərin inhisarından ATƏM-in ixtiyarına verilməsinə nail olmuşdur. Məhz Azərbaycan tərəfinin tələbi ilə dövlət başçıları bütün münaqişələrin, o cümlədən Ermənistan- Azərbaycan münaqişəsinin həllinin bir dövlətin şəriksiz nəzarətində qalmasının yolverilməzliyini təsdiq etmiş, çoxmillətli və proporsional əsasda ATƏM-ə məxsus sülhməramlı qüvvələrin yaradılması, Dağlıq Qarabağ zonasına göndərilməsi haqqında qərar qəbul etmişlər.

Sammitin işinin konkret yekunu "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı siyasi bəyannamənin, "ATƏM-in BMT ilə əməkdaşlığı" və "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qətnamələrin qəbul edilməsi oldu.(334) Bu məsələ ətrafında Rusiya və ABŞ nümayəndələri ilə fəal məsləhətləşmələr aparılmış, digər dövlətlərin- İran, Türkiyə, Pakistanın da köməyindən istifadə edilmişdi. Nəticədə ümumi razılıqla qəbul edilmiş sənədlərin əsas müddəaları ondan ibarət idi ki, iştirakçı dövlətlər münaqişədə iştirak edən tərəflərin 1994-cü il may ayının 12-də ATƏM-in Minsk qrupu ilə birgə əməkdaşlıq şəraitində, Rusiya Federasiyasının vasitəçiliyi ilə razılaşdırılmış atəşkəsi təsdiq etmələrini alqışladılar, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə dair öhdəliklərini təsdiq etdilər və Təhlükəsizlik Şurasının münaqişənin sülh yolu ilə həlli sahəsində ATƏM-in sə'ylərinə verdiyi siyasi dəstəyi təqdir etdilər. Bununla əlaqədar olaraq münaqişədə iştirak edən tərəfləri, birbaşa əlaqələr də daxil olmaqla, intensiv, müntəzəm danışıqlara çağırdılar. Onlar ATƏM-in Minsk qrupunun sə'ylərini tamamilə müdafiə etdilər. ATƏM-in sədrinə tapşırıldı ki, danışıqlar üçün ümumi və razılaşdırılmış əsasın tə'min olunması və bütün vasitəçilik və



danışıqlara dair fəaliyyətlərin tam uyğunlaşdırılmasının həyata keçirilməsin dən ötrü Minsk konfransının həmsədrlərini tə'yin etsin. Onlar Minsk qrupunun iclaslarında birgə sədrlik etməli və daimi Şuraya öz işlərində ki irəliləyişlər barədə mütəmadi olaraq mə'lumat verməlidirlər.

Bundan başqa, iştirakçı dövlətlər Minsk konfransı həmsədrlərinə mövcud atəşkəsin davam etdirilməsinə kömək etmək üçün dərhal addımlar atmağı və silahlı münaqişə bitdikdən sonra siyasi sazişin imzalanması üçün intensiv danışıqlar keçirməyi tapşırdılar. Onlar BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən silahlı münaqişə bitərkən tərəflər arasında bağlanacaq sazişdən sonra ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrini göndərmək barədə siyasi iradələrini bəyan etdilər. Onlar fəaliyyətdə olan sədrdən xahiş etdilər ki, mümkün qədər az bir zamanda 1992-ci il Helsinki sənədinin 3-cü bəndinə əsasən və BMT nizamnaməsinə uyğun şəkildə təşkil olunacaq belə qüvvələrin yaradılması, tərkibi və əməliyyatlarına dair plan hazırlasın. Bununla əlaqədar fəaliyyətdə olan sədrə Minsk konfransının həmsədrləri, Minsk qrupu, Baş katib tərəfindən kömək və yardım göstərilməli, sülhməramlı qüvvələri yaradan dövlətlərə bu qüvvələrin xarakteristikası və həcmi, onlara rəhbərlik və nəzarət, arxa tə'minatı, hissələrin və ehtiyatların bölüşdürülməsi, davranış və sazişlərin qaydalarına dair tövsiyyələr vermək üçün Vyanada yüksək səviyyəli planlaşdırma qrupu yaradılmalıdır. O, BMT-nin texniki məsləhət və ekspertiza tə'minatına hazır olduğu barədə bəyanatına əsasən BMT-dən yardım göstərilməsinə nail olmalı və BMT Təhlükəsizlik Şurasında ATƏM-in sülhməramlı qüvvələrinin yerləşdirilməsi barədə davamlı siyasi dəstək almalıdır. Tərəflərin rəsmi müraciətlərinə əsasən daimi Şura ATƏM-in sülhməramlı əməliyyatlarının təşkilinə dair qərar qəbul etməlidir. (335).

Bu qətnamənin qəbul edilməsindən bəhs edərkən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir ki, "ötən müddətdə, xüsusən son aylarda çoxları belə hesab edirdi ki, ATƏM-in sülhü müdafiə qüvvələri yaratmaq imkanı yoxdur. Hətta son vaxtlar ATƏM bu işə ciddi yanaşan zaman belə fikirlər də

söylənirdi ki, guya ATƏM-in bu cür qüvvələri yaratmağa hüququ yoxdur". Lakin ATƏM-in sülhü mühafizə qüvvələri yaratmaq imkanı olduğuna inandığını bildirən Heydər Əliyev daha sonra qeyd etmişdir ki, qətnamə o qədər də asanlıqla qəbul olunmamışdır. Hətta əvvəlcə Vyanada, sonra isə Budapeşt görüşündə bunun əleyhinə çıxanlar oldu. Ancaq aparılan işlər, xüsusən ABŞ-ın sə'yi nəticəsində bu qətnamə qəbul edildi (336).

Azərbaycan Prezidenti Heydər Əliyev bu sammitdə Qafqaz regionunda baş verən münaqişəli halların aradan qaldırılması işinə bilavasitə ATƏT kimi nüfuzlu bir təşkilatı yaxından cəlb etməklə, münaqişənin həlli zamanı yol verilə biləcək hər hansı ədalətsizliyin və birtərəfli fəaliyyətlərin qarşısını almış və bununla da Azərbaycanın ərazi bütövlüyünü, müstəqil dövlət quruculuğunu, təhlükəsizliyini və suverenliyini beynəlxalq təhlükəsizlik sistemi ilə tam əlaqələnd irmiş və ATƏT-in himayəsinə bağlamışdır.

Sammitin sonunda Heydər Əliyev Minsk konfransının sədri Yan Eliassonla görüşdü. Bu görüş Minsk qrupunun taleyində mühüm dönüş kimi əlamətdar oldu. Yan Eliasson çoxmillətli sülhməramlı qüvvələrin formalaşdırılması haqqında qətnamənin qəbul edilməsi faktını beynəlxalq siyasətdə yeni addım və sülhyaratma proseslərinin inkişafında impuls kimi qiymətləndirdi. ATƏT-in himayəsi altında çoxmillətli hərbi kontingentin yaradılması, Y.Eliassonun fikrincə, BMT-nin və ATƏT-in funksiyalarını dəqiq müəyyənləşdirməyə imkan verəcək. Onun sözlərinə görə, indi texniki kömək üçün BMT-yə müraciət etməyə real imkan yaranır, və nəhayət, Təhlükəsizlik Şurasının dörd qətnaməsinin yerinə yetirilməsinə nail olmaq olar. Y.Eliasson qeyd etmişdir ki, Böyük Siyasi Saziş çoxmillətli sülhməramlı qüvvələrin yeridilməsi, işğal edilm iş torpaqların azad edilməsi, blokadanın aradan qaldırılması, qaçqınların qaytarılması, müşahidəçilərin yerləşdirilməsi mexanizmini nəzərdə tutmalıdır. İkinci aspekt isə bütün tərəflərin mənafelərinin uzlaşdırılması ilə əlaqədardır. Bir çox hallarda paralel olaraq davam edən danışıqlar prosesini nizamlamağa, Moskva və ATƏM-in eyni məqsədə doğru getməsinə imkan yaradan tə'sirli vasitələr meydana gəldi (337).



Azərbaycan Prezidenti Budapeşt sammitində ATƏT-in rolunun yüksəlməsinə təkan verən hadisələri belə qiymətləndirmişdir: "Azərbaycan Prezidenti kimi öz siyasi fəaliyyətimin başlanğıcından mən Minsk qrupunu yeni səviyyəyə qaldırmaq istəyirdim. Mən həmişə onun potensial imkanlarını yüksək qiymətləndirirdim. Mən həmişə deyirdim ki, Qarabağ münaqişəsinin həlli ATƏT-in dairəsinə aiddir. Kimsə buna şübhə edir, kimsə ATƏT-in rolunu azaldır və ya bütünlüklə inkar edirdi. Kimsə də təsdiq edirdi ki, böhranı nizama salmağa onun gücü çatmaz. İndi inamla demək olar ki, biz nəinki Minsk qrupunu xilas etdik, həm də ona yeni güc verdik...Minsk qrupunun əhəmiyyəti xeyli artdı, onun təşkilati strukturu möhkəmləndi. İndi ona iki həmsədr başçılıq edəcək. Biz hər ikimiz bunu istəyirdik, başqaları istəm irdilər. Biz istədiyimizə nail olduq. İndi Böyük Siyasi Saziş hazırlamaq və paralel olaraq çoxmillətli sülhməramlı qüvvələr formalaşdırmaq lazımdır. Lazımdır ki, bütün dövlətlərin paytaxtlarında eyni zamanda region üçün sülh proqramının həyata keçirilməsinə hazırlıq getsin".(338)

Budapeşt zirvə toplantısı həmçinin üzv dövlətlərin yeni davranış kodeksini işləyib hazırladı, münaqişənin nizamlanması ilə məşğul olan təşkilatlar və siyasətçilər arasında mövcud olan mühüm ziddiyyətləri aradan qaldırdı, ədalətli sülhə nail olmaq yolunda maneələri ləğv etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-ın Azərbaycandakı səfiri R.Kozlariçlə görüşündə Budapeşt sammitinin əhəmiyyətini yüksək qiymətləndirmişdir: "İndiki zirvə toplantısı əvvəlki görüşlərdən daha yüksək səviyyədə keçmişdir. ATƏM-in fəaliyyəti dövründə, xüsusən 1992-ci ilin martında Minsk qrupu yaradılandan indiyə qədər olan dövrdə bu təşkilatın Azərbaycan üçün əhəmiyyətli bir görüşü keçirilməmişdi. Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması üçün Budapeşt toplantısında xüsusi qətnamənin qəbul edilməsi və ATƏM-in beynəlxalq sülhü mühafizə qüvvələrinin yaradılması barədə qərar bizim üçün çox əhəmiyyətlidir" (339).

Nəhayət, qeyd etmək lazımdır ki, Budapeştdə Dağlıq Qarabağ ətrafında baş verən münaqişənin dayandırılması, atəşkəs rejiminin qorun ması, münaqişənin həlli yollarının axtarılması, onun sülh yolu

ilə aradan qaldırılması və Böyük Sülh Sazişinin hazırlanması ilə bağlı bütün vəzifələr ATƏT-in Minsk qrupuna və ona həmsədrlik edən Rusiya və Finlandiyaya tapşırıldı.

Beləliklə, Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyinin aktual məsələsinə çevrildi.

Qeyd etmək lazımdır ki, Azərbaycan müstəqil dövlət statusu aldıqdan və ATƏT-ə üzv olduqdan sonra bu qurumun üç sammiti keçirilmişdir. Lakin 1992-ci ildə Helsinkidə keçirilmiş birinci sammitdə Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ən kəskin problemi olmasına və Ermənistanın respublikamıza qarşı hərbi təcavüzünün tüğyan etməsinə baxmayaraq, Azərbaycan rəhbərliyi və nümayəndə hey'əti bu məsələnin nəinki əməli müzakirəsini açmağa, hətta gündəliyə belə salınmasına nail ola bilməmişdilər. ATƏT-in Helsinki sammitinin heç bir sənədində Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi haqqında bir kəlmə sözə rast gəlinmir. Daha doğrusu, sənədlərdə bu məsələlərin həmin sammitdə müzakirə olunub-olunmaması haqqında heç bir mə'lumat əks olunmayıb.

Yuxarıda göstəridiyi kimi, dünyanı narahat edən ümumavropa münaqişələri cərgəsinə Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin salınması Budapeştdən başlanır. Bu hadisə Azərbaycan diplomatiyasının fəaliyyətinin ümumi nəticəsi hesab olunursa, ATƏT-in və onun yaratdığı Minsk qrupunun son zamanlar Dağlıq Qarabağ problemini Azərbaycanın ədalətli mövqeyi əsasında nizamlamağa çalışması, həmin məsələnin beynəlxalq hüquq normaları-birinci növbədə dövlətlərin ərazi bütövlüyünün pozulmazlığı prinsipi ilə həll edilməsi haqqında ümumi qərar verməsi, bu diplomatiyanın tam qələbəsindən xəbər verir. Bu qərarı qəbul etmək üçün ATƏT-lə xüsusi iş sahəsində Azərbaycan diplomatiyası Budapeştdən Lissabona qədər böyük bir fəaliyyət yolu keçmişdir.

Budapeştdən keçən dövr ərzində Azərbaycan Prezidenti Heydər Əliyev tezliklə sülh əldə etmək, işğal olunmuş torpaqları geri qaytarmaq, respublikamızın ərazi bütövlüyünü tə'min etmək, doğma yurdlarından didərgin salınmış vətəndaşları öz ata-baba torpaqlarına



qaytarmaq üçün bütün imkanlardan istifadə etmişdir. Bu illərdə Azərbaycan diplomatiyası öz fəaliyyətini əsasən üç istiqamətdə qurmuşdur.

Birinci istiqamət Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupu ilə aparılan işdən ibarətdir.

Budapeştdən başlayaraq Minsk qrupunun fəaliyyətində xüsusi canlanma baş vermiş və qarşıya qoyulmuş məsələnin həlli ilə bağlı mühüm addımlar atılmışdır. Keçən dövr ərzində Minsk qrupu üzvləri dəfələrlə Azərbaycanda, Ermənistanda və əsas münaqişə zonası olan Dağlıq Qarabağda olmuş, intensiv danışıqlar və görüşlər keçirmiş və son nəticəyə nail olmaq üçün mühüm təşəbbüslər göstərmişlər. Azərbaycan diplomatiyası həmin vaxt ərzində bu qrupun üzvləri ilə istər birgə, istərsə də ayrı-ayrılıqda fəal iş aparmışdır.

Mə'lum olduğu kimi, Minsk qrupu yaranandan və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı xüsusi missiyanı öz üzərinə götürəndən sonra Dağlıq Qarabağ və onun ətrafında baş verən münaqişənin nizamlanması ilə bağlı bütün məsələlər məhz bu quruma həvalə edildi. Sözsüz ki, bu məsələ ilə bağlı ATƏT-in qəbul edəcəyi son qərar və həyata keçirəcəyi əməli tədbirlər Minsk qrupunun rə'yi əsasında və deməli, bu qrupa daxil olan 11 dövlətin (ABŞ, Rusiya, Almaniya, Türkiyə, Fransa, İsveç, İtaliya, Finlandiya, Belarus, Azərbaycan, Ermənistan) mövqeyindən asılı olaraq həyata keçiriləcəkdir. Odur ki, Budapeştdən keçən vaxt ərzində ATƏT üzvləri ilə bütövlükdə, onun Minsk qrupuna daxil olan ölkələrlə ayrılıqda fəal diplomatik iş aparmaq Azərbaycan dövlətinin xarici siyasətində xüsusi bir istiqamətə çevrildi.

1996-cı il oktyabrın əvvəllərində Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk konfransının həmsədrləri Valentin Lozinski və Hayke Talvitiye başda olmaqla ATƏT-in nümayəndə hey'ətini qəbul etdi. Azərbaycan Prezidenti Minsk qrupunun fəaliyyətini bütövlükdə müsbət qiymətləndirsə də, bir daha üzv dövlətlərə Minsk konfransına, onlara daxil olan dövlətlərin başçılarına müraciət etdi. Problemin həlli üçün əlavə, səmərəli tədbirlər görməyə çağırdı. Heydər Əliyev bildirdi ki, "nə sülh, nə müharibə vəziyyəti bizi razı

sala bilməz, atəşkəs rejimini isə sonsuz olaraq saxlamaq mümkün deyildir. Azərbaycan Prezidenti ölkəmizin suverenliyi və ərazi bütövlüyü məsələsində öz prinsipial, sərt mövqeyini ifadə edərək bildirdi ki, Azərbaycan erməni tərəfinin nə ölkəmiz üçün, nə beynəlxalq birlik üçün, nə də ATƏT üçün məqbul olmayan şərtləri ilə razılaşmayacaq. Dövlət başçısı Dağlıq Qarabağın dövlət müstəqilliyi almaq iddialarını perspektivsiz adlandırdı, yaranmış reallıqla hesablaşmağın zəruriliyi barədə ayrı-ayrı vasitəçilərin bəyanatlarını əsassız və zərərli bəyanatlar kimi qiymətləndirərək bildirdi ki, reallıq bundan ibarətdir ki, hər bir ölkənin ərazi bütövlüyü tə'min edilməlidir. Bununla əlaqədar Minsk qrupunun rəhbərləri həmin məsələ haqqında öz rə'yini aydın, dəqiq və birmə'nalı şəkildə ifadə etməli, Dağlıq Qarabağın müstəqilliyinin mümkün olmadığını erməni tərəfinə bildirməlidir (340). Azərbaycan rəhbəri Minsk konfransı həmsədrlərinə müraciət edərək, onları yüksək səviyyədə konkret nəticələrə gəlmək üçün fəal işləməyə çağırdı.

1996-cı il noyabrın əvvəllərində Finlandiyanın xarici işlər naziri Tarya Haloneni qəbul edən zaman da Heydər Əliyev Minsk qrupunun işi haqqında öz prinsipial mövqeyini bildirdi. O, qeyd etdi ki, Azərbaycan tərəfinin bunu bildirməyə mə'nəvi haqqı var ki, keçən müddətdə çox iş görmüş, "tam sülh haqqında sazişin bağlanması üçün ardıcıl surətdə çalışmışdır. Əgər bunu əldə etmək mümkün olmamışsa, bu ancaq Ermənistan tərəfinin qeyri-konstruktiv mövqe tutması, habelə Minsk qrupunun özünün kifayət qədər fəallıq göstərməməsi ucbatından olmuşdur. Halbuki məsələnin həlli yolları və imkanları mə'lumdur". Prezident bəyan etdi ki, Minsk qrupunun fəaliyyətinin nöqsanı bundadır ki, "o, Dağlıq Qarabağın dövlət müstəqilliyinin mümkün olmadığı barədə öz mövqeyini aydın və qəti şəkildə söyləməmişdir. Bu isə Ermənistan tərəfində öz məqsədlərinə çatmağın mümkünlüyü haqqında ümid doğurur" (341).

1996-cı il noyabrın əvvəlində ATƏT-in Parlament Assambleyasının Prezidenti Xavyer Rupercsin başçılıq etdiyi nümayəndə hey'əti ilə görüş zamanı Heydər Əliyev Azərbaycanın ATƏT-lə əməkdaşlığının xüsusi əhəmiyyət kəsb etdiyini bildirdi. X.Ruperes Azərbaycan rəhbərinə müraciətlə demişdi: "Məhz Azərbaycan bu



bölgədə və dünyada ilk demokratik müsəlman ölkəsidir. Dağlıq Qarabağ probleminin başladığı andan indiyədək Siz bu məsələnin sülh yolu ilə həll edilməsinin tərəfdarısınız və buna görə Sizə minnətdarıq. Siz Azərbaycanda və bütün dünyada müstəsna liderlik qabiliyyətinə malik olduğunuzu göstərmisiniz və şübhəsiz ki, Sizin bu qabiliyyətiniz məsələnin son məqamda sülh yolu ilə həllinə gətirib çıxarmalıdır". X.Ruperesin fikrincə, "ATƏT Parlament Assambleyası hər hansı bir ölkənin ərazi bütövlüyünün şübhə altına alınmasına heç vaxt tərəfdar ola bilməz, çünki bu, ümumilikdə bizim prinsiplərin əleyhinədir". (342).

Görüşdə Azərbaycan Prezidenti ATƏT-in Parlament Assambleyasının Dağlıq Qarabağ məsələsində həmişə Azərbaycanın mövqeyini müdafiə etməsini müsbət qiymətləndirdi. O, ümidvar olduğunu bildirdi ki, Lissabon zirvə görüşünədək əməkdaşlığımız daha da genişlənəcək, bu tədbirdə məsələnin həlli üçün konkret yol açılacaq.

Keçən dövr ərzində bu dövlətlərlə aparılan fəal iş nəticəsində Azərbaycan diplomatiyası, başda Prezident Heydər Əliyev olmaqla, proble min həlli ilə bağlı, demək olar ki, Minsk qrupu üzvlərinin əksəriyyətinin mövqeyində respublikamızın xeyrinə əsaslı dəyişiklik etməyə nail oldu.

Minsk qrupu yarananda, Dağlıq Qarabağ münaqişəsinin həllində əsas rol oynayan Rusiya bütövlükdə Ermənistanı və Dağlıq Qarabağın separatçı qüvvələrini həm mə'nəvi-siyasi,həm də maddi cəhətdən dəstəkləyirdisə və bu məsələdə hər zaman Azərbaycana birtərəfli qaydada təzyiq göstərirdisə, Lissabon ərəfəsində o, Azərbaycanın bu problemin həlli ilə bağlı irəli sürdüyü bütün şərtləri həm nəzəri, həm də praktiki cəhətdən müdafiə etdiyini açıq bəyan etdi. Bunun əyani sübutu Dağlıq Qarabağda keçirilən qondarma "prezident seçkiləri" ilə bağlı Rusiya XİN-nin yaydığı bəyanatda, Rusiyanın müxtəlif səviyyəli dövlət xadimlərinin ayrı-ayrı çıxışlarında və nəhayət, Prezident B.Yeltsinin Moskvada jurnalistlərə verdiyi cavabda özünü göstərdi.Rusiya Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağın özünüidarə mexanizmləri olan muxtariyyət statusunu bu münaqişənin yeganə həlli variantı

olduğunu son zamanlar dəfələrlə təsdiqləmişdir.

Minsk qrupunun həlledici tə'sirə malik əsas üzvlərindən biri də Amerika Birləşmiş Ştatları hesab olunur. Mə'lum olduğu kimi, bu ölkə 1992-1993-cü illərdə Ermənistan-Azərbaycan konflikti ilə bağlı dəfələrlə Ermənistanı dəstəkləyən, onu haqlı hesab edən bəyanatlar yaymış, ona həm mə'nəvi-siyasi, həm də maddi yardım göstərmişdir. Azərbaycana münasibətdə isə Amerika hökuməti, əksinə, cəza tədbirləri (Azərbaycana hər cür yardımı qadağan edən 907-ci düzəliş buna əyani sübutdur) görmüş, haqq işi uğrunda mübarizə apardığı halda onu günahlandırmışdır. Lakin Heydər Əliyev diplomatiyasının gücü ilə 1993-cü ildən başlanan Azərbaycan-Amerika dialoqu və müstəqil dövlətimizin okeanın o tayına istiqamətlənən düşünülmüş xarici siyasət xətti artıq Budapeşt sammiti ərəfəsində öz bəhrələrini verdi. Budapeştdən Lissabona qədər uzanan iki illik gərgin iş isə Amerika rəhbərliyini, nəhayət, Azərbaycanın haqq işini qətiyyətlə müdafiə etməyə və ona qarşı yönəlmiş ədalətsiz mövqedən çəkinməyə vadar etdi.

Azərbaycanın uğurlu xarici siyasətinin nəticəsi 1996-cı ilin yayında Amerika konqresmeni Porter tərəfindən respublikamızın dövlət mənafeyinə ciddi ziyan vura biləcək bədnam "Porter düzəlişi" adlı sənədin qəbul edilməsi ətrafında baş verən hadisələr zamanı sübut olundu. Düzəlişin istər Amerikanın, istərsə Azərbaycanın mənafeyinə deyil, erməni lobbisinin maraqlarına əsasən edildiyi, Azərbaycan-ABŞ münasibətlərinə açıq gözlə baxan hər iki dövlətin rəhbərləri tərəfindən təsdiq edildi və onun müvəffəqiyyətli ləğvinə nail olundu.(343)

Keçən iki ildə ABŞ-ın Ermənistan-Azərbaycan konfliktinə və Dağlıq Qarabağ ətrafında baş verən hadisələrə aid mövqeyinin tam dəyişməsini sübut edən ən bariz nümunə isə Prezident B.Klintonun Azərbaycan Prezidenti Heydər Əliyevə göndərdiyi məktubda öz əksini tapmışdır. 8 noyabr 1996-cı il tarixli həmin məktubda B.Klinton açıq bildirir ki, o, Azərbaycanın ərazi bütövlüyünü və müharibənin beynəlxalq hüquq prinsipləri əsasında (burada dövlətlərin ərazilərinin zorla dəyişdirilməsinin, onun sərhədlərinin pozulmasının, ərazi işğalının yolverilməzliyi nəzərdə tutulur-Ə.H.) həll edilməsini



dəstəkləyir. ABŞ Prezidenti həmin məktubunda Azərbaycanın partnyoru olduğunu və onun təhlükəsizliyinin qorunmasında müttəfiqləri ilə birlikdə onun ölkəsinin öz öhdəliklərinə sadiq qalacağını xüsusi vurğulamışdır. Noyabrın 13-də ölkəmizdə rəsmi səfərdə olan ABŞ dövlət katibinin müstəqil dövlətlər üzrə səfiri C.Kollinz və bu dövlətin ATƏT-in Minsk qrupundakı nümayəndəsi C.Pressel də eyni mövqedən çıxış etmişlər.

C.Kollinzlə görüş zamanı Heydər Əliyev bildirdi ki, "iki il yarımdır biz atəşkəs haqqında saziş əldə etmişik və ona riayət edirik. Lakin Azərbaycanın ərazi bütövlüyü bərpa olunmayıb, işğal olunmuş torpaqlarımız azad edilməyib və torpaqlardan didərgin düşmüş bir milyondan çox vətəndaşımız öz yerlərinə- yurdlarına qayıda bilməyiblər. Bu məsələlərin həll edilməsi üçün Lissabon zirvə görüşü müəyyən şərait yaratmalıdır" (344).

Beləliklə, 1993-1996-cı illərdə Azərbaycan Prezidentinin uzaqgörən xarici siyasəti, Amerika ilə Azərbaycanın siyasi, iqtisadi və təhlükəsizlik maraqlarını bir-birinə uzlaşdırmaq və uyğunlaşdırmaq sahəsində atdığı mühüm addımlar öz əhəmiyyətli bəhrəsini vermişdir. Bir vaxtlar Ermənistanın əsas müdafiəçisi və Azərbaycanın əleyhdarı hesab olunan ABŞ kimi nəhəng bir dövləti ölkəmizin yaxın partnyoruna və tərəfdaşına çevirə bilmişdir.

Budapeşt sammitinə qədər və onun ərəfəsində Ermənistanı dəstəkləyən bir nömrəli Avropa ölkəsi hesab olunan Fransa dövləti ilə aparılan fəal diplomatik iş də 1996-cı ildə öz bəhrələrini verdi. Üç illik fəal diplomatik iş, Fransa rəhbərləri ilə aparılan danışıqlar, nəhayət ki, bu ölkəyə özünün əsl dövlət maraqlarını erməni lobbisinin prizmasından təqdim edilən "maraqlardan" fərqləndirmək imkanı yaratdı və Ermənistan-Azərbaycan konfliktinə münasibətində obyektiv dəyişikliyə təkan verdi.(Bax: II fəsil, § 1.b)

Fransa ilə yaradılan iqtisadi, siyasi və mədəni əlaqələr, fransızların Azərbaycan iqtisadiyyatına fəal cəlb edilməsi və iki ölkənin iqtisadi maraqlarının qarşılıqlı faydalı əməkdaşlıq üzərində yenidən qurulması onun Qafqaz siyasətinə tə'sir göstərməyə bilməzdi. 1996-cı ilin oktyabr ayında Fransanın xarici işlər naziri Erve de Şarettin rəhbərlik etdiyi böyük nümayəndə hey'ətinin Azərbaycana səfəri zamanı

Dağlıq Qarabağ problemi ilə bağlı bu ölkənin rəsmi mövqeyinin ATƏT-in əsas prinsipləri ilə tam üst-üstə düşməsindən və Azərbaycanın ərazi bütövlüyünə Fransanın hörmətlə yanaşmasından ibarət olması faktı bir daha təsdiqləndi. Eyni mövqe Dağlıq Qarabağda keçirilən qondarma "prezident seçkiləri" ilə bağlı Fransa hökumətinin adından verilən bəyanatda bir daha təsdiq edildi.

Fransa ilə aparılan fəal diplomatik və siyasi iş Budapeştdən Lissabona qədər olan dövrdə həm bu ölkəni Azərbaycan ilə həddən artıq yaxınlaşdırmış, onun mənafelərini ölkəmizin müstəqillik maraqları ilə sıx bağlamış, həm də fransız siyasətçilərinə öz ölkələrinin əsl maraqlarını, Fransada yaşayan ayrı-ayrı xalqların təqdim etdiyi "saxta maraqlardan" fərqləndirmək imkanı vermişdir.

Minsk qrupunun Avropada xüsusi tə'sir gücünə malik, nüfuzlu üzvlərindən biri də Almaniya Federativ Respublikasıdır. Bu ölkə Budapeşt sammitinə qədər özünün Qafqaz regionunda baş verən hadisələrə və Azərbaycanın beynəlxalq problemlərinə bir növ seyrçi və passiv mövqeyi ilə fərqlənirdisə, Budapeştdən Lissabona qədər keçən iki ildə Avropada Azərbaycanın əsas tərəfdaşına çevrilmişdir.

Keçən iki ildə Almaniya ilə aparılan fəal iş iki dövlət arasında gələcək əməkdaşlığın əsas istiqamət və prinsiplərini müəyyən etmiş, ölkəmizin qərb inkişaf yolu ilə irəliləyərək dünya sivilizasiyasına qovuşmasına, müstəqilliyinin möhkəmlənməsinə, təhlükəsizliyinin və ərazi bütövlüyünün tə'min olunmasına, beynəlxalq nüfuzunun yüksəlməsinə, daxili iqtisadi, siyasi və sosial problemlərinin həllinə Almaniyanın hərtərəfli yardım edəcəyinə zəmanət alınmışdır. Dağlıq Qarabağ problemi ilə bağlı da Almaniya son zamanlar öz qəti fikrini bildirib və Azərbaycanın ərazi bütövlüyünün tə'min olunması zərurətini dəfələrlə rəsmi bəyan edib. ATƏT-in Parlament Assambleyası sədrinin müavini və Almaniya Bundestaqının Qafqaz qrupunun rəhbəri Villi Vimmerin həm Bakıda, həm də Yerevanda "Almaniya heç vaxt hansısa ölkənin ərazi bütövlüyünün pozulması və əmin- amanlığın məhz ərazi hesabına tə'min edilməsi mövqeyi ilə barışmayacaq"-deməsi Azərbaycan diplomatiyasının çox mühüm qələbəsi hesab olunmalıdır.

Villi Vimmer eyni zamanda bildirmişdi ki, Ermənistan-Azərbaycan



münaqişəsinin həllində AFR Azərbaycanın mövqeyinə üstünlük verir. O, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilməsi imkanı barədə ölkəmizin təkliflərini yüksək qiymətləndirərək demişdi ki, Almaniya məsələnin sülh yolu ilə həllinə çalışacaqdır (345).

Azərbaycan diplomatiyasının Budapeştdən Lissabona uzanan iki illik fəaliyyət yolu ATƏT və onun Minsk qrupuna daxil olan digər üzvlərin də mövqeyini respublikamızın xeyrinə tam dəyişə bilmişdir. Bunların sırasında daim Azərbaycanı müdafiə edən Türkiyə istisna olmaqla-İtaliya, İsveç, Finlandiya, Belarus iki il öncə bu məsələnin həlli ilə bağlı sabit və yekdil fikrə gələ bilmirdilər. Lakin Lissabon sammiti ərəfəsində Minsk qrupunun 11 üzvündən (Ermənistandan başqa ) 10-u Dağlıq Qarabağ probleminin beynəlxalq prinsiplərə uyğun və Azərbaycanı qane edən həlli layihəsini yekdilliklə qəbul etmişlər. Bu da, sözsüz ki, Azərbaycan diplomatiyasının iki sammit arası gördüyü işin məntiqi nəticəsi hesab olunmalıdır.

Keçən iki ildə Azərbaycan dövləti nəinki təkcə ATƏT-in Minsk qrupu üzvləri ilə, həmçinin bütün ATƏT üzvü olan dövlətlərlə fəal iş aparmış və öz mövqeyini müdafiə edə bilmişdir. Bu sahədə aparılan işin əsas mahiyyəti ondan ibarət olmuşdur ki, respublikamızın haqq işi uğrunda apardığı mübarizədə, ərazi bütövlüyünün bərpa edilməsində onu dəstəkləyən dövlətlərin sayını artırsın, ermənilərin işğalçı siyasətini ifşa etsin və Azərbaycanı demokratik, müstəqil dövlət quran, sülhsevər bir ölkə kimi tanıtsın. Odur ki, əsas fəaliyyət respublikamızı dəstəkləyən dövlətlərin Ermənistana təzyiqini artırmağa, bu məsələdə bitərəf qalan dövlətləri Azərbaycanın mövqeyini dəstəkləməyə, Ermənistanı müdafiə edənləri bitərəfləşdirməyə və nəhayət, Dağlıq Qarabağ probleminin ədalətli və sülh yolu ilə həllinə nail olmağa yönəlmişdir.

Budapeştdən keçən dövr ərzində Azərbaycan Prezidenti Heydər Əliyev Dağlıq Qarabağ probleminin həlli ilə bağlı digər beynəlxalq təşkilatların tribunalarından, onların bütün imkanlarından da maksimum istifadə etmişdir. Beynəlxalq və regional təşkilatlardan BMT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Birliyi, Avropa Şurası, NATO, Qara Dəniz İqtisadi

Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Birliyi, MDB və başqalarının tribuna və kuluarları daim Azərbaycan Prezidenti Heydər Əliyevin işğalçı Ermənistanı ifşa edən, Dağlıq Qarabağ probleminin mahiyyəti və həlli yollarını məntiqi şəkildə əsaslandıran, konstruktiv və kəskin çıxışlarının şahidi olmuşdur. Bu çıxış və görüşlərdə Azərbaycan Prezidenti, bir tərəfdən, respublikamızın başına gətirilən müsibətlərdən, Ermənistan dövlətinin təcavüzkarlığından və şovinist Dağlıq Qarabağ ermənilərinin təhlükəli separatizmindən geniş söz açmış, bu məsələlərin mahiyyəti və əsl həqiqətlər haqqında dünya dövlətlərini lazımi mə'lumatlarla tə'min etmiş, digər tərəfdən, ayrı-ayrı dövlətlərin, bir çox hallarda bütöv regional təşkilatların bu məsələnin həlli ilə bağlı Ermənistanın mövqeyini pisləyən qərarlarının, bəyanatlarının qəbul edilməsinə nail olmuşdur.

Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı iki dövlətin ali rəhbərləri və yaxud onların şəxsi nümayəndələri arasında keçirilən görüşlər və aparılan danışıqlar da Budapeştdən keçən iki il müddətində Azərbaycan diplomatiyasının xüsusi fəaliyyət istiqamətini təşkil etmişdir. Düzdür, 1996-cı ilin aprel ayında iki dövlət başçısının Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi haqqında birgə imzaladığı Lüksemburq bəyannaməsi istisna olmaqla, mövqeləri razılaşdırmaq haqqında mühüm bir sənəd əldə edilməyib. Lakin buna baxmayaraq, ikitərəfli görüşlərdə tərəflərin mövqeləri, bu münaqişəyə baxışları, əsas tələbləri, ümumqafqaz təhlükəsizliyi və regional məsələlərə dair fikirləri və s. məsələlər aydınlaşmış və gələcək taktiki addımlar üçün zəmin hazırlanmışdır. İkitərəfli görüşlərin ən mühüm yekunu cəbhə bölgələrində atəşkəs əldə olunması haqqında 1994-cü ilin may ayında bağlanmış saziş və bəhs olunan müddətdə bu atəşkəsin qorunub saxlanması olmuşdur.

Azərbaycan Prezidenti Heydər Əliyev 1996-cı il oktyabrın 25-də Moskvada səfərdə olarkən Ermənistan Prezidenti L.Ter-Petrosyanla görüşmüşdür. Həmin görüşdə L.Ter-Petrosyan münaqişə ilə əlaqədar tərəflərin qarşısında duran vəzifələrin atəşkəsin möhkəmləndirilməsi, danışıqların intensivləşdirilməsi və qarşılıqlı güzəştlərin çox ardıcıl surətdə axtarılmasından ibarət



olduğunu bildirmişdir. Azərbaycan tərəfi isə bəyan etmişdir ki, atəşkəs rejiminin saxlanması üçün hər şeyi edəcəkdir. Görüşdə qeyd edildi ki, indi danışıqlar prosesi əvvəlki dövrlərdəkindən daha yüksək səviyyədədir. Birtərəfli inadkarlığın, məsələnin birtərəfli həll olunmasının perspektivsizliyi həm bu, həm də digər tərəfdən aşkara çıxarılır. Buna görə də indi danışıqlar prosesində və iki prezidentin şəxsi görüşləri zamanı təzahür edən kompromis, konstruktivizm irəliyə doğru addımların atılması haqqında fikir söyləməyə əsas verir (346).

Lakin Ermənistan tərəfi bu danışıqlardan dünya ictimaiyyətini çaşdırmaq,birtərəfli güzəştlər üçün istifadə etməyə cəhd etdikdə Azərbaycan öz prinsipial, sərt mövqeyini bildirdi. Azərbaycan Xarici İşlər Nazirliyinin 27 noyabr 1996-cı il tarixli bəyanatı deyilənlərə əyani sübutdur. Bəya natda göstərilir ki, ATƏT-in Minsk konfransının və Minsk qrupunun həmsədrləri ardıcıl xətt yeridərək, Minsk qrupunun üzvü olan dövlətlərin nümayəndələri ilə birlikdə bu danışıqlarda münaqişənin aradan qaldırılması prinsiplərinə əsaslanan təkliflər irəli sürmüşlər. Azərbaycan Respublikası həmsədrlərin təklifini münaqişənin aradan qaldırılmasının qarşılıqlı surətdə məqbul prinsiplərini hazırlamaq işini davam etdirmək üçün əsas kimi qiymətləndirərək, həmin mətn üzrə konstruktiv işləməyə hazır olduğunu ifadə etmiş, real nəticələrə nail olmaq məqsədi ilə bu layihənin tam reallaşdırılmasına yönəldilən mövqeyini bildirmişdir. Lakin Ermənistan Respublikası həmsədrlərin layihəsi barədə son dərəcə mənfi mövqe tutmuş və onun üzərində işləməkdən boyun qaçırmışdır.

Daha sonra bəyanatda deyilirdi ki, 1996-cı ildə ATƏT-in sədri, İsveçrə nümayəndəsi Lissabon zirvə toplantısına hazırlıq görüşünün ikinci mərhələsində Minsk konfransı həmsədrlərinin təklifinin eyni olan mətni zirvə toplantısının bəyannaməsinə daxil etmək üçün təqdim etmişdir. Bu birmə'nalı şəkildə göstərir ki, dünya birliyi münaqişənin aradan qaldırılmasına yalnız bu baxımdan -Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinə hörmət əsasında və Dağlıq Qarabağ regionuna Azərbaycan Respublikasının tərkibində özünüidarə statusu verilməsinin mümkünlüyü əsasında nail olmaq

niyyətindədir.

Həmin təklifə münasibət bildirən Ermənistan Respublikasının baş müşaviri J.Liparidyan bəyan etmişdir ki, Ermənistan Respublikası təqdim olunmuş sənəd barəsində öz veto hüququndan istifadə etmək niyyətindədir.

Bu bəyanatla əlaqədar Azərbaycan tərəfi bildirdi ki, Ermənistan rəhbərliyi əslində öz ölkəsini beynəlxalq birliyin həmin sənəddə birmə'nalı şəkildə ifadə edilmiş rə'yinə qarşı qoymaq demək olan bu cür hərəkətlərin mümkün nəticələrini ciddi qiymətləndirməlidir (347).

Beləliklə, Azərbaycanın diplomatik fəaliyyətinin qısa təhlili göstərir ki, Azərbaycan dövləti Budapeştdən keçən iki il müddətində Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı çox fəal iş aparmışdır. Düzdür, bütün bu işin əsas yekunu ola biləcək Böyük Sülh Sazişinə nail olunmamışdır, lakin həlledici addımlar atmaq üçün çox böyük hazırlıq işləri görülmüşdür. Ən əsası isə Dağlıq Qarabağ probleminin yalnız beynəlxalq prinsiplər və Azərbaycanın ərazi bütövlüyünü tə'min etmək yolu ilə həll oluna bilməsi haqqında bütün Minsk qrupunun, ATƏT üzvü olan başqa ölkələrin rə'ylərini almaq mümkün olmuşdur.

Lissabon ərəfəsində Dağlıq Qarabağda keçirilən qondarma "prezident seçkiləri"nə ATƏT üzvlərinin mənfi reaksiyası (bunu həmin dövlətlərin verdikləri bəyanatlar bir daha təsdiq etdi-Ə.H.) və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in dövlət başçılarına "Dağlıq Qarabağ probleminin həllinə Lissabonda ciddi yanaşmaq zərurəti haqqında" məktubuna verilən müsbət cavablar deyilənləri bir daha sübut etdi.

Azərbaycan bütün bunları nəzərə alaraq Lissabona xüsusi inam və missiya ilə yollandı. Bu missiyanın məqsədi Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan münaqişəsinin həlli, gələcək danışıqların əsas prinsipləri və başlanğıc şərtləri ilə bağlı sammit üzvlərinin yekdil və prinsipial rə'yini almaqdan ibarət idi.

Lissabon sammiti Avropanın 52 dövlətinin , ABŞ və Kanadanın, habelə müşahidəçi sifəti ilə iştirak edən 10 Asiya və Afrika dövlət başçılarının iştirak etdiyi bir forum idi. Dekabr ayının 2 və 3- də bütün



dünyanı idarə edən 64 dövlətin ali rəhbərləri planetin XX əsri hansı vəziyyətdə başa vurması, beynəlxalq, regional və dövlətlərarası münasibətlərin gələcək perspektivləri, Avropada sivilizasiyalı birgəyaşayış və qarşılıqlı təhlükəsizliyin əsas tendensiyaları və perspektivləri, əməkdaşlıq, konfliktlərin həlli və s. ilə bağlı öz dövlətlərinin mövqeyini və təkliflərini açıqladılar. Avropa və dünyada baş verən proseslər, qlobal məsələlər və onların həlli yolları sammitin iki günlük gərgin işinin əsas mövzusu kimi bütün planetə yayıldı.

Müstəqil Azərbaycan dövləti bu sammitə özünün artıq ümumavropa evinin və təhlükəsizliyinin əsas məsələlərindən biri statusunu almış "Dağlıq Qarabağ problemi" və onun ətrafında baş verən Ermənistan-Azərbaycan münaqişəsi ilə getmişdi.

Sözsüz ki, Azərbaycan diplomatiyası Budapeşt sammitindən fərqli olaraq Lissabona dolu əllə getmişdi. Nə idi bu ?

**Əvvəla,** ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ probleminin həlli ilə bağlı respublikamızı prinsipcə tə'min edən təklifləri (məsələnin həllinin əsas prinsiplərini əks etdirən layihələr) və qrup üzvü olan ölkələrin beynəlxalq prinsiplərə (ərazi bütövlüyünün qo runmasının əsas şərt kimi qəbul edilməsi) əsaslanan və ədaləti qoruyan mövqeyi;

**İkincisi,** Budapeştdən fərqli olaraq, Avropanın və dünyanın əsas dövlətlərinin respublikamıza, onun problemlərinə, ərazilərinin işğalına və s. məsələlərə münasibətdə Ermənistana deyil, Azərbaycana rəğbət bəsləmələri və onu müdafiə etmələri (Bunu sammit ərəfəsində ayrı-ayrı dövlət başçılarından Azərbaycan Prezidentinin ünvanına daxil olan məktublar bir daha sübut etdi - Ə.H.);

**Üçüncüsü,** ATƏT-in prinsiplərinin və beynəlxalq hüquq normalarının Azərbaycanın ədalətli mövqeyi ilə üst-üstə düşməsi, Azərbaycanın işğala mə'ruz qalmış ölkə olması, onun torpaqlarının azad edilməsi zərurətinin əksər dünya ölkələri tərəfindən dəstəklənməsi;

**Dördüncüsü,** iki illik gərgin diplomatik iş nəticəsində bütün dünyada Azərbaycanın sülhsevər, Ermənistanın isə təcavüzkar və

işğalçı dövlət kimi tanıdılması və onlar üzərində formalaşmış beynəlxalq imic. Bu məsələ həm ATƏT-in Minsk qrupunun fəaliyyətində, beynəlxalq və regional toplantı və görüşlərdə sübut olunmuş, həm də dövlətlərarası ikitərəfli əlaqələrdə Azərbaycan diplomatiyasının ardıcıl fəaliyyəti nəticəsində ətraflı aydınlaşdırılmışdır.

Azərbaycan Prezidenti Lissabona xüsusi taktika ilə getmişdi. Bu taktika respublikamızın Dağlıq Qarabağ problemi ilə bağlı əldə etdiyi bütün nailiyyətləri (ilk növbədə diplomatik və mövqe üstünlükləri nəzərdə tutulur- Ə.H), sammitin imkanlarını və mümkün nəticələrini, o cümlədən iştirakçı dövlətlər arasında nəzərdə tutulan diplomatik işin bütün incəliklərini nəzərə almışdı.

Azərbaycan Prezidenti Lissabon ərəfəsində Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı bütün vəziyyəti, Minsk qrupunun fəaliyyətini və onun nəticələrini, sammiti hazırlayan işçi qrupunun Vyanadakı işini, Ermənistanın mövqeyini və sammitdə ata biləcəyi addımları, münaqişənin həllinə real köməklik göstərmək iqtidarında olan Rusiya, ABŞ,Türkiyə, İngiltərə, Fransa, Almaniya və b. dövlətlərin bu məsələ ilə bağlı mövqelərini və s. mühüm məsələləri ciddi öyrənmiş və müvafiq olaraq öz diplomatik addımlarının əsas istiqamətlərini, konsepsiyasını və taktiki gedişlərini hərtərəfli planlaşdırmışdı.

ATƏT-in zirvə toplantısının münaqişəyə son qoymaq üçün hər hansı bir qərar qəbul etmək imkanına malik olmaması Prezidentə mə'lum olduğundan, o bütün diqqətini bəhs edilən məsələnin həllinin ATƏT-in prinsiplərinə söykənən əsas formulun qəbul edilməsi üzərində cəmləşdirmişdi. Odur ki, o, sammit ərəfəsində münaqişənin həlli ilə bağlı apardığı bütün danışıqlarda ATƏT-in əsas prinsiplərinə söykənən, başlanğıc şərti kimi Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağa Azərbaycan tərkibində yüksək statuslu muxtariyyət verilməsini əsas götürən ümumi bir formul qəbul edilməsi zərurətindən bəhs edirdi. Azərbaycan Prezidenti Lissabona yola düşməzdən əvvəl bütün ATƏT üzvü olan dövlətlərin başçılarına da həmin formula münasibət bildirilməsi və dəstəklənməsi haqqında xüsusi məktubla müraciət etmişdir.



Lissabon sammitində Azərbaycanın qarşıya qoyduğu məqsədi və gözlədiyi nəticəni Prezident Heydər Əliyev belə ifadə etmişdi: "Bizim məqsədimiz ondan ibarətdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün Lissabon görüşünün sənədlərində yeni imkanlar açılsın. Bizim əsas məqsədimiz gələcəkdə məsələnin ədalətlə həll olunması üçün Lissabon zirvə görüşündə ən məqbul formulu təsdiq etdirmək, yaxud onun orada bəyənilməsinə nail olmaq idi (348).

ATƏT-in əsas prinsiplərini rəhbər tutan bu formul Minsk qrupunun, Ermənistan istisna olmaqla, qalan bütün üzvləri tərəfindən də qəbul edilmiş və dəstəklənmişdir. Hətta Azərbaycan və Ermənistanın danışıqlarda iştirak edən xüsusi nümayəndələrinin görüşləri zamanı da Minsk qrupu tərəfindən bu prinsiplər müzakirəyə təqdim edilmiş, lakin Ermənistan buna e'tiraz etdiyindən müəyyən bir nəticə hasil olunmamışdı. Odur ki,Azərbaycan bütün gücü ilə çalışırdı ki, bu prinsiplər ATƏT-in zirvə toplantısı tərəfindən müzakirə olunsun və qəbul edilsin. Məhz elə bu məqsədlə həm Minsk qrupunun sammitqabağı son Helsinki görüşündə, həm sammiti hazırlayan işçi qrupunun Vyanadakı iclaslarında, həm də Lissabonda Azərbaycan nümayəndə hey'əti bu formulu zirvə toplantısının müzakirəsinə çıxarmaq, onun yekun bəyannaməsinə salmaq üçün çox ciddi və prinsipial mövqe tutmuşdu.

Azərbaycan rəhbərliyi münaqişənin aradan qaldırılmasında beynəlxalq təşkilatlarla işə həmişə böyük əhəmiyyət verir. Beynəlxalq təşkilatların toplantılarında onların tribunasından istifadə edərək Azərbaycanın vəziyyəti, Ermənistan-Azərbaycan münaqişəsi barədə ətraflı mə'lumat verilmişdir. Azərbaycan həmin təşkilatların bu işə qoşulmasına çalışmışdır (BMT, ATƏT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropa Birliyi, Avropa Şurası). Azərbaycan ictimaiyyəti nümayəndələrinin bəyanatında deyildiyi kimi, "ötən dövrdə keçirilmiş ikitərəfli və çoxtərəfli danışıqların gedişində Azərbaycan tərəfinin siyasi sə'yləri ona yönəlmişdir ki, dünyanın aparıcı dövlətlərinin vasitəçilik rolu güclənsin, münaqişənin aradan qaldırılmasına BMT, NATO, İKT, Avropa İttifaqı, MDB kimi və

digər nüfuzlu beynəlxalq təşkilatlar cəlb olunsun. Zaqafqaziyada gələcək sülhün qəti hüdudları ATƏT ilə birlikdə müəyyənləşdirilsin" (349).

Azərbaycan xüsusən ATƏT çərçivəsində işə birinci əhəmiyyət verir və münaqişənin həllinin ATƏT çərçivəsində mümkün olacağına inanır. Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in yarandığı vaxtdan bəri fəaliyyətinə qiymət verərək demişdir: "Bu müddətdə ATƏT çox iş görüb, nailiyyətlər əldə edibdir, Avropada, dünyada sülhün bərqarar olması, təhlükəsizliyin tə'min edilməsi, demokratiyanın inkişaf etməsi, insan hüquqlarının qorunması sahəsində çox dəyərli işlər görüb və lazımi nəticələr əldə edibdir" (350).

Eyni zamanda, Prezident Heydər Əliyev ATƏT-in Minsk konfransından daha çox səmərə gözləndiyini vurğulayaraq demişdir: "ATƏT-in Minsk qrupu, Minsk konfransı Ermənistan–Azərbaycan münaqişəsinin tənzimlənməsinə nail olmaq üçün daha böyük imkanlara malikdir" (351).

ATƏT-in Avropanın taleyində, gələcək Avropa evinin qurulmasında oynaya biləcəyi rolu Avropa liderləri də yüksək qiymətləndirirlər. Fransa Prezidenti Jak Şirakın sözləri buna parlaq misaldır: "Gələcəkdə Avropa birliyinin və NATO-nun genişləndirilməsi prosesi daha iri layihənin həyata keçirilməsi çərçivəsində getməlidir; elə bir layihə ki, Avropa qitəsində yeni parçalanma xətlərinin meydana gəlməsinə imkan verməyəcəkdir. Təkcə Avropa dövlətlərinin deyil, həm də ABŞ və Kanadanın daxil olduğu ATƏT qitənin təhlükəsizliyi probleminə lazımi ümumavropa miqyası verməyə qadir yeganə təşkilatdır" (352).

Ermənistanla münaqişənin nizama salınması prinsipləri, Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığı, suverenliyi prinsiplərinin həyata keçirilməsində Azərbaycan rəhbərliyinin qətiyyəti və dəyişməz mövqeyi Lissabon sammitində özünü göstərdi. Hələ Lissabona yola düşməzdən əvvəl jurnalistlərə verdiyi müsahibədə Heydər Əliyev bildirdi ki, Dağlıq Qarabağda seçkilər "qeyri-qanunidir, beynəlxalq hüquq normalarına tamamilə ziddir, biz bunu tanımırıq və heç bir beynəlxalq təşkilat, heç bir ölkə



bunu tanıya bilməz" (353).

Eyni prinsipial fikirləri Heydər Əliyev sammitdəki çıxışında, dövlət başçıları ilə görüşlərdə açıq şəkildə vurğulamışdı. O, demişdi ki, "Dağlıq Qarabağın m üstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacağıq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verməriк" (354). Heydər Əliyev bu barədə daha sonra demişdi: "Mən Lissabon zirvə görüşündəki nitqimdə bildirdim ki, Ermənistan qeyri-konstruktiv mövqe tutubdur; Ermənistan Dağlıq Qarabağı müstəqil etmək istəyir və bildirdim ki, biz bunların heç biri ilə razı ola bilməyəcəyik. Biz heç vaxt razı ola bilmərik ki, Dağlıq Qarabağ dövlət müstəqilliyi əldə etsin, Azərbaycan ərazisində ikinci erməni dövləti yaransın" (355).

Azərbaycan Prezidenti Lissabonda dövlət başçıları ilə keçirdiyi görüşlərdə bildirdi ki, Ermənistan Respublikası BMT Nizamnaməsinə, ATƏT-in prinsiplərinə, beynəlxalq hüquqa əsaslanan hər hansı qərarın qəbul edilməsindən boyun qaçırmaqda davam edir. O, Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanımaqdan imtina edir, təcavüzün nəticələrini qanuniləşdirməyə, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu üçün müstəqillik statusu əldə etməyə və həmin regionu Ermənistana birləşdirməyə cəhd göstərir. Ermənistan tərəfi belə hesab edir ki, Azərbaycanın ərazi bütövlüyü onun üçün danışıq mövzusu ola bilməz, Dağlıq Qarabağın muxtariyyəti Azərbaycandan asılı olmamalıdır, təhlükəsizlik məsələsi isə yalnız bir icmaya-ermənilərə aid olmalıdır (356).

Ermənistan Prezidenti L.Ter-Petrosyan Lissabon zirvə görüşündə öz dövlətinin məkrli mövqeyini bir daha nümayiş etdirərək demişdi ki, "Dağlıq Qarabağ Azərbaycanın tərkibində ola bilməz və bu məsələ yalnız öz müqəddəratını tə'yinetmə prinsipi ilə həll olunmalıdır". O, iddia etmişdir ki, əks-təqdirdə guya ermənilərə qarşı Azərbaycan tərəfindən soyqırımı həyata keçiriləcək (357). Ermənistan rəhbərliyinin belə riyakar mövqeyini Azərbaycan Prezidenti respublika ictimaiyyətinin nümayəndələri ilə görüşündə

daha qabarıq şəkildə nəzərə çatdırmışdı: "...son məqsədə çata bilməmişik, yə'ni Böyük Sülh Sazişini əldə edə bilməmişik. Bunların da səbəbi Ermənistan tərəfinin qeyri-konstruktiv mövqe tutmasından irəli gəlmişdir. Ermənistan tərəfi qeyri-konstrktiv mövqe tutaraq, Azərbaycan torpaqlarının bir qisminin işğal olunması vəziyyətindən istifadə edərək , bir tərəfdən, məsələnin sülh yolu ilə həll edilməsinə tərəfdar olduğunu daim bildirmişdir, digər tərəfdən isə sülh prosesinə mane olmaq üçün əlindən gələni etmişdir" (358).

Ermənistan tərəfi Lissabonda Azərbaycan Respublikasının beynəlxalq hüquq normalarına uyğun gələn ədalətli mövqeyini təhrif etməyə, xalqımızın kompromislər vasitəsi ilə sülh yaratmağı guya bacarmadığı və bunu istəmədiyi haqqında təsəvvürlər formalaşdırmağa cəhdlər də göstərdi. Ermənistanın təbliğat işində necə fəal işləməsi, bütün imkanlardan istifadə etməsi haqqında danışarkən Heydər Əliyev demişdir: "Ermənistan -Azərbaycan münaqişəsi yaranandan indiyədək, bu səkkiz il müddətində Ermənistanın xarici ölkələrdə, Amerikada təbliğatı bizdən həmişə güclü olubdur. Onlar təbliğatda da güclü olublar və onları bu ölkələrdə dəstəkləyən erməni diasporu, lobbisi çox iş görübdür. Onlara üstünlük verən ayrı-ayrı dövlət strukturları olub və bu gün də mövcuddur" (359).

Beləliklə, Lissabon sammitində Azərbaycan nümayəndə hey'əti güclü və məkrli düşmənin təzyiqləri ilə qarşı-qarşıya gəlməli oldu.

Azərbaycan tərəfinin bütün sə'ylərinə baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti Lissabona gələrkən sammitin yekun bəyannaməsinin layihəsinə bəhs edilən formul deyil, tamamilə qeyri-müəyyən, heç bir prinsipial əhəmiyyət kəsb etməyən başqa bir maddənin salınmasının şahidi oldu. İşçi qrupunun sənəddə əks olunan izahatında göstərilmişdi ki, bu maddə (bəhs edilən formul) Ermənistanın konsensus vermədiyinə görə ümumi bəyannamədən çıxarılmışdır.

Beləliklə, Ermənistanın destruktiv, barışmaz mövqeyi nəticəsində Lissabon yekun sənədinin layihəsində Azərbaycan tərəfinin tə'kid etdiyi və beynəlxalq hüquqa, BMT və ATƏT prinsiplərinə uyğun gələn müddəalar öz əksini tapmamışdı. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, "Əvvəl Vyanada, sonra Lissabonda hazırlanmış bəyannamə layihəsində başqa bir maddə meydana gəlmişdi. O maddə ondan ibarət idi ki, Ermənistan-Azərbaycan münaqişəsi sülh yolu ilə həll olunmalıdır, danışıqlar prosesi intensivləşdirilməlidir, tərəflər razılığa gəlməlidir, kompromis əldə edilməlidir, atəşkəs qorunub saxlanmalıdır və sülh danışıqları davam etdirilməlidir" (360).



Sözsüz ki, bu, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi qane edə bilməzdi. Çünki Azərbaycanın sammitdə açacağı diplomatik mübarizə, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı ATƏT-in əsas prinsiplərinin həyata keçirilməsi və işğalçı ermənilərin iç üzünün açılması məsələsi, Ermənistanın buna konsensus verib-verməməsindən asılı olmayaraq, yekun sənədinin layihəsinə Azərbaycanın təklif etdiyi formulun salınmasından və ermənilərin buna verəcəyi reaksiyanın müzakirəyə çıxarılmasından asılı idi.

Təbii ki, Ermənistanın konsensus verməyəcəyi əvvəlcədən bütün ATƏT üzvlərinə bəlli olan bu formulun yekun bəyannaməsinin müzakirəyə təqdim olunan layihəsinə salınması çox çətin bir iş idi. Lakin Azərbaycan diplomatiyasının gördüyü işlər, xüsusən də Prezident Heydər Əliyevin ardıcıl qətiyyətli addımları öz nəticəsini verdi. İşçi qrupunda fəaliyyət göstərən bütün ölkələrin başçıları və nümayəndələrinin, o cümlədən Minsk qrupu üzvlərinin fəal yardımı və dəstəyi ilə Azərbaycan sammit ərəfəsində özünün ilk böyük qələbəsini qazandı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təklif etdiyi və Minsk qrupunun hər iki həmsədri tərəfindən dəstəklənən, Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı ATƏT-in prinsiplərini əks etdirən, lakin Ermənistan tərəfindən qəbul edilməyən formul sammitin yekun qətnaməsinin layihəsinə salındı.

Azərbaycan nümayəndə hey'ətinin sə'yləri və tə'kidi ilə Lissabon sənədinə 20-ci paraqraf adı altında həmin prinsipləri əks etdirən bir maddə daxil edildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in əsas prinsiplərini əks etdirən formulun layihəyə salınmasına nail olduqdan sonra, bütün fəaliyyətini Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətinin açılması, ermənilərin qeyri-konstruktiv və işğalçı mövqeyinin ifşa edilməsi, nəhayət, təklif

olunmuş formulun bu münaqişəyə tətbiq edilməsi, gələcək danışıqlar prosesində əsas olması üçün ATƏT üzvləri tərəfindən dəstəklənməsi və yekun sənədində saxlanması uğrunda mübarizə üzərində qurdu. Lakin Ermənistan tərəfi konsensus qaydasından istifadə edərək, yekun qətnaməsinin 20-ci maddəsinə "veto" qoydu. Belə bir təhlükə yaranırdı ki, Lissabon sammitində Dağlıq Qarabağ problemi müzakirə edilməyəcək və aparıcı Avropa dövlətlərinin, dünya ictimaiyyətinin diqqətindən kənarda qalacaq. Belə olduqda Azərbaycan Prezidenti ölçülüb-biçilmiş, düşünülmüş, eyni zamanda çox məs'uliyyətli bir qərar qəbul etdi:sammitin bütün sənədinə "veto" qoydu. Heydər Əliyevin qeyd etdiyi kimi, "bu çox böyük narahatlıq, təşviş doğurdu. Çünki belə bir addım, bəlkə də gözlənilməz idi. Ondan sonra bizim işimizin yeni mərhələsi başlandı" (361).

Heydər Əliyev, sözsüz ki, qəbul etdiyi qərarın nə qədər ciddi və məs'uliyyətli bir addım olduğunu anlayırdı. Lakin siyasətdə və diplomatik fəaliyyətdə bir neçə gedişi əvvəlcədən görməsi ona bu vəziyyətdən də məharətlə çıxmağa və müdrik qərar qəbul etməyə imkan verdi. Bu qərarın əsas məntiqi ondan ibarət idi ki, əvvəla, Azərbaycan öz ölkəsini dünya birliyinə qarşı qoymamalı, onların iki günlük böyük işinin səmərəli yekunla sona çatmasına mane olmamalı, deməli, sammitin yekun qətnaməsindən "veto"nu əvvəl-axır geri götürməlidir. Əks təqdirdə sammit üzvlərində Ermənistana qarşı oyanmış və möhkəmlənmiş nifrət Azərbaycana qarşı da çevrilə bilərdi. İkincisi, sammitdə yaranmış əlverişli vəziyyətdən, Azərbaycanın ərazi bütövlüyünə dünya dövlətlərinin ehtiramla yanaşmasından və bütün iştirakçı ölkə başçılarının Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Azərbaycan tərəfinin mövqeyinə tərəfdar olmalarından istifadə edilməli və bir növ bu mövqelər sənədləşdirilməlidir.

Həm respublika Prezidenti Heydər Əliyevin sammitdəki çıxışında, həm ayrı-ayrı dövlət başçıları ilə keçirdiyi görüşlərdə, həm də bütövlükdə diplomatik hey'ətin fəaliyyətində Azərbaycanın müdafiə etdiyi konsepsiyanın mahiyyəti ondan ibarət idi ki, Avropanın təhlükəsizliyi və sivilizasiyalı birgəyaşayışı hamı tərəfindən qəbul olunmuş beynəlxalq prinsiplərə əsaslanmalıdır, bu prinsiplər



böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərə və dövlətlərarası münasibətlərə şamil və tətbiq edilməlidir. Avropada ümumi təhlükəsizlik və sivilizasiyalı birgəyaşayış sistemi bütün məhəlli və yerli münaqişə ocaqları söndürülmədən, belə münaqişələri törədənlərin qarşısı beynəlxalq hüquq normaları və prinsiplərinin sərt qanunları ilə qəti şəkildə alınmadan dayanıqlı və möhkəm ola bilməz.

Azərbaycan Prezidenti bütün sammit dövrü keçirdiyi görüşlərdə, apardığı danışıqlarda, müsahibə və mətbuat konfranslarında ermənilərin Azərbaycan torpağına təcavüzü və Dağlıq Qarabağ ətrafında yaratdığı problemlərin nümunəsində dünyada formalaşmaqda olan yeni, siviliz asiyalı münasibətlərə vurulan zərbənin mahiyyətini və miqyasını açıqladı,ifrat millətçilik üzərində qurulmuş erməni separatizminin və təcavüzkarl ığının gətirdiyi və bütün dünyaya vura biləcəyi təhlükələri ciddi xatırlatdı.

Azərbaycan nümayəndə hey'ətinin Lissabon sammitindəki fəaliyyətinin bir neçə əsas məqsədi var idi. **Əvvəla,** sammitin tribunasından, həmin günlər Lissabona toplanmış ayrı-ayrı dövlət rəhbərləri ilə görüşlərdən, kütləvi informasiya vasitələrinin bütün imkanlarından istifadə edərək, Ermənistan-Azərbaycan konfliktinin əsas mahiyyətini, erməni millətçilərinin təcavüzkar separatizmini və onun törətdiyi nəticələri, Ermənistanın ATƏT-in, BMT-nin və b. beynəlxalq təşkilatların qərar və prinsiplərinə tabe olmamasını və onlara hörmətsizlik göstərməsini, Dağlıq Qarabağ probleminin və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı bütün beynəlxalq prinsipləri pozmasını, qeyri-konstruktiv mövqe tutmasını və bununla da ümumavropa təhlükəsizliyi yolunda əsl maneəyə çevrildiyini bütün dünya ictimaiyyətinə və ölkə başçılarına bir daha çatdırmaq və bu işğalçı ölkənin əməllərinə prinsipial qiymət verilməsinə nail olmaq;

**İkincisi,** Ermənistanı və ATƏT-i fakt qarşısında qoymaq. Bu fakt ondan ibarətdir ki, ATƏT-in qərarı ilə yaradılmış və bilavasitə Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olan Minsk qrupu (Ermənistan istisna olmaqla onun bütün üzvləri) iki ildən artıq bir vaxtda bu məsələni dərindən öyrənmiş, onun həlli yollarını geniş müzakirə etmiş və belə qərara gəlmişdir ki, Dağlıq Qarabağ probleminin

ədalətli və beynəlxalq prinsiplərə əsaslanan həlli-Azərbaycan tərkibində bu bölgəyə özünüidarə mexanizminə malik muxtariyyət statusunun verilməs idir. Bu qərarda həm ölkələrin ərazi bütövlüyünün qorunması, sərhədlərinin zorla dəyişdirilməsinin yolverilməzliyi haqqında beynəlxalq prinsiplər (bax: Helsinki aktı), həm də xalqların öz müqəddəratını müəyyən etməsi hüququ durur. İndi tək Ermənistandan başqa bütün Minsk qrupu və ATƏT üzvləri məsələnin bu yolla həllinə razıdır. Ermənistanın buna qarşı ciddi arqumenti yoxdur. Bircə onu bildirir ki, "biz buna hələ ki, hazır deyilik, bunu bir az da öyrənməliyik və müzakirə etməliyik". Beləliklə, bütün ATƏT üzvləri bu məsələdə Ermənistanın qeyri-konstruktiv və beynəlxalq prinsipləri pozan mövqe tutduğunu aydın görür, Azərbaycanın ədalətli, sülhsevər və konstruktiv mövqeyinin şahidi olurlar.

**Üçüncüsü,** ATƏT-in yekun sənədlərinə və qəbul etdiyi bəyanatlara Minsk qrupunun gəldiyi nəticələri və Dağlıq Qarabağ probleminin həllinin əsas başlanğıc prinsiplərini salmaq. Əlbəttə, Azərbaycan Prezidenti gözəl bilirdi ki, ATƏT məhkəmə deyil və onun qəbul etdiyi qərarlar və bəyanatlar da məcburi xarakter daşımır. Sadəcə olaraq əsas məqsəd bütün beynəlxalq hüquq normaları və siyasi reallıqlar fonunda bu məsələnin mümkün həllinin prinsiplərini bir daha hər iki tərəfə xatırlatmaq və ona əməl etməyə çağırmaqla onları problemin həlli üçün səfərbər etməkdən ibarət idi. Lakin Azərbaycan Prezidenti Lissabona yola düşərkən bir həqiqəti də gözəl bilirdi ki, əgər ATƏT-in konsensus (yə'ni buna üzv dövlətlərin hamısı razı olmalıdır- Ə.H) yolu ilə qəbul edəcəyi qərara Dağlıq Qarabağ probleminin beynəlxalq prinsiplərə uyğun həlli formulu salınsa (yə'ni Azərbaycanın ərazi bütövlüyü başlanğıc şərt kimi qəbul edilsə- Ə.H.), Ermənistan öz "veto" hüququndan istifadə edəcək və sammitdə bu qərar keçməyəcək. Lakin bu hərəkəti ilə Ermənistan həm özünü tam ifşa edəcək, həm də Azərbaycan diplomatiyasının əl-qolunu açacaq, ona geniş manevr imkanları verəcək.

Əvvəla, ona görə ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü bəyan edən maddəyə e'tiraz etməklə onun BMT, ATƏT və bütün dünya ölkələri tərəfindən tanınmış və qəbul edilmiş ərazi bütövlüyünü tanımaq istəmədiyini nümayiş etdirəcək. İkincisi, bu addımı ilə Ermənistan rəhbərliyi indiyə qədər bütün gücü ilə sübut etməyə çalışdığı tezisi, guya "Dağlıq Qarabağ problemi Ermənistan-Azərbaycan münaqişəsi deyil, Dağlıq Qarabağ ermənilәri ilə Azərbaycanın problemidir" yalanını özü inkar etmiş olacaq. Və bütün ATƏT üzvü olan ölkə başçıları yə'qin edəcək ki, "Dağlıq Qarabağ problemi" adlanan münaqişə birbaşa Ermənistanın Azərbaycana olan ərazi iddiasının nəticəsidir. Üçüncüsü, bu addım ilə Ermənistan bütün dünyaya sübut edəcək ki, Dağlıq Qarabağ probleminin beynəlxalq prinsiplər əsasında həllinə məhz Ermənistan razı deyil və böyük sülhün əldə edilməsinə bütövlükdə o mane olur. Deməli, Ermənistanın təkbaşına bütün dünyanın qəbul etdiyi qərarları rədd etməsi, onlara qarşı çıxması bir daha aydın olacaq və onun öz nüfuzuna zərbə vuracaqdır.

Beləliklə, üç ildən artıq bir dövrdə Azərbaycan Prezidentinin böyük çətinliklərlə üzləşərək dünya dövlətlərinə aydınlaşdırmaq istədiyi əsas həqiqətlər iki günün içərisində bütün dünya ictimaiyyətinə və dünya dövlətlərinin başçılarına çatdırılır və qəbul olunurdu.

Əslində Ermənistan Prezidenti ATƏT-in icra üçün məcburi xarakter daşımayan, çoxmaddəli yekun bəyannaməsi içərisində heç bir dövlətin, heç bir şəxsin diqqətini xüsusi cəlb etməyən, kiçik bir 20-ci maddəyə veto qoymaqla bəlkə də Prezident olduğu dövrdə xarici siyasətdə ən böyük səhv buraxdı.

Əvvala, ona görə ki, Azərbaycan tərəfi bu addıma hazır idi və Ermənistanın bu "veto"sundan çox məharətlə istifadə etdi. Azərbaycan rəhbəri öz ölkəsinin və dövlətinin ali mənafelərini qorumaq üçün kəskin və analoqu olmayan bir addım atdı. Bundan sonra Azərbaycan Prezidentinin sammitdə iştirak edən bütün nüfuzlu dövlət başçıları ilə görüşləri keçirildi. Heydər Əliyev ABŞ-ın vitse-prezidenti A.Qor, Rusiyanın baş naziri V. Çernomırdin, Ukrayna Prezidenti L.Kuçma, İsrailin baş naziri B.Netanyahu, Finlandiya Prezidenti M.Ahtisaari, Fransa xarici işlər naziri E. de Şarett, Böyük Britaniya xarici işlər naziri M.Rifkind, Almaniya xarici işlər naziri K.Kinkel, Portuqaliyanın baş naziri A.Qutyeres və b. ilə

görüşdü (362). Bu görüşlərdən Azərbaycan həqiqətlərini -ölkədə gedən demokratik islahatları, müstəqil dövlət quruculuğu sahəsində görülən işləri, eyni zamanda erməni təcavüzü nəticəsində xalqımızın başına gətirilən fəlakətləri, ölkə ərazisinin 20 %-nin işğal olunmasını, bir milyondan çox qaçqının dərdlərini, ədalətli sülh uğrunda Azərbaycanın mübarizəsini dövlət başçılarına, dünya ictimaiyyətinə çatdırmaq üçün səmərəli istifadə edildi, Ermənistanın məkrli siyasəti, işğalçı niyyətləri ifşa olundu.

Azərbaycan diplomatiyası təkzibolunmaz dəlillərlə sübut etdi ki, məhz Ermənistan özünün inadkar, qeyri-konstruktiv mövqeyi, təcavüzkar siyasəti ilə regionda davamlı, ədalətli, bütün maraqları və mənafeləri nəzərə alan sülh əldə edilməsinə imkan vermir.

Prezident Azərbaycanın ATƏT prinsiplərinə, hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normalarına sadiqliyini, möhkəm sülhə və regional təhlükəsizliyə maraqlı olduğunu nümayiş etdirdi. Dövlət başçılarının və rəhbər xadimlərin, demək olar, hamısı Azərbaycanın ədalətli mövqeyini müdafiə etdiklərini bildirdilər. Eyni zamanda, dövlət başçıları ilə söhbətlərdə sammitdə yaranmış çıxılmaz vəziyyətdən narahatlıq ifadə olunur, problemin həlli prinsipləri üzərində düşünülürdü. Bütün danışıqlarda dövlət başçıları, ayrı-ayrı ölkələrin yüksək səviyyəli nümayəndələri Azərbaycanın tələblərinin ədalətli olduğunu təsdiq edirdilər. Onlar sammitin yekun qətnaməsinin taleyi ilə bağlı narahatlığını bildirir və Azərbaycanın mənafelərinin tə'min olunması üçün müxtəlif alternativ variantlar təklif edirdilər. Xüsusən zirvə toplantısının yekun iclasının başlanmasına çox az vaxt qalmış ATƏT-in sədri F.Kotti ilə keçirilən görüş zamanı sammitin bəyannamə layihəsinin qəbul olunması ilə əlaqədar yaranmış vəziyyət ətraflı müzakirə edildi. Azərbaycanın mövqeyinin tamamilə haqlı olduğunu və ATƏT tərəfindən dəstəkləndiyini nəzərə çatdıran F. Kotti yekun iclasında bu məsələyə dair verəcəyi bəyanat və irəli sürülən üç prinsip barədə Azərbaycan Prezidentinə ətraflı mə'lumat verərək, dedi ki, ATƏT Ermənistan-Azərbaycan münaqişəsinin bu üç əsas prinsip zəminində həllinə xüsusi diqqət yetirəcək. Belə bir vəziyyətdə Azərbaycanın mənafelərinin əsasən tə'min edildiyini nəzərə alaraq, sammitin



müəyyən yekun sənədi qəbul etməsinə imkan yaratmaq üçün Azərbaycan Prezidenti Ermənistan-Azərbaycan münaqişəsinin həlli prinsipləri haqqında ATƏT sədri adından bəyanat verilməsinə və yekun sənədinə qoyduğu "veto"nu götürməyə razı oldu. Sammitin yekun iclasında çıxış edən Rusiyanın baş naziri V.Çernomırdin, Avropa Birliyinin sədri və b. Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün bu maddədə şərh edilmiş prinsipləri tamamilə dəstəklədiklərini bildirdilər, tərəfləri Minsk konfransı çərçivəsində bu prinsiplər əsasında danışıqları davam etdirməyə çağırdılar (363). Beləliklə, Ermənistan və Azərbaycanın ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək özünüidarəetmə dərəcəsi verən hüquqi status, Dağlıq Qarabağın və onun əhalisinin tə'minatlı təhlükəsizliyi prinsiplərini əhatə edən ATƏT-in hazırkı sədrinin bəyanatı Lissabon sammitinin rəsmi sənədi kimi qəbul edildi (364)

Bəyanat əleyhinə yalnız Ermənistan Prezidenti L.Ter-Petrosyan çıxış etdi. Onun fikrincə, "bəyanat Dağlıq Qarabağın statusunu bəri başdan müəyyənləşdirir. Problemin həlli yolu beynəlxalq hüquq və ATƏT-in "Helsinki Yekun Aktında" əksini tapmış prinsiplər əsasında və ən əvvəl xalqların öz müqəddaratını tə'yin etməsi prinsipi əsasında tapıla bilər" (365). Beləliklə, Ermənistan tam diplomatik məğlubiyyətə düçar oldu və təklikdə qaldı.

ATƏT sədrinin bəyanatının qəbul edilməsi ilə Avropa və dünya ölkələri Azərbaycanın sülhsevər, kompromisə meylli siyasətinin bir daha şahidi oldular. Azərbaycan Prezidenti bu məsələ ilə bağlı bildirmişdir ki, "kimsə hesab edirsə ki, biz güzəştlərə getmişik, o, səhv edir. Təklif etdiyimiz üç elementdən ibarət formul əsla güzəşt deyil. Bu, Azərbaycan mənafelərini tamamilə tə'min edən bir formuldur" (366).

Bu prinsiplərdə Azərbaycanı tam qane etməyən cəhətlər olduğunu şərh edən H.Əliyev dedi: "Biz bu prinsiplərin qəbul edilməsini öz tərəfimizdən kompromis kimi qiymətləndiririk" (367).Elə bir taktiki gediş seçmək lazım idi ki, qarşılıqlı surətdə məqbul olan sülh prinsiplərini tapmağa imkan versin və son nəticədə regionda təhlükəsizlik və sabitlik strategiyasına xidmət etmiş olsun (368). Bu

barədə fikrini açıqlayan Prezident Heydər Əliyev qeyd etmişdir ki, "biz irəliyə baxmalıyıq və Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün bu gün Lissabon sammitində bəyan olunmuş prinsiplər əsasında danışıqlar aparıb sülh əldə etməliyik" (369).

Eyni kompromis, sülhsevərlik ruhu Lissabon sammitinin yekunlarının müzakirəsinə həsr olunmuş respublika ictimaiyyəti nümayəndələrinin bəyanatında da öz əksini tapmışdır: "Yığıncaq bütün Azərbaycan xalqının iradəsini ifadə edərək, erməni xalqını barışığın yollarını əzmlə axtarmağa,... xalqımıza və dövlətlərimizə sülh, əməkdaşlıq və tərəqqi yolu ilə getməkdə mane olan ədavəti, düşmənçiliyi aradan qaldırmaq üçün sə'ylər göstərməyə çağırır" (370).

Lakin bu kompromisə meyllilik, inadla sülh yollarının axtarılması Azərbaycan Prezidentinin diplomatik fəaliyyətində prinsipial məsələlərdə dönməzlik və qətiyyətlə birləşir. Bunu Lissabon sammitinin yekun sənədinə qoyulan "veto" ilə əlaqədar Heydər Əliyevin aşağıdakı sözləri tam açıqlığı ilə göstərir: "Bu və ya digər görüşlərdə mənə izah edirdilər ki, bizim atdığımız addım Azərbaycana ümumiyyətlə çox pis nəticələr gətirə bilər... 53 dövlət Azərbaycandan narazı olacaqdır. Belə bir vəziyyətdə Azərbaycan təcrid ediləcək. Mən düşünürdüm ki, ola bilər, buna başqa mə'nalar da versinlər, başqa nəticələr də çıxarsınlar...Ancaq bir arayış vermək istəyirəm ki, mənim qoyduğum o "veto" qəti idi. Əgər onlar yığışıb bu sənədi meydana çıxarmasaydılar, mən axıra qədər öz sözümün üstündə duracaqdım. Doğrudur, bizim üçün çox ağır olacaqdı, çox çətin olacaqdı. Lakin mən Azərbaycanın nə qədər kəskin mövqedə durduğunu sübut edəcəkdim" (371).

Beləliklə, bütün dünya rəhbərləri və ictimaiyyəti sammitin ümumi vaxtının 3/4-nü, yə'ni iki günün gün yarımını Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsini, bu münaqişədə tərəflərin mövqeyi və beynəlxalq prinsiplərə uyğun həlli yollarını, Ermənistanın əsl simasını göstərən digər bütün müddəaları bir daha təkrar - təkrar müzakirə etdi. Sammitin bütün əsas vaxtı müddətində Azərbaycan özünün cəlb edildiyi müharibə və itirilmiş əraziləri, regionda sülh və təhlükəsizlik uğrunda ədalətli mübarizəsi,



Ermənistan isə regionda və dünyada ümumi təhlükəsizliyə, sabit yaşayışa zərər verən perspektivsiz xarici siyasəti ilə dünya mətbuat və informasiya vasitələrinin əsas obyektinə çevrildi.İstər bu, istərsə də Azərbaycanın mövqeyini əks etdirən formulun yekun bəyannaməsinə salınması vaxtı ATƏT üzvü olan dövlətlərin respublikamızla həmrə'yliyi, sözsüz ki, Azərbaycan Prezidenti Heydər Əliyevin böyük nüfuzuna, müdrik və uzaqgörən siyasətinə olan hörmətin və məhz bu müdrik siyasətin xalqımıza və müstəqil dövlətimizə qazandırdığı beynəlxalq dəstəyin nəticəsi idi.

Azərbaycan Prezidenti Heydər Əliyev özünəməxsus dahilik və diplomatik məharət nümayiş etdirərək, bir tərəfdən, bütün dünya ölkələrini möhkəm silkələdi, Ermənistanın ümumavropa evinə və təhlükəsizliyinə nə qədər problemlər gətirdiyi fikrini bir daha anlatmaqla, axıra qədər onları Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin həlli üzərində düşünməyə, ona qarşı münasibəti dəyişməyə məcbur etdi, digər tərəfdən, işçi qrupunu, Minsk qrupu və bütövlükdə ATƏT üzvü olan dövlətlərin başçılarını bu vəziyyətdən çıxış yolu axtarmağa sövq etdi.

ATƏT üzvü olan bütün dünya dövlətləri Azərbaycanın ərazi bütövlüyünün pozulmazlığını, Ermənistanın beynəlxalq prinsiplərə zidd işğalçılıq siyasəti yeritməsini bir daha öz imzaları ilə təsdiqləməklə, Azərbaycana öz torpaqlarını azad etmək üçün bütün vasitələrdən istifadə edə bilmək hüququ verdiklərini bəyan etdilər. Bu, Heydər Əliyevin bütün sammit boyu nümayiş etdirdiyi ədalətli sülh diplomatiyasının ermənilərin konflikti bir az da uzatmaq məqsədi daşıyan taktikası üzərində parlaq qələbəsi idi və bütün dünya analitikləri Azərbaycan Prezidentinin bütün mümkün və qeyri-mümkün imkanlardan məharətlə istifadə etmək bacarığının bir daha şahidi oldular.

Beləliklə, ATƏT-in 54 dövlət başçısının iştirak etdiyi Lissabon zirvə toplantısı ümumdünya və ümumavropa məsələlərinin strateji, perspektiv inkişaf tendensiyalarını aydınlaşdırmaqla və müəyyənləşdirməklə bərabər, ilk dəfə olaraq Qafqazda gedən proseslərin, xüsusən Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin də mahiyyətini, ümumi və xüsusi

cəhətlərini, həlli yollarının hüquqi-siyasi çərçivəsini açıqladı.

Lissabon sammitində ATƏT sədri adından bəyanat qəbul edilməsinin Azərbaycan üçün böyük təbliğati, hüquqi və mə'nəvi-siyasi əhəmiyyəti oldu. Heydər Əliyevin dediyi kimi, "əgər sammitə gələndə Dağlıq Qarabağ, Azərbaycan məsələsi tamamilə unudulmuşdursa, iki-üç gün içərisində bir nömrəli məsələyə çevrildi. Ona görə ki, bütün dövlətlər dərk etdilər ki, bu məsələ nə qədər kəskin məsələdir və biz nə qədər geniş ictimai rə'y yarada bildik"(372).

Lissabon zirvə toplantısının yekun bəyannaməsinin və eyni ruhda tərtib olunmuş ATƏT sədrinin Dağlıq Qarabağ münaqişəsi haqqında bəyanatının qəbul olunması Avropa təhlükəsizliyi və əməkdaşlığı nöqteyi-nəzərindən mühüm əhəmiyyətə malik idi. ATƏT sədrinin çıxışında dey ildiyi kimi, "Lissabonda elə bir prosesə təşəbbüs göstərilmişdir ki, bu proses Avropa Təhlükəsizliyi Xartiyasını ATƏT çərçivəsində işləyib hazırlamağa gətirib çıxaracaq və Avropa təhlükəsizliyi modelinin əsasını təşkil edəcəkdir"(373).

Azərbaycan Prezidenti Heydər Əliyev isə Lissabon zirvə görüşünün yekunlarını, onun gələcək sülh danışıqları üçün, Azərbaycanın siyasi diplomatik mövqelərinin möhkəmlənməsi üçün əhəmiyyətini belə qiymətləndirmişdir: "Mən hesab edirəm ki, bu bəyanat gələcəkdə bizim sülh danışıqlarımız üçün, məsələnin sülh yolu ilə həll olunması üçün çox yaxşı bir əsasdır və biz Lissabon zirvə görüşündən böyük məmnuniyyət hissi ilə qayıdırıq" (374). "Bundan sonra Minsk qrupunun səmərəli işləməsi üçün, Minsk qrupunda Azərbaycanın öz mövqeyini daha da e'tibarlı tə'min etmək üçün ATƏT-in zirvə görüşünün belə bir sənədi bizim üçün çox böyük əsasdır" (375). ..."Şübhəsiz ki, ATƏT-in zirvə görüşü münaqişəyə son qoymaq üçün bir qərar qəbul etmək imkanında deyil. Ancaq münaqişənin sülh yolu ilə həll olunmasının ATƏT-in prinsiplərinə söykənən əsas prinsiplərinin qəbul edilməsi zirvə görüşündən sonra, 1997-ci ildə bu işin daha da sür'ətlə və müvəffəqiyyətlə aparılmasına kömək edəcəkdir... ...ATƏT bizim bu təşkilatda olduğumuz dövr ərzində və bu münaqişə ilə məşğul olduğu dövrdə biz ilk dəfə elə bir sənəd əldə etdik ki, burada Ermənistanla Azərbaycan arasındakı münaqişənin aradan qaldırılmasının əsas prinsipləri əks etdirilmişdir...



Bu sənəd tam sülhə nail olmaq, münaqişəni aradan qaldırmaq üçün Ermənistanla Azərbaycan arasında danışıqlarda yeni mərhələ açır" (376).

Azərbaycan-Ermənistan münasibətlərinə aid Lissabon sammitinin yəqinləşdirdiyi və təsdiqlədiyi həqiqətlər bunlardır:

1. *Ermənistan Qafqazda və bütün Avropada təhlükəsizliyə, əməkdaşlığa ziyan vuran, təhlükəli, perspektivsiz və avantürüst xarici siyasət yeridir;*
2. *Ermənistan Azərbaycanın BMT, ATƏT və dünya dövlətlərinin əksəriyyəti tərəfindən tanınmış sərhədlərini və ərazi bütövlüyünü tanımır və tanımaq istəmir, ona ərazi iddiası irəli sürür və bunu zorla həyata keçirmək istəyir;*
3. *Dağlıq Qarabağ ətrafında baş verən problemlər Azərbaycan-Dağlıq Qarabağın erməni əhalisi arasında mövcud olan münaqişə deyil, Ermənistan-Azərbaycan münaqişəsinin, Ermənistanın Azərbaycana olan ərazi iddiasının bilavasitə təzahürüdür;*
4. *Ermənistan Dağlıq Qarabağ probleminin ATƏT-in prinsipləri və beynəlxalq hüquq normaları əsasında həllini qəbul etmir, Azərbaycan torpaqlarını ilhaq etmiş və geri qaytarmaq istəmir, dünyaya və beynəlxalq hüquq normalarına meydan oxuyur;*
5. *Azərbaycan torpaqları işğal altındadır və onları geri qaytarmaq üçün bu dövlət bütün mümkün vasitələrdən istifadə etmək hüququna malikdir;*
6. *Nəhayət, bütün ATƏT üzvləri yəqin etdi ki, Qafqazda baş verən hadisələr, xüsusən Ermənistanın perspektivsiz və avantürüst xarici siyasəti Avropada və bütün dünyada yeni qayda-qanunun bərqərar olması yolunda əsl maneəyə çevrilməkdədir.*

Lissabon sammitində Ermənistan-Azərbaycan münaqişəsinin geniş müzakirə olunması, dünya dövlətlərinin bu problemə böyük əhəmiyyət verməsi bütün dünyada geniş əks-səda yaratdı. Dünya ictimaiyyətinin diqqətinin problemə belə geniş cəlb olunması, eyni zamanda onların bu məsələnin həlli yollarını axtararaq, problemi dərindən araşdırması, öyrənməsi nəticəsində Azərbaycanın haqq işi barədə həqiqətlər dünyada yayıldı, təbliğ edildi.

Dünyanın aparıcı dövlət başçıları, ictimai və siyasi xadimləri, informasiya agentlikləri Azərbaycan diplomatiyasının, dövlət başçısı

Heydər Əliyevin sammitdəki fəaliyyətini, aparılan gərgin diplomatik mübarizəni yüksək qiymətləndirdilər, onun sülhə nail olmaq əzmini xüsusi qeyd etdilər. "Reyter" agentliyinin mə'lumatına görə, Heydər Əliyev mətbuat konfransında sammitdə əldə edilmiş nəticədən məmnun olduğunu bildirmişdir. Ter-Petrosyan, əksinə, özünün əvvəlcədən, hələ Yerevanda olarkən planlaşdırılmış mətbuat konfransını tə'xirə salmışdı. Frans-Press agentliyi bəyan etdi ki, bu məsələyə dair 53 dövlətin xüsusi sənəd qəbul etməsi vəziyyətin məntiqi nəticəsi oldu. Assoşieyted Press isə xəbər verirdi ki, son anda Heydər Əliyev Ermənistanın razılığı olmadan 53 dövlət tərəfindən ayrıca bəyanat qəbul etdirdi və o, sənəd statusunda bəyannaməyə əlavə olundu. Eyni zamanda, Heydər Əliyev Avropa İttifaqı tərəfindən dəstəklənməsi barədə güclü bəyanat aldı. "İnterion Deyli" bülleteni Ermənistanın pozucu mövqeyini vurğulayaraq qeyd etmişdir ki, Ermənistan özünü ATƏT-in 53 dövlətinə qarşı qoymuşdur. Amerika politoloqu Pol Qoblun fikrincə, Azərbaycan nümayəndə hey'əti Lissabonda çox faydalı nəticə əldə etmişdir (377).

ABŞ-ın vitse-prezidenti A.Qorun Azərbaycan Prezidentinə teleqramında deyilirdi: "ATƏT-in hazırkı sədrinin Dağlıq Qarabağ haqqındakı bəyanatı sülh yolunda gedən axtarışlarda dəyərli bir nailiyyət oldu. Bu prinsiplər ATƏT-in fundamental konsepsiyaları ilə tam üst-üstə düşür. İndi bizim vəzifəmiz Lissabon sammitinin nəticələrindən səmərəli istifadə etməkdir. Arxayınçılıq bu vəziyyətdə ən pis düşməndir" (378 ). ABŞ-ın vitse-prezidenti ATƏT sədrinin Lissabon bəyanatının həyata keçirilməsi üçün Amerikanın öz tərəfindən bütün lazımi tədbirləri görəcəyini bildirmişdir. Almaniya xarici işlər naziri Klaus Kinkelin Azərbaycan dövlətinin başçısına teleqramında isə qeyd olunurdu ki, "ATƏT-in Lissabon sammitinin axırında öz konstruktiv hərəkətinizlə Siz zirvə görüşünün ümumi sənədinin qəbul edilməsinə həlledici dərəcədə imkan yaratdınız" (379). Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin bəyanatında belə bir inam ifadə olunurdu ki, bu prinsiplər nizamasalma barədə saziş əldə etmək məqsədi ilə indən sonra da iş aparmağa imkan verəcəkdir (380).

Azərbaycan diplomatiyası Lissabondan sonra öz məqsədyönlü



fəaliyyətini davam etdirərək, beynəlxalq təşkilat və forumlarda öz mövqeyini möhkəmləndirməkdə davam etdi. BMT ilə ATƏT arasında əməkdaşlıq haqqında saziş imzalandığı zaman Azərbaycan Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması sahəsində ATƏT-in fəaliyyətinə həsr olunmuş maddəyə düzəliş kimi Qarabağ regionunun Azərbaycan Respublikasına mənsubiyyətini təsbit edən müddəa daxil olunmasını təklif etmişdir. Qətnamə Azərbaycanın ona daxil edilmiş həmin düzəlişi ilə birlikdə qəti olaraq səsə qoyulduqda, bütün dövlətlər qətnaməni dəstəkləmişlər. Yalnız Ermənistan istisna təşkil etmişdir. Bütün dünya birliyinin mövqeyinə, BMT-nin mə'lum qətnaməsinə və ATƏT -in prinsiplərinə zidd mövqe tutmaqla Ermənistan Respublikası bir daha təklənmişdir. BMT Baş Məclisi bu qətnaməsi ilə Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsubiyyətini təsdiqləmiş, dövlətlərin ərazi bütövlüyü prinsiplərinin pozulmaz olduğunu bir daha nəzərə çarpdırmışdır (381).

İslam Konfransı Təşkilatının 1996-cı il dekabrın ortalarında Cakartada keçirilmiş konfransında Azərbaycanla bağlı üç sənəd- Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü haqqında qətnamə, İKT üzvü olan dövlətlər və bu dövlətlərin maliyyə tə'sisatları tərəfindən Azərbaycana iqtisadi və humanitar yardım göstərilməsi haqqında qətnamə və yekun sənədi olan rəsmi mə'lumatın ATƏT sədrinin Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması prinsipləri haqqında bəyanatına münasibəti- müzakirə olunmuşdur. Konfransın qətnaməsində Ermənistandan tələb edildi ki, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etsin. Qətnamə BMT Təhlükəsizlik Şurasını Ermənistanın təcavüzünə qarşı lazımi tədbirlər görməyə çağırmış, habelə qərara almışdır ki, İKT-nin üzvü olan dövlətlər bu məqsədlə BMT-də əlaqələndirilmiş sə'ylər göstərsinlər (382).

ABŞ hökuməti də Lissabondan sonra bu sahədə öz sə'ylərini fəallaşdırmışdır. ABŞ-ın dövlət katibi Madlen Olbrayt beynəlxalq münasibətlər üzrə Senat komitəsi qarşısında çıxış edərək, qeyd etmişdir ki, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesi

yavaş gedir. ABŞ-ın regionda mühüm iqtisadi, siyasi və humanitar mənafeləri vardır və münaqişənin nizamlanması yollarının axtarılmasında maksimum rol oynamağa hazırdır. M.Olbrayt demişdir: "Bizim tə'sirimizin artırılması istiqamətində addım kimi Konqres Azərbaycana qeyri-hərbi yardıma olan məhdudiyyətləri ləğv edə bilərdi" (383).

Lissabon sammitinin yekunları, onun münaqişənin həlli perspektivlərinə tə'siri Ermənistanın ictimai-siyasi vəziyyətində özünü büruzə verir və son nəticədə Ermənistanın siyasətində dünya reallıqlarını nəzərə almaq əsasında mühüm dəyişikliklərə gətirib çıxarmalıdır. Ermənistan Prezidenti L.Ter-Petrosyan Yeni il münasibətilə müraciətində milli birliyə çağıraraq demişdir: "Yeni ildə Ermənistan Qarabağ *məsələsində* beynəlxalq təzyiqlərə qarşı dayanmalı və nəqliyyat blokadasını aradan qaldırmalı olacaq". Gördüyümüz kimi, Ermənistan rəhbərliyi Qarabağ münaqişəsinin həllində ölkəyə beynəlxalq *təzyiq göstəriləcəyinə istinad* edir. Azərbaycan tərəfi isə hesab edir ki, Ermənistan münaqişənin aradan qaldırılmasında siyasi iradə göstərməlidir.

Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllini erməni tərəfi açıq-açığına bir az da uzatdı. Münaqişənin həllinin uzadılmasının əsas zərbəsi Azərbaycana dəysə də (işğal olunmuş ərazilər, öz ata-baba yurdlarından didərgin salınmış əhali, sökülüb dağılmış şəhər və kəndlər), əslində Ermənistan da bu siyasəti ilə son məqamda özünü çox ağır bir vəziyyətə saldı və sübut olundu ki, belə mövqe ilə o, heç nəyə nail ola bilməyəcək.

**Əvvəla,** ona görə ki, Ermənistan bütövlükdə Qafqaz regionunda qeyri-sabitliyə rövnəq verməklə, özü də qeyri-müəyyənlikdə yaşayır. Nə qədər özgə torpaqlarını işğal altında saxlamaq, nə vaxta qədər Azərbaycanla müharibə, Türkiyə ilə kəskin diplomatik mübarizə və ümumiyyətlə, Qafqazda belə bir gərgin şəraitdə yaşamaq olar?.. Sözsüz ki, bütün bunlar bütövlükdə Ermənistana, onun əhalisinin ictimai, siyasi, iqtisadi və mə'nəvi həyatına öz mənfi tə'sirini göstərir.

**İkincisi,** Azərbaycan diplomatiyası günü- gündən Ermənistanı bütün dünyada beynəlxalq ictimaiyyətin gözündən salır, onun "yazıq, kimsəsiz və müsəlmanların əhatəsində boğulan dövlət" libasını əsl işğalçı, avantürüst və irticaçı bir dövlət libasına dəyişir.Erməni lobbisinin beynəlxalq aləmdə ictimai-siyasi prosesləri bu dövlətin xeyrinə dəyişdirmək işini çətinləşdirir və deməli, dünya dövlətlərinin köməyinə və yardımına olan ümidlər günü-gündən puça çıxır.

**Üçüncüsü,** bütün dünyada Azərbaycanı müdafiə edən dövlətlərin sayı getdikcə artır, bu dövlətlərin Azərbaycanla iqtisadi əməkdaşlığı və siyasi əlaqələri güclənir və sözsüz ki, onlar Qafqazda aparılan siyasətdə əsas ağırlıq mərkəzini Azərbaycana keçirirlər.

**Dördüncüsü,** Ermənistanın əsas dayağı olan dövlətlər getdikcə Qafqazda öz tə'sirini itirir və erməniləri real müdafiə etmək imkanlarından məhrum olur.Əsas maraqları münaqişəli və qeyri-sabit Qafqazda təmsil olunan və məhz bu məqsədə xidmət edən Ermənistanı öz əlində alətə çevirən həmin dövlətlərdən fərqli olaraq,sabit və *münaqişəsiz* Qafqazda marağı olan ABŞ və digər *Qərb dövlətlərinin bu regionda* tə'siri, əksinə, getdikcə güclənməkdədir. Sözsüz ki, ABŞ və Avropa ölkələrinin bu mə'nada maraqları sülh və dinc Qafqaz uğrunda mübarizə aparan, mənafeləri *münaqişəsiz regional münasibətlərdə* təmsil olunan Azərbaycanla üst-üstə düşür. Və deməli, sabit, münaqişəsiz və dinc Qafqaz uğrunda mübarizədə Azərbaycan regionda tə'sir dairəsini gücləndirən ABŞ və Avropa *dövlətləri ilə*, Ermənistan isə həmin tə'siri itirən dövlətlərlə birləşir.

**Nəhayət,** Azərbaycanın günü-gündən iqtisadi cəhətdən güclənməsi, perspektiv iqtisadi imkanları da zamanı Ermənistanın deyil, məhz Azərbaycanın xeyrinə işlədir.

Öz fəaliyyətində aşkarlığı, xalqla məsləhətləşməyi, onun dəstəyini qazanmağı əsas prinsiplər hesab edən Azərbaycan Prezidentinin təşəbbüsü ilə Lissabon sammitinin yekunları respublika ictimaiyyəti nümayəndələrinin yığıncağında geniş müzakirə olundu. Yığıncaq adından Azərbaycan nümayəndə hey'ətinin fəaliyyətini dəstəkləyən bəyanat qəbul edildi. Heydər Əliyev yığıncaqdakı yekun nitqində *belə bir inam ifadə etdi ki,* "*respublikamızın* bütün ictimaiyyəti, xalqımız, vətəndaşlarımız Lissabon zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar qəbul edilmiş

sənədi dəstəkləyəcək və bu da bizim üçün, bundan sonra da bu istiqamətdə hərəkət etməyimiz üçün daha geniş imkanlar yaradacaq" (384).

Lissabon zirvə toplantısında Azərbaycan nümayəndə hey'ətinin iştirakı və toplantının nəticələri, əldə edilmiş diplomatik uğurlar respublika ictimaiyyəti tərəfindən diqqətlə öyrənilmiş və ətraflı müzakirə olunmuşdur. Bütövlükdə 11 mindən çox müxtəlif səviyyəli yığıncaq keçirilmiş, müzakirələrdə 100 mindən çox mə'ruzə və çıxışlar olmuş, Prezidentin ünvanına 12 mindən çox müraciət, qətnamə qəbul olunmuş, teleqram və məktublar göndərilmişdir (385). Toplantılardakı çıxışlarda və qəbul olunmuş sənədlərdə başda Prezident Heydər Əliyev olmaqla Azərbaycan nümayəndə hey'ətinin ATƏT-in zirvə toplantısındakı fəaliyyəti uğurlu hesab edilmiş, sammitdə qəbul olunmuş sənəd ölkə başçısının son üç ildəki gərgin, məhsuldar, məqsədyönlü işinin bəhrəsi kimi qiymətləndirilmişdir. Suraxanı rayon fəallarının Lissabon zirvə toplantısının yekunlarına həsr olunmuş yığıncağının iştirakçılarının Prezident Heydər Əliyevin ünvanına qəbul olunmuş müraciətində deyilirdi: "Siz Azərbaycanın yeni inkişaf erasının, təkamül tarixinin yaradıcısı və müəllifisiniz. Zaman keçəcək, Siz yaratdığınız bu tarixin başlanğıc səhifəsində iri, silinməz və qızıl hərflərlə yazılacaqsınız. Bu tarix indi Sizinlə yaranır. Sizin dahiliyiniz indiki nəsillərə örnək olduğu kimi gələcək nəsillərə də böyük siyasət məktəbi olacaqdır". Toplantılarda Lissabon sammitindəki qələbənin tarixi əhəmiyyətini azaltmağa, yaxud da tamamilə inkar etməyə çalışan qüvvələr qətiyyətlə pislənilir, respublikanın bütün əhalisi Prezidentin alternativi olmayan xarici və daxili siyasətini dəstəkləməyə çağırılır. Qax rayonunda yaşayan gürcülərin nümayəndələrinin toplantısında qəbul edilmiş müraciətdə deyilir: "Biz əminik ki, Sizin uzaqgörən siyasətiniz, məqsədyönlü fəaliyyətiniz nəticəsində Dağlıq Qarabağ məsələsi ədalətlə, sülh yolu ilə həll olunacaq, erməni təcavüzkarları işğal olunmuş torpaqlarımızdan çıxarılacaq, bir milyondan artıq qaçqın qardaş- bacımız doğma yurdlarına qayıdacaq".

Bir sözlə, Dağlıq Qarabağ münaqişəsinin həllini uzatmağa çalışan Ermənistan münaqişə uzandıqca sabit Qafqazda və sabit



Azərbaycanda marağı olan dünya dövlətlərinin və günü-gündən güclənən, dəstəklənən Azərbaycan Respublikasının əsas mübarizə hədəfinə çevrilir və getdikcə öz mövqelərini itirir. Zaman Azərbaycana işləyir.

# Budapeşt sammitinin sənədlərindən çıxarış

## Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi

**Budapeşt sammitində "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı bəyannamə qəbul olunmuşdur. Sənədin "Regional məsələlər" hissəsinin bölməsində deyilir: (386)**

**1.** İştirakçı dövlətlər münaqişə və onun nəticəsi kimi insan faciəsinin davam etməsini pisləyərək, münaqişədə iştirak edən tərəflərin 1994-cü il may ayının 12-də ATƏM-in Minsk qrupu ilə birgə əməkdaşlıq şəraitində, RF vasitəçiliyi ilə razılaşdırılmış atəşkəsi təsdiq etmələrini alqışladılar. İştirakçı dövlətlər BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə dair öhdəliklərini təsdiq etdilər və Təhlükəsizlik Şurasının münaqişənin sülh yolu ilə həlli sahəsində ATƏM-in sə'ylərinə verdiyi siyasi dəstəyi təqdir etdilər. Bu məqsədlə münaqişədə iştirak edən tərəfləri birbaşa əlaqələr də daxil olmaqla, intensiv, müntəzəm danışıqlara çağırdılar (1). Onlar ATƏT-in Minsk qrupunun vasitəçilik sə'ylərini tamamilə müdafiə etdilər və Rusiya Federasiyasının çox mühüm yardımını, Minsk qrupunun ayrılıqda götürülmüş digər üzvlərinin sə'ylərini yüksək qiymətləndirdilər.

**2.** Bununla əlaqədar onlar fəaliyyətdə olan Sədrə tapşırdılar ki, iştirakçı dövlətlərlə məsləhətləşərək və mümkün qədər tez bir zamanda fəaliyyət göstərərək, danışıqlar üçün ümumi və razılaşdırılmış əsasın tə'min olunması və bütün vasitəçilik və danışıqlara dair fəaliyyətlərin tam uyğunlaşdırılmasının həyata keçirilməsindən ötrü Minsk konfransı həmsədrlərini tə'yin etsin (2).

**3.** Bu sə'ylərdə birinci addım kimi, onlar Minsk konfransı həmsədrlərinə Rusiya Federasiyasının, Minsk qrupunun ayrı-ayrılıqda digər dövlətlərinin köməyi ilə və onlarla əməkdaşlıq edərək, mövcud atəşkəsin davam etdirilməsinə kömək etmək üçün dərhal addımlar atmalı və ötən vasitəçilik sə'ylərində artıq əldə edilmiş irəliləyişlərə əsaslanaraq silahlı münaqişə bitdikdən sonra bütün tərəflər üçün münaqişənin əsas nəticələrini aradan qaldırmağa və Minsk konfransını çağırmağa imkan verəcək siyasi sazişin imzalanması üçün intensiv danışıqlar keçirməyi tapşırdılar. Bundan başqa, onlar Minsk konfransı həmsədrlərindən inam yaradılması sahəsində, xüsusən humanitar sahədə tədbirlərin gələcəkdə də həyata keçirilməsi yə lunda tərəflərlə birgə işi davam etdirməyi xahiş etdilər. Onlar iştirakçı dövlətlərin həm ayrı-ayrılıqda, həm də əlaqədar beynəlxalq təşkilatlar çərçivəsində qaçqınların vəziyyətinin yüngülləşdirilməsinə xüsusi diqqət yetirərək, regiondakı adamlara humanitar yardımın tə'min olunması sahəsində fəaliyyət göstərmələrinin vacibliyini qeyd etdilər.

4. Onlar belə razılaşdılar ki, münaqişədə iştirak edən tərəflərin nöqteyi-nəzərinə əsasən, yuxarıda göstərilən sazişin imzalanması, sazişin özünün həyata keçirilməsi üçün mühüm element olan çoxmillətli sülhməramlı qüvvələrin yerləşdirilməsinə imkan verəcəkdir. Onlar BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinə əsasən, silahlı münaqişə bitərkən tərəflər arasında bağlanacaq sazişdən sonra ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrini göndərmək barədə siyasi iradələrini bəyan etdilər. Onlar fəaliyyətdə olan sədrdən xahiş etdilər ki, mümkün qədər tez bir zamanda 1992-ci il Helsinki sənədinin 3-cü bəndinə əsasən və BMT nizamnaməsinə uyğun şəkildə təşkil olunacaq belə qüvvələrin yaradılması, tərkibi və fəaliyyətinə dair plan hazırlasın. Bununla əlaqədar fəaliyyətdə olan Sədrə Minsk konfransının həmsədrləri və Minsk qrupuna Baş katib tərəfindən kömək və yardım göstəriləcək, onun, müvafiq məsləhətləşmələrdən sonra sülhməramlı qüvvələri yaradan dövlətlərə bu qüvvələrin xarakteristikası və həcmi, onlara rəhbərlik və nəzarət, arxa tə'minatı hissələrin və ehtiyatların

bölüşdürülməsi davranış və sazişlərin qaydalarına dair tövsiyyələr verməsi üçün Vyanada yüksək soviyyəli planlaşdırma qrupu yaradılmışdır. O. BMT-nin texniki məsləhət və ekspertiza tə'minatına hazır olduğu barədə bəyanatına əsasən BMT-dən yardım göndərilməsinə çalışacaq. O, həmçinin BMT TŞ-dən ATƏT-in sülhməramlı qüvvələrinin yerləşdirilməsi barədə davamlı siyasi dəstək almağa çalışacaq (3).

**1.** Bu baxımdan onlar ATƏT-in sə'ylərini və ona göstərilən yardımı artırmaq niyyətlərini möhkəm bəyan etdilər.

**2.** Bu həmsədrlər danışıqlarda öz sə'ylərində ATƏT prinsiplərini və razılaşdırılmış mandatı rəhbər tutaraq, Minsk qrupunun iclaslarında birgə sədrlik edəcək və fəaliyyətdə olan sədrə birgə mə'ruzə edəcəklər. Onlar işin gedişi haqqında Daimi Şuraya müntəzəm mə'lumat verəcəklər.

**3.** Belə bir hazırlıq işinin 1992-ci Helsinki sənədinin uyğun müddəaları əsasında və tərəflər arasında saziş əldə edildikdən və Minsk konfransının həmsədrləri vasitəsi ilə tərəflərin fəaliyyətdə olan sədrə rəsmi müraciətindən sonra Daimi Şura ATƏM-in sülhməramlı əməliyyatlarının təşkilinə dair qərar qəbul edəcəkdir.



# Lissabon sammitinin sənədlərindən çıxarış

## ATƏT-in hazırkı sədrinin bəyanatı (387)

Hamınız bilirsiniz ki, son iki ildə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində tərəqqi əldə olunmayıb. Təəssüf edirəm ki, məsələnin həlli prinsiplərinə dair tərəflərin fikirlərini bir-birinə yaxınlaşdırmaq üçün Minsk konfransı həmsədrlərinin sə'yləri uğursuz olub. Dağlıq Qarabağ münaqişəsinin həllinin bir hissəsini təşkil etməli olan üç prinsip Minsk qrupunun həmsədrləri tərəfindən tövsiyyə edilib. Həmin prinsiplər Minsk qrupunun üzvü olan bütün dövlətlər tərəfindən dəstəklənir. Onlar aşağıdakılardır:

*-Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;*

*-Azərbaycanın tərkibində Dağlıq Qarabağa öz müqəddəratını tə'yin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən, Dağlıq Qarabağ üçün ən yüksək özünüidarəetmə dərəcəsi verən hüquqi status;*

*-Məsələnin həllinin müddəalarına əməl olunmasını tə'min etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin tə'minatlı təhlükəsizliyi.*

Təəssüf edirəm ki, Ermənistan bunu qəbul edə bilmədi. Bu prinsiplər bütün digər iştirakçı dövlətlər tərəfindən dəstəklənir.

Bu bəyanat Lissabon sammitinin sənədlərinə daxil ediləcəkdir.

## §2. Qərb dövlətləri ilə əməkdaşlığın inkişafında NATO-nun rolu

Qərb dövlətlərinin hərbi-siyasi bloku kimi meydana gəlmiş Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) 1949-cu ildə ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Kanada, Belçika, Niderland, Lüksemburq, Portuqaliya, Norveç, Danimarka və İslandiya arasında bağlanan müqavilə əsasında yaradılmışdır. 1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-ci ildə AFR, 1982-ci ildə isə İspaniya bu bloka qoşulmuşdur. 1997-ci ildə NATO keçmiş sosialist düşərgəsinin üzvü olan Macarıstan, Çexiya və Polşanın da onun sıralarına daxil olması haqqında qərar qəbul etmişdir.

NATO-nun ali rəhbər orqanları NATO Şurasının Sessiyası, Hərbi Planlaşdırma Komitəsi və Hərbi Komitədən ibarətdir. Təşkilatın mühüm orqanlarından biri Nüvə Müqaviləsi Komitəsidir. Blok çərçivəsində Avropa ölkələri ilə münasibətləri əlaqələndirən "Avropa Qrupu" da fəaliyyət göstərir. NATO-nun əməli orqanı baş katibin başçılıq etdiyi Beynəlxalq Katiblikdir. Hərbi-siyasi təşkilat olaraq əsas məqsədi beynəlxalq aləmdə, o cümlədən Avropada sülhün, əmin-amanlığın tə'min edilməsidir.

NATO-ya üzvlük çoxmərhələli və mürəkkəb prosesdir. Təşkilata üzv olmaq istəyən dövlətlər müəyyən öhdəlikləri yerinə yetirməlidirlər. NATO-ya üzv dövlətlər üçün aşağıdakı prinsiplər müəyyənləşdirilmişdir:

- **kollektiv təhlükəsizlik:** *hamı hər kəs üçün, hər kəs hamı üçün: hər üzv-dövlətin birgə müdafiə üçün ümumi strukturu və öz hərbi qüvvələri, hərbi strukturu vardır.*
- **demokratiya:** *NATO dünyanın 19 ən güclü və inkişaf etmiş demokratiyaya malik ölkəsinin alyansıdır. Bu dövlətlər sülhü, insan hüquq və azadlıqlarını qoruyur, suverenlik, sərhədlərin toxunulmazlığı prinsipini əsas götürürlər.*
- **konsensus:** *qərarlar ümumi razılıqla qəbul olunur. NATO üzvləri bir-birinin tarixinə, mədəniyyətinə, adət-ən'ənələrinə hörmət etməli, ittifaq daxilində sabitliyi poza bilən hərəkətlərdən çəkinməlidirlər.*
- **qarşılıqlı təhlükəsizlik:** *NATO üzvləri hərbi büdcələri haqqında bir-birinə mə'lumat verir, eyni silahlardan istifadə edir, birgə hərbi tə'limlər keçirir və planlaşdırma aparırlar (388).*



NATO ilə ayrı-ayrı qeyri-üzv dövlətlərin münasibətləri bu təşkilatın dünyada oynadığı yeni rol ilə müəyyənləşir. Belə ki, getdikcə blokun strukturu dəyişir, o təkcə hərbi deyil, həm də elm, texnika, mədəniyyət, iqtisadiyyat sahələrinin inkişafı yolunda ölkələrin əməkdaşlığını tə'min edən bir təşkilata çevrilir. Bu əməkdaşlıq dövlət həyatının və müasir inkişafın bütün sahələri üzrə həyata keçirilir. Təşkilatın iqtisadi qüdrəti və siyasi hakimiyyət eşalonlarına güclü tə'sir mexanizmlərinin olması əməkdaşlığın mümkün səviyyəsindən və geniş imkanlarından xəbər verir.

Beynəlxalq təşkilat olaraq, NATO müasir dünyada siyasi vəziyyətə getdikcə daha ciddi tə'sir göstərir. Təşkilatın keçmiş SSRİ məkanındakı hadisələrə müdaxilə etməsi əsasən onunla bağlıdır ki, postsovet məkanında yaranmış yeni dövlətlərdə baş verən milli, etnik, ərazi münaqişələri bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün təhlükə yaradır. Hərbi-siyasi təşkilat kimi isə NATO bütün dünyada, o cümlədən postsovet məkanında münaqişələrin ləğv edilməsində öz rolunu artırmağa, bu ölkələrdə siyasi və iqtisadi böhranın aradan qaldırılmasında, demokratik islahatlar keçirilməsində zəruri kömək göstərməyə çalışır. NATO şəraitə uyğun olaraq öz vəzifələrini daim yenidən müəyyənləşdirir, dünya siyasətində öz tə'sirini və xüsusi çəkisini artırmağa sə'y göstərir.

Əvvəllər başlıca fəaliyyətini Qərbi Avropanın müdafiəsinə yönəldən NATO-nun bu gün bütün qitədə sabitliyin tə'minatçısı olmaq istəyi göz qabağındadır.

Bosniya təcrübəsi göstərir ki, NATO təhlükəsizlik sahəsində yeni şəraitə çox uyğunlaşmışdır. Bütün dünyada sosializmin iflası, o cümlədən SSRİ-nin dağılması, onun yerində yeni müstəqil dövlətlərin yaranması dünyada və Avropada təhlükəsizlik sahəsində də

keyfiyyətcə yeni vəziyyət yaratdı. Odur ki, NATO yeni siyasi strategiyasını müəyyənləşdirərkən və gələcək işlərini planlaşdırarkən Avrasiya məkanında baş verən dəyişiklikləri, ümumi geosiyasi reallığı və s. amilləri də nəzərə alır. Reallıq ondan ibarətdir ki, totalitar rejimlər, onunla birlikdə ABŞ və onun Qərbi Avropa müttəfiqləri ilə normal tərəfdaşlıq əlaqələrinə mane olan qarşıdurma ruhu demək olar ki, artıq tarixə qovuşmuşdur. Bu da öz növbəsində Şimali Atlantika İttifaqına hərbi funksiyaların daha çox siyasi funksiyalarla əvəz edilməsi haqqında 1990-cı ildə qəbul etdiyi yeni taktikanı həyata keçirmək üçün əlverişli şərait yaratdı.

Bundan başqa, Varşava Müqaviləsi Təşkilatı ləğv edildikdən və SSRİ dağıldıqdan sonra bu ölkələrin yerləşdiyi böyük bir məkanda kəskin qarşıdurma və qeyri-sabitlik yarandı ki, bu da Avropa təhlükəsizliyinin qorunması məqsədilə NATO-nun saxlanması zərurətini müəyyən edən əsas amillərdən biri oldu. Hazırda dünya müharibəsi miqyaslı böyük konfliktlərin yaranması ehtimalı azalsa da, kiçik konfliktlər və ya toqquşmalar ehtimalı getdikcə artır. Heç olmazsa buna görə Şimali Atlantika alyansı hərbi sahədə gələcək Avropa və dünya nizamının sabitləşdirici dayağı kimi uzun müddət yaşamalıdır. O, sabitlik və təhlükəsizliyi qorumaq aləti kimi zəruridir. Aparıcı dünya siyasətçilərinin dünyada NATO-nun yeni roluna münasibəti məhz belədir (389).

Sülh və əməkdaşlıq haqqında NATO-nun Roma bəyannaməsi və yeni strateji konsepsiyası müasir beynəlxalq vəziyyətin inkişafı dinamikasına blok üzvlərinin yeni baxışlarını daha da möhkəmləndirmişdir. Roma bəyannaməsinin əsas müddəaları NATO Şurasının 1991-ci ilin dekabrında keçirilən Brüssel sessiyasının qərarlarında daha da inkişaf etdirilmiş və konkretləşdirilmişdir. SSRİ-nin dağılması və MDB-nin yaranması ilə bağlı problemlər sessiyanın diqqət mərkəzində olmuşdur. NATO üzvlərinin sessiyada başlıca qayğısı əsasən silahlanma və tərksilah üzərində nəzarət sahəsində Sovet İttifaqının keçmişdə öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə MDB üzvü olan dövlətlərin öz aralarında razılığa gəlməsi və məs'uliyyəti məsələsi olmuşdur. Bu sessiyanın xarakterik cəhəti həm də Qərb ilə Şərq



arasında qarşılıqlı münasibətlərin alternativsiz tənzimlənmə institutu funksiyasını daşıyacaq Şimali Atlantika Əməkdaşlığı Şurasının fəaliyyətə başlaması məsələsi idi.

1994-cü ildə ABŞ Prezidenti B.Klintonun təşəbbüsünü qəbul edən NATO Avropanın bütün demokratik dövlətlərinə, MDB məkanında mövcud olan yeni müstəqil dövlətlərə, həmçinin ən'ənəvi bitərəflik mövqeyi tutan Avropa dövlətlərinə NATO ilə əməkdaşlıq etmək və onun tərəfdaşı olmaq təklifi ilə müraciət etdi. Brüssel sammitində NATO üzvü olan ölkələrin liderləri məhz bu müraciət və ondan irəli gələn taktiki məsələlər üzərində "Sülh naminə tərəfdaşlıq" proqramı adlanan yeni bir sənəd qəbul etdilər. Sənədin giriş hissəsində qeyd edilir ki, Şimali Atlantika İttifaqı ölkələrinin liderləri NATO və digər dövlətlər arasında münasibətləri dəyişdirməyə və tənzimləməyə imkan verən real proqram işləyib hazırlamışlar.

Bu proqram Şimali Atlantika İttifaqı və onun tərəfdaşları arasında təhlükəsizlik sahəsində yeni münasibətlərin formalaşması üçün əlverişli şərait yaradır. Əvvəla, proqram çərçivəsində tərəfdaş dövlətlərə NATO-nun siyasi və hərbi orqanlarının işində iştirak etmək təklif olunmuşdur. Əsas insan hüquq və azadlıqlarının, demokratik prinsiplər əsasında sülhün və ədalətin müdafiəsi təklif olunan tərəfdaşlığın əsasını təşkil edir. İkincisi, proqrama qoşulan ölkələr demokratik cəmiyyətə və beynəlxalq hüquq qaydalarına sadiq qalacaqlarını öz öhdələrinə götürürlər. Bundan başqa, "Sülh naminə tərəfdaşlıq" proqramının iştirakçıları hər bir dövlətin ərazi bütövlüyünün və siyasi müstəqilliyinin zərərinə olaraq qüvvə tətbiq etməkdən imtina etməyi, həmçinin mövcud sərhədlərə hörmətlə yanaşmağı və mübahisəli məsələləri dinc vasitələrlə həll etməyi də öz öhdələrinə götürürlər. Proqramda göst ərilir ki, əgər bu tərəfdaşlığın hər hansı fəal iştirakçısı hesab edərsə ki, onun ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və ya təhlükəsizliyinə birbaşa təhlükə yaranmışdır, NATO onunla məsləhətləşmələr aparacaqdır (390).

Proqramda sənədi imzalayan tərəfdaş ölkələrə öz milli-dövlətçilik və təhlükəsizlik problemlərinin təşkili və həllində Şimali Atlantika Müqaviləsi Təşkilatının potensialından istifadə etmək imkanları da

verilir. Xüsusən tərəfdaş ölkələr:

*-milli müdafiənin planlaşdırılması və büdcənin hazırlanmasında;*

*-müdafiə qüvvələri üzərində demokratik nəzarətin tə'min edilməsində;*

*-milli Konstitusiyanın müddəaları nəzərə alınmaqla BMT və ya ATƏT-in himayəsi altında sülhməramlı hərbi əməliyyatlarda iştirak etməkdə;*

*-sülhyaratma, axtarış və xilasetmə, humanitar və başqa istiqamətlərdə əməliyyatların keçirilməsinə milli hazırlığı yüksəltmək məqsədilə NATO ilə hərbi sahədə münasibətlər qurmaq və s. məsələlərdə Atlantik blokunun köməyinə bel bağlaya bilər.(391)*

"Sülh naminə tərəfdaşlıq" sənədini imzalayan hər bir dövlət NATO ilə tərəfdaşlığın fərdi proqramını da işləyib hazırlamaq imkanı qazanır. Hərbi sahədə əməkdaşlığın və qarşılıqlı fəaliyyətin güclənməsinə kömək üçün sülhyaratma əməliyyatlarında iştirak məqsədi ilə NATO ölkələri tərəfdaşlıq çərçivəsində səhra tə'limlərinin keçirilməsi işində hər bir tərəfdaş dövlətə kömək təklif edir. Lakin tərəfdaş dövlətlər proqramda iştirakı özləri maliyyələşdirməli və tə'limlərin keçirilməsi xərcinin bir hissəsini öz üzərlərinə götürməlidirlər. Planlaşdırmada və hərbi tə'limlərdə iştirak edən tərəfdaş ölkələr NATO-nun bə'zi texniki mə'lumatlarını əldə etmək, həmçinin NATO qərargah-mənzilində daimi zabitlərlə təmsil olunmaq hüququ qazanırlar.

Tərəfdaşlıq proqramına qoşulmağın digər üstünlüyü NATO tərəfindən öz ölkəsinin təhlükəsizliyinə tə'minat alınmasıdır. Bir çox Qərb ekspertlərinin fikrincə, Şimali Atlantika İttifaqı proqrama qoşulan ölkələr ətrafında konfliktli vəziyyətlər yarandığı zaman və ya onlara qarşı təcavüz baş verdiyi halda gələcəkdə sadə məsləhətləşmələrdən və çağırışlardan öz tərəfdaşlarına bilavasitə kömək göstərməyə keçə bilər.

NATO ilə tərəfdaşlıq müqavilələrinə qoşulan ölkələr üçün proqramda bə'zi məcburi şərtlər də irəli sürülmüşdür. Bunlardan daha çox diqqəti cəlb edən bəndlər aşağıdakılardır:

*- hərbi idarələr üzərində mülki nəzarətin tə'min edilməsi sahəsində tədbirlər keçirilməsi;*



*- hər il hərbi büdcələrin dərc edilməsi;*

*- əsas idarə, rabitə, kəşfiyyat və hava hücumundan müdafiə sistemlərinin əlaqəli fəaliyyət göstərməsinə nail olunması;*

*- əsas döyüş sistemlərinin blokun standartlarına uyğun təkmilləşdirilməsi və yenidən təchizinin təşkil edilməsi;*

*- qoşunların döyüş hazırlığı proqramına ingilis dilinin məcburi tədrisinin daxil edilməsi və s. (392)*

"Sülh naminə tərəfdaşlıq" proqramının mahiyyətini onun əsas müəllifi ABŞ prezidenti B.Klinton belə izah etmişdir: "Avropa üçün ən yaxşı gələcək hər yerdə demokratiyanın genişləndirilməsində, bazar iqtisadiyyatının inkişafında, ümumi təhlükəsizlik naminə bütün xalqların əməkdaşlığındadır . Bu zaman elə təşkilati formalar daha çox səmərə verə bilər ki, onlar demokratik tə'sisatların, könüllü assosiasiyaların yaradılmasına, qanunun aliliyinin, bazar iqtisadiyyatına keçidin tə'min olunmasına kömək etsin".(393)

B.Klintonun fikrincə, ABŞ-ın və NATO-nun xarici siyasi fəaliyyətində əsas diqqət bütün ölkələrdə demokratiyanın inkişafına və təhlükəsizlik sisteminin möhkəmləndirilməsinə yönəldilməlidir. "Sülh naminə tərəfdaşlıq" proqramı da bu məqsədə xidmət edir. Proqramda ifadə olunmuş yeni strategiyanın əsas məqsədləri və məntiqi aşağıdakı kimi qruplaşdırıla bilər:

1. *Qüdrətli bazar iqtisadiyyatı demokratik ölkələr birliyini möhkəmləndirməlidir, əsas diqqət bu birliyin daha da genişləndirilməsinə yönəldilməlidir;*
2. *Demokratik dövlətlərin və bazar iqtisadiyyatı sistemlərinin əlaqəli inkişafına və möhkəmləndirilməsinə kömək edilməlidir;*
3. *Demokratiya və bazar iqtisadiyyatı üçün çətinlikləri olan ölkələrdə dövlət həyatının liberallaşması sür'ətləndirilməlidir;*
4. *Humanitar vəzifələr həyata keçirilməlidir. (394)*

NATO-nun 1994-cü il yanvar sessiyasında qəbul olunmuş bəyannaməsində NATO üzvü olan dövlət rəhbərlərinin Cənubi Qafqazda vəziyyətlə bağlı narahatlıq keçirmələri və güc tətbiq etməklə ərazi işğalını qətiyyətlə pislədikləri bildirilirdi.

NATO-nun 1994-cü il yanvar sessiyasında yeni strategiyanı müəyyənləşdirən "Tərəfdaşlığa də'vət" adlı digər sənəddə deyilirdi ki, proqramda fəal iştirak edən hər hansı bir dövlətin ərazi

bütövlüyünə, müstəqilliyinə və təhlükəsizliyinə birbaşa təhlükə yaranarsa, NATO onunla müvafiq tədbirlər barədə məsləhətləşmələr aparacaq. (395)

"Sülh naminə tərəfdaşlıq" proqramı NATO ilə gələcəkdə hərtərəfli və əhatəli əməkdaşlıq üçün əsaslı zəmin yaradır.

"Sülh naminə tərəfdaşlıq" proqramından keçən üç il göstərdi ki,onun həyata keçməsi realdır və NATO tərəfindən proqram çərçivəsində qəbul edilmiş bütün əsas tədbirlər yerinə yetirilmişdir. NATO Şurasının dekabr (1994) sessiyasında qəbul olunmuş qərarların başlıca məzmunu Mərkəzi və Şərqi Avropa dövlətlərinin tam hüquqlu üzvlər kimi alyansa qəbul edilməsinə nail olmaq idi. Məhz ABŞ prezidenti B.Klintonun tə'kidi ilə NATO üzrə müttəfiqlər alyansın genişləndirilməsinə razılıq verdilər. Yeni üzvlərin qəbul edilməsi zərurətini aşağıdakı səbəblərlə izah etmək olar:

**-Əvvəla,** Avropa transatlantik təhlükəsizliyinin mühüm qarantı yenə də kollektiv müdafiə və Avropada Amerikanın iştirakı hesab olunur. "Soyuq müharibə" ləğv edildikdən sonra belə yeni müharibə təhlükəsi tam sovuşmamışdır. Odur ki, NATO-nun yaşaması və demokratik dövlətlər hesabına daha da genişlənməsi tələb olunur.

**İkincisi,** Mərkəzi və Şərqi Avropa dövlətlərinin NATO-ya qəbul edilməsi perspektivi bu ölkələrə demokratiya və hüquqi dövlət institutlarını möhkəmləndirmək, öz silahlı qüvvələri üzərində mülki nəzarəti tə'min etmək, iqtisadi sistemlərini liberallaşdırmaq və insan hüquqları sahəsində Qərbi Avropa və ABŞ-ın təcrübəsindən bəhrələnmək imkanı verir. Başqa sözlə desək, bu ölkələrin NATO-ya daxil edilməsilə onların öz kommunist keçmişləri ilə daha tez və qətiyyətlə vidalaşmasına nail olmaq məqsədi güdülür.

**Üçüncüsü,** NATO-da üzvlük həm də Şərqi Avropa və keçmiş SSRİ dövlətlərində mübahisəli məsələləri və ziddiyyətləri sülh yolu ilə həll etmək və sülhyaratma əməliyyatlarında birgə iştirak etmək şəraiti yaradacaq ki, bu da regional təhlükəsizliyin və sülhün möhkəmlənməsinə əlavə kömək edəcək.

Bu gün NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında 40-dan artıq dövlət iştirak edir. Onların hər biri öz potensialına və maraqlarına uyğun gələn formada, templərlə və miqyaslarla NATO ilə əlaqələri



inkişaf etdirir.

Azərbaycanla NATO arasında qarşılıqlı münasibətlərin ilk təzahürləri 1992-ci ilin oktyabrında özünü göstərdi. O zaman suveren dövlətimizin nümayəndə hey'əti NATO üzvü olan ölkələrin Türkiyədə təşkil olunmuş seminarında iştirak edirdi. Seminar zamanı Azərbaycan nümayəndələri NATO-nun baş katibi M.Vernerlə görüşmüşlər. Burada qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmiş, ikitərəfli əməkdaşlıq məsələlərinə toxunulmuş və onun inkişafı zərurəti qeyd olunmuşdur. (396)

1993-cü ilin fevralında Azərbaycan nümayəndə hey'əti Brüsseldə Avropa təhlükəsizliyi problemləri üzrə Şimali Atlantika İttifaqının təşkil etdiyi konfransda iştirak etmişdir. Konfransda Azərbaycanda gedən ictimai-siyasi proseslər, Ermənistanın ölkəmizə təcavüzü və s. haqqında nümayəndə hey'ətinin mə'lumatları yayılmışdı.(397)

1994-cü ilə qədər Azərbaycan-NATO münasibətləri demək olar ki, epizodik və səthi xarakter daşıyırdı. Lakin getdikcə ərazisində separatçı qüvvələrin ciddi hərbi əməliyyatlar keçirdiyi, torpaqlarının 20 faizinin Ermənistan hərbi birləşmələri tərəfindən işğal edildiyi Azərbaycanın qüdrətli beynəlxalq təşkilatlarla, xüsusən NATO ilə əməkdaşlığa daha böyük ehtiyacı hiss edilirdi.

Əvvəla, Qarabağ probleminin sülh yolu ilə həll olunmasında, respublikamızın işğal edilmiş torpaqlarının azad edilməsində, bir milyondan artıq qaçqın və məcburi köçkünün öz doğma yurdlarına dönməsində NATO kimi nüfuzlu təşkilatın böyük rol oynaya biləcəyi inkaredilməz faktdır. Şimali Atlantika Bloku ilə yaradılan əlaqələrin və əməkdaşlığın müstəqil Azərbaycan dövləti üçün mühüm əhəmiyyəti bir də onunla ölçülür ki, respublikamız "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla həm NATO-nun müxtəlif struktur və institutları vasitəsilə dünyanın kollektiv təhlükəsizlik sisteminə daxil olmaq, öz təhlükəsizliyini beynəlxalq təhlükəsizlik məsələləri ilə uyğunlaşdırmaq, həm də bloka daxil olan 19 ölkə ilə ayrı-ayrılıqda və birgə sülhməramlı və humanitar aksiyalarda iştirak etmək imkanı qazanır.

Bundan başqa, NATO ilə əməkdaşlıq çərçivəsində respublikamız Qafqaz regionunda strateji balans və təhlükəsizlik sistemi yaratmaq,

münaqişəli məsələləri beynəlxalq hüquq normalarına uyğun həll etmək, Azərbaycanın müstəqillik və təhlükəsizlik məsələlərinin həllində NATO-nun geniş nüfuzundan və tə"sir mexanizmlərindən istifadə etmək imkanı da əldə edir.

"Sülh naminə tərəfdaşlıq" proqramının əhəmiyyəti həm də onunla ölçülür ki, Azərbaycan NATO-nun təhlükəsizlik sisteminə daxil olan Avropa ölkələri və ABŞ-la dünya təhlükəsizlik sistemi və beynəlxalq münaqişələrin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazanır. Bu da öz növbəsində NATO-nun hərbi strukturları ilə Azərbaycan ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə tə"lim və manevrlər keçirmək,onların ordu quruculuğu təcrübəsindən bəhrələnmək, kadr hazırlığı və s. sahədə birgə hərəkət etmək imkanı verir .

Azərbaycanın NATO ilə əməkdaşlığı həm də respublikamızın xarici siyasət strategiyasının bir neçə əsas amili baxımından qiymətləndirilməlidir. Birincisi, gənc Azərbaycan dövləti öz xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi əhəmiyyət verir. İkincisi, Azərbaycan beynəlxalq təşkilatların üzvü olan bütün dünya dövlətləri ilə əməkdaşlıqda maraqlıdır və çoxtərəfli diplomatiya siyasəti yeridir. Üçüncüsü, Azərbaycanın müharibə vəziyyətində olması tələb edir ki, bütün vasitə və yollarla beynəlxalq aləmlə təmasda olsun və onu müstəqillik problemlərimizin həllinə daha çox cəlb etsin. Bu üç faktor Azərbaycanın NATO proqramına qoşulmasında əsas rol oynamışdır.

Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması həm də Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi deməkdir. Əlbəttə, respublikamızın bu proqrama qoşulması dərhal güclü beynəlxalq hərbi-siyasi dəstək almağa tə'minat vermir. Məqsədə nail olmaq üçün Azərbaycanın çox fəal düşünülmüş, məqsədyönlü, keyfiyyətli və yüksək səmərəli iş aparması tələb olunur.

Gələcəkdə Şimali Atlantika alyansı Azərbaycana öz milli müdafiəsinin planlaşdırılmasında, silahlı qüvvələr üzərində demokratik nəzarətin tə'min edilməsində, müasir mülki müdafiə sisteminin təşkil edilməsində, böhranların nizamlanmasında və s.



məsələlərdə kömək edə bilər.

Azərbaycan rəsmi dairələri belə hesab edirlər ki, NATO-nun ətrafında istənilən inteqrasiya prosesləri müsbət hal kimi qiymətləndirilməlidir. Belə konsolidasiya Avropada və ümumiyyətlə planetimizdə əks-cəbhələşmənin qarşısını almaqda irəliyə doğru addım hesab olunur.

"Sülh naminə tərəfdaşlıq" proqramı dövlətimiz üçün təhlükə yarada bilən qüvvələrin neytrallaşdırılmasında və ölkəmizin xarici təzyiqlərdən qorunmasında əhəmiyyətli rol oynaya bilər. Bu, həm də Azərbaycanın NATO üzvü olan, demokratiya və bazar iqtisadiyyatı sahəsində böyük təcrübəyə malik ölkələrlə inteqrasiyasının sür"ətlənməsi, onlarla əməkdaşlığın yeni yollarının açılması deməkdir.

NATO ilə əməkdaşlıq Azərbaycan üçün bir sıra başqa mühüm sahələrdə də cəlbedici perspektivlər açır. Azərbaycan Respublikasının NATO ilə strateji təhlükəsizlik, demokratik tə"sisatların, azad bazar iqtisadiyyatının inkişafı, yeni texnologiyanın respublika həyatına cəlb edilməsi və s. sahələrdə əməkdaşlığına xüsusi ehtiyac duyulur. NATO-nun bu sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açan bir sıra komitələri - mədəniyyət və informasiya, elmi məsələlər, müasir cəmiyyət komitəsi, mülki cəmiyyət məsələləri üzrə fövqəl"adə planların işlənib hazırlanması bürosu, boru kəmərlərinin çəkilməsi və istismarı komitələri və s. mövcuddur.(398)

Azərbaycanla NATO arasında əməkdaşlıq nəinki təkcə respublikamız, eyni zamanda NATO üçün də sərfəlidir. Belə ki, NATO-nun gələcəkdə böyük strateji əhəmiyyətə malik Qafqaz regionuna, Yaxın və Orta Şərqə doğru genişlənməsi ilə əlaqədar Azərbaycan ən əhəmiyyətli bir ölkə rolunu oynaya bilər.

Respublikamız Avropa və Asiyanın kəsişməsində yerləşən əlverişli geosiyasi məkan olaraq, regionda bu beynəlxalq təşkilatın əsas məramı olan sülhün və sabitliyin tə"min edilməsi üçün dayaq məntəqəsi kimi bu işdə ən perspektivli tərəfdaş hesab edilə bilər. Çünki Qafqaz artıq Avropanın siyasi xəritəsinə aid edilmişdir və həmin qitənin bir hissəsi kimi qəbul olunur.

Üç Qafqaz respublikası içərisində heç bir xarici dövlətin hərbi

bazası və ya hərbi qüvvələri olmayan yeganə dövlət məhz Azərbaycandır. Bu əsaslı və mühüm faktor da NATO-nu respublikamızla xüsusi əməkdaşlığa sövq edən digər əsas amil hesab edilməlidir.

Bundan başqa, istər coğrafi mövqeyinə, nüfuzuna, əhalisinin sayına, istərsə də geosiyasi vəziyyətinə görə respublikamız regionda ağırlıq mərkəzi rolunu oynayır və sözsüz ki, bu da əməkdaşlıq üçün ayrıca bir müsbət impulsdur.

Bütün bunlarla yanaşı, NATO-nun respublikamıza meyl göstərməsinin mühüm şərtlərindən biri, fikrimizcə, üç Cənubi Qafqaz ölkəsi başçılarından ən müstəqil siyasət yeridən, Azərbaycanın müstəqilliyinin qorunub saxlanması uğrunda ən qətiyyətli mübarizə aparan Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsidir. Qeyd etməliyik ki, xüsusən də neft kontraktlarının bağlanmasından, bu yolda qarşılaşdığı çətinlikləri və təzyiqləri cəsarətlə və qətiyyətlə dəf etməsindən sonra Azərbaycan dövlətinin və onun başçısı Heydər Əliyevin müasir beynəlxalq münasibətlərin qlobal və siyasi strategiyasının formalaşmasında rolu nə qədər artmışsa, respublikamıza olan maraq, onun beynəlxalq münasibətlərə tə"siri də bir o qədər yüksəlmişdir.

Daha bir əlavə müsbət keyfiyyət isə respublikamızın Qafqazda ən sülhpərvər bir dövlət imici qazanması, xüsusən Ermənistan-Azərbaycan konfliktini, o cümlədən də Dağlıq Qarabağ problemini məhz sülh yolu ilə həll etmək cəhdləri və bu yolda Prezident Heydər Əliyevin bütün beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmək istəyidir.

Beləliklə, hər iki beynəlxalq subyektin, NATO-nun və Azərbaycanın əməkdaşlığının əsasında məhz sülh prinsipləri durduğuna görə bu əməkdaşlıq çox perspektivli və həm də zəruridir. Ona görə də hesab etmək olar ki, hər iki tərəf bundan sonra daha sıx münasibətlər yaratmağa meyl göstərəcəklər.

Hazırda NATO ilə yaradılmış hüquqi münasibətlər bu beynəlxalq təşkilata daxil olan ölkələrdə gələcəkdə Azərbaycan ordusu üçün zabit kadrlarının hazırlanmasına, NATO İttifaqının keçirdiyi sülhməramlı tədbirlərdə və hərbi manevrlərdə ordu hissələrimizin



ordu quruculuğunda blokun imkanlarından istifadə edilməsinə əsas verir.

Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun beynəlxalq münasibətlərdə yeni rolunu və dünya siyasətində yeni meylləri nəzərə alıb, NATO proqramında iştirak etmək haqqında prinsipial qərar çıxardı. Öz potensialını və mənafelərini əsas tutaraq, Azərbaycan dövləti 1994-cü il mayın 4-də suveren dövlət kimi "Sülh naminə tərəfdaşlığın" çərçivə sənədini imzaladı. Azərbaycan Prezidenti Heydər Əliyevin NATO baş katibinin müavini Serco Balansino ilə görüşü zamanı tərəflər belə bir yekdil fikrə gəldilər ki, silahlı münaqişələrin dayandırılması və sülhün bərqərar olması üçün "Sülh naminə tərəfdaşlıq" proqramı mühüm rol oynaya bilər (399). Əlbəttə, Azərbaycanın bu proqramı imzalaması NATO ilə əməkdaşlıqda ilk addım idi. Proqramın gələcəkdə Şimali Atlantika bloku ilə əməkdaşlıq sahəsində açacağı imkanları və bu əlaqələrin geniş parametrlərini nəzərə alsaq, atılmış addımın əhəmiyyətinə əsl qiymət vermək olar.

Azərbaycan Prezidenti tərəfindən imzalanmış "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədinin birinci müddəasında göstərilir ki, NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1994-cü il yanvarın 10-11-də keçirdikləri görüşdə qəbul etdikləri qərara əlavə olaraq, bu sənədi imzalamış, Avropa-Atlantika rayonunda siyasi və hərbi əlaqələri dərinləşdirmək, təhlükəsizliyin daha da möhkəmlənməsinə kömək etmək əzmində olduğunu bəyan etmiş Şimali Atlantika İttifaqının üzvü olan dövlətlər və sənədə imza atmış digər dövlətlər Şimali Atlantika Əməkdaşlığı Şurası əsasında "Sülh naminə tərəfdaşlıq" Proqramını tə"sis edirlər.

Proqramda qeyd edilir ki, "tərəfdaşlıq dövlətlərin belə bir birgə inamının ifadəsidir ki, Avropa-Atlantika rayonunda sabitliyə və təhlükəsizliyə yalnız əməkdaşlıq və birgə tədbirlər əsasında nail olmaq mümkündür". Demokratiya prinsipləri əsasında insanların başlıca hüquq və azadlıqlarının müdafiəsi, azadlığın, ədalətin və sülhün tə"min edilməsi sivilizasiyalı bəşəriyyətin can atdığı ümumi dəyərlərdir və tərəfdaşlıq üçün əsas şərtlərdir.

Şimali Atlantika İttifaqının üzvü olan ölkələr və həmin sənədi imzalamış digər dövlətlər bu tərəfdaşlığa qoşularaq xatırladırlar ki,

onlar demokratik cəmiyyətlərin zordan, məcburiyyətdən və hədələmədən xilas olmasına və beynəlxalq hüquq prinsiplərinin tam qorunmasına tərəfdardırlar. Dövlətlər BMT-nin nizamnaməsindən irəli gələn öhdəliklərin və insan hüquqlarına dair ümumi bəyannamənin prinsiplərinin qorunması, güc işlətməklə dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə xələl gətirən əməllərin yolverilməzliyi üçün, habelə mövcud sərhədlərə hörmət etmək və mübahisələrin dinc vasitələrlə nizamlanmasına nail olmaq kimi beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsinə çalışacaqlarını təsdiqləyirlər. "Onlar Helsinki Yekun Aktına və ATƏT-in bütün sonrakı sənədlərinə, habelə tərksilah və silahlara nəzarət sahəsində öz üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsinə tərəfdar olduqlarını da təsdiqləyirlər" (400).

"Sülh naminə tərəfdaşlıq" proqramında Şimali Atlantika Müqaviləsi Təşkilatı ilə əməkdaşlığın əsas məqsədləri də bəyan edilir. Sənəddə qeyd edilir ki, NATO milli müdafiənin planlaşdırılmasında, hərbi büdcələrin hazırlanmasında, müdafiə qüvvələri üzərində demokratik nəzarətin tə"min edilməsində tərəfdaş dövlətlərə əməli yardım edəcək, hər bir ölkənin milli konstitusiyaları nəzərə alınmaqla BMT-nin və ATƏT-in himayəsi altında onların müdafiə qabiliyyətinin tə'min edilməsinə, ordu hissələrinin səhra əməliyyatlarına hazırlığının yüksəlməsinə kömək göstərəcək. Bundan başqa, sülhyaratma, minalanmış sahələrdə axtarış, minadan xilasetmə, humanitar əməliyyatlar və digər sahələrdə ölkələrə kömək göstərmək, onların müvafiq qurumlarının hazırlığını yüksəltmək üçün birgə planlaşdırma, döyüş hazırlığı və hərbi tə"limlər keçirilməsi ilə bağlı da NATO hər bir ölkəyə əməli yardım etməyə hazır olacaq.

Proqramda uzunmüddətli perspektivdə tərəfdaş dövlətlərdə elə qüvvələr yaratmaq nəzərdə tutulur ki, onlar Şimali Atlantika İttifaqının üzvü olan ölkələrin silahlı qüvvələri ilə ayrı-ayrı sülhməramlı məqsədlər üçün keçiriləcək tədbirlərdə qarşılıqlı fəaliyyətə yüksək dərəcədə hazır olsunlar (401).

Çərçivə sənədində göstərilir ki, onu imzalamış olan hər bir dövlət müəyyən vaxtdan sonra NATO rəhbərliyinə təqdimat sənədləri verir. Həmin sənəddə qarşılıqlı əməkdaşlığın və tərəfdaşlığın siyasi



məqsədləri, bu məqsədlərə çatmaq üçün nəzərdə tutulan tədbirlər və tərəfdaşlıq proqramı əsasında birgə fəaliyyət üçün təklif oluna biləcək hərbi və digər aktivlər şərh edilməlidir.

NATO ilə tərəfdaşlıq prinsipi əsasında tə"limlərin və əməkdaşlığın məqsədlərinə cavab verə bilən digər fəaliyyət növlərinin proqramı da təqdimat sənəd inə əlavə edilir. Bundan başqa, sənədi imzalamış olan hər bir dövlət tərəfdaşlığın istər ümumi, istərsə də fərdi proqramını NATO ilə birlikdə, həmin proqram və öz təqdimat sənədi əsasında işləyib hazırlamalıdır.

Sənədi imzalamış olan dövlətlər tərəfdaşlığın fərdi proqramlarının hazırlanması və həyata keçirilməsi işini əsasən öz vəsaitləri hesabına həyata keçirir. Şimali Atlantika İttifaqı və onun Brüsseldəki iqamətgahı dövlətlərə onunla rabitə büroları yaratmağı, Atlantika Əməkdaşlığı Şurasının və "Sülh naminə tərəfdaşlığ" ın görüşlərində və fəaliyyətində, habelə bə"zi digər görüşlərdə iştirak etməyə şərait yaratmağı öz öhdəsinə götürür. Bundan əlavə, onlar tərəfdaşlığın razılaşdırılmış proqramının yerinə yetirilməsi üçün işçilər, aktivlər, avadanlıq verilməsini və Proqramın həyata keçirilməsini də öz öhdələrinə götürür, fərdi tərəfdaşlıq proqramlarının hazırlanmasına və həyata keçirilməsinə lazımi köməklik göstərir (402).

"Sülh naminə tərəfdaşlıq" proqramının 8-ci maddəsində göstərilir ki, hansı iştirakçı ölkə hesab etsə ki, "onun ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və ya təhlükəsizliyinə qarşı birbaşa qorxu mövcuddur, onda NATO həmin tərəfdaşla məsləhətləşmə keçirəcəkdir". Azərbaycan bu maddədən son zamanlar fəal istifadə edir və NATO ilə Ermənistan-Azərbaycan münaqişəsi zəminində respublikamızın torpaqlarının işğal edilməsi ilə bağlı fəal məsləhətləşmələr aparır.

Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun mənzil qərargahında sənədlərin imzalanmasından sonra keçirdiyi mətbuat konfransında bildirmişdir ki, "Sülh naminə tərəfdaşlıq" sənədinin imzalanması Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Gənc müstəqil dövlət kimi Azərbaycan Respublikasının bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Regionda hərbi münaqişə olduğunu nəzərə alaraq Azərbaycan bu proqrama böyük ümidlər bəsləyir. Müstəqil

Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması Azərbaycan Respublikası və NATO üzvü olan dövlətlər arasında əlaqələrin genişlənməsinə kömək edəcək (403).

Ermənistanın Azərbaycana qarşı təcavüzü probleminə toxunaraq Azərbaycan Prezidenti bildirdi ki, Şimali Atlantika İttifaqının üzvləri hər hansı dövlətin ərazi bütövlüyünün və siyasi müstəqilliyinin zərərinə olaraq qüvvə tətbiq etməkdən imtina etmək haqqında təəhhüdlərini, həmçinin mövcud sərhədlərə hörmətlə yanaşmaq və mübahisələri dinc vasitələrlə həll etməyə tərəfdar olduqlarını təsdiq etdilər. NATO üzvü olan dövlətlərin bu mövqeyi müstəqil Azərbaycanın maraqlarına cavab verir (404) .

Azərbaycan Prezidenti Heydər Əliyev NATO ilə münasibətlərdə öz prinsipial mövqeyini bu şəkildə bildirmişdir: "Azərbaycan Respublikası Şimali Atlantika İttifaqına dərin hörmətlə yanaşır, onun son onilliklər ərzində Avropada sülhü, sabitliyi və ardıcıl inkişafı tə min etmək sahəsində göstərdiyi fəaliyyəti yüksək qiymətləndirir. Hazırda dünyada kollektiv təhlükəsizliyin real surətdə mövcud olan strukturu kimi NATO demokratik dəyərlərin müdafiəsini və bu dəyərlərin Şərqi Avropada və keçmiş SSRİ ərazisində yaranmış yeni müstəqil dövlətlərdə yayılmasını tə"min edir.

Biz NATO-ya gənc Azərbaycan dövlətinə Qərb dünyası ilə sıx və çoxtərəfli qarşılıqlı münasibətlər yaratmaqda və Qərb dünyasının çox zəngin təcrübəsindən bəhrələnməkdə kömək etməyə qadir olan bir təşkilat kimi baxırıq" (405).

Müstəqil Azərbaycan dövləti üçün NATO ilə əməkdaşlığın böyük əhəmiyyəti və perspektivləri vardır. NATO üzvləri ilə bağlı dövlətlərarası münasibətlərin tənzimlənməsində, ortaya çıxan mübahisəli məsələlərin dinc vasitələrlə həll edilməsində, təşkilat üzvünə qarşı baş verən təcavüzün dəf olunmasında bütün kollektiv imkanların səfərbər edilməsi sahəsində rəhbər tutulan prinsiplər öz həyati qabiliyyətini uzun illər boyu sübut etmiş və qarşıdurmadan sonrakı dövrdə Avropa təhlükəsizliyinin bugünkü yeni sisteminin bünövrəsi kimi qəbul edilir.

Azərbaycanın dövlət başçısı ümid edir ki, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etmək Ermənistan-Azərbaycan



münaqişəsinin ədalətlə, dinclikla dayandırılmasına, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə, müharibənin bütün nəticələrinin aradan qaldırılmasına tezliklə nail olmağa imkan verəcəkdir. Çünki NATO üzvü olan dövlətlər hər hansı ölkənin sərhədlərinin silah gücünə dəyişdirilməsini yolverilməz sayırlar. Sənədin bu müddəaları ümid etməyə əsas verir ki, Qafqaz regionunda vəziyyətin nizama salınması üçün NATO ölkələri konkret əməli addımlar atacaqdır. Bunu NATO baş katibinin müavini S.Balansinonun mətbuat konfransında söylədiyi sözlər də sübut edir. O bildirmişdir ki, bu proqramın iştirakçısı kimi, Azərbaycan Respublikası özünün mə'ruz qaldığı münaqişə ilə bağlı məsləhətləşmələr keçirilməsi barədə müraciət edərsə, biz buna böyük diqqətlə yanaşacaq və belə məsləhətləşmələr keçirəcəyik" (406).

Azərbaycan Prezidenti "Sülh naminə tərəfdaşlıq" proqramının əhəmiyyətindən danışarkən bildirdi ki, "biz Azərbaycanda bu sənədi ətraflı öyrəndik, orada Azərbaycan Respublikası üçün maraqlı, cəlbedici müddəalar tapdıq. Odur ki, ən iri beynəlxalq təşkilatlardan biri kimi NATO-ya prinsipial münasibətimizi, öz mövcudluğu ərzində Avropada və bütün dünyada vəziyyətin sabitləşməsi üçün çox iş görmüş olan NATO-ya hörmətimizi əsas tutaraq biz "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmağı mümkün və vacib bildik"... "Orada çox dəqiq müddəalar var və onlar ümid etməyə imkan verir ki, "Sülh naminə tərəfdaşlıq" proqramında bizim iştirakımız Ermənistanla-Azərbaycan arasında münaqişə ilə bağlı məsələlərin müzakirəsində NATO-nun iştirakına şərait yaradır" (407).

Azərbaycan ilə NATO arasında yaradılan əməkdaşlığın əsas prinsipləri və istiqamətləri "Sülh naminə tərəfdaşlıq" proqramında və Azərbaycanın təqdim etdiyi "Prezentasiya sənədi"ndə öz əksini tapmışdır.

Bir faktı da qeyd etmək lazımdır ki, Zaqafqaziya müxtəlif dövlətlərin mənafelərinin toqquşduğu və kəsişdiyi bir regiondur. Azərbaycan Respublikası keçmiş SSRİ respublikaları arasında dördüncü , Qafqazda isə birinci olaraq "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuş və Cənubi Qafqazda yeni geosiyasi vəziyyət yaratmışdır.

Bu vəziyyətin səciyyəvi cəhəti ondan ibarətdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması əvvəllərdə olduğu kimi, yalnız MDB-nin deyil, həm də NATO-nun imkanlarından istifadə edilməklə həll oluna bilər.

Beləliklə, "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla Azərbaycan hər şeydən əvvəl ən güclü hərbi-siyasi blokla əməkdaşlıq tellərini möhkəmləndirdi, həmçinin NATO-nun şəxsində güclü və e"tibarlı tərəfdaş əldə etdi.

Azərbaycan-NATO ikitərəfli əlaqələrinin inkişafı "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində getdigcə geniş vüs'ət almaqdadır. Bu proqram NATO-nun maraqları çərçivəsində olduğundan tərəfdaş dövlətlərin blokla əlaqələrinin daha da inkişaf etdirilməsi sahəsində NATO liderlərinin cəhdlərində son zamanlar böyük canlanma hiss olunmaqdadır.

NATO və Azərbaycan arasında qarşılıqlı münasibətlər 1994-cü ilin iyununda Azərbaycan nümayəndə hey'ətinin Şimali Atlantika Əməkdaşlığı Şurasının sessiyasında iştirakı ilə bir qədər də inkişaf etdirilmişdir. Səfər zamanı Ermənistanın Azərbaycana təcavüzü və onun nəticələri haqqında geniş mə'lumat verilmiş və qəbul olunmuş bəyanatın "Regional münaqişələr" hissəsində bu problem öz əksini tapmışdır. Bəyanatda belə bir prinsipial müddəa ifadə olunmuşdur ki, bütün dövlətlərarası münaqişələr dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll olunmalıdır.

1995-ci ildə NATO Verifikasiya Komitəsinin sədri Necil Nədimoğlunun başçılıq etdiyi nümayəndə hey'əti, NATO-nun müxtəlif rəhbər strukturlarının təmsilçiləri ilə birgə ölkəmizdə səfərdə olmuşlar. Səfər zamanı NATO ilə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilmiş, Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin və bölgədə sülh yaradılmasının vacibliyi vurğulanmışdır. (408)

1995-ci ildə NATO-nun Niderlandın Nordvik şəhərində keçirilən toplantısında Azərbaycanın xarici işlər naziri də iştirak etmişdir. O, öz çıxışında ölkəmizin NATO ilə əlaqələrindən danışmış, Ermənistanın respublikamıza qarşı təcavüzü, xalqımıza vurulan maddi və mə'nəvi ziyanlar, problemin həllində Azərbaycanın



mövqeyi haqqında geniş mə'lumat vermişdir.

İl ərzində ikitərəfli görüşlər intensiv şəkildə davam etmişdir ki, bu da davamlı münasibətlər qurulmasına, mövqelərin aydınlaşmasına kömək etmişdir.

Azərbaycan nümayəndə hey'ətlərinin NATO-nun müxtəlif tədbirlərində iştirakı ilə yanaşı, Azərbaycana alyansın müxtəlif səviyyəli nümayəndələrinin səfərlərini də əməkdaşlığın genişlənməsi və inkişafı formaları kimi qəbul etmək olar. 1995-ci il iyunun 7-də Azərbaycan Respublikasının Prezidenti Bakı şəhərinə gəlmiş NATO silahlı qüvvələrinin Avropa üzrə komandanının müavini general Ç.Makkenzini qəbul etmişdir. Görüşdə general Makkenzi Azərbaycanla NATO arasında münasibətlərin inkişafından məmnun qaldığını bildirmiş və qeyd etmişdir ki, Şimali Atlantika İttifaqı Azərbaycan Silahlı qüvvələrinin qurulmasında və təkmilləşdirilməsində əhəmiyyətli rol oynaya bilər. O, xüsusi vurğulamışdır ki, ordu hər bir dövlətin atributudur və Azərbaycan da öz növbəsində layiq olduğu orduya malik olmalıdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev görüşdə bildirmişdir ki, "biz bir tərəfdən, NATO-nu dünyada ən nüfuzlu və tə'sirli təşkilat hesab edirik, digər tərəfdən, onu regionda sülhün dayağı və təşkilatçısı kimi görürük. Biz öz ordumuzun qurulması prosesində NATO təcrübəsindən faydalanmalıyıq və bu faktor əməkdaşlığımızın ən mühüm mərhələsi olmalıdır". (409)

Görüşdə ilk dəfə olaraq, NATO-nun rəsmi nümayəndəsi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və regionda sülhün tə'min olunması zəruriliyini qeyd etmişdir.

NATO ilə əlaqələrin dərinləşməsi sahəsində 1996-cı il aprelin 22-də Azərbaycan Respublikası və Avropa İttifaqı arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında müqavilənin imzalanmasının çox böyük əhəmiyyəti olmuşdur. Azərbaycanın xarici siyasətinin parlaq səhifələrindən biri kimi qiymətləndirilən və müstəqil dövlətimiz üçün tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə (Avropa Birliyi, Avropa Şurası, NATO və b.) əlaqələrinin genişlənməsi və dərinləşməsi üçün hüquqi baza rolunu oynayır.

Aprel ayının 23-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti NATO-nun qərargah-mənzilində bu təşkilatın baş katibi X.Solana ilə görüşdü. Söhbət zamanı NATO-nun baş katibi qeyd etdi ki, Cənubi Qafqazda baş verən hadisələri diqqətlə izləyir, Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsində Prezident Heydər Əliyevin fəaliyyətini yüksək qiymətləndirir. Tərəflər razılaşdılar ki, Qafqazda sülh və sabitlik region dövlətlərinin gələcək əməkdaşlığının və xalqların rifahının stimuludur. Bununla əlaqədar NATO-nun baş katibi X.Solana üç Cənubi Qafqaz dövləti tərəfindən Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq müqavilələrinin imzalanmasını və Azərbaycanla-Ermənistanın birgə bəyanat qəbul etməsini yüksək qiymətləndirdi.(410)

Görüş zamanı Azərbaycan Respublikasının Şimali Atlantika İttifaqı ilə əməkdaşlığını təsdiqləyən və şərtləndirən "Prezentasiya sənədi" cənab X.Solanaya təqdim edilmişdir. Ölkəmizin hərbi struktur rəhbərlərinin də iştirak etdiyi həmin görüşdə Azərbaycanın gələcəkdə NATO ilə əməkdaşlığı barədə məsələlər müzakirə olunmuşdur.

Əgər Şimali Atlantika Əməkdaşlıq Şurasına Azərbaycanın 1995-ci ildə daxil olması NATO-ya Qafqazda münaqişəli məsələlərin həll edilməsində fəxri üzv statusu ilə iştirak etmək imkanı verirdisə, "Prezentasiya sənədi"nin təqdim edilməsi artıq respublikamıza NATO-nun beynəlxalq normalar əsasında öz təhlükəsizlik və müstəqillik məsələlərini fərdi qaydada, istədiyi taktiki yolla, müstəqil müəyyən etməyə və bu halda Şimali Atlantika blokunun müdafiəsinə nail olmaq imkanı verir.

Azərbaycan Prezidenti NATO baş katibini respublikamıza rəsmi səfərə də'vət etdi. Də'vət məmnuniyyətlə qəbul edildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996-cı il aprel ayının 21-dən 27-nə qədər davam edən Avropa ölkələrinə rəsmi səfəri zamanı bir sıra Qərb ölkələrinin yüksək dövlət orqanlarının rəhbərləri ilə əhəmiyyətli görüşlər keçirilmiş, müstəqil xarici diplomatiyamızın tarixinə yeni uğurlu səhifələr yazılmışdır. (411)



1997-ci ilin əvvəlində NATO baş katibi Bakıya səfərə gəldi. Sözsüz ki, bu, NATO-Azərbaycan əlaqələrinə xüsusi təkan verdi və NATO-nun ölkəmizlə bağlı niyyətlərinin ciddi olduğunu sübut etdi. X.Solana səfər ərəfəsində jurnalistlər qarşısında bəyan etmişdir ki, Azərbaycan Prezidenti ilə görüş zamanı Dağlıq Qarabağ probleminin həlli yollarının araşdırılmasına sə'y göstəriləcək, Azərbaycanın hərbi potensialının beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində bə'zi danışıqlar aparılacaq. NATO baş katibi həmçinin blok ölkələrinin Madrid sammitinə qədər Qafqaz dövlətləri ilə əməkdaşlığın genişləndirilməsi imkanlarını, NATO-nun genişlənməsi əleyhinə Rusiyanın mövqeyinə region ölkələrinin münasibətini öyrənmək istəyirdi.

Səfər ərəfəsində X.Solana Azərbaycan mətbuatı üçün xüsusi müsahibə ilə çıxış etdi. Müsahibədə yeni Avropada NATO-nun rolu, NATO-Azərbaycan əlaqələrinin inkişafı, "Sülh naminə tərəfdaşlıq" proqramında iştirakın perspektivləri və əhəmiyyəti dərindən açıqlanmışdır.(412) X.Solananın fikrinə görə, "Avropa" anlayışı coğrafi mövqe ilə deyil, dəyərlərlə müəyyən edilir. O, bildirdi ki, NATO hazırda Avropa təhlükəsizliyi sahəsində əməkdaşlığın hərəkətverici qüvvəsinə çevrilmiş və siyasi dəyişikliklərin katalizatoru olmuşdur. İndi NATO təhlükəsizliyə yeni mövqedən yanaşır və bu mövqe həmin təşkilata daxil olmayan ölkələrlə və digər tə'sisatlarla əməkdaşlıq prinsipinə əsaslanır. Şimali Atlantika Əməkdaşlığı Şurası elə bir forumdur ki, burada NATO və keçmiş Varşava müqaviləsi ölkələri ümumi təhlükəsizlik məsələlərini müzakirə edə bilərlər.

Müsahibədə daha sonra göstərilir ki, NATO-nun siyasətində edilmiş dəyişikliklər bu təşkilatın hərbi strukturlarında mühüm yeniliklərə və onun ümumi hərbi potensialının azalmasına gətirib çıxarmışdır. NATO ölkələri öz hərbi xərclərini azaldaraq və silahlı qüvvələrini xeyli ixtisar edərək, onların ümumi konfiqurasiyasını dəyişdirmiş və hərbi hissələrini kiçik, lakin sülhün qorunması sahəsində yeni vəzifələri böyük müvəffəqiyyətlə yerinə yetirməyə qadir daha çevik bölmələrə çevirmişdir. Avropada yerləşdirilmiş Amerika əsgərlərinin sayı 60%, NATO nüvə qüvvələri 80%-dən çox

ixtisar olunmuşdur.

X.Solana belə bir fikri xüsusi vurğulayır ki, "NATO öz təkamülünü davam etdirməlidir. Bu təşkilat NATO-ya daxil olmayan ölkələrlə əl aqələri daha da fəallaşdırmaq və birgə tədbirlərin potensialını daha da gücləndirmək vasitəsi ilə daha geniş Avropa təhlükəsizliyini tə'min etmək bacarığını nümayiş etdirməlidir".

X.Solananın müsahibəsində Avropanın təhlükəsizliyi baxımından hazırlanmış "Sülh naminə tərəfdaşlıq" proqramına da yüksək qiymət verilmişdir. Qeyd olunur ki, mövcud olduğu üç il ərzində "Sülh naminə tərəfdaşlıq" Avropa tarixində ən uğurlu hərbi əməkdaşlıq proqramına çevrilmişdir.

NATO baş katibi blokla əməkdaşlıq məsələsində Rusiyanın mövqeyinə toxunaraq göstərir ki, əgər Rusiya məhdud təcridçilik və düşmənçilik çərçivəsində qapanıb qalsa, bundan Avropa təhlükəsizliyi ancaq ziyan çəkə bilər. "Biz istəyirik ki, Rusiya Avropada passiv kənar müşahidəçi deyil, bu qitənin təhlükəsizliyinə öz töhfəsini verən fəal və məs'ul iştirakçı olsun".

Azərbaycanın beynəlxalq vəziyyətinə və yeritdiyi xarici siyasətə toxunan X.Solana xüsusi vurğulamışdır ki, Azərbaycan hazırda bey nəlxalq aləmdə getdikcə daha aydın nəzərə çarpan müstəqil siyasət yeridir. Azərbaycan 1994-cü ilin mayında "Sülh naminə tərəfdaşlıq" proqramına qoşularaq, Avro-Atlantika zonasında digər ölkələr və təşkilatlarla dostluq əlaqələrini qətiyyətlə inkişaf etdirmək niyyətində olduğunu nümayiş etdirmişdir. NATO-nun bu ölkə ilə münasibətləri getdikcə genişlənərək əməli əməkdaşlıq, e'timad və nailiyyətləri daha da inkişaf etdirmək ruhu aşılanmış əlaqələrə çevrilmişdir. (413)

1997-ci il fevralın 13-də Bakıda NATO-nun baş katibini səmimiyyətlə salamlayan Azərbaycan Prezidenti Heydər Əliyev qeyd etdi ki, Azərbaycan proqram çərçivəsində öz üzərinə götürdüyü öhdəlikləri əsasən yerinə yetirir, lakin hələ çox iş görmək lazımdır. O, xüsusi vurğuladı ki, Ermənistanla münaqişə vəziyyəti ölkə qarşısında duran problemlərin sür'ətli həllinə mane olur. Azərbaycan Respublikasının Prezidenti bir daha bəyan etdi ki, Azərbaycan münaqişənin sülh yolu ilə həllinə çalışır və Lissabon sammitində e'lan olunmuş prinsipləri əsas götürür (414).



NATO baş katibi təhlükəsizlik probleminin həm Azərbaycan, həm də NATO üçün çox mühüm əhəmiyyətə malik olduğunu xüsusi vurğulamaqla bərabər, əmin olduğunu bildirdi ki, ölkəmizlə əməkdaşlıq "Tərəfdaşlıq" proqramı çərçivəsində gələcəkdə davam və daha da inkişaf edəcək. (415)

Səfər zamanı NATO baş katibi Azərbaycan Respublikasının Milli Məclisində NATO qarşısında duran yeni vəzifələr və Azərbaycan Respublikası ilə NATO arasında qarşılıqlı əlaqələrin perspektivləri haqqında çıxış etdi. O, bildirdi: "Bu il biz Avropa təhlükəsizliyinin yeni arxitekturasının qurulması üçün addımlar atırıq və bu arxitekturada Azərbaycanın yerini hiss edirik". O, qeyd etdi ki, Qafqaz Avropa təhlükəsizliyinin tə'min edilməsinin mühüm hissəsidir.(416)

Azərbaycan-NATO əlaqələrinin mahiyyəti və xüsusiyyətlərinə qiymət vermək baxımından 1997-ci ilin iyulunda Prezident Heydər Əliyevin Avropa-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammitindəki çıxışı xüsusi əhəmiyyət kəsb edir. Həmin çıxışında Azərbaycan Prezidenti yeni müstəqil dövlətlərlə NATO arasında əməli dialoqa və əməkdaşlığa böyük əhəmiyyət verdiyini xüsusi vurğulayaraq qeyd etmişdir ki, bölgədə silahlı münaqişənin aradan qaldırılmasında Azərbaycan həmçinin NATO-nun və Avropa-Atlantika Əməkdaşlıq Şurasının fəal roluna ümid bəsləyir. Onlar Qafqazdakı silahlı münaqişələri kənardan müşahidə etməməlidirlər. Nəzərə almaq lazımdır ki, bu münaqişələr ümumavropa təhlükəsizliyi üçün də ciddi təhlükə yaradır. Prezident bir daha bildirmişdir ki, Azərbaycan Respublikası Avropa-Atlantika Əməkdaşlıq Şurasının yaradılmasını alqışlayır və buna NATO ilə tərəfdaş ölkələr arasında siyasi məsləhətləşmələrin, fəal əməkdaşlığın mühüm mexanizmi kimi baxır.(417)

ABŞ-a səfəri zamanı Heydər Əliyev iyulun 27-də Nyu-Yorkda NATO-nun baş katibi X.Solana ilə görüşündə bu fikri bir daha təsdiq etmişdir. "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan Azərbaycan ilə NATO arasında son illər yaranmış əlaqələrdən razılıqla bəhs edən baş katib əmin olduğunu bildirdi ki, bu münasibətlər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində daha da möhkəmlənəcəkdir.(418)

X.Solana Azərbaycanın müstəqilliyinin qorunub saxlanması,

ölkədə demokratik proseslərin, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri müsbət qiymətləndirmişdir.

Azərbaycan son bir neçə ildə NATO-nun cənub cinahı olan Türkiyə ilə də hərbi sahədə xüsusi əlaqələr qurub.

Bütün bunlar Azərbaycanın xarici siyasətində Qərb təmayülünün təkcə iqtisadi və siyasi məsələlərlə məhdudlaşmayıb, həm də hərbi sahəni əhatə etdiyini göstərir.

"Sülh naminə tərəfdaşlıq" proqramının Azərbaycanda real şəkildə həyata keçirilməsinə 1996-cı ildə başlandı. Azərbaycan Müdafiə Nazirliyi təmsilçilərinin NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində keçirilən tə'lim məşqlərində və müxtəlif seminarlarında iştirakı bu sahədə ilk addımlardır. Bundan başqa, NATO mütəxəssisləri 1998-ci ilin yazında Bakıda Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin və Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndələri ilə birgə boru kəmərlərinin təhlükəsizliyi məsələlərinə dair seminar keçirilməsini də planlaşdırmışlar.

NATO ilə hərbi sahədə əməkdaşlıq 1997-ci ildə daha da intensivləşdirilmişdir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri 1997-ci il iyulun 28-dən avqustun 8-dək ABŞ-ın Virciniya ştatının Norfolk şəhərində NATO-nun "Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində sülhməramlı tə'limlərdə iştirak etmişlər.(419)

1997-ci il dekabrın əvvəllərində Azərbaycanın müdafiə naziri S.Əbiyevin rəhbərlik etdiyi nümayəndə hey'əti NATO üzvü və tərəfdaş dövlətlərin sessiyasında iştirak etmişdir.(420)

Sessiyada NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əlaqələrin və əməkdaşlığın dərinləşməsi, problemlərə baxılması və qərarların qəbul olunması, tərəfdaş dövlətlər üçün yeni vəzifələrin müəyyənləşdirilməsi məsələləri müzakirə edilmişdir.

Azərbaycan-NATO əməkdaşlığı ictimai təşkilatların da xətti ilə davam etdirilir. 1997-ci ilin iyulunda "NATO və Azərbaycan: Koordinasiya və əməkdaşlıq mərkəzi" yaradıldı. Təşkilatın məqsədi NATO ilə tərəfdaşlıq proqramı çərçivəsində Azərbaycan ictimaiyyətinin NATO haqqında bilik və təsəvvürlərini



genişləndirmək, ictimai rə'yi uyğun istiqamətdə formalaşdırmaq, Azərbaycanın NATO ilə əməkdaşlığı prinsiplərini öyrənmək, NATO-nun genişləndirilməsinin Qafqazda sülhyaratma proseslərinə tə'sirini araşdırmaqdır. Təşkilat NATO baş katibi X.Solana ilə əlaqə yaratmış, NATO-nun Azərbaycan təmsilçisi funksiyasını yerinə yetirən *Türkiyə səfirliyi* ilə idarə hey'əti üzvlərinin görüşünü keçirmişdir.

NATO strukturlarının Qafqaza, Yaxın və Orta Şərqə doğru irəliləməsi Rusiya tərəfindən qısqanclıqla qarşılanır, onun təhlükəsizliyinə qorxu kimi qiymətləndirilir.

Rusiyanın bə'zi dairələri müxtəlif vasitələrlə NATO-Qafqaz əməkdaşlığına mane olmağa çalışırlar. Xüsusilə MDB iştirakçısı olan dövlətlərdən istifadə olunmağa cəhd göstərilir, müvafiq bəyanatların qəbul edilməsi və praktiki addımlar üçün sə'ylər göstərilir. NATO-nun Şərqə doğru genişlənməsinə qarşı Rusiyanın hazırladığı bəyanata Azərbaycanın qoşulmaması onun Avropa siyasi dəyərlərinə sədaqətini sübut edir. Lakin Rusiyanın imkanları məhduddur. Rusiyanın daxili siyasi vəziyyəti, siyasi və iqtisadi böhran onun arzularının reallaşma imkanlarını heçə endirir. Digər tərəfdən, Rusiya da 1994-cü ildə bu proqramın çərçivə sənədinə qoşulmuşdur. NATO sülhün və təhlükəsizliyin qorunmasında mühüm rol oynadığı halda, Rusiya özü haqqında bu baxımdan müsbət imic formalaşdıra bilməmişdir.

Lakin qlobal siyasi vəziyyətdə baş verən dəyişikliklərdən asılı olaraq, Rusiyanın NATO ilə münasibətlərinin xarakteri dəyişə bilər. Buna görə də Azərbaycan diplomatiyası Rusiyanın və başqa dövlətlərin NATO ilə münasibətlərini, onların mövqeyini diqqətlə öyrənir və öz siyasi fəaliyyətini buna uyğunlaşdırır.

Qeyd etmək lazımdır ki, NATO ilə münasibətlər məsələsində Qafqaz dövlətlərinin mövqeləri fərqlidir. Azərbaycan və Gürcüstan NATO ilə əməkdaşlıqda və onun proqramlarında fəal iştirak etdikləri halda, Ermənistan bu əlaqələrə xüsusi maraq göstərmir, Rusiya ilə hərbi əməkdaşlığa üstünlük verir, alyansın Şərqə doğru genişlənməsinin əleyhinə çıxış edir.(421)

Azərbaycanın NATO-ya formal şəkildə daxil olması yaxın

gələcəkdə çətin ki, geosiyasi reallığa çevrilsin. Fikrimizcə, Azərbaycanın NATO-ya daxil olması onun xarici siyasəti üçün yaxın perspektiv deyildir. NATO Qafqaz dövlətləri içərisində Azərbaycanı xüsusi ölkə hesab edir, belə ki, Gürcüstan və Ermənistandan fərqli olaraq Azərbaycan ərazisində Rusiyanın hərbi bazaları yoxdur. Lakin Qafqazın sərt geosiyasi iqlimi üzündən Azərbaycanın NATO-ya daxil olması yaxın zamanda mümkün deyildir, çünki "yaxın qonşularımız olan İran və Rusiya bu bloka öz münasibətlərini hələlik tam aydınlaşdırmayıb" (422).

Azərbaycanın NATO-ya qəbul edilməsində maraqlı olmayan ölkələr mövcud olsa da, bu əsas maneə deyildir. Alyansın nizamnaməsində deyilir ki, "digər ölkələrə ərazi iddiaları olan və ya digər ölkələr tərəfindən ərazi iddialarının obyekti olan ölkələr bloka qəbul edilə bilməz". Bu isə bugünkü mərhələdə ən əsas maneədir.

Lakin bu reallıqlara baxmayaraq, Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması nəticəsində NATO ölkələri ilə siyasi, hərbi, mədəni, humanitar əlaqələrinin inkişaf etdirilməsi üçün geniş imkanlar açılmışdır. Bir tərəfdaş olaraq, Azərbaycan Şimali Atlantika İttifaqının əsas məqsədinə-bütün Avroatlantika zonasında sülhün və sabitliyin möhkəmləndirilməsinə öz sadiqliyini nümayiş etdirir.

Azərbaycanın NATO ilə əməkdaşlıqdan son məqsədi bilavasitə alyansın fəal iştirakı ilə yaradılacaq hər hansı e'tibarlı təhlükəsizlik sistemində özünə yer tapmaqdan ibarətdir.

Lakin bu sahədə geniş imkanların açılması yalnız işin başlanğıcıdır. Əsas məsələ həmin imkanlardan nə dərəcədə bəhrələnmək bacarığından asılı olacaqdır. Bunun üçün əsas müvəffəqiyyət NATO ilə əməkdaşlıq prosesində Azərbaycanı siyasət, iqtisadiyyat, elm, mədəniyyət və hərbi sahələrdə kimin və necə təmsil etməsindən asılı olacaq. Əgər Azərbaycanı iste'dadlı, təşkilatçılıq qabiliyyəti olan, vətənpərvər mütəxəssislər təmsil etsələr, onda NATO-nun imkanlarından maksimum istifadə etmək olar.

Azərbaycanda demokratik islahatlar həyata keçirildiyinə görə onun NATO-nun strateji proqramlarına qoşulması təbii hesab



olunmalıdır. Çünki Azərbaycanın dövlətçilik maraqları və demokratiyanın inkişafı ilk növbədə yeni texnologiyaların mənimsənilməsi, vətəndaş cəmiyyətinin əsaslarının möhkəmləndirilməsi, bazar iqtisadiyyatı mexanizmlərinin yaradılması işində NATO-nun və NATO üzvü olan ayrı-ayrı dövlətlərin köməyinə ehtiyac yaradır.

Bu məqsədlərə nail olmaq üçün həmçinin qeyri-hökumət təşkilatlarının imkanlarından və potensialından da geniş istifadə olunmalıdır. Həmkarlar təşkilatları, ekologiya, səhiyyə təşkilatları, elmi-mədəni və xeyriyyə cəmiyyətləri bu işdə mühüm rol oynaya bilər.

Beləliklə, NATO bütün yeni və müstəqil dövlətlərə, o cümlədən Azərbaycana demokratiyanın inkişafı, hüquqi dövlət qurulması, bazar iqtisa diyyatı yaradılması işində perspektivli imkanlar təklif edir. "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etməklə Azərbaycan Respublikası dövlət müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, beynəlxalq birliyə qoşulmaq, demokratik, iqtisadi islahatları müvəffəqiyyətlə aparmaq üçün əlavə imkan və vasitələr əldə etmişdir. Respublikanın intellektual, kadr potensialı, iqtisadi bazası, geosiyasi mövqeyi bu imkanların reallaşması üçün geniş perspektivlər açır.

# Nəticə

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası istiqlaliyyətinin ilk aylarında bir sıra dövlətlər tərəfindən rəsmi surətdə tanınaraq beynəlxalq hüququn subyektinə çevrildi.

Dünya birliyinin tamhüquqlu üzvü olmağa və beynəlxalq münasibətlər sistemində layiqli yer tutmağa çalışan müstəqil Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən biri ölkənin milli maraqlarını, geosiyasi vəziyyətini, strateji mənafelərini, iqtisadi potensialını, xarici dövlətlərin regionda kəsişən maraqlarını və s. amilləri nəzərə alan xarici siyasət konsepsiyasını işləyib hazırlamaqdan və həyata keçirməkdən ibarət idi. Lakin mürəkkəb siyasi, iqtisadi, sosial və s. daxili problemlərlə üzləşən, xarici təzyiqlərə, o cümlədən Ermənistanın hərbi təcavüzünə mə'ruz qalan Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində hərtərəfli düşünülmüş, çevik, və ardıcıl xarıci siyasət xəttinin həyata keçirilməsini tə'min edə bilmədi.

Əgər müstəqillik dövrünün ilk aylarında Azərbaycan rəhbərliyi köhnə ətalətin tə'siri altında Rusiyanın yedəyində sürünməyə üstünlük verirdisə, sonrakı dövrdə reallığa söykənməyən subyektiv baxışların tə'siri ilə kəskin şəkildə əks qütbə meyl edir və yalnız Türkiyənin himayəsinə sığınmağa çalışaraq, yenə də Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi vəzifələrinə cavab verməyən sistemsiz, passiv və kəsərsiz xarici siyasət xəttini davam etdirirdi.

Azərbaycanın dünya birliyinə inteqrasiya olunması və öz maraqlarını bilavasitə təmsil etməsi baxımından Avropa dövlətləri və ABŞ-la əlaqələrin yaradılıb inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb etdiyinə görə bu sahədə fəaliyyət gənc Azərbaycan dövlətinin xarici siyasətində əsas və aparıcı istiqamətlərdən birini təşkil etməli idi.

Lakin 1991-1993-cü ilin birinci yarısında Azərbaycan hökuməti obyektiv gerçəkliyi, dövlətçilik mənafelərini tam əks etdirməyən, birtərəfli, qeyri-prinsipial və qeyri-ciddi xarici siyasət xətti yürüdərək, respublikamızın öz maraqlarına uyğun surətdə beynəlxalq aləmdə təmsil olunması üçün lazımi şərait yaradılmasına nail olmadı. Nəticədə beynəlxalq münasibətlər sisteminin nizamını müəyyənləşdirən aparıcı Qərb dövlətləri ilə Azərbaycan arasında diplomatik münasibətlərin mövcud olmasına baxmayaraq, araşdırılan materiallardan göründüyü kimi, 1991-1993-cü illərdə zəruri hüquqi-normativ bazaya malik normal qarşılıqlı münasibətlərin qurulması və inkişaf etdirilməsi sahəsində heç bir əməli addım atılmamışdı. Bəsit taktiki vasitələr və təsadüfi bəyanatlar üzərində qurulmuş xarici siyasət fəaliyyəti Azərbaycan dövlətçiliyinə və onun beynəlxalq nüfuzuna güclü zərbə vurmuşdu.

1993- cü ilin ikinci yarısında respublikanın ictimai-siyasi həyatında baş verən dəyişikliklər, sabitliyin bərqərar olması, siyasi və iqtisadi sahələrdə islahatların ardıcıl şəkildə aparılması üçün müvafiq addımların atılması xarici siyasətin də ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. Məhz bu dövrdən Azərbaycanın xarici siyasət fəaliyyətində mühüm pozitiv dəyişikliklər baş verməyə başlamışdır.

**Ən əvvəl,** müstəqil Azərbaycan dövlətinin milli mənafeyinə xidmət edən, dünyanın bütün ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığı nəzərdə tutan, beynəlxalq aləmdə ölkəmizin yerini, rolunu və tə'sır gücünü müəyyən edən **vahid xarici siyasət strategiyası formalaşdırılmışdır.** Xarici siyasət strategiyasına və dövlətlərarası beynəlxalq münasibətlərin konkret məkan və zaman çərçivəsində baş verən cari problemlərinə uyğun, çevik manevr və səmərəli gedişlərə əsaslanan taktiki fəaliyyət proqramı hazırlanmış və müvəffəqiyyətlə həyata keçirilmişdir.

**Digər tərəfdən, qısa bir vaxtda Azərbaycan ətrafında yaradılmış informasiya blokadası yarılmış,** onun geosiyasi vəziyyəti, daxili ictimai-siyasi durumu, xarici siyasətinin mahiyyəti və əsasları haqqında dünyada ictimai fikrin formalaşdırılması sahəsində müsbət dəyişikliklərə nail olunmuş, dövlətimiz və



xalqımızla bağlı ermənilərin və digər bədxah qüvvələrin yaydığı yanlış mülahizə və fikirlərə güclü zərbə vurulmuşdur. Belə ki, Azərbaycanın 1991-1993-cü illərdə xarici fəaliyyət sahəsində buraxdığı səhvlərdən və mövcud boşluqdan istifadə edən ermənilər və onların beynəlxalq havadarları respublikamızı bütün dünyada insan hüquqlarını tapdalayan, qonşu dövlətlərlə, beynəlxalq aləmlə qeyri-sivil normalar əsasında davranan, islam fundamentalizminə əsaslanan, regionda beynəlxalq prinsip və normalara məhəl qoymadan sülhü pozan, irticaçı siyasət yeridən və s. dövlət kimi təqdim etmiş və onun beynəlxalq imicinin müsbət yönümdə formalaşmasına mane olmuşlar. Məhz 1993-cü ilin sonundan başlayaraq bu boşluq və səhvlər aradan qaldırılmış, Azərbaycan həqiqətləri bütün dünyaya yayılmış və dünya dövlətləri ilə qarşılıqlı faydalı əlaqələrin qurulması üçün əlverişli mühit yaradılmışdır. Müstəqil Azərbaycan dövlətinin həm daxildə, həm də xarici fəaliyyətdə rəhbər tutduğu prinsiplər, həyata keçirdiyi siyasət və onun beynəlxalq hüquq normalarına və prinsiplərinə tam uyğunluğu 1993-1996-cı illərdə bütün beynəlxalq və regional təşkilatların təşkil etdikləri tədbirlərdə, ayrı-ayrı dövlətlərə edilən səfərlər zamanı keçirilən görüşlərdə geniş izah edilmiş və respublikamız haqqında formalaşmış mənfi fikirlər tədricən aradan qaldırılmışdır.

**Bundan başqa,** Azərbaycan dövləti ölkəmizin müstəqilliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün beynəlxalq aləmdə müdafiə olunmasına və siyasi-iqtisadi sahədə sıx inteqrasiyasına əhəmiyyətli tə'sir göstərə bilən **Avropa dövlətləri və ABŞ-la bərabərhüquqlu, qarşılıqlı faydalı və hərtərəfli münasibətlər yaratmaq sahəsində mühüm uğurlar qazanmışdır.**

İlk illərdən fərqli olaraq, 1993-1996-cı illərdə Avropanın inkişaf etmiş və qüdrətli dövlətləri hesab olunan Fransa, Böyük Britaniya, Almaniya, Belçika, Norveç, Bolqarıstan və Rumıniya ilə dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında ikitərəfli müqavilələr bağlanmış, beynəlxalq aləmdə onların hərtərəfli dəstəyinə nail olunmuşdur. Hazırda bu dövlətlərlə Azərbaycanın əlaqələri bütün sahələr üzrə strateji tərəfdaşlıq istiqamətində inkişaf edir. ATƏT-in 1996-cı ilin dekabrında keçirilən Lissabon sammitində Ermənistan-Azərbaycan

münaqişəsi və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı respublikamızın ədalətli mövqeyini bütün Avropa dövlətləriinin dəstəkləməsi Azərbaycan diplomatiyasının üç ildə nail olduğu böyük uğurun əyani sübutu idi.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətində Amerika Birləşmiş Ştatları ilə əlaqələr həmişə böyük əhəmiyyət kəsb etmişdir. Dünyada müstəqil dövlətlərin, insan haqlarının, demokratik prinsiplərin və sivilizasiyalı dövlətlərarası münasibətlərin bərqərar olmasında fövqəl'adə xidmətləri və rolu olan bu dövlətlə əlaqələrin inkişaf etdirilməsinə və dostluq münasibətlərinin yaradılmasına müstəqillik yolu tutmuş hər bir dövlət böyük sə'y göstərir. Mürəkkəb coğrafi-siyasi regionda, qonşu dövlətlər tərəfindən müstəqil dövlətçilik meyllərinə kəskin qısqanclıq şəraitində hüquqi demokratik dövlət quruculuğunu həyata keçirən Azərbaycan xalqının ABŞ kimi fövqəl dövlətlə dostluq münasibətlərinə daha böyük ehtiyacı vardır.

Bu sahə ilə bağlı tədqiqata cəlb edilmiş sənədlər göstərir ki, 1991-1993-cü illərdə ABŞ-Azərbaycan münasibətlərində də Azərbaycan diplomatiyasının buraxdığı səhvlər və güclü erməni lobbisinin böyük tə'siri ilə yaranmış müəyyən soyuqluq mövcud olmuş və anlaşılmazlıq yaranmışdır. Lakin 1994-cü ildən başlayaraq bu sahədə görülən işlər tədricən münasibətlərin tənzimlənməsinə, mövcud anlaşılmazlığın aradan qaldırılmasına şərait yaratmış, 1995-1996-cı illərdə aparılan qətiyyətli və məqsədyönlü siyasət nəticəsində bu fövqəl dövlət 1997-ci ildə Azərbaycanın dünyada ən əsas strateji tərəfdaşlarından və dostlarından birinə çevrilmişdir.

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyəti nəinki ABŞ-ın diqqətini Qafqazda və Azərbaycanda gedən proseslərə, münaqişəli məsələlərin aradan qalxmasına cəlb etmiş, eyni zamanda, respublikamızın müstəqilliyi, ərazi bütövlüyü və təhlükəsizliyi problemlərini ABŞ-ın strateji və iqtisadi maraqları ilə tam uzlaşdıra bilmişdir. 1997-ci ilin avqustunda ABŞ-ın paytaxtı Vaşinqtonda iki ölkə prezidentləri arasında keçirilən görüşlər, aparılmış danışıqlar və imzalanmış mühüm dövlətlərarası sənədlər aparılan uğurlu xarici siyasətin müsbət nəticələrinin təzahürü idi.

Beləliklə, Azərbaycan dövləti bəhs olunan dövrdə Avropa ölkələri



və ABŞ-la hərtərəfli dövlətlərarası əlaqələr qurmaq və inkişaf etdirmək üçün möhkəm hüquqi-normativ bazaya, ortaq və qarşılıqlı maraqlara əsaslanan dostluq və tərəfdaşlıq münasibətləri yarada bilmişdir. Hazırda Azərbaycanın bu ölkələrlə həm ikitərəfli, həm də çoxtərəfli əlaqələri dövlətlərarası və beynəlxalq münasibətlərin bütün sahələri üzrə dinamik inkişaf edir. Bu da öz növbəsində Azərbaycana dünya dövlətləri cərgəsində özünəlayiq önəmli yer tutmaq, beynəlxalq, regional və dövlətlərarası məsələlərin həllində əhəmiyyətli rol oynamaq imkanı qazandırmışdır.

Məhz bu zəmin əsasında Azərbaycan Respublikası 1997-ci ildə ABŞ və Avropa ölkələri ilə öz əlaqələrini daha da genişləndirməyə nail olmuşdur. 1997-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ, Fransa, Polşa və İtaliyaya rəsmi səfərləri və həmin səfərlərin gedişində dövlətlərarası siyasi, iqtisadi və mədəni əməkdaşlığa dair *mühüm sənədlərin* imzalanması, Azərbaycan-ABŞ, *Azərbaycan-Polşa,* Azərbaycan-İtaliya münasibətlərinin *hüquqi-normativ bazasının yaradılması* Azərbaycanın beynəlxalq münasibətlər *sistemində yüksək nüfuz qazanmasını bir daha təsdiq etmişdir.*

1993-1996-cı *illərdə dünya siyasətinin* və *planetimizin qlobal məsələlərinin həll olunduğu nüfuzlu* ***beynəlxalq və regional təşkilatlarla hərtərəfli əlaqələr qurulmuşdur.*** Azərbaycan qısa müddətdə Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, Türk Dövlətləri Birliyinin, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Valyuta Fondunun, Ümümdünya Bərpa və İnkişaf Bankının üzvü olmuşdur. Bundan başqa, bu illərdə NATO, Avropa Şurası, Avropa Birliyi, Avropa Parlamenti və başqa beynəlxalq və regional təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yaratmışdır.

Qərb dövlətləri ilə çoxşaxəli əlaqələrin inkişafına, təhlükəsizlik problemlərinin həll edilməsinə və s. Azərbaycanın ATƏT və NATO ilə yaradılmış fəal münasibətləri yeni təkan vermişdir. Araşdırmanın göstərdiyi kimi, Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin aradan qaldırılması sahəsində ATƏT-in

Budapeşt və Lissabon sammitlərinin qəbul etdiyi qərarlar, irəli sürdüyü prinsiplər, bəhs olunan dövrdə, eləcə də sonrakı illərdə bu istiqamətdə aparılan intensiv danışıqlar, verilən konkret təkliflər məsələnin beynəlxalq hüquq normalarına uyğun ədalətli həlli üçün geniş zəmin yaradır.

**1993-1996-cı illərdə Azərbaycanın daxilində gedən proseslər, həyata keçirilən islahatlar və dünya standartlarına uyğun hüquqi dövlət quruculuğu prosesi onun xarici siyasət sahəsində qazandığı uğurları daha möhkəmləndirmişdir.** Xüsusən, dövlətlərarası və dövlətdaxili münasibətləri tənzimləyən hüquqi normativ sənədlərin Avropa və dünya standartlarına uyğunlaşdırılması sahəsində ölkəmizdə həyata keçirilən mühüm tədbirlər Azərbaycanın hüquqi, sivil və dünyəvi bir dövlət kimi Avropa və dünya birliyinə inteqrasiya olunmasına xüsusi təkan vermişdir.

**Bəhs olunan dövrdə xaricdə yaşayan azərbaycanlıların mütəşəkkiliyinin artması və respublikamızın qayğıları ilə yaşayan azərbaycanlı diasporunun formalaşması istiqamətində də mühüm işlər görülmüşdür.** Azərbaycan Prezidenti Heydər Əliyevin bütün xarici səfərləri zamanı respublikadan kənarda yaşayan soydaşlarımızla müntəzəm olaraq görüşlərin keçirilməsi, Azərbaycanda gedən proseslər haqqında ətraflı mə'lumatın çatdırılması, dövlətimizin milli mənafeləri naminə səmərəli fəaliyyətin təşkil olunması üçün dəyərli məsləhətlərin verilməsi Azərbaycan diasporunun formalaşmasında və daha fəal mövqe tutmasında böyük əhəmiyyət kəsb etmişdir.

Bütün bunlar heç də müstəqil Azərbaycan dövlətinin xarici siyasətində Qərb istiqamətinin problemsiz olması haqqında illüziya yaratmamalıdır. Azərbaycan gənc dövlətdir və onun iqtisadi, ictimai-siyasi, mədəni həyatının bütün sahələrində olduğu kimi, xarici siyasəti və beynəlxalq vəziyyətində də çoxlu həll edilməmiş problemlər mövcuddur. Bu çətinlikləri aradan qaldırmaq məqsədilə Azərbaycan diplomatiyası keçən dövr ərzində əldə edilən təcrübəni müntəzəm təhlil etməli və öz fəaliyyətində bir sıra cəhətləri daimi diqqət mərkəzində saxlamalıdır.

**Əvvəla,** Azərbaycanın xarici siyasət konsepsiyası bütövlükdə, Qərb dövlətləri ilə münasibətlərin nəzəri və praktiki əsasları isə ayrılıqda daha da təkmilləşdirilməli, beynəlxalq aləmdə, Avropada və regionda mövcud olan reallıqlar, dəyişikliklər və hadisələrin tendensiyası operativ şəkildə təhlil edilməli və xarici siyasət fəaliyyətində nəzərə alınmalıdır. Azərbaycanın xarici siyasət strategiyası və taktikasının çevik və mükəmməl icra mexanizmləri yaradılmalıdır. Xarici siyasətin əsas məqsədi, vəzifələri və prioritetləri elmi əsaslar üzərində qurulmalı, ölkənin həyati mənafelərini, Azərbaycanın strateji maraqlarını öyrənən, araşdıran və proqramlaşdıran strateji tədqiqat mərkəzi yaradılmalıdır. Bu mərkəz ölkənin milli təhlükəsizliyi, strateji maraqları və xarici siyasətinin qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı analitik tədqiqat aparmaq və proqnozlaşdırmaq funksiyasını öz üzərinə götürməlidir.

**İkincisi,** Azərbaycanın sülhsevər və ədalətli dövlət, e'tibarlı tərəfdaş, bəşər sivilizasiyasının bütün nailiyyətlərinə hörmətlə yanaşan, dünya dövlətləri ilə hərtərəfli inteqrasiyaya can atan, beynəlxalq hüquq normalarına dönmədən əməl edən dövlət olduğuna həm siyasi, həm də praktiki cəhətdən bütün Avropa və dünya dövlətlərində daha dərin inam aşılamaq məqsədilə beynəlxalq aləmdə informasiya yayımı və təbliğat işini daha da gücləndirmək lazımdır.

**Üçüncüsü,** beynəlxalq aləmin, regional münasibətlərin və respublikamızın özünün reallıqlarına uyğun çevik manevr etmə siyasəti davam etdirilməli, bu sahədə operativlik, uzaqgörənlik və ardıcıllıq tə'min edilməlidir. Dünya dövlətlərinin kəsişən və toqquşan maraqlarından milli dövlətçilik mənafelərinin qorunması üçün maksimum istifadə olunmalıdır.

**Dördüncüsü,** xarici ölkələrdə azərbaycanlı diasporunun yenicə qoyulmuş bünövrəsi daha da möhkəmləndirilməli, müxtəlif ölkələrdəki azərbaycanlı cəmiyyətlərinin fəaliyyəti əlaqələndirilməli və Azərbaycan dövlətçiliyi naminə səmərəli fəaliyyət göstərmələri üçün respublikamızla qarşılıqlı münasibətlərin gücləndirilməsinə diqqət artırılmalıdır. Bu sahədə bütün qüvvələrin səfərbərliyə alınmasına daimi diqqət yetirilməlidir.

**Nəhayət,** Azərbaycanın ərazi bütövlüyü və müstəqil dövlətçilik maraqları ilə bağlı məsələlərdə möhkəm və prinsipial iradə, əzmkarlıq, bütün dünya dövlətlərinə ölkənin tutduğu müstəqillik yolunun əbədi və dönməz olduğuna dair Azərbaycan xalqının qəti mövqeyi bundan sonra da nümayiş etdirilməlidir.

## Əlavə

# Azərbaycanın Avropa dövlətləri və ABŞ-la münasibətlərinə dair hüquqi-normativ sənədlərin siyahısı:

### Azərbaycan Respublikası-ABŞ:

1. Amerika-Azərbaycan Münasibətləri Haqqında Birgə Bəyanat - 1 avqust 1997

2. Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Sərmayə Qoyuluşunun Qarşılıqlı Qorunması və Təşviq Edilməsi haqqında Müqavilə - 1 avqust 1997

3. Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barədə Birgə Bəyanat - 31 iyul 1997

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında Bəyanat - 31 iyul 1997

5. Layihələrin təşviqinə dair baş saziş

Azərbaycan Respublikasının Hökuməti, Azərbaycan Respublikasının Milli Bankı və Amerika Birləşmiş Ştatlarının ixrac-idxal Bankı- 31 iyul 1997

***

### Azərbaycan Respublikası və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı:

1. Azərbaycan Respublikası və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamə - 23 fevral 1994

2. Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq haqqında Saziş - 23 fevral 1994

3. Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında hava daşımaları haqqında Saziş - 23 fevral 1994

4. Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında energetika sahəsində Memorandum - 23 fevral 1994

5. Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında ikiqat vergiqoymanın aradan qaldırılması və əmlak və kapitaldan olan gəlirlərdən gəlir vergisinin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya - 23 fevral 1994.

6. Xarici siyasət idarələrinin əməkdaşlığı haqqında Memorandum - 23 fevral 1994.

7. Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında rabitə sahəsində qarşılıqlı anlaşma haqqında Memorandum - 23 fevral1994.

8. Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında məhdudlaşdırılmayan yerdəyişmə barədə Qarşılıqlı Anlaşma haqqında Memorandum

9. Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında investisiyaların təşviqi və qorunması haqqında Sazış - 4 yanvar 1995

10. Bütün dünyada neft və qaz ehtiyatlarının istismar edilməsi sahəsində əldə edilən təcrübə və praktikanın mübadilə edilməsi haqqında Britaniyanın Neft və Qaz Təchizatı Sənayesi adından hərəkət edən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Ticarət və Sənaye Nazirliyini təmsil edən Neft və Qaz layihələri və Təchizatı Ofisi ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Azneftkimmmaş Şirkəti arasında olan Anlaşma Moramnaməsi - 23 may 1995

11. Azərbaycan-Britaniya Ticarət və Sənaye Şurasının təsis edilməsi haqqında Anlaşma Memorandumu - 29 may 1995

12. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər Naziri, Parlament üzvü Malkolm Rifkindin Azərbaycan Respublikasına səfəri barədə mətbuat üçün Birgə Bəyanat

13. Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında gömrük orqanlarının qarşılıqlı inzibati yardım haqqında razılaşma Memorandumu - 7 iyul 1997



***

## Azərbaycan Respublikası - Fransa Respublikası:

1. Azərbaycan Respublikası və Fransa Respublikası arasında əməkdaşlıq haqqında Protokol - 3 noyabr 1993

2. Azərbaycan Respublikası və Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Müqavilə - 20 dekabr 1993

3. Azərbaycan ilə Fransa arasında hava əlaqələri haqqında Saziş Protokolu - 14 yanvar 1997

4. Azərbaycan ilə Fransa arasında mədəni əlaqələr haqqında Birgə Bəyannamə

5. Azərbaycan Hökuməti ilə Fransa Hökuməti arasında azad yerdəyişmə haqqında Saziş - 14 yanvar 1997

6. Azərbaycan Hökuməti, Fransa Hökuməti Birləşmiş Millətlərin"World Food Programme" proqramı və Qeyri-Hökumət humanitar təşkilatı "Ekilbr " arasında ərzaq yardımından əldə edilən ekvivalent fonda rəhbərlik haqqında Konvensiya - 28 noyabr 1997

7. Azərbaycan Respublikası və Fransa Respublikası arasında ərzaq yardımının göstərilməsi haqqında Saziş - 28 noyabr 1997

8. Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında ərzaq yardımından əldə edilən ekvivalent fondun tətbiqi haqqında Konvensiya - 28 noyabr 1997

9. Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında hava daşımaları haqqında Saziş

***

## Azərbaycan Respublikası - Almaniya Federativ Respublikası:

1. Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında münasibətlərin əsasları haqqında Birgə Bəyanat

2. Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əmkdaşlığı haqqında Saziş - 11 aprel 1995

3. Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında hava daşımaları haqqında Saziş - 27 iyul

1995

**4.**Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında alman hərbi qəbirləri barədə Saziş. 22 dekabr 1995

**5.**Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında mədəni əməkdaşlıq haqqında Saziş - 22 dekabr 1995

**6.**Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında investisiyaların təşviqi və qorunması haqqında Müqavilə - 22 dekabr 1995

**7.**Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Saziş (Layihə-''Bakı hava limanı : təcili yardım '') - 2 iyul 1996

**8.**Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında tədqiqatlar və mütəxəssislər fondunun yaradılması haqqında Saziş - 2 iyul 1996

**9.** Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında Sovet Sosialist Respublikaları İttifaqı və Almaniya federativ Respublikası arasında bağlanmış müqavilələrin qüvvədə qalması haqqında Protokol (Müqavilələrin qüvvədə qalması haqqında Protokol) - 2 iyul 1996

**10.** Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında malliyyə əməkdaşlığı haqqında (Layihə təcili yardım Bakı hava limanı 2 ''mütəxəssislər fondunun yaradılması'')

***

## Azərbaycan Respublikası - Norveç Krallığı:

**1.** Azərbaycan Respublikası və Norveç Krallığı arasında Birgə Bəyanat - 24 aprel 1994

**2.** Norveç Sənaye və Energetika Nazirliyi və Azərbaycan Respublikası Hökuməti arasında niyyət məktubu - 25 sentyabr 1996

**3.**Norveç Krallığı və Azərbaycan Respublikası arasında sərmayəni dəstəkləmə və qarşılıqlı müdafiə haqqında Razılaşdırılmış Protokol - 25 sentyabr 1996

**4.**Azərbaycan Respublikası Hökuməti və Norveç Krallığı Hökuməti arasında ikiqat vergiyə cəlb etməyə yol verilməməsi və gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya - 24 aprel 1996.



**5.**Azərbaycan Respublikası Hökuməti və Norveç Krallığı Sənaye və Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Memorandum - 21 noyabr 1994

**6.**Azərbaycan Respublikası Hökuməti və Norveç Krallığı Sənaye və Energetika Nazirliyi arasında energetika sahəsində 21 noyabr 1994-cü ildə Bakıda imzalanmış əməkdaşlıq haqqında Memorandumun həyata keçirilməsinə dair Protokol - 24 aprel 1996

***

## Azərbaycan Respublikası - Bolqarıstan Respublikası:

**1.**Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında dostluq münasibətləri və əməkdşlıq haqqında Müqavilə - 29 iyun 1995

**2.**Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında ticarət -iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş - 29 iyun 1995

**3.**Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında onların müvafiq əraziləri arasında və sərhədlərdən kənarda hava əlaqəsi haqqında Saziş - 29 iyun 1995

**4.**Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında sərnişin və yüklərin beynəlxalq avtomobil daşımaları haqqında Saziş - 29 iyun 1995

**5.**Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında mülki işlər üzrə hüquqi yardım haqqında Müqavilə - 29 iyun 1995

**6.**Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında təslim etmə haqqında Müqavilə - 29 iyun 1995

**7.**Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında cinayət işləri üzrə hüquqi yardım haqqında Müqavilə - 29 iyun 1995

**8.**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Bolqarıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol - noyabr 1997

***

## Azərbaycan Respublikası - Rumıniya:

**1.**Azərbaycan Respublikası və Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında Bəyannamə - 2 iyul 1995

**2.** Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında Müqavilə -27 mart 1996

**3.** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında Niyyət Memorandumu - 27 aprel 1995

**4.** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında elm, təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında Saziş- 2 iyul 1995

**5.** Azərbaycan Respublikası Xarici işlər nazirliyi və Rumıniya Xarici işlər nazirliyi arasında əməkdaşlıq haqqında Protokol - 2 iyul 1995

**6.** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq və elmi-texniki əməkdaşlıq haqqında Saziş - 2 iyul 1995

**7.** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında hava daşımaları haqqında Saziş - 27 mart 1996

**8.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Rumıniya Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində əməkdaşlıq haqqında 1996-2000-ci illər üçün Saziş - 27 mart 1996

**9.** Azərbaycan Respublikası Elm və Texnika Komitəsi və Rumıniya Tədqiqatlar və Texnologiya Nazirliyi arasında elmi texniki əməkdaşlıq haqqında Saziş - 27 mart 1996

**10.** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında bitkilərin mühafizəsi və fitosanitar karantini üzrə Konvensiya - 27 mart 1996

**11.** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş - 27 mart 1996

**12.** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş - 27 mart 1996

**13.** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət gəmiçiliyi haqqında Saziş - 27 mart 1996

**14.** Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş - 27 mart 1996

***

## Azərbaycan Respublikası-NATO:

1. "Sülh naminə tərəfdaşlıq proqramı - 4 may 1994



## Ədəbiyyat siyahısı:


*1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir.I kitab.Bakı, 1997,s.205*

*2. Yenə orada*

*3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996, s.5*

*4. Yenə orada, s.6*

*5. "United Nations Handbook", N.U. 1994; Права человека и судопроизводства. Собрание международных документов. Вена-Варшава, с.11-15*

*6. Qətiyyətin təntənəsi. Bakı, 1995, s.115, 121-122*

*7. Yenə orada, s.244.*

*8. Yenə orada, s.500-501, 506-507*

*9. Azərbaycan-Gürcüstan: dostluğumuzun təntənəsi. Bakı, 1996*

*10. Bax: Мортон А.Л. История Англии. Москва, 1950*

*11. Страны мира. Краткий политико-экономический справочник. Москва, 1996, с.86*

*12. Mahmudlu Y. Azərbaycan diplomatiyası. Bakı. 1996, s.183*

*13. Yenə orada, s.185*

*14. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997, s.47*

*15. "Xalq qəzeti", 12 mart 1992*

*16. "Xalq qəzeti", 13 mart 1992*

*17. "Həyat", 16 iyul 1992*

*18. "Xalq qəzeti", 8-9 və 30 sentyabr 1992*

*19. "Бакинский рабочий", 24 июня 1993*

*20. "Azərbaycan", 13 oktyabr 1993*

*21. "Azərbaycan", 14 oktyabr 1993*

*22. "Azərbaycan", 11 noyabr 1993*

*23. "Azərbaycan", 4 yanvar 1994*

*24. Əliyev H. Ə. Göstərilən əsəri, s.414*

25. Yenə orada
26. Yenə orada,
27. Yenə orada, s. 420- 435
28. Azərbaycan beynəlxalq aləmdə, I cild. Bakı, 1996, s.110.
29. Yenə orada, s. 130-131
30. Yenə orada
31. Əliyev H.Ə. Göstərilən əsəri, s.436
32. Yenə orada, s. 437-441
33. "Azərbaycan", 14 iyun, 29 iyul, 14 sentyabr 1994
34. Bax: Əsrin müqaviləsi. Bakı, 1996
35. "Azərbaycan", 9 noyabr 1994
36. Yenə orada
37. Шукуров И. Дипломатия мира. Баку, 1997, с.262-265
38. Yenə orada
39. "Azərbaycan", 16 may 1995
40. "Azərbaycan", 4 noyabr 1995
41. "Azərbaycan", 13 dekabr 1995
42. Yenə orada
43. Yenə orada, "Azərbaycan", 14 dekabr 1995
44. "Xalq qəzeti", 6 iyun 1996
45. "Xalq qəzeti", 27 mart 1996
46. "Xalq qəzeti", 6 iyun 1996
47. Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (aprel-iyun 1996-cı il), s. 113-115
48. "Xalq qəzeti", 1 oktyabr 1996
49. "Xalq qəzeti", 9 oktyabr 1996
50. "Xalq qəzeti", 1 may, 10 dekabr 1996
51. Azərbaycan Respublikasının Qanunları, №-1, iyun 1996-cı il, s.55-61.
52. Həsənov Ə.M. Azərbaycan və ATƏT. Bakı, 1997, s.46-70.
53. Страны мира, с.500
54. Bax: История Франции. В трех томах, т.1-2, Москва, 1971.
55. Bax: История Франции, т.3, Москва, 1973
56."Xalq qəzeti", 15 oktyabr 1996



57. Махмудов Я.М. Взаимоотношение государств Аккоюнлу и Сефевидов с европейскими странами (II половина XV-нач. XVII вв.). Баку, 1991.
58. Düma A. Qafqaz səfəri. Bakı, 1985
59. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı, 1996, s.49.
60. "Xalq qəzeti", 21 fevral 1992
61. "Xalq qəzeti", 27 mart 1992
62."Xalq qəzeti", 22 fevral 1992
63."Xalq qəzeti", 3 sentyabr 1992
64."Xalq qəzeti", 27 noyabr 1992
65."Azərbaycan", 13 may 1993
66. Yenə orada
67."Azərbaycan", 14 avqust 1993
68. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1994-cü illərdə xarici ölkələrə səfərlərinə dair materiallar), I c., s.14-25
69. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994, s.39
70. Yenə orada, s.38-39
71. Yenə orada
72. Azərbaycan beynəlxalq aləmdə, I c. s.15.
73. Yenə orada, s.19-25
74. Əliyev H. Ə. Göstərilən əsəri, s.293
75. "Azərbaycan", 14 iyul 1994
76. Həsənov Ə.M. Azərbaycan və ATƏT
77. "Azərbaycan", 8 iyun 1994
78. "Azərbaycan", 23 iyul 1994, 11 avqust 1994
79. "Azərbaycan", 7 fevral 1995
80. "Azərbaycan", 12 may 1995
81. "Azərbaycan", 19 dekabr 1995
82. "Xalq qəzeti", 13 yanvar 1996
83. "Xalq qəzeti", 5 iyun 1996
84. "Xalq qəzeti", 12 oktyabr 1996
85. Yenə orada
86. Azərbaycan-Fransa: əməkdaşlığın genişlənməsinə mühüm

töhfə. Bakı, 1997; Шукуров И. Дипломатия мира, с.377-390.
87. Страны мира, с.122
88. Azərbaycan Respublikası XİN-in cari arxivi. Mə'lumat-sorğu materialları, qovluq 2, s.1-3
89. Yenə orada, s.3-5
90. Mahmudlu Y. Göstərilən əsəri, s.92-116
91. Azərbaycan Respublikası XİN-in cari arxivi. Mə'lumat- sorğu materialları, qovluq 2, s.6
92. Qasımov M. Azərbaycanın xarici siyasəti, s.47.
93. Azərbaycan Respublikası XİN-in cari arxivi. Mə'lumat-sorğu materialları, qovluq 2, s.7.
94. Yenə orada
95. "Azərbaycan", 4 oktyabr 1993
96. "Azərbaycan", 18 dekabr 1993
97. Yenə orada
98. "Azərbaycan", 24 yanvar 1995
99. "Azərbaycan", 21 dekabr 1994
100. "Azərbaycan", 24 yanvar 1995
101. "Azərbaycan", 2 yanvar 1995
102. "Azərbaycan", 13 may 1995
103. "Azərbaycan", 12 may 1995
104. "Azərbaycan", 30 may 1995
105. Yenə orada
106. Yenə orada
107. "Azərbaycan", 13 iyun 1995
108. "Azərbaycan", 22 avqust 1995
109. "Azərbaycan", 23 avqust 1995
110. Yenə orada
111. "Azərbaycan", 23 dekabr 1995
112. Azərbaycan Respublikası XİN-in cari arxivi. Mə'lumat sorğu materialları, qovluq 2, s.15
113. Yenə orada
114. "Azərbaycan", 3 noyabr 1995
115. Azərbaycan Respublikası XİN-in cari arxivi. Mə'lumat sorğu materialları, qovluq 2, s.12



116. Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları, (aprel-iyun 1996-cı il), s.119-142
117. "Azərbaycan", 23 dekabr 1995
118. "Azərbaycan", 26 dekabr 1995
119. Azərbaycan Respublikası XİN-in cari arxivi. Mə'lumat sorğu materialları, qovluq 2, s.13
120. "Azərbaycan", 23 dekabr 1995
121. Azərbaycan Respublikası XİN-in cari arxivi. Mə'lumat sorğu materialları, qovluq 2, s.13
122. Yenə orada
123. "Xalq qəzeti", 7 fevral 1996
124. Yenə orada
125. Azərbaycan-Almaniya: respublikamız Avropa ölkələri ailəsində öz mövqeyini möhkəmləndirir, Bakı, 1996, s. 16
126. Yenə orada, s. 79
127. Yenə orada, s.65-67,77-78,87-90
128. Yenə orada, s.7-10
129. Yenə orada, s. 39
130. "Xalq qəzeti", 23 iyul 1996
131. "Xalq qəzeti", 13 sentyabr 1996
132. "Xalq qəzeti", 29 oktyabr 1996
133. "Xalq qəzeti", 15 noyabr 1996
134. Страны мира, с.53; Население мира, Москва, 1989, с.12
135. Население мира, с.438.
136. Bax: ASE, II c., Bakı, 1978 s.96-98; Страны мира, с.53-57
137. "Xalq qəzeti", 21-22 fevral 1992
138. "Xalq qəzeti", 22 fevral 1992
139. Azərbaycan beynəlxalq aləmdə, I c., s.165-187
140. Yenə orada, s.166
141. Yenə orada, s. 167
142. Yenə orada
143. Yenə orada, s. 167-168
144. Yenə orada, s. 179-187
145. "Azərbaycan", 7 may 1994
146. Azərbaycan beynəlxalq aləmdə, Ic., s.168

147. Yenə orada
148. Yenə orada, s. 178-179
149. Yenə orada
150. "Azərbaycan", 24 fevral 1995
151. Yenə orada
152. "Azərbaycan", 1 mart 1995
153. "Azərbaycan", 2 mart 1995
154. "Azərbaycan", 20 aprel 1995
155. Yenə orada
156. Yenə orada
157. "Azərbaycan ", 25 aprel 1995
158. Yenə orada
159. "Xalq qəzeti", 25 aprel, 2 may 1996
160. Bax: ASE, VII c. Bakı, 1983, s.289-290; Страны мира. Краткий политико-экономический справочник, c.357-359
161. Əsrin müqaviləsi, s.29
162."Azərbaycan", 23 noyabr 1994
163. Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (aprel-iyun 1996-cı il), s.165
164. "Azərbaycan", 24 noyabr 1994
165. "Azərbaycan", 13 may 1995
166. "Azərbaycan", 24 may 1995
167. "Xalq qəzeti", 26 aprel 1996
168. Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (aprel-iyun 1996-cı il), s.164-165
169. "Xalq qəzeti", 3 may 1996
170. "Xalq qəzeti", 4 may 1996
171. "Xalq qəzeti", 5 iyun 1996
172. "Xalq qəzeti", 26 sentyabr 1996
173. Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (oktyabr-dekabr 1996-cı il). Bakı, 1977, s.9
174. Страны мира. Краткий политико-экономический справочник, c. 60
175. Yenə orada, s.61
176. Yenə orada



177. Azərbaycan beynəlxalq aləmdə, II c. Bakı, 1997, s.163
178. "Azərbaycan", 17 sentyabr 1993
179. Шукуров И. Дипломатия мира, c.377-390.
180. "Azərbaycan", 14 mart 1995
181. "Azərbaycan", 12 may 1995
182. Azərbaycan beynəlxalq aləmdə, II c., s.142-143
183. "Azərbaycan", 4 iyul 1995
184. "Azərbaycan", 5 iyul 1995
185. Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (yanvar-mart 1996-cı il), Bakı, 1996, s.72; Azərbaycan Respublikasının qanunları, ' 1 (iyun 1996-cı il), s.64-84
186. "Azərbaycan", 4 iyul 1995
187. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, IU kitab, Bakı, 1997, s.49-53
188. "Azərbaycan", 4 iyul 1995
189. Əliyev H. Ə. Göstərilən əsəri, IU kitab, s. 159-161
190. "Azərbaycan", 4 noyabr 1995
191. "Xalq qəzeti", 29 oktyabr 1996
192. Население мира, c.12, 439; Страны мира, c.405
193. Bax: Страны мира, c.404-407
194. Azərbaycan beynəlxalq aləmdə, II c., s174-175
195. Шукуров И. Дипломатия мира, c. 196-198
196. "Azərbaycan", 14 mart 1995
197. "Azərbaycan", 28 aprel 1995
198. Yenə orada
199. Yenə orada
200. "Azərbaycan", 12 may 1995
201. Yenə orada
202. "Azərbaycan", 4 iyul 1995
203. Yenə orada
204. Azərbaycan beynəlxalq aləmdə, II c., s.150-151
205. Yenə orada, s.151-152
206. "Azərbaycan", 7 iyul 1995
207. Əliyev H.Ə. Göstərilən əsəri, IV kitab, s.75-77
208. "Xalq qəzeti", 28 mart 1996

209. Yenə orada
210. Yenə orada; Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (aprel-iyun 1996-cı il), s.87-102.
211. "Xalq qəzeti", 29 mart 1996
212. Yenə orada
213. Bax: Страны мира, с.438-439
214. Bax: История США, т.1, Москва, 1983, с.3-80
215. Yenə orada, s. 81-204
216. История дипломатии, т.1, Москва, 1959, с.403
217. Bax: История США, т.3, Москва, 1985
218. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlərdə. 1918-1920. Bakı, 1993; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı,1996. s.165-234
219. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.61
220. "Xalq qəzeti", 13 fevral 1992
221. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.61
222. "Xalq qəzeti", 15 aprel 1992
223. "Xalq qəzeti", 22 may 1992
224. "Həyat", 7 iyul 1992
225. Həsənov Ə. M. Azərbaycan və ATƏT, s.12
226. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.61
227. "Xalq qəzeti", 22 yanvar 1993.
228. Qayıdış, 1990-1993. Bakı,1996,s. 705-707
229. Yenə orada, s. 716-717
230. "Xalq qəzeti", 13 fevral və 6 aprel 1993
231. "Xalq qəzeti", 20 aprel 1993
232. "Xalq qəzeti", 5-7 may 1993
233."Azərbaycan", 15 may 1993, "Бакинский рабочий", 3 июня 1993
234. Əliyev H. Ə. Göstərilən əsəri, I kitab, s.125-126
235. "Azərbaycan", 14 sentyabr 1993



236. "Azərbaycan", 29 oktyabr 1993
237. "Azərbaycan", 14 iyun 1994
238. "Azərbaycan", 6 sentyabr 1994
239. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. s.152, 169-170; Azərbaycan beynəlxalq aləmdə. I c. s. 227-228
240. "Azərbaycan", 27 iyul 1997
241. "Azərbaycan", 28 iyun 1994; 16 avqust 1994
242. "Azərbaycan", 9, 13 dekabr 1994
243. Həsənov Ə.M. Azərbaycan və ATƏT, s. 28-30
244. "Azərbaycan", 5 may, 12-13 may 1995
245. "Azərbaycan", 21-22 oktyabr 1995; 2,4 noyabr 1995
246. "Azərbaycan", 20 aprel, 23 avqust, 10 oktyabr 1995
247. "Azərbaycan", 10 oktyabr 1995
248. "Azərbaycan", 25 may 1995
249. "Azərbaycan", 27 iyul 1997
250. "Xalq qəzeti", 13 yanvar 1996; 14 mart 1996
251. "Xalq qəzeti", 2 fevral 1996
252. "Xalq qəzeti", 14 iyun 1996
253. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri), s.62
254."Xalq qəzeti", 30 iyul 1996
255. "Xalq qəzeti", 30 oktyabr 1996
256. "Xalq qəzeti", 14 noyabr 1996
257. Həsənov Ə. M. Azərbaycan və ATƏT, s.74
258. "Xalq qəzeti", 26 fevral 1997
259. "Xalq qəzeti", 8 may 1997
260. "Xalq qəzeti", 11 may 1997
261. "Xalq qəzeti", 16 may 1997
262. "Xalq qəzeti", 31 may 1997
263. "Xalq qəzeti", 3 iyun 1997
264. "Azərbaycan", 17 avqust 1997
265. Əsrin müqaviləsi. Bakı, 1996
266. "Azərbaycan", 20 aprel 1995
267. "Azərbaycan", 12 yanvar 1995
268. "Azərbaycan", 1 sentyabr 1995

269. "Azərbaycan", 11 noyabr 1995
270. "Azərbaycan", 24 yanvar 1995
271. "Xalq qəzeti", 30 oktyabr 1996
272. "Xalq qəzeti", 14 dekabr 1996
273. "Xalq qəzeti", 17 dekabr 1996
274. "Azərbaycan", 27 iyul 1997
275. Yenə orada
276. Turan İnformasiya Agentliyinin bülleteni, 25 iyul 1997; "Azərbaycan", 27 iyul 1997
277. "Avrasiya", 25 iyul 1997
278. "Respublika", 27 iyul 1997
279. "Azərbaycan", 27 iyul 1997
280. "Xalq qəzeti", 29 iyul 1997
281. "Xalq qəzeti", 22 avqust 1997
282. "Xalq qəzeti", 23 avqust 1997
283. Yenə orada
284. "Respublika", 27 avqust 1997
285. "Azərbaycan", 27 avqust 1997
286. "Xalq qəzeti", 28 avqust 1997
287. "Xalq qəzeti", 13-15 avqust 1997
288. "Xalq qəzeti", 19-20 avqust 1997
289. "Xalq qəzeti", 12 avqust 1997
290. Yenə orada
291. Yenə orada
292. "Xalq qəzeti", 21 avqust 1997
293. "Xalq qəzeti", 29 avqust-2 sentyabr 1997
294. "Xalq qəzeti", 4-5 sentyabr 1997
295. "Бакинский рабочий", 2 августа 1997
296. "Xalq qəzeti", 15 avqust 1997
297. "Azərbaycan", 26 avqust 1997
298. "Xalq qəzeti", 29 avqust 1997
299. "Рабочая трибуна", 13 августа 1997
300. "Azərbaycan", 7 avqust 1997
301. "Panorama", 8 avqust 1997
302. "Известия", 31 июля 1997



303. "Правда", 8-14 августа 1997
304. "Правда", 16 августа 1997
305. "Российская газета", 6 августа 1997
306. "Московский комсомолец", 20 августа 1997
307. "Panorama", 8 avqust 1997; Bax: Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in Amerika resmi qezisi Türkiye matbuatında. İstanbul, 1997
308. "Xalq qəzeti", 14 avqust 1997
309. "Xalq qəzeti", 20 avqust 1997
310. "Azərbaycan", 26 avqust 1997
311. "Xalq qəzeti", 24 avqust 1997
312. Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Azərbaycan Respublikası gənclərinin birinci forumu (2 fevral 1996-cı il). Bakı, 1996, s.11-12
313. Qasımov M. Azərbaycanın xarici siyasəti, s.86
314. "Azərbaycan", 26 oktyabr 1993
315. "Azərbaycan", 12 noyabr 1993
316. "Azərbaycan", 3 dekabr 1993
317. "Azərbaycan", 7 sentyabr 1994
318. "Azərbaycan", 4 iyul 1994
319. Yenə orada
320. "Azərbaycan", 16 avqust 1994
321. "Azərbaycan", 24 avqust 1994
322. "Azərbaycan", 6 sentyabr 1994
323. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.119-121
324. "Azərbaycan", 1 noyabr 1994
325. "Azərbaycan", 6 dekabr 1994
326. Əliyev H.Ə. Göstərilən əsəri, II kitab, s.572
327. Шукуров И. Дипломатия мира, с.178, 190
328. Yenə orada, s.188-198
329. Yenə orada, s.197
330. "Azərbaycan", 13 dekabr 1994
331. Əliyev H.Ə. Göstərilən əsəri, II kitab, s.573-574
332. Yenə orada, s.575

333. Yenə orada, 575-576
334 . Azərbaycan beynəlxalq aləmdə, Ic., s.257
335. Yenə orada, s.257-261
336. Əliyev H.Ə. Göstərilən əsəri, II kitab, s.579
337. Шукуров И. Будапештский Саммит. Баку, 1995, c.26-27
338. Шукуров И. Дипломатия мира, c.199-200
339. "Xalq qəzeti", 4 dekabr 1996
340. Lissabon sammiti 1996. Bakı, 1997, s.14-15
341. Yenə orada, s.20-21
342. Yenə orada, s.24
343. Bax: Həsənov Ə.M. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997). Bakı, 1997, s.51-52
344. Lissabon sammiti 1996, s.32
345. Yenə orada, s.41
346. "Azərbaycan", 29 oktyabr 1996
347. Lissabon sammiti 1996, s.45-46
348. Yenə orada, s.111
349. Yenə orada, s.172
350. Yenə orada, s.120
351. "Xalq qəzeti", 11 noyabr 1996
352. "Xalq qəzeti", 4 dekabr 1996
353. Lissabon sammiti 1996, s.51
354. Yenə orada, s.63
355. Yenə orada, s.127
356. Yenə orada, s.178
357. Yenə orada, s.113
358. Yenə orada, s. 122
359. Yenə orada, s. 131
360. Yenə orada, s. 125
361. Yenə orada, s. 126
362. Yenə orada
363. Yenə orada, s.87-91
364. Yenə orada, s.88
365. Yenə orada, s.89



366. Yenə orada, s.190
367. "Xalq qəzeti", 27 dekabr 1996
368. Lissabon sammiti 1996, s.173
369. Yenə orada, s.99
370. Yenə orada, s. 174-175
371. Yenə orada, s. 126-127
372. Yenə orada, s.115
373. Yenə orada, s.91
374. Yenə orada, s. 114
375. Yenə orada, s.130
376. Yenə orada, s. 179, 183
377. Yenə orada, s. 147
378. Yenə orada, s. 199
379. "Xalq qəzeti", 27 dekabr 1996
380. Lissabon sammiti 1996, s.196
381. Yenə orada, s.203-204
382. Yenə orada, s. 205-209
383. "Panorama", 10 dekabr 1996
384. Lissabon sammiti 1996, s.176
385. Yenə orada, s. 297-300
386. ОБСЕ, Будапештский документ 1994-года На пути подленному партнерству в новую эпоху. Будапешт, 1994 с. 4-5
387. Lissabon sammiti 1996, s.129-130
388. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.29-30
389. Bax: Mustafayev R. Azərbaycan dövlətçiliyi. Bakı, 1995, s.153-154
390. Azərbaycan beynəlxalq aləmdə. I c., s.177
391. Yenə orada, s.174-175
392. "Sülh naminə tərəfdaşlıq". Brüssel, 1995, s.3 (ingilis dilində)
393. Mustafayev R. Göstərilən əsəri, s.158
394. Yenə orada, s.158-159
395. Günün diqtəsi, "Azadlıq", 11 fevral 1997
396. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.29

397. Yenə orada
398. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri) s.90
399. Azərbaycan beynəlxalq aləmdə. I c., s.168
400. Yenə orada, s.174
401. Yenə orada, s.175-176
402. Yenə orada, s.176
403. Yenə orada, s.178
404. Yenə orada, s.179
405. Yenə orada, s.172
406. Yenə orada, s.179
407. Yenə orada, s.182
408. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.31
409. "Azərbaycan", 8 iyun 1995
410. Azərbaycan beynəlxalq aləmdə. II c., s.521
411. Yenə orada, s.494-495; 513-516; 519-523; 527-528
412. "Xalq qəzeti", 12 fevral 1997
413. Yenə orada
414. "Azərbaycan", 14 fevral 1997
415. Yenə orada
416. "Azərbaycan", 15 fevral 1997
417. "Azərbaycan", 12 iyul 1997
418. "Azərbaycan", 22 avqust 1997
419. "Azərbaycan", 31 iyul 1997
420. "Azərbaycan", 10 dekabr 1997
421. "Azərbaycan", 16 iyul 1997
422. Bax: "Xalq qəzeti", 16-17 aprel 1997



## Kitabın içindəkilər

***Ön söz*** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
***I fəsil.*** Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri,prinsip və istiqamətləri . . . . . . . . . . . . . . 11
***II fəsil.*** Azərbaycanın xarici siyasətində Avropa dövlətləri
§ 1. Azərbaycan və Qərbi Avropa dövlətləri . . . . . . . . . 35
a) Böyük Britaniya ilə münasibətlər . . . . . . . . . . . . 35
b) Fransa ilə münasibətlər . . . . . . . . . . . . . . . . 59
v) Almaniya ilə münasibətlər . . . . . . . . . . . . . . . 75
q) Belçika ilə münasibətlər . . . . . . . . . . . . . . . . 95
d) Norveç ilə münasibətlər . . . . . . . . . . . . . . . . 106
§ 2. Azərbaycan və Şərqi Avropa dövlətləri . . . . . . . . . 115
a) Bolqarıstan ilə münasibətlər . . . . . . . . . . . . . 122
b) Rumıniya ilə münasibətlər . . . . . . . . . . . . . . . 130
***III fəsil.*** Azərbaycanın xarici siyasəti və Amerika Birləşmiş Ştatları . . . . . . . . . . . . . . . . . . . . . . . . . 139
***IV fəsil.*** Azərbaycanın Qərb dövlətləri ilə əlaqələrində beynəlxalq təşkilatların rolu . . . . . . . . . . . . . . . . . 197
§ 1. Azərbaycanın ümumavropa təhlükəsizlik sisteminə qoşulmasında ATƏT-in rolu . . . . . . . . . . . . . . . . . . 201
§ 2. Qərb dövlətləri ilə əməkdaşlığın inkişafında NATO-nun rolu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 260
***Nəticə*** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 287
***Əlavə*** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 295
***Kitabın içindəkilər*** . . . . . . . . . . . . . . . . . . . . 315



Azərbaycan Prezidenti Heydər Əliyev və Böyük Britaniyanın baş naziri Con Meycor



Azərbaycan Prezidenti Heydər Əliyev və Fransa Prezidenti Jak Şirak



Azərbaycan Prezidenti Heydər Əliyev və AFR Prezidenti Roman Hersoq



Azərbaycan Prezidenti Heydər Əliyev və Belçikanın baş naziri Jan Luk Dean



Azərbaycan Prezidenti Heydər Əliyev və Norveçin baş naziri Qru Harlem Brundtland



Azərbaycan Prezidenti Heydər Əliyev və Bolqarıstan Prezidenti Jelyu Jelev



Azərbaycan Prezidenti Heydər Əliyev və Rumıniya Prezidenti İon İliyesku



Azərbaycan Prezidenti Heydər Əliyev və ABŞ Prezidenti Bill Klinton



Azərbaycan Prezidenti Heydər Əliyev və ABŞ Prezidenti Bill Klinton



Azərbaycan Prezidenti Heydər Əliyev NATO - nun baş katibi Xavyer Solana



Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT - in Lissabon sammitində




Azərbaycan Prezidenti Heydər Əliyev NATO - nun baş qərargahında

# HƏSƏNOV ƏLİ MƏHƏMMƏDƏLİ OĞLU



*1960-cı ildə anadan olub. 1982-ci ildə hazırlıq şö'bəsindən ADU-nun (indiki BDU) tarix fakültəsinə daxil olub. 1985-ci ildə dərs ə'laçısı kimi M.V.Lomonosov adına MDU-nun tarix fakültəsinə göndərilib. 1988-ci ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirmiş və əyani aspiranturada saxlanılmışdır. 1992-ci ildə Moskva Dövlət Universitetində "SSRİ-də 1917-1940-cı illərdə milli münasibətlər" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.*

*1995-ci ilin sentyabr ayından Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-Siyasi şö'bəsində işləyir.*

*1988-ci ildən başlayaraq dövrü mətbuatda milli münasibətlər, dünya siyasəti və beynəlxalq məsələlər barədə yüzlərlə analitik məqalələrlə çıxış etmişdir. "Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda" (Bakı, 1997), "Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (1991-1997-ci illər)" (Bakı, 1997) adlı iki kitabın müəllifi, "Lissabon sammiti 96" (Bakı, 1997) kitabının tərtibçilərindən biridir.*

*"Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996-cı illər)", monoqrafiyası müəllifin çoxillik elmi axtarışlarının nəticəsi kimi oxuculara təqdim edilir.*

**Həsənov Əli Məhəmmədəli oğlu**
**Azərbaycanın xarici siyasəti:**
**Avropa dövlətləri və ABŞ**
**(1991-1996)**

Гасанов Али Магомедали оглы
Внещняя политика Азербайджана:
европейские государства и США
(1991-1996)

Fotolar Rafiq Bağırovundur

Kompüter yığımı: Vüqar Hüseynov
İlhamə Rəşidova

Ofset üsulu ilə. Formatı 60x90 1/16
Şərti çap vərəqi 20
Uçot nəşr vərəqi 19,5
Tirajı 2000
Müqavilə qiyməti ilə

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı, Bakı – 370005, Hüsü Hacıyev küç. 4
Kitab "Aypara" mətbəəsində hazır plyonkadan çap olunmuşdur.